# HEYDƏR ƏLİYEV

## MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

**ü ç ü n c ü  k i t a b**

***dekabr, 1994 – iyun, 1995***

*çıxışlar*
*nitqlər*
*bəyanatlar*
*məktublar*
*müsahibələr*

**AZƏRNƏŞR**
**BAKI-1997**

**BBK 66.3(5Aze)8**
**Ə – 65**

Buraxılışına məsul

**RAMİZ MEHDİYEV,**
**HİDAYƏT ORUCOV**

**ƏLİYEV HEYDƏR**
**Ə 65 Müstəqilliyimiz əbədidir.** B., Azərnəşr, 1997, 488 səh.

Kitaba Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin 1994-cü il dekabr ayının əvvəllərindən 1995-ci il iyunun əvvəllərinə qədərki dövrü əhatə edən çıxış və nitqləri, müraciət və bəyanatları, müsahibə və məktubları daxil edilmişdir. Materiallarda Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması və daha da möhkəmləndirilməsi, milli dövlət quruculuğu prosesi, uğurlu daxili və xarici siyasət xətti, eyni zamanda ölkə rəhbərinin Azərbaycan xalqının tərəqqisi və aydın sabahı naminə yorulmaz siyasi fəaliyyətinin, zəngin və mənalı həyatının tarixi məqamları əks olunmuşdur.

**BBK – 66.3(5Aze)8**

Ə $\frac{\textbf{0801000 000–18}}{\textbf{M – 651(07) – 97}}$

**© Azərnəşr, 1997**

## KİTABIN İÇİNDƏKİLƏR


**AZƏRBAYCAN DÖVLƏT TELERADİO VERİLİŞLƏRİ ŞİRKƏTİNİN VƏ BMT-nin BEYNƏLXALQ UŞAQ FONDU – YUNİSEF TƏŞKİLATININ BİRGƏ TƏŞKİL ETDİYİ "UŞAQLAR DÜNYANIN SEVİNCİDİR" XEYRİYYƏ TELEMARAFONU MÜNASİBƏTİLƏ TELEVİZİYA STUDİYASINDA UŞAQLARLA GÖRÜŞDƏ ÇIXIŞ**
*11 dekabr 1994-cü il*........................................................................................ **9**

**MƏRAKEŞƏ – İSLAM KONFRANSI TƏŞKİLATININ KASABLANKA ZİRVƏ TOPLANTISINA YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ**
*12 dekabr 1994-cü il*........................................................................................ **11**

**İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ KASABLANKA ZİRVƏ TOPLANTISINA GEDƏRKƏN İSTANBULUN ATATÜRK HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ**
*12 dekabr 1994-cü il*........................................................................................ **12**

**KASABLANKA ZİRVƏ TOPLANTISINDA GÖRÜŞLƏR**
*13 dekabr 1994-cü il*........................................................................................ **13**

**İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ KASABLANKA ZİRVƏ TOPLANTISINDA ÇIXIŞ**
*13 dekabr 1994-cü il*........................................................................................ **16**

**KASABLANKA ZİRVƏ TOPLANTISINDA ÇIXIŞDAN SONRAKI GÖRÜŞLƏR**
*14 dekabr 1994-cü il*........................................................................................ **18**

**İSLAM KONFRANSI TƏŞKİLATININ KASABLANKA ZİRVƏ TOPLANTISININ YEKUN İCLASINDA ASİYA DÖVLƏTLƏRİ ADINDAN TƏBRİK NİTQİ**
*15 dekabr 1994-cü il*........................................................................................ **20**

**KASABLANKA ZİRVƏ TOPLANTISI BAŞA ÇATDIQDAN SONRA MƏTBUAT ÜÇÜN BƏYANAT**
*15 dekabr 1994-cü il*........................................................................................ **21**

**KASABLANKADAN VƏTƏNƏ QAYIDARKƏN İSTANBULUN ATATÜRK HAVA LİMANINDA MƏTBUAT ÜÇÜN BƏYANAT**
*16 dekabr 1994-cü il*........................................................................................ **22**

**KASABLANKA ZİRVƏ TOPLANTISINDAN BAKIYA QAYIDARKƏN TƏYYARƏDƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB**
*16 dekabr 1994-cü il*........................................................................................ **23**

**BÖYÜK AZƏRBAYCAN RƏSSAMI SƏTTAR BƏHLULZADƏNİN ANADAN OLMASININ 85 İLLİYİNƏ HƏSR OLUNMUŞ SƏRGİNİN AÇILIŞINDA ÇIXIŞ**
*17 dekabr 1994-cü il*........................................................................................ **27**

**BÖYÜK AZƏRBAYCAN RƏSSAMI SƏTTAR BƏHLULZADƏNİN ANADAN OLMASININ 85 İLLİYİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ ÇIXIŞ**
*17 dekabr 1994-cü il*........................................................................................ **29**

**AQRAR BÖLMƏDƏ İQTİSADİ İSLAHATLARA HƏSR OLUNMUŞ GENİŞ**

MÜŞAVİRƏDƏ GİRİŞ
*23 dekabr 1994-cü il*.......... 32
YEKUN SÖZÜ
*23 dekabr 1994-cü il*.......... 34

BÖYÜK AZƏRBAYCAN YAZIÇISI CƏLİL MƏMMƏDQULUZADƏNİN EV-MUZEYİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ
*28 dekabr 1994-cü il*.......... 42

BÖYÜK AZƏRBAYCAN YAZIÇISI CƏLİL MƏMMƏDQULUZADƏNİN ANADAN OLMASININ 125 İLLİYİNƏ HƏSR EDİLMİŞ YUBİLEY GECƏSİNDƏ NİTQ
*28 dekabr 1994-cü il*.......... 44

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ FERNANDO ENRIKE KARDOZO CƏNABLARINA
*29 dekabr 1994-cü il*.......... 48

BAKIDAKI XARİCİ ÖLKƏ SƏFİRLİKLƏRİNİN BAŞÇILARI, BEYNƏLXALQ VƏ HUMANİTAR TƏŞKİLATLARIN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ YENİ İL TƏBRİKİ
*30 dekabr 1994-cü il*.......... 49

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİKİ
*30 dekabr 1994-cü il*.......... 50

"REKLAMNI VESTNİK"İN MÜXBİRİNƏ MÜSAHİBƏ
*31 dekabr 1994-cü il*.......... 51

AZƏRBAYCAN XALQINA YENİ İL TƏBRİKİ
*31 dekabr 1994-cü il*.......... 53

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ XARİCİ İŞLƏR VƏ BİRLİK İŞLƏRİ ÜZRƏ DÖVLƏT KATİBİ MALKOLM RİFKİNDİN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ NİTQ
*4 yanvar 1995-ci il*.......... 57

MİLAD BAYRAMI MÜNASİBƏTİLƏ BAKIDAKI KAMERA MUSİQİSİ SALONUNDA KEÇİRİLƏN MƏRASİMDƏ RESPUBLİKANIN PRAVOSLAV XRİSTİANLARINA MÜRACİƏT
*7 yanvar 1995-ci il*.......... 59

DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN 1994-cü İLDƏKİ FƏALİYYƏTİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ
*9 yanvar 1995-ci il*.......... 61
YEKUN SÖZÜ
*9 yanvar 1995-ci il*.......... 61

RESPUBLİKA PROTEZ-ORTOPEDİK BƏRPA MƏRKƏZİNİN KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*17 yanvar 1995-ci il*.......... 65

"QANLI YANVAR" RƏSSAMLIQ SƏRGİSİNİN AÇILIŞINDA ÇIXIŞ
*18 yanvar 1995-ci il*.......... 67

QANLI YANVAR FACİƏSİNİN 5-ci İLDÖNÜMÜ İLƏ BAĞLI ŞƏHİDLƏR XİYABANINDA JURNALİSTLƏRİN SUALINA CAVAB
*20 yanvar 1995-ci il*.......... 73

**20 YANVAR FACİƏSİNİN 5-ci İLDÖNÜMÜ İLƏ BAĞLI ÇIXIŞ**
*20 yanvar 1995-ci il*........................................................................................... **74**

**NEFT MÜQAVİLƏSİNİ HƏYATA KEÇİRƏN RƏHBƏR KOMİTƏNİN İLK İCLASININ AÇILIŞINDA ÇIXIŞ**
*24 yanvar 1995-ci il*........................................................................................... **76**

**İSVEÇRƏDƏ YAŞAYAN SOYDAŞLARIMIZLA GÖRÜŞDƏ ÇIXIŞ**
*29 yanvar 1995-ci il*........................................................................................... **78**

**DAVOS (İSVEÇRƏ) İQTİSADİ FORUMUNDA DÜNYANIN ENERGETİKA PROBLEMLƏRİNƏ HƏSR OLUNMUŞ SESSİYADA ÇIXIŞ**
*30 yanvar 1995-ci il*........................................................................................... **82**

**GÖRKƏMLİ AZƏRBAYCAN BƏSTƏKARI ARİF MƏLİKOVUN MÜƏLLİF GECƏSİNDƏ ÇIXIŞ**
*5 fevral 1995-ci il*........................................................................................... **84**

**RESPUBLİKANIN XALQ ARTİSTİ POLAD BÜLBÜLOĞLUNA**
*5 fevral 1995-ci il*........................................................................................... **87**

**"AZƏRNEFTYAĞ" İSTEHSALAT BİRLİYİNDƏ ELOU-AVT-2 QURĞUSUNUN AÇILIŞINA HƏSR OLUNMUŞ MİTİNQDƏ ÇIXIŞ**
*7 fevral 1995-ci il*........................................................................................... **88**

**İRAN İSLAM İNQİLABININ 16-cı İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ İRAN İSLAM RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRLİNİN TƏŞKİL ETDİYİ MƏRASİMDƏ ÇIXIŞ**
*10 fevral 1995-ci il*........................................................................................... **93**

**TƏHSİL İŞÇİLƏRİNİN BİR QRUPU İLƏ GÖRÜŞDƏ GİRİŞ**
*12 fevral 1995-ci il*........................................................................................... **94**
**YEKUN SÖZÜ**
*12 fevral 1995-ci il*........................................................................................... **94**

**RESPUBLİKADA YAŞAYAN LƏZGİ İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ**
*20 fevral 1995-ci il*........................................................................................... **101**
**YEKUN SÖZÜ**
*20 fevral 1995-ci il*........................................................................................... **103**

**AKADEMİK İMAM MUSTAFAYEVƏ**
*23 fevral 1995-ci il*........................................................................................... **109**

**ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ LENNART MERİ CƏNABLARINA**
*24 fevral 1995-ci il*........................................................................................... **110**

**KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX CABİR ƏL-ƏHMƏD ƏS-SABAHA**
*24 fevral 1995-ci il*........................................................................................... **111**

**XOCALI SOYQIRIMININ ÜÇÜNCÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN XALQINA MÜRACİƏTİ**
*25 fevral 1995-ci il*........................................................................................... **112**

**XOCALI SOYQIRIMININ ÜÇÜNCÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR KEÇİRİLƏN MƏRASİMDƏ ÇIXIŞ**
*26 fevral 1995-ci il*........................................................................................... **113**

AZƏRBAYCAN XALQININ MİLLİ MATƏM GÜNÜ – XOCALI SOYQIRIMININ ÜÇÜNCÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR MATƏM MƏRASİMİNDƏ ÇIXIŞ
*26 fevral 1995-ci il*............................................................................................ 115

YAZIÇI GƏRAY FƏZLİYƏ
*2 mart 1995-ci il*............................................................................................ 116

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*2 mart 1995-ci il*............................................................................................ 117

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ ÇIXIŞ
*3 mart 1995-ci il*............................................................................................ 118

AZƏRBAYCAN MİLLİ YIĞMA KOMANDALARININ 26-cı YAY OLİMPİYA OYUNLARINA (ATLANTA ŞƏHƏRİ, 1996) HAZIRLIĞINI NÜMAYİŞ ETDİRMƏK MƏQSƏDİLƏ KEÇİRİLMİŞ İDMAN BAXIŞINDA ÇIXIŞ
*5 mart 1995-ci il*............................................................................................ 120

RESPUBLİKADA ÖZƏLLƏŞDİRMƏNİN HƏYATA KEÇİRİLMƏSİ MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ
*7 mart 1995-ci il*............................................................................................ 122

BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ BAYRAM MƏRASİMİNDƏ TƏBRİK NİTQ
*8 mart 1995-ci il*............................................................................................ 128

AZƏRBAYCAN RESPUBLİKASININ TEATR XADİMLƏRİNƏ
*8 mart 1995-ci il*............................................................................................ 130

KOPENHAGENDƏ SOSİAL TƏRƏQQİ NAMİNƏ YÜKSƏK SƏVİYYƏDƏ ÜMUMDÜNYA GÖRÜŞÜNDƏ ÇIXIŞ
*12 mart 1995-ci il*............................................................................................ 131

MİLLİ TELEVİZİYA VƏ RADİO İLƏ XALQA MÜRACİƏT
*15 mart 1995-ci il*............................................................................................ 133

AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN QORUNUB SAXLANMASI MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ
*17 mart 1995-ci il*............................................................................................ 144

RESPUBLİKADA DÖVLƏT ÇEVRİLİŞİ CƏHDİ VƏ ONUN QARŞISININ ALINMASI İLƏ BAĞLI KEÇİRİLƏN MÜŞAVİRƏDƏ GİRİŞ
*19 mart 1995-ci il*............................................................................................ 153
YEKUN SÖZÜ
*19 mart 1995-ci il*............................................................................................ 153

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*20 mart 1995-ci il*............................................................................................ 155

ÜMUMDÜNYA SAĞLAMLIQ GÜNÜ MÜNASİBƏTİLƏ BAKIDAKI 5 SAYLI KLİNİKİ DOĞUM EVİNİN İŞÇİLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*7 aprel 1995-ci il*............................................................................................ 156

FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏNİN 50 İLLİYİNƏ HAZIRLIQLA ƏLAQƏDAR MÜHARİBƏ, ƏMƏK VƏ SİLAHLI QÜVVƏLƏRİN VETERANLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*7 aprel 1995-ci il*............................................................................................ 158

BEYNƏLXALQ MÜSABİQƏLƏR LAUREATLARI VƏ DİPLOMANTLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*8 aprel 1995-ci il*............................................................................................. 164

AZƏRBAYCAN VƏ TÜRKİYƏ RESPUBLİKALARI ARASINDA NEFT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZİŞİN YÜKSƏK SƏVİYYƏDƏ İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞ
*12 aprel 1995-ci il*............................................................................................. 168

TÜRKİYƏNİN İŞ ADAMLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*12 aprel 1995-ci il*............................................................................................. 170

RESPUBLİKADA AQRAR İSLAHATLARIN GEDİŞİ VƏ KƏND TƏSƏRRÜFATINDA VƏZİYYƏTƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ
*14 aprel 1995-ci il*............................................................................................. 172
YEKUN SÖZÜ
*14 aprel 1995-ci il*............................................................................................. 172

XALQ ŞAİRİ MƏMMƏD ARAZIN "AZƏRBAYCAN – DÜNYAM MƏNİM" YARADICILIQ GECƏSİNDƏN SONRA ZİYALILARLA GÖRÜŞDƏ ÇIXIŞ
*16 aprel 1995-ci il*............................................................................................. 183

AVROPA BİRLİYİ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞMƏK ÜÇÜN BELÇİKAYA YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*17 aprel 1995-ci il*............................................................................................. 187

SOYDAŞLARIMIZLA GÖRÜŞDƏ ÇIXIŞ
*17 aprel 1995-ci il*............................................................................................. 188

"AZƏRBAYCAN QADINI" JURNALININ BAŞ REDAKTORU XALİDƏ XANIM HASİLOVAYA
*18 aprel 1995-ci il*............................................................................................. 194

AZƏRBAYCANIN BEYNƏLXALQ NEFT KONSORSİUMUNDAKI PAYININ BIR HİSSƏSİNİ ABŞ-ın "EKSSON" NEFT ŞİRKƏTİNƏ VERMƏSİ HAQQINDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏ GİRİŞ SÖZÜ
*19 aprel 1995-ci il*............................................................................................. 195

PASXA BAYRAMI MÜNASİBƏTİLƏ RESPUBLİKA PRAVOSLAV XRİSTİANLARINA TƏBRİK
*24 aprel 1995-ci il*............................................................................................. 197

GÖRKƏMLİ TÜRK ALİMİ İHSAN DOĞRAMACININ 80 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ GECƏDƏ ÇIXIŞ
*25 aprel 1995-ci il*............................................................................................. 198

YƏHUDİ XALQININ MÜSİBƏTİ GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCANIN YƏHUDİ İCMASINA MÜRACİƏT
*26 aprel 1995-ci il*............................................................................................. 199

ƏMƏKDAR MÜƏLLİM SONA TAĞIYEVAYA
*28 aprel 1995-ci il*............................................................................................. 200

RESPUBLİKA NAZİRLƏR KABİNETİNİN GENİŞ İCLASINDA ÇIXIŞ
*3 may 1995-ci il*............................................................................................. 201

ABŞ-ın BAKIDAKI SƏFİRLİYİ BİNASININ AÇILIŞINDA ÇIXIŞ
*4 may 1995-ci il*............................................................................................. 211

**1941-1945-ci İLLƏR BÖYÜK VƏTƏN MÜHARİBƏSİNDƏ FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏNİN 50 İLLİYİNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ GECƏDƏ NİTQ**
***5 may 1995-ci il*...................................................................................................... 213**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN BƏYANATI**
***12 may 1995-ci il*...................................................................................................... 216**

**AZƏRBAYCANIN ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ, YAZIÇI MAQSUD İBRAHİMBƏYOVA**
***14 may 1995-ci il*...................................................................................................... 217**

**GÖRKƏMLİ AZƏRBAYCAN YAZIÇISI VƏ KİNODRAMATURQU MAQSUD İBRAHİMBƏYOVUN 60 İLLİK YUBİLEYİ GECƏSİNDƏ ÇIXIŞ**
***14 may 1995-ci il*...................................................................................................... 218**

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ JAK ŞİRAK CƏNABLARINA**
***15 may 1995-ci il*...................................................................................................... 221**

**ZƏVVARLARIN HƏCC ZİYARƏTİNDƏN QAYITMASI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ NİTQ**
***20 may 1995-ci il*...................................................................................................... 222**

**İKİNCİ BEYNƏLXALQ "XƏZƏRNEFTQAZ - 95" SƏRGİ-KONFRANSININ AÇILIŞINDA ÇIXIŞ**
***23 may 1995-ci il*...................................................................................................... 227**

**RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ**
***27 may 1995-ci il*...................................................................................................... 230**

**RESPUBLİKA MİLLİ QVARDİYASININ QƏRARGAHINDA AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANI ƏFQAN HÜSEYNOVUN BÜSTÜNÜN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ**
***28 may 1995-ci il*...................................................................................................... 236**

**"VƏTƏNƏ, DÖVLƏTƏ, XALQA SƏDAQƏT ANDI" MİNİATÜR KİTABININ TƏQDİMAT-SƏRGİSİNDƏ ÇIXIŞ**
***3 iyun 1995-ci il*...................................................................................................... 239**

**AŞURA GÜNÜ İLƏ ƏLAQƏDAR KEÇİRİLƏN MƏRASİMDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞ**
***9 iyun 1995-ci il*...................................................................................................... 241**

## AZƏRBAYCAN DÖVLƏT TELERADİO VERİLİŞLƏRİ ŞİRKƏTİNİN VƏ BMT-nin BEYNƏLXALQ UŞAQ FONDU – YUNİSEF TƏŞKİLATININ BİRGƏ TƏŞKİL ETDİYİ "UŞAQLAR DÜNYANIN SEVİNCİDİR" XEYRİYYƏ TELEMARAFONU MÜNASİBƏTİLƏ TELEVİZİYA STUDİYASINDA UŞAQLARLA GÖRÜŞDƏ ÇIXIŞ

*11 dekabr 1994-cü il*

Əziz uşaqlar, əziz balalarımız!

Mən sizi – Azərbaycan Respublikasının bütün uşaqlarını bu ilin münasibətilə, Birləşmiş Millətlər Təşkilatı YUNİSEF fondunun təşəbbüsü ilə bu xeyriyyə telemarafonunun keçirilməsi münasibətilə ürəkdən təbrik edirəm və hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram.

Siz – Azərbaycanın övladları, bizim əziz balalarımız, Azərbaycanın gələcəyisiniz. Sizin bugünkü həyatınız, yaşayışınız, təhsiliniz, böyüməyiniz Azərbaycan dövlətinin daim qayğısı altındadır. Mən bu gün bildirmək istəyirəm ki, Azərbaycan Respublikasında uşaqlar respublikamızın son illərdə düşdüyü ağır, bəlalı, əzab-əziyyətli günlər içində yaşayaraq, eyni zamanda öz valideynlərinin, onlara qayğı göstərən insanların, təşkilatların, xeyriyyə cəmiyyətlərinin köməyi ilə dərs keçirlər, tərbiyə alırlar, böyüyürlər və inkişaf edirlər. Mən əminəm ki, bu ağır, çətin dövrdə dünyaya gəlib böyüyən uşaqlar cəsarətli, mətin, vətənpərvər olacaqlar. Azərbaycanın xoşbəxt gələcəyi naminə həm təhsil alıb böyüyəcəklər, həm də gələcəkdə cəmiyyətdə öz yerlərini tutacaqlar. Azərbaycanın gəncləri, uşaqları ölkəmizin, xalqımızın milli sərvətidir, gələcəyidir və ümididir. Ona görə də uşaqlara qayğı göstərmək hər bir vətəndaşın borcudur.

Azərbaycan dövlətinin uşaqlar haqqında siyasəti məhz bundan ibarətdir. Dövlətin qayğısı ilə hər bir vətəndaşın, hər bir təşkilatın qayğısı, hər bir cəmiyyətin qayğısı, xeyriyyəçilik edən [5-6] hər bir adamın qayğısı birləşməlidir, qovuşmalıdır. Biz uşaqlarımızı yaxşı tərbiyə etməliyik, yaxşı şəraitdə yaşatmalıyıq. Uşaqlarımıza təhsil verməliyik. Onları gələcək üçün hazırlamalıyıq.

Biz xoşbəxtik, ona görə ki, Azərbaycan xalqının əsrlər boyu böyük insanları, istedadlı adamları olubdur. Bu gün bu insanlar, istedadlı adamlar Azərbaycan xalqının müstəqilliyi uğrunda mübarizə aparanlardır, respublikamızın müstəqilliyini təmin edən adamlardır. Azərbaycanın böyük tarixi keçmişi olduğu kimi böyük də gələcəyi vardır. Azərbaycanın keçmişində və son illərində nə qədər əzab-əziyyətli mərhələlər, dövrlər olubsa, gələcəyində də o qədər xoşbəxt günlər olacaqdır.

Əziz balalar, sizi xoşbəxt günlər gözləyir. Ona görə də bu günlərin əzab-əziyyətini dözümlə keçib getməlisiniz. Çünki siz gələcəkdə xoşbəxt yaşayacaqsınız. Mən buna tam əminəm. Ona görə əminəm ki, Azərbaycan müstəqil dövlət kimi öz addımlarını inamla atır. İndi ölkəmiz müharibə şəraitindədir, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində aşır vəziyyətə düşübdür. Respublikamızın ərazisinin bir qismi işğal olunubdur. İşğal olunmuş torpaqlardan bir milyondan artıq vətəndaşımız qaçqın düşüb, ağır şəraitdə yaşayır. Bu müharibədə biz şəhidlər vermişik. Şəhidlərimizin arasında uşaqlar da var, körpə balalarımız da var. Bunların hamısı həyatımızın faciəsidir, erməni işğalçılarının, düşmənlərin Azərbaycan xalqına qarşı amansız və çox yırtıcı hərəkətlərinin nəticəsidir. Odur ki, bu illərdə bizim uşaqlarımız da, körpələrimiz də həlak olubdur. Qaçqın ailələrinin, o cümlədən uşaqların həyatı ağır və çətindir. Bütün bunlar hamısı Azərbaycanın son illərdəki həyatının reallığıdır, gerçəkliyidir. Ancaq belə bir şəraitdə də bizim uşaqlar böyük nikbinliklə yaşayırlar, təhsil alırlar, mahnı oxuyurlar, rəqs edirlər, şənlənirlər və gələcəyə ümidlə baxırlar. Əziz balalarım, mən bu gün sizə demək istəyirəm ki, bu ümidiniz əsaslıdır. Çünki, bir də deyirəm, Azərbaycanın bu günü nə qədər çətin və ağırdırsa, gələcəyi bir o qədər işıqlı, o qədər də xoşbəxt və gözəldir. Sizi gələcəkdə gözəl həyat gözləyir. Bu gözəl həyatı yaratmaq sizə nəsib olacaq, bunları siz etməlisiniz. Siz oxuyub, təhsil alıb özünüzü cəmiyyətdə işləmək, xalqa xidmət etmək üçün hazırlamalı, düşünməlisiniz ki, Azərbaycanın müstəqilliyini gələcəkdə siz irəli aparacaqsınız, Azərbaycanın gələcəyini siz təmin edəcəksiniz. Sizin hamınızı qucaqlayıram, öpürəm, bütün Azərbaycan uşaqlarını [6-7] bağrıma basıram, öpürəm və hamınıza xoşbəxt həyat, şən günlər, sağlamlığı arzulayıram. Əminəm ki, gələcəyiniz xoşbəxt olacaqdır. Sizi bir daha təbrik edirəm.

Hamını, bütün Azərbaycan vətəndaşlarını uşaqlara, bizim körpələrə, balalarımıza, gənclərimizə kömək etməyə, yardım göstərməyə dəvət edirəm. Xüsusən qaçqın ailələrinə müraciət edirəm. Mən bilirəm ki, qaçqın ailələrində çoxlu uşaq var. Onların valideynlərinə müraciət edirəm. Sizin üçün nə qədər çətin olsa da, uşaqlarımıza yaxşı baxın, onlara qayğı göstərin. Uşaqlar bizim gələcəyimizdir.

Mən şəhid ailələrinə müraciət edirəm. Sizin dərdiniz, qəminiz bütün Azərbaycanın dərdidir. Şəhidlərin balaları bizim doğma balalarımızdır. Dövlət həm şəhid ailələrinə, həm də şəhidlərin balalarına daim qayğı göstərib və qayğı göstərəcəkdir. Buna əmin ola bilərsiniz. Biz şəhid ailələrini, şəhid balalarım heç vaxt yalqız qoymayacağıq. Buna tam arxayın ola bilərsiniz. Mən Azərbaycan Respublikasının bütün idarələrinə, təşkilatlarına, nazirliklərinə, birliklərə, konsernlərə müraciət edirəm. Uşaqların yaşaması üçün, inkişaf etməsi üçün bu telemarafon vasitəsilə yaranmış fonda hərə öz payını verməlidir. Bütün bu xeyriyyə işləri, şübhəsiz ki, heç vaxt unudulmayacaqdır. Mən əminəm ki, hər bir imkanlı adam, hər bir xeyirxah insan, hər bir imkanlı iş adamı bu nəcib işdən kənarda qalmayacaq, buna münasibətini göstərəcəkdir. Hamımızın qayğısı, bu telemarafonun məqsədi də yalnız və yalnız uşaqlara, xüsusən şəhid uşaqlarına, xəstə uşaqlara, müharibə nəticəsində yaralanmış, əlil olmuş. uşaqlara, qaçqın uşaqlarına, ağır vəziyyətdə yaşayan ailələrin uşaqlarına yardım etməkdir. Bu, bizim ümummilli, ümumxalq borcumuzdur.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, hər bir vətənpərvər vətəndaş, elini, obasını, vətənini, torpağım sevən hər bir insan bu çağırışa qoşulacaq bizim bu xeyirxah işə öz münasibətini göstərəcək, uşaqlarımızın bu gününə və gələcəyinə, onların yaşamasına, inkişaf etməsinə, müalicə olunmasına və firavan həyat sürməsinə kömək edəcəkdir. Buna tam əminəm və güman edirəm ki, mənim bu səsimə Azərbaycanda çoxları səs verəcək və uşaqların hamısını bərabər qucaqlayacağıq. Onlara birlikdə qayğı göstərəcəyik. Onların yaşamasına, xoşbəxt həyatına öz münasibətimizi birlikdə göstərəcəyik.

Bu tədbir münasibətilə hamını bir daha təbrik edirəm. BMT-nin YUNİSEF təşkilatının bu təşəbbüsünü bəyənirəm [7-8] və ona minnətdarlığımı bildirirəm. YUNİSEF-ə müraciət edərək demək istəyirəm ki, bu təşkilat gərək Azərbaycan Respublikasının ağır şəraitdə yaşamasını, uşaqların çətin vəziyyətdə olmasını bütün dünyaya çatdırsın, bildirsin. Dünya bilməlidir ki, Azərbaycan xalqı indi ağır, əziyyətli vəziyyətdə yaşayır, ancaq öz milli mənliyini qoruyur və qoruyacaq, öz torpaqlarının və öz taleyinin sahibidir və sahibi olacaqdır. Müstəqil Azərbaycan öz ərazi bütövlüyünü təmin edəcək, dünya birliyində öz yerini tutacaqdır. Müstəqil Azərbaycan gələcəyə ümidlə gedəcəkdir. Bizim ümidimiz, gələcəyimiz bizim uşaqlarımızdır, balalarımızdır. Sizi bir daha təbrik edirəm.

Əziz balalarım, sizə öz sevgimi, məhəbbətimi bildirirəm. Sizi bağrıma basıram, öpürəm. Sağ olun, xoşbəxt olun. Bütün Azərbaycan uşaqlarını təbrik edirəm. [8]

## MƏRAKEŞƏ – İSLAM KONFRANSI TƏŞKİLATININ KASABLANKA ZİRVƏ TOPLANTISINA YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*12 dekabr 1994-cü il*

Şübhəsiz ki, hər bir Zirvə toplantısı böyük əhəmiyyətə malikdir. Əlbəttə, ATƏM-in Budapeşt Zirvə toplantısının başqa bir istiqaməti, başqa bir məqsədi vardı. Mən oradakı çıxışlarımda da qeyd etdim, sonra müsahibələrimdə də dedim ki, təkcə Avropada yox, ümumiyyətlə, bütün dünyada sülhün, əmin-amanlığın, təhlükəsizliyin möhkəmlənməsi üçün ATƏM böyük bir təşkilatdır. Ona görə də Budapeşt Zirvə toplantısının ümumdünya əhəmiyyəti var. ATƏM-in bu Zirvə toplantısı xüsusən Azərbaycan üçün çox əhəmiyyətli oldu. Orada respublikamızın vəziyyəti ilə əlaqədar, Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar qətnamə qəbul edildi və mən əminəm ki, bu qətnamə yaxın vaxtlarda ardıcıl surətdə həyata keçiriləcəkdir.

İndi isə Mərakeşdə İslam Konfransı Təşkilatının Zirvə toplantısı olacaqdır. Bu toplantı da çox böyük əhəmiyyət kəsb edir. Çünki İslam Konfransı Təşkilatının 25 illiyi qeyd ediləcəkdir. Şübhəsiz ki, bu təşkilat yaradılarkən onun üzvləri indiki qədər olmayıbdır. Ancaq bu təşəbbüs İslam ölkələrinin, İslam dünyasının həmrəyliyini və dünyada gedən proseslərin inkişafını təmin etmək üçün çox mühüm bir addım idi. 25 il müddətində İslam Konfransı Təşkilatı böyük bir yol keçibdir, şübhəsiz ki, onun böyük xidmətləri olubdur. O, dünyada sülhün, əmin-amanlığın və təhlükəsizliyin təmin edilməsi üçün öz töhfələrini verib, öz səylərini göstərib. Bu təşkilata da bizim çox böyük hörmətimiz var.

Mən Mərakeş məliki II Həsən cənablarının dəvətini çox böyük məmnuniyyət. hissi ilə qəbul edərək bu Zirvə toplantısına gedirəm. İslam ölkələri dünyanın böyük bir hissəsini Təşkil edirlər. Onların bir milyard nəfərdən artıq əhalisi var. İslam Konfransı Təşkilatı bu ölkələrin ümumi potensialın[9-10]dan istifadə edərək həm ümumbəşəri proseslərdə iştirak edir, həm də İslam ölkələrinə məxsus spesifik problemlərin həll olunmasına çalışır. Mən şəxsən hesab edirəm ki, hər bir belə regional təşkilat əhəmiyyətlidir və bu kimi təşkilatların hamısı öz səylərini nəhayət, birləşdirə bilsələr, dünyada sülh daimi olar, əmin-amanlıq, təhlükəsizlik təmin edilə bilər. Ona görə də mən bu Zirvə toplantısına həvəslə gedirəm və şübhəsiz ki, bu toplantıdan çox şey gözləyirəm. Bir də ona görə ki, İslam Konfransı Təşkilatı öz əvvəlki toplantısında da qətnamə qəbul edərək Ermənistanın Azərbaycana təcavüzünü pisləyib, bu barədə beynəlxalq təşkilatlara müraciətlər edibdir. Biz .indi də belə bir qətnamənin qəbul olunmasını gözləyirik.

Bildiyiniz kimi, İslam Konfransı Təşkilatına 52 dövlət daxildir. Bu dövlətlərin başçıları ilə müstəqil Azərbaycanın bilavasitə əlaqələr yaratması baxımından qarşıdakı konfrans əlverişli fürsətdir. Bizim belə əlaqələrə ehtiyacımız var. Çünki Azərbaycanı bütün dünyada tanıtmaq üçün və Azərbaycanın indiki vəziyyətini bütün dünyaya aşkar etmək üçün hələ çox işlər görmək lazımdır. Daxilimizdə bəziləri belə hesab edirlər ki, həyatımızı, Ermənistanın Azərbaycana təcavüzü məsələsini çoxları elə bizim kimi bilir. Amma əslində belə deyildir. Mənə məlumdur və mən bir çox ölkələrdə olarkən siz də müşahidə etmisiniz ki, respublikamızın başına gələn bəlaları çox yerlərdə ya bilmirlər, ya da onun nə qədər dərin, ümumdünya təhlükəsizliyi üçün, xüsusən Azərbaycanın bu günü və gələcəyi üçün təhlükəli olduğunu dərk edə bilmirlər. Ona görə də qarşıdakı toplantıda biz bu məsələləri açıqlayacağıq və eyni zamanda İslam ölkələrinin başçıları ilə ikitərəfli görüşlərdə də mən bu barədə geniş söhbətlər aparacağam. Bu ikitərəfli görüşlərin Azərbaycan Respublikasının həmin ölkələrlə iqtisadi əlaqələrinin də yaranması və inkişaf etməsi üçün əhəmiyyəti var. Məhz bunlara görə mən bu səfəri çox mühüm bir səfər hesab edirəm. Görək, səfərimiz nə kimi nəticələr verəcəkdir. [10]

## İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ KASABLANKA ZİRVƏ TOPLANTISINA GEDƏRKƏN İSTANBULUN ATATÜRK HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*12 dekabr 1994-cü il*

Mən Mərakeşin Kasablanka şəhərinə gedirəm. Bildiyiniz kimi, orada İKT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Zirvə toplantısı keçiriləcəkdir. İKT 25 ildir ki, fəaliyyət göstərir. Təşkilatın yubileyinə təsadüf edən bu toplantı çox faydalı olacaq, orada İslam aləmindən 52 dövlətin başçıları iştirak edəcəklər, onlardan biri də Azərbaycandır. Azərbaycan bu təşkilata müstəqillik qazanandan sonra daxil olmuşdur. İlk dəfədir ki, Azərbaycanın dövlət başçısı İKT-nin Zirvə toplantısında iştirak edir. Ona görə də mən bu toplantını Azərbaycan üçün çox əhəmiyyətli hesab edirəm.

ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt Zirvə toplantısında Avropada və dünyada təhlükəsizliyi təmin etmək üçün Avropanın gələcək taleyində mühüm rol oynayacaq məsələlər müzakirə olundu. Mən Budapeşt Zirvə toplantısından çox məmnunam. Orada Ermənistanın Azərbaycana təcavüzünün qarşısının alınması üçün bir qətnamə qəbul edildi. Bildiyiniz kimi, bu gün düz yeddi aydır ki, Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında razılaşma əldə olunub. Həmin müddətdə atəşkəs davam edir. Doğrudur, atəşkəs bizim üçün faydalıdır. Ancaq bu, problemin həll olunması demək deyildir. Biz atəşkəsdən Böyük Sülh Sazişinin əldə olunması üçün istifadə etmək istəyirik. Sülh sazişinin əldə edilməsi üçün isə bizim bir sıra şərtlərimiz vardır: Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərimizdən çıxarılmalı, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin olunmalı, bir milyondan çox azərbaycanlı qaçqın öz yerlərinə qaytarılmalıdır.

Budapeşt Zirvə toplantısı bizim üçün ona görə faydalıdır ki, orada ilk dəfə ATƏM çərçivəsində çoxmillətli sülhü mühafizə qüvvələrinin yaradılması barədə mühüm qətnamə qəbul edil[11-12]di. Doğrudur, bu, heç də asanlıqla başa gəlmədi. Çünki Ermənistan Respublikası belə bir qətnamənin qəbul olunmasını istəmirdi. Bilirsiniz ki, Ermənistan münaqişə zonasına yalnız rus əsgərlərinin gəlməsini istəyir. Lakin biz çox çalışdıq, burada sizin qarşınızda bir daha deyə bilərəm ki, bu qətnamənin qəbul olunmasında Türkiyə Respublikası rəhbərlərinin də çox böyük xidmətləri oldu. Biz çox ciddi əməkdaşlıq etdik, bərabər çalışdıq.

... Mən Budapeştdə Türkiyənin baş naziri xanım Tansu Çillərlə və Türkiyənin digər yüksək vəzifəli şəxsləri ilə görüşdüm. Sonra xanım Tansu Çillərlə bərabər ABŞ prezidenti Bill Klintonla görüşdük. Beləliklə, Budapeştdə bizim üçün çox mühüm olan bir qətnamə qəbul edildi. Hazırda bizim əsas işimiz bu qətnamənin həyata keçirilməsinə nail olmaqdır. İndi bizim bölgəyə artıq heç kəs tək bir ölkənin əsgərlərini gətirə bilməz. Qəbul olunmuş qətnaməyə əsasən bu bölgəyə çoxmillətli sülhməramlı qüvvələr gələcək. Siz yəqin ki, bütün bunları bilirsiniz. Türk mətbuatı sözsüz ki, bu barədə geniş materiallar dərc edib, televiziya verilişlər verib. Belə hesab edirəm ki, bütün bunları mənim dilimdən eşitməyiniz də lazımdır.

... Bayaq dediyim kimi, mən indi Kasablankaya, İKT-nin Zirvə toplantısına gedirəm. Biz bütün dünyada sülhün, təhlükəsizliyin təmin olunmasında İKT üzvii olan dövlətlərin rolunun artırılmasına tərəfdarıq. Bildiyimə görə, Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirəl də bu Zirvə toplantısında iştirak edəcək. Biz orada da bir sıra işlər görəcəyik.

**Sual: Çeçenistandakı vəziyyət Azərbaycan üçün təhlükə yaratmaz ki?**

**Cavab:** Mən sizə dedim ki, Budapeştdə Azərbaycana çoxmillətli sülhməramlı qüvvələrin gəlməsi barədə qətnamə qəbul olunmuşdur. İndi bir ölkənin silahlı qüvvələri Azərbaycana gələ bilməz. Ona görə də mən Azərbaycana hansısa tək bir ölkənin silahlı qüvvələrinin gəlməsindən heç də narahat deyiləm. İkincisi də ki, Azərbaycan müstəqil bir dövlətdir. Çeçenistan isə müstəqil dövlət deyil, Rusiyanın tərkibində olan bir respublikadır. Burada çox böyük fərq var. Digər tərəfdən, Çeçenistan hələlik dünyanın heç bir dövləti tərəfindən müstəqil dövlət kimi tanınmayıb. Rusiyada belə muxtar respublikalar çoxdur: Tatarıstan, Başqırdıstan, Şimali Osetiya və digərləri. Bunlar hamısı Rusiyanın tərkibindədir. [12]

## KASABLANKA ZİRVƏ TOPLANTISINDA GÖRÜŞLƏR

*13 dekabr 1994-cü il*

### KÜVEYT ƏMİRİ CABİR ƏHMƏD SABAH İLƏ SÖHBƏTDƏN

Azərbaycan ilə Küveyt coğrafi baxımdan bir-birinə çox yaxındır. Bizim ulu babalarımız arasında tarixən çox sıx əlaqələr olub. Doğrudur, sonrakı dövrlərdə bu əlaqələr müəyyən qədər kəsilib. Ancaq indi Azərbaycan müstəqil dövlətdir və öz tarixi keçmişini, qədim dostları ilə əlaqələrini bərpa edir.

Azərbaycanda Küveyt səfirliyinin açılması çox zəruridir. Doğrudur, sizin ölkədə belə səfirlik açmağa bizim hələlik imkanımız yoxdur. Ancaq Küveytin Azərbaycanda səfiri olsa, bu, həm sizin, həm də bizim ölkə üçün çox faydalı olar.

Bildiyiniz kimi, ölkələrimizin iqtisadiyyatında da bir-birinə bənzərlik çoxdur. Siz böyük neft ölkəsisiniz. Azərbaycan da neft ölkəsi hesab edilir. Doğrudur, bizdə neft hasilatının tarixi Küveytdəkindən çox qədimdir. Məsələn, Azərbaycanda 170 ildir ki, neft hasil olunur. Ancaq sizdəki neft yataqları daha zəngindir və siz ildə bizdən xeyli çox neft istehsal edirsiniz. Neft hasilatında sizin də, bizim də böyük təcrübəmiz var. Yəqin eşitmisiniz ki, biz 45 ildən artıqdır ki, Xəzər dənizindən də neft çıxarırıq. Bu ilin sentyabr ayında Azərbaycan Respublikası ilə xarici ölkələrin nüfuzlu neft şirkətləri arasında böyük bir müqavilə imzalandı. Bu müqaviləyə əsasən biz həmin şirkətlərlə 30 il müddətində əməkdaşlıq edəcək və Xəzər dənizindən nefti birgə çıxaracağıq.

Son illərdə Küveytdə baş verən hadisələrə münasibətimizə gəlincə, onu bildirmək istəyirəm ki, ölkənizin başına gələn bəlalar bizə məlumdur. Biz bunu öz dərdimiz kimi qəbul etmişik, İraqın sizin ölkəyə hücumunu, təcavüzünü həmişə pisləmişik, bu gün də pisləyirik. Azərbaycan dövləti sizin ölkənin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün təmin olunmasına tərəfdardır. Çünki beynəlxalq hüquq normaları bunu tələb edir və ədalət naminə heç bir dövlət belə hallarla razılaşa bilməz. [13-14]

Siz bilirsiniz ki, altı ildir Azərbaycan Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalıb. Azərbaycan müsəlman ölkəsidir. Biz hələ islam dini yaranandan islam dünyasının bir hissəsiyik. Ölkəmiz Sovet İttifaqının tərkibində olanda da biz dinimizi, inamımızı, etiqadımızı itirməmişik. Hörmətli Şeyxülislam Hacı Allahşükür Paşazadə 20 ildir ki, Azərbaycanda dini rəhbərdir. Onu da deyim ki, Ermənistanın Azərbaycana təcavüzü əslində müsəlman dünyasına edilən təcavüzdür. Altı il bundan əvvəl başlayan bu təcavüz nəticəsində Azərbaycan ərazilərinin 20 faizindən çoxu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Həmin torpaqlarda bütün müsəlman abidələri, qəbirlər, Qurani-Kərimin nüsxələri hamısı dağıdılıb, yandırılıb. Bizim 1 milyondan artıq vətəndaşımız – müsəlmanlar qaçqın düşüblər. Onlar çox ağır vəziyyətdədirlər, çadırlarda yaşayırlar. Həmin qaçqınların saxlanması üçün bizim köməyə böyük ehtiyacımız var. Əgər sizin ölkə bizim bu müsəlmanlara, qaçqınlara kömək etsə, buna görə sizə çox minnətdar olardıq.

Bildiyiniz kimi, İslam Konfransı Təşkilatının bu Zirvə toplantısında Ermənistanın Azərbaycana təcavüzünün pislənməsi haqqında bir qətnamə hazırlanıb. Mən güman edirəm ki, siz bu qətnamənin qəbul olunmasına tərəfdar çıxacaqsınız. Bir daha demək istəyirəm ki, biz sizi özümüzə qardaş ölkə hesab edirik. Biz Küveytlə dostluq, qardaşlıq əlaqələri yaratmaq və onu inkişaf etdirmək istəyirik. Hesab edirəm ki, bu görüşdə həmin əlaqələrin əsası qoyulur.

### BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN ƏMİRİ ŞEYX ZAHİD İBN SULTAN ƏL-NƏHYAN İLƏ SÖHBƏTDƏN

Ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi və inkişaf etməsi çox vacibdir. Ona görə də bu görüşdən məmnun olduğumu bildirirəm. Bir daha bəyan edirəm ki, Ermənistanın Azərbaycana təcavüzünün nəticələrini sülh yolu ilə aradan qaldırmaq üçün bütün səylərdən istifadə olunacaq. Altı il davam edən bu müharibə nəticəsində Azərbaycan torpaqlarının bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub və həmin ərazilərdən bir milyondan artıq azərbaycanlı qaçqın düşüb, oradan bütün müsəlmanlar öz torpaqlarından qovulub, həmin ərazilər tamamilə viran edilib. Qaçqınlar [14-15] hazırda respublikanın başqa yerlərində çətin şəraitdə yaşayırlar.

Doğrudur, indi atəş dayandırılıb. Biz atəşin kəsilməsi barədə Ermənistanla saziş əldə etmişik. Ancaq Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlardan çıxmırlar. Məsələnin həll olunması üçün bir tərəfdən Rusiya, digər tərəfdən də ATƏM vasitəçilik edir. Bir neçə gün bundan əvvəl Budapeştdə ATƏM-in Zirvə toplantısı keçirildi və orada bizim bölgəyə beynəlxalq sülhü mühafizə qüvvələrinin göndərilməsi barədə qətnamə qəbul olundu. Lakin həmin qüvvələr hələ toplanmayıb. Onlar gərək toplansın, sonra biz Böyük Sülh

Sazişi əldə edək. Bu sazişdə gərək Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından tamamilə çıxarılması və qaçqınların öz yerlərinə qayıtması məsələsi öz əksini tapsın. Bütün bunlardan ötrü isə həmin beynəlxalq sülhü mühafizə qüvvələri bizim bölgəyə gəlməlidir.

Bilirsiniz ki, Ermənistanın ərazisində Rusiyanın çox böyük hərbi qüvvələri var. Bu qüvvələr Ermənistana çox kömək edir. Azərbaycan müstəqil dövlətdir. Bizim ərazimizdə heç bir başqa ölkənin qoşunu yoxdur. Ona görə də biz çoxmillətli beynəlxalq sülhü mühafizə qüvvələrinin bölgəyə gəlməsinə razı olmuşuq. Biz istəyirik ki, onlar işğal olunmuş Azərbaycan torpaqlarından Ermənistan silahlı qüvvələrinin çıxarılmasına kömək etsinlər. Mən sizə bir daha bildirmək istəyirəm ki, indi Azərbaycan çox çətin vəziyyətdədir. Çadırlarda yaşayan qaçqınların bir çoxu xəstəliklərə tutulub, yemək-içmək çatmır. Azərbaycan blokada şəraitindədir. Ona görə də bizə sizin köməyiniz çox lazımdır. Cənab əmir, mən Sizə məktub göndərmişəm, Sizi Azərbaycana rəsmi səfərə dəvət etmişəm. Bu gün Sizi bir daha Azərbaycana rəsmi səfərə dəvət edirəm.

Müsəlman ölkələrinin Azərbaycana yardımına gəlincə onu deyə bilərəm ki, qonşu müsəlman ölkələrindən Türkiyə və İran azərbaycanlı qaçqınlara kömək edir. Səudiyyə Ərəbistanı da qaçqınlarımızın saxlanılması üçün müəyyən yardım göstərir. Pakistan da kömək edir. Onlar qaçqınların yaşadığı yerlərə, çadır şəhərciklərinə gəlib müəyyən maddi yardım göstərirlər. Amma başqa ölkələrdən hələ bir kömək görməmişik. Hərbi sahədə bizə heç kim kömək göstərmir. Ermənistana isə Rusiya kömək edir. Bizim silah almağa, ordumuzu saxlamağa pulumuz yoxdur. Ermənistan da elə bundan istifadə edərək [15-16]gəlib torpaqlarımızı işğal edib. Amma biz müsəlmanlar, azərbaycanlılar o qədər də aciz deyilik. Kasablanka Zirvə toplantısında Ermənistanın Azərbaycana təcavüzünü pisləyən qətnamə qəbul olunacaq.

Ermənistanın təcavüzünü pisləmək haqqında bu qətnaməni Sizin müdafiə edəcəyinizə əminəm. Zirvə toplantısında müsəlman dövlətlərinin Azərbaycana iqtisadi və humanitar yardımı barədə də qətnamə qəbul ediləcək. Güman edirəm ki, Siz bu qətnaməni də dəstəkləyəcəksiniz.

... Ölkəniz zəngindir və Siz uzun illərdir ki, bu dövlətin başında dayanırsınız. Ona görə də mən əminəm ki, Siz bu məsələlərdə bizə kömək göstərəcəksiniz. Amma onu da bildirməliyəm ki, bu məsələdə gecikmək olmaz. Çünki ola bilər ki, bizim vəziyyətimiz daha da çətinləşsin. Doğrudur, bizim də sizin kimi neftimiz var. Biz Qərbin nüfuzlu neft şirkətləri ilə müqavilə bağlamışıq və onlarla əməkdaşlıq edəcəyik. Amma bu, öz səmərəsini bir neçə ildən sonra verəcək. Siz bilirsiniz ki, Azərbaycan qədim neft ölkəsidir. Ancaq indi bizim neftimiz azdır. Sizin isə neftiniz çoxdur. Bizi sıxışdırmaq istəyirlər. Amma biz öz müstəqilliyimizi qoruyacağıq. Siz bir müsəlman kimi, böyük bir insan kimi, böyük bir şeyx kimi gərək Azərbaycandakı müsəlman qaçqınlarının vəziyyəti haqqında düşünəsiniz. Axı, onlar yollarda, küçələrdə yaşayırlar. Ona görə də mən istəyirəm ki, Siz ölkəmizə gələsiniz və müsəlmanların necə yaşadığını özünüz görəsiniz. Azərbaycan Qafqazda yeganə müstəqil müsəlman dövlətidir. Biz möhkəm dayanmışıq, öz müstəqilliyimizi qoruyub saxlayacağıq. Ancaq biz Ermənistanın təcavüzünün qarşısını almasaq, torpaqlarımızı azad etməsək ölkəmizin, müsəlmanların vəziyyəti daha da ağırlaşacaq.

### İORDANİYA KRALI HÜSEYN İBN TƏLAL İLƏ SÖHBƏTDƏN

... Azərbaycanın üzləşdiyi iqtisadi-siyasi problemlərin əsas səbəbi Ermənistanın təcavüzündən irəli gəlir. Altı ildən çox davam edən bu müharibə Azərbaycanı iqtisadi böhran həddinə, ərazimizin 20 faizindən çoxunun işğalına və qaçqınlar ordusunun yaranmasına gətirib çıxarmışdır.

Lakin çox təəssüf ki, son vaxtlara qədər bu təcavüzə lazımi [16-17] hüquqi-siyasi qiymət verilməmişdir. Son zamanlar ATƏM xətti ilə görülən diplomatik tədbirlər və eləcə də bir sıra İslam dövlətlərinin bu problemə fəal müdaxiləsi nəticəsində Ermənistanın yaratdığı informasiya blokadasını yarmaq və əsl həqiqətləri dünyaya çatdırmaq mümkün olmuşdur. Bununla belə Azərbaycan həqiqətlərini dünyaya çatdırmağa hələ də böyük ehtiyac vardır. Bu mənada mən İordaniya kralının dünyada olan nüfuzuna və siyasi təcrübəsinə böyük ümid bəsləyirəm. Şübhə yoxdur ki, İordaniya bu problemin sülh yolu ilə həllinə lazımi kömək göstərə bilər. Mübahisəli. beynəlxalq məsələlərin həllində kifayət qədər təcrübəsi olan İordaniya kralı Fələstin problemi kimi düyünlü məsələnin açılmasında çox böyük rol oynamışdır. Ona görə də, zənnimizcə Siz Qarabağ münaqişəsinin həll olunmasında da yaxından iştirak edə bilərsiniz.

Mən vəziyyəti öz gözləri ilə görmək, düçar olduğumuz ağır problemlərin həllinə kömək göstərmək üçün hörmətli kral Hüseyn ibn Təlalı Azərbaycana dəvət edirəm.

### BRUNEY SULTANI MUDA HƏSƏN ƏL BOLKİAH MÜİZZƏDDİN VƏDDAULLAH İLƏ SÖHBƏTDƏN

...Bruney ilə Azərbaycanın bir-birinə yaxınlaşması, sıx əlaqələr yaratması üçün imkanlar çoxdur. Azərbaycan. Respublikası İslam Konfransı Təşkilatının üzvüdür və bütün İslam aləmi ilə geniş əlaqələr qurmaq yolundadır. Mənə elə gəlir ki, ölkələrimiz arasında əməkdaşlıq üçün burada, Mərakeşdə faydalı zəmin yaratmaq

olar. Mən bu görüşdən çox məmnunam. Belə hesab edirəm ki, gələcək qarşılıqlı münasibətlərimiz üçün bu görüş yaxşı bir başlanğıc olacaqdır...

Ermənistanın Azərbaycana təcavüzü xalqımız üçün ağır problemlər yaratmışdır. Bu müharibə xalqımıza böyük bəlalar gətirmişdir. Bütün bunlara baxmayaraq biz müharibənin nəticələrinin sülh yolu ilə aradan qaldırılmasının tərəfdarıyıq. Bu məqsədlə də atəşkəsə razı olmuşuq. Müharibənin sülh yolu ilə dayandırılması istiqamətində ATƏM-in fəaliyyətini müsbət qiymətləndiririk. Bu mənada bölgəyə sülhməramlı qüvvələrin göndərilməsi barədə ATƏM-in Budapeşt Zirvə toplantısında qəbul edilmiş qətnamənin əhəmiyyəti böyükdür və mən əminəm ki, Kasablanka toplantısında da Ermənistanın Azərbay[17-18]cana təcavüzünü pisləyən qətnamə qəbul olunacaqdır. Ona görə də biz çox istərdik ki, Bruney sultanı bu qətnaməni müdafiə etsin. Mən, həmçinin, ümidvar olduğumu bildirmək istərdim ki, Bruney sultanlığı Zirvə toplantısında qəbul olunacaq digər bir qətnaməyə – Azərbaycana iqtisadi və humanitar yardım göstərilməsi barədə sənədə də öz müsbət münasibətini bildirəcəkdir[18].

## İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ KASABLANKA ZİRVƏ TOPLANTISINDA ÇIXIŞI

*13 dekabr 1994-cü il*

Hörmətli cənab sədr!

Hörmətli dövlət başçıları və nümayəndə heyətlərinin rəhbərləri!

İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərin başçılarının görüşünün çox gözəl təşkil edildiyinə görə mən hər şeydən əvvəl, Mərakeş məliki əlahəzrət II Həsənə ürəkdən təşəkkür edirəm.

Azərbaycan xalqı adından sizi – bu mötəbər məclisin iştirakçılarını böyük məmnuniyyətlə salamlayıram. Sizə və xalqlarınıza səadət və firavanlıq arzulayıram, hörmət və ehtiramımı bildirirəm.

Biz haqlı olaraq fəxr edə bilərik ki, islam dünyası ümumbəşəri sivilizasiyaya öz layiqli töhfəsini vermişdir və neçə əsrdir ki, onun mənəvi inkişafına və təkmilləşdirilməsinə kömək edir.

Bu gün dünyada mürəkkəb, ziddiyyətli proseslər getməkdədir: viranedici qlobal müharibənin qarşısının alınması, dünyanın təhlükəsizliyinin yeni təməlinin qoyulması kimi müsbət meyllər regional münaqişələrin artması ilə, yırtıcı millətçiliklə və dövrün başqa bəlaları ilə qarşılaşır. Bizim ölkələrimiz bu proseslərin qaynağındadırlar və biz beynəlxalq təhlükəsizliyin möhkəmlənməsinə, sülh və tərəqqi qüvvələrinin qələbəsinə layiqli yardım etməliyik, öz səylərimizi göstərməliyik. Bunun naminə biz müsəlman ölkələrinin inkişafına mane olan əngəlləri aradan qaldırmalı, bir-birimizə yardım əli uzatmalıyıq, parçalanmanın və təklənmənin qarşısını almalıyıq, dara düşmüş qardaşlarımıza birlikdə kömək etməliyik, qanlı müharibələrin və silahlı münaqişələrin alovunu söndürməliyik.

Biz fəxr edə bilərik ki, İslam Konfransı Təşkilatı da məhz bu nəcib məqsədlərə xidmət edir. Asiyanın, Afrikanın və Av[19-20]ropanın 52 dövlətini birləşdirən bu təşkilat bir milyard nəfərdən çox əhaliyə, böyük mənəvi, siyasi, iqtisadi, elmi və mədəni potensiala malikdir.

Ölkələrimiz arasında həmrəylik, hərtərəfli əməkdaşlıq, sülhü və təhlükəsizliyi qoruyub saxlamaq üçün ədalətə əsaslanan zəruri tədbirlər görülməsi İslam Konfransı Təşkilatının əsas prinsipləridir və onun nizamnaməsində öz ifadəsini tapmışdır.

Ötən 25 il ərzində bizim təşkilatımız dünya siyasətinin mühüm amilinə çevrilmişdir, müasir dünyanın qlobal və regional problemlərinin həllinə sanballı təsir göstərir. Amma etiraf etmək lazımdır ki, biz islam dünyasının və öz təşkilatımızın nəhəng potensialından hələ heç də tam, istənilən səviyyədə istifadə edə bilməmişik. Biz nəinki təkcə öz xalqlarımızın, həm də bütün dünyanın tərəqqisi işində daha sanballı, daha təsirli rol oynaya bilərik və oynamalıyıq.

Hörmətli cənablar!

Bildiyiniz kimi, çoxəsrlik tarixi, zəngin mənəvi və maddi irsi olan Azərbaycan xalqı hələ miladın yeddinci əsrindən islam dünyasının bir hissəsini təşkil edir. Avropa ilə Asiya arasında, Qafqaz ilə Yaxın Şərq arasında mühüm coğrafi-siyasi məkanda yerləşən Azərbaycan həmişə bir çox dövlətlərin diqqət mərkəzində olmuş, müxtəlif sivilizasiyalar arasında körpü rolunu oynamışdır.

XIX əsrin əvvəllərində Azərbaycan uzunmüddətli dövlətlərarası müharibələr nəticəsində öz dövlətçiliyindən məhrum olmuş, sonra isə keçmiş Sovet İttifaqının bir hissəsinə çevrilmişdir. Bu illər ərzində bizim müsəlman məsləkimiz ciddi sınaqlardan keçmiş, Azərbaycan xalqı öz dini hisslərini açıq ifadə edə bilməmişdir. Amma bu hissləri biz içimizdə yaşatmışıq, qoynumuzda saxlamışıq, hətta ən ağır dövrlərdə öz dinimizə etiqad bəsləmişik.

Sovet İttifaqı dağıldıqdan sonra, 1991-ci ildə istiqlaliyyət əldə etməklə biz yenidən öz kökümüzə qayıtmış, din azadlığımıza nail olmuşuq. Elə həmin il Azərbaycan İslam Konfransı Təşkilatına daxil olmuşdur, onun tədbirlərinin fəal iştirakçısıdır və onun bütün strukturları ilə əməkdaşlıq edir.

Müstəqil Azərbaycan Respublikasının prezidenti seçildikdən sonra mən müsəlmanlıq borcuma əməl edərək, Məkkə və Mədinə şəhərlərinə gedib müqəddəs ziyarətgahlara səcdə qılmışam, ümrə mərasimini yerinə yetirmişəm.

Azərbaycan Respublikasının prezidenti kimi mən öz qar[20-21]daşlarımla – müsəlman dövlətlərinin başçıları ilə şəxsi münasibətlər yaratmağa, aramızda həmrəyliyi möhkəmlətməyə böyük əhəmiyyət verirəm. Əminəm ki, Mərakeşdəki Zirvə görüşü Azərbaycanın bütün islam dünyası ilə əməkdaşlığının genişlənməsinə və dərinləşməsinə kömək edəcəkdir.

Hörmətli cənablar!

Sizə məlum olduğu kimi, Azərbaycan xalqı qonşu Ermənistan Respublikasının təcavüzünə məruz qalmış, bunun nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxu işğal edilmişdir. Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasında işğal etdikləri Dağlıq Qarabağ regionunda və ona bitişik yeddi digər rayonda ən

qədim mədəniyyət abidələri məhv edilmiş, bütün məscidlər dağıdılmış, müsəlman məzarları təhqir olunmuş, Qurani-Kərimin nüsxələri yandırılmışdır. Ən qədim müsəlman sivilizasiyasının bütün izləri yer üzündən silinir.

Mənim həmvətənlərimin 20 min nəfərindən çoxu öldürülmüş, təqribən 100 min nəfəri yaralanmış və şikəst olmuş, bir milyondan artıq azərbaycanlı öz doğma yurdundan qovulmuş, onların evləri viran edilmiş və yandırılmışdır. Bu adamlar, o cümlədən uşaqlar, qadınlar və qocalar erməni təcavüzkarlarının törətdikləri soyqırımının bütün dəhşətlərini görmüş, qohum-əqrəbalarını itirmişlər. İndi isə sərt qış şəraitində çadır şəhərciklərində dözülməz vəziyyətdə yaşayırlar, soyuqdan donurlar, yoluxucu xəstəliklərə tutulurlar, ərzaq, dərman, pal-paltar sarıdan korluq çəkirlər.

Öz qətnaməsində Ermənistan Respublikasının müstəqil Azərbaycana qarşı təcavüzünü pisləmiş İslam Konfransı Təşkilatının fəaliyyətini biz yüksək qiymətləndiririk. O bu münaqişənin aradan qaldırılması işində iştirak edən beynəlxalq təşkilatlara müvafiq müraciətlər göndərmişdir. Hesab edirəm ki, belə tədbirləri davam etdirmək lazımdır və biz çox ümidvarıq ki, İslam Konfransı Təşkilatının hər bir üzvü bu tədbirləri dəstəkləyəcəkdir.

Görüşümüzə Ermənistan-Azərbaycan münaqişəsinə dair qətnamə layihəsi təqdim edilmişdir. Mən hamınızı bu layihəni bəyənməyə dəvət edirəm.

Son vaxtlar Ermənistan ilə Azərbaycan arasında atəşkəs əldə olunmuşdur. Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Müşavirənin Budapeştdəki Zirvə görüşü çoxmillətli sülhü mühafizə qüvvələrinin təşkil olunub münaqişə zonasına gön[21-22]dərilməsi haqqında mühüm qərar qəbul etmişdir. Bu, Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Müşavirənin iştirakçısı olan dövlətlərin səyləri və bizim onlarla konstruktiv əməkdaşlığımız sayəsində mümkün olmuşdur.

Münaqişənin tamamilə aradan qaldırılması üçün ermənilərin bütün silahlı birləşmələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılmasını, qaçqınların doğma yurdlarına qaytarılmasını, Azərbaycanın bütün ərazisi üzərində onun suveren hüquqlarının bərpa edilməsini nəzərdə tutan siyasi saziş bağlanmalıdır.

Lakin Ermənistan Respublikası işğal olunmuş ərazilərin azad edilməsinə dair Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini yerinə yetirməkdən boyun qaçırır.

Hazırda sülhə nail olmaq üçün beynəlxalq həmrəyliyin, təcavüzkara beynəlxalq səviyyədə təzyiq göstərilməsinin çox böyük əhəmiyyəti var. İslam Konfransı Təşkilatı kimi nüfuzlu təşkilat və onun hər bir üzvü tərəfindən təzyiq göstərilməsi də son dərəcə vacibdir. Ona görə də, hörmətli görüş iştirakçıları, mən sizə üz tutub xahiş edirəm ki, siyasi iradənizi qətiyyətlə bildirəsiniz və Azərbaycan dövlətinin ərazi bütövlüyü uğrunda bizim ədalətli mübarizəmizə tərəfdar çıxasınız.

Bu mötəbər kürsüdən mən öz qardaşlarıma – Türkiyənin, İranın, Pakistanın, Səudiyyə Ərəbistanının və bir çox başqa ölkələrin, islam xeyriyyəçiliyi təşkilatının rəhbərlərinə təşəkkür edirəm. Onlar xalqımızın müsibətinə öz münasibətlərini dərhal bildirərək qaçqınları ən zəruri əşyalarla təmin etmişlər və bu gün də bizə yardım göstərməkdədirlər.

Mən bizi dar ayaqda tək qoymayanların hamısına minnətdaram. Amma indi ölkəmizin sakinlərinin hər yeddi nəfərindən biri qaçqındır. Humanitar vəziyyət son dərəcə ağırdır, bizim yardıma çox böyük ehtiyacımız var və mən kömək üçün sizə müraciət edirəm.

Altı illik müharibə nəticəsində Azərbaycan Respublikası ağır iqtisadi və sosial böhran keçirməkdədir. Müharibənin xalqımıza və ölkəmizin iqtisadiyyatına vurduğu yaralara, böyük maddi zərərə baxmayaraq, biz sülhə və sabitliyə nail olmaq naminə əlimizdən gələni edirik.

Bu il sentyabrın 20-də biz Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlədilməsi üçün dünyanın bir sıra iri şirkətləri ilə müqavilə imzalamışıq. Bu, Azərbayca[22-23]nın xarici investisiyalar, iqtisadi əməkdaşlıq və dünya iqtisadiyyatına inteqrasiya üçün açıq olduğunu nümayiş etdirir. Müharibə ilə əlaqədar yaranmış ağır şəraitə baxmayaraq, biz islahatlar aparmaq, bazar münasibətlərinə əsaslanan iqtisadiyyat yaratmaq yolu ilə əzmlə irəliləyirik, xalqımızın güzəranını yaxşılaşdırmağa çalışırıq.

Zati-aliləri!

Öz çıxışımda mən xalqımın ağrı-acılarından və iztirablarından danışdım. Bununla yanaşı, Bosniya və Herseqovinada, Kəşmirdə, Fələstində, dünyanın bütün qaynar nöqtələrində milliyyətindən və dinindən asılı olmayaraq başqa xalqların da dərdi və iztirabları məni narahat edir. Bosniya və Herseqovinada son vaxtlar yaranmış vəziyyət xüsusi təşviş və ürək ağrısı doğurur. Orada qırğın və dağıntılar dəhşətli miqyas almışdır. Ona görə də biz qanlı qırğının dərhal dayandırılması üçün və bu münaqişənin ədalətlə aradan qaldırılmasına nail olmaq üçün bütün imkanlarımızdan istifadə etməliyik, var qüvvəmizi sərf etməliyik.

Nitqimi bitirərək, mən aramızdakı həmrəyliyə, İslam Konfransı Təşkilatının prinsiplərinə və məqsədlərinə sadiq olduğumu bildirirəm, sülh, sabitlik və tərəqqi naminə hamını öz səylərini birləşdirməyə çağırıram. Mən sizin hamınıza və xalqlarınıza səadət və əmin-amanlıq arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm. [23]

## KASABLANKA ZİRVƏ TOPLANTISINDA ÇIXIŞDAN SONRAKI GÖRÜŞLƏR

*14 dekabr 1994-cü il*

### İRANIN XARİCİ İŞLƏR NAZİRİ ƏLİ ƏKBƏR VİLAYƏTİ İLƏ SÖHBƏTDƏN

... Azərbaycan İslam Konfransı Təşkilatının Zirvə toplantısında ilk dəfədir ki, iştirak edir. Bu isə müstəqil Azərbaycan Respublikasının İslam aləmi tərkibində olmasına bəslənilən şübhələrin bir daha aradan qaldırılması deməkdir... Mən Kasablanka Zirvə toplantısının işinə çox böyük əhəmiyyət verirəm və ümidvar olduğumu bildirirəm ki, burada qəbul ediləcək qətnamələr Azərbaycanın haqq işinin müdafiə olunmasında mühüm rol oynayacaqdır. Bu qətnamələr hazırlanarkən Azərbaycanın mövqeyini müdafiə etmək sahəsində İran İslam Respublikası Xarici İşlər Nazirliyinin göstərdiyi səyləri yüksək qiymətləndirirəm.

### MİSİR PREZİDENTİ HÜSNİ MÜBARƏKLƏ SÖHBƏTDƏN

... Mənim Zirvə toplantısındakı çıxışım barədə səmimi sözləriniz üçün Sizə təşəkkür edirəm və bildirirəm ki, mən də Sizin çıxışınızı çox böyük maraqla dinlədim. Siz də öz çıxışınızda bizi narahat edən məsələlərə geniş yer ayırdınız.

Bildirmək istəyirəm ki, Ermənistanın Azərbaycana təcavüzü gənc müstəqil respublikamız üçün çoxlu problemlər yaratmışdır: ərazimizin 20 faizi işğal edilib, qaçqınlarımızın sayı bir milyon nəfərdən çoxdur. Bizi daha çox narahat edən qaçqınların olduqca ağır şəraitdə yaşamasıdır və qışın yaxınlaşması onların çətinliklərini daha da artırmışdır. Lakin bütün çətinliklərə baxmayaraq biz münaqişənin sülh yolu ilə nizama salınmasına tərəfdarıq və bu istiqamətdə bir sıra mühüm addımlar atmışıq...

Mən Sizi Azərbaycana səfərə gəlməyə dəvət edirəm. [24-25]

### FƏLƏSTİN DÖVLƏTİNİN BAŞÇISI YASİR ƏRƏFATLA SÖHBƏTDƏN

... Fələstin dövləti ilə Azərbaycan Respublikası arasında münasibətlər yaradılması üçün yaxşı əsas vardır.

Fələstin xalqının vəziyyəti, onun öz milli dövlətini yaratmaq uğrunda mübarizəsi haqqında mənim ətraflı məlumatım var. Sizinlə bugünkü söhbət bu məlumatları daha da dərinləşdirdi.

... Təzəcə müstəqillik qazanmış Azərbaycan Respublikası da Ermənistan tərəfindən təcavüzə məruz qalıb. Bu təcavüz nəticəsində Dağlıq Qarabağ regionu və onun hüdudlarından kənarda yerləşən daha yeddi rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, bu torpaqlarda yaşayan bir milyondan çox azərbaycanlı isə qaçqına çevrilərək ağır vəziyyətdə çadırlarda yaşayır.

### SƏUDİYYƏ ƏRƏBİSTANI KRALININ QARDAŞI ƏBDÜL ƏZİZLƏ SÖHBƏTDƏN

... Sizdən xahiş edirəm ki, mənim salamlarımı, hörmət və ehtiramımı Səudiyyə Ərəbistanının kralı əlahəzrət Fəhd İbn Əbdül Əzizə çatdırasınız.

Bildirirəm ki, Səudiyyə Ərəbistanının Azərbaycanda səfirliyinin açılması olduqca vacibdir və bu məqsədlə konkret tədbirlər görülməsi vaxtı çoxdan çatmışdır. Səfirliyin açılması ölkələrimiz və xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrinin inkişaf etdirilməsi ilə bərabər, Azərbaycanın bütün İslam dünyası və İslam təşkilatları ilə daha sıx əlaqələr saxlaması üçün mühüm əhəmiyyət kəsb edir.

### PAKİSTANIN BAŞ NAZİRİ BƏNƏZİR BHUTTO İLƏ SÖHBƏTDƏN

..Azərbaycan Respublikası həm İslam Konfransı Təşkilatı daxilində, həm də digər beynəlxalq təşkilatlar çərçivəsində Pakistanla əməkdaşlığa xüsusi əhəmiyyət verir. Mənim fikrimcə, bu əməkdaşlıq daha da inkişaf etdirilməli və gücləndirilməlidir. Müstəqilliyini yenicə əldə edən, təcavüzə məruz qalan, müharibə ilə əlaqədar dərin böhran vəziyyəti keçirən gənc Azərbaycan Respublikasının böyük və nüfuzlu dövlət olan Pakistanın dəstəyinə həmişə ehtiyacı var. [25-26]

Azərbaycan Respublikası müharibənin sülh yolu ilə başa çatdırılması üçün BMT, ATƏM çərçivəsində böyük iş aparır. Biz bu münaqişənin yalnız beynəlxalq təşkilatların iştirakı ilə həll olunmasına üstünlük veririk.

### MALDİV ADALARININ PREZİDENTİ MƏMUN ABDUL QƏYYUM İLƏ SÖHBƏTDƏN

Ölkələrimiz arasında əlaqələr qurulması üçün bu görüşün böyük əhəmiyyəti vardır. Buna görə də Azərbaycanın coğrafi-siyasi vəziyyəti, müasir ictimai-iqtisadi durumu haqqında Sizə bir qədər müfəssəl məlumat vermək istəyirəm.

... Bildirirəm ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın bir qismi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, bir milyondan çox müsəlman qaçqın vəziyyətinə düşmüşdür. Onlar indi qışın soyuğunda çadırlarda əzab-əziyyət içərisində yaşayırlar. Hazırda qaçqınların ərzaq məhsullarına, ən adi gündəlik tələbat mallarına və ümumiyyətlə humanitar yardıma çox böyük ehtiyacı vardır...

### MALAYZİYANIN BAŞ NAZİRİ MAHADİ MÜHƏMMƏD İLƏ SÖHBƏTDƏN

... Ermənistanın Azərbaycana təcavüzü respublikamızın əhalisi üçün çoxlu problemlər yaratmışdır...

Buna görə də əmin olduğumu bildirmək istəyirəm ki, Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar Kasablanka Zirvə toplantısında qəbul ediləcək qətnaməyə Malayziya da tərəfdar çıxacaqdır.

Mən Sizi Azərbaycana səfərə dəvət edirəm. [26]

## İSLAM KONFRANSI TƏŞKİLATININ KASABLANKA ZİRVƏ TOPLANTISININ YEKUN İCLASINDA ASİYA DÖVLƏTLƏRİ ADINDAN TƏBRİK NİTQİ

*15 dekabr 1994-cü il*

Hörmətli sədr!
Əlahəzrətlər!
Zati-aliləri!
Əziz bacılar və qardaşlar!

İslam Konfransı Təşkilatında Asiya dövlətləri adından söz demək üçün mənə imkan yaradılmasından böyük şərəf duyur və bunu yüksək qiymətləndirirəm. Bu imkandan istifadə edərək İslam Konfransı Təşkilatının banilərindən biri, bütün dünyada tanınmış görkəmli siyasi xadim, əziz qardaşımız, əlahəzrət kral II Həsənə, habelə onun simasında dost və qardaş Mərakeş xalqına Zirvə toplantısının təşkilinə çəkdikləri böyük zəhmətə görə, bizə göstərdikləri diqqət və qayğı üçün dərin minnətdarlığımızı bildiririk.

Biz bu günlər İslam Konfransı Təşkilatının baş katibi Həmid-əl-Qabidin, bütövlükdə katibliyin ölkələrimiz arasında qardaşlığın daha da möhkəmləndirilməsi sahəsində çox səmərəli və faydalı işlərinin şahidi olduq və bütün bunlara görə də səmimi təşəkkürlərimizi bildirirəm. Ümidvaram ki, Yeddinci Kasablanka Zirvə toplantısı dünya müsəlmanlarının həmrəyliyinin daha da möhkəmlənməsində, İslam dövlətlərinin nüfuz və qüdrətinin artmasında yeni bir mərhələ olacaqdır. Konfrans həm də İslam aləminin qarşılaşdığı çətinliklərin və problemlərin dünya ictimaiyyəti tərəfindən daha dəqiq başa düşülməsinə geniş imkanlar yaradır.

Dərin məmnuniyyət hissi ilə qeyd etməliyəm ki, Yeddinci Zirvə toplantısı bütün müsəlman dövlətlərinin, xüsusilə Asiya qitəsində olan ölkələrin artan fəallığı, onların İslam Konfransı Təşkilatında daha geniş təmsil olunması ilə səciyyələnir. Son üç ildə İslam Konfransı Təşkilatının sıralarının 45-dən 52-yə çatması dediklərimə əyani sübutdur.

Şübhəsiz ki, bizim burada qəbul etdiyimiz qərarlar bütün [27-28] İslam aləminin, xüsusən Asiya qitəsinin müsəlman ölkələrinin qarşısında duran problemlərin həllinə sanballı töhfə olacaqdır. Asiya qitəsinin müstəqilliyini yenidən qazanmış bir sıra müsəlman ölkələri, o cümlədən Azərbaycan İslam Konfransı təşkilatının diqqət və qayğısına böyük ehtiyac duyur. Çünki bu ölkələr həm keçmişdən miras qalmış ağır problemlərlə, həm də möhkəmlənməkdə olan müstəqilliyin doğurduğu təbii çətinliklərlə üzləşirlər. Buraya dərinləşməkdə olan iqtisadi böhran, ictimai-siyasi sistemin dəyişməsi ilə bağlı keçid dövrünün yaratdığı çətinliklər, bəzi dövlətlərin məruz qaldığı müharibələr, iqtisadi blokada və müxtəlif siyasi təzyiqlər daxildir.

Tacikistanda və Əfqanıstanda qardaş qanının axıdılması, Kəşmir və Fələstin problemləri, Ermənistanın Azərbaycana qarşı altı ildən bəri davam edən təcavüzü və onlarca digər problemlər bu gün çox ciddi narahatlıq doğurur. Asiya qitəsinin bütün ağrılı problemlərinin konfransda dərin ürək ağrısı ilə qeyd edilməsi bizə xeyli təskinlik, həm də onların həlli ilə bağlı nikbinlik verir.

Üzləşdiyimiz bu problemlərin həlli dost və qardaş müsəlman ölkələrinin iqtisadi və siyasi yardımı ilə xeyli asanlaşa bilər. Arzu edərdik ki, İslam Konfransı Təşkilatı mövcud gərginliyin aradan qaldırılmasına, müharibə ocaqlarının söndürülməsinə, doğma yurdlarından didərgin düşənlərin el-obasına qayıtmasına kömək etmək, günahsız insanların qanının axıdılmasına son qoymaq üçün öz nüfuz və səylərini daha da artırsın.

İcazə verin, sizi əmin edim ki, Asiya regionunun müsəlman dövlətləri, o cümlədən Azərbaycan İslam Konfransı Təşkilatının fəaliyyətində, habelə Zirvə toplantısında qəbul edilmiş qərarların ardıcıllıqla yerinə yetirilməsində öz səylərini durmadan artıracaq, bu təşkilatın nüfuzunun daha da yüksəlməsi üçün əlindən gələni əsirgəməyəcəkdir.

İslam Konfransı Təşkilatının Yeddinci Zirvə toplantısının uğurla başa çatması münasibətilə sizi bir daha təbrik edirəm. Sizə və sizin xalqlarınıza, müsəlman bacı və qardaşlarımıza səadət və əmin-amanlıq arzulayıram.

Tam əmin olduğumu bildirmək istəyirəm ki, İslam Konfransı Təşkilatı gələcəkdə daha da fəallaşacaq, güclənəcək və dünya siyasətində özünəməxsus layiqli yer tutacaqdır. [28]

## KASABLANKA ZİRVƏ TOPLANTISI BAŞA ÇATDIQDAN SONRA MƏTBUAT ÜÇÜN BƏYANAT

*15 dekabr 1994-cü il*

Mən Asiya dövlətləri adından Zirvə toplantısının yekunu münasibətilə sözlərimi dedim. Hesab edirəm ki, bu, Azərbaycan Respublikasına, xalqımıza göstərilən diqqət və hörmətdir. Mən bunu belə qəbul edirəm. Çox məmnunam ki, belə bir imkan yarandı və mən Asiya dövlətləri adından burada çıxış etdim...

Burada çox böyük, ciddi qətnamələr qəbul olundu. O cümlədən Azərbaycan ilə əlaqədar üç qətnamə qəbul edildi: birincisi Ermənistanın Azərbaycana təcavüzünün pislənməsi, ikincisi Azərbaycanın düşdüyü ağır vəziyyətlə əlaqədar İKT-nin və onun üzvü olan dövlətlərin respublikamıza iqtisadi və humanitar yardımı haqqındadır, üçüncüsü isə yekun bəyannaməsində Ermənistanın Azərbaycana təcavüzü haqqında geniş bir bölmə var. Həmin bölmədə bu təcavüzün Azərbaycana nə qədər zərər vurduğu, insanları həyatından məhrum etdiyi, ərazimizin dağıldığı geniş əks olunmuşdur. Burada eyni zamanda tələb olunur ki, Ermənistan silahlı qüvvələri Azərbaycan torpağını qeyd-şərtsiz tərk etsin. O cümlədən Şuşa və Laçın rayonlarının azad olunması məsələsi də oraya salınıbdır. Bunlar hamısı bizim üçün çox əhəmiyyətlidir...

Bu toplantıda bütün İslam aləminə aid olan, qaynar nöqtələrlə əlaqədar bir çox qətnamələr qəbul edildi. Yekun bəyannaməsi də çox böyükdür, çoxbölməlidir. Orada bütün məsələlər öz əksini tapmışdır. Ona görə də mən şübhə etmirəm ki, bu, bütün dünyada böyük əks-səda doğuracaq. Dünya siyasətinə bunun müəyyən təsiri olacaqdır...

Zirvə toplantısı başa çatdıqdan sonra Mərakeş kralı II Həsənlə görüşüm oldu. Biz toplantının yekunları, eyni zamanda Mərakeşlə Azərbaycan arasında ikitərəfli əlaqələr barədə söhbət etdik. Kral II Həsən məni Mərakeşə rəsmi səfərə dəvət etdi. Qeyd etdi ki, bu səfərin ramazan ayı başa çatandan sonra həyata keçirilməsini çox arzu edərdi. O bildirdi ki, bu [29-30] səfər Azərbaycanla Mərakeşin əlaqələrinin inkişaf etdirilməsi üçün çox lazımdır. Bir çox problemlər var və onları müzakirə etmək vacibdir. Mən bu təklifi məmnuniyyətlə qəbul etdin və dedim ki, bu dəvətdən mütləq istifadə edəcəyəm.

Eyni zamanda mən Mərakeş kralını Azərbaycana rəsmi səfərə dəvət etdim. Bildirdim ki, Azərbaycan ilə onun tanışlığı bizim İslam aləmində problemlərin həll olunmasına çox kömək edəcəkdir. O da mənim təklifimi məmnuniyyətlə qəbul etdi və dedi ki, çalışacaq dəVətimi mütləq qəbul edərək Azərbaycana səfər etsin. [30]

## KASABLANKADAN VƏTƏNƏ QAYIDARKƏN İSTANBULUN ATATÜRK HAVA LİMANINDA MƏTBUAT ÜÇÜN BƏYANAT

*16 dekabr 1994-cü il*

Mən Mərakeşin Kasablanka şəhərindən, İslam Konfransı Təşkilatının Zirvə toplantısından qayıdaraq Bakıya gedirəm. Təyyarəmiz birbaşa Bakıya gedə bilmədiyinə görə yolüstü İstanbula enmək məcburiyyətindəyik. Bildiyiniz kimi, mən oraya gedəndə də buradan, İstanbuldan keçmişdim.

Siz İslam Konfransı Təşkilatının Kasablankadakı işi ilə artıq tanışsınız. Sizə məlumdur ki, Kasablanka görüşü İKT-nin üzvü olan 52 ölkənin Yeddinci Zirvə toplantısıdır. Həm də İKT-nin yaranmasının 25-ci ildönümü ilə əlamətdar olan Kasablanka görüşü çox önəmli bir toplantı oldu. O, Azərbaycan üçün də çox faydalı oldu, böyük qərarlar qəbul etdi. Yüksək səviyyədə Kasablanka görüşü bu təşkilatın gələcəyi və daha da güclənməsi üçün, onun fəaliyyətinin, işinin daha da genişlənməsi üçün çox önəmli bir toplantıdır.

Orada bir çox məsələlər müzakirə edildi. Xüsusən də islam ölkələrinin birliyi, bərabərliyi, həmrəyliyi əsas məsələlərdən biri idi. Bu barədə çox qərar qəbul olundu. Eyni zamanda islam ölkələrində və dünyada gedən münaqişələr, yəni dövlətlərarası və etnik, millətlərarası münaqişələr haqqında çox danışıqlar aparıldı. Bu məsələlər barəsində bəyanatlar verildi, qərarlar qəbul edildi.

Bu toplantının Azərbaycan üçün önəmli cəhəti ondan ibarətdir ki, Azərbaycanın indiki durumu haqqında orada iki qərar çıxarıldı. Qərarın biri Ermənistanın Azərbaycana təcavüzü, Ermənistanın bu təcavüzünün 52 dövlət tərəfindən pislənməsi haqqındadır. Bu qərarda tələb olunur ki, Ermənistanın Azərbaycan ərazilərini işğal etmiş qoşunları ölkəmizdən, o cümlədən də Laçın və Şuşa rayonlarından qeyd-şərtsiz çıxmalıdırlar, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilməlidir. İkinci qərar da Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Altı ildən bəri müharibə şəraitində olan Azərbaycanın iqtisadi-siyasi böhran keçirdiyini [31-32]iqtisadiyyatının çox çətin bir dövr yaşadığını, ermənilərin işğal etdikləri bölgələrdən olan bir milyon nəfərdən artıq qaçqının çadır şəhərciklərində qaldığını nəzərə alaraq, bu Yeddinci Zirvə toplantısı qərar çıxardı ki, İKT Azərbaycana yardım göstərməlidir. Həm də bu yardımı təşkilata daxil olan hər bir ölkə etməlidir. Belə ki, Azərbaycan ağır vəziyyətdədir. Bu da Azərbaycan üçün çox önəmli bir qərardır, çünki indi bizim yardıma böyük ehtiyacımız var.

Bütün bu qərarların xülasəsi İslam Konfransı Təşkilatının Yekun sənədində yazılmışdır. Sənədin bəndlərindən birində Ermənistanın Azərbaycana təcavüzü barədə İKT-nin mövqeyi öz əksini tapmışdır. Deyə bilərəm ki, bu məsələlərdə İKT-nın bütün üzvləri həmrəy oldular və buna görə də həmin qərarlar qəbul edildi.

Orada eyni zamanda Bosniya və Herseqovina, Fələstin, Kəşmir, Əfqanıstan, ümumiyyətlə qırğınlar gedən, insanlar həlak olan, qan tökülən, xüsusən müsəlmanlar qırılan yerlərlə bağlı problemlər haqqında ətraflı söhbətlər, geniş müzakirələr aparıldı və bu barədə də qərarlar çıxarıldı.

Türkiyə təmsilçiləri Azərbaycan haqqında çıxarılan bu qərarların hazırlanmasında və qəbul edilməsində çox önəmli işlər gördülər, bu məsələlərdə təşəbbüskar və yardımçı oldular. Mən bunu xüsusilə və məmnuniyyətlə qeyd edirəm. Kasablankada Türkiyənin hörmətli prezidenti, əziz dostum və qardaşım Süleyman Dəmirəllə bizim ayrıca görüşümüz oldu. Bu görüşdə də biz Azərbaycanın durumu haqqında, dünya problemləri, islam dünyasının problemləri haqqında fikir mübadiləsi apardıq və həmfikir olduğumuzu bildirdik. Söhbətimiz çox yaxşı keçdi.

Mən İKT-nin bu Zirvə toplantısından evə çox məmnunluqla dönürəm. Çünki Azərbaycan bu təşkilata üç il bundan əvvəl daxil olsa da, ölkəmizin problemləri orada indiyədək geniş işıqlandırılmayıb, yəni tam aydın olmayıb. Ona görə də Azərbaycanın indi bu Zirvə toplantısında iştirak etməsi və öz sözünü deməsi, eyni zamanda Azərbaycan haqqında xüsusi qətnamə və qərarların qəbul olunması ölkəmiz üçün önəmlidir və Azərbaycanın indiki durumu, vəziyyəti barədə beynəlxalq ictimaiyyətə həm məlumat verir, həm də onun diqqətini ölkəmizə, Ermənistanın Azərbaycana təcavüzünə cəlb edir. Odur ki, mən çox məmnunam.

Mənim deyəcəyim bu qədər. Diqqətinizə görə sağ olun. Təşəkkür edirəm. [32]

## KASABLANKA ZİRVƏ TOPLANTISINDAN BAKIYA QAYIDARKƏN TƏYYARƏDƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*16 dekabr 1994-cü il*

**– Cənab prezident, müstəqil Azərbaycan dövləti İslam Konfransı Təşkilatının Zirvə toplantısında ilk dəfə olaraq dövlət başçısı, prezident səviyyəsində təmsil edildi. Kasablanka toplantısının yekunları və onun Azərbaycan üçün əhəmiyyəti barədə nə deyə bilərsiniz?**

– Əvvəla, mən İKT-nin Kasablankada keçirilmiş Yeddinci Zirvə toplantısının ümumi əhəmiyyətindən danışmaq istəyirəm. Hesab edirəm ki, bu, beynəlxalq aləmdə böyük bir hadisədir. Bu, islam dünyasına mənsub olan 52 ölkənin dövlət başçılarının Yeddinci Zirvə toplantısı idi. Eyni zamanda indiki Zirvə toplantısı bu təşkilatın yaranmasının 25-ci ildönümünü qeyd edirdi. İKT 25 il bundan öncə yaranmışdır. Əlbəttə, yarandığı vaxt onun üzvləri indikindən xeyli az olub. Hətta keçən Zirvə toplantısı ilə indiki toplantı arasındakı dövrdə İKT-yə yeddi dövlət daxil olub və onların ümumi sayı 52-yə çatıb. Onlar bir milyarddan çox adam yaşayan ölkələri – 52 dövləti təmsil edirlər. Bu 25 il müddətində İKT yaşamağa, beynəlxalq aləmdə özünəməxsus rol oynamağa qadir olduğunu sübut edib. Mən hesab edirəm ki, bu yeddinci toplantı təşkilatın 25 illik fəaliyyətinə yekun vurmaqla bərabər, həm də onun zirvəsidir. Odur ki, bu Zirvə toplantısı dünya siyasətinə, beynəlxalq həyata, şübhəsiz, öz təsirini göstərəcəkdir.

Ötən üç ildə Azərbaycan İKT ilə müəyyən əməkdaşlıq etsə də, bu, çox da səmərəli olmayıb. Ona görə də Yeddinci Zirvə toplantısında Azərbaycanın dövlət başçısı səviyyəsində iştirak etməsi, şübhəsiz, Azərbaycan Respublikasının beynəlxalq aləmdəki vəziyyəti və xarici siyasəti ilə əlaqədar böyük hadisədir. Mən bunu belə qiymətləndirirəm. Bu Zirvə toplantısında iştirakı özüm üçün zəruri hesab edirəm.

Şübhə yoxdur ki, başqa beynəlxalq təşkilatların toplantıları kimi, bu Zirvə toplantısı da müəyyən hazırlıq dövrü keçmişdir. Hazırlıq dövründə biz çalışdıq ki, bu Yeddinci Zirvə toplan[33-34]tısında Azərbaycan üçün müəyyən nailiyyətlər əldə edək. Biz buna nail ola bildik. Niyyətlərimiz də ondan ibarət idi ki, birinci növbədə Azərbaycanın bir müstəqil dövlət kimi indiki vəziyyətini islam ölkələrinə, İKT-nin üzvlərinə çatdıraq, onları bundan hali edək, eyni zamanda bu toplantının imkanlarından istifadə edərək, Azərbaycanın vəziyyəti ilə əlaqədar müəyyən qərarlar qəbul edilməsinə nail olaq.

Şübhəsiz ki, bizim üçün beynəlxalq aləmdə ən mühüm məsələ Azərbaycana Ermənistan tərəfindən təcavüz edilməsi məsələsi idi, ötən altı ildən çox müddətdə bu təcavüzün Azərbaycan Respublikasına, Azərbaycan xalqına nə qədər böyük zərər vurduğunu, ölkəmizin nə qədər itkilər verdiyini, onun başına nə kimi bəlalar gəldiyini, Azərbaycan sakinlərinin necə böyük çətinliklərlə qarşılaşdığını dünyaya bildirmək idi. Ona görə də məqsədimiz bu idi ki, Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar bir qətnamə qəbul edilsin, Azərbaycan belə ağır vəziyyətdə olduğuna görə İKT və ona daxil olan dövlətlər ölkəmizə yardım göstərilməsi məsələsinə də baxsınlar.

Hazırlıq zamanı bu qətnamələrin başa gəlməsi asan olmamışdır. Maneçilik törədən amillər də, hətta maneçilik göstərən dövlət də olmuşdur. Bildiyiniz kimi, belə beynəlxalq toplantılarda qərar konsensus əsasında qəbul edilir. Konsensus olmadıqda, yəni dövlətlərdən birinin razılığı olmasa, qərar qəbul edilməyə bilər. Belə bir dövlət vardı və o, Ermənistanın Azərbaycana qarşı təcavüzkar olması fikri ilə razılaşmırdı. Ona görə də biz hazırlıq vaxtı xeyli iş apardıq. Biz Kasablankaya gəldikdə, bu qərarın müəyyən qədər təhlükə altında olduğunu gördükdə fəaliyyətimizi daha da artırdıq. Xarici işlər nazirlərinin görüşündə bu məsələ müzakirə edildi və həmin maneələrin aradan qaldırılmasına nail ola bildik.

Bilirsiniz ki, Zirvə toplantısı ayın 13-də axşam saat 7-də başlandı. Odur ki, bütün gün ərzində dövlət başçıları ilə görüşməyi qərara aldıq. Mən bir çox dövlət başçıları ilə görüşdüm. Biz həmin məsələni bu görüşlərdə də qaldırdıq. Mən dövlət başçılarına bildirdim ki, belə bir qətnamə var və onun qəbul edilməsinə maneələr ola bilər. Onların qarşısını almaq lazımdır. Biz bu işləri də gördük.

Nəhayət, toplantı öz işinə başladıqda, bizdə belə bir inam yarandı ki, qətnaməmiz qəbul ediləcəkdir. Amma toplantı qurtaranadək yenə də intizarda idik. Şükürlər olsun ki, gör[34-35]düyümüz işlər hədər getmədi, öz nəticələrini verdi və İKT-nin Yeddinci Zirvə toplantısı Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar çox ciddi, müfəssəl bir qətnamə qəbul etdi. Bu qətnamədə Ermənistanın təcavüzü hərtərəfli əks etdirilib və Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxması, qaçqınların öz ev-eşiklərinə qayıtması məsələsi qoyulub. Ermənistanla danışıqlarda çətin problemlərdən biri – Şuşa və Laçın rayonlarının azad edilməsi problemi də orada konkret surətdə göstərilib. Ona görə də Budapeştdə yüksək səviyyədə görüşdən qısa bir müddət, 10-15 gün keçdikdən sonra ikinci belə yüksək səviyyəli toplantıda – İKT-nin Yeddinci Zirvə toplantısında bu qətnamənin qəbul olunması bizim üçün, şübhəsiz, böyük hadisədir, hesab edirəm ki, tarixi hadisədir və bunun böyük əhəmiyyəti olacaqdır.

İkinci qətnamə – indiki vəziyyətlə, yenə də Ermənistanın təcavüzü ilə, bir milyon nəfərdən artıq qaçqının olması ilə əlaqədar islam dövlətlərinin Azərbaycana yardım göstərməsi haqqında qətnamə də bizim üçün çox əhəmiyyətlidir. Belə düşünürəm ki, bu dövlətlər həmin qətnaməyə əməl edərək bizə kömək göstərəcəklər. Kimin nə qədər kömək edəcəyini demək çətindir, hər halda bunun mənəvi cəhəti maddi cəhətindən daha üstündür. Deməli, bu dövlətlər Azərbaycanın ağır vəziyyətə düşdüyünü dərk edir və bunu nümayiş etdirir, eyni zamanda kömək göstərməyə hazır olduqlarını bildirirlər.

Yeddinci Zirvə toplantısının böyük yekun qətnaməsi, qərarı da oldu. Bu qərarda da bir çox məsələlər, yəni müzakirə olunmuş əsas məsələlər öz əksini tapdı. Bununla bərabər, Azərbaycana aid məsələ, Dağlıq Qarabağ, yəni Ermənistanın Azərbaycana təcavüzü məsələsi də yekun sənədində öz əksini tapdı. Ona görə də biz bu toplantıdan gözlədiyimiz sənədlərin qəbul edilməsinə nail olduq. Bu, böyük nailiyyətdir. Mən bundan çox məmnunam.

Bu toplantının bizim üçün əhəmiyyəti bir də ondan ibarətdir ki, 52 ölkənin dövlət başçılarının toplaşdığı böyük bir məclisdə mən öz çıxışımda Azərbaycanın vəziyyətini şərh etdim, Ermənistanın təcavüzündən, İKT-də Azərbaycanın yerindən, ölkəmizin islam dünyasına münasibətindən, islam dövlətləri ilə əlaqələrindən, Ermənistanın təcavüzü ilə bağlı olaraq respublikamızın düşdüyü vəziyyətdən və eyni zamanda bizim konkret təkliflərimizdən danışdım. Onu da qeyd etmək istəyi[35-36]rəm ki, respublikamız artıq dünya miqyasında tanınmışdır, özünə layıq yerini tutmaqdadır və Budapeşt görüşündə olduğu kimi, Kasablanka Zirvə toplantısında da Azərbaycana lazımi hörmət və ehtiramı daim hiss etdik. Eləcə də bu toplantının birinci hissəsində mənə söz verilməsi və çıxışımın böyük diqqətlə dinlənməsi, bir çox dövlət başçılarının bu çıxış barədə müsbət rəyi, çıxışımın doğurduğu əks-səda onu göstərir ki, artıq Azərbaycan Respublikası özünə layiq olan yeri tutubdur.

Biz İKT-nin bu toplantısında Azərbaycanı təşkilatın üzvü olan dövlətlərə bir daha tanıtdıq. Etiraf etməliyəm ki, bu dövlətlərin başçılarının, yaxud nümayəndə heyətləri rəhbərlərinin bəzilərinin çıxışlarında dünyadakı bir çox münaqişələrdən danışılarkən Ermənistanın Azərbaycana təcavüzündən, təəssüflər olsun, söhbət getmirdi. Bu da ondan irəli gəlirdi ki, görünür, indiyədək həmin dövlətlərlə lazımi işlər aparılmayıb, o dövlətlərin başçıları vəziyyətin nə qədər dərin olduğunu dərk etməyiblər. Ona görə də bu toplantıda həm gördüyümüz iş həm mənim çıxışım, həm qətnamələr, həm də dövlət başçıları ilə ikitərəfli görüşlərimiz, toplantının fasilələrində keçirdiyimiz görüşlər və apardığımız söhbətlər Azərbaycanı islam dövlətlərinin, demək olar, hamısına tanıtdı.

Hətta deyə bilərəm ki, Hind okeanında, Hindistana yaxın bir ərazidə yerləşən Maldiv dövlətinin nümayəndələri çox təkidlə müraciət etdilər ki, onun prezidenti bizimlə görüşsün. Mən fasilədə vaxt tapıb onunla görüşüb söhbət etdim. Maldiv adaları kiçik, lakin müstəqil bir dövlətdir. Onun başçısı orada 16 ildir prezidentlik edir və Azərbaycanın vəziyyətinə çox yaxşı bələddir. Mən çox məmnun oldum ki, o, həm Azərbaycanın tarixi keçmişini, həm bu gününü, həm düşdüyü vəziyyəti, həm də Ermənistanın təcavüzünü bilir, elə məni də keçmiş vaxtlardan tanıdığını qeyd etdi.

Demək istəyirəm ki, beləlari də var. Bununla yanaşı, eləlari də var ki, onlar məsələdən xəbərdardır, amma vəziyyətin bu qədər kəskin olduğunu dərk edə bilmədiklərinə görə öz çıxışlarında bunu qeyd edə bilmədilər. Lakin Azərbaycanın vəziyyətindən hali olan böyük dövlətlərin başçıları öz çıxışlarında Ermənistanın Azərbaycana təcavüzü haqqında sözlərini dedilər və bu təcavüzü pislədilər.

Bu toplantının bizim üçün əhəmiyyəti bir də ondan ibarətdir ki, biz Azərbaycanı bu dövlətlərə daha yaxından tanıtdıq, [36-37]onlara ölkəmizin vəziyyəti barədə məlumat verdik və onlarla əlaqələr də yaratdıq.

Zirvə toplantısı zamanı mənim bir çox dövlət başçıları ilə ikitərəfli görüşlərim oldu. Yəqin ki, siz bunları müşahidə etdiniz. Bir neçə görüşümüz də toplantının gedişində oldu. Lakin siz içəridə olmadığınıza görə onları əks etdirə bilmədiniz. Onların lent yazıları var və bu lentləri sizə verəcəklər. Bu görüşlərin hamısı çox səmərəli oldu. Məsələn, bizdən çox uzaqda yerləşən Bruney dövlətinin sultanı ilə görüşü, yaxud Malayziyanın baş naziri ilə görüşü qeyd edə bilərəm. Dediyim kimi, onlar bizdən uzaqda yerləşirlər. Bəlkə də bizdə bu ölkələri qədər də yaxından tanımırlar. Mən Malayziyanın baş naziri ilə görüşərkən soruşdum ki, o, Azərbaycanı necə tanıyır. Dedi ki, biz Azərbaycanı Qərb mətbuatında dərc edilən bəzi məqalələrdən tanıyırıq. Halbuki Malayziya Asiyada böyük və əhəmiyyətli dövlətlərdən biridir, müsəlman ölkəsidir, biz onunla iqtisadi əlaqələr yaratmalıyıq. Amma görürsünüzmü, orada Azərbaycanı hələ yaxşı tanımırlar.

İndi burada mən bütün görüşlərimi bir-bir sadalayıb, vaxt almaq istəmirəm. Qısaca onu deyə bilərəm ki, görüşlərim lap çox oldu, orada çox gərgin işlədik. Keçirdiyimiz görüşlər həm ikitərəfli əlaqələr yaratdı, həm də o ölkələrdə Azərbaycana maraq oyatdı. Bu görüşlərdə mən bir çox dövlət başçılarını Azərbaycana dəvət etdim. Onlar da məni öz ölkələrinə dəvət etdilər. Şübhəsiz ki, biz gələcəkdə bu dəvətlərdən istifadə edəcəyik və onlarla Azərbaycanın beynəlxalq əlaqələrini bütün sahələrdə genişləndirəcəyik. Ona görə də mən bu fikirdəyəm ki, Kasablanka Zirvə toplantısında Azərbaycanın iştirakı bizim üçün olduqca əhəmiyyətlidir.

Mərakeş kralı əlahəzrət II Həsən Azərbaycana çox böyük maraq göstərir. Toplantı qurtardıqdan sonra mənim onunla görüşüm və söhbətim oldu. O, məni ramazan ayı çıxandan sonra Mərakeşə rəsmi səfərə dəvət etdi. Mən də onu Azərbaycana dəvət etdim. Danışığımızdan bu qənaətə gəldik ki, ölkələrimiz arasında yaxşı əlaqələr qurmağa imkan var və biz onları qurmalıyıq.

Ümumiyyətlə, belə düşünürəm ki, Azərbaycan islam ölkələrinin imkanlarından daha səmərəli istifadə etməlidir. Biz artıq bir çox ölkələrlə əlaqələr yaratmışıq və mən həmin dövlətlərin başçıları ilə Kasablankada təkrarən görüşdüm. Lakin bir[37-38] sıra dövlətlərlə əlaqələrimiz yoxdur və biz onlarla da əlaqələr quracağıq.

Mən bu səfərimizi çox uğurlu hesab edirəm. İndi vəzifəmiz ondan ibarət olacaq ki, bu qətnamələrdən istifadə edək, Azərbaycanın mövqelərini dünya miqyasında möhkəmləndirək.

**– Cənab prezident, ən qatı opponentləriniz belə Sizin şəxsinizdə Azərbaycan prezidentinin qazandığı uğurları etiraf etmək məcburiyyətindədirlər. Belə bır qanunauyğunluq var və bu da əslində Budapeşt Zirvə toplantısında Azərbaycan prezidentinin uğurları, yəni ATƏM-in sülhyaratma qüvvələrinin yaradılması barədə qərar qəbul edilməsi, sonra isə İKT-nin Yeddinci Zirvə toplantısında təcavüzkarın tanınması ilə əlaqədardır. Təbii ki, Azərbaycana düşmən qüvvələr bununla bağlı müəyyən fəallıq göstərəcəklər. Bundan sonra Azərbaycana qarşı təzyiqlər güclənə bilərmi?**

– Açığını deyim, indi Azərbaycan elə bir vəziyyətdədir ki, onu hər şey gözləyə bilər. Ancaq müşahidəçilər bunu yəqin aşkar görürlər ki, mən Azərbaycana başçılıq etdiyim vaxtdan indiyə qədər Azərbaycanın müstəqilliyini, dövlətçiliyini qorumaq üçün prinsipial siyasət aparmışam və aparıram. Allaha şükürlər olsun ki, indiyə qədər bu siyasət öz müsbət nəticələrini verir və ümidvaram ki, bundan sonra da verəcəkdir. Amma heç kəs güman etməməlidir ki, gələcəkdə Azərbaycanın beynəlxalq aləmdə vəziyyəti asan olacaqdır. Yox, belə deyildir. Ölkəmizin vəziyyəti, Ermənistanla müharibə, dünyanın bir çox dövlətləri tərəfindən Ermənistanın ciddi dəstəklənməsi – bütün bunlar Azərbaycan üçün çox mürəkkəb şərait yaradır. Üstəlik, Azərbaycan müstəqillik əldə edən vaxtdan bəri çox itiribdir. Təsəvvür edin, üç ildir Azərbaycan müstəqil yaşayır, əgər bu müddət ərzində intensiv işlər görülsəydi, ölkəmizin beynəlxalq aləmdə mövqeyi daha möhkəm olardı, öz müstəqil siyasətini yeritmək üçün o, daha böyük imkanlara malik olardı. Bildiyiniz kimi, bunların hamısı yalnız son vaxtlarda həyata keçirilir. Amma güman edirəm ki, biz gələcəkdə də bu istiqamətdə işləyəcək və nə qədər çətinliklər olsa da, onların qarşısını alacağıq.

Bilirsinizmi, çətinliklər, bizi heç vaxt qorxutmamalıdır və biz heç vaxt da düşünməməliyik ki, bu Zirvə toplantılarından sonra çox hamar yolla gedəcəyik. Yox, çətinliklər olacaqdır. Ancaq nailiyyət üçün qətiyyət lazımdır. Nailiyyət üçün sərbəst [38-39] fikir lazımdır. Nailiyyət üçün müstəqillik lazımdır. Müstəqil siyasət lazımdır. Siz də görürsünüz ki, mən müstəqil siyasət aparıram.

**– Sizə bu müstəqil siyasətdə, Azərbaycanın gələcəyi yolunda uğurlar, cansağlığı, Azərbaycanı xoş günlərə çatdırmağınızı arzulayırıq.**

– Sağ olun!

**– Kasablanka Zirvə toplantısında Sizə bu məclisin bağlanması münasibətilə Asiyanın müsəlman ölkələri adından təbrik nitqi ilə çıxış etmək üçün söz verildi. Bu, Azərbaycan liderinin düzgün siyasi xətt seçdiyinə, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artdığına dəlalətdirmi?**

– Bilirsinizmi, bizim düzgün xətt seçdiyimiz heç də təkcə bununla səciyyələnmir. Biz təkcə islam dünyasına arxalanmırıq, bütün dünya birliyinə güvənirik. Götürək Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 49-cu sessiyasında mənim çıxışımı, yaxud ATƏM-in üzvü olan ölkələrin dövlət başçılarının Budapeştdə Dördüncü Zirvə toplantısında bizim iştirakımızı və mənim çıxışımı. İndi isə İslam Konfransı Təşkilatının Kasablanka görüşündə bizim iştirakımızı və mənim çıxışımı. Deyirsiniz ki, Zirvə toplantısının bağlanışı münasibətilə Asiyanın müsəlman ölkələri adından təbrik nitqi söyləmək və Yeddinci Zirvə toplantısının müvəffəqiyyətlə başa çatması münasibətilə minnətdarlıq etmək üçün mənə imkan verilmiş, daha doğrusu, böyük ehtiram göstərilmişdir. Bütün bunlar birlikdə götürüldükdə görürük ki, biz düzgün xətt seçmişik. Özü də təkcə İslam Konfransı Təşkilatının fəaliyyətində yox...

**– Mən kompleks şəkildə nəzərdə tuturam.**

– Bəli, kompleks şəkildə götürdükdə. Bəli, mən belə hesab edirəm və əminəm ki, Azərbaycan çox məqsədyönlü, düzgün, müstəqil, asılı olmayan, Azərbaycanın milli mənafelərinə cavab verən xarici siyasət yeridir.

**– Kasablankada Asiya dövlətləri adından Azərbaycan prezidentinin danışması irəlicədən məlum idi, yoxsa, görüşün gedişində məlum oldu?**

– Xeyr, irəlicədən məlum deyildi. Toplantının gedişi vaxtı dedilər, belə bir fikir var ki, üç regiondan çıxış olsun: ərəb ölkələri adından Yasir Ərəfat, Afrika ölkələri adından Burkina-Fasonun prezidenti, Asiya ölkələri adından isə Azərbaycan [39-40] prezidenti çıxış etsin. Bu məsələ katiblikdə müzakirə olunmuşdu və belə fikrə gəlmişdilər. Yəqin ki, belə bir fikrin olması da Azərbaycana göstərilən diqqət və münasibətin nəticəsidir.

**– Qəbul olunmuş qətnamədə onun həyata keçirilməsi üçün mexanizm nəzərdə tutulurmu?**

– Şübhəsiz ki, onun nəzarət mexanizmi də var. Biz bundan sonra işləməliyik və bu qətnamənin həyata keçirilməsi üçün lazımi tədbirlər görməliyik.

**– Müsaidənizlə, daha bir sual. Məlum bir həqiqətdir ki, islam dövlətləri böyük məclislərə toplaşanda, orada qərarlar qəbul edildə onlar çox vaxt yekdil olurlar. Amma onların bəziləri – mən ad çəkməyəcəyəm, – həmin xətti axıradək yürütmürlər. İndi burada ikitərəfli əlaqələrin, yeni tanışlıqların, yeni münasibətlərin yaranması bu xoşagəlməz halın aradan qaldırılmasına təsir göstərəcəkmi?**

– Buna şübhə ola bilməz. Mən hesab edirəm ki, İslam Konfransı Təşkilatına daxil olan dövlətlərin tam əksəriyyəti Azərbaycanın bu ağır vəziyyətini başa düşür və ona kömək göstərmək əzmindədir. Şübhəsiz ki, indi bu Zirvə toplantısında iştirak etməyimiz, mənim bir çox ikitərəfli görüşlərim olduqca əhəmiyyətlidir. Görüşdüyüm adamların bir çoxu ilə keçmişdən tanışam, çoxları ilə bir vaxtlar görüşlərim olub. Məsələn, Yasir Ərəfatla biz qardaş kimi görüşdük. O, məni görəndə sevindiyindən bilmədi ki, nə etsin. Çünki mən onu vaxtilə, daha doğrusu, 70-ci illərin sonunda Bakıda bir neçə dəfə qəbul etmişəm, ondan sonra Moskvada da qəbul etmişəm. Görən kimi dedi: mən çox sevinirəm ki, siz yenidən hakimiyyətə gəlmisiniz. Mənim Yəmən prezidenti ilə çox görüşlərim olmuşdu – Yəməndə də, Moskvada da. Yaxud başqaları ilə görüşəndə deyirdilər ki, biz sizin haqqınızda oxumuşuq, çox eşitmişik. Bunlar əvvəllər görüşmədiyim adamlar idi.

Əlbəttə, bütün bunlar əhəmiyyətlidir. Çünki islam dünyası mənim şəxsiyyətimlə. vaxtilə, şübhəsiz, çox maraqlanıb. Xüsusən mən Sovetlər İttifaqının rəhbərlərindən biri olduğum dövrdə hər bir müsəlman maraqlanırdı ki, indi Sovetlər dövlətinin rəhbərliyində bir müsəlman da var. Ona görə də onların mənim haqqımda qiyabi məlumatları tanış olmadığım adamların məlumatlarından çox idi. Məsələn, Suriyanın vitse-prezidenti Xəddamla, biz qardaş kimi görüşdük. Çünki mən onunla bir neçə dəfə görüşmüşdüm. O, bizim yenidən görüş[40-41]məyimizə çox sevindi. Mən onun vasitəsilə prezident Hafiz Əsədə salam göndərdim.

Şübhəsiz ki, bunlar Azərbaycan üçün çox əhəmiyyətlidir.

**– İslam Konfransı Təşkilatının bu qətnaməsi, dünyanın bu qədər dövlətinin Azərbaycana dəstək verməsi ATƏM-in qərarının daha səmərəli şəkildə həyata keçirilməsinə əlavə bir təsir ola bilərmi?**

– Şübhəsiz, çünki ATƏM özünün 20 illik tarixi və altı il edən Ermənistan-Azərbaycan müharibəsi ərzində ilk dəfə elə bir qərar qəbul etdi. Çoxları belə hesab edirdi ki, ATƏM heç vaxt belə qərar qəbul etməyəcəkdir. Lakin o, belə bir qərarı qəbul etdi. Budapeştdə 52 dövlət təmsil olunmuşdu. Burada, Kasablankada da 52 dövlət təmsil edilmişdi. Biz bu bir ay ərzində 104 dövlətlə təmasda olduq. Orada da, burada da Azərbaycan üçün çox əhəmiyyətli qətnamələr qəbul edildi. Mən hesab edirəm ki, bunlar 1994-cü ilin sonu üçün çox yaxşı töhfədir.

**– Ermənistanın təcavüzkar kimi tanınması barədə böyük bir addım atıldı və qətnamə qəbul olundu. Orada belə bir maddə var ki, BMT qarşısında məsələ qaldırılsın. Ümid varmı ki, ümumiyyətlə, BMT miqyasında Ermənistan təcavüzkar kimi tanınsın?**

– Bilirsinizmi, biz həmişə ümidlə yaşamalıyıq. Ümidlə yaşamasaq bir şeyə nail ola bilmərik. Həmişə ümidlə yaşamalıyıq. Əgər bir məqsəd varsa, demək, onu həyata keçirmək də mümkündür. Bir addım ata bildiksə, irəliyə getdiksə, ikinci addımı da ata bilərik. [41]

## BÖYÜK AZƏRBAYCAN RƏSSAMI SƏTTAR BƏHLULZADƏNİN ANADAN OLMASININ 85 İLLİYİNƏ HƏSR OLUNMUŞ SƏRGİNİN AÇILIŞINDA ÇIXIŞ

*Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi*

*17 dekabr 1994-cü il*

Hörmətli incəsənət ustalan, mədəniyyət xadimləri, mədəniyyətimizi, incəsənətimizi sevənlər, qiymətləndirənlər! Hörmətli bacılar, qardaşlar! Bu gün Səttar Bəhlulzadənin anadan olmasının 85-ci ildönümü qeyd edilir. Səttar Bəhlulzadə adı Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılmış bir şəxsiyyətdir.

Azərbaycan xalqının mədəniyyəti böyük tarixə malikdir. Qədim əsrlərdə xalqımızın yaratdığı rəssamlıq sənəti, miniatür sənəti, Sultan Məhəmmədin miniatür məktəbi, ondan sonrakı dövrlərdə Azərbaycan rəssamlarının, Azərbaycan memarlarının yaratdıqları əsərlər xalqımızın mədəni-mənəvi irsidir.

İyirminci əsrdə Azərbaycan xalqı dünyaya böyük rəssamlar, heykəltəraşlar bəxş edibdir. Onların arasında Səttar Bəhlulzadə xüsusi yer tutur.

Səttar Bəhlulzadə yaradıcılığının özünəməxsus xüsusiyyəti var. Həmin xüsusiyyət onun əsərlərində aydın görünür. Bu qeyri-adilik onun daxili fəlsəfi aləmi ilə, onun dünyagörüşü və fitri istedadı ilə bağlıdır. Şübhəsiz ki, belə əsərlər yarada bilən adam, o dövrdə klassik üslubdan kənara çıxıb öz yolu ilə gedən, öz rəssamlıq məktəbini yaradan bir insan həm öz şəxsiyyətinə görə adi deyil, həm sənətkarlığına görə adi deyil, həm də yaradıcılığına görə adi deyil. Çox qeyri-adi bir insandır, çox qeyri-adi bir rəssamdır, mədəniyyət xadimidir. Ona görə də bizim rəngarəng mədəniyyətimizdə, o cümlədən rəssamlıq məktəbimizdə Səttar Bəhlulzadə yaradıcılığı ilə yeni bir səhifə, yeni bir yol, yeni bir üslub açılıbdır. Bu rəssam illər boyu yaşayacaq və heç şübhə etmirəm ki, zaman keçdikcə Səttar Bəhlulzadənin yaradıcılığı daha da yüksəklərə qalxacaq, onun əsərlərinin qiyməti daha da artacaqdır.

Mən Səttar Bəhlulzadə ilə şəxsən yaxından tanış idim. [42-43]

Onunla şəxsi əlaqələrim var idi. Sizə məlumdur ki, mən 25 il bundan öncə Azərbaycanın rəhbərliyinə gəlmişdim, ancaq ondan xeyli əvvəl Səttar Bəhlulzadə bir rəssam kimi mənim diqqətimi cəlb etmişdi və onunla görüşlərim, söhbətlərim olmuşdu. Onun bir insan kimi qeyr-adiliyi və yaratdığı əsərlərin qeyri-adiliyi məni cəzb etmişdi. Sonralar da – mən Azərbaycanın rəhbəri olduğum zaman onunla görüşlərim olmuş və onun əsərlərinə həmişə yüksək qiymət vermişəm. Xatirimdədir, 1973-cü ildə onun əsərlərinə, deyəsən buradakı əsərlərin hansınasa Azərbaycanın Dövlət mükafatı verildi. Bəli, bu, mənim də şəxsən iştirakımla, təşəbbüsümlə oldu.

Demək istəyirəm ki, mən Səttar Bəhlulzadəni təkcə burada olan əsərləri ilə yox, yaxud da yazılarla yox, şəxsən tanıyırdım. Bir insan kimi, bir rəssam kimi ona hörmətim olmuşdu. Hələ 60-cı illərin əvvəllərində – o vaxt da hiss eləyirdim ki, Səttar Bəhlulzadənin Azərbaycan incəsənətində, rəssamlıq məktəbində özünəməxsus, çox görkəmli yeri var. Ondan sonrakı dövr də (indi çox vaxtlar keçibdir) bunu sübut etdi, mənim o vaxtkı hissiyyatlarımın üzərinə daha böyük hissiyyatlar gəldi. Zaman keçdikcə dünyada cürbəcür rəssamlıq məktəbləri yarandı, biz onları gördükcə, tanış olduqca Səttar Bəhlulzadənin nə qədər böyük sənətkar, nə qədər böyük rəssam olduğunu və onun əsərlərinin nə qədər qiymətli olduğunu hamımız dərk etdik. Ona görə də mən Səttar Bəhlulzadənin 85 illiyi yaxınlaşdığını bilən kimi xüsusi sərəncam verdim ki, bu yubiley geniş qeyd olunsun. Bununla əlaqədar mənim sərəncamımla komissiya yarandı. Baş nazirin müavini Elçin Əfəndiyev bu komissiyaya başçılıq edir və indi yubileyə hazırlıq işləri başa çatıb.

Bu gün Səttar Bəhlulzadənin 85-ci ildönümü təntənəli surətdə qeyd olunacaqdır. Mən tam əminəm ki, gələcək nəsillər görkəmli sənətkarın yaradıcılığına bundan da yüksək qiymət verəcəklər. Səttar Bəhlulzadənin yaradıcılığı Azərbaycan xalqının həyatında daim öz yerini tutacaqdır. Mən burada yazdığım sözləri bir də təkrar etmək istəyirəm. Onun yaradıcılığı bizim üçün mənəviyyat mənbəyidir, xalqımızı, onun mədəniyyətini yüksəklərə qaldırır. Xalqımızın mədəniyyətinin, rəssamlıq məktəbinin professional səviyyəsinin nə qədər yüksək olduğunu bütün dünyaya göstərir. Eyni zamanda xalqımızın rəssamlıq məktəbinin yeni, orijinal üslubda əsərlər yaratmağa qadir olduğunu sübut edir. Bu, bizim fəxrimizdir. Bu, xalqımızın[43-44] gələcəyi üçün, mədəniyyətimizin inkişafı üçün böyük bir əsasdır.

Mən sizin hamınızı bu münasibətlə təbrik edirəm və bir daha bu sərgiyə, görkəmli rəssamın əsərlərinə, Səttar Bəhlulzadənin xatirəsinə, onun şəxsiyyətinə hörmət və ehtiramımı bildirirəm. Sağ olun!

## SƏRGİNİN FƏXRİ QONAQLAR KİTABINA ÜRƏK SÖZLƏRİ

*"Azərbaycanın böyük rəssamı Səttar Bəhlulzadənin anadan olmasının 85-ci ildönümü ilə əlaqədar onun əsərlərinin sərgisinin açılması respublikamızın mədəni-ictimai həyatında əlamətdar bir hadisədir. Səttar Bəhlulzadə özünün orijinal, təkrarolunmaz yaradıcılığı, əsərləri ilə Azərbaycan xalqının mədəniyyətini zənginləşdirmiş, yüksəklərə qaldırmış, ona dünya şöhrəti qazandırmışdır. Onun əsərləri daima yaşayacaq, bu ağır günlərdə də, gələcəkdə də xalqımıza ilham verəcək, mənəviyyat mənbəyi olacaqdır. Səttar Bəhlulzadənin yaradıcılığına, mədəni irsinə, şəxsiyyətinə öz hörmət və ehtiramımı bildirirəm.*

**HEYDƏR ƏLİYEV**
Azərbaycan Respublikasının Prezidenti

*17.12.94* [44]

## BÖYÜK AZƏRBAYCAN RƏSSAMI SƏTTAR BƏHLULZADƏNİN ANADAN OLMASININ 85 İLLİYİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ ÇIXIŞ

*Respublika sarayı*

*17 dekabr 1994-cü il*

Hörmətli həmvətənlər! Mədəniyyət xadimləri, incəsənət pərəstişkarları! Möhtərəm bacılar və qardaşlar!

Bu günlər biz böyük rəssam, sənətkar, böyük insan Səttar Bəhlulzadənin anadan olmasının 85-ci ildönümünü qeyd edirik. Bu, bizim həyatımızda əlamətdar hadisədir. Biz, xalqımız, vətəndaşlarımız, dövlətimiz Səttar Bəhlulzadənin yubileyini qeyd edərkən mədəniyyətə, incəsənətə hörmət və ehtiramımızı, münasibətimizi bildiririk. Səttar Bəhlulzadə Azərbaycan Respublikasının və Azərbaycan xalqının mədəniyyətində çox görkəmli yer tutduğuna görə və böyük mədəni irs qoyduğuna görə onun yubileyinin belə təntənəli keçməsi və ümumi bayrama çevrilməsi tam əsaslıdır.

Azərbaycan xalqı zəngin mədəniyyət və incəsənət tarixinə malikdir. Xalqımız əsrlər boyu dünya sivilizasiyasına və mədəniyyətinə böyük töhfələr vermişdir. Mədəniyyətimizin böyük bir sahəsi rəssamlıq sənətidir və bu sahədə də Azərbaycan xalqının dünya mədəniyyətində öz yeri var. Şərq aləmində keçmiş dövrlərdə – orta əsrlərdə, qədim zamanlarda rəssamlıq sənəti miniatür üslubunda idi. Azərbaycanın böyük sənətkarı Sultan Məhəmməd beş yüz il bundan öncə böyük miniatür rəssamlığı məktəbi yaratmış və o məktəb davam edərək bütün Şərq aləminə öz təsirini göstərmişdir. Azərbaycan xalqı bununla fəxr edir. Onun bu gün də davamçıları var. Miniatür rəssamlıq sənəti bütün dünyada tanınmış və çox yüksək qiymətləndirilən rəssamlıq məktəbi və üslubudur. Bir daha deyirəm, biz bununla fəxr edirik və gələcək nəsillər də fəxr edəcəklər.

Eyni zamanda XX əsr Azərbaycan xalqının mədəni həyatında böyük hadisələr dövrü olubdur. XX əsrdə mədəniyyətimiz bütün sahələrdə sürətlə inkişaf edib, dünya mədəniyyəti[45-46]nə böyük simalar bəxş edib. Onların arasında rəssamlıq sahəsində Səttar Bəhlulzadənin xüsusi yeri var. O, nəinki Azərbaycan, həm də bütün dünya mədəniyyəti üçün, dünya rəssamlıq sənəti üçün görkəmli bir simadır və böyük mədəni irs qoymuşdur. Azərbaycan xalqı belə bir şəxsiyyəti ilə, belə bir insanla fəxr edir və bundan sonra da fəxr edəcəkdir.

Mən bilirəm ki, bu salona toplaşanlar Səttar Bəhlulzadə sənətinin pərəstişkarlarıdır, onun sənətinin əhəmiyyətini, mənasını qiymətləndirən adamlardır. Ancaq təkcə biz yox, hesab edirəm ki, bütün xalqımız Səttar Bəhlulzadə sənətinə yüksək qiymət verir və onunla fəxr edir. Ona görə də bu gün bizim üçün böyük mədəniyyət bayramıdır. Bu mədəniyyət bayramı münasibətilə və Səttar Bəhlulzadə günü münasibətilə sizin hamınızı təbrik edirəm!

Bu gün Səttar Bəhlulzadənin əsərlərindən ibarət sərgiyə baxdıq. Şübhəsiz ki, bu sərgidə görkəmli rəssamın əsərlərinin az bir qismi toplanmışdır. Səttar Bəhlulzadənin yaradıcılığına bələd olan adamlar onu tədqiq edənlər və tanıyanlar bilirlər ki, o həm böyük sənətkar idi, həm də çox məhsuldar işləyən adam idi. Bir sıra başqalarından fərqli olaraq daim işləyirdi, çoxlu əsər yaradırdı və bu əsərləri də dostlarına və tanışlarına, ayrı-ayrı təşkilatlara təmənnasız bağışlayırdı. Ona görə də əgər Səttar Bəhlulzadənin əsərlərindən ibarət sərgi yaratmaq fikrinə gəlsək və onun əsərlərinin hamısını toplamalı olsaq, bunun üçün bir salon yox, bir neçə salon da çatmaz. Ancaq bugünkü sərgidə toplanan əsərlər də Səttar Bəhlulzadənin yaradıcılığının, sənətkarlığının nə qədər böyük və təsirli olduğunu tam əks etdirir.

Səttar Bəhlulzadə Azərbaycan rəssamlıq sənətində yeni bir məktəb yaratmışdır. Onun əsərləri, sənətkarlıq və rəssamlıq üslubu çox orijinal və özünəməxsusdur. Sənətkarı tanıyan adamlar bu əsərləri görən kimi deyirlər ki, onun müəllifi Səttar Bəhlulzadədir.

Səttar Bəhlulzadənin davamçıları var və şübhəsiz ki, olacaqdır. Onun əsərləri yaşayacaq və şagirdləri yeni-yeni sənət nümunələri yaradacaqlar. Ancaq Səttar Bəhlulzadə Azərbaycanda bu janrın, bu üslubun və öz rəssamlıq məktəbinin banisidir. O, çox böyük, dəyərli və qiymətli əsərlər yaratmışdır. Səttar Bəhlulzadə Azərbaycan deməkdir. Onun əsərləri Azərbaycanı təsvir edir, Azərbaycanı göstərir, əks etdirir. Bu, rəssamın öz torpağına, öz vətəninə və xalqına nə qədər bağlı oldu[46-47]ğunu göstərir. O, elə bir böyük sənətkardır ki, istənilən mövzuda və süjetdə əsər yarada bilərdi. Ancaq onun əsərlərinin demək olar ki, əksəriyyəti Azərbaycanı və ölkəmizin əsasən bütün bölgələrini təsvir edir. Bunu etmək üçün Səttar Bəhlulzadəyə şübhəsiz ki, bütün Azərbaycanı gəzmək və onun hər yeri ilə tanış olmaq gərək idi. Səttar Bəhlulzadə bu yolu da keçmişdir. Azərbaycanı dərindən tanıyan adam kimi, o, vətənimizi çox gözəl təsvir edibdir.

Onun yaratdıqları adi rəsm əsərləri deyildir. Səttar Bəhlulzadə yaradıcılığa klassik üslubdan başlayıb – biz sərgidə bunun nümunəsini gördük, sonra isə özünəməxsus, öz aləminə, öz dünyasına, öz fəlsəfəsinə məxsus bir rəssamlıq yolu seçib və həmin yola daim sadiq olubdur. O vaxtlar 50-ci və 60-cı illərdə, yəni Səttar

Bəhlulzadənin ilk əsərləri yaranan zaman bəziləri onu anlamırdılar, bəziləri qəbul etmirdilər. Bəziləri isə bu əsərlərin nə qədər qiymətli olduğunu bilmirdilər. Ona görə də bəzən klassik üslubda çəkilən əsərlərə üstünlük verilirdi, Səttar Bəhlulzadənin əsərləri isə kənarda qalırdı. Ancaq zaman keçdi və Səttar Bəhlulzadə çox inadla öz yaratdığı üslubu, öz məktəbini davam etdirdi və yeni bir rəssamın yaranmasını nəinki Azərbaycana, həm də bütün dünyaya nümayiş etdirdi. Çox vaxt keçmədi, o, təkcə Azərbaycanda yox, dünyanın bir çox ölkələrində görkəmli bir rəssam xüsusi üsluba, xüsusi istedada malik olan rəssam kimi tanındı.

Səttar Bəhlulzadə öz əsərləri ilə Azərbaycan mədəniyyətini zənginləşdirdi, dediyim kimi, yeni bir rəssamlıq məktəbi yaratdı və incəsənətimizi zənginləşdirdi. Eyni zamanda o, Azərbaycanın mədəniyyətini, incəsənətini bütün dünyaya tanıtdı. Əgər Avropa Pikasso kimi böyük rəssamı ilə fəxr edirsə, biz də, şübhəsiz ki, Pikassonu böyük rəssam kimi tanıyırıq, onun əsərlərinə dərin hörmət edərək, eyni zamanda iftixar hissi ilə deyə bilərik ki, Azərbaycanın da Pikassoya bərabər Səttar Bəhlulzadə kimi rəssamı var və Azərbaycan da onunla fəxr edə bilər.

Rəssamın yaratdığı əsərlər yaşayır və gələcəkdə də yaşayacaqdır. Qeyd etdiyim kimi, İlahidən verilən fitri istedad onun fədakarlığı, inamla öz sənətini yaratmaq və inkişaf etdirmək əzmi Səttar Bəhlulzadəni böyük sima etmişdir, onun Azərbaycan üçün belə zəngin töhfələr verməsinə şərait yaratmışdır. [47-48]

Bu il rəssamın yubileyi ilə əlaqədar Nyu-Yorkda BMT-nin binasında, İstanbulda və başqa yerlərdə onun əsərlərinin sərgisi nümayiş etdirilibdir. Ancaq Səttar Bəhlulzadənin dünyada tanınmasını təkcə bunlar göstərmir. Rəssamın əsərlərini indi bir çox ölkələrdə tapmaq olar. Axtarsaq, onun əsərlərini ayrı-ayrı adamlarda, sənətsevərlərdə tapa bilərik.

Onun özünəməxsus aləmi var idi. O, bir insan kimi fəlsəfəyə bağlı adam idi. Ona görə də Səttar Bəhlulzadənin yaratdığı əsərlər, onun həyatı rəssamın daxili dünyasının nümayişidir. Mən onu yaxşı tanıyırdım. 60-cı ilin əvvəllərində Səttar Bəhlulzadə ilə şəxsi münasibətim var idi və mən Azərbaycana rəhbərlik edərkən onun sənətini sevdiyimə və bir insan kimi ona hörmət etdiyimə görə bu böyük rəssamla təmaslarım olmuşdur.

O, qeyri-adi bir insan idi. Qeyri-adiliyini öz əsərləri ilə hamıya nümayiş etdiribdir. Rəssamı tanımayan adamlar da onun orijinallığını, novatorluğunu öz gözləri ilə görmüşlər. Bu gün bu salonda olanların bır çoxu bəlkə onu görməmiş və şəxsən tanış olmamışdır, amma əsərlərinə əsasən bunların hamısını hiss edirlər. O, bir insan kimi də əzmkar və fədakar, sənətini çox sevən və bütün həyatını öz sənətinə həsr edən adam idi. Bu insan heç vaxt şan-şöhrət, ad, mükafat dalınca getməmişdir. Belə şeylər onu heç vaxt maraqlandırmamışdır. Buna görə onun həyatı da çox sadə və təvazökar olmuşdur. Bəlkə də onun şəxsi həyatı, yaşayışı çox çətin keçmişdir, mən bunları da bilirəm, ancaq bununla bərabər, onun daxili aləmi, mənəviyyatı, yaratdığı əsərlər o qədər böyükdür ki, bunlar Səttar Bəhlulzadəni bizə böyük bir sima kimi tanıdıbdır və gələcəkdə də tanıdacaqdır.

Mən Səttar Bəhlulzadənin 85 illik yubileyinin keçirilməsi haqqında sərəncam verərkən, bu qərarı, şübhəsiz ki, bir tərəfdən onun yaradıcılığına yüksək qiymət verilməsi üçün qəbul etdim və digər tərəfdən bu, bizim hamımızın, müstəqil Azərbaycan dövlətinin mədəniyyətimizə, incəsənətimizə, rəssamlarımıza və onların sənətinə olan hörmət və ehtiramının rəmzidir, təzahürüdür. Eyni zamanda biz bu yubileyi keçirərkən vəzifələrimizi də bilməliyik. Bu vəzifələr ondan ibarətdir ki, biz Səttar Bəhlulzadənin əsərlərinin hamısını toplamalıyıq, onların kataloqunu hazırlamalıyıq. Görkəmli sənətkarın adına bir rəssamlıq mərkəzi açmalıyıq, Səttar Bəhlulzadə muzeyi yaratmalıyıq. Doğrudur, onun yaşadığı yerdə ev [48-49] muzeyi var. Bu, təbiidir və vaxtilə yaranıbdır. Biz onu qoruyub saxlamalıyıq. Ancaq mən muzey deyəndə Səttar Bəhlulzadənin əsərlərindən ibarət daimi muzeyin yaranmasını nəzərdə tuturam. Çünki rəssamın həm həyatı, həm də yaradıcılığı, əsərləri, mədəni və mənəvi irsi xalqımızın bu günü və gələcəyi üçün mənəviyyat mənbəyidir, məktəbidir. Xalqımızın estetik tərbiyəsini daha da gücləndirmək üçün Səttar Bəhlulzadənin əsərlərindən istifadə etməliyik. Ona görə də belə bir mərkəzin, belə bir muzeyin yaranması çox zəruridir.

İndi həyatımız nə qədər çətin, ağır olsa da, biz heç vaxt mədəniyyəti unutmamalıyıq. Mədəniyyət həmişə bizimlə bərabər olmalıdır, mədəniyyətə qayğı göstərməliyik, onu inkişaf etdirməliyik. Çünki bu çətin günlər müvəqqətidir. Ancaq həyat daimidir. Mədəniyyət də, rəssamlıq da daimidir.

Buna görə də gələcək nəsillərin tərbiyəsi üçün, onları Səttar Bəhlulzadə həyatının nümunəsində tərbiyə etmək, onun sənətə bağlılığı, fədakarlığı, işgüzarlığı, təvazökarlığı nümunəsində böyütmək və eyni zamanda gələcək nəsilləri rəssamın yaratdığı əsərlərin mənəvi və fəlsəfi təsiri altında yetişdirmək üçün biz Səttar Bəhlulzadə irsinə çox böyük diqqət yetirməliyik. Biz buna çox ehtiyatla yanaşmalıyıq, ona qayğı göstərməliyik və elə etməliyik ki, bu əsərlər toplansın, bizim böyük bir mədəniyyət mərkəzində olsun, indi və gələcəkdə Səttar Bəhlulzadənin yaradıcılığı timsalında mədəniyyətimizi inkişaf etdirib irəli apara bilək.

Biz Səttar Bəhlulzadənin yubileyini qeyd edərkən bütün incəsənət xadimlərinə, rəssamlarımıza öz hörmət və ehtiramımızı göstəririk. Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, XX əsrdə Azərbaycan rəssamlıq məktəbi, Azərbaycan rəssamları dünya miqyasında görkəmli yer tutmuşlar. Bunu bütün dünya rəssamlarının işləri ilə tanış olan bir adam kimi, onlarla müqayisə edərək tam əsasla deyə bilərəm. Bəzən biz özümüz ətrafımızda olan inciləri qiymətləndirə bilmirik. Ancaq bu həqiqətdir ki, XX əsrdə, xüsusən 30-cu illərdən sonra Azərbaycanda gözəl, böyük, çoxsahəli və çoxşaxəli rəssamlıq məktəbi yaranıb, böyük rəssamlar yetişibdir.

Onlar Azərbaycan rəssamlıq məktəbini dünyaya tanıdıblar. Biz bununla fəxr edirik. Bütün rəssamlarımızın əsərlərinə qay[49-50]ğı ilə yanaşmalıyıq və gözəl əsərlər yaratmalarına şərait təmin etməliyik.

Altı ildir ki, müharibə içərisindəyik. Bu dövr Azərbaycanın həyatı üçün ağır, əzab-əziyyətli bir dövrdür. Eyni zamanda bu, sınaq, imtahan dövrüdür. Bu dövr mədəniyyətimizin bütün sahələrində, o cümlədən də rəssamlarımızın əsərlərində gərək öz əksini tapsın. Həmin əsərlər də indi yaradılmalıdır. Mənim xatirimdədir, 1990-cı il faciəsindən sonra rəssamlarımızda böyük bir coşqunluq əmələ gəlmişdi. Onlar çox böyük hissiyyatla o günləri, o dövrü öz əsərlərində əks etdirirdilər. Mən o vaxt Moskvadan Bakıya gələndə bir sıra yeni əsərlər gördüm və çox sevindim.

Ancaq indi yaşadığımız dövr Azərbaycanın öz müstəqilliyini əldə etməsi və onu müdafiə etməsi, torpaqlarını qorumaq uğrunda vuruşması, xalqımızın qanının tökülməsi, şəhidlər verməsi, bir milyondan artıq qaçqın və onların vəziyyəti bunlar Azərbaycan tarixinin böyük bir səhifəsidir. Bu, gərək bütün mədəniyyət və incəsənət ustalarımızın əsərlərində öz əksini tapsın. Mən arzu edərdim ki, rəssamlarımız da bu dövrü öz əsərlərində əks etdirsinlər.

Güman edirəm ki, bugünkü yubiley toplantısı, Səttar Bəhlulzadənin yaradıcılığına, şəxsiyyətinə verilən qiymət rəssamlarımızı daha da ruhlandıracaq, onlar həm xalqımızın tarixi keçmişi, həm də bu günü və xüsusən son illər haqqında gözəl əsərlər yaradacaqlar.

Mən sizin hamınızı Səttar Bəhlulzadənin 85 illiyi, bu bayram münasibətilə təbrik edirəm. Bir daha demək istəyirəm ki, Səttar Bəhlulzadənin həyatı, yaradıcılığı, onun əsərləri bu günümüz və gələcəyimiz üçün mənəviyyat mənbəyidir. Biz fəxr edə bilərik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı, Bakı şəhəri, Əmircan torpağı belə böyük insan, böyük bır sima, dünya mədəniyyətində özünə layiq yer tutan Səttar Bəhlulzadə kimi insan yetiribdir.

Eşq olsun Azərbaycan mədəniyyətinə!

Sağ olun [50]

## AQRAR BÖLMƏDƏ İQTİSADİ İSLAHATLARA HƏSR OLUNMUŞ GENİŞ MÜŞAVİRƏDƏ GİRİŞ VƏ YEKUN SÖZÜ

*Prezident Sarayı*

*23 dekabr 1994-cü il*

Bugünkü müşavirə respublika iqtisadiyyatında mühüm yer tutan aqrar bölmədə iqtisadi islahatların aparılmasına həsr olunub. Bildiyiniz kimi, iqtisadi islahatların həyata keçirilməsi haqqında respublikada müzakirələr gedir, ictimai fikir formalaşır. Təbiidir ki, bu proses ictimaiyyətdə, müxtəlif mövqeli insanlarda, ayrı-ayrı sahələrdə fəaliyyət göstərən təşkilatlarda psixoloji dəyişikliklər baş verməsi ilə bilavasitə bağlıdır.

Cəmiyyətdə bir tərəfdən köhnə üsul-idarəyə, köhnə iqtisadi sistemə bağlılıq, mühafizəkarlıq meylləri, ikinci tərəfdən isə həyatın təbii, obyektiv prosesləri ilə əlaqədar yeniliklər, dəyişikliklər, islahatların aparılması meylləri mövcuddur. Bütün bunlar təbiidir. Eyni zamanda bu proses bizim gələcək yolumuzun daha da doğru-düzgün müəyyən olunması üçün zəruridir. Bunların hamısının nəticəsində cəmiyyətimizdə ümumi fikir əksərən iqtisadi islahatların həyata keçirilməsi xeyrinə formalaşıbdır. Ona görə də biz dövlətin, hökumətin bu mövqeyini dəfələrlə bəyan etmişik ki, respublikamızın iqtisadiyyatında inkişafı təmin etmək üçün, əhalinin rifahının yüksəlməsinə nail olmaq üçün mütləq iqtisadi islahatlar yolu ilə getməliyik.

Respublikamızda, ölkəmizdə iqtisadiyyatın böyük bir hissəsini aqrar bölmə təşkil edir. Ola bilər ki, həmin bölmə bu islahatları aparmaq üçün daha mürəkkəb sahədir. Bu mürəkkəbliyinə görə aqrar bölmədə islahatların ləngiməsi müəyyən qədər təbiidir. Amma eyni zamanda etiraf etməliyik ki, aqrar bölmədə iqtisadi islahatların ləngiməsi bizim özümüzün bu məsələlərə qətiyyətlə, cəsarətlə yanaşmamağımızın nəticəsidir.

İqtisadi islahatlar haqqında danışıqlar, söhbətlər son 5-6 ildir gedir. Əgər bunun birinci mərhələsi Sovetlər İttifaqının sosializm quruluşunun mövcud olduğu dövrdə olubsa, – o vaxtlar [51-52]iqtisadi islahatlar barədə təkliflər var idi, proseslər gedirdi, müəyyən addımlar atılırdı, – ikinci hissəsi respublikamızın müstəqillik əldə etdiyi dövrə təsadüf edir.

Azərbaycan üç ildən artıqdır ki, müstəqil dövlətdir. Müstəqil dövlət olan vaxtdan da ümumi hərəkət xətti belə olub ki, respublikamız sərbəst iqtisadiyyat yolu ilə getməlidir. Ancaq bu bəyanatlar, ümumi fikirlər təəssüf ki, əməli işdə öz əksini tapmayıb. Ona görə də biz ləngimişik.

Bunu da qeyd etmək lazımdır ki, respublikamızda iqtisadi islahatların, o cümlədən, xüsusən aqrar bölmədə islahatların ləngiməsi, yaxud buna müxtəlif münasibət bəslənməsi və bəzi mühafizəkar fikirlərin müəyyən yerlərdə üstünlüyü respublikamızın müharibə şəraitində olması ilə, ərazimizin bir qisminin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi ilə əlaqədardır. Bu, obyektiv haldır. Ancaq eyni zamanda bu bizi tutduğumuz yoldan geri çəkə bilməz, yaxud da bizim qarşımızı almır.

Biz müharibə şəraitindəyik, müharibədən çıxmaq yolları axtarırıq. Bu yollar asan deyil, müəyyən vaxt tələb edir. Bu fikir də yəqin əsaslı olardı ki, biz iqtisadi islahatları sürətlə aparsaq və bunun səmərəliliyini təmin edə bilsək, bunlar həm iqtisadi potensialımızın möhkəmlənməsini təmin edəcək, həm də, bəlkə müharibə şəraitindən daha tez çıxmağımız üçün, torpaqlarımızın geri qaytarılması üçün, respublikamızın ərazi bütövlüyünün təmin edilməsi üçün bir əsas yaradacaqdır. Bunların hamısını cəmləyərək tam qətiyyətlə demək olar ki, aqrar bölmədə iqtisadi islahatlar aparılmalıdır.

Biz istəmirik ki, taleyüklü bu məsələlər respublikamızın bu günü, gələcəyi üçün çox dərin əhəmiyyəti olan məsələlər tələsik, səthi tədbirlərlə həyata keçirilsin. Ona görə də aqrar bölmədə iqtisadi islahatların aparılması haqqında təkliflər, təşəbbüslər, fikirlər, xüsusən son aylarda ictimaiyyətdə, ayrı-ayrı təşkilatlarda, nazirliklərdə, aqrar bölmə üzrə fəaliyyət göstərən qurumlarda müzakirə olunub. Biz çalışmışıq, şəxsən mən daim belə hesab etmişəm ki, insanlara sərbəstlik verilsin. Aqrar bölmədə hər bir şəxs, eyni zamanda bu məsələlərin həlli üçün məsul olan təşkilatlar bu islahatların hansı yolla necə aparılması haqqında öz fikirlərini, təkliflərini tam sərbəst şəkildə verə bilsinlər, təşəbbüslərlə çıxış etsinlər.

Ancaq bütün bu proseslərə nəzər salarkən mən bildirmək istəyirəm ki, respublikamız həmin sahədə gecikibdir. Bu, təkcə [52-53] son dövrün prosesi deyil, gecikmə bir neçə ilə aiddir. Son aylarda biz bu işləri sürətləndirməyə çalışmışıq. Hələ bu ilin əvvəlində mən şəxsən müvafiq təşkilatlara göstəriş vermişdim ki, onlar bu islahatlar haqqında müəyyən təkliflər, layihələr hazırlasınlar. Kənd təsərrüfatı ilə əlaqədar bir neçə dəfə keçirilən müşavirələrdə aqrar bölmədə iqtisadi islahatlar aparılmasının zəruriliyini bildirmişəm, bu barədə öz mülahizələrimi irəli sürmüşəm. Kənd zəhmətkeşlərinə, torpaqla bağlı olan adamlara, aqrar bölmədə çalışan bütün vətəndaşlarımıza müraciət etmişəm ki, onlar bu barədə daha çox fəallıq göstərsinlər və əsas təkliflərini hazırlasınlar.

Müəyyən işlər gedir. Ancaq bu işlər də ləngiyir. Nəhayət, noyabrın 5-də mən böyük bir müşavirə keçirdim. Həmin müşavirədə islahatlar barədə hazırlanmış layihələr ilkin müzakirə edildi və bundan sonra bu

layihələrin həm Milli Məclisin komissiyalarında, həm də aqrar bölmənin təşkilatlarında baxılması, ictimaiyyət tərəfindən müzakirə olunması prosesi gedib.

İndi bunlar hamısı arxada qalıb. Bu layihələrə bütün təbəqələrdə baxılıb, axırıncı variantları mətbuatda dərc olunub. Siz onlarla tanışsınız. Ancaq bütün bu müzakirələrə baxmayaraq, mən yenə də bugünkü böyük müşavirənin keçirilməsini zəruri hesab etdim. Çünki məsələ çox ciddidir, mürəkkəbdir və bu məsələni həll etmək üçün gərək çox ölçüb-biçək. Yəni bu məsələnin həll olunması, prinsipial yol müəyyəndir. Artıq bu barədə mübahisə etmək, mənə elə gəlir ki, gecdir. Söhbət bu islahatların keçirilib-keçirilməməsindən getmir. İslahatların zəruriliyi ictimaiyyətimiz tərəfindən qəbul edilib. Ancaq bu islahatların hansı yolla, hansı müddətdə, hansı mərhələlərdə keçirilməsi müzakirə olunur – bunun mexanizmi necə olmalıdır, biz hansı vasitələrdən istifadə etməliyik – bunlar müzakirə olunur. Mətbuatda dərc edilmiş, sizin sərəncamınızda olan layihələrin müzakirəyə ehtiyacı vardır və onların da üzərində işləmək lazımdır. Ona görə də son mərhələdə bu müşavirənin keçirilməsini, geniş fikir mübadiləsi aparılmasını lazım bilmişəm.

Biz burada bir şeyi nəzərə almalıyıq. Bildiyiniz kimi, aqrar bölmə sovet hakimiyyəti qurulandan sonra böyük dəyişikliklər prosesi keçmişdir. Uzun illər – əgər sovet hakimiyyətinin qurulması dövrünü, yaxud kollektivləşmə tədbirlərini yada salsaq, – o vaxta qədər torpaq şəxsi mülkiyyətdə, mülkiyyətçilərdə [53-54] olub, – insanlar torpaqdan şəxsi mülkiyyət formasında istifadə ediblər. 1930-cu ildən başlayaraq çox böyük dəyişikliklər gedib. Bunlar bəşəriyyət tarixində bəlkə də ilk dəfə Sovetlər İttifaqında uğur qazanan dəyişikliklərdir. Kollektivləşmə dövründə torpaq da, kənd əhalisinin əlində olan əmlak da kollektivləşdirilib və kollektiv təsərrüfatlar yaranıb. Bu təsərrüfatlar dövlətin əlində olub, dövlət tərəfindən idarə edilib və 70 il müddətində bizim respublikamız Sovetlər İttifaqının başqa yerləri kimi, bu iqtisadı sistem daxilində dövlət təsərrüfatı ilə məşğul olub.

Şübhəsiz ki, bu dövrdə Azərbaycan Respublikasının kənd təsərrüfatı çox inkişaf edib – bunu tam qətiyyətlə, açıq surətdə deməliyik. Yeni torpaqlar istifadəyə verilib, torpaqların sağlamlaşdırılması, onlardan səmərəli istifadə olunması üçün tədbirlər görülüb. Böyük istehsal fondları, emal müəssisələri yaradılıb, kənd təsərrüfatı məhsulları istehsalı üçün texnikanın cürbəcür formalarından istifadə olunub. Kənddə, kənd təsərrüfatında, aqrar bölmədə mexanikləşdirmə prosesi gedib. Şübhəsiz ki, bunlar hamısı 30-cu illə müqayisədə tamamilə başqa bir aqrar potensial – kənd təsərrüfatı potensialı yaradıb, respublikamızda öz nəticələrini verib. Sovetlər İttifaqının tərkibində olmuş başqa respublikalar da kənd təsərrüfatı sahəsində böyük nailiyyətlər əldə ediblər.

Ancaq bildiyiniz kimi, 70-ci illərin sonunda, 80-ci illərin əvvəlində kənd təsərrüfatı sahəsində bu sistemin axsaması, onun inkişafının dayanması prosesi müşahidə olunmağa başlayıb, çıxış yolları axtarılıb. Bax, bu yollar o vaxtdan axtarılır və həmin axtarış indi də davam edir.

Ona görə də biz indi bu iqtisadi islahatları apararkən keçmiş, yəni indiyə qədər mövcud olan istehsal, əmlak, mülkiyyət münasibətləri formasından asılı olmayaraq, əldə edilmiş potensialı saxlamalıyıq, onu daha da inkişaf etdirməliyik. İndi islahatları mülkiyyət formasının dəyişdirilməsi əsasında aparmaq nəzərdə tutulur. 30-cu illərdə mülkiyyət forması inzibati yolla, bir çox hallarda repressiya yolu ilə, zor və güc ilə dəyişdirilirdisə, bu da şübhəsiz, böyük itkilərlə müşayiət olunub və bunlar sonra keçib gedib, insanlar yeni formaya öyrəniblər. İndi isə biz əldə olan bu potensialı saxlamalıyıq və islahatları demokratik prinsiplər əsasında, könüllülük prinsipi əsasında, insanların bu işə şüurlu münasibəti əsasında aparmalıyıq. [54-55]

Yəni burada nə inzibatçılığa, nə zorakılığa, nə də güc tətbiq edilməsinə yol vermək olar. Sadəcə olaraq, insanları, aqrar bölmədə çalışanları islahatların zəruriliyinə inandırmaq lazımdır və onlar bu islahatları şüurlu surətdə aparmalıdırlar, islahatlar xatirinə yox. İslahatlar ancaq və ancaq aqrar bölmənin səmərəliliyini, kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, torpaqdan daha səmərəli istifadə etmək üçün olmalıdır. Bu islahatlar 70 il müddətində əldə olunmuş potensialı dağıtmaq üçün yox, əksinə, ondan daha səmərəli istifadə etmək üçün aparılmalıdır.

Təəssüflər olsun ki, son illərdə dağıdıcı proseslər geniş yayılıb və iqtisadiyyatımıza zərər vurubdur. Əgər 70-ci illərdə, 80-ci illərin birinci yarısında kənd təsərrüfatında olan iqtisadi göstəricilərimizi yada salsaq və aqrar sahədə bugünkü göstəricilərimizi onlarla müqayisə etsək, son 5-6 ilin dağıdıcı proseslərinin iqtisadiyyatımızı, o cümlədən xüsusən aqrar sahəni nə qədər ağır vəziyyətə saldığını görərik.

İndi aqrar bölməmiz ağır bir mərhələdədir. İslahatlar isə gərək bizi bu ağır mərhələdən çıxarıb iqtisadiyyatın inkişafı üçün əsas yaratsın və bu inkişafı ardıcıl olaraq təmin etsin. Əgər islahatlar bizi çox hissəsi dağılmış aqrar bölmənin daha da dağılmasına doğru aparsa, onda dərin quyunun dibinə düşmüş olarıq. Ona görə də bu islahatların aparılmasında mühafizəkarlığa qətiyyən yol vermək olmaz, eyni zamanda islahat şüarları altında aqrar bölmədə əldə olan potensialımızın dağılmasına da yol vermək olmaz. Bir fikir də əsas yer tutmalıdır: aqrar bölmədə hər bir adam bu islahatların aparılmasından bəhrələnməlidir, hər bir vətəndaşımız bəhrələnməlidir.

30-cu illərdə kollektivləşmə başlayanda kənddə üç təbəqə var idi: qolçomaqlar, orta təbəqə, bir də yoxsullar. O vaxt kollektivləşmə prinsipi, ümumiyyətlə sosializm quruluşunun prinsipi ondan ibarət idi ki, insanlar bərabərləşsin, yoxsulluq aradan götürülsün, adamların hamısı bərabər maddi səviyyədə yaşasın. Ona

görə də mülkədarların mülkləri əllərindən alındı, onlar bundan məhrum oldular. Orta təbəqəyə məxsus kəndlilərin mülkləri də müəyyən qədər kollektivləşmə prosesinə getdi, bunlar hamısı yoxsullarla cəmləşib kollektiv təsərrüfat yaratdılar.

İndi biz bu iqtisadi islahatları aparanda sahibkarlıq, mülkiyyət formalarının dəyişdirilməsi, şübhəsiz ki, müəyyən qədər tə[55-56]bəqələşməyə gətirib çıxaracaqdır. Ancaq eyni zamanda, biz heç vaxt yol verməməliyik ki, bunların nəticəsində yenə də əhalinin bir hissəsi yoxsullaşsın, ağır vəziyyətə düşsün.

Ona görə də aqrar bölmədə iqtisadi islahatlar, torpaq islahatı ədalətli, düzgün aparılmalıdır. Ən əsası da ondan ibarətdir ki, iqtisadi prinsiplər, iqtisadi qanunlar əsasında, sərbəst iqtisadiyyat prinsipləri, qanunları əsasında aparılmalıdır. Bax, bunların hamısını təmin etmək üçün, bu iqtisadi islahatların aparılması yollarını müəyyən etmək üçün belə müzakirələr lazımdır. Bu layihələr ictimaiyyətə təqdim olunandan sonra biz təklif etmişdik ki, rayonlarda, təsərrüfatlarda, kəndlərdə torpaqla məşğul olanlar, aqrar bölmədə çalışan adamlar müzakirə etsinlər, öz fikirlərini, mülahizələrini bildirsinlər.

Biz dünən bir müşavirə keçirdik, bu layihələri müzakirə etdik. Layihələrin çatışmazlıqları, nöqsanları, orada zəruri dəyişikliklər aparılması lüzumu dünənki müzakirədə meydana çıxdı. İndi Azərbaycanda, Bakıda bundan böyük salonumuz yoxdur. Buraya aqrar bölmə ilə məşğul olan təşkilatların, nazirliklərin, rayonların, təsərrüfatların nümayəndələri dəvət ediliblər. Mən göstəriş vermişdim ki, dəvət edilənlər arasında bütün təbəqələrdən vətəndaşlarımız olsun, sərbəst müzakirə aparaq, hərə öz fikrini desin. Ola bilər, bu fikirlər bir-birinə zidd olsun, bir-biri ilə toqquşsun, – bundan narahat olmaq lazım deyil. Bu fikir mübadiləsində bəzən fikirlərin toqquşması da ola bilər. Biz gərək bu layihələri daha da təkmilləşdirək, nəticədə elə qanunlar qəbul edək ki, o qanunlar bütün təbəqələrin mənafeyini təmin etsin, eyni zamanda aqrar bölmənin sürətlə, səmərəli inkişaf etməsi üçün əsas yaratsın.

Bugünkü müşavirənin məqsədi bundan ibarətdir. Ona görə də mən sizdən rica edirəm ki, kim hansı fikir söyləmək istəyirsə, çıxış etsin. Bu barədə heç kəsə qadağan yoxdur. Mən istərdim ki, burada hər bir fikir aşkar olsun. Kimin layihə haqqında nə fikri varsa desin. Güman edirəm – bunu demişəm, bir daha deyirəm – müzakirələrdə iqtisadi islahatların keçirilib-keçirilməməsi məsələsinə vaxt itirmək lazım deyil. Çünki artıq məlumdur ki, aqrar sahədə iqtisadi islahatlar keçirilməlidir. Bizim bəzi natiqlər çıxış edərkən bu iqtisadi islahatların keçirilməsi zərurətini sübut etməyə çalışırlar. Bunu sübut etməyə artıq ehtiyac yoxdur. Əgər bu iqtisadi islahatların keçirilməsinə kiminsə ciddi dəlillərlə etirazı varsa, onu desin. Qoy heç kəs çəkinməsin. Kim islahatların əleyhinə çıxış [56-57] etmək istəyirsə, buna etiraz etmək istəyirsə, konkret sübutları, faktları varsa, buyursun.

Cəmiyyətimizdə bu islahatların həyata keçirilməsi fikri artıq tam formalaşıb. Ona görə də mən istərdim ki, çıxışlarda iqtisadi islahatların həyata keçirilmə yolları haqqında fikir söylənilsin və xüsusən, təqdim olunmuş layihələrə münasibət bildirilsin. Məsələn, o layihələrin hansı hissəsi yararlıdır, hansı hissəsi yararlı deyil, hansını dəyişdirmək, hansına əlavə etmək lazımdır – bax, bunlar deyilsin. Ancaq təkcə layihələr ətrafında yox. Bəlkə elə səmərəli fikirlər var ki, onlar layihələrdə öz əksini tapmayıb – bu fikirləri də bəyan edin.

Ona görə də mən istərdim ki, çıxışlar yığcam olsun. Hər natiqə 10 dəqiqə söz veriləcəkdir. Xahiş edirəm buna riayət edəsiniz. Mən istəyirəm ki, bu gün bütün günü buna sərf edək, dəvət olunan müşavirə iştirakçılarından daha çox adam çıxış etsin. Xahiş edirəm ki, hər kəs fikrini qısa və çox sərbəst desin.

## YEKUN SÖZÜ

Müşavirə sona çatarkən məmnuniyyət hissi ilə bildirmək istəyirəm ki, bu toplantının keçirilməsi haqqında qəbul etdiyim qərar özünü doğruldub. Bugünkü müzakirə həm bu salona toplaşanlar üçün, həm də respublikamızın ictimaiyyəti üçün – güman edirəm ki, bu müşavirənin gedişi televiziya vasitəsilə tamamilə verilməlidir ki, camaat, vətəndaşlar bizim burada apardığımız danışıqların hamısından xəbərdar olsunlar, – hamı üçün çox əhəmiyyətlidir. Bu gün müşavirəni açarkən mən qeyd etdim. İndi yenə də təkrar edirəm: bu məsələ, yəni aqrar bölmədə iqtisadi islahatlar aparmaq, mülkiyyət formasını dəyişmək, torpaq islahatı keçirmək, sərbəst iqtisadiyyata geniş yol açmaq respublikamızın həyatında çox mühüm və əhəmiyyətli, eyni zamanda son dərəcə məsuliyyətli və taleyüklü bir məsələdir.

XX əsrin əvvəlindən bəri yaşadığımız məkanda günbəgün dəyişikliklər əmələ gəlmişdir. Bu dəyişikliklər həm siyasi, ictimai, həm də iqtisadi xarakter daşımış, xalqımızı, Azərbaycanın vətəndaşlarını cürbəcür çətinliklərlə üzləşdirmişdir. Hakimiyyət, iqtisadi forma və siyasi mühit dəyişibdir. Bunların hamısını XX əsrin əvvəllərindən indiyədək respublikamızın bir neçə nəsli yaşayıb, mübarizə aparıb, çalışıb-vuruşublar. Uğurlar [57-58] da əldə ediblər, məğlubiyyətlərə də məruz qalıblar. Ancaq Azərbaycan xalqı və Azərbaycan Respublikası bütün bu çətin yollardan keçərək bir respublika kimi formalaşıbdır. Azərbaycanın hüdudları bizə miras kimi qalıb və respublikamız son üç ildir ki, müstəqil dövlət kimi yaşayır. Keçən illərin, onilliklərin təcrübəsini nəzərə alaraq, cürbəcür dəyişikliklər zamanı baş verən hadisələr, xalqımızın itkiləri, eyni zamanda əldə etdiyi nailiyyətlər barədə düşünərək indi yeni bir mərhələdə biz addımlarımızı gərək həm cəsarətlə, həm də elə ataq ki, keçmişdə buraxılan səhvlərə yol verilməsin.

Bu baxımdan aqrar bölmədə indi gördüyümüz və qarşıdakı illərdə həyata keçirəcəyimiz işlər nəinki bizim – indiki nəsil üçün, həm də gənc və gələcək nəsillər üçün yeni bir bünövrədir, yeni bir təməldir, yeni bir əsasdır. Əsrin əvvəllərində torpaq sahibkarların, kənddə yaşayan insanların əlində olubdur. Onlar həmin dövrün imkanları daxilində torpaqdan istifadə ediblər, bununla da özlərini dolandırıblar və xalqımızı yaşadıblar. Çünki o vaxtlar ölkəmiz aqrar ölkə idi. Əgər biz Bakının neftini və onunla bağlı bir neçə yerdə sənaye yaranmasını nəzərə almasaq, Azərbaycan əsrlər boyu aqrar ölkə olubdur. Ölkəmizin əhalisinin əksəriyyəti kəndlərdə yaşayıb, aqrar bölmədə çalışıb və bütün əhalini də yaşadan torpaq və ondan əldə edilən məhsullar olmuşdur.

O dövrdə, yəni əsrin əvvəllərində babalarımız torpaqdan istifadə edərək özləri üçün həyat qurublarsa və dövrün şəraiti çərçivəsində iqtisadiyyatı da müəyyən dərəcədə inkişaf etdiriblərsə, indi, əsrin sonunda biz bu dəyişiklikləri görəndən sonra elə etməliyik ki, yaranmış bütün potensialdan, iqtisadi imkanlardan, o cümlədən aqrar bölmədə olan potensialdan bundan sonra daha səmərəli istifadə olunsun.

Bir daha qeyd etmək istəyirəm: 30-cu illərdə keçmiş Sovetlər İttifaqında Kommunist Partiyasının siyasəti sayəsində kənd təsərrüfatında aqrar bölmədə böyük dəyişikliklər aparılmışdır. Kollektivləşmə prinsipi ortaya atılmış və ardıcıl surətdə həyata keçirilmişdir. Torpaq və ümumiyyətlə, kəndlinin bütün əmlakı ümumiləşdirilmiş, kollektiv təsərrüfata verilmişdir. Tarixdən bizə məlumdur ki, bu proses çox ağır və əzablı gedibdir, böyük itkilərlə müşayiət olunubdur. İnsanlar həlak olmuş, var-dövlətini itirmiş, yaşadığı yerdən təcrid edilmişlər, bu kollektivləşmə prinsipinin həyata keçirilməsi üçün bəziləri sürgün olunmuşlar. Bütün bunların nəticəsində bir neçə ildən sonra [58-59] – yəni əgər kollektivləşmə 1930-cu ildə başlayıbsa, 1937-38-ci illərdə elan olundu ki, artıq Sovetlər Birliyində sosializmin əsasları quruldu, ümumi kollektivləşmə başa çatdı və bu da böyük nailiyyət oldu.

Bunlar bizim ölkədə getmiş proseslərdir. Biz bu proseslərin nə təşkilatçısı, nə də iştirakçısıyıq. Biz bunların nəticəsindən istifadə edənlərik. Xalqımıza vurulan itkilər o dövrdə hökm sürən siyasi sistemin iqtisadi quruluşunun fəaliyyəti nəticəsində olmuşdur.

Sovetlər Birliyinin hər yerində olduğu kimi, respublikamızda da güclü, böyük iqtisadi, o cümlədən aqrar potensial yaranıbdır. Bu, tarixi həqiqətdir və bunu heç kəs inkar edə bilməz. O dövrdə aparılan tədbirlərin bir çoxunu bu gün tənqid etmək olar və onlar tənqid edilir. Zorakılıqla, güc, repressiya yolu ilə bu tədbirləri həyata keçirənlər günahlandırılır və günahlandırılmalıdırlar.

Ancaq ondan sonrakı dövrdə yaşayan nəsillər bu prosesin içində olub və mövcud sistemdə iqtisadi potensialdan səmərəli istifadə etməyə çalışmışlar. Biz bunun səmərəsini görmüşük. Azərbaycanın timsalında götürsək, bunun səmərəsi ondan ibarət olubdur ki, respublikamızda 1940-cı, 50-ci, 60-cı, 70-ci illərdə və 80-ci illərin ortalarınadək kənd təsərrüfatı istehsalı ardıcıl surətdə artıb və böyük kənd təsərrüfatı potensialı yaranıbdır. Bu gün burada səslənən çıxışlarda bizim nə qədər torpağımız olması, onun nə qədərinin suvarılması, nə qədərinin məhsuldar olması və nə qədərinin necə istifadə edilməsi barədə rəqəmlər gətirildi. Bunların hamısı olubdur. Həmin torpaqların indiki şəkildə olması, bugünkü vəziyyəti o dövrdə aparılmış meliorasiyanın, suvarma işlərinin nəticəsidir. İndi bizim suvarılan geniş torpaqlarımız var. Bunları planlaşdırmaq, əraziləri təmizləmək, meliorasiya işləri aparmaq, böyük su qurğuları, su şəbəkələri, su hövzələri yaratmaq lazım idi. Əgər bunlar edilməsəydi, indi Azərbaycanda suvarılan bu qədər torpaq olardımı?

Götürək Mingəçevir, Şamxor, Xanbulançay, Viləşçay su hövzələrini, Naxçıvanda Arpaçay su hövzəsini, Araz çayı üzərində və Quba zonasında, Ağstafada olan su hövzələrini və sair. Nə qədər böyük su hövzələri, böyük göllər yarandı və bu göllərdən kanallar çəkildi, şəbəkələr quruldu. Düzdür, onların bir çoxu köhnəlib, çoxunun indi təmirə ehtiyacı var, ancaq [59-60] bunlar torpaqlarımızdan istifadə üçün görülən işlərdir. Bunlar on illər ərzində yaranıbdır və bizə miras qalıbdır. Bunlar bizim sərvətimizdir. Bu sərvətdən, şübhəsiz, səmərəli istifadə etməliyik. Yaxud götürək kənd təsərrüfatının mexanikləşdirilməsini, maşın-traktor parkının yaradılmasını və texnikadan istifadə olunmasını, onun təmirini, böyük müəssisələrin yaradılmasını. Əgər bunlar olmasaydı, biz torpaqdan bu cür istifadə edə bilməzdik.

Emal müəssisələrini götürək. Böyük emal müəssisələri yaradılıbdır. Kəndin infrastrukturu elə bu aqrar bölmənin fəaliyyətinin nəticəsidir. Məsələn, mən 70-ci illəri götürmək istəyirəm. Bu illərdə kənd təsərrüfatı məhsulunun sürətlə artması kənd əhalisinin həyat şəraitini xeyli yaxşılaşdırdı və kəndlilərin yaşadıqları yerlərdə özlərinə evlər, malikanələr tikib yaratmasına, öz mənzil şəraitlərinin yaxşılaşdırılmasına imkan verdi.

Mənim xatirimdədir, 60-cı illərdə kəndlərə gedirdik, orada palçıqdan tikilmiş evlərə baxanda, ağır vəziyyəti görəndə adamın ürəyi ağrıyırdı. Elə Cəlilabad rayonunun özündə – nümayəndəsi burada çıxış etdi, mən orada 50-ci illərdə də olmuşam – orada da vəziyyət belə idi. İndi Cəlilabad rayonunda bir kənd tapmazsınız ki, orada palçıqdan evlər olsun. Rayonda dəmirlə, şiferlə üstü örtülmüş, eyvanı, bağçası olan müasir evlər həmin dövrlərin nəticəsidir.

Aqrar bölmənin fəaliyyəti nəticəsində kəndlərdə uşaq bağçaları, xəstəxanalar, məktəblər, mədəniyyət ocaqları tikilmişdir. Bunların hamısı bizim aqrar bölmənin, kənd təsərrüfatının fəaliyyəti nəticəsində o dövrdə əldə edilmiş, yaradılmış potensialdır. Ancaq çox təəssüflər olsun ki, bu potensial təxminən 1985-86-cı illərdən başlayaraq, islahatlar keçirilməsi üçün görülən tədbirlərin nəticəsində xırda-xırda dağıdılıbdır.

Mən bu gün müşavirəni açarkən də dedim. Dünən də dedim. Artıq 70-ci illərin sonunda, 80-ci illərin əvvəllərində Sovetlər İttifaqında kənd təsərrüfatının inkişafının dayanması prosesi mövcud idi. Yəni kolxoz və sovxoz sistemindən nə qədər mümkün idisə istifadə olundu, kənd təsərrüfatına dövlətdən nə qədər dotasiyalar verildi, nə qədər kömək oldu, meliorasiya işlərinə nə qədər yardım edildi – bütün bunlar öz nəticələrini verdi. Ancaq sonra məlum oldu ki, kənd təsərrüfatı və aqrar bölmə daha bu yolla, bu sistemlə inkişaf edə bilməyəcəkdir. Dövlət aqrar bölməyə çox böyük vəsaitlər sərf [60-61] edirdi, islahatların keçirilməsi yolları günbəgün axtarılırdı – 70-ci illərin axırlarında və 80-ci illərin əvvəllərində, 1985-86-cı illərdə bu islahatların cürbəcür yollarının axtarışı gedirdi. İndi burada fermer təsərrüfatı haqqında danışıldı. Çıxış edənlərin bəziləri dedilər ki, fermer təsərrüfatı yaxşı nəticə verir, amma bəziləri bildirdilər ki, fermer təsərrüfatı yaransa da fəaliyyət göstərə bilmədi. Natiqlərdən biri də qeyd etdi ki, bu islahat necə gedir ki, biri 100 hektar torpağı götürüb istifadə edir, başqasının bir hektarı da yoxdur.

Bunlar hamısı dəyişikliklər, axtarışlar üçün cürbəcür yollardır. O vaxtlar keçmiş Sovetlər İttifaqında mütərəqqi fikirli ayrı-ayrı adamlar bu yollarla gedib və bu zəruri idi, gedilməli idi. Ancaq təəssüflər olsun ki, bu dəyişikliklər, Sovetlər İttifaqının ərazisində .gedən siyasi-iqtisadi dəyişikliklər mövcud potensialı dağıtdı. İndi biz Azərbaycanda əgər bir tərəfdən köhnə sistemdən xilas olmuşuqsa, müstəqilliyimizi əldə etmişiksə, bunun özü tarixi nailiyyətdir. Əgər bu gün, sabah respublikamızın iqtisadiyyatı bundan da aşağı səviyyəyə düşsə belə, Azərbaycan xalqının milli azadlığını, dövlət müstəqilliyini əldə etməsi hər şeydən üstündür. Bu, bizim üçün hər şeydən əzizdir, hər şeydən qiymətlidir, tarixi hadisədir.

Ancaq təəssüflər olsun ki, on illərlə yaranmış böyük iqtisadi, o cümlədən aqrar bölmədəki potensial bu proseslər zamanı tədricən və bəzən də sürətlə dağıdılıbdır. İndi biz elə bir mərhələyə gəlib çatmışıq ki, bir tərəfdən bu dağıdıcı prosesin qarşısı alınmalı, digər tərəfdən, həmin prosesin dayandırılması üçün inzibati-amirlik metodlarının nəticə vermədiyi artıq bizə məlum olduğundan, iqtisadi qanunlar, prinsiplər əsasında işi qurmalıyıq ki, bu gözəl torpağımızdan, mövcud iqtisadi potensialımızdan səmərəli istifadə edək.

Ona görə də bu iqtisadi islahatların keçirilməsi zəruridir. Bunu biz dəfələrlə demişik. Ancaq bu gün, yəni burada, bu salonda həmin fikir yenə də diqqət mərkəzindədir. Çünki bu proseslər hələ bəziləri tərəfindən qəbul olunmadığına görə, bəziləri bu proseslərin gələcəyindən qorxduqlarına görə, müəyyən təhlükələr doğuracağına görə cəsarət etmirdilər. Ancaq biz bu islahatların keçirilməsində gecikmişiksə – bir qədər əvvəl burada belə fikirlər də səsləndi – bundan sonra gecikməməliyik. İndiyədək olan olub, keçən keçibdir. Çox şeyi itirmişik, çox şey dağılıbdır. Şübhə yoxdur ki, əgər bir il bundan əvvəl, iki il bundan öncə olan potensialımızın mövcudluğu [61-62] dövründə biz bu iqtisadi islahatları cəsarətlə keçirsəydik, əlimizdə daha çox sərvət, daha çox imkan olardı. Ancaq indi. biz bunu yenə də ləngitsək, yenə də gecikdirsək, vaxt itiriləcək. Son illərin təcrübəsi bunu əyani sübut edir.

Eyni zamanda bunu da dərk etmək lazımdır ki, islahatların keçirilməsi o qədər də asan olmayacaqdır. İslahatları keçirərkən, ola bilsin ki, iqtisadi cəhətdən daha da çətinliklərimiz olsun. Müəyyən dövrlərdə və müəyyən sahələrdə kənd təsərrüfatında istehsal azala bilər. Ancaq islahatlardan sonra biz istehsalın artırılmasına nail ola bilərik. Ona görə də bu qanunların indi qəbul edilməsi zərurətdən doğan bir haldır. Mən hesab edirəm ki, bugünkü müzakirə bunu bir daha sübut etdi. Bu qanunların layihələrində əsas istiqamətlər, prinsipial mövqelər göstərilir. Ancaq bu qanunların həyata keçirilməsi onların yaradılmasından qat-qat çətindir. Həmin qanunların həyata keçirilməsi prosesi də hər yerdə bir cür olmayacaqdır.

Biz 30-cu illərin acı təcrübəsini indi təhlil edərkən görürük ki, bəlkə də o vaxt kollektivləşmə lazım idi. Ancaq bu iş fərqləndirilmiş şəkildə aparılmalı idi. Onu hər yerdə eyni cür – ucdantutma, zorla yox, ağılla keçirmək lazım idi. Bəlkə bu tədbir ağılla həyata keçirilsəydi, adamlar öz səhvlərini dərk edərdilər və müəyyən dəyişikliklər edə bilərdilər. Ona görə də biz bütün bu keçmiş mərhələlərdə buraxılmış səhvlərdən özümüz üçün nəticə çıxarmalı, müsbət təcrübədən istifadə etməliyik. Belə təcrübələr inkişaf etmiş ölkələrdə mövcuddur. Ancaq hər ölkənin özünəməxsus xüsusiyyəti də var.

Şübhəsiz, biz Azərbaycanın kənd təsərrüfatında islahatlar apararkən baxmalıyıq ki, Amerikada, Avropada, Şərq ölkələrində hansı təcrübələr var? Bunların hamısı nəzərdən keçirilməlidir. Amma belə güman etmək də düzgün olmazdı ki, orada olanların hamısını götürüb tətbiq etsək, bizdə də hər şey yaxşı olacaqdır. Mən yenə deyirəm, hər yerin özünə görə xüsusiyyəti var – təbiəti, iqlimi, torpağı fərqlidir, orada yaşayan insanların psixologiyası da müxtəlifdir. Adamların işə münasibəti də başqadır. Bu münasibət, psixologiya, adət-ənənə bir gündə, bir ildə yaranan deyildir. Onların çoxu on illərlə, əsrlərlə yaranmışdır. Bu münasibətin, psixologiyanın əsrlər boyu qərarlaşdığı ölkələrdən, güman edək ki, onları götürüb, buraya qoya bilərik – bu, mümkün deyil. Ancaq eyni zamanda biz buna nail olmaq üçün işləməliyik. Həmin təcrübəyə çatmağa çalışmalıyıq. Respublikamızın təbii, iqlim xüsusiyyətlərinə, tor[62-63]paqlarımızın imkanlarına münasib olaraq, eyni zamanda xalqımızın mentalitetinə, adət-ənənəsinə uyğun olaraq buna çalışmalıyıq. Əgər biz bunları nəzərə almasaq və hesablaşmasaq, onda bu islahatları kor-koranə həyata keçirəcəyik. Ola bilsin, bu bir yerdə öz müsbət nəticəsini verəcək, başqa yerdə isə əksinə, böyük çətinliklər yaradacaqdır. Ona görə də bu məsələlərə fərqli şəkildə yanaşmaq əsas şərtlərdən biridir.

İndi müzakirə etdiyimiz və sonra qəbul edəcəyimiz qanun layihələri buna şərait yaradacaqdır. Ona görə də bu işlərdən qorxmaq və çəkinmək lazım deyil. Ancaq eyni zamanda səthiliyə, məsuliyyətsizliyə yol vermək olmaz. Bəzən deyirlər ki, tələsmək lazım deyil. şübhəsiz, biz gecikmişik. Ancaq bu o demək deyildir ki, biz bu işlərdə tələsməliyik. Doğrudur, bu işlər qısa müddətdə görülməlidir. Amma elə etməliyik ki, onlar bizim üçün həqiqətən nəticə versin.

Keçmişlərdə – indi burada toplaşan adamların çoxu o dövrlərin canlı şahididir – bizim də həyatımızda cürbəcür dəyişikliklər əmələ gəlmişdir. Bəzən ayrı-ayrı mərhələlərdə bu dəyişikliklər elə onların aparılması naminə edilirdi. Bir il, iki il, üç il bu dəyişiklikləri edirdilər və insanlarda belə əhval-ruhiyyə yaranırdı ki, bəli, bu yeniliklər aparılan kimi hər şey dəyişəcəkdir. Amma keçən dövrə baxdıqda görünür ki, heç nə dəyişməmişdir. Bu işləri başlayan adam getdi, o biri gəldi. Dedi ki, bu səhv edib. Başqa biri də gəlib dedi ki, o səhv edib. Bunu hamı belə düşünür.

Bunları deməklə mən heç kəsi bu fikirlərdən çəkindirmək fikrində deyiləm. Əksinə, bu işlərin nə qədər mürəkkəb, nə qədər məsuliyyətli, nə qədər ciddi olduğunu bir daha vurğulamaq istəyirəm. Bir daha öz fikrimi demək istəyirəm ki, biz bu islahatları aparmalıyıq. Ancaq onu həyata keçirərkən fərqli münasibət olmalıdır və bu cür yanaşılmalıdır. Ona görə də bir rayonda, onun bir hissəsində və ya başqa hissəsində bu islahatların keçirilməsində müəyyən fərq ola bilər.

Noyabrın 5-də keçirilən müşavirədə mən Zaqatala və Xızı rayonlarının icra hakimiyyəti başçılarına göstəriş verdim. Onlar artıq öz proqramlarını hazırlayıblar. Dünənki müşavirədə də bu barədə məruzə etdilər, bu gün də burada çıxış etdilər. Mən Prezident Aparatının, Nazirlər Kabinetinin, müvafiq şöbələrinə, Kənd Təsərrüfatı Nazirliyinə, müvafiq komissiyalara tapşırıram ki, ümumi islahatları gözləmədən biz bu barədə qərar qəbul etməliyik və razılıq verməliyik ki, onlar islahatlara [63-64] başlasınlar. Ancaq gördüyünüz kimi, Zaqatala rayon icra hakimiyyəti başçısının məruzəsindən aydın olduğu kimi, orada bəzi təsərrüfatları bugünkü formada saxlamaq istəyirlər, bəzilərində böyük dəyişikliklər aparmaq niyyətindədirlər, bəzilərində isə başqa işlər görmək fikrindədirlər. Bunlara sərbəstlik verilməlidir. Həmin sərbəstlik Zaqatala rayonunun miqyasında rəqabət yaradacaqdır. Bu dəyişikliklər müsbət nəticə verdikcə, dəyişikliklərin olmadığı yerlərdə həmin müsbət təcrübəni görən kimi bu yenilikləri tətbiq edəcəklər.

Burada sonuncu çıxış edən, Masallı rayonundan olan natiq də dedi – doğrudur, Masallı rayonunun təsərrüfatında, aqrar bölməsində gedən bəzi proseslər haqqında Nazirlər Kabineti, Prezident Aparatı, yaxud Ali Sovet tərəfindən mənə rəsmi arayışlar təqdim olunmayıbdır – ancaq müxbirlərin, qəzet işçilərinin xəbərlərindən mənə bəlli olan ilkin məlumatlardan da belə hiss etdim ki, orada bu proseslər gedir. Rayon rəhbərliyinin özü bunu müstəqil olaraq aparır. Masallı rayonundan çıxış edən müəllimin – onun özü fermer təsərrüfatının başçısıdır – dediyi sözlər bu barədəki məlumatlarımı bir daha yadıma salır.

Mən bizim Prezident Aparatına, Nazirlər Kabinetinə, Kənd Təsərrüfatı Nazirliyinə tapşırıram ki, Masallı rayonunda gedən işləri nəzərdən keçirsinlər. Əgər orada bu işlər gedirsə, onları bir proqram şəklinə salmaq lazımdır və həmin proqramı da təqdim etmək lazımdır ki, işə başlasınlar.

Bu rayonların təcrübəsində mən başqa rayonlarımızın da icra hakimiyyəti başçılarına, rayon kənd təsərrüfatı idarələrinin rəhbərlərinə, bilavasitə torpaqla işləyən adamlara müraciət etmək istəyirəm. Bu qanunların, əsasnamələrin qəbul edilməsini gözləmədən harada belə tədbirlərin rayon miqyasında keçirilməsinə imkan varsa, mən onlara razılıq verirəm, təkliflərini hazırlasınlar, təqdim etsinlər və biz bunlara baxıb öz fikirlərimizi bildirək. Bunlar doğrudan da münasib olsa, biz onlara razılıq verərik ki, həmin rayonlarda olduğu kimi belə işləri həyata keçirsinlər. Proseslərin belə getməsi, hesab edirəm ki, yaxşı haldır. Yəni biz ayrı-ayrı təsərrüfatların yox, bütöv rayonların təcrübəsindən istifadə edərək, digər yerlərdə də bunları həyata keçirəcəyik. Bunların hamısı qəbul edəcəyimiz qanunların və onlardan irəli gələn qərarların, əsasnamələrin həyata keçirilməsinə şərait yaradacaqdır. Mən bu gün apardığımız müzakirələrdən belə nəticəyə gəlirəm. [64-65]

Burada qanun layihələri barəsində cürbəcür fikirlər söyləndi. Əgər bu fikirlərin hamısını ümumiləşdirsək, belə qənaətə gələ bilərik ki, qanun layihələri müşavirə iştirakçıları tərəfindən əsasən bəyənilir. Eyni zamanda bəzi dəyişikliklər barədə təkliflər də səslənir. Bu, təbiidir. Dünən Prezident Aparatında və bu gün burada keçirdiyimiz müşavirə məhz ona görədir ki, bütün ictimaiyyətin, aqrar bölməni təmsil edən adamların nümayəndələri burada iştirak etsinlər və onların fikirlərini cəmləşdirərək bu layihələrdə hansı dəyişikliklər edilməli, hansı əlavələr aparılmalı və ya nəyin çıxarılmalı olduğunu bilək.

Ona görə də mən hesab edirəm ki, bu gün burada irəli sürülən bütün təkliflərə diqqətlə baxılmalıdır ki, onların hansı bu layihələrin təkmilləşdirilməsinə kömək edəcəksə, qəbul olunsun.

Belə hesab edirəm ki, bu müşavirənin yekunu olaraq bir komissiya yaradılmalıdır. Həmin komissiyanı mən öz sərəncamımla bu gün yaradıram. Komissiya bu müşavirənin nəticələrini və burada səslənən fikirləri təhlil etməlidir və bu layihələrdə hansı dəyişikliklər, hansı düzəlişlər edilməlidirsə, onu bir həftə ərzində mənə təqdim etməlidir. Mən indi komissiyanın tərkibini tamamilə deyə bilmərəm. İstərdim ki, komissiyanın tərkibi geniş, fəaliyyətli və bütün təbəqələrdən ibarət olsun.

Hesab edirəm ki, komissiyaya sədrliyi Arif Rəhimzadəyə həvalə edək. Onun üzvləri baş nazirin birinci müavini Abbas Abbasov, kənd təsərrüfatı naziri İrşad Əliyev, Prezident Aparatının məsul işçiləri Vahid

Axundov, Yusif Hümbətov, Ramiz Mehdiyev, Şahin Əliyev və başqaları olsunlar. Nazirlər Kabinetinin məsul işçilərini və əgər lazım olsa, Arif Rəhimzadədən başqa Milli Məclisdən digər vəzifəli şəxsləri də bura daxil etmək olar. Komissiyanın rəhbəri Arif Rəhimzadə onun tərkibini dediyim istiqamətdə müəyyən etsin.

Mən bu komissiyaya həvalə edirəm ki, burada söylənən fikirləri bir həftə müddətinə təhlil etsin, bu qanun layihələri üzərində işləsin və layihələrin son variantını təqdim etsin.

Burada bir məsələ barəsində də müəyyən mübahisə getdi. Mən hesab edirəm ki, bu mübahisə lazım deyil. İslahat komissiyaları kim tərəfindən təyin olunacaq, kim tərəfindən başçılıq ediləcək – mən hesab edirəm ki, bu mübahisələrə ehtiyac [65-66] yoxdur. Burada deyilən fikirlərin hamısı nəzərə alınmalıdır və bizim bu gün təşkil etdiyimiz komissiya bu barədə öz təkliflərini verməlidir.

Mən bir məsələni də qeyd etmək istəyirəm ki, bu islahatlar nəinki kənddə yaşayan əhalimizin, bütün Azərbaycan vətəndaşlarının mənafeyinə bilavasitə və ya dolayısı ilə bağlı olan tədbirlərdir. Ona görə də biz bu islahatların keçirilməsi üçün ədalətli, obyektiv, prinsipial qərarlar qəbul edən qurumlar yaratmalıyıq. Torpaq xalqa veriləcəksə, şübhəsiz ki, əhalinin bütün təbəqələrinin bu tədbirlərdə bu və ya başqa formada iştirakı olmalıdır. Biz bunu təmin etməliyik. Komissiya bu barədə öz təkliflərini verməlidir.

O ki qaldı icra hakimiyyəti başçılarının bəzilərinin burada səslənən müxtəlif fikirlərə münasibətinə, icra hakimiyyəti yerli hakimiyyət orqanıdır. Sovetlər 1991-ci ildə, kommunist rejimində seçilmiş sovet orqanlarıdır. İcra hakimiyyətləri isə prezident üsul-idarəsi yaradılandan sonra təşəkkül tapmış yerli hakimiyyət orqanlarıdır, prezidenti yerlərdə təmsil edən orqanlardır. Bildiyiniz kimi, keçmişdə rayonlarda, şəhərlərdə hakimiyyət kommunist partiyalarının müvafiq komitələri idi. Bununla yanaşı olaraq seçkili orqanlar – rayon sovetləri də var idi. Rayon icraiyyə komitələrinin sədrlərini də seçirdilər. Həmin icraiyyə komitələrinin rəyasət heyətləri olurdu. Rayon icraiyyə komitələri əməli iş aparırdı. Rayon sovetlərinin sessiyası vaxtaşırı keçirilirdi, mühüm məsələlər həll olunurdu. Rayon icraiyyə komitələrinin sədrləri və rayon partiya komitələrinin katibləri rayona bərabər rəhbərlik edirdilər.

İndi quruluş dəyişib, Kommunist Partiyasının hakimiyyəti aradan götürülübdür. Başqa yerlərdə olduğu kimi, Azərbaycanda da prezident üsul-idarəsidir. Ona görə də prezident üsul-idarəsinin atributları yaranıbdır. Bu atributlar icra hakimiyyəti orqanlarıdır. Onlar şəhərlərdə və rayonlarda fəaliyyət göstərirlər. Kəndlərdə də icra hakimiyyəti orqanlarının nümayəndələri var. Bunlar ali icra hakimiyyəti orqanının yerlərdə nümayəndələridir, prezident üsul-idarəsinin atributlarıdır və rayonlarda rəhbərlik səlahiyyəti bunlara verilibdir. Bu qaydaya da riayət edilməlidir.

Eyni zamanda bu sovetlər ki, 1991-ci ildə seçilibdir, onların rəhbərlik funksiyaları itib. Çünki sovetlər tərəfindən seçilən rayon icraiyyə komitələri ləğv olunubdur və icra orqanları yuxarıdan – prezident tərəfindən təyin olunduğundan onlar öz [66-67] əvvəlki funksiyalarını itiribdir. Ancaq onların da müəyyən funksiyaları var və onlar mövcuddurlar. Ona görə də rayonlarda icra hakimiyyəti orqanları yerli sovetlərlə sıx əməkdaşlıq etməli və birlikdə işləməlidirlər.

Bildiyiniz kimi, mən respublikamızda ümummilli, vətəndaş həmrəyliyi yaratmaq məqsədi ilə dəfələrlə demişəm və bu gün də deyirəm: biz gərək bütün imkanlarımızı birləşdirək. Bütün orqanların işlərini bir-biri ilə sıx bağlayaq, əlaqələndirməni təmin edək, bir-biri ilə əlaqələri möhkəmləndirək. Bunların hamısı cəmiyyətimizdə milli həmrəyliyi, vətəndaş həmrəyliyini, birliyi yaradan amillərdir. Ona görə də kənd rayonlarında kənd təsərrüfatı işi ilə məşğul olan bütün orqanlar bir-biri ilə sıx əlaqədə olmalıdır, öz fəaliyyətlərini uzlaşdırmalıdırlar, bir-birinə ziddolmanı aradan götürməlidirlər. Bunların hamısı yerlərdə məsələlərin ədalətli, doğru, düzgün həll olunmasını təmin etməlidir. Mən bir prezident kimi, şübhəsiz, yerlərdə icra hakimiyyəti orqanlarının bəzilərinin işindən narazıyam. Hesab edirəm ki, onların fəaliyyətində nöqsanlar, çatışmazlıqlar var. Bəziləri, hətta son vaxtlar təyin olunmuş icra hakimiyyəti orqanlarının başçıları onların üzərinə qoyulan vəzifələri layiqincə yerinə yetirə bilmirlər.

Mən bu gün bildirmək istəyirəm ki, üzərinə qoyulan vəzifəni yerinə yetirə bilməyən bəzi belə adamlar haqqında lazımi ölçülər götürəcəyəm. Ancaq eyni zamanda onu da bildirmək istəyirəm ki, yerli icra hakimiyyəti orqanları prezidentin səlahiyyətli nümayəndələridir, tam hakimiyyət onların əlindədir, onlar da bu səlahiyyətlərə layiq olaraq işləməlidirlər. Həmin səlahiyyətlərdən rayonun bütün qayğılarının, o cümlədən aqrar bölmənin problemlərinin həllində səmərəli istifadə etməlidirlər. Kim nəyi edəcək, nəyi etməyəcək – narahat olmasınlar, biz bunları da müəyyənləşdirəcəyik.

Fürsətdən istifadə edərək, bir neçə kəlmə də cari işlər barəsində demək istəyirəm. Artıq 1994-cü il sona çatır. Biz çalışırdıq ki, bu qanunları bəlkə payız vaxtı qəbul edək. Amma çatdıra bilməmişik. İndi bunlar qısa müddətdə qəbul olunmalıdır. Ancaq bu o demək deyildir ki, həmin qanunlar qəbul edilən kimi avtomatik surətdə hər şey yaxşı olacaqdır. Qarşımızda uzunmüddətli iş durur. Bu qanunların həyata keçirilməsi xeyli müddət – bir il, iki il, üç il vaxt tələb edir. Ona görə də bir tərəfdən bu qanunları qəbul edib onların əsasında tədrici olaraq, eyni zamanda sürətlə, davamlı şəkildə, ardıcıl surətdə [67-68] islahatları həyata keçirməliyik, digər tərəfdən isə əlimizdə olan bütün imkanlardan kənd təsərrüfatı məhsullarının istehsalı üçün ciddi şəkildə istifadə etməliyik.

Təəssüflər olsun ki, 1994-cü ildə qarşıya qoyulan vəzifələr və nazirliklər tərəfindən, rayon rəhbərləri tərəfindən dəfələrlə verilən vədlər yerinə yetirilməmişdir. Xatirinizdədir ki, bu ilin əvvəlində kənd təsərrüfatı işləri ilə əlaqədar bir neçə dəfə müşavirə keçirdik, vəzifələri müzakirə etdik, göstərişlər vermişdik. Rayon rəhbərləri də vədlər vermişdilər ki, xüsusən vacib olan sahələrdə, məsələn, pambıq, üzüm, taxıl, ərzaq, tütün məhsulları istehsalı üzrə öhdələrinə düşən vəzifələri yerinə yetirəcəklər. İndi məlumdur ki, verilən vədlərin əksəriyyəti yerinə yetirilmədi. Burada Saatlı rayonunun icra hakimiyyəti başçısı çıxış etdi, rəqəmlər dedi. Bu, məni sevindirdi. Ancaq təəssüf ki, rayonların əksəriyyətində vəziyyət belə deyildir. Verilən vədlər yerinə yetirilməyib.

Bunun müəyyən obyektiv və subyektiv səbəbləri var. Obyektiv səbəblər məlumdur: müharibə, iqtisadiyyatın çətinlikləri, yolun kəsilməsi, şimalla bizim inteqrasiyanın pozulması –bütün bunları inkar edə bilmərik. Ancaq bu obyektiv səbəblər şəraitində də çox işlər görmək olardı. Təəssüf ki, bu işlər görülməmişdir. Xatirimdədir, bir dəfə biz müşavirə keçirərkən Arif Rəhimzadə – o vaxt o, Prezident Aparatında işləyirdi – kənd təsərrüfatında buraxılan səhvlərə, işlərin ləng getməsinə, lazımi tədbirlərin görülməməsinə görə Nazirlər Kabinetini ciddi tənqid etdi. Bundan nəticə çıxarmaq əvəzinə Nazirlər Kabinetində başladı bir fikir formalaşmağa – "Nə olubdur ki, düşüblər bizim üstümüzə? Biz hər şeyi yaxşı görürük". Doğrudur, o vaxtkı baş nazir bu məsələləri anlaya bilməzdi və bunu özü üçün bir hücum kimi, təhqir kimi qəbul etdi və bir neçə dəfə mənim yanıma gəlib şikayətləndi ki, "Niyə görə belə edirlər? Biz hər işi yaxşı görürük". Həqiqətdə isə iş görülmürdü.

Nazirlər Kabineti üzərinə qoyulan vəzifələri yerinə yetirmədiyinə görə kənd təsərrüfatı sahəsində işlərimiz normal deyil. Bunu bu gün sizə çatdıraraq tam məsuliyyəti ilə demək istəyirəm ki, bizim kənd təsərrüfatı sahəsi Kənd Təsərrüfatı Nazirliyində mərkəzləşibdir. Kənd Təsərrüfatı Nazirliyinin gördüyü işlər, etdiyi əməllər – keçmişdə də, 1993-cü ildə və oktyabr hadisələrində də – göz qabağındadır. Şübhəsiz, belə çirkin işlərlə məşğul olan adamlar, o cümlədən keçmiş kənd təsərrüfatı naziri Müzamil Abdullayev kimi adam – biz bu gün etiraf etməliyik ki, belə bir adamın vəzifəyə qoyulması [68-69] səhv idi. Ancaq bu, eyni zamanda müəyyən səbəblərlə əlaqədar olan hadisə idi, – lakin yenə də bu insan başa düşsəydi ki, ona nə qədər böyük etimad göstərilir və işi ilə məşğul olsaydı, başqa işlərlə məşğul olmasaydı, o dağıdıcı, pozucu əməllərindən əl çəksəydi, çirkin əməllərinə son qoysaydı, bəlkə də bu işlərin çoxu vaxtında görülərdi.

Cəlilabad rayonundan olan sovxoz direktoru burada çıxış etdi. O dedi ki, indi sahələr azalıbdır, məhsulumuz çox deyil, oidium, mildium xəstəlikləri olmuşdur. Bəli, bu, üzümün elə xəstəliyidir ki, vaxtından 3-4 gün keçsə, ondan sonra nə etsən də məhsulu xilas etmək mümkün deyildir. Mən üzümçülüyü yaxşı bilirəm. Siz bilirsiniz ki, Azərbaycanda üzümçülüyün əsasını yaradan və inkişaf etdirən mənəm. Mən bu işlərlə məşğul olmuşam. Bu gün böyük ürək ağrısı ilə eşitdim ki, Cəlilabad rayonunda 31 min hektar üzüm sahəsi var idisə, indi 8 min hektar qalıbdır. Həmin 8 min hektardan da yüksək məhsul götürmək olardı. Əgər bu 8 min hektarın orta hesabla, heç olmasa hər hektarından 50 sentner üzüm götürülsəydi, elə 40 min ton üzümü Cəlilabad rayonu verərdi. Amma o vaxtlar biz məsələ qoymuşduq və Cəlilabad rayonunun imkanı var idi ki, hər hektardan 100 sentner üzüm götürülsün. Bunun özü də o dövrlərdə yaratdığımız böyük sərvətimizdir ki, sonradan dağıdıldı.

Azərbaycanda 280-290 min hektar üzüm bağları yaradılmışdı. O vaxt işləyən adamlar bilirlər ki, üzüm bağlarının yaradılması nə qədər əziyyətli, nə qədər zəhmətli işdir, eyni zamanda nə qədər də böyük vəsait tələb edir. Onu da bildirmək lazımdır ki, o. vaxt bu vəsaitin hamısı ümumi dövlət büdcəsindən gəlirdi. Üzüm tənəyini, tingini basdıranda o, beş ildən sonra məhsul verir. Onun basdırılması, yerinin hazırlanması, plantaj şumunun aparılması, şpalerlərin istehsalı, tənəklərin şpalerə qaldırılması və digər işlərin hamısı dövlət büdcəsi hesabına görülürdü. Yalnız beş ildən sonra, həmin tənəklər məhsul gətirib xeyir verəndən sonra onlara çəkilən xərcləri nə qədər ödəyirdi-ödəmirdi, mən indi onu deyə bilmərəm.

280-290 min hektar üzüm bağları bizim böyük sərvətimizdir. 1985-86-cı illərdə sərxoşluğa qarşı aparılan işlər nəticəsində bunların bir hissəsi dağıdıldı, qalanları da son illərdə baxımsızlıqdan, laqeydlikdən, məsuliyyətsizlikdən əldən getdi.

İndi mən yenə qayıdıram Kənd Təsərrüfatı Nazirliyinin işinə və keçmiş kənd təsərrüfatı nazirinə. Əgər bizim Kənd Tə[69-70]sərrüfatı Nazirliyi səmərəli işləsəydi, orada olan məsul şəxslər – bir nazir deyil, onunla birlikdə olan adamlar – işə məsuliyyətlə yanaşmış olsaydılar, şübhəsiz ki, 1994-cü ildə əsas sahələrdən, xüsusən pambıqçılıq, üzümçülük, taxılçılıq sahəsindən daha çox məhsul götürə bilərdik. Biz bunları itirdik.

İndi qarşıdan 1995-ci il gəlir. Təəssüf ki, payızlıq taxıl əkini istənilən səviyyədə getməyib. Toxum çatmayıb, əkin gecikib, bəzi yerlərdə toxum keyfiyyətli olmayıb, səpin istənilən səviyyədə getməyibdir. Bunu deyərək, gələcək üçün və kimlər üçün isə əvvəlcədən bəraət qazandırmaq istəmirəm. Mən həqiqəti demək istəyirəm. Ancaq bu həqiqətdən istifadə edib, işi pis səmtə yönəltmək lazım deyil. Əksinə, bu həqiqəti dərk edərək, indi hər bir rayonda, hər bir təsərrüfatda, hər bir taxıl sahəsində ciddi işlər görülməlidir ki, buraxılan səhvlər bundan sonra görülən işlər nəticəsində müəyyən qədər aradan götürülsün. Biz taxıl məhsulları götürə bilək. Siz görürsünüz ki, respublikamızın taxılla təchizatında nə qədər əziyyət çəkirik. Biz xarici ölkələrdən böyük əzab-əziyyətlə, böyük məbləğdə valyutaya buğda, un alıb gətiririk, əhalini çörəklə təmin edirik. Bu işlərdən xəbəri olmayanlar, ya da xəbəri olsa da qərəzli mövqe tutanlar orada-burada danışırlar ki, nə üçün

çörəyin qiyməti bu qədər qalxdı, nə üçün çörək olmadı. Ancaq mövcud vəziyyəti təhlil etdikdə görürük ki, əvvələn cəmisi bir milyon ton taxıl istehsal olunmuşdursa və onun 265 min tonu təhvil verilmişdirsə, bu 265 min ton taxıl bizim əhaliyə nə qədər çata bilər. Demək, qalan hissəsi xaricdən alınmalıdır. Böyük məbləğdə valyutaya alınmalıdır.

İkincisi, taxılı hər yerdə satmırlar, onun mənbəyini tapmaq lazımdır. Üçüncüsü, onu nəqliyyatla gətirmək lazımdır. Şimali Qafqazda olan hadisələrə görə 5-6 aydan çoxdur ki, yolumuz kəsilibdir. Biz faktiki olaraq blokada şəraitində yaşayırıq. İndi nə əziyyətlə İrandan, Həştərxandan, Volqoqraddan gəmilərlə, yaxud da Qara dənizdən Gürcüstan ərazisi ilə taxıl məhsulları gətiririk. Bunlar çox çətinliklə həyata keçirilir. Axı biz yaşamalıyıq, özümüz yaşamalıyıq, xalqı yaşatmalıyıq.

Ona görə də biz bu çətinliklərin öhdəsindən müəyyən qədər gələrək, belə ağır vəziyyətdə bunları təmin edərək, düşünməliyik ki, taxıl məhsulumuz çox olsun və 1994-cü ildəki bu əzab-əziyyətdən heç olmasa müəyyən qədər xilas ola bilək. Pambıq məhsulları çox olsun ki, onun satılmasından əldə olunan valyuta ilə taxıl alıb gətirək və əhalimizi təmin edək. Başqa kənd təsərrüfatı məhsulları da gərək çox olsun. Ona gö[70-71]rə də indi, qış dövründə bu islahatların aparılması ilə yanaşı, cari vəzifələrin də həyata keçirilməsi kənd əməkçilərinin, kənd təsərrüfatı ilə məşğul olan hər bir şəxsin, rayon rəhbərlərinin əsas vəzifəsidir.

Mən sizə, sizin vicdanınıza müraciət edirəm. Xalqımız ağır vəziyyətdədir. Xalqın vəziyyətini yüngülləşdirmək lazımdır. Bir milyon qaçqın var. Onların əksəriyyəti işsizdir. Çadırlarda yaşayan insanlar var. Respublikanın maliyyə vəziyyəti ağırdır. Belə bir vəziyyətdə kənd təsərrüfatında, aqrar bölmədə olan bütün imkanlarımızdan səmərəli istifadə edilməlidir. Bunu indi kimin üçünsə yox, özümüz üçün edirik. Biz indi müstəqil bir dövlətik. İstehsal etdiyimiz hər şey özümüz üçündür. Yəni xalqımız, vətəndaşlarımız, ölkəmiz üçündür.

Təəssüf ki, bəziləri böyük vətəndaşlıq vəzifəsini anlamırlar, başa düşmürlər. Bəzi vəzifəli şəxslər vəzifələrindən sui-istifadə edərək ancaq öz güzəranının yaxşı keçməsi ilə məşğuldurlar. Bəziləri həddindən artıq yüksək səviyyədə yaşayır, ancaq kasıbçılıq, korluq çəkən insanların, çörəyə möhtac olanların vəziyyətinə qayğı göstərmirlər, onların şəraitini anlamırlar, buna qəlbən yanmırlar. Belə yaşamaq olmaz. Qədimdən də belə olub ki, əgər görürsənsə qonşun acdır, sən isə toxsan, özün də rahat yaşamamalısan. Mən belə iztirablar içindəyəm. Ona görə də sizin, bütün vəzifəli adamların, kənd təsərrüfatı ilə məşğul olan insanların vicdanına müraciət edirəm. Əgər biz özümüz-özümüzü bu vəziyyətdən çıxarmasaq, heç kəs bunu etməyəcəkdir.

Bizim böyük bəlamız torpaqlarımızın 20 faizinin işğal olunmasıdır. Artıq yeddi aydan çoxdur ki, atəşkəsi əldə etmişik. Ancaq torpaqlarımızın geri qaytarılmasına nail ola bilməmişik, qaçqınların geri dönməsini təmin edə bilməmişik, respublikamızın ərazi bütövlüyünə nail ola bilməmişik. Bunu etmək bizim borcumuzdur, hamımızın borcudur. Heç kəs düşünməsin ki, bu, ancaq prezidentin borcudur, qalanları isə orada-burada gəzməlidir. Yox, bu, Vətəninə sədaqətlə yanaşan hər bir vətəndaşın borcudur.

Belə bir vəziyyətdə iqtisadiyyatımızda olan çətinliklərin öhdəsindən gəlmək üçün, yenə də deyirəm, insanları minimum ərzaq malları ilə, çörəklə təmin etmək üçün hamımız əl-ələ verib çalışmalıyıq. Bizim ümumi dərdimiz budur. Əgər bir dərdimiz, bəlamız torpaqlarımızın işğal olunmasıdırsa, respublikanın ərazi bütövlüyünün pozulmasıdırsa, bununla yanaşı, itkilərimizin, şəhidlərimizin dərdidirsə, ikinci dərdimiz indi ölkə[71-72]mizdə insanların güzəranını minimum səviyyəyə qaldırmaqdır. Bu, bizim vəzifəmizdir. Bunu, təmin etmək üçün torpaqdan çox şey götürmək lazımdır. Torpaqdan, kənd təsərrüfatının potensialından səmərəli istifadə olunmalıdır. İslahatlar da keçirəcəyik, başqa tədbirlər də görəcəyik. Bunların hamısı olmalıdır və hamısını etməliyik. Ancaq bununla yanaşı, hər bir adam gərək fikirləşsin ki, bu gün, sabah, bir ay, iki ay, üç ay ərzində nə etməlidir ki, günü-gündən təbii sərvətlərimizdən, təbiətdən, torpaqdan, aqrar bölmənin imkanlarından səmərəli istifadə edərək xalqın güzəranını müəyyən qədər yaxşılaşdıraq.

Ona görə də bunu sizə bir vəzifə kimi deyirəm. Mən müraciət etdim ki, hər bir şəxs bu işə öz vicdanının hökmü ilə münasibət göstərsin. Mən hesab edirəm ki, xalqımızın əksəriyyəti vicdanlı insanlardır. Eyni zamanda bunu bir vəzifə kimi sizin qarşınızda qoyuram: hansı üsuldan istifadə edirsinizsə, edin, kənd təsərrüfatı işləri getməlidir və biz çalışmalıyıq ki, 1995-ci ildə bütün metodlardan istifadə edərək kənd təsərrüfatı məhsullarının miqdarını artıraq. Bu, bizim üçün ən zəruri vəzifədir. Biz buna nail olmalıyıq.

Rayon icra hakimiyyətlərindən, rayon kənd təsərrüfatı orqanlarından, təsərrüfat rəhbərlərindən mənim tələbim budur ki, bu görüşdən sonra oturub fikirləşməsinlər ki, qanun qəbul ediləcək, islahat aparılacaq və nə vaxtsa nə olacaq. Bu işlərin hamısı paralel getməlidir. Bu işlərlə məşğul olmalıyıq. Mövcud imkanlardan istifadə etməliyik.

Azərbaycanın kənd zəhmətkeşləri – kəndlisi, torpaqla bağlı olan hər bir insanı həmişə namuslu, qeyrətli insan olubdur. Xalqımızın içərisində torpaqla bağlı olan adamlar həmişə Vətənə daha çox sədaqətli olan adamlardır. Onlar Vətənə daha bağlı olublar. Çünki torpağa bağlıdırlar. Mən bunu deyərək və xalqın, kənd təsərrüfatında işləyənlərin, kənd zəhmətkeşlərinin bizim apardığımız işlərə yüksək münasibətini hiss edərək – onların fikirləri bu gün burada da səsləndi – və onlara arxalanaraq, güvənərək, sizə və bütün kənd əməkçilərinə müraciət etmək istəyirəm. Əl-ələ verək, işimizi müvəffəqiyyətlə aparaq. Mən tam əminəm ki, Azərbaycan

xalqının, respublikamızın bütün vətəndaşlarının buna imkanı var və biz bu imkanlardan səmərəli istifadə edib ölkəmizi, xalqımızı yaşatmalıyıq.

Sizə və bütün kənd əməkçilərinə, torpaqla bağlı olan adamların hamısına bu müqəddəs vəzifələrin yerinə yetirilməsində uğurlar diləyirəm.

Sağ olun. [72]

## BÖYÜK AZƏRBAYCAN YAZIÇISI CƏLİL MƏMMƏDQULUZADƏNİN EV-MUZEYİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*28 dekabr 1994-cü il*

Biz artıq 70-ci illərin əvvəllərində Bakıda, Azərbaycanda xalqımızın ayrı-ayrı böyük şəxsiyyətlərinin ev-muzeylərini yaratmağa başladıq və ilk belə muzey böyük bəstəkarımız Üzeyir Hacıbəyovun ev-muzeyi oldu. 76-cı ildə böyük şairimiz Səməd Vurğunun ev-muzeyi yarandı. Ondan sonra da belə muzeylərin yaradılması haqqında mən ciddi göstərişlər vermişdim. Çox arzu edirdim ki, bunlar tezliklə yaransın. Şübhəsiz ki, həmin muzeylərin yaranması üçün bu evlərdə yaşayan adamlar başqa yerlərə köçürülməli idi. Bu işləri biz o vaxt görürdük. O cümlədən burada da yaşayanlar var idi, onların köçürülməsi üçün mən o vaxtlar bu işlə şəxsən məşğul olurdum, göstəriş vermişdim ki, müəyyən mənzillər ayrılsın. Mənzillər verildi, adamlar köçürüldü. İndi siz deyirsiniz ki, 82-ci ilin əvvəlində artıq bura boşalmışdı. Binanı təmir etmək, bu ekspozisiyaları toplamaq üçün bəlkə 5 - 6 ay lazım idi, bir il lazım idi, iki il lazım idi. Ancaq üstündən 12 il keçdi...

Mən çox məmnun olardım ki, – çünki bu işi elə biz başlamışdıq və bu, şəxsən mənim özümün təşəbbüsüm olmuşdu. Buna mənim çox qayğım vardır, – çox məmnun olardım ki, bu muzey tezliklə açılaydı. Mən Moskvada yaşayan vaxt əgər mənə xəbər gəlsəydi ki, bu muzey açılıb, çox sevinərdim. Sonra mən gəldim Azərbaycana, Naxçıvanda yaşayan vaxt bununla bir neçə dəfə maraqlandım. Düzdür, o vaxt imkanlarım yox idi. Ancaq sadəcə ordan-burdan soruşurdum ki, muzey açıldımı-açılmadımı? Dedilər: yox, açılmadı. Nəhayət, Bakıya işə qayıdan kimi yenə də bu məsələ ilə maraqlandım və lazımi tədbirlər görmək barədə göstərişlər verdim. [73-74]

İndi görürsünüz, açıldı ki. Yəni nə qədər də çətinliklər də olsa, belə bir muzeyi açmaq çətin bir şey deyildir. Biz vaxtilə bir ilə, iki ilə böyük-böyük saraylar tikmişik, binalar tikmişik. Belə bir mənzili, yəni bu otaqları təmir edib, ekspozisiyaları bura yığmaq elə çətin iş deyildir. Burada təkcə Cəlil Məmmədquluzadənin şəxsiyyətinə yox, ümumiyyətlə mədəniyyətimizə, ədəbiyyatımıza olan münasibət özünü göstərir. Nə cür münasibət? Belə münasibət yaramaz. Çünki, bilirsiniz, hər bir belə mədəniyyət ocağının, muzeyin yaranması bir tərəfdən mədəniyyətimizi, mədəni irsimizi, tariximizi, keçmişimizi, köklərimizi təbliğ edir. İkinci tərəfdən də bu şəxslərin, bu şəxsiyyətlərin yaradıcılığını təbliğ edir və bunlar böyük tərbiyə ocağıdır, mədəniyyət ocağıdır.

Belə muzeyləri yaratmağın məqsədi sadəcə bir məqsəd deyil. Yəni yalnız bu şəxsiyyətin xatirəsinə ehtiram deyil. Şübhəsiz ki, bu da var. Amma bu, daha geniş bir anlayışdır. Ona görə də mənə belə gəlir ki, lazımi münasibət göstərilməlidir.

İndi olan olub, keçən keçib. Mən çox məmnunam, çox şadam ki, bu gün bu muzey açılır. Güman edirəm ki, bu muzey artıq fəaliyyət göstərəcəkdir. Xalqımızın, xüsusən gənc nəslin təlim-tərbiyəsində və mədəniyyətimizin inkişafında öz rolunu oynayacaqdır. Əminəm ki, muzeyin işçiləri, kollektiv kiçik də olsa, bu muzeydən səmərəli istifadə edəcəklər ki, əvvələn, Cəlil Məmmədquluzadənin yaradıcılığı təhlil olunsun, ikinci tərəfdən də mədəniyyətimiz təbliğ edilsin, insanlarda mədəniyyətin yüksəlməsi təmin olunsun.

Mən muzeyin açılması münasibətilə sizi təbrik edirəm. Hamınıza bu işdə uğurlar diləyirəm. Muzeyin gec də olsa yaranmasında, bu eksponatların toplanmasında, muzeyin açılmasının təmin olunmasında fəaliyyət göstərənlərin hamısına təşəkkür edirəm.

## EV-MUZEYİNİN FƏXRİ QONAQLAR KİTABINA ÜRƏK SÖZLƏRİ

*"Bu gün Azərbaycanın həyatında böyük bir hadisə baş verir. Azərbaycan xalqının böyük yazıçısı, maarifçisi, ictimai xadimi*[74-75]*Cəlil Məmmədquluzadənin ev-muzeyi açılır. Bakı şəhərində yeni mədəniyyət ocağı, Mirzə Cəlil ocağı fəaliyyətə başlayır. Bu, C. Məmmədquluzadənin yaradıcılığına, onun ədəbi, mədəni irsinə, onun xalqımızın tarixində əvəzsiz xidmətlərinə verilən yüksək qiymətin rəmzidir. Şübhə yoxdur ki, muzey Mirzə Cəlil dühasının geniş təbliğinə faydalı xidmət edəcəkdir. Xalqımızın mənəvi saflaşmaq yolunda, müstəqillik yolunda mübarizəsinə kömək edəcəkdir.*

*Muzeyin açılmasını təbrik edirəm, muzeyi yaradanlara təşəkkür edirəm, gələcək fəaliyyətlərində uğurlar diləyirəm. Əminəm ki, muzeyin ekspozisiyaları artacaq, muzey zənginləşəcək, xalqımıza daimi xidmət edəcək.*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*28.12.94"*. [75]

## BÖYÜK AZƏRBAYCAN YAZIÇISI CƏLİL MƏMMƏDQULUZADƏNİN ANADAN OLMASININ 125 İLLİYİNƏ HƏSR EDİLMİŞ YUBİLEY GECƏSİNDƏ NİTQ

*Respublika sarayı*

*28 dekabr 1994-cü il*

Hörmətli xanımlar və cənablar!

Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illiyinə həsr olunmuş, respublikamızda son aylarda həyata keçirilən tədbirlər və bugünkü mərasim böyük yazıçımızın şəxsiyyətinə, onun yaradıcılığına, ədəbi və mənəvi irsinə verilən yüksək qiymətin təzahürüdür. Eyni zamanda bu, dövlətin, ictimaiyyətin, xalqımızın mədəniyyətə, ədəbiyyata, mənəviyyata göstərdiyi münasibətdir. Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi bir insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda o, bizim müasirimizdir, o, bu gün də bizimlədir, bizim sıralarımızdadır. Bizimlə bərabər Azərbaycanın müstəqilliyinə sevinir və bizimlə bərabər Azərbaycan Respublikasının daim müstəqil dövlət olması uğrunda öz yaradıcılığı ilə, qoyduğu mənəvi irslə çalışmaqdadır.

Əsrimizin əvvəlində fəaliyyətə başlayan Cəlil Məmmədquluzadə bu gün, əsrimizin sonunda bizim üçün mənəviyyat mənbəyidir, mənəvi dayaqdır. O bizə ilham verir, bizə güc verir, sürətlə irəli getməkdə, xalqımızı bugünkü vəziyyətdən çıxarmaqda bizə kömək edir.

Bizim xalqımız və dünya ictimaiyyəti Cəlil Məmmədquluzadəni böyük yazıçı, ədib, mütəfəkkir insan kimi tanıyır. Burada çıxış edən hörmətli yazıçımız Anar, hörmətli alimimiz Bəkir Nəbiyev onun yaradıcılığı haqqında ətraflı danışdılar. Doğrudur, Cəlil Məmmədquluzadə yaradıcılığı elə bir dəryadır ki, o dəryanın dibinə gedib çatmaq, hamısını əhatə etmək mümkün deyildir. Güman edirəm ki, hələ bir neçə nəsil Azərbaycan tarixçisi, ədəbiyyatşünası, siyasətşünası, alimi Cəlil Məmmədquluzadə xəzinəsini, yaradıcılığını araşdıracaq [76-77] onu tədqiq edərək yeni-yeni kəşflər edəcəkdir. Cəlil Məmmədquluzadə yaradıcılığı Azərbaycanın mənəviyyatını, mədəniyyətini, ədəbiyyatını dünyaya nümayiş etdirən və xalqımızın nəyə qadir olduğunu göstərən böyük bir sərvətdir.

Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə, əsərləri ilə, publisistikası ilə, böyük mətbuatçılıq fəaliyyəti ilə Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynamışdır. Xalqımızın milli şüurunun formalaşmasında məhz "Molla Nəsrəddin" jurnalının və Mirzə Cəlil fəaliyyətinin rolu misilsizdir. "Molla Nəsrəddin" jurnalı dünyada məşhurdur. O vaxtlar rabitənin çox zəif olduğuna baxmayaraq, "Molla Nəsrəddin" jurnalı dünyanın bir çox ölkələrində yayılırdı, hörmətlə qarşılanırdı, oxunurdu və hər yerdə öz təsirini göstərirdi. Azərbaycanın həyatında "Molla Nəsrəddin" jurnalının xüsusi yeri var. O vaxtın şəraitinə uyğun olaraq Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalını xalqın əksər təbəqələri üçün oxuna bilinən, anlaşıqlı səviyyədə nəşr edirdi. Təsadüfi deyildir ki, tanınmış rəssamlar Şmerlinqin, Rotterin, Azərbaycanın böyük rəssamı Əzim Əzimzadənin və başqalarının istedadından istifadə edərək demək olar ki, yazılarla bərabər həcmdə şəkillər, karikaturalar da verilirdi. Mən bunu belə anlayıram ki, o vaxt xalqımızın əksəriyyəti savadsız olduğuna görə, çoxunun oxumaq imkanı olmadığına görə karikaturalar və şəkillər savadsız adamlara da çox təsir bağışlayırdı, sözləri oxumadan da fikirləri çatdırıb bildirirdi. Jurnal Azərbaycan dilində nəşr olunduğundan o vaxt onu oxuyanların vasitəsilə xalq arasında geniş yayılırdı və çox güclü təsir göstərirdi.

"Molla Nəsrəddin" jurnalını yaradan Cəlil Məmmədquluzadə oldu. Əvvəl Tiflisdə, sonra Təbrizdə, daha sonra Bakıda nəşr edilən bu jurnal təəssüflər olsun ki, Mirzə Cəlil dünyasını dəyişəndən sonra öz fəaliyyətini dayandırdı. Doğrudur, sonrakı dövrlərdə və xüsusən 50-ci illərdə Azərbaycanda "Molla Nəsrəddin" məktəbini davam etdirməyə çalışdıq. Ancaq bu gün etiraf etməliyəm ki, buna nail ola bilmədik. "Kirpi" jurnalı onun davamçısı olmalı idi. Bu gün "Kirpi" jurnalının həyatımızda oynadığı rola lazımi qiymət verərək, eyni zamanda qeyd etmək istəyirəm ki, o heç də "Molla Nəsrəddin" jurnalının səviyyəsinə çata bilmədi, onun tam davamçısı ola bilmədi, cəmiyyətimizdə onun yerini tuta bilmədi. Ancaq buna o illərdə də ehtiyac çox idi, bu gün də ehtiyac [77-78] çoxdur və bugünkü şəraitimizdə biz yenə də "Molla Nəsrəddin" jurnalına çox möhtacıq.

Cəlil Məmmədquluzadə dühası "Molla Nəsrəddin" jurnalında öz əksini tapdı. "Molla Nəsrəddin", onun vasitəsilə Cəlil Məmmədquluzadə və jurnalın işinə cəlb olunmuş Azərbaycanın başqa mütəfəkkir adamları xalqımızın milli şüurunun formalaşmasında, milli ruhunun yüksəldilməsində, milli oyanışında böyük rol oynadılar.

Ona görə də biz Cəlil Məmmədquluzadəyə sadəcə bir ədəbiyyatçı kimi, yazıçı kimi, publisist kimi yox, eyni zamanda böyük ictimai xadim kimi, böyük siyasətçi kimi yanaşmalıyıq. Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə Azərbaycanın ictimai-siyasi həyatının inkişafında, milli ruhun yüksəlməsində böyük rol

oynamışdır. Bu, təkcə ədəbiyyat deyil, təkcə mədəniyyət deyil, bu, siyasətdə böyük xidmətdir, ictimai həyatımızda böyük xidmətdir.

Mirzə Cəlilin yaradıcılığı haqqında çox danışmaq olar və mən bu gün burada çıxış edərkən qarşıma həmin məqsədi qoymamışam. Sadəcə olaraq bir neçə məqama toxunmaq istəyirəm. Onlardan biri də ədibin əsərlərində, bir də təkrar edirəm, xalqımızın milli ruhunun yüksəldilməsi, xalqımızın milli ideologiyasının yaranması, formalaşmasıdır. Bu sahədə Mirzə Cəlilin gördüyü işlər, bizə bəxş etdiyi töhfələr və qoyub getdiyi irs böyük xəzinədir, bu xidmətlər əvəzsizdir.

Biz indi əsrin sonuna doğru addımlayarkən müstəqil dövlət kimi öz milli ideologiyamız haqqında düşünməliyik. Milli ideologiyamız, şübhəsiz ki, tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır. Bu baxımdan, Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətlərini, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyanın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir. O dövrdə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz yaradıcılığında əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri böyük vətəndaşlıq cəsarəti idi, böyük xidmətdir və bunu biz daim qiymətləndirməliyik. Ona görə də Cəlil Məmmədquluzadənin yaradıcılığı, əsərləri bu gün bizim milli ideologiyanın formalaşmasına, yaranmasına və onun konsepsiyasının elmi [78-79] şəkildə hazırlanmasına çox kömək edə bilər və çox kömək edəcəkdir.

Cəlil Məmmədquluzadənin fəaliyyətində ən dəyərli cəhətlərdən biri də Azərbaycan xalqının dilinin inkişafı üçün göstərdiyi xidmətlərdir. Onun daim işlətdiyi "Vətən, Vətən, Vətən! Millət, millət, millət! Dil, dil, dil!" sözləri xalqımızın, millətimizin fikirlərini, arzularını ifadə edir. Ədibin ana dilinə – Azərbaycan dilinə böyük diqqəti, ana dilini təbliğ etməsi, insanların hamısını ana dilini bilməyə dəvət etməsi və ana dilinin, Azərbaycan dilinin hər yerdə hökm sürməsinə dair fikirləri, yazıları o vaxt üçün çox vacib idi, bu gün üçün də çox aktualdır. "Anamın kitabı" əsəri Azərbaycan üçün çox dahiyanə bir əsərdir. Çünki bizim xalqımız, respublikamız Şərqin və Qərbin, Şimalın və Cənubun qovuşuğundadır. Əsrlər boyu ayrı-ayrı istiqamətlərdən xalqımıza təsirlər olmuşdur. Mədəniyyətimizin və elmimizin inkişafına da bu təsirlər olmuşdur. Ancaq xalqımızın dahi simaları Azərbaycan dilini daim yaşadıb, Azərbaycanın milliliyini yaşadıb, milli şüuru yaşadıb, milli məfkurəni yaşadıblar. Lakin elə zamanlar, elə dövrlər də olub ki, bəzən başqa ölkələrdə təhsil almış adamlar o ölkələrin dilini, adət-ənənəsini qəbul edərək öz dilini, öz adət-ənənəsini, milliliyini itirməyə uğramışlar. Bu gün də bu, var. Bu hallarla biz yaxın keçmişdə də çox qarşılaşmışıq və demək olar ki, son 20-25 ildə Azərbaycan dilinin Azərbaycanda hakim olması, sadəcə, formal surətdə dövlət dili elan olunması yox, hər yerdə tətbiq edilməsi, inkişaf etməsi böyük səylərin nəticəsidir və bu, çox vaxt güclü müqavimətlərlə rastlaşmışdır.

Bax, bunların hamısı əsrin əvvəlində də var idi. O vaxt savadlı adamlar az idi, hər bir ölkədə təhsil almış adam həmin ölkənin dilini, adət-ənənəsini təbliğ edirdi, başqa bir ölkədə təhsil almış adam onun dilini təbliğ edirdi. Öz dilimiz, öz adət-ənənələrimiz, öz milliliyimiz bəzən itib gedirdi. Cəlil Məmmədquluzadənin böyüklüyü həm şəxsi həyatında, həm fəaliyyətində, həm də yaradıcılığında ondan ibarətdir ki, o, ilk təhsilini Naxçıvanda molla məktəbində aldıqdan sonra rus dilində Qori seminariyasını bitirib, sonra Sankt-Peterburqda təhsil almışdır. O, rus dilini mükəmməl bilib, Avropa mədəniyyətini çox dərindən öyrənib, ümumbəşəri dəyərləri dərk edib, onları öz milliliyi ilə, öz ana dili ilə, öz milli kökləri ilə birləşdirərək [79-80] Mirzə Cəlil olubdur, Cəlil Məmmədquluzadə olubdur. O, "Molla Nəsrəddin" kimi dahiyanə bir məktəb yaradıbdır və bizə böyük mənəvi irs qoyub gedibdir. Mirzə Cəlilin bu xidmətləri bizim üçün, dediyim kimi, bu gün də çox qiymətlidir. Biz bundan çox gücü istifadə etməliyik. Çünki hələ "Anamın kitabı"nda yazılan, təsvir olunan meyllər bu gün də cəmiyyətimizdə özünü büruzə verir.

"Ölülər" əsəri haqqında. Mən tam cəsarətlə deyə bilərəm ki, dünya ədəbiyyatında buna bərabər, buna bənzər ikinci əsər tapmaq mümkün deyildir. Bu əsər Cəlil Məmmədquluzadənin həm nə qədər böyük filosof, psixoloq olduğunu göstərir, həm də onun yalnız özünəməxsus yaradıcılığını, özünəməxsus fitri istedadını əks etdirir. "Ölülər" əsəri ölməz əsərdir. O, yazıldığı vaxt da lazım idi, o bizə bu gün də lazımdır. "Ölülər" əsərindən uzun müddət din əleyhinə təbliğatda istifadə edilib və çox hallarda o, din əleyhinə yazılan bır əsər kimi qəbul olunubdur. Təəssüf ki, o dövrdə bəlkə bu belə idi. Çünki bizim həyatımızda ateist tərbiyəsi hökm sürürdü, din inkar olunurdu və bu əsər bəlkə də bu baxımdan, həmin istiqamətdə xidmət göstərirdi. Ancaq Mirzə Cəlil bu əsəri yaradarkən heç də dinə müxalif çıxmayıbdır, əksinə, bu əsərlə islam dininin xalqımız üçün nə qədər böyük mənəvi dəyər olduğunu sübut etməyə çalışıbdır. Eyni zamanda o, dini təhrif edənləri, dindən istifadə edib fırıldaqçılıqla məşğul olanları ifşa edib, tənqid atəşinə tutubdur.

Biz indi öz dinimizə qayıtmışıq. Din mənəvi mənbələrimizdən biridir. İslam dininin, Qurani-Kərimin Azərbaycan xalqı üçün açdığı yol davam edəcək və biz get-gedə dinimizin hər yerdə özünə layiq yer tutmasına imkan yaradacağıq. Ancaq biz Cəlil Məmmədquluzadənin "Ölülər" əsərindən bu gün də bəhrələnməliyik. Çünki bu gün də dini təhrif edənlər, dindən öz məqsədləri üçün istifadə edənlər, dindən istifadə edərək xalqımızı cəhalətə uğratmağa çalışanlar az deyil. Mirzə Cəlil isə bəlaləri ilə o vaxt mübarizə aparıbdır və "Ölülər" əsəri ilə bizə bu vəsiyyəti edibdir. Biz də onun vəsiyyətini yerinə yetirməliyik.

Mənim fikrimcə, "Ölülər" əsərinin ikinci mühüm cəhəti ondan ibarətdir ki, orada təkcə dindən istifadə edib fırıldaqla məşğul olan adamlar ifşa edilmir, həm də insanların mənəviyyatının nə qədər əhəmiyyətli olduğu açıq-aşkar göstərilir. [80-81]

Təəssüf ki, mənəviyyatda çatışmazlıq, mənəviyyatda gerilik bizi bu gün də sıxır. Mənəviyyatımızda ayrı-ayrı şəxslərin, ayrı-ayrı qrupların mənfi hərəkətləri cəmiyyətimizi, xalqımızı incidir. Biz "Ölülər" əsərindən dərs götürməliyik. Xatirinizdədirsə, elan olunandan sonra ki, şeyx Nəsrullah ölüləri dirildəcəkdir, nə qədər adam onun gəlişini böyük maraqla gözləyirdi. Biri atasını, biri qardaşını, biri arvadını diriltmək istəyirdi. Cəlil Məmmədquluzadə o adamların mənəviyyatca nə qədər kasıb olduqlarını sübut etmək üçün kefli İsgəndərin dili ilə onları ifşa edir. Kefli İsgəndər deyir: sən qardaşını diriltmək istəyirsən, qardaşın gəlib görəcək ki, sən onun arvadını almısan, uşaqlarına da pis baxırsan, özünü nə cür hiss edəcəksən? O birisinə deyir sən atanı diriltmək istəyirsən. Atan gəlib görəcək ki, sən onun vəsiyyətlərini yerinə yetirməmisən. Sən özünü nə cür hiss eləyəcəksən? "Ölülər" əsəri ilə tanış olanlar bu dialoqları yaxşı bilirlər. Ondan sonra adamların hamısı şeyx Nəsrullahın xidmətindən imtina etməyə çalışır və ölülərini diriltmək istəmir, fikirlərini dəyişirlər. Nə üçün? Günahlarına görə. Nə üçün? Mənəvi şikəstliklərinə görə.

Bu mənəvi şikəstlik bizim cəmiyyətdə indi də var. İndi də qardaşına, dostuna, yoldaşına xəyanət edənlər, indi də millətinə, xalqına xəyanət edən adamlar var. Bunlar çoxdur, bəlkə o vaxtkından daha çoxdur. Ona görə də "Ölülər" əsərinin bu cəhəti bizim üçün çox əhəmiyyətlidir və o, böyük bir fəlsəfi əsər kimi bizə bu gün də lazımdır.

Cəlil Məmmədquluzadə tariximizə böyük bir demokrat kimi daxil olubdur. O öz yaradıcılığı ilə Azərbaycanın müstəqilliyi üçün çalışırdı, xalqımızı oyatmağa çalışaraq, milli şüuru formalaşdıraraq, milli oyanışı gücləndirərək xalqı milli azadlığı uğrunda mübarizəyə dəvət edirdi, xalqımızın müstəqil olması üçün yol açırdı və bu yolu da yalnız və yalnız demokratik prinsiplər əsasında görürdü. Təsadüfi deyil ki, onun yazılarında cümhuriyyət anlayışı bu gün bizim quracağımız demokratik hüquqi dövlət prinsipləri ilə səsləşir. Mən onu oxuyanda fikirləşdim ki, bunlar bu günmü yazılıb? Yox, bunları Cəlil Məmmədquluzadə o zaman yazıbdır ki, o vaxtlar o yazırdı ki, "cümhuriyyət elə bir hökumətə deyirlər ki, orada məmləkətin idarəsi camaatın, xalqın öz öhdəsində və ixtiyarındadır və vicdan azadlığı, yığıncaq azadlığı, birlik azad[81-82] lığı, söz azadlığı, mətbuat azadlığı, siyasi firqələr düzəltmək azadlığı, şəxsiyyət azadlığı, qanun qarşısında bərabərlik, seçki üsulunda həmrəylik, bərabərlik və müstəqillik, gizli səsvermə prinsipləri cümhuriyyət quruluşunda əsas olmalıdır".

Biz bu gün bu prinsiplər əsasında demokratik hüquqi dövlət yaratmaq istəyirik, demokratik hüquqi cəmiyyət yaratmaq istəyirik. Cəlil Məmmədquluzadə böyük demokrat olubdur, Azərbaycanın dövlətçiliyi üçün səylər göstəribdir. Bizə böyük miras, irs qoyub gedibdir. Bunların hamısını biz yüksək qiymətləndirməliyik. Bax, bunlara görə də Cəlil Məmmədquluzadə daim bizimlədir.

Cəlil Məmmədquluzadədən, onun yaradıcılığından biz daha faydalı istifadə etməliyik. Doğrudur, Cəlil Məmmədquluzadənin yaradıcılığının tədqiqinə həsr olunan çox əsərlər yaranıbdır. Onlar haqqında bu gün deyildi. Hesab edirəm ki, bunlar yetərli deyil və hesab edirəm ki, Cəlil Məmmədquluzadənin yaradıcılığı, onun əsərləri haqqında elmi əsərlər, fundamental monoqrafiyalar yaratmaqla yanaşı, onun yaradıcılığını, əsərlərini populyar şəkildə geniş kütlələrə, camaata, xalqa çatdırmaq lazımdır. Bugünkü nəsli, gənc nəsli onunla yaxından tanış etmək lazımdır. Bizim bu gənc nəslimiz, indi yeni dövlətimizi, yeni cəmiyyətimizi formalaşdıran nəslimiz Cəlil Məmmədquluzadənin əsərləri ilə, yaradıcılığı ilə nə qədər yaxından tanış olsa, o qədər bizim dövlətçilik işimiz asan gedər.

Burada deyildi ki, "Molla Nəsrəddin" jurnalının faksimilesi on iki cilddən ibarətdir. Təəssüf ki, on il bundan öncə onun cəmi bir cildi buraxılıbdır, indiyə qədər qalanları çap edilməyib. Etiraf etmək lazımdır ki, 10 il bundan qabaq bunun hamısını bir ildə buraxmaq olardı. Beş il bundan qabaq da bunu buraxmaq asan olardı. Amma indi bunlar çətinləşibdir. Buna baxmayaraq, biz bunu etməliyik və geniş yaymalıyıq ki, xalqımız Mirzə Cəlil dühasından bəhrələnərək mənəviyyatca daha da saf olsun, mənəvi dəyərlərimiz daha da möhkəmlənsin.

Cəlil Məmmədquluzadənin xidmətləri yüksək qiymətləndirilib, onun adı əbədiləşdirilib. Bu gün biz onun ev-muzeyini açdıq. Mən çox təəssüf edirəm ki, 1978-ci ildə bu barədə qəbul olunmuş qərar ancaq indi yerinə yetirildi. Doğrudur, muzeyin yaradılması üçün o vaxtlar orada yaşayan adamlara başqa yerdə mənzil vermək lazım idi. Biz bunu etdik və muzey yaranan yer, Mirzə Cəlilin yaşadığı mənzil 1981-ci ilin sonunda artıq boş idi. [82-83]

On iki il vaxt tələb olunub ki, orada o muzey yaransın. Mən buna təəssüf edirəm. Amma eyni zamanda, mən sizə açıq deyim, özümü xoşbəxt hesab edirəm ki, Mirzə Cəlilin ev-muzeyinin yaranması sahəsində vaxtilə qəbul etdiyim qərarın indi həyata keçirilməsində də iştirak etmək mənə nəsib oldu.

Naxçıvanda Cəlil Məmmədquluzadənin çox gözəl, dəyərli bir abidəsi qoyulubdur. Heykəltəraş Mirqasımov Cəlil Məmmədquluzadəyə layiq böyük bir sənət əsəri yaradıbdır. Ancaq güman edirəm ki, Cəlil Məmmədquluzadə kimi böyük bir şəxsiyyətin heykəli Azərbaycanın paytaxtı Bakı şəhərində də olmalıdır. Biz bu barədə düşünməli və qərar qəbul etməliyik. Burada Anar Cəlil Məmmədquluzadənin həyatının son illəri haqqında məlumat verdi, dedi ki, bu böyük insan nə qədər əzab-əziyyət içində yaşayıbdır və təəssüf ki, o vaxt cəmiyyət ona layiqincə qayğı göstərməyibdir. Bunu eşidərkən, bunu oxuyarkən dəhşətə gəlirsən, inciyirsən və

bəzən də anlamırsan ki, nə cür ola bilərdi ki, Cəlil Məmmədquluzadə kimi bir şəxsiyyət elə ağır şəraitdə yaşasın və elə bir əzab-əziyyət içərisində dünyasını tərk etsin. Ancaq bunlar həqiqətdir. Bunlar Cəlil Məmmədquluzadənin parlaq yaradıcılığı ilə, dahiliyi ilə yan-yana, bizim tarixi keçmişimizin əzab-əziyyətidir, ağrı-acısıdır. Biz bunları dadmışıq, görmüşük, keçmişik və güman edirəm ki, bunlar bizim həyatımızda daha heç vaxt təkrar olunmamalıdır.

Ona görə də ədəbiyyata, elmə, mədəniyyətə qayğı, diqqət həmişə olmalıdır. İndi iqtisadiyyatımızda vəziyyət ağırdır, müharibə şəraitindəyik, çətin yaşayırıq və məlumdur ki, əhalimizin böyük hissəsi ağır maddi vəziyyətdədir. O cümlədən ziyalılarımızın – alimlərimizin, yazıçılarımızın, mədəniyyət işçilərimizin çox hissəsi ağır maddi şəraitdə yaşayır. Bunlar keçid dövrünün gerçəkliyidir. Mən bunları ürək ağrısı ilə deyirəm. Belə olmamalıdır. Yaradıcı adamlar, ziyalılar, mədəniyyətimizi, elmimizi yaradanlar, inkişaf etdirənlər daim cəmiyyətin və dövlətin qayğısı ilə əhatə olunmalıdırlar. Əmin edirəm ki, biz bundan sonra da əlimizdən gələni edəcəyik və çalışacağıq ki, əhalinin bu təbəqəsinə, bu ağır dövrdə imkan dairəsində müəyyən yardımlar olunsun.

Ancaq eyni zamanda gərək bu gün bizim yaradıcı adamlarımız, alimlərimiz, yazıçılarımız, mədəniyyət xadimlərimiz Cəlil Məmmədquluzadənin həyatını təhlil edərək özləri üçün müəyyən etsinlər ki, əgər Cəlil Məmmədquluzadə kimi adam [83-84] belə ağır əzab-əziyyətə dözübsə, öz iradəsindən, öz məsləyindən dönməyibsə, demək, bu, böyük bir məktəbdir, böyük bir təcrübədir, böyük bir yoldur. Mən istəməzdim ki, bu gün mədəniyyət xadimlərimiz belə ağır vəziyyətə düşsünlər. Əgər həyat kimisə belə ağır, əziyyətli vəziyyətə salıbsa, biz onlara kömək əli uzatmalıyıq, eyni zamanda mədəniyyət xadimlərimiz, alimlərimiz, ziyalılarımız bu əzab-əziyyətli dövrü cəsarətlə keçib getməlidirlər. Biz bərabər keçib getməliyik. Mən əminəm ki, bizim ziyalılarımız belə düşünürlər və Cəlil Məmmədquluzadənin həyatı onlar üçün böyük təcrübə mənbəyidir, məktəbdir.

Güman edirəm ki, bu gün keçirdiyimiz mərasim dövlətin, ictimaiyyətin mədəniyyətimizə, elmimizə, mənəviyyatımıza göstərdiyi qayğıdır, münasibətdir və əmin ola bilərsiniz ki, bu münasibət daim olacaqdır. Ümidvaram ki, xalqımız dövlətin mədəniyyətə bu münasibətini görərkən bundan sonra mədəniyyətə daha da qayğı göstərəcək, mədəniyyətimizin daha da inkişaf etməsi üçün tədbirlər görəcəkdir.

Mən bu gün Mirzə Cəlil dühasının bayramı münasibətilə sizi və bütün Azərbaycan xalqını təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, Mirzə Cəlil yaradıcılığı bu günümüzə və gələcək həyatımıza parlaq işıq saçacaqdır, yollar açacaqdır və müstəqil Azərbaycanın gələcəyə uğurla getməsinə kömək edəcəkdir. [84]

**BRAZİLİYA FEDERATİV**
**RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**FERNANDO ENRIKE KARDOZO**
**CƏNABLARINA**

Hörmətli cənab prezident!

Azərbaycan Respublikası adından və şəxsən öz adımdan Sizi Braziliya Federativ Respublikasının prezidenti vəzifəsinə başlamağınız münasibətilə təbrik edirəm.

Sizə xoşbəxtlik, möhkəm cansağlığı və Braziliya xalqının əmin-amanlığı və tərəqqisi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Ümidvaram ki, Braziliya Federativ Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlər xalqlarımızın rifahı naminə həmişə dostluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq münasibətləri olacaqdır.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*29 dekabr 1994-cü il* [85]

## BAKIDAKI XARİCİ ÖLKƏ SƏFİRLİKLƏRİNİN BAŞÇILARI, BEYNƏLXALQ VƏ HUMANİTAR TƏŞKİLATLARIN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ YENİ İL TƏBRİKİ

*30 dekabr 1994-cü il*

Biz 1995-ci ili qarşılayırıq. Mən bu gün, Yeni il ərəfəsində xarici ölkələrin Azərbaycanda olan səfirləri ilə görüşməyi özüm üçün zəruri hesab etdim. Azərbaycan hər ay, hər il öz dövlət müstəqilliyini təsdiq etmək, inkişaf etdirmək istəyir və buna görə də xarici ölkələrlə əlaqələri daim genişləndirməyə çalışır.

Hesab edirəm ki, 1994-cü il bu baxımdan çox əhəmiyyətli olubdur. Bu il Azərbaycanın xarici ölkələrlə əlaqələri genişlənib, inkişaf edib, möhkəmlənibdir. Bu işdə xarici ölkələrin Azərbaycandakı səfirlikləri ilə əlaqələr, onlarla aparılan iş və onların fəaliyyəti yüksək qiymətə layiqdir. Ona görə də mən bu gün sizinlə görüşüb, sizi salamlamağı lüzumlu hesab etmişəm. Sizinlə çox səmərəli əməkdaşlıq etdiyimizə görə məmnun olduğumu bildirmək istəyirəm.

Sizə – xarici ölkələrin buradakı səfirliklərinə, beynəlxalq təşkilatların təmsilçilərinə, müxtəlif ölkələrin Azərbaycanda fəaliyyət göstərən nümayəndəliklərinin hamısına bu əlaqələrin inkişaf etməsi üçün göstərdikləri fəaliyyətə görə təşəkkürümü bildirirəm.

Sizi Yeni il – 1995-ci il münasibətilə ürəkdən təbrik edirəm, işlərinizdə uğurlar, həyatınızda xoşbəxtlik, səadət və əmin-amanlıq arzulayıram, təmsil etdiyiniz ölkələrin xalqlarını, dövlətlərinizin, hökumətlərinizin başçılarını təbrik edirəm. Ölkələrinizə, xalqlarınıza və dövlətlərinizin başçılarına Yeni il təbriklərimi və salamlarımı göndərirəm.

Yeni iliniz mübarək olsun! Hamınıza Yeni ildə xoşbəxtlik diləyirəm. Sağ olun. [86]

## DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİKİ

Əziz soydaşlarımız!

Dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəyliyi günüdür.

Azərbaycan xalqı uzun əsrlər boyu yadelli işğalçıların zülmlərinə məruz qalmış, öz şərəfli tarixini şəhidlərinin al qanı ilə yazmışdır. Bu ağır zərbələrə ləyaqətlə sinə gərən soydaşlarımız bir çox hallarda doğma torpaqlarından uzaq düşmüş, Vətənindən ayrı yaşamağa məcbur olmuşlar. Lakin öz xalqının taleyini, gələcəyini düşünən qardaş və bacılarımız Azərbaycanın istiqlal mücadiləsini bir an belə yaddan çıxarmamış, müstəqil dövlətçiliyimiz uğrunda fəal mübarizə aparmışlar.

Xaricdə yaşayan həmvətənlərimiz bu gün də müstəqil Azərbaycan Respublikasının ictimai həyatı ilə dərindən maraqlanır, Vətənimizin çiçəklənməsi naminə əllərindən gələni əsirgəmirlər. İşğal olunmuş ərazilərimizin azad edilməsi uğrunda apardığımız mübarizə, ölkədəki iqtisadi və sosial dəyişikliklər, respublikamızın yeritdiyi ardıcıl müstəqillik xətti daim onların diqqət mərkəzindədir.

Bu əlamətdar gündə bütün Dünya Azərbaycanlılarını Milli Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edir, müstəqil Azərbaycan dövlətinin daha işıqlı gələcəyi, xalqımızın birliyi və həmrəyliyi naminə hamınıza uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
Azərbaycan Respublikasının Prezidenti

*30 dekabr 1994-cü il* [87]

## "REKLAMNI VESTNİK"in MÜXBİRİNƏ MÜSAHİBƏ

*31 dekabr 1994-cü il*

**- Artıq bir ildən çoxdur ki, bu vəzifədəsiniz. Amma bir neçə il əvvəl çoxları əmin idi ki, Heydər Əliyevin siyasi karyerası bitmişdir...**

- 1987-ci ildə SSRİ rəhbərliyi ilə, o cümlədən şəxsən Qorbaçovla kəskin fikir ayrılığına görə Siyasi Büro tərkibindən çıxarkən mən heç güman etməzdim ki, böyük siyasətə qayıdacağam. 1990-cı ilin sonunda mənə Bakıda yaşamağa icazə vermədilər və onda Naxçıvanda sığınacaq tapdım. 1991-ci ildə orada mürəkkəb vəziyyət yaranmışdı – Muxtar Respublika blokadaya alınmışdı. Xalq bir neçə gün meydanlarda mitinq keçirir, tələb edirdi ki, mən Ali Sovetə başçılıq edim. Mən də məcbur olub bu işi görməli oldum. Çətin şəraitdə yaşayırdıq, lakin hər halda nisbətən sakitlik idi. Elə düşünürdüm ki, Naxçıvan mənim son dayanacağımdır. Lakin 1993-cü ilin iyununda Bakıda hakimiyyət uğrunda mübarizə kəskinləşdi, respublika vətəndaş müharibəsi həddinə gəlib çatdı. Onda prezident Əbülfəz Elçibəy mənə müraciət etdi – onun özü dövləti böhrandan çıxara bilmirdi. Mən qayıtmaq istəmirdim. Lakin qərara aldım ki, kənarda qalmaq düzgün olmaz. Təyyarə ilə uçub Bakıya gəldim. Elə hesab edirəm ki, vəziyyəti sabitləşdirə bildim. Vətəndaş müharibəsinin qarşısı alındı. Təəssüf ki, mən Azərbaycan Ali Sovetinin sədri vəzifəsini ifa etməyə başlayandan iki gün sonra Elçibəy Bakını tərk etdi. Və o vaxtdan Naxçıvanın Kələki kəndindədir. Mən tək qaldım.

**- Azərbaycan prezidenti indiyədək "döyüş meydanında tək qalan döyüşçü"dür?**

- Mən özümlə heç bir komanda gətirməmişəm və hazırlamamışam. Özümün siyasi strukturum da yoxdur, hərçənd prezident seçilənə qədər "Yeni Azərbaycan" partiyasına başçılıq edirdim. Hələ 1982-ci ildə buradan getsəm də, öz respublikamı yaxşı tanıyıram, o vaxtdan bir neçə rəhbərlik dəyişmişdir. Ümumiyyətlə, necə deyərlər, əlimin altında olan səlahiyyətli adamlarla işləyirəm.

**- Bununla belə, bəzi müxalif əhval-ruhiyyəli siyasətçilər yüksək ixtisaslı kadr işçilərini öz müasirləri[88-89]nizlə, dostlarınız, hətta qohumlarınızla əvəz etdiyinizi söyləyirlər.**

- Məndən qabaq məsul vəzifələrə təyin olunan adamların hamısı öz yerində işləyir. Təbiidir ki, Surət Hüseynovu və onunla birlikdə oktyabrın əvvəllərində dövlət çevrilişi etmək istəyənləri, habelə həmin vəzifələrdən könüllü çıxanları istisna edirəm. Belə ki, respublikanın indiki rəhbərliyində heç bir "Naxçıvan klanı" yoxdur. Bir halda ki, siz müxalifətdən söz açdınız, onda icazə verin bir şeyi xatırladım: Azərbaycanda indinin özündə də 40-dan çox siyasi partiya mövcuddur ki, onların da əksəriyyəti müxalifət partiyalarıdır. Müxtəlif əqidəli 600-dən çox qəzet nəşr olunur. Əgər bütün bunları "demokratiyanın ləğvi" kimi qəbul edirlərsə – müxalifətdə olanların bəziləri mənim tutduğum islahat yoluna məhz belə münasibət bəsləyirlər – onda onlar məni günahlandırmaqda haqlıdırlar.

**- Sizin və köməkçilərinizin işləyib hazırladığınız siyasətə təsir göstərən başlıca amillər hansılardır?**

- Biz müstəqilliyin bərqərar olması yolunda çox mürəkkəb yol keçirik. Məlum olduğu kimi, keçmiş SSRİ-nin bütün respublikaları hər bir sahədə, xüsusilə iqtisadi sahədə bir-biri ilə sıx bağlı olmuşdur. Respublikalar ayrıldıqdan sonra əlaqələrin kəsilməsi Azərbaycan üçün ən xoşagəlməz nəticələr vermişdir. Azərbaycanın sosial-iqtisadi vəziyyətini mürəkkəbləşdirən daha bir səbəb isə müharibədir. Bu müharibə altı ildir davam edir, respublika ərazisinin 20 faizindən çoxu işğal olunmuşdur və indiyədək 1 milyondan artıq adam qaçqın halında yaşayır. Bu adamlar hər şeylərini itirmişlər.

Azərbaycan böyük iqtisadi potensiala malikdir. Bu həm yeraltı sərvətlər, hər şeydən əvvəl neft, habelə sənaye, kənd təsərrüfatı və əmək ehtiyatlarıdır. Lakin yuxarıda göstərilən proseslər onlardan səmərəli istifadə etməyə mane olur. Bütün qüvvələr ölkəni ağır iqtisadi vəziyyətdən çıxarmağa, həmçinin müdafiə ehtiyaclarına yönəldilir.

**- Əlaqələrin pozulması. Bu problemi 2 ildir ki, MDB yaratmaqla həll etməyə cəhd göstərirlər. Sizcə bu struktur həyat qabiliyyətlidirmi?**

- Mən deyə bilmərəm ki, MDB artıq təşəkkül tapmışdır və səmərəli fəaliyyət göstərir. Məncə, vəziyyət belədir: dövlət başçılarının bir-iki gün davam edən görüşü zamanı adama elə gəlir ki, ittifaq var, amma qalan vaxtlarda sanki bu ittifaq [89-90] yoxdur. Məncə, MDB-nin müvafiq beynəlxalq təşkilatlar kimi fəaliyyət göstərməsi üçün çox ciddi tədbirlər görülməlidir.

**- Bəlkə bunun üçün dövlətlərarası hakimiyyət institutu lazımdır?**

- Mən bunu məqsədəuyğun saymıram. Belə münasibət vahid dövlətin dirçəldilməsinə səbəb olar və nəticədə milli mənafelərə zərər toxunar.

**- Qarabağ münaqişəsinin səbəbləri və nəticələri haqqında nə deyə bilərsiniz?**

- Bütün hadisələr başlanarkən Azərbaycan İttifaqın tərkibində idi. Fikrimcə, İttifaq rəhbərliyi münaqişənin genişlənməsinin qarşısını ala bilərdi. Lakin bunu etmədi.

İndi Azərbaycan öz ərazi bütövlüyünü qorumaq üçün müharibə aparır. Lakin bu vaxt ərzində biz münaqişəni sülh yolu ilə həll etməyə cəhd göstərmişik. Hər halda, nə isə edə bilmişik – necə olsa da, mayın 10-dan atəş dayandırılmışdır. İndi danışıqlar gedir. Danışıqların gedişində bəlkə də nəhayət, hansısa razılığa gələ biləcəyik. Lakin bir şərtlə. Erməni silahlı birləşmələri işğal olunmuş bütün torpaqlarımızdan çıxarılmalıdır.

**- Bütövlükdə Qafqazda hökm sürən vəziyyət haqqında sizin rəyinizi bilmək istərdik. Rusiyanın indiyədək bu regionda vahid siyasi konsepsiya işləyib hazırlamaması barədə deyilən ziddiyyətli fikirlərlə siz razısınızmı?**

- Rusiyanın hansısa aydın mövqeyinin olub-olmadığını söyləməkdə çətinlik çəkirəm. Digər dövlətin hakimiyyət strukturları içərisində nə baş verdiyini heç kəs dəqiq deyə bilməz. Lakin elə bilirəm ki, Qafqaz çox mürəkkəb regiondur: Rusiya Federasiyasının burada fəaliyyəti ölçülüb-biçilmiş olmalıdır. Məncə, Rusiya Zaqafqaziya ölkələrinin hər birinə eyni münasibət bəsləməlidir. Onlardan hər hansı birinə üzgörənlik etmək nəticə etibarı ilə Rusiya rəhbərliyinin bu regiondakı əhali arasında nüfuzdan düşməsinə səbəb olardı. Təkrar edirəm, bu gün dini və ya hər hansı digər amillərdən asılı olmayaraq, bütün münasibətlər diqqətlə ölçülüb-biçilməlidir.

**- Üzgörənlikdən söhbət getdisə, onda Azərbaycana münasibətdə bunun dərəcəsi necədir? Belə çıxır ki, Moskva ilə Bakı arasındakı münasibətlər yalnız dostluq münasibətləridir.** [90-91]

- Bütövlükdə götürdükdə bizim aramızda həll olunması qeyri-mümkün olan problem yoxdur. Axı başqa cür ola bilərmi? Bizim xalq bu məsələdə sadəcə olaraq çətinlik yaratmaq istəmir. Hərçənd hakimiyyət strukturlarında çox şey ola bilər. Mən Bakıya qayıtmazdan əvvəl başqa siyasət yeridirdilər və Rusiya ilə münasibətlər soyuq, bəzən hətta ağır xarakter almışdı. Lakin bu münasibətlər dəyişmişdir. İndi təkcə sizin XİN-lə deyil, həm də prezident Yeltsinlə münasibətlərimiz yaxşıdır. Biz onunla sıx əlaqə saxlayırıq: görüşürük, hər ikimizin qarışmalı olduğumuz məsələlərlə bağlı telefon söhbətləri edirik.

**- Dediklərinizdən belə çıxır ki, müdaxilə etməli olduğunuz məsələlər o qədər çoxdur ki, sizin istirahət üçün vaxtınız qalmır.**

- Vətənə qayıtdığım vaxtdan bəri istirahət üçün sadəcə olaraq vaxtım qalmır. Vəziyyət elə gətirmişdir ki, gündəlik iş vaxtım 15-18 saat çəkir. Şəxsən müdaxilə etməyim lazım gələn dövlət işləri həddindən artıq çoxdur. Elə indi də sizdən üzr istəməliyəm – görüş saat 18-ə təyin olunsa da, indi gecə yarıdır. Bərk məşğul idim.

**- "Reklamnı vestnik"in oxucularına nə demək istərdiniz?**

- Çox şadam ki, bizim və sizin işgüzar adamlar əl-ələ verib işləmək imkanına malikdirlər. Mən bütün qüvvəmi sərf edəcəyəm ki, xalqlarımız dost olaraq qalsınlar, iki respublika arasındakı münasibətlər isə əsl dostluq münasibətləri olsun. Axı biz 200 ildir ki, birgə yaşayırıq. [91]

Söhbəti Andrey Vasilyev aparmışdır.
"Reklamnı vestnik", № 48, 1994-cü il

## AZƏRBAYCAN XALQINA YENİ İL TƏBRİKİ

*31 dekabr 1994-cü il*

Hörmətli həmvətənlər, bacılar və qardaşlar,
Azərbaycan Respublikasının vətəndaşları!

1994-cü il sona çatır. Biz 1995-ci ili qarşılayırıq, Yeni ilə qədəm qoyuruq. Yeni il münasibətilə sizi səmimi qəlbdən təbrik edirəm. Hamınıza səadət, xoşbəxtlik, bütün işlərinizdə uğurlar diləyirəm!

1994-cü il Azərbaycan Respublikasının, Azərbaycan xalqının həyatında yeni mühüm bir mərhələ oldu. 1994-cü ildə biz dövlət müstəqilliyimizi möhkəmləndirmək yolunda böyük addımlar atdıq. Azərbaycan dövləti öz müstəqilliyini həm dünya miqyasında, həm də ölkəmizin həyatında möhkəmləndirmək üçün çox işlər görüb və böyük nailiyyətlər əldə edib. Doğrudur, qabaqkı illər kimi, 1994-cü il də çətin və ağır ildir. Biz onu əzab-əziyyətlə sona çatdırırıq. Ancaq eyni zamanda bu il xalqımız üçün, dövlətimiz üçün böyük uğurlar ili olub.

Altı ildir ki, Azərbaycan Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalıb və bunun nəticəsində respublikamız böyük bəlalara düşüb, xalqımız böyük itkilər veribdir. Lakin 1993-cü ilin son aylarından etibarən Azərbaycanda torpaqlarımızı müdafiə etməyə, hərbi təcavüzün qarşısını almağa qadir olan Milli Ordunun formalaşması başladı və biz bu istiqamətdə uğurlu addımlar ata bildik. Bizim ordumuz erməni təcavüzkarları, işğalçıları ilə cəsarətlə vuruşdu. İşğal olunmuş torpaqlarımızın bir qismi geri qaytarıldı. Ən mühüm cəhət ondan ibarətdir ki, Azərbaycan xalqı hiss etdi ki, onun öz ordusu var və bu ordu torpaqlarımızı müdafiə etməyə qadirdir. Azərbaycan ərazisinin qorunmasını təmin edə bilər.

Ancaq bizim məqsədimiz müharibə etmək deyil. Ordumuzun yaranması, formalaşması, möhkəmlənməsi yalnız və yalnız Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün lazımdır. Həmin iş bu gün də davam edir. Biz isə düşdüyümüz vəziyyətdən sülh yolu ilə çıxmaq istəyirik. Ona görə də ordumuzu yaradaraq, erməni işğalçılarına bir çox yerlərdə layiqli [92-93] cavab verərək, zəbt edilmiş torpaqlarımızın bir qismini geriyə qaytararaq, eyni zamanda daim sülh vasitələrindən istifadə etməyə, danışıqlar aparmağa və məsələnin sülh yolu ilə həll olunmasına çalışmışıq. Bunların nəticəsində bu il may ayının 12-də atəşin dayandırılması haqqında saziş əldə olundu. Həmin sazişi əldə etmək üçün biz həm Azərbaycan xalqının, Azərbaycan Ordusunun qüdrətini nümayiş etdirdik və eyni zamanda beynəlxalq təşkilatlar vasitəsilə, bizim məsələnin həll olunmasına cəlb edilmiş dövlətlərin vasitəsilə bütün dünyaya sübut etdik ki, Azərbaycan müharibə etmək istəmir, bütün itkilərə, bütün çətinliklərə baxmayaraq, məsələni sülh yolu ilə həll etmək istəyir.

Biz Azərbaycan ilə Ermənistan arasında müharibənin dayandırılması, bu münaqişənin həll olunması üçün fəaliyyət göstərən beynəlxalq təşkilatların, ATƏM təşkilatının, bütün ölkələrin və o cümlədən Rusiyanın, ATƏM-in Minsk qrupunun vasitəçiliyi nəticəsində atəşin dayandırılmasına nail olduq. Yeddi aydan çoxdur ki, atəşkəs davam edir. Altı il gedən müharibədə ilk dəfədir ki, atəş dayanıbdır, artıq şəhidlər yoxdur. Ancaq bu bizi qane edə bilməz. Biz dəfələrlə bəyan etmişik ki, atəşkəs rejiminə riayət edəcəyik. Lakin atəşkəs rejimi yalnız və yalnız Böyük Sülh Sazişini əldə etmək üçündür və bu Azərbaycan Respublikasının milli mənafelərinin təmin olunması əsasında imzalana bilər.

İşğal edilmiş torpaqlarımız azad olunmalıdır, həmin torpaqlardan qaçqın düşmüş bir milyondan artıq Azərbaycan vətəndaşı öz yerinə-yurduna qayıtmalıdır, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərimizin toxunulmazlığı təmin olunmalıdır. Bu şərtlər əsasında biz Böyük Sülh Sazişinin hazırlanmasına çalışırıq, bundan sonra da çalışacağıq və əmin olduğumu bildirmək istəyirəm ki, 1995-ci ildə buna nail ola biləcəyik.

Azərbaycanın müstəqilliyi Azərbaycan Respublikasının dünya birliyində tutduğu yer ilə bağlıdır. 1994-cü ildə respublikamızın apardığı məqsədyönlü xarici siyasət, bütün sahələrdə gördüyü işlər nəticəsində Azərbaycanın dünya miqyasında, beynəlxalq aləmdə mövqeləri möhkəmlənib, respublikamızın adı artıq tanınıb, Azərbaycan Respublikasının problemləri dünyanın demək olar ki, bütün böyük ölkələrində, bütün beynəlxalq təşkilatlarda müzakirə olunub və biz bunların müsbət nəticələrini görürük.

1994-cü ildə böyük ölkələrlə, qonşu dövlətlərlə, dünyanın [93-94] bir çox ölkələri ilə əlaqələrimiz genişlənib, inkişaf edibdir. Xarici ölkələrə bir çox səfərlər, bir çox dövlətlərin başçılarının, nümayəndə heyətlərinin Azərbaycanda qəbul olunması, respublikamızın bir sıra müqavilələr, sazişlər, sənədlər imzalaması – bunlar hamısı Azərbaycan Respublikasının müstəqilliyinin inkişaf etməsinə sübutdur və onun dünya miqyasında mövqelərinin möhkəmləndiyini nümayiş etdirir.

Respublikamız beynəlxalq təşkilatlarda, onların fəaliyyətində iştirak edir. Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 49-cu sessiyasında Azərbaycan Respublikası ölkəmizin mövqelərini bütün dünyaya açıq-aydın elan etdi. ATƏM təşkilatı Azərbaycanın vəziyyəti ilə ciddi məşğuldur.

Ermənistan-Azərbaycan müharibəsinin dayandırılması sahəsində bu təşkilatın və xüsusən onun çərçivəsində olan Minsk qrupunun fəaliyyətini biz yüksək qiymətləndiririk. Bu nüfuzlu və böyük təşkilat bu ilin dekabr ayında Budapeştdə keçirdiyi Zirvə toplantısında – dövlət başçılarının görüşündə Azərbaycan Respublikasının

həyatı ilə əlaqədar, Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı və bu məsələnin sülh yolu ilə həll olunması üçün mühüm qətnamə qəbul etmişdir. Bu məqsədlə Azərbaycana beynəlxalq, çoxmillətli sülhü mühafizə qüvvələri gəlməlidir. Budapeşt görüşündə qəbul olunmuş bu qətnamə Azərbaycanın müharibə vəziyyətindən çıxması üçün ilk böyük addımdır.

Dekabr ayında daha bir böyük beynəlxalq təşkilatda – İslam Konfransı Təşkilatı dövlət başçılarının Mərakeşdə keçirilən görüşündə Azərbaycanın vəziyyəti müzakirə olunubdur. Azərbaycan bu təşkilatın da üzvüdür. 52 dövləti təmsil edən ATƏM təşkilatında və İslam Konfransı Təşkilatında – buraya da 52 dövlət daxildir – Azərbaycanın məsələsinin müzakirə olunması beynəlxalq aləmin ölkəmizə nəzər-diqqətinin xeyli artmasını göstərir. Kasablankada İslam Konfransı Təşkilatının Zirvə toplantısında Azərbaycan haqqında qətnamələr qəbul edildi. Ermənistanın Azərbaycana təcavüzü pislənildi və bu təcavüzün aradan qaldırılması haqqında qərar qəbul olundu. Azərbaycanın düşdüyü ağır sosial-iqtisadi vəziyyət təhlil edildi və bununla əlaqədar xüsusi qətnamə qəbul olundu. İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərə müraciət olundu ki, Azərbaycanın bu ağır vəziyyətində ölkəmizə yardım göstərilsin. [94-95]

Bunlar və bütün başqa tədbirlər, görüşlər – beynəlxalq aləmdə apardığımız işlərin hamısı, bir daha qeyd edirəm, Azərbaycanın dünya miqyasında nüfuzunun artdığını göstərir, dövlətimizin müstəqilliyinin möhkəmləndiyini sübut edir.

Altı il davam edən müharibə nəticəsində, respublikamızda gedən iqtisadi-siyasi dəyişikliklər nəticəsində Azərbaycan Respublikası böyük iqtisadi böhran içərisindədir. Həmin böhran davam edir. Bu, həm dediyim şərtlərlə, həm də Azərbaycan Respublikasının keçid dövrü yaşaması ilə əlaqədardır. Böhranın qarşısını almaq, Azərbaycanın iqtisadi potensialından səmərəli istifadə etmək üçün 1994-cü ildə xeyli iş görülmüşdür. Əsas istiqamət ondan ibarətdir ki, Azərbaycan bazar iqtisadiyyatı yolu ilə getmək əzmindədir və bu məqsədlə də ötən müddətdə iqtisadi islahatlar hazırlanmış, bazar iqtisadiyyatına keçmək üçün bir neçə fərman verilmiş, bir neçə qərar qəbul olunmuşdur. Həm aqrar bölmədə, həm də iqtisadiyyatın başqa bölmələrində 1995-ci ildə ciddi dəyişikliklər aparmaq üçün yaxşı əsas, yaxşı zəmin yaranmışdır. Bunlar, güman edirəm ki, 1995-ci ildə öz bəhrələrini verəcəkdir. Mən əminəm ki, bizim addımlarımız, yəni nəzərdə tutduğumuz bu planlar həyata keçirilsə, 1995-ci ildə Azərbaycanın iqtisadiyyatında, xalqımızın rifah halında böyük dəyişikliklər baş verə biləcəkdir.

Qeyd etdiyim kimi respublikamızda böyük çətinliklər yaranıbdır. İşğal olunmuş torpaqlardan bir milyondan artıq vətəndaşımız qaçqın düşüb, onlar ağır vəziyyətdə yaşayırlar. Bununla əlaqədar biz beynəlxalq təşkilatlar, ayrı-ayrı dünya birlikləri, ölkələri tərəfindən humanitar yardımlar alırıq. Bu yardımların əhaliyə, xüsusən qaçqınlara və şəhid ailələrinə, tənha, imkansız adamlara çatdırılması da əsas vəzifələrdən biridir. Bu sahədə də 1994-cü ildə çox işlər görülüb və bundan sonra da görüləcəkdir.

İli başa çatdırarkən bir məsələni də qeyd etmək lazımdır. 1994-cü il Azərbaycanda daxili ictimai-siyasi vəziyyətin möhkəmlənməsi, sabitləşməsi ili olubdur. Xatirinizdədir, 1993-cü il Azərbaycan üçün çox bəlalı il oldu. Həmin ilin may-iyun aylarında Azərbaycanda böyük dövlət böhranı, ictimai-siyasi böhran yarandı. Bu böhran Azərbaycanda vətəndaş müharibəsini meydana gətirdi. İyun ayının əvvəlində vətəndaş müharibəsi baş verdi, qardaş qanı töküldü. Bəzi cinayətkar qüvvələ[95-96]rin və respublikanı idarə etməyə qadir olmayan adamların günahı nəticəsində vətəndaş müharibəsi artıq başlanmışdı və Azərbaycanın parçalanması göz qabağında idi. Bu cinayətkar qüvvələr, öz şəxsi məqsədləri üçün vəzifələrindən sui-istifadə edən ayrı-ayrı şəxslər ölkəmizin milli mənafeyini, dövlətçiliyini tapdalayaraq, Azərbaycanı parçalamaq əzmində idilər. Bildiyiniz kimi, böyük səylər nəticəsində bunun qarşısı 1993-cü ildə alındı. Ancaq həmin vəziyyətin yaraları yaşayırdı və bu gün də yaşayır.

Biz 1993-cü ili başa vuranda hesab edirdik ki, Azərbaycanın bu ağır şəraitində adamlar daxili ictimai-siyasi vəziyyəti pozmaqdan daha əl çəkəcəklər. Ancaq təəssüf ki, belə olmadı. 1994-cü ildə respublikamızda dövlətçiliyimizə qarşı, müstəqilliyimizə qarşı, Azərbaycan xalqının milli mənafeyinə qarşı cürbəcür cərəyanlar meydana gəldi. Ayrı-ayrı mafioz qruplar, cinayətkar dəstələr keçən illərdə olduğu kimi, Azərbaycanın bu ağır vəziyyətindən istifadə edərək öz şəxsi məqsədlərinə nail olmaq, vəzifə tutmaq, hakimiyyət əldə etmək üçün ən çirkin üsullara, yollara əl atdılar. Bunlar hamısı Azərbaycanda yenidən vətəndaş müharibəsi meydana çıxmasına əsas yaratdı, şərait yaratdı.

Bilirsiniz ki, Azərbaycan, qeyd etdiyim kimi, bazar iqtisadiyyatı yolu ilə gedir, dünya birliyində bütün sahələrdə, o cümlədən iqtisadiyyat sahəsində öz layiqli yerini tutmaq istəyir. Azərbaycan dövlətinin məqsədi iqtisadiyyatımızı dünya iqtisadiyyatı ilə bağlamaq, ölkəmizi dünya iqtisadiyyatı üçün, xarici investisiyalar üçün açmaqdır. Bu sahədə 1994-cü ildə çox işlər görüldü. Ən mühüm işlərdən biri xarici ölkələrin neft şirkətləri ilə uzun illər aparılan danışıqların başa çatması və sentyabrın 20-də həmin şirkətlərlə Azərbaycan Dövlət Neft Şirkəti arasında, Azərbaycan Respublikası arasında böyük neft müqaviləsinin imzalanmasıdır.

Azərbaycanın bu günü, gələcəyi üçün çox əhəmiyyətli olan bu addımlardan sonra Azərbaycanın daxilindəki və xaricindəki cinayətkar qüvvələr, ölkəmizə düşmən çıxan, Azərbaycanın müstəqilliyini istəməyən qüvvələr bütün bu addımları pozmaq niyyətinə düşdülər. Məhz bunların nəticəsi idi ki, böyük neft müqaviləsi imzalanandan sonra Azərbaycanın həyatında çox acınacaqlı, çox dəhşətli hadisələr baş verdi. Dövlətçiliyimizə

xəyanət etmiş cinayətkarlar sentyabr ayının axırlarında [96-97] həbsxanadan çıxarıldı, qaçırıldı. Azərbaycanın iki dövlət xadimi siyasi terror nəticəsində qətlə yetirildi. Nəhayət, Azərbaycanın dövlətçiliyini pozmaq üçün, müstəqilliyimizə xəyanət etmək üçün, Azərbaycanda yenidən vətəndaş müharibəsi törətmək və dövləti zəbt etmək üçün bəzi qüvvələr oktyabr ayının əvvəllərindən dövlət çevrilişinə başladılar. Bu, Azərbaycanın əleyhinə olan xarici və daxili qüvvələrin birgə səyi, birgə fəaliyyəti nəticəsində olmuşdur.

Nəhayət, oktyabrın 4-də dövlət çevrilişi başlandı. Ancaq xalqımızın birliyi, həmrəyliyi, qüdrəti və cəsarəti dövlət çevrilişinin, cinayətkarların hərəkətlərinin qarşısını aldı. Azərbaycan dövlətini devirmək istəyən cinayətkarların bəziləri qaçdı, bəziləri həbs olundu və xalq onlara bir daha öz nifrətini bildirdi.

Şübhəsiz ki, bunlar hamısı Azərbaycanın daxili ictimai-siyasi vəziyyətinə təsir etmişdir və öz təsirini bu gün də göstərir. Ancaq bunlar bir daha sübut edir ki, 1994-cü il Azərbaycan xalqı üçün, müstəqil Azərbaycan Respublikası üçün, bizim dövlətçiliyimiz üçün böyük sınaq və imtahan ili oldu. Bu imtahandan Azərbaycan xalqı ləyaqətlə çıxdı və deyə bilərəm ki, 1994-cü ildə Azərbaycan dövlətçiliyi qorundu, saxlanıldı, müstəqilliyimiz möhkəmləndi. Azərbaycanın müstəqilliyinə, dövlətçiliyinə qarşı mübarizə aparan xarici və daxili qüvvələr layiqli cavablarını aldılar və bildilər ki, xalqımız artıq öz müstəqilliyini, öz dövlətçiliyini qorumağa qadirdir və bundan sonra da qoruyacaqdır.

Bunlarla yanaşı, biz heç vaxt sayıqlığımızı itirməməliyik. Cəbhədə atəş dayanıbdır. Ancaq eyni zamanda bizim ordumuz daim Azərbaycanı müdafiə etməyə, ərazimizi qorumağa və işğal olunmuş torpaqlarımızı azad etməyə hazır olmalıdır. Azərbaycanın daxilində ictimai-siyasi sabitliyi pozan qüvvələrin qarşısı alınıbdır. Ancaq onlar hələ də öz çirkin əməllərindən əl çəkməyiblər. Xalqımız sayıq olmalıdır, xalqımız bilməlidir ki, biz müstəqil dövlət kimi öz taleyimizin, öz dövlətimizin sahibiyik və özümüz-özümüzü qorumalıyıq, xalqımızı qorumalıyıq, cəmiyyətimizi qorumalıyıq. Həmin cinayətkar qüvvələr öz bəd əməllərini yenə də davam etdirirlər. Dövlət çevrilişinin təşkilatçıları, dövlətimizə qarşı xəyanət əməllərinin təşkilatçıları qaçıblar, əvvəldən orada olan Mütəllibov, indi isə [97-98] həm də Surət Hüseynov, Rəhim Qazıyev, Azərbaycanı parçalamaq istəyən Əlikram Hümbətov, Vaqif Hüseynov və başqa cinayətkarlar Moskvada özlərinə sığınacaq tapıblar. Oradan yenə də Azərbaycanın dövlətçiliyinə xəyanət etmək istəyirlər, cürbəcür şayiələr yayırlar. Ancaq onlar bilməlidirlər ki, bizim xalqımız, dövlətimiz onların hamısına cavab verməyə qadirdir və onların bu çirkin əməlləri heç vaxt nəticə verməyəcəkdir. Çünki onlar Azərbaycan qarşısında xəyanətkardırlar və bir xəyanətkar kimi, cinayətkar kimi haqq-ədalət məhkəməsi qarşısında cavab verməlidirlər. Onlar bunu nə qədər tez anlasalar, bəlkə cəzaları da bir o qədər yüngül ola bilər. Ancaq bu xəyanətkar əməllərini davam etdirsələr, xalqımız heç vaxt onları bağışlamayacaqdır.

Mən hesab edirəm ki, 1994-cü ili başa çatdırarkən bunların hamısından nəticə çıxarmalıyıq. Nəticə də ondan ibarətdir ki, xalqımız, bütün vətəndaşlarımız bir olmalıdır, həmrəy olmalıdır. Azərbaycan Respublikası demokratik prinsiplər əsasında qurulur. Biz Azərbaycanda demokratik hüquqi dövlət qururuq. Demokratik cəmiyyət formalaşır. Bazar iqtisadiyyatı yolu ilə gedirik. Yəni Azərbaycan bir suveren dövlət kimi öz müstəqil yolu ilə gedir və dünya birliyində öz layiqli yerini tutmaq istəyir. Qeyd etdiyim kimi, 1994-cü ildə bu sahədə çox işlər görülüb, böyük nailiyyətlər əldə olunubdur. Ancaq qarşımızda hələ böyük vəzifələr, böyük çətinliklər, ağır yol durur. Bu yolu getmək üçün, bu çətinliklərə sinə gərmək üçün, bütün maneələri aradan qaldırmaq üçün, bütün məqsədlərimizə nail olmaq üçün xalqımızın birliyi, həmrəyliyi əsas şərtdir. Məhz xalqımızın birliyi, həmrəyliyi, dövləti qorumaq əzmi nəticəsində oktyabrın əvvəlində respublikamızda dövlət çevrilişi cəhdləri dəf olundu, cinayətkarların hərəkətlərinin qarşısı alındı. Mən əminəm ki, bu həmrəylik bundan sonra da olacaqdır.

Bizim həmrəyliyimiz ərazimizi etibarlı müdafiə etmək üçün, işğal olunmuş torpaqlarımızı azad etmək üçün lazımdır. Bu həmrəyliyimiz Azərbaycanın milli mənafeyinə cavab verən etibarlı xarici və daxili siyasət aparmaq üçün lazımdır. Bu həmrəyliyimiz Azərbaycanı ağır sosial-iqtisadi böhrandan çıxarmaq üçün lazımdır. Mən güman edirəm ki, Azərbaycanın hər bir vətəndaşı bu sahədə öz vəzifəsini başa düşür. Vəzifəmiz əl-ələ verib Azərbaycanı bu ağır vəziyyətdən çıxarmaqdır. Vəzifəmiz əl-ələ verib Azərbaycanın ərazi bütövlüyünü təmin [98-99] etmək, işğal olunmuş torpaqlarımızı geriyə qaytarmaqdır. Vəzifəmiz əl-ələ verib Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirmək, onu əbədi etməkdən ibarətdir. Bunun üçün hamı sayıq olmalıdır. Bunun üçün hər kəs öz vəzifəsini, vətəndaşlıq borcunu layiqincə yerinə yetirməlidir. Mən əminəm ki, 1994-cü ilin böyük sınaqlarından keçən Azərbaycan xalqı, Azərbaycan vətəndaşları 1995-ci ildə qarşıda duran bütün vəzifələrin həll olunması üçün öz səylərini daha da cürətlə birləşdirəcək və biz bu vəzifələri layiqincə yerinə yetirə biləcəyik.

Həyatımız çətindir, ağırdır. Ancaq mən 1995-ci ilə böyük nikbinliklə baxıram. Ümidvaram ki, 1995-ci il Azərbaycan xalqı üçün, Azərbaycanın vətəndaşları üçün, bizim dövlətimiz üçün uğurlu il olacaqdır. Ümidvaram ki, 1995-ci ildə biz işğal edilmiş torpaqlarımızın azad olunmasına və ərazi bütövlüyümüzə nail olacağıq, qaçqınlar öz yerlərinə-yurdlarına qayıdacaqlar. Əminəm ki, 1995-ci ildə qarşımızda duran iqtisadi məsələlərin bir çoxu həll olunacaq və xalqımızın rifah halı yüksələcəkdir. Mən əminəm ki, 1995-ci ildə respublikamızın dünya miqyasında hörməti, nüfuzu daha da artacaq, müstəqilliyi daha da möhkəmlənəcəkdir. Mən buna əminəm ki, buna əsas verən də xalqımızın mənəvi kökləri, mənəvi dayaqları, tarixi keçmişi, ənənələri və qüdrəti, xalqın tarixi qəhrəmanlığı və bugünkü birliyidir. Mən bu birliyi çox yüksək qiymətləndirirəm.

Bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi günüdür. Dünyanın bütün qitələrində – Avropada da, Asiyada da, Amerikada da, Afrikada da, Avstraliyada da azərbaycanlılar yaşayır. Tarix azərbaycanlıları bütün dünyaya səpələmişdir. Ancaq bizi sevindirən cəhət ondan ibarətdir ki, ayrı-ayrı ölkələrdə yaşayan soydaşlarımız öz azərbaycançılıq hissiyyatlarını, azərbaycançılıq xüsusiyyətlərini qoruyub saxlamışlar və öz azərbaycançılıq, milli hissləri ilə müstəqil Azərbaycana böyük ümidlə baxırlar, dövlətimizlə öz əlaqələrini möhkəmləndirirlər. Müstəqil Azərbaycan dövləti bütün dünya azərbaycanlılarına öz hörmət və ehtiramını bildirir. Bu gün mən dövlətimiz adından bütün dünya azərbaycanlılarını bu həmrəylik günü münasibətilə bir daha təbrik edirəm və onların hamısına bundan sonra daha çox həmrəylik diləyirəm. Üzümüzə gələn 1995-ci il münasibətilə sizin hamınızı bir daha təbrik edirəm. [99-100]

Bizim torpaqlarımızı etibarlı qoruyan, sərhədlərdə sayıq duran, erməni işğalçıları ilə üz-üzə gələn ordumuzun əsgərlərini, zabitlərini təbrik edirəm, onlara birbaşa səngərlərə təbrik salamlarımı göndərirəm. Əsgərlərə, bütün sərhəd boyunca erməni işğalçıları ilə üzbəüz duran Azərbaycan vətəndaşlarına salam göndərirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, onlar bundan sonra da Azərbaycan torpaqlarının müdafiəsində etibarlı duracaqlar və ölkəmizin ərazi bütövlüyünü, müstəqilliyini qəhrəmancasına qoruyacaqlar.

Altı il gedən müharibədə xalqımız şəhidlər veribdir. Bu gün, bu bayram axşamı şəhidlərin ruhu bizimlədir. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Şəhidlərin ailələrinə Allah səbir versin. Mən şəhid ailələrinə Yeni il təbrikimi göndərirəm, onları təbrik edirəm. Əziz bacılar və qardaşlar, sizin övladlarınız, qardaşlarınız, ərləriniz qəhrəmancasına həlak olublar. Siz bununla fəxr edə bilərsiniz. Sizin qəminiz bizim qəmimizdir, sizin iftixarınız bizim iftixarımızdır. Biz fəxr edirik ki, Azərbaycan xalqının qəhrəman oğulları şəhid olmağa hazırdırlar və siz – bu şəhidlərin valideynləri, ailələri fəxr edirsiniz və daim fəxr edə bilərsiniz ki, Vətənimizi qorumaq üçün siz qurbanlar vermisiniz, Azərbaycan xalqı qurbanlar veribdir.

Altı il gedən müharibədə Azərbaycanın qəhrəman oğulları yaralanıb, şikəst olublar. Onların bəziləri indiyədək bu şikəstliyin əziyyətini çəkirlər, əlildirlər. Mən Yeni il münasibətilə onları xüsusi təbrik edirəm və üzümü onlara tutaraq deyirəm ki, sizin xidmətləriniz xalq, dövlət tərəfindən heç vaxt unudulmayacaqdır.

Bir milyondan artıq vətəndaşımız qaçqın vəziyyətindədir. Onların çoxu ağır şəraitdə, çadırlarda yaşayır. Qışın bu ağır vaxtında onların çətin yaşayışı bizi sıxır, qəlbimi incidir, məni narahat edir. Bilin, əlimizdən gələni edirik, şəxsən mən bütün imkanlarımdan istifadə edirəm ki, qaçqınların vəziyyəti yaxşılaşsın və əsas məqsəd qaçqınları öz yerlərinə, yurdlarına qaytarmaqdır. Mən bütün qaçqınları, çadırlarda yaşayan qardaş və bacılarımızı, həmvətənlərimizi Yeni il münasibətilə ürəkdən təbrik edirəm. Əgər 1995-ci ili çadırlarda, sığındığınız ayrı-ayrı yerlərdə qarşılayırsınızsa, əminəm ki, 1995-ci ilin sonuna qədər öz yer-yurdunuza, doğma ocaqlarınıza qayıdacaqsınız və bu əzab-əziyyəti unudacaqsınız.

Müstəqil Azərbaycan Respublikasının daxili ictimai-siyasi [100-101] sabitliyini bizim hüquq-mühafizə orqanları qoruyur. Müstəqil dövlət kimi Azərbaycanın bir neçə ölkə ilə sərhədləri var. O sərhədləri indi biz özümüz qoruyuruq. Bu orqanlarda çalışan, əsgəri xidmət edən azərbaycanlılar şərəfli iş görürlər. İşlərində olan nöqsanlarla yanaşı, bunların xidmətləri təqdirəlayiqdir. Mən bu böyük ordunu təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, 1995-ci ildə öz işlərini daha da səriştə ilə, daha da cəsarətlə görəcəklər.

Bütün Azərbaycan xalqını bir daha təbrik edirəm. Hamınıza cansağlığı, xoşbəxtlik arzu edirəm, bir daha əmin olduğumu bildirmək istəyirəm ki, 1995-ci il Azərbaycan üçün uğurlu il olacaqdır və biz əl-ələ verib bu yol ilə gedəcəyik. Azərbaycanın müstəqilliyini daha yüksəklərə qaldıracağıq. Sağ olun, xoşbəxt olun. Hər bir ailəyə, hər bir kəsə xoşbəxt həyat arzulayıram.

Yeni iliniz mübarək olsun! [101]

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ XARİCİ İŞLƏR VƏ BİRLİK İŞLƏRİ ÜZRƏ DÖVLƏT KATİBİ MALKOLM RİFKİNDİN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*Respublika Prezidentinin iqamətgahı*

*4 yanvar 1995-ci il*

Hörmətli cənab dövlət katibi, hörmətli xanımlar və cənablar!

Mən sizi Azərbaycanda ürəkdən salamlayıram, ölkəmizə xoş gəlmisiniz!

Böyük Britaniya ilə Azərbaycan arasında əlaqələrin çox qədim tarixi var. XIX əsrin sonu – XX əsrin əvvəllərində Böyük Britaniyanın şirkətləri Azərbaycana, xüsusən onun neft sənayesinə böyük maraq göstərmişlər və burada Azərbaycan sənayeçiləri ilə müştərək neft hasilatı və başqa böyük işlərlə məşğul olmuşlar. Sizin gördüyünüz gözəl Bakı şəhərində xarici neft şirkətlərinin Azərbaycana sərmayə qoyduğu dövrdə, yəni XIX əsrin sonu – XX əsrin əvvəlində çox gözəl binalar, saraylar tikilmişdir. Onlardan bəziləri də Böyük Britaniyanın sənayeçiləri tərəfindən tikilmişdir.

Birinci dünya müharibəsindən sonra Azərbaycanda ilk demokratik respublika yaranarkən Böyük Britaniya 1919-cu ildə Azərbaycanı müstəqil dövlət kimi ilk tanıyanlardan olmuşdur. Bundan sonrakı illərdə də Böyük Britaniya ilə Azərbaycan arasında iqtisadi, elmi-mədəni əlaqələr mövcud idi.

1991-ci ildə Azərbaycan yenidən öz dövlət müstəqilliyini əldə etmiş və Böyük Britaniya yenə Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan ölkələrdəndir. Bundan sonra Böyük Britaniya ilə Azərbaycan arasında əlaqələr daha da sürətlə inkişaf etmişdir və bu gün biz həmin əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edə bilərik.

Azərbaycan. Respublikası öz dövlət müstəqilliyinin beşinci ilini yaşayır. Ötən dörd il ərzində biz Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirməyə, onu dünya birliyinə daha da sıx bağlamağa və dünya birliyində Azərbaycanın özünə la[102-103]yiq yer tutmasına çalışmışıq. Bununla əlaqədar Böyük Britaniya ilə bütün sahələrdə əlaqələrimizin inkişaf etdirilməsinə xüsusi fikir vermişik, bunu xarici siyasətimizdə mühüm istiqamət hesab etmişik və indi də əlaqələrimizi bu istiqamətdə qururuq.

Böyük Britaniya dünyanın ən böyük və ən qədim dövlətlərindən biridir və bu ölkə, onun xalqı dünya tarixinə, mədəniyyətinə, sivilizasiyasına böyük töhfələr vermişdir. Bu gün Böyük Britaniya dünya iqtisadiyyatında görkəmli yer tutur, dünya birliyində onun özünəməxsus yeri var və dünyada bütün siyasi məsələlərin həll olunmasında Böyük Britaniyanın sözü, fikri həlledici xarakter daşıyır. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvü kimi dünya birliyində görkəmli yer tutan Böyük Britaniya ikinci dünya müharibəsindən sonra yer üzündə sülhün və əmin-amanlığın bərqərar olması və ümumiyyətlə, dünyanın tərəqqisi üçün çox səylər göstərmişdir. İkinci dünya müharibəsində alman faşizmi üzərində qələbə çalınmasında və bəşəriyyətin faşizm kimi dəhşətli bəladan xilas edilməsində Böyük Britaniyanın xüsusi rolu olmuşdur. Ona görə də dünyanın dövlət və hökumət başçıları, o cümlədən mən də böyük məmnuniyyət hissi ilə keçən ilin mayında İkinci dünya müharibəsindəki qələbənin 50 illiyini Londonda – Böyük Britaniyanın paytaxtında birlikdə, təntənəli surətdə qeyd etdik.

Son illərdə dünyanın ayrı-ayrı ölkələrində mövcud olmuş hərbi münaqişələrin aradan qaldırılması üçün də İngiltərə çox böyük səylər göstərmiş və bu gün də göstərir.

1994-cü ilin fevralında Londonda Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında dostluq və əməkdaşlıq haqqında bəyannamə, bir çox başqa sənədlər imzalanmışdır. Bu sənədlər ölkələrimiz arasında əməkdaşlığın inkişaf etməsi üçün çox yaxşı əsaslar yaradır. Biz bu əməkdaşlığın əməli nəticələrini artıq görürük. Bu, xüsusən Azərbaycanın neft və qaz yataqlarının müştərək işlənməsində Böyük Britaniyanın "Britiş Petroleum" şirkətinin konsorsiumda tutduğu yer ilə əlaqədardır. Başqa sahələrdə də iqtisadi əlaqələri inkişaf etdirmək üçün bir neçə sazişimiz var və bunlar da əməli surətdə həyata keçirilir. Böyük Britaniyanın bir sıra hökumət rəhbərləri ilə Azərbaycanın dövlət rəhbərləri arasında keçirilən görüşlər və aparılan danışıqlar bu əlaqələrin inkişaf etdirilməsi üçün xüsu[103-104]si əhəmiyyət kəsb edir. Baş nazir cənab Con Meycorla, cənab Hezeltaynla, cənab Rifkindlə, cənab Eqqar ilə və Böyük Britaniya hökumətinin başqa üzvləri ilə görüşlərimiz və danışıqlarımız əlaqələrimizin bu gün və gələcək inkişafı üçün çox yaxşı əsaslar yaradır.

Bu mənada Böyük Britaniyanın xarici işlər naziri cənab Rifkindin Azərbaycana rəsmi səfəri çox böyük əhəmiyyət kəsb edir. Bu, Böyük Britaniyanın xarici işlər nazirinin Azərbaycana ilk səfəridir. Biz buna çox əhəmiyyət veririk. Hesab edirəm ki, bu gün çox səmərəli danışıqlar aparmışıq və lazımi sənədlər imzalamışıq. Bunlar ölkələrimiz arasında əlaqələrin inkişafı üçün yeni mərhələdir.

Danışıqlar zamanı Ermənistan ilə Azərbaycan arasında hərbi münaqişəyə son qoyulması, Azərbaycanın Ermənistanın təcavüzündən xilas olması və regionumuzda sülh yaranması məsələsi xüsusi yer tutmuşdur. Böyük

Britaniyanın yüksək səviyyəli dövlət, hökumət dairələrinin Azərbaycana diqqət və marağı daim olmuşdur. O cümlədən Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması, Azərbaycan torpaqlarının işğaldan azad olması üçün böyük Britaniyanın beynəlxalq təşkilatlardakı fəaliyyətini və səylərini biz yüksək qiymətləndiririk. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu səylər davam edəcək və 1996-cı ildə biz ölkəmizdə, regionumuzda sülh və əmin-amanlıq yaranmasına nail ola biləcəyik.

Mən bu gün bir daha bəyan edirəm ki, Azərbaycan müharibənin yenidən başlanmasının əleyhinədir. Azərbaycan sülh istəyir. Qarabağ probleminin dinc yolla həll olunmasını istəyir. Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi və bu torpaqlardan zorla qovulmuş bir milyondan artıq vətəndaşımızın öz yerlərinə qayıtması, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi bizim əsas məqsədimizdir və buna sülh yolu ilə nail olmaq istəyirik. Təkcə bizdən ötrü deyil, dünya ictimaiyyəti üçün də çox mühüm olan bu problemin həllində, ümidvaram ki, Böyük Britaniya, onun dövlət dairələri bundan sonra da öz səylərini əsirgəməyəcəkdir.

Bir sözlə, cənab nazirin Azərbaycana səfəri Böyük Britaniya ilə Azərbaycan arasında əlaqələrin inkişafına kömək edəcəkdir. Biz buna ümidvarıq. Şübhəsiz, indən belə bu istiqamətdə daha da çox çalışacağıq. Ümidvaram ki, Böyük Britaniya ilə Azərbaycan arasındakı dostluq və əməkdaşlıq əlaqələri günü-gündən irəliyə gedəcəkdir. [104-105]

Böyük Britaniya ilə Azərbaycan arasında dostluq və əməkdaşlığın şərəfinə, Böyük Britaniyanın, onun xalqının gələcək inkişafı şərəfinə, Böyük Britaniya kraliçasının şərəfinə, Böyük Britaniyanın baş naziri cənab Con Meycorun şərəfinə, cənab Rifkindin, onun xanımının və hörmətli qonaqlarımızın şərəfinə. Sağ olun! [105]

## MİLAD BAYRAMI MÜNASİBƏTİLƏ BAKIDAKI KAMERA MUSİQİSİ SALONUNDA KEÇİRİLƏN MƏRASİMDƏ RESPUBLİKANIN PRAVOSLAV XRİSTİANLARINA MÜRACİƏT

*7 yanvar 1995-ci il*

Hörmətli xanımlar və cənablar, bacılar və qardaşlar, Azərbaycan vətəndaşları! Sizi müqəddəs gün – İsa Məsihanın Milad günü münasibətilə ürəkdən təbrik edir, sizə və sizin şəxsinizdə Azərbaycanın bütün xristian vətəndaşlarına xoşbəxtlik, firavanlıq, sevinc, sülh və mərhəmət arzulayıram.

Bu müqəddəs gün hamımızı sülhə, əmin-amanlığa, başqa dinlərə münasibətdə dözümlü olmağa çağırır. Bu gün həm xristian pravoslavlar, həm də Azərbaycanda hamı üçün eyni dərəcədə müqəddəs və xoş gündür. Bu gün Azərbaycanda hamıya əzizdir. Bu anda biz tarixi köklərimizə müraciət edirik. İslam dini, Məhəmməd Peyğəmbərə, İsa Peyğəmbərə ehtiramla yanaşmışdır. Məlum olduğu kimi, İslamın müqəddəs kitabı Qurani-Kərimin surələrindən biri xristianlığa, İsa Məsihaya həsr edilmişdir. Başqa sözlə, bizim tarixi köklərimiz dərinlərə gedib çıxır, dostluğumuz və qardaşlığımız hələ dinlərimizin meydana gəldiyi vaxtdan başlayır. Biz də buna sadiq olmalıyıq.

Azərbaycanın bütün vətəndaşları bərabər hüquqlardan istifadə edirlər. Xristian dininə sitayiş edən vətəndaşlara da bizdə həmişə ehtiram göstərilmiş və onlar digər vətəndaşlarla bərabər hüquqlardan istifadə etmişlər. Azərbaycanda xristian pravoslav icmasının iki yüz illik tarixi var. Müxtəlif dinlərə mənsub olan xalqlarımız iki əsr ərzində vahid dostluq ailəsinə qovuşmuşlar, onların kədəri də, sevinci də bir olmuşdur. Azərbaycanda beynəlmiləlçilik hissi, bir-birinə qarşı dözümlü olmaq, Azərbaycan xalqının başqa xalqlara, xristianlara hörməti həmişə nümunəvi xarakter daşımışdır.

Biz də, siz də yaxın keçmişi xatırlayır və iki əsrlik tariximizi – birgə ömür, dostluq tariximizi, xoş həyat, sülh və əmin-amanlıq uğrunda mübarizə tariximizi yaxşı bilirik. İndi, Azər[106-107]baycan müstəqil dövlət olduğu bir vaxtda dilindən, dərisinin rəngindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq bütün vətəndaşların hüquq bərabərliyi Azərbaycan dövləti üçün, bir prezident kimi məndən ötrü birinci dərəcəli əhəmiyyətə malikdir. Mən dəfələrlə demişəm və bu müqəddəs gündə bir daha deyirəm: Azərbaycanın bütün vətəndaşları qəti əmin ola bilərlər ki, onların hüquqları eyni dərəcədə qorunacaq, onlar müdafiə ediləcəklər. Azərbaycan prezidenti kimi mən dilindən və dinindən asılı olmayaraq hər bir adamın, hər bir vətəndaşın hüquqlarının təminatçısıyam.

Bugünkü bayram bizi həqiqətən sülhə səsləyir. Leonid atanın haqlı olaraq dediyi kimi, qoy sülh hər birimizin ürəyində, qəlbində olsun. Bəli, indi bu, çox lazımdır, çünki biz tariximizin çox mürəkkəb, ağır dövrünü yaşayırıq. Biz bu mərhələni birlikdə keçməliyik. Bundan ötrü isə hər birimizdə sülh hissi, başqasına hörmətlə yanaşmaq hissi gərək həmişəkindən daha çox olsun.

Bilirsiniz ki, Azərbaycan altı ildən artıqdır Ermənistan tərəfindən təcavüzə məruz qalmışdır. Biz böyük itkilər vermişik. Azərbaycan ərazisinin iyirmi faizindən çoxu erməni qəsbkarları tərəfindən işğal edilmişdir. İyirmi mindən artıq vətəndaşımız həlak olmuş, yüz mindən çoxu yaralanmış, xəsarət almışdır. Onların bir qismi həmişəlik əlil, şikəst olmuşdur. Bir milyondan artıq sakinimiz doğma yurdunu tərk etməyə məcbur olmuşdur və qaçqın kimi Azərbaycanın başqa regionlarında yaşayır. Onların bir çoxu bu ağır qış dövründə çadırlarda yaşayır, böyük məşəqqət çəkir.

Təbii ki, bütün bunlar Azərbaycanda keçid dövrü ilə əlaqədar onsuz da mürəkkəb olan vəziyyəti daha da çətinləşdirir. Belə bir şəraitdə xeyirxahlıq, sülh, bir-birinə hörmətlə yanaşmaq, qardaşlıq, dostluq hissləri çox böyük əhəmiyyət kəsb edir. Ona görə ki, biz tariximizin bu ağır mərhələsindən daha uğurla, nisbətən az ağrı-acı ilə çıxa bilək, davam gətirə bilək, hamımız birləşərək Azərbaycanın ərazi bütövlüyünü, müstəqil dövlətimizin suverenliyini təmin edə bilək. Biz buna nail olmalıyıq.

Bilirsiniz ki, doqquz aya yaxındır döyüşlər getmir, atəşkəsə nail olmuşuq. Biz atəşkəs rejiminə sadiqik, gələcəkdə də buna çalışacağıq. Lakin bizə uzunmüddətli möhkəm sülh lazımdır, [107-108] sülh haqqında Böyük Siyasi Saziş imzalanmalıdır. Biz buna çalışırıq. Lakin buna nail olmaq üçün çox iş görülməlidir. Biz bu işi görürük. Bu mürəkkəb dövrdən hamımızın birlikdə çıxmağımız üçün daha sıx birləşməli, bir-birimizə daha çox hörmət etməliyik, sülh və dostluq hisslərinə əsaslanmalıyıq.

Bu müqəddəs, işıqlı gündə, bu xoş bayram günündə sizi sülhə, həmrəyliyə, dini dözümlülüyə, dostluğa və qardaşlığa çağırıram. Azərbaycan çoxmillətli dövlətdir və belə dövlət olaraq qalacaqdır. Biz hər şeyi edəcəyik ki, hər hansı millətdən olan Azərbaycan vətəndaşları özlərini nəinki bərabərhüquqlu hiss etsinlər, həm də özlərinin bu günü, sabahı üçün həqiqətən arxayın olsunlar. Əmin ola bilərsiniz, bir prezident kimi mən elə vəziyyət yaranmasına çalışacağam ki, Azərbaycanın hər bir vətəndaşı, o cümlədən ruslar – pravoslavlar, slavyanlar Azərbaycanda malik olduqları hüquqların hamısını mütləq saxlasınlar. Daim əmin olsunlar ki, özləri,

uşaqları və nəvələri bu gün də, gələcəkdə də Azərbaycanda normal şəraitdə yaşayacaqlar, rifahdan və bütün hüquqlardan bəhrələnəcək, özlərini müstəqil Azərbaycan Respublikasının tamhüquqlu vətəndaşları hiss edəcəklər.

Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimiz, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və saxlayacağıq. Çalışacağıq ki, bu sərvətimiz əbədi olsun.

Sizə cansağlığı, firavanlıq, xoşbəxtlik, sülh və əmin-amanlıq arzulayıram. Müqəddəs gün – Milad bayramı münasibətilə sizi bir daha təbrik edirəm. [108]

## DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN 1994-cü İLDƏKİ FƏALİYYƏTİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ VƏ YEKUN SÖZÜ

*Prezident sarayı*

*9 yanvar 1995-ci il*

Bu gün geniş tərkibdə çağırılmış müşavirə mühüm bir məsələyə həsr olunub: Dövlət Gömrük Komitəsinin 1994-cü ildə gördüyü işlər və əldə etdiyi nəticələr haqqında hesabatı dinləniləcəkdir.

Bildiyiniz kimi, Dövlət Gömrük Komitəsi, ümumiyyətlə, gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir. Gömrük orqanlarının, gömrük xidmətinin dövlətin iqtisadiyyatında, ümumiyyətlə, dövlətçilikdə çox böyük rolu vardır. Azərbaycan üç ildən artıqdır ki, müstəqil dövlətdir. Respublikada iqtisadi dəyişikliklər gedir. Azərbaycanın dünya birliyi ilə, xarici ölkələrlə iqtisadi əlaqələri genişlənir, inkişaf edir. Bu baxımdan gömrük xidməti mühüm əhəmiyyət kəsb edir.

Gömrük orqanları Azərbaycan öz müstəqilliyini əldə edəndən sonra yaranmışdır. Onlar fəaliyyət göstərir, ancaq mən ümumən deyə bilərəm ki, müstəqillik dövründə əldə etdiyimiz nailiyyətlərlə yanaşı, böyük nöqsanlarımız, çatışmazlıqlarımız da var. Bunların başlıcası iqtisadiyyatın belə vəziyyətə düşməsi, xarici ölkələrlə iqtisadi əlaqələrin sağlam, düzgün əsasda qurulmamasıdır. Bu çatışmazlıqların mövcud olmasının əsas səbəblərindən biri gömrük orqanlarının işindəki nöqsanlardır.

Ona görə də biz gömrük orqanlarının işi ilə ciddi məşğul olmalıyıq. Buna əsaslanaraq mən bu gün həmin məsələnin geniş tərkibdə müzakirə olunmasını lüzumlu hesab edirəm. Buraya müvafiq nazirliklərin rəhbərləri, bir neçə sərhəd rayonlarının icra hakimiyyəti başçıları, gömrük orqanlarının, hüquq-mühafizə orqanlarının rəhbərləri dəvət olunublar. Bu da onunla əlaqədardır ki, gömrük işi həyatımızın çox sahələri ilə bağlıdır. Bizim çox işlərimiz gömrük orqanlarının fəaliyyətindən asılıdır. Digər tərəfdən, indi xarici ölkələrlə əlaqə[109-110]lərimiz intensivləşdiyinə görə həm iş adamlarının əlaqələri, həm dövlət istehsal orqanlarının, müəssisələrinin, nazirliklərin, dövlət bölməsinin xarici ölkələrlə əlaqələri, həm də vətəndaşların xaricə gediş-gəlişi çox artdığından gömrük orqanlarının işi çoxalmışdır.

Ancaq təəssüf ki, gömrük orqanlarının işindən çoxlu şikayətlər, narazılıqlar gəlir. Mən bəzən xaricdə olarkən, respublikada iş adamları ilə rastlaşarkən onların Azərbaycana gəlib iş görməsi barədə söhbət edərkən, xarici investisiyaların respublikamıza gətirilməsi haqqında danışıqlar apararkən məni çox sarsıdan, narahat edən sözlər eşidirəm.

Onlar mənə deyirlər ki, sizdə gömrük işləri, sərhəddə olan xidmətlər – təkcə gömrük deyil, başqa xidmətlər də var, o cümlədən bu sözlər sərhədçilərə, polis orqanlarına da aiddir – elə vəziyyətdədir ki, bir dəfə gəlib-gedəndən sonra ikinci dəfə gəlməyə həvəsimiz olmur: bizi incidirlər, rüşvətxorluq, soyğunçuluq və başqa bu kimi hallar çox geniş yayılıbdır. Görünür, bunlar həqiqətdir. Çünki biz bunları həm Azərbaycan vətəndaşlarından, həm də xarici ölkələrin vətəndaşlarından, iş adamlarından, Azərbaycanda iş görmək istəyənlərdən və respublikamız üçün ürəyi yanan adamlardan eşidirik. Bax, bunların hamısını nəzərə alaraq, Dövlət Gömrük Komitəsinin hesabatını dinləmək üçün bu gün bu müşavirəni çağırmışam və məsələnin səmərəli müzakirə olunması üçün rəhbər vəzifəli şəxsləri buraya dəvət etmişəm.

### YEKUN SÖZÜ

Mənə belə gəlir ki, məsələ tamamilə aydındır. Bu gün müşavirəni başlayarkən qeyd etdim ki, gömrük xidməti müstəqil dövlətin iqtisadiyyatının, həyatının əsas hissəsidir. Müşavirədə çıxış edənlərin əksəriyyəti Azərbaycanın müstəqil dövlət olduğu dövrdə, istehsalın çox ağır vəziyyətə düşdüyü, başqa iqtisadi çətinliklərlə üzləşdiyimiz bir vaxtda gömrük xidmətinin iqtisadi baxımdan Azərbaycan üçün nə qədər əhəmiyyət kəsb etdiyini bildirdi.

Güman edirəm, ilk dəfədir ki, gömrük xidməti haqqında belə geniş müzakirə gedir. Təəssüflər olsun ki, Azərbaycan Respublikasında gömrük xidməti yaranandan indiyə qədər cürbəcür nadanların əlindədir. Gömrük Komitəsi onun qarşısında qoyulmuş yüksək vəzifələri yerinə yetirmək əvəzinə, [110-111] ayrı-ayrı adamlar üçün qeyri-qanuni yolla pul əldə etmək mənbəyinə çevrilmişdir. Müstəqil respublikamız üçün gömrük xidmətinin nə qədər böyük və nüfuzlu bir təşkilat olduğunu dərk etməyərək, burada işləməyə can atanlar ancaq və ancaq şəxsi mənfəət əldə etmək istəyirlər. Təəssüf ki, Azərbaycanda gömrük orqanları belə qeyri-sağlam əsaslar üzərində qurulmuşdur.

Keçmişdə Azərbaycan müstəqil deyildi və onun gömrük orqanları olmamışdır. Düzdür, Bakı dəniz limanında, yaxud da Culfada balaca gömrük idarələri var idi. Ancaq respublikamızın iqtisadiyyatı üçün onların

heç bir əhəmiyyəti yox idi. Onlar İttifaqın, yəni SSRİ-nin gömrük xidmətinin müəyyən məntəqələri idi. Başqa sözlə, ötən 70 il ərzində bizim respublikada gömrük işi, gömrükxanası peşəsi olmamışdır. Müstəqillik əldə edildikdən sonra isə gömrük orqanları yaranmış və buraya can atanların, burada işləmək istəyənlərin əksəriyyəti müstəqil dövlətimizin naminə çalışmaq barədə deyil, ancaq öz şəxsi mənafeləri haqqında düşünmüşdür.

Xatirimdədir, 1991-ci ilin sentyabrında mən Naxçıvanda Ali Məclisin sədri işləməyə başlayarkən orada da bir-iki kiçik gömrük məntəqəsi vardı: biri Culfada, digəri Sədərək körpüsü açıldıqdan sonra orada idi. O zaman mənim yanıma çox adam gəlirdi. Biri oğlunun, digəri qardaşının orada işə götürülməsini xahiş edirdi. Deyirdim, niyə gömrük işinə belə həvəs göstərirsiniz, bu nə hörmətli peşədir axı. Həm də gömrük məntəqəsində, sərhəddə olan adam evindən təxminən yetmiş kilometr uzaqda işləməlidir, oraya gedib-gəlməlidir, bunun çətinliyi var. Şübhəsiz ki, mən bunun səbəbini başa düşürdüm. Ancaq istəyirdim onları başa salam ki, axı görürsünüz, sizin xahişinizin əsası sağlam deyil. Demək, bu xahişi etməklə, qeyri-sağlam əhval-ruhiyyə ilə yaşayırsınız. Amma bu, təkcə Naxçıvana aid deyildir, mən bunu orada bilavasitə görmüşdüm. Lakin hər yerdə belədir. Ona görə də Azərbaycanda Gömrük Komitəsi yaranandan onun tərkibi zibillənmiş, orada rəhbərlik bir neçə dəfə dəyişmişdir. Hər yeni təyin olunan rəhbərlik də müstəqil dövlətin gömrük xidmətini, gömrük orqanlarını yaratmaq, bu sahədə Azərbaycan iqtisadiyyatının inkişafını müəyyən qədər təmin etmək əvəzinə, xarici ölkələrlə əlaqələrdə respublikamızın iqtisadiyyatına nüfuz qazandırmaq əvəzinə vəzifələrindən ancaq və ancaq öz şəxsi məqsədləri [111-112] üçün istifadə etmişlər. Əvvəlkilər də belə olub, bugünkülər də belədir.

Ona görə də bu müzakirədən çıxarılan əsas nəticə budur ki, biz Azərbaycanda gömrük orqanlarının işini kökündən dəyişdirməliyik, sağlam əsaslar üzərində qurmalıyıq. Həqiqi gömrük orqanları qurulmalıdır. Bu, bizim bugünkü dövrümüz və müstəqil Azərbaycanın gələcəyi üçün ən zəruri vəzifələrdən biridir. Elə bir gömrük orqanı yaratmalıyıq ki, o xarici iqtisadi əlaqələrimizdə öz yerini tutsun, iqtisadiyyatımızın inkişafına xidmət etsin, xarici əlaqələrdə, bütün başqa əlaqələrdə müstəqil Azərbaycanın nüfuzunu təmin etsin, bizə biabırçılıq, ləkə gətirməsin. Amma hələ ki, iqtisadi zərər, oğurluq, rüşvətxorluq, korrupsiya bir tərəfdən, eyni zamanda gömrük orqanlarının belə vəziyyətdə olması siyasi baxımdan Azərbaycan Respublikasını ləkələyir. Xaricdən gəlmiş hər bir vətəndaş gömrük orqanından narazı gedirsə, o həm də dövlətimizdən, xalqımızdan narazı olur. Amma bu, təkcə gömrük orqanlarına aid deyildir. Burada deyildi və onsuz da məlumdur, bütün başqa orqanlara da aiddir. Hamı polis, prokurorluq orqanları, sərhədçilər, sərhəd məntəqələrində dayanan digər adamlar da özləri üçün nəticə çıxarmalıdırlar. Yenə də qeyd edirəm, dediklərim hamıya, bütün bu orqanlara aiddir. Ancaq indi biz Gömrük Komitəsinin işini müzakirə edirik, ona görə də gömrük xidməti haqqında danışıram.

Bu vəzifələrə nail olmaq üçün, şübhəsiz ki, Azərbaycan Respublikasının məqsədyönlü, çox dərin, ətraflı, məzmunlu, bu günümüz və gələcəyimiz üçün yararlı gömrük siyasəti olmalıdır. Mən güman edirdim ki, vəzifə tutmağı çox istəyən, buna can atan, Milli Məclisin, parlamentin üzvü olan Tahir Əliyev ona göstərilən etimaddan sonra işlə məşğul olacaq, gömrük siyasəti üzərində işləyəcək, lazımi normativ sənədlər, qanun layihələri hazırlayacaq, gömrük işini sivilizasiyalı səviyyəyə qaldırmağa çalışacaqdır. Lakin təəssüf ki, o da əvvəlkilər kimi, vəzifəsindən ancaq burada danışılan çirkin məqsədlər üçün istifadə etmək yolu ilə getmişdir. Ona görə də biz bu üç ili nəinki itirmişik, –bunu sadəcə olaraq itirsəydik, boşluq olsaydı, dərd yarı idi, – həmin müddətdə gömrük orqanları o qədər zibillənib, o qədər hörmətdən düşüb ki, indi ilk növbədə bunlar təmizlənməlidir. Eyni zamanda dərhal, təcili olaraq bizim gömrük siyasətimiz hazırlanmalıdır. Onu hazırla[112-113]yıb təcili surətdə həyata keçirmək lazımdır. Bu işi gecikdirmək olmaz.

Ona görə də bu müzakirənin nəticəsi olaraq birinci növbədə Nazirlər Kabinetinə, Gömrük Komitəsinə və başqa müvafiq orqanlara göstərişlər verilir. Müzakirənin yekunu olaraq mən fərman verəcəyəm və həmin göstərişlər bu fərmanda öz əksini tapacaqdır. Gömrük siyasəti haqqında hansı sənədlərin və nə vaxt qəbul ediləcəyi barədə təkliflər qısa müddətdə, on beş gün ərzində hazırlanıb təqdim olunmalıdır.

Məsələn, burada Vahid Axundov bir neçə fikir söylədi. Bizim gömrük siyasətimiz həqiqətən respublikanın iqtisadi mənafeyinə uyğun gəlsəydi, ola bilərdimi ki, öz spirtimiz qala-qala başqa ölkədən gətirib burada spirt satsınlar? Biz özümüz spirt istehsal edən respublikayıq, onu ixrac etməliyik, amma gətirib burada spirt satırlar. Yaxud, doğru deyirlər, bizdə üzüm məhsulu boldur – əvvəlki kimi çox olmasa da, hər halda keçən il 196 min ton üzüm istehsal edilmişdir. Belə olan halda xaricdən min ton üzüm gətirib satmağın nə əhəmiyyəti vardı? Qoy elə öz kəndlilərimizin üzümü satılaydı, onlar pul qazanardılar və məhsul istehsal etməyə stimul yaranardı.

Təkcə Qubada deyil, Xaçmazda da, Zaqatala zonasında da keçmiş alma bağlarından savayı, çox böyük ərazidə palmet meyvə bağları salınmışdır. Doğrudur, baxımsızlıqdan onların bir çoxu batmışdır. Amma yenə də bizim alma məhsulu əldə etmək imkanımız var. Lakin kəndlilərimiz öz bağlarından yığdıqları almanı sata bilmədilər, çünki bazara başqa yerdən alma gəldi, öz əhalimizin məhsulu isə çürüdü.

Başqa fikirlər də demək olar. Məsələn, keçən dəfə mən çay barədə söhbət saldım. Biz çay istehsal edirik. Vaxtilə ildə 2628 min ton yaşıl çay yarpağı yığılırdı. O zaman Azərbaycan çayı Sovetlər İttifaqında ən keyfiyyətli çay hesab olunurdu və biz bununla fəxr edirdik. İndi bizdə çay istehsalı dayanıb, çünki çay satılmır. Respublikaya xaricdən çay gətirib satırlar və onun keyfiyyəti daha üstündür. Əlbəttə, keçmişdə də Hindistan, Seylon çayı gətirilirdi. Amma onu varlı adamlar alırdı, hər adam bu çayları alıb içə bilmirdi. Bəziləri də

Hindistan çayını alıb Azərbaycan çayı ilə qarışdırırdı. Fabrikdə də bizim çayı Hindistan çayı ilə qarışdırırdılar ki, keyfiyyəti yaxşı olsun.

Mən öz fikrimi deyirəm, ola bilsin, kimsə bunu daha düzgün ifadə edə bilər: buraya gətirilən xarici çaylara elə yüksək [113-114] gömrük rüsumu qoyaq ki, həm bundan xeyir götürək, həm də bizim çayın satılmasına kömək edək.

Başqa konkret faktlar da demək olardı, lakin mən geniş danışmaq istəmirəm. Hesab edirəm ki, bunu mütəxəssislər, bizim iqtisadçılar edəcəklər. Ancaq gömrük siyasəti iqtisadiyyatın əsasını təşkil edən məsələlərdəndir. Şübhəsiz ki, iqtisadiyyat birinci növbədə istehsalla bağlıdır. İndi bizdə istehsal aşağı düşmüşdür. Yol bağlıdır, ona görə istehsal daha da azalmışdır.

Bunun başqa səbəbləri də var. Bunlar həm obyektiv, həm də subyektiv səbəblərdir. Subyektiv səbəblər ondan ibarətdir ki, çox yerdə iş yaxşı təşkil olunmur, insanlar öz vəzifələrini yerinə yetirmirlər. Amma obyektiv səbəblər də çoxdur.

Belə vəziyyətdə xüsusən xarici ölkələrlə mal mübadiləsindən vergi şəklində alınan vəsaitin miqdarı nə qədər artıq olsa, bu, həm maliyyə vəziyyətimizə, həm də ümumən iqtisadiyyatımıza kömək edər. Ona görə də gömrük bizdən ötrü böyük vasitədir.

Birincisi, gömrük siyasəti işlənib hazırlanmalıdır. Bu barədə lazımi normativ sənədlər, qanun layihələri, qərar layihələri təcili surətdə hazırlanmalıdır və mən bu tapşırığı verirəm. İkincisi, gömrük orqanlarının işində ciddi dəyişikliklər əmələ gəlməlidir. Gömrük Komitəsinin sədri Tahir Əliyev, onun müavinləri və bir neçə gömrük məntəqəsinin işçiləri buradadırlar. Mən buradakı çıxışlarla tam razıyam və özüm də bu fikirdəyəm ki, məhz Gömrük Komitəsi sədrinin və onun müavinlərinin qeyri-qənaətbəxş işi nəticəsində və onların yerlərdəki kadrlarının qənaətbəxş işləməməsi nəticəsində, vəzifələrindən sui-istifadə etdiklərinə, qanun pozuntularına yol verdiklərinə görə belə vəziyyət yaranmışdır. Bunun başqa səbəbi yoxdur. Bu sistem zibillənmiş, korlanmışdır. Təəssüflər olsun, bu zibillənmə, korlanma 1994-cü ildə də davam etmişdir. Orada qayda-qanun yaratmaq barədə arzularımız nəinki yerinə yetməmiş, hətta vəziyyət daha da xarablaşmışdır. Ona görə də bugünkü müzakirədən çıxarılan ikinci nəticə belədir – bu da mənim fərmanımda öz əksini tapmalıdır – Dövlət Gömrük Komitəsinin 1994-cü ildəki işi qeyri-qənaətbəxş hesab olunsun. Qeyd edilsin ki, Gömrük Komitəsinin işində çox ciddi nöqsanlar var. Üçüncü, Gömrük Komitəsinin sədri Tahir Əliyev haqqında: mən qeyd etdim ki, vaxtilə Tahir Əliyev vəzifə tutmağa can atırdı. Uzun müddətdir ki, Milli Məclisin üzvüdür. O vaxtlar biz burada təzəcə işə başlayanda, mən hələ Ali Sovetdə iş[114-115]ləyərkən Tahir Əliyev bir neçə dəfə mühüm bir sahədə işləmək arzusunu bildirmişdi. Bəziləri – bir neçə adam ona söz vermişdi ki, o, daxili işlər naziri olacaq, – bu arzu ilə yaşamışdı. Daxili işlər naziri vəzifəsinə başqası təyin olunduqdan sonra o, yenə də vəzifə almaq istədi.

Sizə düzünü deyim, belə hesab etdim ki, o, Milli Məclisin üzvüdür, uzun müddət inzibati orqanlarda işləmişdir, təcrübəsi var, istəyir ki, respublikanın bu ağır vəziyyətində işin bir tərəfindən tutsun. Ona görə də Tahir Əliyevin Gömrük Komitəsinin sədri təyin olunması barədə fərman verdim. Ancaq bu gün mən çox böyük təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, o, etimadı, şəxsən bir prezident kimi mənim ona göstərdiyim etimadı doğrultmamış, orada vəziyyəti daha da pisləşdirmişdir. Ümumiyyətlə, onun haqqında cürbəcür xoşagəlməz söhbətlər getmişdir və bu gün burada da danışıldı. Ən dəhşətlisi isə orada rüşvətxorluğun yayılması və Tahir Əliyevin özünün bu məsələyə qoşulması haqqındakı söhbətlər, – əgər əvvəllər Milli Məclisin üzvü kimi Tahir Əliyevin bir hörməti vardısa, – indi onu tamamilə nüfuzdan salmış və tamamilə ləkələmişdir.

Mən bunu çox təəssüf hissi ilə qeyd edirəm. Çünki o vaxt mən Tahir Əliyevi dəyərli bir adam kimi oraya təyin etmişəm, ancaq bu gün həmin qətiyyətlə də onu işdən azad edirəm. Tahir Əliyev bu vəzifədə işləməyə mənəvi hüququnu artıq itirmişdir. Əgər onun özünün ağlı başında olsaydı, belə vəziyyət yarandığını görəndə gərək gəlib özü müraciət edəydi ki, mən bu işi bacarmadım, məni azad edin. Lakin məsələ təkcə bunda deyil ki, o, işi bacarmadı. Bacarığı var, təəssüf ki, bundan çox vaxt başqa istiqamətdə istifadə etmişdir. Çox təəssüflər olsun. İşin öhdəsindən gələ bilmədiyinə, işdə buraxdığı nöqsanlara görə, Gömrük Komitəsində yol verilmiş qanun pozuntularına və başqa-başqa şeylərə görə mən bu gün Tahir Əliyevi fərmanla Gömrük Komitəsinin sədri vəzifəsindən azad edirəm. İşçilərimiz bunu fərmanın mətnində ifadə edərlər. Lakin əsas məzmun belədir. Onu işdən azad edirəm. Güman edirəm ki, o, Milli Məclisin üzvü olduğuna görə Məclis də bu məsələyə öz münasibətini bildirəcəkdir.

Gömrük komitəsində işləyən başqa adamlar – buraya dəvət edilənlər və edilməyənlər də bugünkü müzakirədən nəticə çıxarmalıdırlar. Ya nəticə çıxararaq düzgün yol tutmalısınız, [115-116] yaxud da siz həmin orqanda işləyə bilməyəcəksiniz. Mən bunu burada iştirak edənlərə də deyirəm, iştirak etməyənlərə də.

Eyni zamanda, bu məsələnin müzakirəsi ilə əlaqədar bütün hüquq-mühafizə orqanlarının rəhbərlərinə xəbərdarlıq edirəm. Bəli, bizim sərhəd məntəqələrində, keçid məntəqələrində vəziyyət bərbaddır. Orada gömrük orqanlarının buraxdığı səhvlər, törətdikləri cinayətlərlə yanaşı, polis orqanları, sərhədçilər, prokurorluq orqanları və – burada başqa bir neçə orqanları sadaladılar, onların adları indi heç yadımda da deyil, – hərə özü üçün nəticə çıxarmalıdır. Tələb edirəm ki, sərhəd və keçid məntəqələrində vəziyyəti kökündən sağlamlaşdırmaq, dəyişdirmək üçün hər bir nazirlik, hər bir komitə, hər bir idarə lazımi tədbirlər görsün.

Ümumiyyətlə, hesab edirəm ki, mühüm sərhəd-keçid məntəqələrindəki vəziyyətə kompleks şəkildə baxılmalıdır. Ona görə də Prezident Aparatındakı müəyyən şəxslər, Nazirlər Kabineti bu barədə fikirləşməlidir, bizim şöbələr bu işlə məşğul olmalıdır və bu məsələlərə kompleks şəkildə baxılması barədə təkliflər verməlidirlər. Burada mən nəyi nəzərdə tuturam? Birincisi, respublikamızdan xarici ölkələrə bütün çıxış qapılarında vəziyyəti bir tərəfdən ciddiləşdirmək, digər tərəfdən isə adamların gedib-gəlməsi üçün asanlaşdırmaq lazımdır. Adamları incitmək olmaz. Burada Ədalət Əliyev müəyyən sözlər danışdı. Belə şey olmaz, bunların qarşısı alınmalıdır. Aeroportda bir gündə 1300-1500 nəfər adam nəzarət işi ilə məşğul olsun? Təkcə aeroportda deyil, başqa yerlərdə də belədir. Kimin harada və nəyə nəzarət etməsi ilə Nazirlər Kabineti məşğul olmalı və Prezident Aparatı ilə birlikdə mənə kompleks təkliflər verməlidir. Ancaq bu təklifləri gözləmədən hərə öz sahəsində lazımi tədbirlər görsün.

"Azərbaycan Hava Yolları" Konserninə gəldikdə isə, Ədalət Əliyev buradakı çıxışında müvafiq orqanları tənqid etdi və o haqlıdır. Amma konsernin özünün işində də bu cür və bundan da çox nöqsanlar var. Ona görə elə çıxmasın ki, nöqsanlar ancaq nəzarət edən orqanlardadır, onlar günahkardırlar. Konsernin özünün, dəmir yolunun, digər nəqliyyat orqanlarının işində çox ciddi nöqsanlar var və bunlar aradan qaldırılmalıdır. Hərə öz sahəsində lazımi tədbirlər görməli və bugünkü müzakirədən nəticə çıxarmalıdır.

Bununla da müşavirəmizi bitmiş hesab edirəm. [116]

## RESPUBLİKA PROTEZ-ORTOPEDİK BƏRPA MƏRKƏZİNİN KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*17 yanvar 1995-ci il*

İnsanların, dövlətin, cəmiyyətin fiziki, ruhi cəhətdən müəyyən məhrumiyyətlərə uğramış adamlara qayğısı həmişə yüksək səviyyədə olmalıdır. Bu, insan mənəviyyatının əsas xüsusiyyətlərindən biridir. Həyatda insanlar adətən sağlam yaşayır, həyat sürürlər. Ancaq cürbəcür hadisələr, təbii fəlakətlər nəticəsində cəmiyyətimizin üzvlərinin bəziləri insana lazım olan ayrı-ayrı fiziki və ruhi xüsusiyyətlərdən məhrum olurlar. Qədim vaxtlardan mənəviyyatın ən yüksək ənənələrindən biri də odur ki, insanlar, cəmiyyət belə şəxslərə, insanlara həmişə qayğı göstərməlidirlər. Bu, Azərbaycan xalqına da xas olan xüsusiyyətdir. Tarixdən bu barədə çoxlu məlumatımız var. Belə ənənələr yaşayır, davam edir.

Ancaq Azərbaycan Respublikası son illər bir neçə fəlakətlə üzləşdiyinə görə cəmiyyətimizdə şikəst olmuş, yaxud qeyri-sağlam halda dünyaya gəlmiş insanların sayı çoxalmışdır. Ermənistanın təcavüzü nəticəsində aparmağa məcbur olduğumuz müharibə bizə böyük itkilər verib, eyni zamanda yaralananların, xəsarət alanların, əlil olanların sayı çoxalıb. Cəmiyyətin həyatının təbii axarında belə hallar, şübhəsiz, olur, bunların müəyyən təbii səbəbləri, yaxud ayrı-ayrı hadisələrlə əlaqədar səbəbləri varsa da, müharibə şəraitində insanların şəhid olması ilə yanaşı, xəsarət alması, şikəst, əlil olması halları həddində çox artıb.

Biz torpaqlarımızı müdafiə etmək üçün altı ildir müharibə aparırıq. Müharibə itkisiz, qansız olmaz – itkilər də, şəhidlər də vermişik. Müharibədə xəsarət almış, yaralanmış, şikəst olmuş, bədəninin bir hissəsini itirmiş adamlar da var. Onlar yaşayır, cəmiyyətimizin üzvüdürlər. Müharibə nəticəsində cəmiyyətimizdə belə adamların sayı artıb. Bu da bizim qarşımıza yeni vəzifələr qoyur. Cəmiyyətimizdə olan məhrumiyyətlərə məruz qalmış bütün insanlara, xüsusən müharibə əlillərinə kömək etmək, onların yaşaması, əmək fəaliyyəti ilə məşğul ol[117-118]ması üçün şərait yaratmaq, onların şikəstliyini aradan götürmək başlıca vəzifəmizdir.

Biz Qanlı yanvar faciəsinin beşinci ildönümü ərəfəsindəyik. Xatirinizdədir ki, beş il bundan əvvəl Azərbaycana qarşı edilmiş hərbi təcavüz nəticəsində də xalqımız şəhidlər verdi, yaralananlar, şikəst olanlar oldu. Onların bəziləri ömürlük şikəst kimi qaldılar. Onlar da, torpaqlarımızı qoruyarkən şikəst, əlil olanlar da, təbii fəlakətlər nəticəsində xəsarət alanlar da, yaxud bəzi xəstəliklər nəticəsində ayrı-ayrı çətinliklərə, məhrumiyyətlərə məruz qalmış adamlar da, anadangəlmə bəzi fiziki, ruhi çatışmazlıqları olan insanlar da cəmiyyətimizin, dövlətimizin xüsusi qayğısı altında olmalıdırlar. Biz bu qayğının dövlət tərəfindən daim təmin olunmasına çalışırıq.

Bu baxımdan sizin, yəni səhiyyə orqanlarının gördüyü iş – bu qəbildən olan insanların fiziki çatışmazlıqlarını aradan qaldırmaq, onlara yardım etmək, onları sağaltmaq, tamamilə əmək fəaliyyətinə qabil etmək üçün görülən işlər, eyni zamanda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əlillərə, şikəstlərə, xəstələrə göstərilən qayğı, dövlətin ayırdığı vəsait əsasında həm onların maddi cəhətdən təminatını təşkil etmək, həm də belə bərpa, müalicə mərkəzləri yaratmaq, bununla da xəstələrin, şikəstlərin həyatını yüngülləşdirmək, onlara kömək etmək xüsusi vəzifələrdir. Bu sahədə sizin gördüyünüz işlər şərəflidir, cəmiyyətimiz, xalqımız, dövlətimiz üçün gərəklidir.

Ona görə də mən prezident kimi bu işlərə xüsusi diqqət yetirirəm və bundan sonra da xüsusi diqqət yetirəcəyəm. Bu sahədə müəyyən işlər görmək üçün keçən ilin avqust ayında fərman vermişəm. Valyuta imkanlarımızın məhdud olmasına baxmayaraq bu məsələlərin həyata keçirilməsi üçün xeyli miqdarda vəsait ayrılması haqqında sərəncamlar vermişəm və maliyyə məsələlərinin, yaxud digər maddi məsələlərin həll olunması üçün lazımi tədbirlər görülməsini təmin edəcəyəm. Bu sahədə çalışan səhiyyə, əmək və əhalinin sosial müdafiəsi nazirliklərinin, bu bərpa mərkəzinin işçiləri bilməlidirlər ki, bütün bu imkanlardan səmərəli, çox qayğı ilə, çox insafla, vicdanla istifadə etmək lazımdır. Çünki, yenə də deyirəm, bunlar cəmiyyətimizdə müəyyən səbəblərə görə öz insani fəaliyyətlərini həyata keçirməkdən məhrum olan adamlar üçündür. Bu adamlara kömək etmək çox böyük xeyirxahlıqdır. Hər bir in[118-119]san xeyirxahlıq etmək istəyirsə, birinci növbədə belə adamlara kömək etməlidir. Dövlətin qayğısı isə şübhəsiz ki, bunlardan üstündür.

Bu sahədə dövlətin apardığı siyasətdən, ayırdığı vəsaitlərdən səmərəli istifadə etmək, bir daha deyirəm, vicdanla istifadə etmək sizin borcunuzdur, sahədə çalışanların hamısının borcudur. Bilməlisiniz ki, cəmiyyətimizin hər bir həyat sahəsində insanların fəaliyyəti çox gərəklidir. Ancaq bu sahədə çalışanların işi, sizin işiniz çox şərəflidir. Təsəvvür edin, əlil bir adamın əli, ayağı, yaxud başqa orqanı olmadığı bir halda onu bərpa etmək, buna imkan yaratmaq, belə adamları əmək qabiliyyəti olan bərabər hüquqlu insan etmək, yəni bərabər yaşayış, əmək fəaliyyəti səviyyəsinə çatdırmaq nə qədər xeyirxah, nə qədər şərəfli işdir!

Mən şikəst olmuş, bədəninin bəzi üzvlərini itirmiş bir neçə gənc adamla görüşdüm. Məsələn, gənc bir əsgərimiz könüllü olaraq cəbhəyə gedib. Füzuli bölgəsində torpaqlarımızı düşməndən azad edərkən, erməni işğalçılarına qarşı döyüşərkən qıçının bir hissəsini itirib. Belə adamlara mənim böyük hörmətim var. İtirilmiş

qıçının bərpa edilməsinə, onun istədiyi kimi yaşaya bilməsinə, əmək fəaliyyəti ilə məşğul olmasına şərait yaratmaq şərəfli işdir.

Yaxud, başqa bir gənc. O da cəbhəyə könüllü gedib. Ağdamın mühafizəsində iştirak edərkən qıçının birini itirib. Şükür olsun ki, sizin apardığınız iş nəticəsində onun qıçının itirilmiş hissəsi bərpa olunub, o özünü yaxşı hiss edir. Bilirsiniz, belə adamlar nə qədər hörmətə layiqdir! Bu adamlar Vətəni, torpağı müdafiə edərkən canlarından keçməyə hazır olublar. Ancaq indi sağ qalıblar, şikəst olublar. Onların şikəstliyini aradan götürmək nə qədər şərəfli, nə qədər xeyirxah bir işdir! Ona görə də mən sizin işinizi çox şərəfli iş hesab edirəm. Sizin fəaliyyətinizi cəmiyyətimiz üçün çox gərəkli, əhəmiyyətli hesab edirəm. Güman edirəm ki, siz də bu sahədə çalışarkən belə düşünür, belə hesab edirsiniz. Ümidvaram ki, bundan sonra da bu hissiyyatla işləyəcəksiniz.

Sizin burada işləməyiniz sadəcə əmək fəaliyyəti ilə məşğul olub özünüzə yaşayış üçün imkan qazanmaqdan ibarət deyil. Sizin buradakı işiniz insanlara qayğı göstərmək, özü də belə çətin vəziyyətdə, müəyyən qədər şikəst olmuş, mənəviyyatca sıxıntı içərisində yaşayan adamlara kömək etməkdir, bu isə[119-120] mənəvi cəhətdən başqa sahələrdə çalışmaqdan çox üstündür.

Burada sizin bir işçinizlə tanış oldum. Mən onun həm işləməyinə heyran oldum, həm də onun şəxsində insanın nəyə qadir olduğunu gördüm. 12 il bundan öncə təbii fəlakət nəticəsində hər iki əlini, demək olar, dirsəkdən yuxarı itirib. Ola bilər, belə bir adam fikirləşsin ki, ömürlük şikəstdir, otursun və onun-bunun ümidinə qalsın. Ancaq bu adamda nə qədər iradə var. O, gedib müalicə olunur, əlinin ikisini də bərpa edib və indi tam əmək fəaliyyəti ilə məşğuldur. Özü də başına gələn hadisə nəticəsində belə vəziyyətə düşdüyünə görə gəlib burada işləyir, şikəst olan digər adamlara, xəsarət alanlara, əlini, qolunu, yaxud bədəninin başqa üzvlərini itirənlərə xidmət edir. Mən bu adamı görəndə heyran oldum. Doğrudan da, belə adamların qarşısında baş əymək lazımdır. Belə insanlar sadə insan deyil. İradəli insanlardır. Onlar xalqımızın nə qədər yüksək mənəviyyata, möhkəm iradəyə malik olduğunu nümayiş etdirən insanlardır.

Güman edirəm ki, belə insanlar az deyil. Ancaq mən bu gün görüşdüyüm adamlar əsasında öz fikirlərimi söyləyir və bunları cəmləyərək, ümumiləşdirərək tam əsasla demək istəyirəm ki, xalqımız mərddir, mətanətlidir, mənəviyyatlıdır. Bax, belə insanlar xalqımızın əksəriyyətini təşkil edirlər. Məhz belə insanlar xalqımızın mənəviyyatını əsrlər boyu yaşadıb və bundan sonra da yaşadacaqdır. Belə insanlardan hamı nümunə götürməlidir. Siz də nümunə götürməlisiniz, başqaları da. Belə insanlar bizim üçün örnək olmalıdır. Belə insanlara yardım etmək, onlarla bir yerdə, bərabər işləmək şərəflidir.

Ona görə mən fəaliyyətinizə görə təşəkkür edirəm. Gördüyünüz işlərə görə sağ olun. Ancaq hələ görüləsi işlər də çoxdur. Çünki həyatımız çox gərgin şəraitdə gedir. Səkkiz aydır ki, atəşi dayandırmışıq, müharibə yoxdur. Təsəvvür edin, bu səkkiz ayda biz nə qədər şəhid vermiş olardıq, nə qədər əlil, şikəst, yaralanmış adamlar olardı. Atəşin kəsilməsi, şübhəsiz ki, nailiyyətdir. Ancaq biz bununla qane ola bilmərik. Biz işğal olunmuş torpaqlarımızı azad etməliyik. Qaçqınlar yerlərinə qayıtmalıdır. Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. Bu, bizim məqsədimizdir. Bu, mənim fəaliyyətimin əsas istiqamətidir. Sizə deyə bilərəm ki, hər gün iş vaxtımın çoxu bu məsələlərə gedir. Belə hesab edirəm ki, bu belə də olmalıdır.

Çalışacağam ki, bu məsələlər sülh yolu ilə həll edilsin. An[120-121]caq biz müstəqil dövlətik. Heç vaxt zəmanət verə bilmərik ki, daim belə yaşayacağıq və başımıza heç bir hadisə gəlməyəcək.

Yaşadığımız dövr, coğrafi-siyasi şərait elədir ki, biz hər şeyə hazır olmalıyıq. Müharibəni sona çatdırmaq, torpaqlarımızı azad etmək, sülh yaratmaq, müstəqil dövlətimizi qorumaq üçün biz hər bir şeyə hazır olmalıyıq. Daim düşünməliyik ki, hər bir Azərbaycan vətəndaşı müstəqilliyimizi, dövlətimizi, torpaqlarımızı azad etmək, sülh yaratmaq, müstəqil dövlətimizi qorumaq üçün biz hər bir şeyə hazır olmalıyıq. Daim düşünməliyik ki, hər bir Azərbaycan vətəndaşı müstəqilliyimizi, dövlətimizi, torpaqlarımızı, Vətənimizi qorumağa hazır olmalıdır. Şübhəsiz ki, belə bir şəraitdə keçmiş dövrlərə nisbətən bizim həyatımızda bundan sonra da həm yaralı, şikəst ola bilər, həm də həyat çətin olduğu üçün təbii səbəblərə görə biz insan üçün lazımlı xüsusiyyətlərindən məhrum olan adamlarla da rastlaşa bilərik. Ona görə də sizin işiniz bu gün nə qədər çoxdursa, gələcəkdə bundan da çox ola bilər. Bu sahə bizim üçün çox mühümdür. Mən istərdim ki, siz gördüyünüz bu işlər, təcrübə əsasında fəaliyyətinizi daha da genişləndirəsiniz ki, biz cəmiyyətimizdə insanların bu sahəyə tələbatını tamamilə ödəyə bilək. Əmin olduğumu bildirmək istəyirəm ki, siz bu vəzifələrin nə qədər mühüm, məsuliyyətli və şərəfli olduğunu dərk edirsiniz və öz sahənizdə bundan sonra da fəaliyyət göstərəcəksiniz.

Sağ olun. Sizə işlərinizdə müvəffəqiyyətlər arzulayıram. [121]

## "QANLI YANVAR"
## RƏSSAMLIQ SƏRGİSİNİN AÇILIŞINDA
## ÇIXIŞ

*Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi*

*18 yanvar 1995-ci il*

Hörmətli xanımlar və cənablar, bacılar və qardaşlar, soydaşlarımız! 1990-cı ilin 20 yanvarı Azərbaycan xalqının tarixinin ən faciəli, qara səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir. O dəhşətli günlərdən beş il keçir. İndi biz bu hadisələrin beşinci ildönümünü qeyd edirik. Bununla əlaqədar respublikamızda tədbirlər keçirilir, o günlər bir daha yad olunur, həmin günlərin, o dövrün məzmunu, mənası bir daha təhlil edilir, dərk olunur. Güman edirəm ki, biz o günlərdən nə qədər çox uzaqlaşsaq, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərk edəcəyik və bəlkə də gələcək nəsillər buna daha doğru, daha düzgün qiymət verəcəklər.

Ancaq bir şey həqiqətdir ki, 1990-cı ilin 20 yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olmuşdur. Biz 20 Yanvar hadisələrinə indiyə qədər bir faciə kimi qiymət veririk. Həmin gün tariximizə qara gün kimi daxil olmuşdur. Şübhəsiz ki, bunda həqiqət var. Ancaq faciə hansısa səbəbdən baş verir, beləcə durduğu yerdə baş vermir, – bu, ola bilər, təbii fəlakət olsun. Amma cəmiyyətdə baş verən faciənin, şübhəsiz ki, səbəbi olur. Ona görə də bu hadisələrə geniş mənada yanaşmaq lazımdır. Getdikcə biz bu hadisələrin daha geniş mənasını dərk edirik.

Bildiyiniz kimi, 1990-cı ilin 20 yanvarından sonra respublikamızda siyasi proseslər Azərbaycan xalqının, ölkəmizin tam müdafiəsi istiqamətində getməmişdir. Elə buna görədir ki, 20 Yanvar hadisələrinə sonrakı illərdə doğru-düzgün, həqiqi siyasi qiymət verilməmişdir. Doğrudur, yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqında bir təlatüm, coşqunluq, həyəcan əmələ gətirdi, elə bil vulkan püskürdü. İnsanların qəlbində güclü hissiyyat oyandı. Məhz bunlara görə yanvarın 22-də [122-123] Azərbaycan Respublikasının o vaxtkı rəhbərlərinin iradəsinə zidd olaraq ölkəmizin qeyrətli adamları, deputatları, ziyalıları Azərbaycan Ali Sovetinin fövqəladə sessiyasını topladılar. Ağır şəraitdə, böyük təzyiqlər, qorxu altında, böyük təhlükə qarşısında bu məsələ müzakirə olundu. Mən hesab edirəm ki, həmin gecə, elə bir ağır şəraitdə layiqli qərar qəbul edildi. Bu gün xüsusi qeyd etmək lazımdır ki, həmin sessiyanın da aparıcı qüvvəsi bizim ziyalılar, Vətənə, torpağa bağlı adamlarımız idi. Təsadüfi deyil ki, Ali Sovetin sessiyasını Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadə idarə edirdi. Ali Sovetin rəhbərliyi kənarda qalmışdı, onlardan bir neçəsi salonda idi, ancaq sessiyanı Bəxtiyar Vahabzadə və səhv etmirəmsə, İsmayıl Şıxlı aparırdılar. Bu işə onlar ikisi rəhbərlik edirdi. Ağır, çox ziddiyyətli bir şəraitdə – sovet ordusunun Azərbaycandakı hökmranlığı şəraitində, Sovet İttifaqı Kommunist Partiyasının Azərbaycana təzyiq göstərdiyi bir vaxtda gecə belə qərar qəbul olundu. Bu, doğrudan da yüksək qiymətə layiqdir.

Ancaq bundan sonra nə oldu? Təəssüf ki, o vaxt Azərbaycanı idarə edən, xalqın etimad göstərdiyi və xalqa xidmət etməli olan adamlar – əgər xalq etimad göstərməsəydi, onlar belə yüksək vəzifə tuta bilməzdilər – get-gedə bu məsələni ört-basdır etməyə çalışdılar. Ona görə də bu məsələ dörd il lazımi səviyyədə müzakirə olunmadı, həqiqi, geniş hüquqi-siyasi qiyməti verilmədi. Günahkarlar kənarda qaldılar, öz şəxsi məqsədləri, mənafeləri üçün, xalqın tarixi faciəsini ört-basdır etməyə çalışdılar.

Mən buraya – salona girərkən birinci tabloya baxdım, gərək ki, Kamil Nəcəfzadənin əsəridir. Fikrimcə bu, çox dəyərli əsərdir. Tabloda Şeyxülislamın da surəti var. Təsadüfi deyil ki, bu gün Şeyxülislamın nə üçün burada olmadığını soruşdum. Dedilər ki, xəstədir, ona görə gələ bilməmişdir.

...Mən o vaxt Moskvada yaşayırdım, bunu bilirsiniz. Televiziya vasitəsilə bir neçə kadrlara baxa bilmişdim. Çox ağır şəraitdə yaşayır, həyəcan keçirirdim. Bizim Dağüstü parkda, Çəmbərəkənddə şəhidləri dəfn edirdilər. Mən hesab edirəm ki, Azərbaycan Respublikasının tarixində belə izdihamlı dəfn mərasimi olmamışdır. Siz o zaman burada idiniz, yəqin ki, iştirak etmisiniz, bunu məndən yaxşı bilirsiniz. Mən televiziya kadrlarından aldığım təəssüratı deyirəm, – o qədər izdihamlı dəfn olmamışdı. Bütün xalq matəm içində idi, şəhidləri dəfn edirdi, oraya getmək, yaxın düşmək mümkün deyildi. [123-124]

Mən yanvarın 21-də Moskvada azərbaycanlıların toplaşdığı mitinqdə çıxış etdim, sonra böyük bir mətbuat konfransında çıxış etdim. Moskvada keçirilən tədbirlərdə bu hadisələrə öz münasibətimi, hiddətimi bildirdim, öz qiymətimi verdim, Azərbaycan xalqına qarşı təcavüz haqqında sözlərimi açıq, çəkinmədən dedim və dərhal Azərbaycana başsağlığı teleqramı göndərdim. Onun məzmununu mənim yanımda telefonla Bakıya çatdırdılar. Şübhəsiz ki, o vaxt burada rəhbərlik hələ məlum deyildi, ancaq müəyyən adamlar vardı və mən teleqramı onların ünvanına göndərərək çox xahiş etdim ki, mənim başsağlığımı matəm mərasimində oxusunlar. Sonra maraqlanıb öyrəndim ki, teleqramı heç yaxına da qoymamışlar. Bunun o qədər də əhəmiyyəti yoxdur. Ancaq mən izləyirdim, gördüm ki, xalq, həm də təkcə Bakı əhalisi deyil, Azərbaycanın başqa şəhərlərindən,

rayonlarından, məntəqələrindən axışıb gəlmiş adamlar da xalqımıza qarşı törədilmiş 20 Yanvar faciəsinin, təcavüzün qurbanlarım nə qədər ehtiramla, onların ruhunu əziz tutaraq dəfn edirdilər.

Bu dəfn mərasimində Azərbaycanın rəhbərləri də olmalı idi. Mən bununla çox maraqlandım, öyrəndim ki, olmayıblar. İştirakçılar arasında Şeyxülislam, başqa din xadimləri, ziyalılarımızın əksəriyyəti, adi adamlar var idi. Axı, bu təcavüz Azərbaycan xalqına qarşı edilmişdi. Həlak olanlar Azərbaycanın milli azadlığı uğrunda qurban getmişdilər. Ancaq respublikanın rəhbərləri həmin dəfn mərasimində olmadılar. Bəziləri indi deyirlər ki, gəldilər, keçdilər, amma onlar matəm mərasiminin başında durmalı idilər, əvvəldən axıradək orada olmalı idilər. Əgər onlar xalqın rəhbərləri idilərsə, xalqa başçılıq edirdilərsə, gərək gəlib orada duraydılar. Bu da təsadüfi deyil, çünki yəqin mənəvi hüquqları yox imiş, onlarla xalq arasında böyük bir uçurum var idi. Mən belə hesab edirəm ki, bu səbəbə görə həmin hadisənin üstündən dörd il keçəndən sonra da onu ört-basdır etməyə çalışmışlar. Bunu ancaq öz şəxsi məqsədləri naminə etmişlər.

Bildiyiniz kimi, 1994-cü il yanvarın 5-də bu hadisə ilə əlaqədar mən fərman verdim, fikrimi bildirdim ki, dörd il keçir, ancaq bu məsələlər müzakirə olunmalıdır. Təklif etdim ki, Azərbaycan parlamenti – Milli Məclis bu məsələni müzakirə etsin. İki-üç ay müddətində bu məsələ müzakirə olundu. Bu müzakirələr televiziya vasitəsilə göstərilmişdir, xatirinizdədir. Təəssüf etdim ki, o vaxt hakimiyyətdə olanların bir hissəsi də, [124-125] hətta hakimiyyətə qarşı müxalifətdə olan, milli azadlıq hərəkatında iştirak edən, habelə ona rəhbərlik edən adamlar da bu hadisələrin müzakirə olunmasını istəmədilər.

Xatirinizə salın, bəziləri dedi ki, bu hadisələrə gərək bir otuz ildən sonra qiymət verilsin. Biri dedi ki, buna gərək əlli ildən sonra qiymət verilsin. Başqa birisi dedi ki, buna qiymət verə bilmərik. Bu nə cür ola bilər? Hadisələrin canlı şahidləri indi burada ola-ola gözləyək ki, onların hamısı dünyadan getsin, sonra kimsə gəlsin, kiminsə yazdığı hansısa arxiv materiallarını götürsün və bundan sonra qiymət versin? Şübhəsiz ki, bunlar hamısı bəhanə idi. Çünki hərə bir tərəfdən qorxurdu. Hakimiyyətdə olanlar qorxurdular ki, onların günahlarının üstü açılar. Milli azadlıq uğrunda mübarizə aparanlar isə, təəssüf, nədənsə qorxurdular ki, onları xalqı ayağa qaldırmaqda, qırğına verməkdə günahlandıracaqlar. Bilirsiniz, bu da dəhşətli haldır.

Ancaq bunlara baxmayaraq, bildiyiniz kimi, müzakirə getdi. Doğrudur, çox çətinliklər oldu, şəxsən mən bir neçə dəfə parlamentin iclaslarına getdim, öz fikirlərimi dedim. Nəhayət, 1990-cı il 20 Yanvar hadisələri ilə əlaqədar geniş, hesab edirəm ki, ədalətli, müfəssəl qərar qəbul olundu.

Ancaq bununla iş qurtarmır. İndi biz bu hadisələrin beşinci ildönümünü qeyd edirik. Azərbaycan xalqının tarixində qəhrəmanlıq nümunələri çox olmuşdur, xalqımızın başına çox bəlalar gəlmişdir. Xalqımız əsrlər boyu belə mərhələlərdən keçərək bu günə gəlib çatmışdır. Əgər XX əsri götürsək, 1918-ci ildə, 1920-ci ildə Azərbaycan xalqının başına gələn bəlalar, faciələr məlumdur. 1937-1938-ci illərin faciələri də məlumdur. Ancaq 1990-cı ilin yanvarında, əsrimizin sonuna yaxın baş vermiş hadisələr əvvəlkilərin heç biri ilə müqayisə oluna bilməz. Çünki bu dövr Azərbaycan xalqının artıq milli oyanış, öz mənliyini sübut etmək, milli azadlıq hisslərini aşkara çıxarmaq, büruzə vermək mərhələsi idi.

Biz 20 Yanvar hadisələrinə faciə kimi baxırıq. Doğrudur, faciədir. Ancaq bu faciənin səbəbi nədir? Səbəbi bir tərəfdən odur ki, Azərbaycan xalqı öz milli azadlığı uğrunda mübarizəyə qalxmışdır. Bu, çox böyük, tarixi bir hadisədir. Azərbaycan xalqında milli ruh yüksəlmiş, milli oyanış, dirçəliş hissləri baş qaldırmışdır. Ayrı-ayrı mütəfəkkir adamlarımızın qəlbində illərlə yaşayan bu hisslər artıq üzə çıxmış, özünü büruzə vermiş, aşkar olmuş, ayrı-ayrı qrupların deyil, bütün xalqın iradəsinə [125-126] çevrilmişdir. Xalqın iradəsi ilə 1988, 1989, 1990-cı illərdə bu hərəkat qalxmışdır. Azərbaycanın ərazi bütövlüyünə, xalqımıza, dövlətimizə qarşı Ermənistan tərəfindən edilən təcavüz və bir dövlətin tərkibində olan bir respublikanın, bir xalqın başqa xalqa etdiyi bu təcavüzdə ümumi dövlətin Azərbaycan xalqının hüquqlarını qorumaması həmin hərəkata təkan vermişdir.

İnsanlarda bu hisslər sürətlə inkişaf etmişdir. Milli azadlıq istəyi, arzusu, qəlblərdə uzun müddət yaşayan bu arzular həmin illər bütün bu proseslərin nəticəsində kükrəyib üzə çıxmış, xalqın iradəsinə dönmüşdür. Ona görə də gərək heç kəs qorxub çəkinməsin.

20 Yanvar faciəsində insanlar qırıldı. Aydındır, bu, sovet ordusunun, Kommunist Partiyası rəhbərliyinin Azərbaycan xalqına qarşı etdiyi hərbi, siyasi təcavüzdür. Bu təcavüzün nəticəsində xalqımız qurbanlar vermişdir. Amma xalq həmişə azadlıq uğrunda mübarizə apararkən qurbanlar verməlidir. Keçmişdə də belə olmuşdur, bu gün də belədir, gələcəkdə də belə olacaqdır. Hər bir şəhid bizdən ötrü böyük itkidir. Onların xatirəsi bizim üçün əzizdir, qəlbimizdə daim yaşayacaqdır.

Şəhidlərimiz əbədiyyətə qovuşmuşlar. Çünki onlar Azərbaycan xalqının milli azadlığı yolunda şəhid olmuşlar. Xalqımızın bu mübarizəsinə qarşı kommunist rejiminin, Sovet İttifaqının rəhbərliyinin, sovet ordusunun hərbi təcavüzü nəticəsində qurban getmiş, şəhid olmuşlar. Bizim adətimizcə desək, onlar əbədi behiştə qovuşmuşlar.

Ona görə də bu hadisələri bundan sonra da o tərəfdən də, bu tərəfdən də gizlətməyə çalışmağın özü də xalqa xəyanətdir. Allaha şükürlər olsun ki, hər şey açıldı. Tarix həmişə hər şeyi öz yerinə qoyur. Bir il bundan öncə həmin hadisələrə qiymət verildi. İndi şəhidləri nəinki ayrı-ayrı qruplar, ziyalılar gedib yad edirlər, dövlət başda olmaqla bütün xalqımız tariximizin, deyə bilərəm ki, ən yüksək zirvəyə çatmış bir hadisəsini qeyd edir.

Biz bunu qəhrəmanlıq nümunəsi, qəhrəmanlıq salnaməsi kimi, eyni zamanda xalqımızın başına gəlmiş faciə kimi qeyd edirik.

Yanvar hadisələri zamanı 130-140 nəfər həlak olmuş, 600-700 nəfər yaralanmışdır. Bundan çox da, az da ola bilərdi, yenə də deyirəm, həlak olmuş hər bir insan onun ailəsi üçün əziz olduğu kimi, xalqımız, millətimiz. üçün də əzizdir. Ancaq bu hadisənin tariximizdəki yeri, qiyməti ayrı-ayrı insanların [126-127] taleyi ilə məhdudlaşa bilməz. Bu, ayrı-ayrı insanların deyil, bütöv bir xalqın taleyidir.

Bax, bu hisslərlə də biz Yanvar hadisələrinin beşinci ildönümünü qeyd edirik. Ona görə də müxtəlif tədbirlər keçirilir. Bugünkü sərgini də mən bu baxımdan yüksək qiymətləndirirəm. Güman edirəm ki, yaradıcı ziyalılarımız bundan sonra həmin hadisələri əks etdirmək üçün daha çox səy göstərəcəklər.

Sərgidən aldığım təəssürat barədə bir neçə kəlmə demək istəyirəm. Buradakı əsərlər, şübhəsiz ki, Azərbaycan rəssamlarının, heykəltəraşlarının, memarlarının yüksək səviyyəyə malik yaradıcılığını nümayiş etdirən əsərlərdir. Mən öz fikrimi dəfələrlə, o cümlədən sonuncu dəfə Səttar Bəhlulzadənin yubileyi qeyd olunarkən demişəm. Azərbaycan rəssamlıq məktəbi çox yüksək səviyyəyə malikdir. Mədəniyyətimizin nailiyyətlərindən biri də XX əsrdə Azərbaycanda böyük rəssamlıq məktəbinin yaranması, çox görkəmli rəssamlarımızın, heykəltəraşlarımızın, memarlarımızın yetişməsi və onların yaratdığı əsərlərdir. Ola bilər, yaşadığımız dövrlərdə onlara o qədər də qiymət verilməmişdir. Ancaq biz yaşadıqca və dünyanın başqa ölkələrini gördükcə, başqa xalqların sənət adamlarının əsərləri ilə tanış olduqca özümüzə də, xalqımızın, o cümlədən rəssamlarımızın yaratdığı əsərlərə də daha doğru-düzgün qiymət verə bilirik. Bu əsərlərin hamısı çox dəyərlidir. Bu münasibətlə mən rəssamlarımızı, heykəltəraşlarımızı, memarlarımızı təbrik edirəm. Sağ olun. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu sahədə işlərinizi davam etdirəcəksiniz.

Ancaq eyni zamanda bir neçə fikrimi də söyləmək istəyirəm. Mən artıq qeyd etdim, ancaq rəssamlığa, ümumiyyətlə, təsviri sənətə, yaradıcılığa aid bəzi fikirlərimi təkrar edəcəyəm.

20 Yanvar hadisələrini bir faciə kimi təsvir etmək azdır. 20 Yanvar Azərbaycan xalqının milli azadlıq uğrunda, öz mənliyini müdafiə etmək yolunda göstərdiyi qəhrəmanlıq nümunəsidir.

Ona görə də qəhrəman Azərbaycan balalarının tankın altına düşüb əzilməsi faktını göstərməklə kifayətlənməyib, onların qəhrəmanlığını, cəsurluğunu, ölümün gözünə dik baxaraq təcavüzkarın qarşısına çıxmalarını da təsvir etmək lazımdır. Bəlkə də bu, daha çox lazımdır. Təəssüf ki, buradakı əsərlərin arasında mən belələrini görmədim. Ola bilər, bu ondan irəli [127-128] gəlir ki, biz Yanvar hadisələri baş verəndən indiyədək bununla əlaqədar ancaq ağlayırıq. Şübhəsiz ki, kədərimiz, qəm-qüssəmiz böyükdür. Ancaq kədərlənməklə yanaşı, xalqımız göstərdi ki, Azərbaycanın qəhrəman oğulları o böyüklükdə Sovet İttifaqının ordusu qarşısında dayanmağa qadirdirlər.

O dövrdə gedən prosesləri götürün. Azərbaycanın nə qədər vətənpərvər, milli ruhlu insanları – ziyalıları, fəhlələri, kəndliləri də, adi adamları da Kommunist Partiyasından çıxdılar, kommunist rəhbərliyinə öz nifrətini, etirazlarını bildirdilər. Bəs o mitinqlər, Prezident sarayının qarşısında qurulmuş rəmzi dar ağacı? Məgər bunlar Azərbaycan xalqının ona edilən ədalətsizliyə qarşı etirazı, nəinki etirazı, üsyanı deyildimi? Əgər belə üsyan olmasaydı, o qədər böyük ordu hissəsi Azərbaycana gələrdimi? Təsəvvür edin, Sovetlər İttifaqının müdafiə naziri, daxili işlər naziri, Milli Təhlükəsizlik Nazirliyinin böyük bir generalı, nə qədər generallar gəlib oturmuşdular burada. Nəyə gəlmişdilər. Əgər burada bu təhlükə yox idisə? Təhlükə nədən ibarət idi? Təhlükə xalqın üsyanı idi, xalqın iradəsi idi. Xalqın milli dirçəlişi idi. Onu boğmaq istəyirdilər. Onu müəyyən qədər boğa bildilər. Amma tamam boğa bilmədilər. Bəs bu xalq, o qəhrəman, o üsyankar xalq, milli azadlıq uğrunda çalışanlar haradadırlar? Onlar nəyə öz əksini tapmayıblar bu əsərlərdə? Tankın altında ölən, əzilən var, amma tankın qarşısında cəsarətlə duran azərbaycanlı balası haradadır? Niyə onun surəti yoxdur?

Bilirsiniz, bu, sizin günahınız deyil. Mən heç kəsə irad tutmaq istəmirəm. Ümumiyyətlə, 20 Yanvar hadisələrindən sonra bu hadisələrə münasibət əks etdirilməlidir. Burada əgər mən görsəydim ki, məsələn, bizim hörmətli ziyalılar bu hadisəyə etiraz, üsyan əlaməti olaraq gəlib çıxış edirlər, söz deyirlər, partiya biletlərini atırlar, – bu, çox gözəl bir əsər ola bilərdi.

Məsələn, o mitinqləri təsvir etsəydiniz, bunlar da çox gözəl əsərlər olardı. Onda aydın olardı ki, həmin hadisələr nə ilə bağlıdır. Yoxsa, məlum deyil axı, bu tank niyə buraya gəlib, bu adam niyə tankın altında qalıb. Mən öz fikrimi deyirəm. Ola bilər, kimsə razı olsun, kimsə razı olmasın. Mən bunu hökm kimi demirəm. Mən də bir vətəndaşam, özü də bu yaradıcılıq məsələləri ilə müəyyən qədər tanış olan adamam və şübhəsiz ki, siyasi xadiməm. Siyasi nöqteyi-nəzərdən öz fikrimi deyirəm və güman edirəm ki, burada bir boşluq var.

Ümumiyyətlə, hər yerdə var bu boşluq. Bizim yazıçıların da [128-129] əsərlərində bax, elə rəssamların da əsərlərində bu boşluq var. Mən arzu edərdim ki, siz gələcək əsərlərinizdə bu unudulmuş sahəyə fikir verəsiniz.

İndi, şübhəsiz ki, bizim yazıçıların, şairlərin əsərləri haqqında mənim məlumatım yoxdur və onlara təhlil vermək istəmirəm, ancaq məlumdur ki, bu hadisələrə ilk dəfə səs verən Bəxtiyar Vahabzadə çox gözəl "Şəhidlər" poeması yazdı. Onu televiziya ilə dəfələrlə oxudular, mənim xatirimdədir. Gərək başqaları da yazaydılar. Yəqin ki, bu barədə də fikirləşmək lazımdır.

Ümumiyyətlə, bu mövzu lazımi qədər işlənilməyib. Bilmirəm nəyə görə. Bəlkə də o vaxt dövlət rəhbərlərinin bu sahədə mövqeyindən çəkinərək bizim sənət adamlarımız bu mövzuya girişməyiblər, yaxud

soyuq yanaşıblar. Bax, buradakı əsərləri mən yüksək qiymətləndirərək hesab edirəm ki, rəssamlarımız – özü də çox rəssamımız var axı bizim – o mövzuya aid çox gözəl əsərlər yarada bilərlər.

Mən 90-cı ildə o hadisələrdən bir neçə ay sonra yayda gəldim Bakıya. Burada imkan olmadı yaşamağa, getdim Naxçıvana. Orada məni bir sərgiyə dəvət elədilər. Sərgidə yerli rəssamların o hadisələrlə, 20 Yanvarla əlaqədar o qədər təsirli əsərlərini gördüm ki! Baxmayaraq ki, o hadisələr Bakıda olmuşdu. Mən heyran oldum. Ola bilər, orada rəssamlar bir az azad olublar. Amma mən güman edirdim ki, burada gərək daha çox əsər görəm. Bunu hamımız, bütün xalq görməlidir. Həmin hadisələri əks etdirmək lazımdır. Ona görə mən arzu edərdim ki, bu sahədə işləyəsiniz.

Mən bilirəm, indi rəssamlar üçün yaşamaq çətindir. Maddi vəziyyət ağırdır. Ümumiyyətlə, yaradıcı ziyalılarımız üçün çətindir. Keçmişdəki kimi dövlət sifarişi yoxdur. Ancaq inanın ki, bizim Vətən müharibəmiz, yəni torpaqlarımızın müdafiəsi ilə əlaqədar mövzularda yaxşı əsərlər yaradılsa, dövlət onlara müəyyən qayğı göstərə bilər, vəsait ayıra bilər və belə dəyərli əsərləri biz lazımi dərəcədə qiymətləndirə bilərik, onları dövlət üçün ala da bilərik.

Düzdür, indi bizim yaşayışımız çətindir. Siz bilirsiniz ki, iqtisadiyyat çox ağır vəziyyətdədir. Amma buna baxmayaraq, bu əsərlər üçün biz hər halda vəsait tapa bilərik. Ancaq lazımdır ki, bizim yaradıcı adamlarımız işləsinlər. Çünki müasir rəssamlarımız, heykəltəraşlarımız, yazıçılarımız bu hadisələrin canlı [129-130] şahididirlər. Əgər indi onlar bu əsərləri yaratmasalar, gələcək nəsillər bu hadisələri ancaq ayrı-ayrı kitablardan, xatirələrdən öyrənəcəklər. Halbuki biz hamımız bunun canlı şahidiyik. Ona görə bu əsərləri yaratmaq lazımdır.

Yenə də deyirəm. Bu yaradıcılığın əsas istiqaməti Azərbaycan xalqının qəhrəmanlığı, milli azadlıq uğrunda mübarizəsi, bununla əlaqədar Azərbaycana edilmiş hərbi təcavüz və bu təcavüz nəticəsində baş vermiş faciəli hadisələr olmalıdır. Yəni biz yeni bir şey tələb etmirik, – bu, belə olubdur və onu əks etdirmək lazımdır.

Mən demişəm və bu gün bir daha deyirəm: 1989-cu ildə başlanmış milli azadlıq hərəkatı Azərbaycan tarixində görkəmli yer tutur. Bu hərəkatı heç kəs, heç vaxt qiymətdən sala bilməz və o, bütün əsərlərimizdə öz əksini tapmalıdır.

Şübhəsiz ki, hər bir belə prosesdə mənfi cəhətlər də olur, yaxud bu proseslərdən öz şəxsi məqsədləri üçün istifadə etmək istəyən adamlar da olur. Beləları olub. Məsələn, dövlətimizin, xalqımızın düşməni olan Rəhim Qazıyev kimi adam da guya bu hərəkatda iştirak edib. Ancaq kim hansı məqsəd üçün iştirak edirdisə, bunu sonra tarix göstərdi. Sonrakı satqınlıqlar, xalqa xəyanətlər göstərdi ki, bu hərəkata bəzi adamlar öz şəxsi məqsədləri üçün girmişdilər, maskalanmışdılar, bu hərəkatdan istifadə edərək öz şəxsi çirkin məqsədlərinə nail olmaq istəyirdilər. Beləri var, belələrini xalq özü meydana çıxarır və çıxaracaq da.

Ancaq bu, ümumiyyətlə bizim xalqımıza şamil deyildir, böyük xalq hərəkatına şamil deyil. O meydanlara yığışan yüz minlərlə adam – sadə adamlar, fəhlələr, kəndlilər, ziyalılar, alimlərimiz, yazıçılarımız, rəssamlarımız, görkəmli adamlarımız – onlar oraya saf ürəklə, saf niyyətlərlə, doğrudan da milli ruhla, Azərbaycan xalqını bu bəlalardan, erməni təcavüzündən xilas etmək üçün, xalqımıza qarşı bu ədalətsizliyə etirazını bildirmək üçün gəlirdilər və bunlar da şübhəsiz ki, xalqımızın tarixinin ən parlaq səhifələridir və bunu qiymətləndirməliyik.

Siz bilirsiniz, mən bunu demişəm. Bu gün bir daha yada salmaq istəyirəm ki, mən – uzun illər Kommunist Partiyasında olan və Azərbaycan Kommunist Partiyasına uzun müddət rəhbərlik edən adam 1991-ci ilin yayında Kommunist Partiyasından çıxmaq haqqında Moskvada bəyanat verərkən, – orada 4 bənd var, Bəyanatım dərc olunub, – həmin bu Yanvar hadisəsi [130-131] ilə əlaqədar Azərbaycan xalqına qarşı təcavüzü birinci səbəb kimi göstərdim. Bəli, 1990-cı il yanvarın 21-də mən Moskvada mitinqə Kommunist Partiyasından çıxmaq niyyəti ilə getmişdim. Ancaq mən elə bir sima idim ki, o vaxt fikirləşdim – bu addımı atmaq bəlkə indi lazım deyil. Bəlkə çalışıb xalqıma bir kömək edə bilərəm? Sonrakı fəaliyyətimdə isə gördüm ki, bu heç bir nəticə vermir. Ona görə də bundan bir il sonra Moskvada, Kremldə partiyadan çıxmaq barədə bəyanat verdim və onun birinci bəndində Kommunist Partiyasının rəhbərliyini Azərbaycan xalqına qarşı etdiyi təcavüzə görə və o təcavüzü boynuna almadığına görə, o təcavüzü özü pisləmədiyinə görə, o təcavüz üçün özü-özünü cəzalandırmadığına görə məhkum etdim.

O dövrdə bizim bəzi rəhbərlərimizin, Azərbaycan rəhbərlərinin xəyanətkarlığı xalqa çox böyük zərbələr vurdu. Təsəvvür edin. 1989-cu ilin aprel ayında Tbilisi hadisələri oldu. Orada qoşunlar gəlib mitinqdəki adamlara divan tutmuşdular, 16 adam həlak olmuşdu. Gürcü xalqı bu hadisəni nə qədər yüksək səviyyəyə qaldırdı! O vaxt mən Moskvada yaşayırdım. Xatirimdədir, Azərbaycanın nümayəndələri də gedib Tbilisidə matəm mərasimində iştirak etmişdilər, güllər qoymuşdular və bu, çox gözəl hal idi. Mən bunların hamısını izləyirdim. O zaman Gürcüstan ictimaiyyəti, gürcü ziyalıları Qorbaçovu və onun kimi adamları elə sıxışdırdılar ki, onlar 16 nəfərin həlak olmasına görə gürcü xalqından üzr istədilər.

Amma Azərbaycanın o vaxtkı rəhbərlərinin xəyanətkarlığı nəticəsində Azərbaycan xalqından üzr istəmədilər. Bax, budur xalqla rəhbərlik arasında uçurum. Elə hesab elədilər ki, Azərbaycan xalqını əzmək də olar. Xatirimdədir, o vaxt Qorbaçov bir dəfə dedi və bunu televiziyada da verdilər: "Mən gürcü xalqını tanıyıram, onlarla belə rəftar etmək olmaz". Məgər Azərbaycan xalqı ilə belə rəftar etmək olardı?

1989-cu ilin aprel hadisələrindən nəticə çıxarmadılar. 1990-cı ilin yanvarında Azərbaycan xalqının başına bu bəlanı gətirdilər. Ona görə ki, orada onlar üzr istədilər, amma burada nəinki üzr istəmədilər, hətta bu məsələnin üstünü örtdülər, basdırdılar. Düzdür, bizim deputatlarımızın bəziləri – ziyalılardan bəzilərinin xatirindədir, mən onda televiziya ilə izləyirdim – çıxış etmək istədilər. Ali Sovetin sessiyasında sözlərini dedilər, amma onların ağzından vurdular. Halbuki xalqımızın [131-132] üsyanı dövlətin, respublikanın rəhbərlərinin üsyanına çevrilməli idi. Amma bunu elə rəhbərlər edə bilərdi ki, özü günahkar olmasın. Özünün mənəvi haqqı olsun. Bunu edə bilmədilər.

Bir neçə gün bundan qabaq Moskva televiziyası ilə Vilnüs hadisələrinin dördüncü ildönümü haqqında veriliş göstərildi. Vilnüsə elə böyük qoşun hissələri getməmişdi. O vaxt Sovet İttifaqının XTMD dəstələri gedib orada bir neçə əməliyyat keçirmişdilər, insanlar həlak olmuşdu. Bu hadisələrin dördüncü ildönümünü Litva özü nə cür, nə miqyasda keçirdi.

Ancaq elə Moskva televiziyasının kiçik verilişindən də mən gördüm ki, bu xalq o təcavüzə qarşı öz etirazını necə bildirir.

Amma bizdə özlərinin vəzifədə qalmaları üçün bunların üstünü örtüb-basdırmağa çalışdılar. Mənim gürcü xalqına da, Litva xalqına da, rus xalqına da böyük hörmətim var. Ancaq hər xalqın, o cümlədən də Azərbaycan xalqının öz milli mənliyi var. O milli mənliyi də xalqın qabaqda gedən adamları ifadə etməli, təmsil etməlidirlər. Xalq milli əhval-ruhiyyə ilə milli mənlik zirvəsinə qalxırsa, onun başında duran adamlar isə öz şəxsi mənafelərinə görə xalqın başından basırlarsa, bax bu, xalqın ən böyük faciəsidir.

Bütün bunlara görə də biz bu hadisələri heç vaxt unutmamalıyıq. Bizim tariximizdə bu faciəli günlər yaşamalıdır, o qəhrəmanlıq nümunələri yaşamalıdır və mən çox arzu edərdim ki, yaradıcı ziyalılarımız – şairlərimiz, bütün yazıçılarımız, bəstəkarlarımız, rəssamlarımız, heykəltəraşlarımız o yüksək zirvəyə qalxmış mənəviyyat səviyyəsində əsərlər yazsınlar. Çünki o günlər Azərbaycan xalqının mənəviyyatı ən yüksək zirvəyə çatmışdı.

Mən hesab edirəm ki, bizim xalqımızda bu böyük potensial var və bu potensialdan indən sonra istifadə olunması üçün geniş imkanlar açılıb və istifadə olunacaqdır. Keçən il biz Yanvar faciəsinin dördüncü ildönümünü qeyd edərkən, sonra Milli Məclis bu hadisələrə qiymət verərkən qərar qəbul etdik ki, 20 Yanvar şəhidlərinin xatirəsinə və bu hadisə münasibətilə bir abidə yaradılsın. İndi burada mənə iki layihə göstərdilər. Bir dəfə heykəltəraş, çox böyük sənətkar Ömər Eldarovun emalatxanasında olanda onun da bir balaca eskizinə baxdım. Bilirsiniz, nümayiş etdirilən bu eskizlər, yaxud layihələr hərəsi özünə görə əhəmiyyətlidir. Ancaq mən hesab edirəm ki, indi bu mərhələdə bu hadisəyə çox böyük həcmdə və böyük xərc apa[132-133]ran abidə yaratmağa imkanımız yoxdur. Gərək həqiqəti nəzərə alaq. Bu birincisi.

İkincisi də bu abidənin təsirliliyi, həmin hadisələri tam əks etdirməsi həcmindən asılı deyil. Keçmişdə – sovet dövründə böyük-böyük heykəllər, abidələr yaradıblar. Amma bəzən çox da böyük olmayan bir abidə öz təsirliliyinə, məzmununa, səviyyəsinə görə böyük həcmli əsərdən də çox qiymətlidir.

Ona görə də mən arzu edərdim ki, heykəltəraşlarımız, memarlarımız bu mövzu üzərində işləsinlər. Amma bu. işi gecikdirmək lazım deyil. Bu məsələ ilə Elçin Əfəndiyev, İzzət Rüstəmov və Fatma xanım Abdullazadə ciddi məşğul olsunlar. Bir neçə belə layihə verilsin ki, siz özünüz müsabiqə keçirə biləsiniz. Sonra biz də görək onların hansını seçə bilərik. Mənim şəxsən tövsiyəm belə olardı ki, həmin abidə təkcə faciəni təsvir etməsin, dediyim kimi, bu hadisənin bütün istiqamətlərini, bütün tərəflərini təsvir etsin. Ömər Eldarov buradadırmı?

**Ömər Eldarov:** Bəli, buradayam.

**Heydər Əliyev:** Yadındadır, mən sənin eskizinə baxan kimi dedim, sən də razı oldun mənim fikrimlə. Elədirmi?

**Ömər Eldarov:** Bəli, elədir.

**Heydər Əliyev:** Ömər böyük heykəltəraşdır. Onun sənətinə mənim böyük hörmətim var. Mən baxdım, kiçik miqyasda bir eskiz düzəltmişdi. Doğrudan da çox təsirlidir. Amma yalnız faciəni göstərir. Təkrar etmək istəmirəm, axı hər bir abidə gərək insanları nikbinliyə dəvət etsin. Bilirsiniz, elə keçmişdə də, dinimizdə də elə olub ki, biz çox ağlamışıq. Doğrudur, keçmiş əsrlərdə də, indi də dinimizə çox böyük hörmətimiz var, din bizim mənəviyyat mənbəyimizdir. Amma dinimizdə də ağlamaq yeri çoxdur.

Faciəni də, xalqın qəhrəmanlığını da, təcavüzü də göstərmək lazımdır. Mən demirəm ki, böyük bir kompozisiya yaradılsın. Ola bilər ki, bunun üçün o qədər böyük abidə lazım deyil. Qoy hərə özü fikirləşsin. Mən sadəcə öz fikrimi deyirəm. Amma bizə bu hadisəni, tariximizin bu mərhələsini tam əks etdirən bir abidə lazımdır.

Siz əmin olun ki, böyük abidə qurmağa indi imkan yoxdur. Ola bilər, gələcəkdə olsun. Amma indi çox təsirli, yüksək sənət əsəri kimi, bu hadisəni hərtərəfli əks etdirən bir abidə yaratmaq lazımdır. Mən arzu edərdim ki, tez bir müddətdə layihələr hazırlansın və ola bilər ki, dediyim şəxslər bu barədə xü[133-134]susi müşavirə keçirsinlər. Biz dərhal baxıb həyata keçirməyə hazırıq. Mənim tövsiyəm bundan ibarətdir.

Hesab edirəm ki, bu gün burada ziyalılarımızın bir qrupu ilə görüşmək də mənim üçün çox əhəmiyyətlidir. Çünki işimiz indi çox ağırdır. Ona görə də belə görüşlər az-az olur. Amma bunlar nə qədər çox olsa, sizin üçün də, bizim üçün də əhəmiyyətli olar. Mən bu görüşümdən məmnunam. Hamınıza

yaradıcılığınızda uğurlar diləyirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, bizim ziyalılarımız dövlətçiliyimizin qorunması uğrunda, müstəqilliyimiz uğrunda, torpaqlarımızın işğaldan azad olunması üçün, ərazi bütövlüyümüzün təmin edilməsi üçün Azərbaycan dövlətinin apardığı fəaliyyətdə bundan sonra da həmişə fəal iştirak edəcəklər və keçmişdə, tarixin bütün mərhələlərində olduğu kimi, cəmiyyətimizin aparıcı qüvvəsi olacaqlar. Hamınıza cansağlığı, xoşbəxtlik arzu edirəm. [134]

## QANLI YANVAR FACİƏSİNİN 5-ci İLDÖNÜMÜ İLƏ BAĞLI ŞƏHİDLƏR XİYABANINDA JURNALİSTLƏRİN SUALINA CAVAB

*20 yanvar 1995-ci il*

**Sual: – Cənab prezident, məhz milli hiss 20 Yanvarda xalqı tankların qabağına əliyalın çıxartdı. Beş il ötəndən sonra – keçən ilin oktyabr gecəsində ölümdən, qandan qorxmadan, Sizin bir çağırışınızla xalqın ayağa qalxması, bu, milli şüurun inkişafı deyilmi?**

**Cavab:** – Əlbəttə, şübhəsiz. Bu insanlarda milli hisslər – mən bunu iki gün bundan qabaq ziyalılar qarşısında çıxış edəndə dedim – 80-ci illərdə daha da inkişaf edib, oyanıb, baş verən proseslər nəticəsində get-gedə aşkara, zahirə çıxıbdır. Milli hisslərin, milli azadlıq arzularının, niyyətlərinin inkişafı Yanvar hadisələri ilə bağlıdır. Bu hisslər insanları oyatdı, adamlar öz milli haqlarını, öz respublikasının, torpağının haqlarını müdafiə etmək üçün ayağa qalxdılar və bunları təmin edə bilməyən o vaxtkı Azərbaycan rəhbərliyinin – respublikanı idarə edən dairələrin, şəxslərin, orqanların xalqın bu milli hisslərini anlamadıqlarını gördükdə üsyan etdilər, mitinqlərə çıxdılar.

Bu mitinqləri boğmaq üçün də o hərbi təcavüzə, siyasi təcavüzə əl atıldı və xalqımız qurbanlar verdi. Bu qurbanlar şübhəsiz ki, bizim üçün böyük dərddir, ağrıdır. Amma eyni zamanda bu qurbanlar xalqımızın milli ruhunun, milli hisslərinin oyanmasının böyük bir rəmzidir, nümayişidir. Ondan sonrakı dövrdə proseslər nə qədər də mürəkkəb, ziddiyyətli olsa da, bir tərəfdən bu milli hisslər inkişaf edirdi, ikinci tərəfdən isə onu boğmağa çalışırdılar. Ancaq boğanlar gücsüz oldu, milli hisslər güclü oldu və bunun nəticəsidir ki, keçən il 4 oktyabrda mənim çağırışımla xalq çox qısa müddətdə ayağa qalxdı. [135-136]

Siz yəqin bir şeyi də müşahidə edirsiniz ki, əgər 88-ci ildən başlayan proseslər – xalqın mütəşəkkil, ya qeyri-mütəşəkkil, kortəbii, yaxud da ki, hər bir insanın öz hisslərini bütün cəmiyyətin hisslərinə qovuşdurması nəticəsində mitinqlər, nümayişlər, etiraz tədbirləri dövlətin rəhbərlərinə qarşı olmuşdursa, 4 oktyabrda isə xalqın bu milli hissləri dövlətin siyasəti ilə o qədər bağlı idi ki, dövlətin çağırışı ilə xalq ayağa qalxdı. 20 Yanvar gecəsi, yaxud da ki, 20 Yanvar ərəfəsində Prezident sarayı qarşısında dövlətə, idarəetmə orqanlarına, rəhbərlərə nifrət hissi ilə toplaşmış adamlar əvəzinə, 4 oktyabr 1994-cü ildə həmin adamlar dövləti müdafiə etmək üçün gəldilər. Bax, çox prinsipial fərq bundan ibarətdir. [136]

## 20 YANVAR FACİƏSİNİN 5-ci İLDÖNÜMÜ İLƏ BAĞLI ÇIXIŞ

*Şəhidlər Xiyabanı*

*20 yanvar 1995-ci il*

Əziz bacılar, qardaşlar, əziz vətəndaşlar, şəhid ailələri, onların qohum-qardaşları! Bu gün Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin ən yüksək zirvəyə qalxdığı günün – 20 Yanvar hadisələrinin 5-ci ildönümünü qeyd edirik. Bu gün Azərbaycanın müstəqilliyi uğrunda, xalqımızın hüquqlarının müdafiəsi uğrunda, milli azadlıq uğrunda mübarizəyə qalxmış, həlak olmuş, şəhid olmuş övladlarımızın, soydaşlarımızın qəhrəmanlıq gününü qeyd edirik. 20 Yanvar hadisələrinin 5-ci ildönümü münasibətilə bütün Azərbaycan xalqı, Azərbaycan vətəndaşları o faciəli günləri yad edir. Şəhidlərin ruhuna dua oxuyur. Şəhidlərin qəhrəmanlığı ilə fəxr edir və Bakıda, Azərbaycanın bütün şəhərlərində, bütün məntəqələrində şəhidlərin ruhu qarşısında baş əyir.

Əziz bacılarım, biz sizinləyik. Sizin dərdiniz bizim dərdimizdir. Bütün Azərbaycan xalqının dərdidir.

... Bura minlərlə adam toplaşıbdır. Axı, dərdimiz birdir. Bu dərdimizi qeyd edək. Ondan sonra bu məsələyə baxarıq. Bilin ki, bu gün biz böyük tarixi hadisəni qeyd edirik. Bu gün biz şəhidlərin məzarı qarşısındayıq. Biz bu gün gəlmişik onların ruhu qarşısında baş əyək. Olarmı ki, belə bir zamanda, belə bir məqamda ayrı-ayrı hissiyyatlarınızla bu məsələdə qarışıqlıq yaradasınız?

Mən sizin heç birinizi günahlandırmıram. Hərənin öz dərdi var, həyatımız çətindir. Şəhid ailələrinin problemləri çoxdur. Bu beş il ərzində siz də qəm içərisindəsiniz, biz də qəm içərisindəyik. Ancaq bilin, biz bu gün tarixi hadisə münasibətilə bura toplaşmışıq. Hər bir şəhidin tökülən qanı Azərbaycanın müstəqilliyini təmin edibdir. İndi Azərbaycan müstəqil dövlətdir. Siz bu müstəqil dövlətin azad vətəndaşlarısınız. Bu azadlıq bizim üçün hər şeydən üstündür, bizim böyük nailiyyətimizdir, böyük qələbəmizdir və bu azadlıq naminə, bu müstəqillik naminə biz qurbanlar vermişik. Bundan sonra da [137-138] verəcəyik. Hər bir adam şəhid olmağa hazır olmalıdır ki, xalqımız daim azad olsun, daim müstəqil olsun. Ona görə də dərdinizi anlayıram. Mən sizdən də çox dərd çəkirəm. Ancaq gəlin bu gün ümummilli, ümumxalq hadisəsini qeyd edək, ayrı-ayrı məsələlərə isə sonra baxaq.

Azərbaycan xalqı üçün bu gün həm qəhrəmanlıq səhifəsidir, həm də böyük faciə səhifəsidir. 20 Yanvarda Azərbaycanın azadlıqsevər, vətənpərvər insanları o dövrdə xalqımıza qarşı göstərilən ədalətsizliyə görə, Azərbaycan torpaqlarına erməni silahlı qüvvələrinin təcavüzünün qarşısı alınmadığına görə və milli azadlığa nail olmaq üçün ayağa qalxdılar, etirazlarını bildirdilər. Üsyan etmək istədilər. Onları boğmaq üçün, əzmək üçün Sovet İttifaqının qoşunları, sovet ordusunun hissələri ölkəmizə basqın etdi, Azərbaycanı sıxmaq, xalqımızı bölmək istədi. Azərbaycan xalqı qurbanlar verdi. O gün faciəli gün oldu, biz şəhidlər verdik, qan töküldü. Azərbaycanın torpağı, Bakı şəhəri qana bələndi. Ancaq eyni zamanda bizim qəhrəman övladlarımız özünü qurban verərək Azərbaycan xalqının milli azadlığı üçün, Azərbaycanın müstəqilliyi üçün yol açdılar.

O şəhidlər burada – Azərbaycanın, Bakının ən mötəbər, gözəl guşəsində əbədiyyətə qovuşublar. Biz onların məzarları qarşısındayıq. Biz bu məzarları daim yad edəcəyik. Bura Azərbaycan xalqı üçün böyük bir ziyarətgaha çevrilibdir. Xalqımızın tarixində çox əzəmətli, qiymətli abidələr var. Ancaq Şəhidlər Xiyabanı, XX əsrin sonunda Azərbaycan xalqının milli azadlıq uğrunda özünü qurban vermiş şəhidlərinin məzarları, Azərbaycan Respublikasının, Azərbaycan torpağının ən müqəddəs yeridir və ən qiymətli abidəsidir.

Biz bu gün bu abidəyə, bu məzarların qarşısına gəlmişik. Bu gün biz bu qəhrəman, cəsur, rəşadətli Azərbaycan övladlarının məzarı qarşısındayıq. Onların qəhrəmanlığının əbədi yaşayacağını bir də bəyan edirik və onlara deyirik ki, sizin qəhrəmanlığınız nəticəsində, şəhidliyiniz nəticəsində indi xalqımız öz milli azadlığına nail olubdur. Azərbaycan müstəqil dövlətdir, öz ərazi bütövlüyünü qorumağa çalışır, öz müstəqilliyini möhkəmlətməyə çalışır.

Bu şəhidlərdən sonra Azərbaycan öz torpaqlarmı qorumaq üçün bir çox şəhidlər veribdir. Ona görə də 20 Yanvar şəhidləri ilə yanaşı, Azərbaycanı erməni təcavüzündən qorumaq uğrunda mübarizəyə qalxan, döyüşlərə gedən Azərbaycanın [138-139] qəhrəman oğulları, şəhid olanlar da burada, bu Şəhidlər Xiyabanındadır. Şəhidlər şəhidlərlə yan-yanadır. Bu da təbiidir. Çünki hamısı Azərbaycanın xoşbəxt gələcəyi uğrunda həlak olublar, şəhid olublar və bu məzarlarda uyuyurlar. Mən bu hadisələr münasibətilə 20 Yanvar şəhidlərinin ruhu qarşısında, məzarları qarşısında, Azərbaycanın ərazi bütövlüyünün qorunması uğrunda erməni təcavüzkarları ilə mübarizəyə qalxaraq həlak olanların məzarları qarşısında bütün Azərbaycan xalqına başsağlığı verirəm. Şəhidlərin ailələrinə başsağlığı verirəm. Buraya toplaşan Azərbaycan vətəndaşlarına başsağlığı verirəm. Azərbaycan dövləti özü-özünə başsağlığı verir.

Biz bu dərdi, bu qəmi daim qəlbimizdə saxlayacağıq. Ancaq eyni zamanda bu şəhidlərin qəhrəmanlığı Azərbaycan xalqı üçün, Azərbaycan gəncləri üçün örnək olub. Bundan sonra da örnək olacaqdır. Mən tam əminəm ki, Azərbaycanın bugünkü nəsli də, gələcək nəsilləri də bu şəhidlərin qəhrəmanlığından nümunə götürəcəklər. Azərbaycan xalqının milli azadlığını qorumaq üçün, respublikamızın müstəqilliyini qorumaq üçün daim mübarizədə olacaqlar. Daim qəhrəmanlıq nümunələri, vətənpərvərik nümunələri göstərəcəklər.

Ona görə də bu şəhidlərin həlak olması bizim üçün nə qədər qəm-qüssə doğurursa, nə qədər ağır itkidirsə, o qədər də xalqımız üçün, qəhrəmanlıq nümunəsi kimi, örnək kimi bizim milli sərvətimizdir, milli iftixarımızdır. Biz bu gün buraya həm qəm hissi ilə, həm də böyük iftixar hissi ilə gəlmişik. Biz fəxr edirik ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Biz fəxr edirik ki, Azərbaycan xalqı öz milli mənliyini, öz milli azadlığını qorumaq üçün həlak olmağa, şəhid olmağa hazırdır. Biz fəxr edirik ki, bizim qəhrəmanlarımız var, biz fəxr edirik ki, bu azadlıq yolunda özünü qurban etmiş şəhidlərimiz var, onların qəhrəmanlığı, onların ruhu bizim qəlbimizdə daim yaşayacaq. Onlar əbədiyyətə qovuşublar. Onların xatirəsi bizim üçün əbədidir.

Ona görə də mən sizə başsağlığı verərək, eyni zamanda sizi təbrik edirəm ki, Azərbaycan xalqı bundan sonra özünü qorumağa qadirdir. Azərbaycan xalqı öz mənliyini müdafiə etməyə [139-140] qadirdir. Azərbaycan xalqı öz müstəqilliyini müdafiə etməyə qadirdir.

Sizə bir daha başsağlığı verirəm. Başınız sağ olsun. Allah bu xiyabanda uyuyan övladlarımıza rəhmət eləsin. Allah Azərbaycanın azadlığı, müstəqilliyi uğrunda, Azərbaycan torpaqlarının müdafiəsi uğrunda həlak olmuş, şəhid olmuş adamların hamısına rəhmət eləsin. Allah Azərbaycan xalqına səbir versin. Allah sizə, valideynlərə, şəhidlərin ailələrinə, qohum-əqrəbasına səbir versin. Səbir versin ki, biz xalqımızı daha xoşbəxt gələcəyə apara bilək, səbir versin ki, biz xalqımızı bu bəladan çıxara bilək. Səbir versin ki, Azərbaycan xalqı öz müstəqilliyini möhkəmləndirib əbədi edə bilsin. Allah şəhidlərə rəhmət eləsin. [140]

## NEFT MÜQAVİLƏSİNİ HƏYATA KEÇİRƏN RƏHBƏR KOMİTƏNİN İLK İCLASININ AÇILIŞINDA ÇIXIŞ

*24 yanvar 1995-ci il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Bir neçə il müddətində hazırlanmış və artıq imzalanmış neft müqaviləsinin – əsrin böyük müqaviləsinin həyata keçirilməsi üçün bu gün əməli iş başlanır. Bu müqavilənin bağlanması üçün aparılan danışıqlar, görülən hazırlıq işləri və nəhayət, onun imzalanması ərəfəsindəki proseslərin hamısı, bir daha qətiyyətlə deyə bilərik ki, hamar, asan olmamışdır. Bu tarixi hadisə böyük zəhmətin, əməyin və eyni zamanda inadla həyata keçirilən işin nəticəsi olmuşdur.

Azərbaycan neft ölkəsidir. Qədim zamanlarda bizim ölkəmizə, Vətənimizə "Odlar diyarı" deyərdilər və biz bu adla fəxr edirik. Məlumdur ki, XIX əsrin ikinci yarısından başlayaraq bizdə ola bilər ki, dünyada ilk dəfə olaraq neft istehsalına başlanıb. Azərbaycanın neft sənayesi böyük tarixə malikdir. O, bir çox mühüm mərhələlərdən keçibdir. Neft sənaye üsulu ilə çıxarılmağa başlananda Qərb ölkələrinin neft şirkətləri Azərbaycanda fəaliyyət göstərib, burada neft hasilatı və emalı sahəsində müştərək işlər aparıblar. Sonra bu şirkətlərin Azərbaycanda fəaliyyəti dayandırılıb neft sənayesi sovet dövləti tərəfindən milliləşdirilibdir, istehsal edilən neft uzun illər Sovetlər İttifaqının ehtiyaclarını təmin etmək üçün istifadə olunubdur.

Xalqımız üç il bundan əvvəl öz müstəqilliyini, milli azadlığını əldə edib. Azərbaycan xalqı, Azərbaycan dövləti öz sərvətlərinin sahibi olub. Bütün bunlar müstəqil Azərbaycan dövlətinin neft yataqlarından müstəqil, özü istədiyi kimi istifadə etməsi üçün imkanlar yaradıb. Məlumdur ki, Azərbaycan neftçilərinin neftçıxarma sahəsində həm elmi, həm texniki, həm də əməli iş aparılmasında böyük təcrübəsi, potensialı vardır. Azərbaycan alimlərinin, mühəndislərinin, geoloqlarının, [141-142] neftçilərinin, neft ustalarının gərgin əməyi və böyük fəaliyyəti nəticəsində 45 ildən artıqdır ki, Xəzər dənizində neft hasil olunur.

Bunlar hamısı müstəqil Azərbaycan dövlətinin öz sərvətlərindən, o cümlədən onun zəngin sərvəti olan neft yataqlarından istifadə etməsi üçün çox gözəl əsas yaratmışdır. Ancaq eyni zamanda, indiki mərhələdə biz bu neft yataqlarından səmərəli istifadə etmək üçün dünyanın böyük təcrübəyə, böyük potensiala malik olan neft şirkətləri ilə əməkdaşlıq etməyi də lüzumlu və zəruri hesab edirik. Məhz bunların nəticəsində Xəzər dənizinin Azərbaycan bölməsindəki neft yataqlarından xarici ölkələrin böyük neft şirkətləri ilə müştərək istifadə olunması barədə üç ildən çox müddətdə danışıqlar aparılıb. Böyük məmnuniyyət hissi ilə qeyd etməliyəm ki, bu danışıqlar nə qədər çətin də olsa, müvəffəqiyyətlə başa çatıb və neft yataqlarından birlikdə istifadə olunması üçün böyük neft müqaviləsi imzalanıbdır.

Neft yataqlarından istifadə olunması üçün dünyanın iri neft şirkətləri ilə üç ildən artıq bir dövrdə aparılan danışıqlar Azərbaycan və demək olar ki, dünya ictimaiyyətinin daim diqqət mərkəzində olub. Bu müqavilənin hazırlanmasına və danışıqların aparılmasına çox böyük maraq göstərilibdir. Azərbaycan xalqı, ictimaiyyəti bu danışıqlara, nəhayət, müqavilənin hazırlanıb imzalanmasına böyük ümidlə baxıblar. Bu işə dünya ictimaiyyətinin bəzi dairələrində çox qısqanclıqla yanaşan və mənfi münasibət bəsləyən qüvvələr də olub, bu müqavilənin hazırlanmasına və imzalanmasına cürbəcür istiqamətlərdən maneçilik törədər çox güclü qüvvələr də olubdur. Ancaq müstəqil Azərbaycan Respublikası dövlətinin iradəsi və xarici ölkələrin neft şirkətləri ilə bizim sağlam əsasda olan əməkdaşlarımız bütün bu maneçiliklərin aradan götürülməsinə imkan verib. Nəhayət, 1994-cü il sentyabrın 20-də neft müqaviləsi imzalanıbdır. Müqavilə imzalanan kimi xarici ölkələrin ayrı-ayrı dairələrindən bu sənədi pozmağa cəhdlər də göstərilib, hücumlar da olub. Bunlar artıq məlumdur. Biz bunların hamısının qarşısını almışıq. Müqavilə hazırlanarkən mən əmin idim ki, bütün bu maneələrin, hücumların, təzyiqlərin qarşısını biz öz iradəmizlə alıb, onlara layiqli cavab verə biləcəyik və biz bunu etdik. Müqavilə artıq işləyir, "Əsrin müqaviləsi" kimi dillərə, tarixə düşüb.

İmzalanmış müqavilə Azərbaycan parlamentində müzakirə [142-143] edilib, Milli Məclis tərəfindən qəbul olunub. 1994-cü il dekabrın 2-də mən bu müqavilənin təsdiq olunması haqqında xüsusi qanun imzalamışam. Beləliklə, müqavilənin əməli surətdə həyata keçirilməsi üçün siyasi, iqtisadi və hüquqi əsaslar yaranıbdır. İndi əməli iş getməlidir. Əvvəllər görülmüş işlərin hamısını yüksək qiymətləndirərək, mən bu gün əmin olduğumu bildirmək istəyirəm ki, artıq bu müqavilə sürətlə həyata keçirilməlidir. Bunun üçün xüsusi işçi qrupları, müqavilənin rəhbər komitəsi yaradılıb, əməli işlər aparılması üçün başqa təşkilati tədbirlər görülüb. Mən bunların hamısını bəyənirəm və əməli işə başlamağınız münasibətilə sizi və bu müqavilədə indən sonra işləyəcək adamların hamısını təbrik edirəm.

Qeyd etmək lazımdır ki, müqavilənin hazırlanması prosesi nə qədər ağır, çətin yollardan keçmiş olsa da, onun həyata keçirilməsi bundan da çətin olacaqdır. Qarşıda çox gərgin, çox mühüm işlər durur. Mən əminəm ki,

müqavilədə iştirak edən konsorsiumun, şirkətlərin nümayəndələri və rəhbərləri Azərbaycan Dövlət Neft Şirkəti ilə bərabər bu məsələlərin ardıcıl surətdə davamlı olaraq, gecikmədən həll olunmasını təmin edəcəklər.

Müqavilə 30 il müddətinə nəzərdə tutulmuşdur. Şübhəsiz ki, birinci illər çətin, ağır olacaq. Bizi – Azərbaycan tərəfini, Prezident kimi şəxsən məni ilk illərin işi xüsusi maraqlandırır. Hesab edirəm ki, birinci illər üçün nəzərdə tutulan proqram vaxtından əvvəl yerinə yetirilməlidir. Siz bu gün burada 1995-ci ilin proqramını, büdcəsini müəyyənləşdirəcək, görüləcək işlər haqqında müzakirələr aparıb qərarlar qəbul edəcəksiniz. Mən arzu edərdim ki, birinci il – 1995-ci il üçün nəzərdə tutulan işlər yüksək səviyyədə olsun və onların ardıcıl olaraq günbəgün, aybaay həyata keçirilməsi üçün lazımi tədbirlər görülsün. Bilirsiniz ki, bu müqavilə haqqında, onun ətrafında indi də müxtəlif dairələrdə, mətbuatda, ayrı-ayrı ölkələrdə danışıqlar davam edir. Haradasa belə fikirlər yayırlar ki, müqavilə bağlanıbsa da, ancaq guya Qərb şirkətləri onun həyata keçirilməsinə tələsməyəcəklər. Bəziləri deyirlər ki, müqavilənin həyata keçirilməsi birinci illərdə – 1995-1998-ci illərdə Azərbaycan iqtisadiyyatı üçün o qədər də xeyirli olmayacaqdır. Bu qüvvələr müqavilənin imzalanmasına mane ola bilmədilərsə də, onun həyata keçirilməsinə cürbəcür zərbələr vurmaq istəyirlər. Güman edirəm ki, Qərb neft şirkətləri, konsorsiuma daxil olan [143-144] neft şirkətlərinin rəhbərləri bütün iftiralara, yalanlara, bu müqavilənin əleyhinə çıxan qüvvələrin hamısına cavab vermək üçün öz səylərini əsirgəməyəcəklər. Bunları nəzərə alaraq, sizdən rica edirəm ki, müqavilənin həyata keçirilməsi sayəsində birinci illərin, 3-4 ilin proqramı çox dəqiq olsun və onun əvvəllər nəzərdə tutulandan da tez yerinə yetirilməsi üçün lazımi tədbirlər görülsün.

Bu müqavilənin həyata keçirilməsi üçün Azərbaycan Dövlət Neft Şirkətinin, neftçilərimizin, alimlərimizin üzərinə çox böyük və şərəfli vəzifələr düşür. Əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan neftçiləri, Dövlət Neft Şirkətində çalışan məsul şəxslər, alimlərimiz, bu sənədin yerinə yetirilməsinə qoşulmuş bütün adamlar Azərbaycanın bu günü və gələcəyi üçün müqavilənin nə qədər böyük əhəmiyyətə malik olduğunu bir daha dərk edəcək və onun həyata keçirilməsinə çalışacaqlar.

Mən bu gün bir daha qeyd etmək istəyirəm ki, biz bu müqaviləni hazırlayarkən, onu imzalayarkən və mən bir Prezident kimi müqavilənin hüquqi qüvvə alması üçün qanun imzalayarkən Azərbaycanın bu günü və gələcəyi haqqında düşünmüşük. Hamı da bilməlidir ki, biz bu arzularla, niyyətlərlə müqavilənin işə başlamasını istəyirik. Müqavilənin həyata keçirilməsi respublikamızın böhran vəziyyətində olan iqtisadiyyatında qarşıdakı illərdə böyük dəyişikliklər etmək üçün mühüm əhəmiyyət kəsb edir. Müqavilənin həyata keçirilməsi eyni zamanda Azərbaycanın gələcək inkişaf perspektivi üçün çox əhəmiyyətlidir. Bu müqaviləni imzalayanda da biz Azərbaycanın gələcək nəsillərinin həyatı barədə düşünürdük. Müqavilənin həyata keçirilməsi üçün aparılan işlər Azərbaycan Respublikası neft sənayesinin başqa sahələrinə də təsir edəcəkdir.

Azərbaycan torpaqlarında yerin təkində hələ istifadə olunmamış çox böyük neft və qaz sərvətlərimiz var. Alimlərimiz, geoloqlarımız tərəfindən Xəzər dənizinin Azərbaycan bölməsində kəşf olunmuş başqa zəngin neft və qaz yataqları da var. Biz bu müqaviləni həyata keçirərək, təcrübə toplayaraq o yataqların da – həm dənizdə, həm də quruda olan neft yataqlarının istifadə edilməsi üçün lazımi tədbirlər görəcəyik. Bu məsələlərin həll olunması üçün xarici ölkələrin neft şirkətləri ilə də əməkdaşlıq etməyə hazırıq. Bu baxımdan, müqavilənin həyata keçirilməsi təcrübəsi gələcək işlərimiz üçün daha əhəmiyyətli olacaqdır. Hesab edirəm ki, konsorsiuma da[144-145]xil olan neft şirkətləri, Azərbaycan Dövlət Neft Şirkəti bütün bu perspektivləri nəzərə alaraq işlərini yaxşı təşkil edəcəklər.

Konsorsiumun iştirakçısı olan xarici ölkələrin neft şirkətlərinin burada iştirak edən nümayəndələrini bu müqavilənin həyata keçirilməsinə başlanması münasibətilə ürəkdən təbrik edirəm. Onları əmin edirəm ki, dövlət tərəfindən, Azərbaycan Prezidenti kimi mənim tərəfimdən bu müqavilənin həyata keçirilməsi həm daxili nəzarət altında olacaqdır, həm də bu işlərin vaxtlı-vaxtında aparılması üçün lazımi tədbirlərin görülməsi təmin olunacaqdır.

Azərbaycan Dövlət Neft Şirkətini, onun rəhbərliyini, neftçiləri, xalqımızı bu müqavilənin əməli surətdə həyata keçirilməsinə başlanması münasibətilə təbrik edirəm.

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bu mühüm işdə sizin hamınıza uğurlar arzulayıram! Xeyirli olsun! Uğurlu olsun! [145]

## İSVEÇRƏDƏ YAŞAYAN SOYDAŞLARIMIZLA GÖRÜŞDƏ ÇIXIŞ

*Bern*

*29 yanvar 1995-ci il*

Öncə mən hamınızı və sizin simanızda İsveçrədə yaşayan bütün azərbaycanlıları ürəkdən salamlayıram. Hamınıza doğma Vətənindən – Azərbaycan torpağından salamlar gətirmişəm. Sizə işlərinizdə uğurlar, həyatınızda səadət və xoşbəxtlik arzulayıram.

İndi, müstəqil dövlətimizin olduğu bir vaxtda biz azərbaycanlılar həm dövlətimizin bugünü və gələcəyi haqqında, həm dünyada yaşayan bütün azərbaycanlılar barəsində düşünməliyik. Odur ki, məni bir azərbaycanlı kimi, Azərbaycan Respublikasının Prezidenti kimi, şübhəsiz, hər bir ölkədə yaşayan azərbaycanlı, onun həyatı, yaşayışı, vəziyyəti, durumu maraqlandırır. Ona görə də sizə suallar verdim və çox məmnun oldum ki, İsveçrədə yaşayan azərbaycanlıların güzəranı yaxşıdır, burada yaşamaq, işləmək üçün şəraitiniz var. Allah eləsin, bundan da yaxşı olsun.

İstərdim ki, Avropada, ümumən dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların hamısı ilk növbədə yüksək təhsilə, mədəniyyətə, yaxşı sənətə malik olsun, özləri üçün belə indikindən də yaxşı şərait yarada bilsin. Siz azad, demokratik bir ölkədə yaşayırsınız. Bu ölkədə yaşamaq həm çətindir, həm də asandır. Ona görə çətindir ki, burada rəqabət güclüdür, hər bir millətdən olan adamlar var, hər kəs çalışıb cəmiyyətdə özünə yer tutmaq istəyir. Eyni zamanda demokratik ölkələrin o cümlədən sizin yaşadığınız ölkənin qanunları sərbəstliyə çox imkanlar verir, yəni insanın istəyi olsa, bacarığı olsa, öz potensialını reallaşdırmağa şərait var. Ona görə də burada hər bir insan özünə layiq yer tuta bilər. Mən istəyirəm ki, azərbaycanlılar harada yaşayırlar-yaşasınlar, əhalinin, cəmiyyətin aşağı təbəqəsində, orta təbəqəsində yox, yüksək təbəqəsində olsunlar, bu, mənim istəyim, arzumdur.

Doğrudur, azərbaycanlılar tarixən öz torpaqlarına möhkəm bağlıdır, başqa ölkələrə getməyə çox meylləri olmamışdır. Bilirsiniz ki, mən 14 il – 1969-cu ildən 1982-ci ilə qədər Azər[146-147]baycan Respublikasına rəhbərlik etmişəm, o vaxt Azərbaycan Sovetlər İttifaqının on beş respublikasından biri idi. Xatirimdədir, o vaxt çalışırdım ki, azərbaycanlılar, xüsusən gənclər təkcə Azərbaycanda qalmasınlar, Sovetlər İttifaqının başqa şəhərlərində, respublikalarında da yaşasınlar (o dövrdə Sovetlər İttifaqından kənara çıxmaq mümkün deyildi), yayılsınlar, səpələnsinlər. Öz torpağımızda azərbaycanlı onsuz da çoxdur. Qoy hər yerdə Azərbaycanın diasporu olsun, lobbisi olsun. Bunu bəlkə də siz bilmirsiniz, mən o vaxt Azərbaycan gənclərinin Sovetlər İttifaqının hər yerinə səpələnməsi, yayılması üçün hətta Moskvadan razılıq almışdım, ildə 800-900 gənc başqa yerlərə – Moskva, Leninqrad, Sverdlovsk və digər şəhərlərin universitetlərinə, institutlarına təhsil almağa göndərilirdi. Mən elə şərait yaratmışdım ki, Azərbaycan gənclərinin həmin universitetlərə daxil olmaları üçün çətinlik yox idi, çünki bəziləri rus dilini yaxşı bilmədiyinə görə gedib orada imtahan verə bilməzdi, bəziləri imtahan verəndən sonra müsabiqədən keçə bilmirdilər. Ancaq mən onlardan ötrü güzəştli şərait yaratmışdım və bayaq dediyim kimi, hər il yüzlərlə gənci Sovetlər İttifaqının böyük ali məktəblərinə təhsil almağa göndərirdim.

Nə üçün? Birinci, mən etiraf etməliyəm ki, o vaxt Moskva Universitetlərində təhsilin səviyyəsi Bakı Universitetinə nisbətən yüksək idi. İstəyirdim ki, azərbaycanlılar daha yüksək səviyyədə təhsil alsınlar. İkincisi, ona görə ki, Rusiya vasitəsilə dünya mədəniyyətinə, dünya elminə qovuşsunlar. Yəni təkcə öz evində, öz kəndində yaşamasınlar, dünyanı görsünlər. Əgər o zaman İsveçrəyə, Almaniyaya, Fransaya getmək imkanı yox idisə, heç olmasa Sovetlər İttifaqının hər yerində olsunlar. Üçüncüsü də ona görə ki, qoy azərbaycanlılar hər yerdə yaşasınlar. Hər yerdə azərbaycanlılar olanda Azərbaycan Respublikasının dayağı da daha çox olur.

Bu gün nahar vaxtı İrlandiyanın prezidenti xanım Meri Robinson ilə yanaşı əyləşmişdik. Söhbət zamanı o mənə dedi ki, İrlandiyanın iki xüsusiyyəti var. Biri odur ki, İrlandiya heç vaxt imperiya olmayıb, həmişə müstəmləkə olmuşdur. İkinci xüsusiyyəti odur ki, 150 il bundan öncə İrlandiyada kartof aclığı düşmüşdü. Bu səbəbdən 4 milyon irlandiyalı ölkəni tərk edib başqa yerlərə getmişdi. Ona görə də indi kənarda yaşayan irlandiyalıların sayı ölkədəkindən daha çoxdur. Xanım Robin[147-148] son bildirdi ki, bu il həmin hadisənin 150 illiyini qeyd edəcəkdir. Mən dedim ki, bilmirəm, siz bunu hansı səpkidə qeyd edəcəksiniz, ancaq belə hesab edirəm ki, o hadisə 150 il bundan əvvəl sizdən ötrü bir faciə idisə, eyni zamanda xalqınız üçün böyük xoşbəxtlik olmuşdur. Çünki xalqınız bütün dünyaya, xüsusən Amerika Birləşmiş Ştatlarına, Avropanın müxtəlif ölkələrinə yayılmışdır. İndi irlandiyalılar çox böyük lobbi yaratmışlar, kiçik dövlət olan İrlandiyanın xaricdə böyük lobbisi var.

Mən də o vaxtlar azərbaycanlıları faciə nəticəsində deyil, başqa yolla Sovetlər İttifaqına səpələyib Azərbaycana dayaq yaratmaq istəyirdim. İndi isə sərhədlər açılmışdır, azərbaycanlı hər yerdə yaşaya bilər. Hər bir ölkədə nə qədər çox azərbaycanlı yaşasa, bir o qədər yaxşı olar. Əlbəttə, bununla onu demək istəmirəm ki, Azərbaycanda yaşayan adamlar başqa ölkələrə çıxıb getsinlər, yox, ancaq tale kimi isə gətirib bir ölkəyə

çıxarıbsa və orada o, yaxşı yaşayırsa, yaxşı təhsil alıbsa, yaxşı işi varsa, bu, Azərbaycanın xeyrinədir. Bir şərtlə ki, gərək millətini, dinini, torpağını, ana Vətəni unutmayasan. Bəzən elələri də olub ki, o vaxtlar 20-30 il Rusiyada yaşayıb, azərbaycanlılığını da, dinini də unudaraq assimilyasiyaya uğrayıblar. Bu, şübhəsiz ki, bizim üçün yaramaz.

Ona görə də çox məmnunam ki, səbəbdən asılı olmayaraq – bu, indi önəmli bir şey deyildir – siz İsveçrədə yaşayırsınız, burada yaşayışınız rahatdır, azərbaycanlıların cəmiyyəti var, lobbisi var. Azərbaycanın dayağı var. Mən sizi təbrik edirəm, həyatınızda, işinizdə, təhsilinizdə uğurlar arzulayıram. Amma onu da bilin ki, indi sizin arxanızda Azərbaycan Respublikası kimi müstəqil bir dövlət var. Əgər öncə bu yox idisə, indi var.

Üç ildən artıqdır ki, Azərbaycan Müstəqil Dövlətdir. Doğrudur, bu müstəqillik Azərbaycana çox baha başa gəlmişdir, ölkəmiz böyük itkilər, çoxlu şəhidlər vermişdir. Məsələn, yanvarın 20-də biz 1990-cı ildə Sovet qoşunlarının Azərbaycana təcavüzü baş vermiş faciənin beş illiyini qeyd etdik. Biz Şəhidlər xiyabanına gedərək, həmin təcavüz nəticəsində həlak olanların xatirəsini yad etdik. Mən Bakıdakı çıxışımda da qeyd etdim və bu gün burada sizə də deyirəm ki, faciənin beş illiyini biz bir tərəfdən şəhidlərin xatirəsini əziz tutaraq, onların şəhidliyinə minnətdarlığımızı bildirərək qeyd edirik. Eyni zamanda Azərbaycanın milli azadlığı uğrunda [148-149] müstəqilliyi uğrunda mübarizəyə qalxmış xalqımızın qəhrəmanlıq, rəşadət nümunəsinin beş illiyini qeyd edirik.

Bəli, Azərbaycanın müstəqillik yolu çətin olub, böyük bəlalardan keçmişik. Birincisi, Ermənistan altı ildən artıqdır ki, Azərbaycana qarşı hərbi təcavüz etmişdir. Altı ildir ki, Azərbaycan müharibə şəraitindədir. Bu müddətdə 20 mindən çox azərbaycanlı həlak olmuş, 100 mindən artıq adam yaralanmışdır. Təəssüf ki, ərazimizin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Bir milyon azərbaycanlı öz yurdundan, el-obasından qaçqın düşmüşdür və respublikamızın başqa bölgələrində ağır şəraitdə, çadırlarda yaşayır. Bu, bizim bir bəlamızdır.

İkinci, bəlamız ondan ibarətdir ki, indi Azərbaycanın iqtisadiyyatı ağır vəziyyətə düşmüşdür. Azərbaycan bir iqtisadi-siyasi sistemdən başqasına, yəni sərbəst iqtisadiyyata, bazar iqtisadiyyatına keçir, dünya iqtisadiyyatına bağlanır. Ona görə də bu keçid yolu asan deyildir. Həmin yolu da keçmək, müstəqillik naminə bu çətinliyə də dözmək lazımdır. Bu da bizim üçün böyük problemlər yaratmışdır. Körpə uşaq yenicə ayaq açanda ata-anası baxır ki, o, necə addım atır, yıxılırmı? Azərbaycan dövləti indi belə vəziyyətdədir. Gənc Azərbaycan dövləti gərək daxildə özü-özünü qorusun. Ancaq ən çətini, bizi daxilən ağrıdan odur ki, gənc dövləti möhkəmlətmək əvəzinə çəkişmələr, dartışmalar gedir, ayrı-ayrı adamlar vəzifə, mənsəb, hakimiyyət uğrunda mübarizə aparır, Azərbaycanı içərisindən dağıdırlar.

Son üç ildə Azərbaycanda üç dəfə hakimiyyət dəyişikliyi olmuşdur. Bunlar hamısı Azərbaycana böyük təsir etmişdir. Bu dəyişikliklərin təbii səbəbləri var, belə də olmalı idi. Məsələn, 1992-ci ildə Azərbaycanın rəhbərləri dəyişildi. Nə üçün? Çünki xalqın etimadını doğrulda bilmədilər. O vaxt kommunist rejimi dövründən qalmış və özünü prezident seçdirmiş Mütəllibov və onun ətrafındakı adamlar Azərbaycana xalqın tələblərinə uyğun rəhbərlik edə bilmirdilər. Xalq buna dözə bilmədiyinə görə onları rədd etdi. Sonra Xalq Cəbhəsi hakimiyyətə gəldi. Xalq buna çox ümidlə baxırdı. Mən də keçmiş siyasi xadim, təcrübəli adam kimi, Azərbaycana 14 il rəhbərlik etmiş bir adam kimi onlara ümid bəsləyirdim ki, bəlkə doğrudan da Azərbaycanın milli müstəqillik məqsədlərini həyata keçirən qüvvə olacaqlar. Ancaq onlar da bunu edə bilmədilər. Ona görə də 1993-cü ilin iyu[149-150]nunda Azərbaycanda yeni bir dövlət çevrilişi oldu, vətəndaş müharibəsi başlandı. Mən o vaxt Naxçıvanda idim, orda yaşayırdım, oraya bir növ sürgünə getmişdim. Yəni Moskvada yaşamağım mümkün olmamışdır, odur ki, Bakıya gəldim. On dörd il Bakı şəhərini, Azərbaycanı qurub-yaradan adamı Bakıda yaşamağa qoymadılar. Getdim Naxçıvana, çünki orada doğulmuşam, atamın qəbri də oradadır.

Xalq Cəbhəsi hakimiyyətə gəlmək istəyirdi. Mən də onlara kömək etdim. Onlara ümid bəsləyirdim. Ancaq onlar da ümidləri doğrulda bilmədilər. 1993-cü ildə dövlət çevrilişi başlandı. Azərbaycan parçalandı. Məni Naxçıvandan Bakıya dəvət etdilər. Sizə düzünü deyirəm, – gəncsiniz, övladlarım yaşdasınız, sizə övladlarım kimi baxıram, – mən incimişdim, küsmüşdüm, ona görə də gəlmək istəmirdim. Hesab edirəm ki, bir halda ki, mənə qarşı bu qədər ədalətsizlik olub, Bakıya dönməyəcəyəm, nə qədər çətin olsa, blokada şəraitində də olsa, həyatımın sonunadək Naxçıvanda yaşayacağam. Orada yaşayan adamlar mənim həmvətənlərimdir, əgər onlar üçün çətindirsə, mən də o şəraitdə yaşayacağam. Şaxta iyirmi dərəcəyə çatırdı, qaz, elektrik işığı yox idi, evlər qızdırılmırdı, əhali də donurdu, mən də donurdum. Səhərlər əl-üz yumağa isti su yox idi. Gecə saat ikiyə qədər neft lampasının işığında işləyirdim. Ancaq özümü heç də narahat hiss etmirdim, – yəni o biri insanlar, xalq necə, mən də elə.

Lakin 1993-cü ildə Azərbaycanda baş verən hadisələr məni çox ağrıtdı. Bir tərəfdən ermənilər bizi qırır, digər tərəfdən daxildə özümüzünkülər bir-birini qırmağa, Azərbaycanı parçalamağa başlamışdılar. Cənub tərəfdə guya Talış Respublikası, Şimal tərəfdə başqa bir respublika yaratmaq istədilər. Azərbaycan məhv olurdu, parçalanırdı.

Mənə bir neçə gün ardıcıl surətdə müraciət etdilər. Azərbaycanın parçalanmasından qorxaraq Bakıya gəldim və yeni bir həyat başladı. Çətinlikləri aradan qaldırmağa başladıq və aradan qaldırırıq. Məsələn, səkkiz ay öncə atəşin kəsilməsinə nail olduq, altı il gedən müharibədə ilk dəfədir ki, atəşkəs uzun müddətdir ki, davam edir.

Əvvəllər atəş kəsilmirdi, kəsiləndə də beş-on gün davam edir, sonra bu razılaşma pozulurdu. İndi səkkiz aydır ki, atəş dayandırılmışdır, qan tökülmür, döyüşlər yoxdur.

Lakin torpaqlarımız işğal altındadır, biz bununla razılaşa [150-151] bilmərik. Amma atəşkəs rejimi Azərbaycana bir rahatlıq gətirmişdir. Yaşayış nə qədər çətin olsa da, insanlar üçün rahatlıqdır. Buna nail olmaq üçün nə qədər səy göstərdik, danışıqlar apardıq, beynəlxalq təşkilatlardan, ATƏT-dən, onun Minsk qrupundan, Rusiyanın, Amerikanın vasitəçiliyindən istifadə etdik. Bir sözlə, bütün imkanlardan istifadə edərək atəşi dayandırdıq. Demək, vətəndaş müharibəsinin qarşısını aldıq, Azərbaycanı parçalamağa qoymadıq və atəşi kəsdik ki, qüvvələrimizi toplayaq, görək müharibə edəcəyikmi, yaxud torpaqlarımızı sülh yolu ilə qaytaracağıq? Əvvəllər belə imkanlar yox idi, hər gün cəbhədə atışma gedirdi, evlərə şəhidlər gəlirdi, fikirləşməyə də imkan yox idi.

Belə bir şəraitdə yenə də bəzi qüvvələr Azərbaycanda sabitliyi pozmaq istədi. Bilirsiniz ki, biz Qərb şirkətləri ilə böyük bir neft müqaviləsi imzaladıq. Azərbaycanın bu günü üçün, həm də gələcəyi üçün çox əhəmiyyəti olan bu müqavilə otuz il müddətinə imzalanmışdır. Ola bilər, bu müqavilə ilk illər, məsələn, 1995-1997-ci illərdə o qədər böyük nəticə verməsin. Amma sonra onun çox böyük nəticələri olacaqdır. O Azərbaycanın iqtisadiyyatını qaldıracaqdır. Otuz il müddətində Azərbaycanın üç yatağından 500 milyon ton neft çıxarılacaq. Qərb şirkətləri bu müqavilənin həyata keçirilməsi üçün 7,5 milyard dollar kapital qoyacaqlar. Bu müqavilədən Azərbaycan 33 milyard dollar mənfəət götürəcəkdir.

Bu hələ müqavilədir. Ancaq bizim başqa neft yataqlarımız da var, onları da işlədəcəyik. İndi bunu ona görə deyirəm ki, siz biləsiniz, – biz belə iqtisadi addımlar atmışıq. Bunu Amerikada da, İngiltərədə də, eləcə də bütün Avropada çox yüksək qiymətləndirmişlər. Düzdür, Rusiya bizə mane olmaq istəyir. İndi Moskvanın müxbirləri yanıma gəlmişdilər, mən onların suallarına cavab verirdim. Rusiya notalar verdi ki, bu müqaviləni tanımır. Biz bunlara da cavab verdik. Başqa maneçiliklər də törətdilər, bunlara da cavab verdik. Yəni xaricdən olan maneələrin qarşısını aldıq.

Ancaq daxilimizdə nə etdilər? Neft müqaviləsinin imzalanmasından bir gün sonra təcridxanadan Azərbaycanın dövlətçiliyinə xəyanət etmiş adamları qaçırdılar. Mən Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin sessiyasında çıxış etmək üçün Nyu-Yorka getmişdim. Həmin günlərdə Bakıda Azərbaycanın iki siyasi xadimini-parlament sədrinin müavini Cəlilovu və Xüsusi İdarənin rəisi polkovnik Rəhimovu qətlə yetirdilər. Bun[151-152]dan iki-üç gün sonra Azərbaycanda yeni dövlət çevrilişi etmək istədilər. O, 1993-cü ilin yayında dövlət çevrilişi edən adamlardan biri idi. Cavan adam idi, istədim tərbiyə edim, işlədim. Ancaq tərbiyə alınmadı, beynində başqa fikirlər yarandı, başqa islahatlar əmələ gəldi. Keçən il oktyabrın 4-də yeni dövlət çevrilişi etmək istədi. Yəqin siz bunu televiziya verilişlərində gördünüz.

Mən bunun qarşısını silahla, ordu ilə almadım. Gecə ikən xalqa müraciət etdim. Bir saat ərzində adamlar yatağından qalxdılar. Prezident sarayının qarşısına bir milyondan artıq insan toplaşdı. Çevriliş etmək istəyən adamların bəziləri yaxalandı, bəziləri qaçdı. Ondan sonra biz Azadlıq meydanında mitinq keçirdik. Oraya da bir milyondan artıq adam gəlmişdi. Adamların dövləti dəstəkləməsini və daxildəki cinayətkarların hərəkətlərini özünüz müqayisə edin.

Bunu ona görə deyirəm ki, bizim bu üç illik həyatımız, görürsünüz, nə qədər ağır, nə qədər çətindir. Ancaq Azərbaycan bütün bu çətinliklərdən keçdi. Gələcəkdə də keçəcək, irəliləyəcəkdir, müstəqilliyimizi saxlayacağıq. Buna arxayın olun. Azərbaycan bundan sonra heç vaxt müstəqilliyini əldən verməyəcəkdir. Amma müstəqil dövlət kimi yaşamaq üçün gərək daxildə də sabitlik olsun, xaricdə yaşayan azərbaycanlılar da bizə kömək etsin, dəstək versin.

Daxildə dövlətçiliyimizə qarşı çıxan qüvvələrin bir qismini həbs etdik, bir qismi qaçıb Moskvaya yığışmışdı. Orada bir il, iki il qalacaqlar, sonra nə edəcəklər? Onlar Azərbaycanın düşmənləridir. Mütəllibov da oraya qaçmışdı. Azərbaycanı dağıdan, onun torpaqlarını, Azərbaycanın qədim, tarixi şəhəri, incisi, gözü olan – Şuşa şəhərini ermənilərə satan Rəhim Qazıyev Moskvadadır. O, vaxtilə müdafiə naziri olmuşdur, guya müharibə edən adam idi. Nə müharibə, – o, alverlə məşğul olan adamdır. Mən onu həbs etdirdim. Lakin dövlət çevrilişi etmək istəyən adamlar onu təcridxanadan qaçırdılar.

Ancaq belə halların heç biri Azərbaycan xalqının iradəsini sarsıda bilməyəcəkdir. İndi xalqımız çətin iqtisadi şəraitdə yaşayır. Adamların bir çoxunun vəziyyəti çətindir, kasıb dolanır. Problemlərimiz çoxdur. Ancaq xalqımızın iradəsi möhkəmdir. Heç kəs bizə mane ola bilməyəcəkdir. Azərbaycan xalqının taleyi indi etibarlı əllərdədir, bunu bilin. Azərbaycanın müstəqilliyi qorunacaqdır. Xalqın milli azadlıq ruhu bundan [152-153] sonra da yüksələcək və Azərbaycan bütün bu bəlalardan keçəcək, qısa müddətdə zəngin bir dövlət olacaqdır. Buna tam əmin olun.

Ona görə də burada yaşayın, işləyin, amma Vətən həmişə qəlbinizdə olsun, onu unutmayın. İndi yollar açıqdır, həmişə Vətənə gələ bilərsiniz. Hər birinizin gəlib Vətəndə yaşamağa, onu ziyarət etməyə, qohum-əqrabanızla görüşməyə imkanınız var.

Biz Müstəqil Dövlətlər Birliyinə daxilik. Amma bu da sizi narahat etməsin. Keçmiş Sovetlər İttifaqının bir hissəsi kimi bizim həmin birlikdə olmağımız lazımdır. Lakin, bu, müstəqilliyimizə heç bir zərər gətirə bilməz. Bundan da tam arxayın olun. Bəzi adamlar böhtan, iftira atmaq üçün deyirlər ki, nə üçün Müstəqil Dövlətlər

Birliyinə daxil oldunuz? Biz NATO-nun "Sülh naminə tərəfdaşlıq" sənədini də imzaladıq. Mən Amerikaya gedib Prezident Klintonla görüşdüm, İngiltərədə Baş nazir Meycorla görüşdüm, Türkiyədə, Çində, Səudiyyə Ərəbistanında, Misirdə də oldum. 52 dövlətin təmsil olunduğu ATƏT-in Budapeştdə keçirilən Zirvə toplantısında iştirak etdim. ATƏT-in 20 illik tarixi ərzində Azərbaycan üçün ən önəmli bir qərar – ATƏT-in çoxmillətli sülhü mühafizə qüvvələrinin yaradılmasına və Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün regiona göndərilməsinə dair qərar qəbul olundu. Bundan əvvəl belə şey yox idi, deyirdilər ki, bu problemi ancaq Rusiya qoşunları gəlib həll edə bilər. Biz buna razılıq vermədik. Mən Budapeşt Zirvə toplantısında çıxış edərək sözümü dedim. Qərarın qəbul edilməsi çox çətin idi. Bizə mane olanlar da var idi. Biz bu çətinliklərdən də keçdik. Sonra Mərakeşdə İslam Konfransı Təşkilatının Zirvə toplantısında iştirak etdim. Orada da 52 dövlət təmsil olunmuşdu. Müsəlman dünyası ölkələrinin rəhbərləri ilə görüşdüm. Orada da Ermənistanın Azərbaycana təcavüzünü pisləyən, islam ölkələrini Azərbaycana yardım göstərməyə çağıran qərarlar qəbul edildi. Səudiyyə Ərəbistanına-Məkkəyə, Mədinəyə getdim. Müqəddəs yerləri ziyarət etdim. Sizin də burada bir Hacınız var, mən gördüm, təbrik edirəm.

Biz Azərbaycanı bütün dünyaya tanıtmalıyıq. Üç gündür buradayam, danışıqlar aparır, görüşlər keçiririk. Mən o vaxt, hələ Sovetlər İttifaqının tərkibində olan Azərbaycana rəhbərlik edəndə də Azərbaycanı dünyaya tanıtmağa çalışmışdım. [153-154] İndi də çalışmaq lazımdır. Siz də çalışmalısınız, biz də çalışmalıyıq.

Əminəm ki, Azərbaycanın gözəl, xoşbəxt gələcəyi var. Ona da əminəm ki, Azərbaycanın sərhədlərindən kənarda yaşayan soydaşlarımız da öz səviyyələrini yüksəldərək, təhsillərini artıracaq, yaşadıqları ölkələrdə biznesdə, başqa sahələrdə yaxşı yer tutacaq və Azərbaycana layiq olacaqlar.

Sizə bir daha uğurlar, səadət və xoşbəxtlik arzulayıram. Sağ olun! [154]

## DAVOS (İSVEÇRƏ) İQTİSADİ FORUMUNDA DÜNYANIN ENERGETİKA PROBLEMLƏRİNƏ HƏSR OLUNMUŞ SESSİYADA ÇIXIŞ

*30 yanvar 1995-ci il*

Hörmətli cənab sədr, möhtərəm xanımlar və cənablar! Azərbaycan Davos forumunda ilk dəfə iştirak edir. Ona görə də ən əvvəl dəvət üçün və Davos – 95 kimi maraqlı görüşün təşkili üçün təşəkkürümü bildirirəm. Bütünlükdə bu forumda, xüsusən də energetika problemlərinin müzakirə olunduğu bugünkü görüşdə iştirak etməyimizi respublikamız üçün çox faydalı sayıram.

Azərbaycan üç il bundan əvvəl müstəqillik qazanmış respublikadır və öz istiqlaliyyətini möhkəmləndirmək, demokratik hüquqi dövlət yaratmaq yolu ilə, bazar iqtisadiyyatı yolu ilə, azad sahibkarlığa, xarici investisiyalara şərait yaratmaq, dünya iqtisadiyyatına sıx bağlanmaq, Azərbaycanla əməkdaşlığa maraq göstərən bütün ölkələrlə qarşılıqlı surətdə faydalı iqtisadi əlaqələr qurmaq yolu ilə gedir. Azərbaycanın həm sənaye, həm də kənd təsərrüfatı istehsalı sahəsində böyük iqtisadi potensialı var. Neft sənayesi və neft kimyası kompleksi bu potensialda mühüm yer tutur.

Sizə məlum olduğu kimi, Azərbaycanda ta qədimlərdən neft və qaz çıxarılır. Ölkəmizdə sənaye üsulu ilə neft çıxarılmasına hələ ötən əsrin ortalarında – 1848-ci ildə başlanmışdır. Əsrimizin əvvəlində sənayemiz öz inkişafının yüksək mərhələsinə çatmışdı. Bu zaman dünya neft hasilatının çox hissəsi Azərbaycanın payına düşürdü. Bütün ötən dövr ərzində Azərbaycanda 1 milyard 400 milyon ton neft çıxarılmışdır. Lakin Azərbaycanda bu gün də zəngin neft və qaz yataqları var.

Müstəqil dövlət kimi dünya birliyinə daxil olduğumuz indiki dövrdə biz enerji ehtiyatlarımızdan – neft yataqlarından istifadə etmək üçün tədbirlər görürük.

Bu istiqamətdə xeyli iş görülmüşdür. Bildiyiniz kimi, ötən ilin sentyabrında Azərbaycan ilə xarici neft şirkətləri konsorsiumu (buraya on şirkət – "Amoko", "Penzoyl", "Makdermott", [155-156] "Yunokal", "Britiş petroleum", "Statoyl ", "Lukoyl " və başqaları daxildir) arasında böyük müqavilə imzalanmışdır. İndi həmin müqavilənin praktiki olaraq həyata keçirilməsinə başlanmışdır. Müqavilə 30 il müddətinə imzalanmışdır və bu vaxt ərzində 500 milyon tondan artıq neft çıxarılması nəzərdə tutulur. Biz bunu Azərbaycanın dünya iqtisadiyyatına fəal inteqrasiyası yolunda ilk addım sayır, ölkəmizin xarici investisiyalar üçün, biznes üçün, qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün açıq olduğunu nümayiş etdiririk.

Neft müqaviləsi Xəzər dənizinin Azərbaycana aid hissəsindəki üç yatağı əhatə edir. Həmin yataqların ikisi yeni kəşf olunmuşdur, üçüncü yatağı isə biz çoxdan istismar edirik. Sizə məlumdur ki, dənizdə neft çıxarılması sahəsində Azərbaycanın zəngin təcrübəsi var. Respublikada bu işə 45 il əvvəl başlanmışdır. Neft sənayesi, neft elmi, geologiya sahəsində böyük təcrübəsi olan Azərbaycan mütəxəssisləri həm də güclü kadr potensialı yaratmışlar. Azərbaycan keçmiş ittifaqın neft akademiyası sayılırdı. Sovet İttifaqındakı bütün neft yataqları bizim mütəxəssislərin iştirakı ilə kəşf olunmuş və istismar edilmişdir. Azərbaycanın bu sahədəki elmi praktiki kadr potensialı indi də mövcuddur və gələcəkdə ondan daha geniş istifadə etmək mümkündür.

Azərbaycanda neft və qaz sənayesinin böyük infrastrukturu yaradılmışdır. Elmi tədqiqat institutlarından, elmi potensialdan əlavə, güclü neftayırma sənayemiz var. Hazırda respublikada ildə 9 milyon ton neft çıxarılır, neftayırma zavodlarımızın gücü isə təxminən 23-25 milyon tondur. Azərbaycanda güclü neft kimyası və neft maşınqayırma kompleksləri var. Keçmiş Sovet İttifaqında buraxılan neft mədəni avadanlığının 70 faizə qədəri Azərbaycanın neft maşınqayırma zavodlarında istehsal olunurdu.

Təbii ki, indi Azərbaycanda çıxarılacaq neftin respublikadan kənara, xüsusən Qərb ölkələrinə aparılması məsələsi gündəlikdə durur. Konsorsiumun əsas iştirakçıları da Qərbin neft şirkətləridir. Neft müqaviləsində nəzərdə tutulan yataqlardan əlavə, Xəzər dənizinin Azərbaycana aid hissəsində çox perspektivli başqa yataqlar da var. Həmin yataqların neft və qaz ehtiyatları müəyyənləşdirilmişdir. Hazırda biz bu yataqların işlənilməsi barədə xarici neft şirkətləri ilə danışıqlar aparırıq. Şübhəsiz, həmin yataqlar xarici kapitalı cəlb etməklə, xarici şirkətlərlə birlikdə, xarici maliyyə təşkilatlarının iştirakı ilə [156-157] işlənilə bilər. Biz buna ümid bəsləyirik. Müvafiq sazişlər bağlamaq üçün həmin yataqlar yaxın vaxtlarda tender əsasında təqdim olunacaqdır.

Mühüm məsələlərdən biri də çıxarılan neftin ixrac edilməsidir. İki ildən artıqdır ki, alim və mütəxəssislərimiz xarici şirkətlərlə, beynəlxalq bank təşkilatları ilə birgə neft kəmərinin keçdiyi marşrutun bir neçə variantını hazırlamışlar, indi bunun üzərində durmaq istəmirəm. Hər halda biz bu variantları bir də nəzərdən keçirməyi, neft kəmərinin marşrutunun ən məqsədəuyğun variantını müəyyənləşdirməyi zəruri sayırıq. Eyni zamanda biz bunu əsas tuturuq ki, bu halda neft kəmərinin iqtisadi cəhətdən sərfəliliyi uzunmüddətli istifadə baxımından təhlükəsizliyin möhkəmliyi, həmçinin təbii ki, kəmərin marşrutu üzərində olan dövlətlərlə münasibətlər əsas götürülməlidir. Bununla əlaqədar Qazaxıstan neftinin də Xəzər dənizi və Azərbaycan, İran, Türkiyə və başqa ölkələrin ərazisi vasitəsilə Cənuba daşınmasının mümkünlüyü barədə cənab Nursultan

Nazarbayevin fikrinə tamamilə şərikəm. Biz bu məsələ ilə bağlı müvafiq söhbətlər, danışıqlar aparmışıq və zənnimcə, bunlar gələcəkdə də davam etdiriləcəkdir.

Bir sözlə, zəngin neft və qaz yataqları, digər təbii sərvətləri olan Azərbaycan müasir dünyanın istifadə etdiyi prinsiplər əsasında xarici investisiyalar, xarici şirkətlərlə əməkdaşlıq üçün, dünya üçün açıqdır.

Diqqətinizə görə təşəkkür edirəm. [157]

**GÖRKƏMLİ AZƏRBAYCAN BƏSTƏKARI ARİF MƏLİKOVUN MÜƏLLİF GECƏSİNDƏ ÇIXIŞ**

*Rüstəm Mustafayev adına*
*Azərbaycan Dövlət İncəsənət Muzeyi*

*5 fevral 1995-ci il*

Hörmətli Arif Məlikov, bu gün bizə təqdim etdiyin çox gözəl maraqlı əsərlərə görə səni ürəkdən təbrik edir, sənə cansağlığı və gələcək yaradıcılığında uğurlar diləyirəm.

Son illər respublikamızın, xalqımızın həyatında ağır dövrdür. Ancaq çətinlik içində keçən bu dövrdə də mədəniyyətimiz, incəsənətimiz yaşayır, inkişaf edir, incəsənətimizi yaradan istedadlı, görkəmli şəxsiyyətlər Azərbaycan mədəniyyətini dünyaya nümayiş etdirirlər.

Bir azərbaycanlı kimi mən öz xalqımın nailiyyətləri ilə, – harada oluramsa-olum, – fəxr etmişəm. Xalqımızın incəsənət, mədəniyyət sahəsində nailiyyətləri Vətənini, millətini sevən hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Mən bununla daim fəxr etmişəm.

Arif Məlikov Azərbaycan mədəniyyətinin, incəsənətinin, musiqisinin ən görkəmli xadimlərindən, sənətkarlarındandır. Onun yaradıcılıq yolunun çox hissəsi mənim gözümün qarşısında keçib. Mən Arif Məlikovun yazdığı əsərləri həmişə yüksək qiymətləndirmişəm və onun sənətə bağlılığını, yaradıcılığı ilə yaşadığını, öz əsərləri ilə Azərbaycan incəsənətini, musiqisini zənginləşdirdiyini həmişə hiss etmişəm. Arif bu gün də bizi sevindirdi, bu gün də bizi öz istedadı, öz musiqisi ilə cəlb etdi, cəzb etdi. Mən bu uğurlu müəllif gecəsi münasibətilə səni bir daha ürəkdən təbrik edirəm.

Yüksək professional səviyyəli musiqi əsəri, sənət əsəri yazmaq, ortaya çıxarmaq, şübhəsiz ki, böyük istedad tələb edir. Arif Məlikov belə bir fitri istedada malik insandır. Bu fitri istedadı ilə yanaşı, öz sənətini sevməsi, sənətinə sadiq olması və fədakarcasına çalışması ona belə böyük əsərlər yaratmağa imkan verir.

Belə yüksək professional səviyyəli, mürəkkəb xarakterli[158-159] musiqi əsərlərini dinləyicilərə çatdırmaq onu yazmaqdan bəlkə də çətindir. Mən bu gün burada çox istedadlı ifaçılarımızı gördüm. Uzaqdan Bakıya gəlmiş Fövziyə xanım, burada Arif Məlikovun əsərlərini skripkada məharətlə ifa edən Rəsul Abbasov və nəhayət, bizim gənc azərbaycanlımız, həmvətənimiz Araz Elsəsin çıxışı mənim üçün böyük bir hadisədir. Şübhəsiz ki, mən incəsənət ustalarının tam əksəriyyətini şəxsən tanıyıram, onların əsərləri ilə tanışam. Ancaq bugünkü ifaçılarla ilk dəfədir ki, üzbəüz görüşürəm. Ona görə də mən onları da, bu gün Arif Məlikovun əsərlərini pianoda, royalda və başqa alətlərdə ifa edənləri də ürəkdən təbrik edirəm. Sağ olun.

Əlamətdar bir hadisədir ki, bugünkü müəllif gecəsi böyük bəstəkarımız, Azərbaycan xalqının fəxri, ölməz Qara Qarayevin anadan olduğu gündə keçirilir. Mənə elə gəlir, bəlkə bu axşam Qara Qarayevin anadan olması gününə həsr olunub. Mən Qara Qarayevin musiqisini böyük hörmət və ehtiramla yad edirəm.

Mən Qara Qarayevlə gənc yaşlarımızdan yoldaşlıq, dostluq etmişəm. Biz çox yaxın olmuşuq. Düzdür, sənətimiz bir-birindən tamamilə fərqlidir – o, bəstəkar, musiqiçi, incəsənət ustası idi, mən isə gənc yaşlarımdan siyasətlə məşğul olan adamam. Ancaq məlumdur ki, mən həmişə incəsənəti sevmişəm, hörmət etmişəm. Hələ gənc yaşlarımdan Qara Qarayevin sənətinin pərəstişkarı idim, onun ağlına, zəkasına hörmət edirdim. Sonralar mən Azərbaycana rəhbərlik edəndə Qara Qarayev respublika Bəstəkarlar İttifaqının sədri idi. Təkcə buna görə yox, böyük bir bəstəkar, sənətkar olduğuna görə mən onunla çox sıx əlaqədə olmuşam, yaradıcılığını həmişə izləmişəm. Onun yaradıcılığının daha geniş tanınması üçün əlimdən gələni etmişəm.

Bu gün biz Qara Qarayevin anadan olduğu günü qeyd edirik. Qara Qarayevin 60 illik yubileyi yaxşı xatirimdədir. Bu yubileyi bərabər keçirdik, mən orada böyük məmnuniyyətlə iştirak etdim. Bu gün böyük fəxrlə deyə bilərəm ki, mənim təklifimlə o vaxt Qara Qarayev Sovetlər İttifaqının ən yüksək mükafatı olan "Qızıl Ulduz"la təltif olundu. Biz Qara Qarayevin yubileyini Bakıda keçirdik. Sonra onun yubileyini Moskvada Dövlət Konservatoriyasının böyük salonunda keçirmək nəzərdə tutulmuşdu. Mən bundan ötrü xüsusi olaraq oraya getdim. Təəssüf ki, o axşam Qara Qarayevin səhhəti yubiley ge[159-160]cəsində iştirak etməyə imkan vermədi. Ancaq mən mərhum həyat yoldaşım Zərifə xanımla bərabər o gecədə iştirak etdim. Qara Qarayevin həyat yoldaşı Tatyana xanım və ailə üzvləri də orada idi. O vaxt Sovetlər İttifaqı mədəniyyətinin, incəsənətinin böyük xadimləri də orada iştirak edirdilər. SSRİ Bəstəkarlar İttifaqının sədri Tixon Xrennikov yubiley gecəsini giriş sözü ilə açdı. Mədəniyyət naziri Pyotr Demiçev və dövlət rəhbərləri də orada idi. Əlbəttə, bunlar xatirələrdir.

Təəssüflər olsun ki, biz Qara Qarayevi itirdik, o, dünyadan getdi. Mən dost kimi, onun sənətinə çox yüksək qiymət verən bir adam kimi, eyni zamanda respublikanın rəhbəri kimi Qara Qarayevin cənazəsini çiynimdə apardım. Mən adətən matəm mitinqlərində nitq söyləməmişdim. Ancaq Qara Qarayevin matəm mitinqində, onun qəbri yanında nitq söylədim. Ona rəhmət oxudum.

Bu ailəyə həmişə qayğı göstərmişəm. Mən Moskvada işləyəndə Tatyana xanımla telefonla əlaqə saxlamışam. Ancaq bilirsiniz ki, sonralar mən özüm "sürgünə" düşmüşdüm, özümə qayğı göstərmək lazım idi. Odur ki, əlaqələr kəsilmişdi.

Bunları ona görə deyirəm ki, bu gün Qara Qarayevin anadan olduğu gündür. Mən Moskvada işləyərkən bunu yüksək səviyyələrdə də demişəm, bir də qeyd etmək istəyirəm ki, Qara Qarayev müasir dünyanın ən dahi bəstəkarlarından biri idi. O vaxtlar biz hər şeyi Sovetlər İttifaqı miqyasında ölçürdük. Mənim aləmimdə o zaman Sovetlər İttifaqında Dmitri Şostakoviçdən sonra ikinci yerdə Qara Qarayev idi. Qara Qarayev Şostakoviçin tələbəsi idi. Yenə də deyirəm, bu, bizim üçün böyük iftixar mənbəyi idi.

Azərbaycanın musiqisi, xüsusən professional musiqisi böyük tarixə malikdir. Üzeyir Hacıbəyovun Azərbaycanda yaratdığı musiqi məktəbi elə bir məktəb olub ki, ondan sonra xalqımız dünyaya bir çox görkəmli bəstəkarlar, musiqiçilər, mədəniyyət xadimləri verib. Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Cövdət Hacıyev, Əfrasiyab Bədəlbəyli, başqaları və bu məktəbin yetişdirməsi olan görkəmli sənətkar Arif Məlikov.

Şübhəsiz ki, hərə öz janrında musiqi yazır. Arifin musiqisi professional musiqidir, klassik musiqidir. Azərbaycan klassik, professional musiqisi – bəstəkarlarımızın yaratdığı bu əsərlər Şərq aləmində demək olar ki, ilk professional, klassik musiqi nümunələridir və burada Azərbaycan birinci yerdədir. Bu [160-161] məktəbin baniləri dahi Üzeyir Hacıbəyov və Müslüm Maqomayev olublar.

O vaxtlar – 20-ci, 30-cu, hətta 40-cı illərdə Sovetlər İttifaqına daxil olan bəzi Şərq ölkələrində başqa millətdən olan böyük bəstəkarlar əsərlər yazırdılar. Böyük bəstəkar Qliyer də Azərbaycanda fəaliyyət göstərib, Azərbaycanın həyatına aid bir opera yazıb. Orta Asiya ölkələrində isə Qliyer və başqaları o xalqlar üçün professional musiqi. əsərləri yazıblar. Ancaq Azərbaycanda əsrimizin əvvəlində Üzeyir Hacıbəyovun yaratdığı musiqi məktəbi böyük bəstəkarlar yetişdirib. Bu məktəbin fəaliyyəti indi də davam edir. Gənc nəsil meydana çıxır, özünü göstərir. Ümidvaram ki, gələcəkdə yenə də böyük bəstəkarları öz aramızda görəcəyik. Bütün bunların içərisində Arif Məlikov həm əvvəllər, həm də bu gün xüsusi yer tutur.

Arifin yazdığı "Məhəbbət əfsanəsi" baleti bütün dünyanın professional opera və balet teatrlarında nümayiş etdirilir. Dünyanın hər yerini dolaşmış belə əsərlər azdır, nadir bir hadisədir.

İndicə Arif xatırlatdı. Gərək ki, 1986-cı ildə böyük bir tədbir var idi. O tədbirin sonunda Böyük Teatrın yeni mövsümünün açılışı münasibətilə Arif Məlikovun "Məhəbbət əfsanəsi" baleti Yuri Qriqoroviçin quruluşunda tamaşaya qoyulmuşdu. O vaxt Sovetlər İttifaqının rəhbərləri orada idi. Mən də o rəhbərlikdə idim. Nəhəng Sovetlər İttifaqının rəhbərlərindən bir qrupu, o cümlədən də mən Böyük Teatrın lojasında əyləşmişdik. Təsəvvür edin, mən nə qədər sevinirdim ki, Moskvada, Rusiyanın mərkəzində, zəngin tarixə malik olan Böyük Teatrın səhnəsində belə bir böyük tədbirdə, teatr mövsümünün açılışında Arif Məlikovun "Məhəbbət əfsanəsi" əsəri göstərilir. Mən orada həm sevinirdim, həm də həzz alırdım, həm də fəxr edirdim. Oturmuşduq yan-yana – dövlət rəhbərləri dəfələrlə mənə tərəf dönürdülər və məni təbrik edirdilər. Mən də sevincimi onlara bildirirdim. Nəhayət, tamaşa başa çatandan sonra Arif Məlikovu Yuri Qriqoroviçlə bərabər səhnəyə dəvət etdilər. Biz onları alqışladıq və mən onu təbrik etdim. Belə xatirələr çoxdur.

Arif görüşlərimiz barədə danışdı, amma çox maraqlı olan birini demədi. Mən incəsənət xadimlərinə, musiqiçilərə həmişə böyük diqqət yetirmişəm. Xatirimdədir, mən onlarla vaxtaşırı görüşüb danışarkən bir-biri ilə münasibətlərinin gər[161-162]gin olduğunu hiss edirdim və bunları aradan götürməyə çalışırdım. Biri yanıma gələndə deyirdim ki, filankəs də gəlmişdi, səni çox tərifləyirdi. Bu birisi gələndə deyirdim ki, o da mənim yanıma gəlmişdi, səni daha çox tərifləyirdi. Bilirsiniz ki, istedadlı adamlar həmişə qəribə olurlar. Onlar adi deyillər, adi olsalar, istedadlı ola bilməzlər. İstedadlı olanların hər birinin özünəməxsus xüsusiyyəti var. Mənim kimi siyasət adamı, respublikaya rəhbərlik edən adam gərək hərənin öz dilini bilsin, hərəni öz dili ilə dindirsin. Çalışsın ki, münasibətlər yaxşı olsun, mehriban olsun. Mən buna çalışırdım. Biz dəfələrlə yığışırdıq, otururduq, söhbət edirdik.

1973-cü ildə mən belə qərara gəldim ki, onları bazar günü Zuğulbada dəniz kənarındakı dövlət bağına dəvət edim, bir gün onlarla birlikdə olum. Dəvət etdim. Rəhmətlik Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Cahangir Cahangirov, Soltan Hacıbəyov xanımları ilə gəlmişdilər. Tofiq Quliyev, Arif Məlikov və başqaları da orada idilər. Biz bütün günü söhbət etdik, musiqidən danışdıq. Xatirimdədir, Tofiq Quliyevlə Niyazi pianoda çox gözəl çaldılar. Biz xeyli söhbət etdik. Hesab edirəm ki, bu, çox böyük bir görüş oldu. Bundan sonra münasibətlər xeyli düzəldi. Yaxşı əsərlər də meydana gəldi. Mən sizə deyə bilərəm ki, rəhmətlik Fikrət Əmirovun "Min bir gecə" baleti çox gözəl əsərdir və elə o dövrün bəhrəsidir. O cümlədən də Qara Qarayevin sonra yazdığı əsərlər.

Arif Məlikovla biz sonralar da görüşürdük. Onun həm də rəssam olduğunu mən 7-8 il bundan əvvəl bilirdim. Ancaq öz rəsm əsərlərini mənə göstərməmişdi. Bu yaxınlarda mənim yanımda olanda dedi ki, bu əsərləri sizə təqdim edəcəyəm. Mən indi baxdım, gördüm ki, təkcə musiqi sahəsində yox, bu sahədə də onun böyük istedadı var. Mən Arifi bu münasibətlə də təbrik edirəm.

Həyatın bu çətin, ağır dövründə musiqi bəstələmək və xüsusən simfonik əsərlər, professional, mürəkkəb əsər yaratmaq çox çətin məsələdir. Arif bunun öhdəsindən gəlir. Özünün dediyi kimi, az yatır, – bu yaramaz, – çox işləyir. Bu, xalqımız üçün lazımdır. Arif yeddinci simfoniyanı son vaxtlarda təqdim edib. Mənim böyük

dostum, professor İhsan Doğramaçı Azərbaycan musiqisinə çox qayğı göstərən bir insandır. O, Bilkənddə Arif Məlikovun yeddinci simfoniyasının ilk ifasının açılışı mərasimini apardı, özü də çox gözəl apardı. Mən onu təbrik etdim. İhsan  Doğramaçını mart ayında Azərbaycana dəvət [162-163] etmişəm, görüşəcəyik. Yəqin ki, Arif Məlikov o görüşdə də yeni bir əsər təqdim edər.

Arif Məlikov Azərbaycan üçün böyük milli sərvətdir. Mən bunu heç də şişirtmədən, tam qətiyyətlə deyirəm. Biz onu qorumalıyıq, ona qayğı göstərməliyik. Onun imkanları çoxdur. Arif bundan sonra da yaratmalıdır. Şübhəsiz ki, o da bu fikirlərlə, hisslərlə yaşayır. Bizim bugünkü görüşümüz, bu müəllif gecəsi şübhəsiz ki, ona daha çox ilham verəcək və o, yeni əsərlər yaradacaqdır.

Mən Arif Məlikov yaradıcılığının bu salona toplaşan pərəstişkarlarını da bu gecə münasibətilə təbrik edirəm. Hamınızı salamlayıram, hamınıza xoşbəxtlik arzulayıram. Arif, səni bir daha təbrik edirəm, sənə uğurlar arzulayıram. [163]

**RESPUBLİKANIN XALQ ARTİSTİ**
**POLAD BÜLBÜLOĞLUNA**

Hörmətli Polad Bülbüloğlu!

Sizi ömrünüzün yarıməsrlik yubileyi münasibətilə ürəkdən təbrik edir, Sizə cansağlığı, uzun ömür və xoşbəxtlik arzulayıram.

Azərbaycan incəsənətinin bu gün dünya şöhrəti qazanmasında Sizin layiqli payınız vardır.

Yaratdığınız müxtəlif janrlı musiqi əsərləri Sizin çoxşaxəli yaradıcılığınızı əks etdirir, müasir milli musiqi mədəniyyətimizi zənginləşdirir. Xalqımız Sizi el-el dolaşan şirin nəğmələrin müəllifi və bu mahnıların əvəzsiz ifaçısı kimi yüksək qiymətləndirir. Sizin Azərbaycan mədəniyyətində tutduğunuz görkəmli yer ölməz sənətkarımız Bülbülün həyat və yaradıcılıq mühiti ilə sıx bağlıdır. Ümidvaram ki, Siz dahi Bülbülün sənətinin ənənələrinə daim sadiq qalacaqsınız.

İnanıram ki, Sizin ictimai xadim kimi fəaliyyətiniz də müstəqil Azərbaycanın mədəni həyatında silinməz iz qoyacaqdır.

Sizi anadan olmağınızın 50 illiyi münasibətilə bir daha təbrik edir, Sizə yaradıcılıq yollarında yeni-yeni uğurlar diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*5 fevral 1995-ci il* [164]

## "AZƏRNEFTYAĞ" İSTEHSALAT BİRLİYİNDƏ ELOU-AVT-2 QURĞUSUNUN AÇILIŞINA HƏSR OLUNMUŞ MİTİNQDƏ ÇIXIŞ

*7 fevral 1995-ci il*

Hörmətli bacılar, qardaşlar!

Hörmətli qonaqlar!

Bu gün Azərbaycan Respublikasının və onun paytaxtı Bakı şəhərinin həyatında əlamətdar bir hadisə baş verir. Müasir tələblərə uyğun yeni böyük sənaye müəssisəsinin tikintisi başa çatıb və o, istismara buraxılır. Azərbaycanın sənaye potensialı yeni bir müəssisə ilə zənginləşir. Bu münasibətlə mən sizi və sizin simanızda bütün neftçiləri, emalçıları, neft sahəsində çalışanların hamısını və bütün vətəndaşlarımızı səmimi qəlbdən təbrik edirəm.

Bu sənaye müəssisəsi – neft məhsulları istehsal edən yeni ELOU-AVT-2 qurğusu Amerikanın "Petrofak" firmasının layihəsi ilə Koreyanın "Laki injinirinq" firması tərəfindən hazırlanmış, onların layihələri, texnologiyası əsasında yaranmışdır. Bu qurğunun tikilməsi, başa çatması Azərbaycan Respublikasının xarici ölkələrlə və xüsusən, sənaye sahəsində, texnologiya, texnika sahəsində inkişaf etmiş Koreya ilə münasibətlərinin parlaq təzahürüdür. Bu birgə işin nəticəsində Bakıda belə bir yeni sənaye müəssisəsinin meydana gəlməsi onu göstərir ki, müstəqil Azərbaycan Respublikası xarici ölkələrlə əməkdaşlıqda müvəffəqiyyətlər, nailiyyətlər əldə edir və bu yol bizim üçün açıqdır, biz bu yolla gedə bilərik.

Bu hadisə münasibətilə, ELOU-AVT-2 qurğusunun tikilib başa çatdırılması və istismara verilməsi münasibətilə mən Koreyanın "Laki injinirinq" firmasını, onun burada çalışan mütəxəssislərini, mühəndislərini və Koreyanın bizimlə əməkdaşlıq edən bütün vətəndaşlarını xüsusi təbrik edirəm, onlara öz adımdan, Azərbaycan dövləti adından təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Ancaq burada əsas işi görən Azərbaycanın mühəndisləri, mütəxəssisləri, fəhlələri, "Azərneftyağ" İstehsalat Birliyinin və "AzQUR" Səhmdar Şirkətinin kollektivləridir. Azərbaycan [165-166] Respublikası iqtisadiyyatının belə ağır böhran şəraitində olduğu bir dövrdə müasir səviyyədə, yüksək texnologiya səviyyəsində olan yeni bir müəssisənin yaradılması, şübhəsiz, çox böyük təqdirəlayiqdir və ona görə də mən bu qurğunun yaranmasında – onun inşasında, tikilməsində, qurulmasında, bu gün istismara verilməyə hazırlanmasında iştirak edən bütün həmvətənlərimizə, vətəndaşlarımıza – hamıya ürəkdən təşəkkür edirəm və sizi bu nailiyyətiniz münasibətilə təbrik edirəm.

Azərbaycan neft diyarıdır. Neft hasilatı və emalı Azərbaycan iqtisadiyyatının, sənayesinin əsas sahələrindən biridir. Ona görə də Azərbaycanda neft emalı ilə əlaqədar olan müasir tipli belə yeni sənaye müəssisələrinin yaranması təbii haldır. Bu, eyni zamanda Azərbaycanın iqtisadi potensialının inkişaf etdirildiyini, zənginləşdirildiyini nümayiş etdirir. Bizim indi toplaşdığımız yer dövri-qədimdən Bakının Qaraşəhəri adlandırılırdı. Vaxtilə – hələ XIX əsrin sonunda, XX əsrin əvvəlində Bakıda neft sənayesi geniş miqyasda inkişaf edərkən burada zavodlar tikilmişdi, həmin müəssisələrdə neft emal olunurdu. O vaxt texnologiya şübhəsiz ki, aşağı səviyyədə olduğuna görə neftin emalı zamanı havaya çoxlu qara toz buraxılırdı. Ona görə də bu yerə Qaraşəhər deyirdilər.

Biz bu Qaraşəhərdə daim yaşamışıq. Burada insanlar çalışıblar, fədakarlıq göstəriblər, vətənlərinə, xalqına xidmət ediblər. Ancaq bu gün böyük iftixar hissi ilə deyə bilərik ki, bu yer indi Qaraşəhər deyil. Bura güllər, çiçəklər şəhəridir. Bura yaşıllıqlar şəhəri, abadlıq şəhəridir. Bu da ondan irəli gəlir ki, vaxtilə – 70-ci illərdə biz Azərbaycan sənayesinin yenidən qurulması, tamamilə modernləşdirilməsi, müasirləşdirilməsi sahəsində çox işlər gördük. Bunların nəticəsində Qaraşəhərdə Bakının havasını korlayan, zibilləyən qurğular, zavodlar söküldü və onların yerində yeni texnologiyalı zavodlar tikildi. Nəinki zavodlar, həm də müasir tipli yaşayış binaları tikildi, bura zavod şəhərciyindən Bakının böyük yaşayış məntəqəsinə çevrildi. Artıq burada gözəl ağaclar da var, qızılgüllər də, çiçəklər də var.

Xatirimdədir, indi olduğumuz bu yer vaxtilə XXII partiya qurultayı adına neftayırma zavodu idi. Biz Xəzər dənizinin sahilindəyik. Mən buraya dəfələrlə gəlmişdim. Burada torpaq da, hava da qara idi. Dənizin sahilinə gedəndə suyun üzərində böyük bir qara örtük görünürdü. Bunlar hamısı o köhnə qurğuların havaya buraxdığı çirkli, zəhərli maddələrin nə[166-167]ticəsi idi. Biz bunların hamısını dağıtdıq. O vaxt bu yerdə həmin dövrə görə yeni texnologiyalı ELOU-AVT-6 qurğusu quruldu. İndi buraya toplaşanların bir çoxu o zaman orada işləyirdi, həmin qurğunun yaranmasında, inşasında iştirak edirdi. O qurğunun 1981-ci ildə tikilib başa çatdırılması, istismara verilməsi Azərbaycanın həyatında mühüm hadisə oldu. Bəli, altı milyon ton və ondan da çox neft məhsulları istehsal edə bilən yeni bir zavodun istismara verilməsi böyük bir hadisə idi. O vaxt da biz bura toplaşmışdıq, sevinirdik, bir-birimizi təbrik edirdik.

O vaxtdan on beş il keçib. Mən bu gün böyük məmnuniyyət hissi ilə deyə bilərəm ki, o zaman əsası qoyulmuş bu mükəmməl, böyük zavod indiyədək işləyir, fəaliyyət göstərir, Azərbaycanın iqtisadiyyatında böyük rol oynayır, xalqımızın iqtisadi həyatında öz görkəmli yerini tutubdur. Mən o vaxtdan burada işləyənlərin hamısına xüsusi minnətdaram. Ona görə ki, bu zavodu qoruyublar, saxlayıblar, dağıtmağa qoymayıblar və bu müəssisədən həm Azərbaycan Respublikası, həm xalqımız, həm də zavodun kollektivi üçün səmərəli istifadə ediblər.

Bilirsiniz ki, son illər sənayemizdə böhran vəziyyəti yaranıb. Böyük-böyük sənaye müəssisələri istehsal gücündə çalışmır, bəziləri hətta dayanıb, insanlar işsiz qalıb, vəziyyət ağırlaşıbdır. Neft hasilatı azaldığına görə mövcud qurğuların gücündən istifadə edə bilməməyinizə baxmayaraq, sizin zavod işləyir, fəaliyyətdədir, öz mövqeyini saxlayır. Bu, böyük hadisədir. Respublikamızda, keçmiş Sovetlər İttifaqının ərazisində yaranmış bu böhran vəziyyətində zavodun belə səviyyədə yaşaması çox əlamətdar hadisədir. Ancaq bundan sonra burada yeni bir qurğu qurulub, siz onu istifadəyə vermisiniz və işlədirsiniz. Nəhayət, bu gün zavodun içərisində demək olar ki, yeni bir zavod istismara verilir. Bu, elə bir dövrdə baş verir ki, başqa yerlərdə inşaat yox, dağılma gedir, böyük sənaye müəssisələrimiz lazımi səviyyədə işləmir. Burada isə yeni bir zavod istismara verilir. Bu, çox gözəl, diqqətəlayiq, təqdirəlayiq bir hadisədir. Mən buna görə sizi təbrik edirəm, sizə çox sağ ol deyirəm ki, bunu etmisiniz və bu işi axıra çatdırmısınız.

Şübhəsiz ki, neftçilərimiz, neftayırma zavodlarında çalışan mühəndislər, texniklər, mütəxəssislər, fəhlələr Azərbaycan neftçilərinin ənənələrinə sadiq qalıblar və həmin sədaqəti bu gün də davam etdirirlər. Mən burada bir faktı da qeyd etmək [167-168] istəyirəm. O vaxt biz ELOU-AVT-6 qurğusunu, əslində isə zavodu tikib qurtararkən gənc mühəndis Rəsul Quliyev bu zavoda başçılıq edirdi. Rəsul Quliyev o vaxtdan son zamanlara qədər bu zavoda, sonra birliyə rəhbərlik edib. Onun fəaliyyəti burada xüsusi qeyd olunmalıdır. Çünki məhz onun fəaliyyəti nəticəsində bu zavodun kollektivi də yaşayır, zavod da yaşayır. Hətta zavod öz daxili imkanlarından istifadə edərək yeni istehsal müəssisələri yaratmaq, genişlənmək imkanı əldə edib. Bundan əvvəl tikilmiş iki milyon tonluq qurğunun və bu qurğunun yaranması, xarici ölkələrlə iqtisadi əlaqələrin qurulması, xarici şirkətlərin buraya cəlb edilməsi şübhəsiz ki, Rəsul Quliyevin məharəti, bacarığı və fəaliyyəti nəticəsində mümkün olmuşdur. Biz 1981-ci ildə o zavodu istismara verdikdən sonra Rəsul Quliyevin oradakı fəaliyyətini də, buradakı fəaliyyətini də bu gün qiymətləndirirəm və sizin qarşınızda onun xidmətlərini xüsusi qeyd edirəm.

Bugünkü hadisənin Azərbaycanın indiki və gələcəyi üçün çox böyük əhəmiyyəti var. Bilirsiniz ki, biz artıq müstəqil bir dövlət kimi öz sərvətlərimizin, öz taleyimizin sahibiyik. Bunlara əsasən biz Azərbaycanın ən böyük sərvətlərindən biri olan neftdən istifadə məsələsini özümüz həll edirik. Sizə məlum olduğu kimi, keçən ilin sentyabrında Xəzər dənizinin Azərbaycan Respublikasına aid sektorundakı üç yatağın birgə işlənməsi və istismarı haqqında dünyanın böyük neft şirkətləri ilə müqavilə imzalamışıq. Bu müqavilə indi "Əsrin müqaviləsi" adlandırılır. Ona uyğun olaraq Azərbaycan 30 il müddətində müasir texnika və texnologiyalardan istifadə edərək, bu yataqlardan müştərək surətdə neft çıxaracaq və ölkəmizdə neft hasilatı ildən-ilə artacaqdır.

Şübhəsiz ki, çıxarılan neftin bir hissəsi xarici şirkətlər tərəfindən xaricə nəql ediləcəkdir. Amma bir hissəsi Azərbaycanın özündə qalacaqdır və onun dünya standartlarına müvafiq yüksək səviyyədə emal olunması və bu neftdən dünya standartlarına uyğun məhsullar alınması bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Ona görə də bu qurğunun yaradılması həmin iş üçün yol açır. Söz yox ki, biz bundan sonra da neftin emalı üçün yeni istehsal qurğuları yaratmalıyıq. Lakin bu qurğu imzaladığımız müqavilə nəticəsində istehsal ediləcək neft[168-169]dən yüksək keyfiyyətli məhsullar almaq üçün çox böyük əsas yaradır.

Burada hörmətli Fatma xanım çıxış etdi. O, zavodda uzun müddət ərzində fəaliyyət göstərən işçidir, necə deyərlər, müəssisənin veteranlarından biridir. Mən onun sözlərini çox məmnuniyyətlə qəbul etdim. Çox sevinirəm ki, zavodda belə adamlar işləyir, öz xidmətlərini göstərir, bu kollektivin möhkəmlənməsi üçün çalışmışdır və bu gün də çalışır. O dedi ki, bundan sonra da yüksək keyfiyyətli yağlar istehsal etmək mümkündür. Böyük təcrübəyə malik olan belə mütəxəssislər üçün, şübhəsiz, yeni texnologiya, yeni texnika, müvafiq istehsal imkanları da gərəkdir. Şübhə yoxdur ki, belə qurğu bizim mütəxəssislər üçün geniş meydan açır və biz bu imkanları gələcəkdə də genişləndirəcəyik. Əmin ola bilərsiniz ki, Azərbaycan neft sahəsində gələcəkdə yüksək səviyyələrə qalxacaqdır.

İmzaladığımız müqavilə, əlbəttə, dərhal nəticə verməyəcəkdir, – siz bunu bilməlisiniz. Müqavilə 30 il müddətində bağlanıbdır. O, Azərbaycanın bu günü üçün və gələcəyi üçündür, gələcək nəsillər üçündür. Buna baxmayaraq, biz həmin müqavilənin hər il bəhrəsini görəcəyik. Bu müqavilə Azərbaycanda neft hasilatını, neft məhsulları emalım ilbəil artıracaqdır, onların keyfiyyətini yüksəyə qaldıracaqdır. Bütün bunlar isə sizin, Azərbaycan xalqının, vətəndaşlarımızın rifah halını gündən-günə yaxşılaşdıracaqdır.

Bu gün vəziyyət ağırdır, çətindir. Bunu siz də bilirsiniz, biz də bilirik. Əlimizdən gələni edirik ki, vəziyyəti müəyyən qədər yüngülləşdirək. Ancaq nə etməli, bir tərəfdən, altı ildir müharibə gedir, ərazimizin 20 faizini erməni silahlı qüvvələri işğal edib, bir milyondan artıq vətəndaşımız qaçqın düşübdür. Torpaqlarımızı itirmişik, insanlar itirmişik, sevimli adamlarımızı, vətəndaşlarımızı, övladlarımızı itirmişik. Bütün bunlar Azərbaycana, iqtisadiyyatımıza böyük zərbələr vurubdur. Digər tərəfdən, respublikada gedən proseslər, keçmiş Sovet İttifaqında gedən proseslər iqtisadiyyatda, sənayedə gərgin vəziyyət, böhran vəziyyəti yaradıbdır.

Azərbaycanın sənayesi, bütün iqtisadiyyatı keçmiş Sovet İttifaqının müxtəlif respublikalarının sənayesi ilə, iqtisadiyyatı ilə sıx bağlı idi. İndi bu inteqrasiya əlaqələri, bu tellər qırılıbdır. Ona görə də sənaye müəssisələrimizin çoxunun işləmək imkanları azalıbdır. İstehsal azaldığından şübhəsiz ki, adamların dolanışığı da çətinləşibdir. [169-170]

Üçüncü tərəfdən, biz bir iqtisadi sistemdən başqa iqtisadi sistemə, bazar iqtisadiyyatına, yeni iqtisadi qurumlara keçirik. Mülkiyyət formaları dəyişir. Bunların da hamısı əzab-əziyyətli, çətin proseslərdir. Bu prosesləri keçmək bizim taleyimizə düşübdür. Ancaq bilin ki, biz bu çətin yollardan keçəcəyik. İşıqlı gələcəyə, – geniş yola çıxacağıq. Azərbaycan iqtisadiyyatı yüksək səviyyəyə qalxacaqdır. Amma ona gəlib çatmaq üçün biz bu əzab-əziyyətli yolu keçməliyik.

Ola bilər ki, kimsə bizimlə bu yolu axıradək gedə bilməsin. Ancaq biz yolumuzu davam etdirərək, xalqımızı irəli aparacağıq. Odur ki, indiki vəziyyəti dərk etmək lazımdır, buna dözmək gərəkdir. Amma eyni zamanda bu vəziyyətdə də imkanlarımızdan daha səmərəli istifadə etməliyik.

Vəziyyətimizi ağırlaşdıran dördüncü amil bundan ibarətdir ki, Şimal dəmir yolu altı aydan artıqdır bağlıdır. Çeçenistanda baş verən hadisələr nəticəsində nəinki dəmir yolu, avtomobil yolu, hətta Rusiya ilə sərhədlərimiz də tamamilə bağlanıbdır. Biz heç bir yükü nə o tərəfə apara bilirik, nə də bu tərəfə gətirə bilirik. Azərbaycan demək olar, blokada şəraitindədir. Buna nə edə bilərik? Bizdən heç nə asılı deyildir. Rusiya kimi böyük bir dövlət öz daxilindəki Çeçenistan kimi kiçik bir respublikada vəziyyətin öhdəsindən gələ bilmir, orada normal şərait yaratmağa müvəffəq olmur. Müharibə gedir, qan tökülür, insanlar qırılır. Bunun nəticəsində də iqtisadi vəziyyətimiz çox çətinləşibdir. Bütün bunlar respublikamızın iqtisadiyyatında yaranmış ağır vəziyyətin səbəbləridir.

Lakin bununla yanaşı, indiki şəraitdə də mövcud imkanlardan hərə öz sahəsində səmərəli istifadə etsə, biz çətinliklərin əksəriyyətinin öhdəsindən, şübhəsiz, gələ bilərik.

Əgər hər sahədə bir qrup adam belə təşəbbüskar olsaydı, onda biz çox şeyə nail olardıq. Bəziləri təşəbbüs göstərir, axtarıb-arayır, tapır və çətin vəziyyətdən də çıxır. Amma bizim bəzi müəssisə, təsərrüfat, fabrik və zavod rəhbərlərimiz, yaxud nazirlərimiz oturub elə hey fikirləşirlər ki, bu iş də çətindir, o iş də çətindir. Onlar ancaq başlarını girləyirlər. Nə gizlədəsən, beləlari də var. Bu da bizim həqiqətimizdir, həyatımızın reallığıdır. Mən bunu sizə açıq-aydın deyirəm.

Məsələn, dünən mən müdafiə nazirini vəzifəsindən azad edib, yeni müdafiə naziri təyin etdim. Nə üçün? Düzdür, 1993-cü ilin payızından bəri ordumuzda çox işlər görülüb. Lakin ordumuzda məqsədlərə istədiyimiz səviyyədə nail ola bilməmi[170-171]şik. Müdafiə nazirinə göstərdiyimiz etimadı o, tamamilə doğrultmadı. Buna görə də mən onu işdən azad etdim. Yaxud, təxminən ay yarım bundan qabaq Gömrük Komitəsinin sədri Tahir Əliyevi nəinki işdən azad etdik, həm də onu ciddi nöqsanlarına, buraxdığı çox ciddi səhvlərə görə tənbeh etdik. Tahir Əliyev ona göstərilən etimadı nəinki doğrultmayıb, həm də tapşırılan sahəni bərbad hala salmış, batırmışdır. Bəli, aramızda belə adamlar var, amma əslində bunlar olmamalıdır. Odur ki, biz belə adamlardan uzaqlaşırıq, onları vəzifələrindən çıxarırıq. Bununla yanaşı, biz birini cəzalandıranda, işdən çıxaranda, Bu, gərək o birilərinə ibrət olsun, onlar özləri üçün nəticə çıxarsınlar ki, necə işləmək lazımdır.

Mən bunu ona görə deyirəm ki, indi bizim iqtisadiyyatımızda, xüsusən sənayemizdə istifadə edilməmiş böyük imkanlar var. Mən bütün səbəbləri açıb göstərdim. Bunlar həqiqətdir. Amma bunlarla yanaşı, əgər istehsalçılarımız, müəssisə rəhbərləri, sənaye və ümumən iqtisadiyyat sahəsində işləyən yüksək vəzifəli adamlar təşəbbüskar olsalar, bu çətin vəziyyətdə lazımi yollar axtarıb tapa bilsələr, onda işimiz daha səmərəli olar. Ona görə də mən bu gün sizin qarşınızda və bütün Azərbaycan ictimaiyyəti qarşısında vəziyyəti açıq-aydın şəkildə deyirəm və eyni zamanda, təşəbbüs göstərməyən adamları bugünkü hadisədən ibrət götürüb təşəbbüskar olmağa dəvət edirəm. Mən belə hesab edirəm: iqtisadi potensialımız elədir ki, biz bu ağır vəziyyətdən də çıxa biləcəyik, gələcəkdə böyük nailiyyətlər də qazanacağıq. Amma biz gərək dözümlü olaq, bir-birimizə kömək edək, əl tutaq və daxili ictimai-siyasi vəziyyəti öz şəxsi məqsədləri naminə pozmaq istəyən adamlara cavab verək, onların qarşısını alaq. Həyatımızın ağır dövrüdür. Odur ki, bu dövrdə biz gərək bir-birimizə dayaq olaq, kömək edək, xalqımızı birləşdirək. Bu, bizim üçün əsas şərtlərdən biridir.

Burada mən yenə də Fatma xanımın sözlərinə istinad edirəm. O arzu etdi ki, Qarabağ məsələsi də həll olunsun, müharibə də qurtarsın. Bəli, mənim bir prezident kimi əsas məqsədlərimdən biri Azərbaycanı müharibə vəziyyətindən qurtarmaqdır. Altı ildən artıqdır ki, müharibə gedir. Fatma xanım dedi ki, biz böyük itkilər vermişik. Ancaq eyni zamanda, fevralın 12-də doqquz ay tamam olacaqdır ki, cəbhədə atəş yoxdur. Müvəqqəti atəşkəs haqqında Ermənistanla müqavilə bağlamışıq, biz bu atəşkəs rejiminə əməl edirik. Bu, asan məsələ deyil, altı il gedən müharibədə heç vaxt belə [171-172] uzunmüddətli sülh olmayıbdır. Heç qısamüddətli də sülh olmayıbdır. Doqquz aya yaxındır ki, şəhid yoxdur, qan tökülmür. Doğrudur, biz məsələni həll etməmişik, torpaqlarımız işğal altındadır, respublikanın ərazi bütövlüyü pozulubdur. Bununla bərabər bütün dünyaya nümayiş etdiririk ki, biz sülh tərəfdarıyıq, məsələləri sülh yolu ilə həll etmək istəyirik. Biz istəyirik ki, regionumuzda əmin-amanlıq olsun. Müharibənin gələcəyi yoxdur. Müharibə heç vaxt heç kəsə müsbət nəticə verməyibdir. Müharibəni biz başlamamışıq. Bizə qarşı hərbi təcavüz olubdur. Biz hərbi təcavüzə cavab vermişik. Ancaq təəssüf ki, bu altı il müddətində cavabımız layiqli olmayıbdır. Ona görə də təcavüzkarlar bizə

üstün gəliblər. Bunun nəticəsində də respublikamız belə vəziyyətə düşmüşdür. Bilin ki, atəşi dayandırmaq, doqquz ay müddətində sülh şəraitində yaşamaq üçün biz çox işlər görmüşük. Beynəlxalq təşkilatların imkanlarından istifadə etmişik, onlarla nə qədər danışıqlar aparmışıq, bu məsələləri onlarla nə qədər müzakirə etmişik, Birləşmiş Millətlər Təşkilatına, ATƏT-ə, onların rəhbərlərinə, dünyanın böyük ölkələrinin rəhbərlərinə, ABŞ prezidentinə, Rusiya prezidentinə, İngiltərənin baş nazirinə, Fransa prezidentinə, Türkiyə prezidentinə və digər böyük adamlara müraciət etmişik. Onların hamısı Azərbaycanın bu məsələsinə qarışıblar. Bütün bunların nəticəsində biz bu sülhü əldə etmişik. İndi çalışırıq ki, bu sülh daimi olsun. Dünən Moskvada bu barədə yeni danışıqlar başlanıbdır. Keçən ilin dekabrında Budapeştdə Azərbaycan üçün çox əhəmiyyətli bir qərar qəbul olunubdur ki, Azərbaycanda sülh yaratmaq üçün, ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün çoxmillətli, beynəlxalq sülhü mühafizə qüvvələri yaradılsın və bunun vasitəsilə uzunmüddətli sülh müqaviləsi imzalansın.

İndi biz bu yolla gedirik və məhz bu yolla da gedəcəyik. Çalışacağıq ki, müharibə bir daha baş verməsin, daha qan tökülməsin. Amma bir şərtlə, bu da ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi təmin edilməli, işğal olunmuş torpaqlarımızın hamısı geri qaytarılmalıdır, qaçqın düşən vətəndaşlarımız öz yerlərinə dönməlidirlər, o cümlədən, bizim üçün müqəddəs olan Şuşa şəhəri, habelə Laçın rayonu geri qaytarılmalıdır. Bir sözlə, bütün rayonlarımız geri qaytarılmalı və bütün qaçqın vətəndaşlarımız oraya getməlidirlər. Bax, bu sahədə də işlər vaxtımızı alır. Bilin ki, bunlar fəaliyyətimizin daim mərkəzində duran məsələlərdir. [172-173]

Burada Larisa Kondraşova çıxış etdi. Hörmətli Larisa Kondraşova, mən sizin çıxışınızı da böyük diqqətlə dinlədim. Şadam ki, Azərbaycanda beynəlmiləl ənənələr qorunub saxlanmışdır. On illər, yüz illər ərzində təşəkkül tapmış nə varsa, hamısını qoruyub saxlamaq üçün hər şey edirik. Siz burada çalışmısınız, bu gün də çalışırsınız. Özü də tək siz yox, bizdə olan çoxsaylı bütün rusdilli əhali də. Biz hər şey etmişik və edəcəyik ki, milliyyətindən, dilindən və dini etiqadından asılı olmayaraq, Azərbaycanın hər bir vətəndaşı ölkəmizin bərabərhüquqlu vətəndaşı olsun, respublikamızın bütün nemətlərindən istifadə etsin. Elə siz özünüz də bu sahədə bizim bütün tədbirlərimizi görürsünüz. Buna görə də siz və sizin simanızda Azərbaycanın bütün rusdilli əhalisi əmin ola bilərsiniz ki, biz bu ənənələri qoruyacaq, artıracaq və möhkəmləndirəcəyik.

O ki qaldı Rusiya ilə münasibətlərimizə, biz iki yüz il birlikdə yaşamışıq. Odur ki, Azərbaycan Respublikası öz müstəqilliyini və suverenliyini qoruyub saxlayaraq çalışır və çalışacaqdır ki, Rusiya ilə Azərbaycan arasında, rus xalqı ilə Azərbaycan xalqı arasında dostluq münasibətləri inkişaf etsin və möhkəmlənsin. Mən bunun üçün hər şey edirəm. Rusiya rəhbərliyi ilə, o cümlədən də Rusiya prezidenti Boris Yeltsinlə, baş nazir Viktor Çernomırdinlə və digər rəhbərlərlə mənim yaxşı əlaqələrim və qarşılıqlı münasibətlərim var. Biz bunu həm onların tərəfindən, həm də öz tərəfimizdən, əvvəla, ölkələrimizin, xalqlarımızın mənafeləri naminə, digər tərəfdən isə on illər, yüz illər ərzində həqiqətən yaranmış olan nə varsa, hamısının saxlanması və möhkəmlənməsi naminə edirik. Buna görə də siz və rusdilli əhalinin hamısı burada özünüzü tamamilə azad və arxayın, bərabər hüquqlu hiss edə bilərsiniz.

Düzdür, indi sərhədi bağlamışlar və bu, qohum-əqrəba, tanışlar ilə ünsiyyət saxlamaq imkanını bir az çətinləşdirmişdir. Mən belə düşünürəm ki, bu, müvəqqəti haldır. Biz bu maneələrin aradan qaldırılması üçün bütün tədbirləri görəcəyik. Hər halda Azərbaycan neftçilərinin kollektivi, ümumiyyətlə, bütün Azərbaycan cəmiyyəti həmişə beynəlmiləl, çoxmillətli olmuşdur. Bu, bizim şərəfimizdir, biz bu ənənəni saxlayırıq və sax[173-174]layacaq, möhkəmləndirəcəyik. Mən sizin çıxışınızı dinləməyə şadam. Şadam ki, siz Azərbaycan xalqına, respublikamıza belə hörmətlə yanaşırsınız. Sağ olun.

Hörmətli bacılar və qardaşlar! Bir daha deyirəm ki, bugünkü hadisə əlamətdar hadisədir. Həyatımızın bu ağır dövründə onun çox böyük əhəmiyyəti var. Belə hadisələr onu göstərir ki, Azərbaycan xalqının imkanları böyükdür, Azərbaycan Respublikasının imkanları genişdir. Məqsədimiz və vəzifəmiz də ondan ibarət olmalıdır ki, bu imkanlardan səmərəli istifadə edək. Cəmiyyətimizdə buna mane olmaq, aranı qarışdırmaq istəyən adamlar da var, gördüyümüz bu işlərə ləkə yaxmaq istəyən adamlar da var. Amma mən əminəm ki, onlar respublikamızın, xalqımızın ümummilli həmrəyliyinə, vətəndaş həmrəyliyinə, dostluğuna və qardaşlığına heç bir xələl gətirə bilməzlər. Onlar xırda-xuruş işlər görürlər. Lakin bilməlidirlər ki, onların əməlləri öz şəxsi məqsədləri üçün heç bir nəticə verməyəcəkdir. Bunlar o adamlardır ki, dövlət çevrilişi etmək istəyirdilər. Onlar aradan çıxıb qaçdılar. Bəziləri həbs olunub, ədalət məhkəməsi qarşısında cavab verəcəklər. Bunlar o adamlardır ki, vəzifə davası, hakimiyyət davası edirlər, heç bir şeyə qadir olmadan, heç bir imkanları olmadan gəlib Azərbaycan xalqmı yeni bəlalara salmaq istəyirlər. Onlar da heç nəyə nail ola bilməyəcəklər.

Şübhəsiz ki, biz azad və demokratik cəmiyyətdə yaşayırıq. Azərbaycanda demokratik prinsiplərin hamısı bərqərar olubdur, hər bir insana azadlıq verilibdir, adamlar öz sözlərini açıq-aydın deyə bilər, öz istəklərini deyə bilərlər. Söz azadlığı, din azadlığı, vicdan azadlığı, mətbuat azadlığı – bu azadlıqların hamısı Azərbaycanda var. Bu, hamıya verilib, bunun üçün hamıya şərait yaradılıbdır. Lakin bunların hamısından mədəni, səviyyəli şəkildə, həm də Azərbaycan xalqını indiki ağır vəziyyətdən çıxarmaq üçün istifadə etmək lazımdır. Amma o şəxslər ki, aranı qarışdırmaq, işlərimizə mane olmaq istəyirlər, onlar heç nəyə nail ola bilməyəcəklər. Bu gün buraya toplaşan adamlar onlara imkan verməyəcəklər. Bizim qanunlarımız onlara imkan verməyəcəkdir. [174-175]

Siz çıxışlarınızda dediniz ki, prezident kimi mənim xarici və daxili siyasətimi bəyənirsiniz. Çox sağ olun! Dediniz ki, siz məni dəstəkləyirsiniz, mənə dayaqsınız. Çox sağ olun! Onu bilin ki, mən də sizə dayağam, sizin arxanızda durmuşam və həmişə sizinləyəm, həmişə xalqlayam, həmişə sizin mənafeyinizin keşiyində durmuşam. Mən ancaq və ancaq bu məqsədə, bu vəzifəyə xidmət edirəm. Bundan sonra da xalqıma, Vətənimə, sizə sadiq olacaq və bu yolla gedəcəyəm. Siz buna tam əmin ola bilərsiniz.

Sizi bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı arzulayır və əmin olduğumu bildirmək istəyirəm ki, bu yeni sənaye müəssisəsi uğurla işləyəcək, Azərbaycan iqtisadiyyatına günüdən-günə fayda gətirəcəkdir. Sağ olun. [175]

## İRAN İSLAM İNQİLABININ 16-cı İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ İRAN İSLAM RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRLİNİN TƏŞKİL ETDİYİ MƏRASİMDƏ ÇIXIŞ

*"Gülüstan" Sarayı*

*10 fevral 1995-ci il*

Sizi, İran İslam Respublikasının bütün vətəndaşlarını İslam inqilabının 16-cı ildönümü münasibətilə ürəkdən təbrik edirəm. Sizə, İran xalqına xoşbəxtlik səadət arzulayıram. İslam inqilabı qədim tarixə malik olan İran dövlətinin, bu ölkənin xalqının həyatında böyük dəyişikliklər əmələ gətirmiş tarixi, əlamətdar bir hadisədir. Biz Azərbaycanda bu hadisələri daim izləmişik və İran İslam Cümhuriyyətinin əldə etdiyi nailiyyətlərə həmişə sevinmişik.

İran İslam Respublikası Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmuşdur. İran ilə Azərbaycan arasın-da yaranan əlaqələr indi artıq təkcə dövlətlərimiz arasındakı əlaqələr deyil, həm də o tayda, bu tayda yaşayan minlərlə insanın şəxsi əlaqələridir.

İndi ramazan ayıdır, bu münasibətlə də sizi və İran İslam Respublikasındakı bütün qardaş və bacılarımızı, İran vətəndaşlarını təbrik edirəm.

İran İslam İnqilabının 16-cı ildönümü münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik diləyirəm. İran xalqına qarşıya qoyulan məqsədlərin hamısının həyata keçirilməsini arzulayıram. Arzu edirəm ki, bizim qonşu, dost pərlər İran İslam Respublikası günü-gündən inkişaf etsin, möhkəmlənsin, dünya birliyində özünün layiqli yerini tutsun. [176]

## TƏHSİL İŞÇİLƏRİNİN BİR QRUPU İLƏ GÖRÜŞDƏ GİRİŞ VƏ YEKUN SÖZÜ

*Prezident sarayı*

*12 fevral 1995-ci il*

Azərbaycan müəllimlərinin ayrı-ayrı dəstələri və Müəllimlər Şurası bir neçə dəfə mənə müraciət edib mənimlə görüşmək istədiklərini bildirmişlər. Mən də həmişə müəllimlərlə görüşmək istəmişəm. Yadınızda olar, bir dəfə müəllimlərlə, xüsusən bizim müəllimlər ordusunun əsasını təşkil edən orta məktəb müəllimləri ilə böyük bir görüş keçirdik. Mən o vaxt da təhsilimizə, müəllimlərimizə dövlətin münasibətini, o cümlədən öz münasibətimi bildirdim və cəmiyyətimizin bu hissəsinin Azərbaycan üçün, dövlətimiz üçün nə dərəcədə gərəkli və əhəmiyyətli olduğunu söylədim.

Son vaxtlar mənə gələn xahişlərə əsaslanaraq, bu gün mən müəllimlərin bir qrupu ilə görüş təşkil etmişəm. Budur, siz indi bu görüşə toplaşmısınız. Hamınızı və sizin simanızda bütün Azərbaycan müəllimlərini salamlayıram, təhsil sahəsində çalışanların hamısına hörmət və ehtiramımı bildirirəm.

İndi Azərbaycanın həyatında çox ağır və çətin problemlər var. Onlardan biri də təhsil sahəsində yaranmış mürəkkəb vəziyyətdir. Biz bu problemləri həll etməyə çalışırıq. Ancaq müəyyən obyektiv, bəzən də subyektiv səbəblərə görə onların həlli ləng gedir, həll edildikdə də istənilən səviyyədə olmur. Eyni zamanda hər bir məsələni həll etmək üçün məsləhət də, fikir mübadiləsi də lazımdır. Bunları nəzərə alaraq sizinlə görüşə gəlmişəm və istərdim ki, əvvəlcə sizi dinləyim, fikirlərinizi öyrənim. Hərçənd fikirlərinizin bir çoxu məlumdur, onlar bizim məsul şəxslər tərəfindən mənə çatdırılıb. Onlar elə sizin müraciətinizdə də qeyd edilir. Lakin indi biz canlı söhbət aparırıq. Ona görə də mən istərdim görüm, sizin bu arzularınız, fikirləriniz nədən ibarətdir.

### YEKUN SÖZÜ

Mən müəllimlərlə görüşməyimdən çox məmnun olduğumu bildirmək istəyirəm. Hər bir cəmiyyətdə savadlı şəxs müəllimə [177-178] hörmət etməli, cəmiyyətin həyatında müəllimin oynadığı rolu daim qiymətləndirməlidir. Mən müəllimlərə böyük hörmət və ehtiramımı həyatımda dəfələrlə bildirmişəm. Orta məktəbdə mənə dərs deyən, uşaq vaxtlarımdan, gənclik çağlarımdan məni tərbiyə edən müəllimləri heç vaxt unutmamışam, həmişə onlara minnətdarlığımı bildirmişəm.

Mən bunu həm cəmiyyətdə müəllimlərə hörməti daha da artırmaq üçün, həm də böyük bir həyat yolu keçmiş insan kimi, müəllimin cəmiyyətdə nə qədər mühüm rol oynadığını qeyd etmək üçün deyirəm. Əgər müəllim olmasa, heç birimiz cəmiyyətdə indi tutduğumuz yeri tuta bilməzdik və bugünkü kimi fəaliyyət göstərə bilməzdik. Orta məktəbdə mənə dərs demiş müəllimləri bu gün də xatırlayıram.

1990-cı ildə həyat, tale başıma bir çox bəlalar gətirdiyinə görə mən doğulduğum, gənclik çağlarını keçirdiyim Naxçıvan şəhərinə getməyə məcbur oldum. Oraya gəldikdə Naxçıvan Muxtar Respublikasının bütün əhalisi məni çox hərarətlə, hörmətlə qarşıladı. Mən elə ilk günlərdən müəllimlərimi axtarmağa başladım, onların harada olması ilə maraqlanır, onları soruşurdum. Düzdür, aradan çox vaxt keçmişdi. Mən Naxçıvanda orta məktəbi 1939-cu ildə bitirmişəm. Gördüyünüz kimi, nə qədər vaxt keçib. Çox sevinirdim ki, mənə dərs deyən müəllimlərin bir qismi hələ yaşayır, dünyasını dəyişməyibdir. O dövrdə orada mənim çox görüşlərim oldu. Lakın mənim üçün ən əhəmiyyətli, ən dəyərli görüşlər müəllimlərlə, mənə dərs deyən adamlarla olan görüşlərim idi.

Şübhəsiz ki, illər keçir, zaman gündən-günə dəyişir. Dünyada heç kəs daimi deyildir. Ancaq mən dünyasını dəyişmiş olan müəllimlərimi də ehtiramla yad edirəm, bu gün yaşayanları da çox böyük hörmətlə xatırlayıram. O vaxtlar, yəni 1990-cı ildə çox böyük təzyiq altında idim. Vaxtilə mənimlə çiyin-çiyinə işləmiş adamlardan bir çoxu da mənimlə görüşməkdən çəkinirdi. Lakin sevib hörmət bəslədiyim müəllimlər mənə olan ehtiramlarını saxlamışdılar. Odur ki, gəlib mənimlə görüşürdülər, biz saatlarla söhbət edirdik. Hətta xatirimdədir ki, Bakıda yaşayan, mənim çox istədiyim, mənə yaxşı dərs demiş müəllimlərdən biri – Tofiq Bəktaşi, o vaxtlar səhhəti o qədər yaxşı olmasa da, məhz mənimlə görüşmək üçün Naxçıvana gəldi. Mən onun gəlişinə çox sevindim. Bir müddət bundan əvvəl o da dünyasını dəyişdi. Tofiq müəllimin mənimlə görüşə gəlməsi faktı nəyi göstərir? Bu fakt həm tələbənin müəllimə, həm də [178-179] müəllimin dərs dediyi adamlara bağlılığına dəlalətdir. Mən bunu öz həyatımda, təcrübəmdə görmüşəm.

Bu gün mən burada Sona xanımı görəndə çox sevindim. Mən 1969-cu ildə Azərbaycana rəhbərliyə başladığım vaxtdan biz Sona xanımla maarif işində daim əməkdaşlıq etmişik. O, Azərbaycanın ən nümunəvi məktəblərindən olan 190 nömrəli məktəbin direktoru idi, mən isə respublikanın rəhbəri idim. Müəllimlərlə daim təmasda olurdum. Müəllimlərin qurultaylarında, toplantılarında iştirak edirdim. Sona xanım da qabaqcıl bir müəllim kimi, hörmətli, təcrübəli müəllim kimi, məktəb direktoru kimi həmişə bizim toplantılarda olurdu,

dövlət tədbirlərində iştirak edirdi. Onun dəfələrlə dövlətin ən yüksək ordenləri ilə təltif edildiyi xatirimdədir. Fəxr edirdim ki, Sona xanım kimi müəllim var. Mən burada yenidən işə başlayanda da Sona xanımı soruşdum. Dedilər ki, öz işini davam etdirir. Lakin bu gün Sona xanımı burada görəndə daha çox sevindim. Ona görə sevindim ki, Sona xanım öz işindədir, məktəbi indi ağır vəziyyətdə olsa da, fəaliyyətini davam etdirir. Sona xanımın rəhbərliyi altında minlərlə adam təhsil və tərbiyə alıb, hazırda onlar ölkəmizdə və onun hüdudlarından kənarda müxtəlif sahələrdə işləyirlər. Bunların hamısı müəllimin xidmətidir. Mən Sona xanımın xidmətindən danışarkən ümumiyyətlə, müəllimin xidmətini nəzərdə tuturam.

Bilirsiniz ki, 1982-ci ilin sonundan Moskvada işləyirdim, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Sov. İKP MK Siyasi Bürosunun üzvü idim. O vaxtlar mən təhsil sahəsinə – həm Maarif Nazirliyinə, həm də Ali və Orta İxtisas Təhsili Nazirliyinə rəhbərlik edirdim. Ona görə də bu məsələ ilə çox yaxından məşğul olurdum. O zaman Sovet İttifaqında, bir dövlətin tərkibində idik. Biz tariximizi heç vaxt unutmamalıyıq və tariximizə də heç vaxt xor baxmamalıyıq. Tarix tarixdir, həyat isə həyatdır. Sona xanım həyatını Azərbaycanın təhsilinə həsr edib və Azərbaycan məktəbinə xidmət edibdir. Fərqi yoxdur ki, bu, Sovet İttifaqında olubdur, yoxsa indi müstəqil Azərbaycan dövlətində baş verir. Müəllim müəllim olaraq qalır. O vaxtlar da Sovet İttifaqında məktəb işinə çox fikir verilirdi. Biz 1983-cü ildən başlayaraq məktəb islahatı hazırladıq. Bu, o zaman işləyən müəllimlərin yadındadır. Mən bütün Sovet İttifaqı üzrə məktəb islahatını hazırlayan komissiyanın sədri idim. [179-180]

Sovet İttifaqının bütün respublikalarının ən tanınmış müəllimləri, alimləri, elmi-tədqiqat pedaqogika institutlarının nümayəndələri ilə, akademiklərlə dəfələrlə görüşüb məsləhətləşirdim. İstəyirdim ki, islahatı elə keçirək ki, məktəb daha yaxşı təhsil versin.

Bu gün çox böyük iftixar hissi ilə deyə bilərəm ki, o vaxtlar Sovet İttifaqı kimi böyük bir dövlətin maarif, təhsil sahəsində islahatlarının hazırlanmasına və həyata keçirilməsinə rəhbərlik edirdim. Mən həmin islahat haqqında, qəbul olunmuş qərarlar barədə Ali Sovetin sessiyasında məruzə etmişdim. Bunlar bizim o dövrdə işləyən müəllimlərin xatirindədir. Demək istəyirəm ki, məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam. İndi burada bir məktəb direktoru xatırlatdı ki, 1971-ci ildə mən onların məktəbinin açılışında iştirak etmişəm. Belə hallar bir deyil, on deyil, yüzlərlədir. Özü də təkcə Azərbaycanda yox. Moskvada işlədiyim dövrdə başqa respublikaların – indi müstəqil dövlətlər olan ölkələrin ərazisində, Rusiya ərazisində bu işlərlə məşğul olmuşam. Ona görə də məktəb işi, müəllimlik sənəti mənim üçün ən doğma işdir. Müəllimlik sənətini, müəllimin işini, zəhmətini həmişə yüksək qiymətləndirmişəm. Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir. 25 il bundan öncə Azərbaycana rəhbər seçiləndə də bu mövqedə olmuşam, indi müstəqil Azərbaycanın dövlət başçısı kimi də bu mövqedəyəm. Mən həyatımın bütün mərhələlərində məhz belə mövqedə durmuşam. Mən sizinlə söhbəti də bu mövqedən aparıram. Öz mövqeyimə sadiq qalaraq bu gün sizi görüşə dəvət etmişəm. Sizin dərd-sərinizi, vəziyyətinizi öyrənmək istəyirəm.

Burada çıxış edənlər də dedilər, mən də bir daha qeyd etmək istəyirəm ki, indi Azərbaycanın sosial-iqtisadi vəziyyəti həddindən artıq ağırdır, gərgindir. Özü də tək Azərbaycanın yox, bütün keçmiş sovet respublikalarının, indi müstəqil dövlətlər olan ölkələrin də sosial-iqtisadi vəziyyəti çox ağır, çox gərgindir. Şübhəsiz ki, müəyyən fərqlər var. Birində, ola bilər, bir az yaxşıdır, digərində pisdir. Məsələn, demək olmaz ki, biz hamısından pis vəziyyətdəyik. Yaxud da vəziyyətimiz hamısından yaxşıdır. Yox, belə deyildir.

Mən iki-üç gün bundan qabaq, fevralın 9-da Almatıya get[180-181]mişdim. Ayın 9-10-da orada oldum. Almatıda MDB-nin dövlət başçılarının görüşü keçirilirdi. Orada mən söhbətlər zamanı bu məsələlərlə də maraqlanırdım. Almatıda nəşr olunan qəzetlərin birində Qazaxıstan prezidenti Nursultan Nazarbayevin çıxışını oxudum. O, bu fikirlərini sonra mənimlə görüşəndə də dedi. Müəllimlərin məvacibi az, iqtisadi vəziyyəti çətindir. Bu, qəzetdə prezidentin çıxışında yazılıb. Qazaxıstan kimi bir ölkədə müəllimlər üç aydır ki, maaş almırlar. Sonra mən onunla təkbətək söhbət edərkən bir çox məsələlərlə yanaşı, bu məsələni də soruşdum. Dedi ki, axtarıram, görüm haradan vəsait tapa biləcəyəm. Halbuki onların imkanları böyükdür. Qazaxıstan böyük bir respublikadır, çoxlu neft çıxarır, təbii qazı var, qızıl, gümüş, mis, daş kömür istehsal edir. Müharibə aparmır, işğal edilmiş torpaqları, qaçqınları yoxdur. Sözümün canı budur ki, iqtisadi imkanları bizimkinə nisbətən həddindən artıq çoxdur. Amma buna baxmayaraq, Qazaxıstan prezidenti deyir ki, böyük çətinliklər içərisindəyik, müəllimlərin məvacibini artırmaq üçün vəsait axtarıram. Çünki onların vəziyyəti çox ağırdır. Dedim, qəzetdə oxudum ki, müəllimləriniz üç aydır məvacib almırlar. Dedi ki, bəli, bu da həqiqətdir.

Əlbəttə, bunu mən özümə təskinlik saymıram. Ümumiyyətlə, əgər 70-ci illəri xatırlasanız, deməliyəm ki, respublika həmin respublikadır, müəllimlər həmin müəllimlərdir, məktəblər də həmin məktəblərdir. İndi tale elə gətirib ki, respublikaya o vaxt rəhbərlik edən də, bu gün rəhbərlik edən də Heydər Əliyevdir. O vaxta nisbətən Heydər Əliyev də çox mərhələlərdən, çox çətinliklərdən keçibdir. Elə təcrübəsi də qat-qat artıbdır. İndi necə olur ki, məsələn, 70-ci illərdə müəllimlərin bu cür problemləri yox idi, məvaciblərini də alırdılar. Ləvazimat da vardı, dəftər-qələm də, dərslik də, nə bilim, mebel də vardı. Məktəblərdə yemək də verilirdi, uşaq bağçaları da yaxşı idi. Amma indi bunlar yoxdur. Sizin də əksəriyyətiniz həmin adamlardır. Azərbaycan da həmin Azərbaycandır, rəhbəriniz də həmin Heydər Əliyevdir. Deməli, bunun başqa səbəbi var. Səbəb də bax, bu son

altı-yeddi ildə gedən proseslərlə bağlıdır. Bu proseslər keçmiş Sovet İttifaqının hər yerinə, o cümlədən də Azərbaycana öz təsirini göstəribdir. Ona görə də biz bu məsələlərdən çıxış yolu axtarmalıyıq.

Şübhəsiz ki, müəllimlərin maddi vəziyyətini yaxşılaşdırmaq lazımdır. Buna söz ola bilməz. Tələbələrə yardım etmək gərəkdir. Buna da söz ola bilməz. Amma bunu necə edək, han[181-182]sı mənbədən edək? Məsələ bax belədir! İndi bizim də, başqa respublikaların da iqtisadi-sosial problemləri eynidir. Axı biz bir iqtisadiyyat formasından başqa iqtisadiyyat formasına keçirik. Məsələn, elə təhsil sistemini götürün. Burada çıxış edənlər deyirlər ki, dərslik tapa bilmirlər, müəllim o kitabxanaya, bu kitabxanaya gedib dərsə hazırlaşır. Təbiidir ki, o, dərsə hazırlaşmalıdır. Çünki o vaxtkı dərsliklərin bir çoxu indi yaramır.

Əlbəttə, riyaziyyatda, fizikada, yaxud kimyada elə bir dəyişiklik yoxdur. Elədir, ya yox? Amma tarixdə dəyişiklik var. Ona görə də o vaxtkı tarix dərsliyi ilə indiki tarix dərsliyi bir deyil. Ədəbiyyatda da dəyişiklik var. Yəni ictimai fənlərdə böyük dəyişikliklər var. O vaxtlar riyaziyyat, fizika, yaxud kimya fənlərinin dərslikləri hər il hazırlanırdı, gətirilib məktəblərə verilirdi. İndi isə bu imkan yoxdur. Ona görə dərslik də çatışmır. Bəzi fənlərdən isə dərsliklər tamamilə yoxdur. Bütün bunlar keçid dövrünün bəlalarıdır, çətinliyidir. Əgər siz bunu təhsildə hiss edirsinizsə, bir görün keçid dövrünün iqtisadiyyatında nə qədər böyük bəlalar var. Biz indi bir iqtisadi sistemdən başqa iqtisadi sistemə keçirik. Azərbaycanın iqtisadi potensialı on illər ərzində yaranmışdır. Bu potensial həm də sizin xatırladığınız 70-ci illərdə, yəni mənim burada işlədiyim dövrdə Azərbaycan xalqının fədakar əməyi nəticəsində yaradılmışdır. Apardığımız düzgün iqtisadi siyasət nəticəsində o zaman respublikamızda nəhəng zavod və fabriklər tikildi, kənd təsərrüfatı inkişaf etdi. Azərbaycanın iqtisadiyyatı yüksək səviyyəyə çatdı. İndi Bakıda, Sumqayıtda olan zavodları, fabrikləri işlədə bilsək, bizə başqa bir şey lazım deyildir. Onlar Azərbaycanı yüksək səviyyədə saxlayar.

Bilməlisiniz ki, keçmişdə Sovet İttifaqında on beş respublikadan ancaq ikisi dövlət büdcəsindən dotasiya almırdı. Bunlar Rusiya və Azərbaycan idi. Başqa respublikalar öz iqtisadiyyatını saxlamaq üçün dövlət büdcəsindən dotasiya alırdılar. Rusiya. ilə Azərbaycan isə özlərini dolandıra bilirdi. Bəli, Azərbaycanın iqtisadi potensialı güclü idi. Bunu iqtisadçılar bilirdilər. Moskvada da bilirdilər, bizə hücum edən bədxah qonşular da bilirdilər. Hamı bilirdi ki, əgər Azərbaycan müstəqil olsa və öz imkanlarından müstəqil surətdə istifadə edə bilsə ona heç bir respublika çata bilməyəcəkdir. Amma Sumqayıtdan bir nəfər burada çıxış edib dedi ki, zavodlarda fəhlələri məcburi məzuniyyətə buraxırlar. Nə üçün? Axı [182-183] orada böyük kimya, metallurgiya, tikinti kompleksləri, yüngül sənaye, maşınqayırma müəssisələri var. Elə təkcə Sumqayıtda bunlar işləyə bilsəydi, indi nəinki Sumqayıtın, heç bütün Azərbaycanın da dərdi olmazdı.

Yenə də deyirəm. Hazırda biz bir sistemdən başqa sistemə keçirik. Elə bunun özü böyük çətinlik yaradır. Digər tərəfdən, respublikamızın xüsusiyyəti, yəni başqa respublikalardan fərqi ondan ibarətdir ki, əlaqələrimiz kəsilibdir. Biz müstəqil siyasət yeridirik. Müstəqil siyasət də bəzi əlaqələrin, o cümlədən iqtisadi əlaqələrin kəsilməsinə gətirib çıxarmışdır. Bununla yanaşı, son altı ayda Şimaldan gələn bütün yollar – dəmir yolu, avtomobil yolu, dəniz yolu bağlanıbdır, Şimal ilə, Rusiya ilə heç bir əlaqəmiz yoxdur. Mən fevralın 10-da Almatıda Rusiya prezidenti Borıs Yeltsinlə bu barədə ciddi danışdım. Rusiyanın baş naziri Viktor Çernomırdinlə də danışdım. Xahiş etdim, heç olmasa yolları açsınlar ki, iqtisadi məsələlərimiz həll olunsun. Onlar Rusiyanın Sərhəd Qoşunları komandanına göstəriş verdilər. O buraya gələcəkdir. Yolların açılıb-açılmayacağını deyə bilmərəm. Amma bu, bizi böyük bir bəlaya salıb. Əgər belə ağır şəraitdə blokadaya düşməsəydik, yollarımız kəsilməsəydi, son vaxtlar iqtisadiyyatımız bu cür çətin vəziyyətdə olmazdı.

Altı ildən artıqdır ki, müharibə gedir, ərazimizin 20 faizi işğal olunub, bir milyondan çox qaçqın var, bu qaçqınları, ev-eşiyindən didərgin düşmüş adamları saxlamaq da bizim üçün böyük bir dərddir. Bu gün fevralın 12-dir, düz doqquz aydır ki, müharibə getmir, atəş açılmır, güllə atılmır, qan tökülmür, şəhidlər yoxdur. Bu Qarabağ problemi ortaya atılandan bəri, yəni Azərbaycana qarşı Ermənistanın təcavüzü başlanandan bəri, 1988-ci ildən indiyədək ilk haldır ki, uzun müddət, doqquz ay müddətində sülh hökm sürür. Bu, tam sülh deyildir, atəşkəsdir. Ancaq doqquz ay davam edən atəşkəs böyük bir hadisədir. Təsəvvür edin ki, müharibə getsəydi, hər gün döyüşlər olsaydı, vəziyyət nə dərəcədə ağırlaşardı. Biz atəşkəsə istədiyimizə nail olmaq üçün getmişik. İstəyirik ki, işğal olunmuş torpaqlarımız azad edilsin, Azərbaycanın ərazi bütövlüyü təmin olunsun. Mən Almatıda həm Rusiya prezidenti ilə, həm Qazaxıstan prezidenti, həm Gürcüstan prezidenti, həm də Ermənistan prezidenti ilə görüşlərimdə, eləcə də başqaları ilə söhbətlərimdə və danışıqlarımda qeyd edirdim ki, millətlərarası, dövlətlərarası münaqişələrdə ümumiyyətlə, ilk hadisədir ki, [183-184] bölgəyə ayırıcı qoşunlar, yəni sülhü mühafizə qüvvələri daxil olmadan özümüz birbaşa danışıqlar aparıb atəşi dayandırmışıq və uzun müddət, doqquz ay müddətində sülhü qoruyub saxlamışıq. Doğrudur, müəyyən vasitəçilik, o cümlədən ATƏT-in Minsk qrupunun, Rusiyanın vasitəçiliyi olmuşdur. İndi "Azərbaycanın xarici siyasəti" və "Azərbaycanın daxili siyasəti" barədə danışırlar. Müxalifətdəki bəzi şəxslər deyirlər ki, Azərbaycanın xarici siyasəti yaxşıdır, amma daxili siyasəti, nə bilim, belədir filandır. Doqquz ay müharibə getməməsi məgər Azərbaycanın daxili siyasətinin nəticəsi deyilmi? Bu, dünya praktikasında nadir haldır, bəlkə də heç bənzəri olmayan bir haldır!

Almatıda Ter-Petrosyanla danışıqlarımızda, – bu danışıqlarda Nursultan Nazarbayev də iştirak edirdi, – Ermənistan prezidenti də bəyan etdi, mən də bəyan etdim ki, biz bu atəşkəs rejimini tam sülh yaranan vaxta qədər saxlayacağıq. Dəfələrlə dediyim kimi, tam sülh yaranmasının şərtləri var. Şərtlərimiz ondan ibarətdir ki,

işğal olunmuş torpaqlardan, o cümlədən Laçın və Şuşa rayonlarından erməni silahlı qüvvələri çıxmalı və qaçqınlarımızın hamısı öz yerlərinə qayıtmalıdır. Biz böyük sülh müqaviləsini də bu şərtlər əsasında bağlayacağıq.

Dekabrın 6-da Budapeştdə qəbul edilmiş qətnamə də tarixi bir qətnamədir. Daha doğrusu, bizim üçün, 1988-ci ildən indiyədək gedən müharibə dövründə qəbul olunmuş tarixi bir qətnamədir. Ona nail olmaq da asan məsələ deyildi. İndi bunları açıb sizə danışmağa ehtiyac yoxdur. Vaxt gələcək, tarixçilər bunu təhlil edəcəklər. Bu qətnamənin nə qədər böyük əhəmiyyəti olduğunu və necə böyük zəhmət sayəsində qəbul edildiyini hamı biləcəkdir. Lakin bu da böyük bir nailiyyətdir ki, münaqişənin başlandığı vaxtdan bəri Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi, indi ATƏT adlandırılan təşkilat məhz Budapeştdə Ermənistan ilə Azərbaycan arasındakı münaqişəni söndürmək və sülh yaratmaq üçün çoxmillətli sülhü mühafizə qüvvələri təşkil olunması haqqında qətnamə qəbul etdi. Bu, həmin təşkilatın 20 illik fəaliyyəti ərzində qəbul edilən ilk belə qətnamə idi.

Bir daha qeyd edirəm ki, biz o qətnaməyə nail olmaq üçün aylarla gecə-gündüz çalışmışıq, mən böyük dövlətlərin başçıları ilə danışıqlar aparmışam, özü də ciddi danışıqlar aparmışam. Bu qətnaməyə məhz bizim iradəmiz sayəsində, siyasətimizin düzgün istiqamətdə getməsi nəticəsində nail ola bildik. Biz, [184-185] – iki prezident orada, Budapeştdə də, fevralın 10-da Almatıda da bəyan etdik ki, bu atəşkəs rejimini saxlayacağıq...

Şübhəsiz ki, indi çörək də lazımdır, paltar da. Dəftər də, kitab da. Bir sözlə, hər şey lazımdır. Amma biz böyük-böyük məsələlər həll edirik. Bu işləri də görmək gərəkdir. Məhz bunlara görə indi burada camaat, xalq rahat yaşayır. Ona görə də deyirlər ki, bu da olsun, o da olsun. Bəli, bu da olmalıdır, o da olmalıdır, hər şey olmalıdır.

Bütün bunlar, bir tərəfdən, nailiyyətlərimizdir. Məsələn, atəşi dayandırmışıq, Budapeştdə qəbul edilmiş qətnamənin əsasında hazırda Moskvada danışıqlar gedir. Artıq ATƏT-in Minsk qrupunun iki rəhbəri var. Onlardan biri Qərb tərəfdən, digəri isə Rusiya tərəfdəndir. Bundan məqsəd beynəlxalq qüvvələri toplamaq və sülh proqramını hazırlamaqdır. Bunların hamısı görülən işlərdir, həm də xalqın rahat yaşaması üçün görülən işlərdir. Amma eyni zamanda düşdüyümüz bu müharibə vəziyyəti, blokada vəziyyəti, yolların kəsilməsi, iqtisadiyyatın formasının dəyişməsi, mülkiyyət formalarının dəyişməsi – bunların hamısı bizi gətirib belə ağır vəziyyətə salmışdır.

Burada müəllimlərdən biri çıxış edib dedi ki, cəmiyyətdə təbəqələşmə gedir, məsələn, birinin uşağı məktəbə gələndə özü ilə yemək gətirir, onun yeməyi var, başqasının isə yoxdur, götürüb ondan yeyir. İnanın ki, belə hallar ürəyimi ağrıdır. Ancaq nə edək? Biz bazar iqtisadiyyatı yolu ilə gedirik. Başqa yolumuz yoxdur. İqtisadi islahatlar aparmalıyıq. Aparırıq da. Düzdür, bəzi populist adamlar, Azərbaycanın bu sabitliyini pozmağa can atanlar orada-burada söz gəzdirirlər ki, guya islahat aparılmır, gecikdirilir. İslahatı bir paraları keçirmək istəyir, digərləri istəmir. Bunlar da boş söhbətlərdir. Azərbaycanı belə hala salanlar da məhz bu cür adamlardır.

Amma həqiqət ondan ibarətdir ki, biz iqtisadi islahatlar aparırıq. Bu islahatlar lazımdır və şübhə yoxdur ki, onlar cəmiyyəti müəyyən qədər təbəqələşməyə gətirib çıxaracaqdır. Bizim də borcumuz budur ki, əhalinin ehtiyacı olan təbəqələrinin sosial müdafiəsini təmin edək. Məsələn, qiymətlərin sərbəstləşdirilməsi haqqında son vaxtlar qərarlar qəbul olunması ilə yanaşı, əhalinin sosial müdafiəsinin təmin edilməsi qeydinə də qalınmışdır. Aztəminatlı ailələrə, çoxuşaqlı ailələrə kompensasiyalar verilməsi buna misaldır. Doğrudur, bu [185-186] kompensasiyalar bəlkə də kifayət qədər deyildir. Ancaq gərək büdcəmizin vəziyyətini də nəzərə alaq. Baxıb görək ki, istehsal nədən ibarətdir. Əgər nəhəng-nəhəng fabrik və zavodlarımız dayanmışsa, yaxud tam gücü ilə işləmirsə, çox böyük imkanlarımızdan istifadə edilmirsə, vəsaiti haradan götürə bilərik? Sosial vəziyyətimizi bunlar gərginləşdirir.

Lakin bir şeyi də demək lazımdır. Dövlət, hökumət çalışmalıdır, çalışır və bundan sonra da çalışacaqlar ki, xalqın bu ağır vəziyyətdən çıxması üçün lazımi tədbirlər görsün. Bu tədbirlər görülür və görüləcəkdir. Biz bu tədbirləri ardıcıl surətdə həyata keçiririk və keçirəcəyik ki, onlar xalqın sosial müdafiəsini təmin etsin. Biz bunu edirik və edəcəyik.

Amma eyni zamanda adamlarımız da respublikanın düşdüyü vəziyyəti dərk etməlidirlər. Burada müəllimlərdən biri çıxış edib dedi ki, çoxdan aldığımız paltarı geyinirik, biri də dedi ki, müəllimlər yamaqlı şalvar geyiblər. Bunlar həqiqətdir. Burada olan yaşlı adamlar yəqin ki, 1941-45-ci illər müharibəsini xatırlayırlar. Məsələn, ola bilsin, Sona xanımın yadındadır. Elə mən özüm də xatırlayıram. Biz o müharibə dövründə yaşamış, o müharibəni görüb keçmiş adamlarıq. 1941-45-ci illər müharibəsində yamaqlı paltar, yamaqlı şalvar da tapmaq çətin idi, mənim xatirimdədir, Naxçıvanda adamlar ayaqqabı tapa bilmir, çarıq geyirdilər. Özü də təkcə müharibə dövründə yox. Bilirsinizmi, mən heç nəyi gizlətmirəm. Həyatımda olan hər bir şeylə fəxr edirəm. Mən orta məktəbə gedəndə həmişə yamaqlı paltarla getmişəm. Yamaqsız paltarım olmayıb. Anam gecələr lampa işığında corablarımı yamayırdı. Məni bağışlayın, bir yamaq vururdu cırılırdı, sonra birini də vururdu. Belə vəziyyətdə idik. Həm də tək mən yox, bu nəslin hamısı belə böyüyübdür. Biz o müharibənin çətinliklərini gördük, yaşadıq. O günləri indi ilə heç müqayisə etmək olarmı? O vaxt insanlar acından ölürdülər, nə paltarı vardı, nə də yemək-içməyi. Bəli, o vaxtlar da müəllimlər çox ağır vəziyyətdə idilər. Mən də gənc idim, ağır vəziyyətdə idim. Amma görürdüm ki, mənə dərs deyən müəllim gedib bazarda nəsə xırda bir şey satır. Bunu görəndə ürəyim ağrıyırdı. Əslində mən özüm ondan da pis vəziyyətdə idim.

İndi yamaqlı paltar bəzilərinə qəribə görünür, amma 20-ci, 30-cu, 40-cı illəri görmüş adamlar məhz yamağın içində yaşayıblar. Bununla heç də demək istəmirəm ki, o vaxt yaxşı idi. Xeyr, belə demək istəmirəm. Demək istədiyim budur ki, insa[186-187]nın iradəsi bütün bu çətinliklərə üstün gəlir, yenə də deyirəm, biz tədbirlər görürük, amma adamlarımız da dözməlidirlər. Zaqafqaziya regionunda bizdən savayı respublikalar, mən onların adlarını çəkmək istəmirəm – var ki, orada camaat bizdəkindən on qat pis vəziyyətdə yaşayır. Ancaq dözür.

Biz indi blokadaya düşmüşük. Çeçenistan hadisələrinə görə. Amma başqaları 4-5 ildir blokadadır. Bizdə elektrik işığı var, orada yoxdur. Mənim özüm üç il Naxçıvanda yaşadım, neft lampasının işığında oturub işləyirdim. Nə elektrik vardı, nə də su. Qışda biz 20 dərəcə şaxtada elektrik işığı olmadan, binalar qızdırılmadan yaşayırdıq. Yaxşı ki, burada, Bakıda şaxta yoxdur. O insanlar indi də orada elə o cür yaşayırlar. Düzdür, onda mən öz imkanlarımdan istifadə etdim. İrandan, Türkiyədən oraya elektrik xətti çəkdik, çünki Bakıdan gələn xətlərin hamısı Ermənistanda kəsilmişdi. Naxçıvanda qaz da yox idi. Bu gün mən Səməd Sadıqovun başçılığı ilə İrana nümayəndə heyəti göndərirəm. Onlar gedib İranda Naxçıvanın elektrik enerjisi məsələsini, digər təchizat məsələlərini həll etmək üçün danışıqlar aparacaqlar.

Bunları söyləməklə mən heç də demək istəmirəm ki, elə belə də olmalıdır. Yox. Sadəcə olaraq vəziyyəti təhlil edirəm, gerçəkliyimizi bildirirəm, həqiqəti deyirəm. Mən burada çıxış edənlərin hamısına minnətdaram, ona görə ki, vəziyyəti açıqlamaqla yanaşı, nikbin əhval-ruhiyyə ilə danışdılar. Bəli, inam var. Bizim hamımızda inam olmalıdır ki, bu çətinliyi keçib gedək. Bu çətinliyi keçib getmək üçün bir-birimizə kömək etməliyik, bir-birimizə əl uzatmalıyıq. Amma təəssüf ki, bəziləri bu çətinliklərdən istifadə edib öz şəxsi məqsədlərinə nail olmaq üçün cürbəcür çirkin yollara gedirlər. Şübhəsiz ki, xalq bələlərinin qarşısını alacaqdır. Lazım olsa, onların qarşısını dövlət də alacaqdır. Buna dövlətin imkanları var.

Azərbaycanın düşdüyü vəziyyəti başqa respublikalardakı vəziyyətdən fərqləndirən cəhətlərdən biri də budur ki, bizim daxilimizdə belə çətinliklərdən istifadə edib ictimai-siyasi sabitliyi pozmağa can atan qüvvələr var. O qüvvələr ki, özləri xalqı bu vəziyyətdən çıxarmaq üçün zərrəcə iş görməyiblər və görməyə də qadir deyildir. Elələri də var ki, bu fürsətdən istifadə edib özlərinə hörmət qazanmaq istəyirlər. Belə ucuz hörmət isə heç vaxt daimi ola bilməz.

Bir daha qeyd edirəm ki, mən bildiyim məlumatlardan əlavə, bu gün sizdən yeni məlumatlar aldım, müəllimlərin, [187-188] təhsilin vəziyyətinə daha yaxşı bələd oldum. Ona görə sizə təşəkkür edirəm. Eyni zamanda hesab edirəm ki, bizim üçün, iqtisadiyyatımız, maliyyəmiz üçün nə qədər çətin olsa da, gərək lazımi tədbirlər görək.

Bilirsinizmi, indi həyatımız elədir ki, bu gün qəbul etdiyimiz bir qərarın sabah uyğun olmadığını görsək, dəyişdirə də bilərik. Məsələn, fevralın 9-da mən Almatıya getdim. Mənim xəbərim olmadan Bakı şəhər icra hakimiyyəti nəqliyyatda gediş haqqını artırmışdı. Şübhəsiz ki, bu, müəyyən narazılığa səbəb olmuşdu. Mən fevralın 10-da axşam Almatıdan döndüm, elə aeroportdaca müşavirə keçirdim. Düzdür, səfərim uzun sürməmişdi. Ayın 9-da gedib 10-da qayıtdım. Lakin mənim üçün hər saatın əhəmiyyəti var. Nəqliyyatda minik haqqının qaldırılmasının doğurduğu narazılıqdan Milli Məclisdə bəzi adamlar sadəcə sui-istifadə etməyə çalışıblar. Ancaq mən Bakıya qayıdanda nəqliyyatda qiymətlərin qaldırıldığından xəbər tutan kimi, icra hakimiyyətinin başçısı Rəfael Allahverdiyevə göstəriş verdim ki, gediş haqqını dəyişdirsin. O qiymətlər elə həmin axşam da dəyişdirildi. Mən aeroportdan şəhərə gələn kimi tapşırdım ki, bu xəbər təcili olaraq televiziya ilə verilsin. Belə də oldu və dediyim kimi, nəqliyyatda qiymətlər dəyişdirildi.

Mən bununla onu demək istəyirəm ki, bu gün görülən bir tədbir, yaxud qəbul edilən bir qərar sabah, ola bilsin ki, əl verməsin, buna görə də onları dəyişdirmək mümkündür. Siz indi Təhsil qanunu haqqında danışdınız. Bu qanun, gərək ki, iki il bundan əvvəl qəbul edilib. Kimsə qanuna dəyişikliklər etmək istəyib. Amma bu, etirazla qarşılanıb. Kimsə hesab edir ki, qanuna ümumiyyətlə dəyişiklik etmək olmaz. Məsələn, burada bir müəllim çıxış edib dedi ki, bəlkə fərman verib qanunu müvəqqəti olaraq dayandırasınız. Çünki hesab edir ki, qanunu sabit saxlamaq lazımdır. Bu da təbiidir. Ona görə ki, indi biz demokratik bir cəmiyyətdə yaşayırıq, hər kəs öz sözünü deyə bilər. Hər kəs öz təklifini verə bilər. Lakin şübhəsiz ki, qəti qərar qəbul edilməsi dövlət orqanlarının səlahiyyətinə aiddir.

Mən belə başa düşdüm ki, burada bir neçə məsələni təcili olaraq həll etmək, bir neçə məsələnin isə üzərində işləmək lazımdır. Əvvəla, Maliyyə Nazirliyinin büdcə ilə əlaqədar təklifi, deyəsən, belədir ki, Təhsil qanununa görə müəllimlərə nəzərdə tutulmuş güzəştlərin tətbiqi dayandırılsın. Maliyyə naziri də bunu büdcənin vəziyyəti ilə, ümumi maliyyə vəziyyətimizlə [188-189] izah edir. Onu da günahlandırmaq istəmirəm. Mən Azərbaycanın da, Sovet İttifaqının da maliyyə nazirlərini görmüşəm. Maliyyə nazirinin vəzifəsi ondan ibarətdir ki, gərək maliyyəni həmişə sıxsın, həmişə çalışsın ki, maliyyə vəziyyəti möhkəm olsun. Ona görə mən də bır dövlət başçısı kimi onu təqsirləndirmirəm. Amma sizin təkliflərinizi nəzərə alaraq hesab edirəm ki, maliyyə naziri öz təklifini geri götürməlidir. Yəni qanunda müəllimlər üçün nəzərdə tutulmuş güzəştlər yanvarın 1-dən tətbiq olunmalıdır və müəllimlər bu güzəştlərdən istifadə etməlidirlər. Zənnimcə, bu, qaldırılan məsələlərdən biri idi və həll olundu. Elədirmi?

İkinci məsələ müəllimlər üçün dərs yükü məsələsidir. Siz ona gərək ki, stavka deyirsiniz. Bu məsələ bir neçə gün öncə mənim yanımda müzakirə edilmişdir. Təhsil naziri Lidiya Rəsulova məsələ qaldırıb ki, Təhsil qanununda dəyişiklik etmək lazımdır. İndi görürsünüzmü, iki il bundan qabaq qəbul olunmuş qanunun bir tərəfi sizin üçün xeyirlidir. Maliyyə naziri də sizi bundan məhrum etmək istəyirdi. Siz də onun əleyhinə çıxırdınız. Amma dediyiniz o məhdudiyyət məsələsi sizin üçün sərfəli deyildir. Bu gün üçün sərfəsizdir. Bir neçə gün öncə biz toplaşıb bir neçə iqtisadi məsələyə baxırdıq. Mən müəllimlərin maddi vəziyyəti məsələsinin də müzakirəsini təklif etdim. Onu da bilin ki, mən müəllimlərin vəziyyəti ilə heç də birinci dəfə deyildir ki, maraqlanırdım. Lidiya Rəsulova burada dedi ki, mən bu məsələni bir neçə dəfə müzakirə etmişəm. Lidiya Rəsulova öz təklifini irəli sürdü. Mən də respublika prokuroruna göstəriş verdim. Respublika prokuroru qanunun həmin hissəsini sizin indiki mənafeyinizə uyğun olaraq dəyişdirmək barədə təkliflə Milli Məclisə müraciət etdi. Siz bunu bilirsiniz. Bu gün mən bir daha deyirəm ki, qanunun həmin hissəsi dəyişdirilməlidir. O təklif mənim təşəbbüsümlə verilibdir. Prokurora bunu mən tapşırmışam. Mən həmin məsələdən xəbərsiz idim. Bunu mənə müzakirə zamanı təhsil naziri Lidiya Rəsulova çatdırdı. Çərşənbə axşamı Milli Məclisin iclası olacaq və mən əminəm ki, Milli Məclis bu təklifi qəbul edəcəkdir. Bu məsələ də həll olunacaqdır.

Əlbəttə, bunlar bütün problemləri həll etmir. Mən bu görüşə bir az gecikdim. Ona görə ki, bizim rəhbər işçiləri yanıma çağırıb məsləhətləşirdim. Mən onlarla təxminən saat yarım məsləhətləşdim ki, daha nə etmək olar, nə kimi imkanlarımız var? Mən elə insan deyiləm ki, gəlib deyəm: bunu [189-190] hökmən belə et, onu da belə. Mənimlə işləyən adamlar bilirlər ki, mən hər şeyi qanun çərçivəsində, imkan daxilində nəzərdən keçirir, məsləhətlə qərar qəbul edirəm. Yığışıb uşaqların məktəbdə yemək məsələsi, dərs ləvazimatı, aztəminatlı ailələrdən olan uşaqlara kömək göstərilməsi və bir sıra digər məsələlər barəsində söhbət etdik, məsləhətləşdik. Bütün bu məsələlərlə əlaqədar belə qərara gəldim və Maliyyə Nazirliyinə göstəriş verdim ki, məktəb problemlərinin, uşaqların və müəllimlərin məsələlərinin həlli üçün indi müzakirə olunan büdcədə 35 milyard manat əlavə vəsait tapsın. Bu 35 milyard manatın hansı məqsədlər üçün xərclənməsi barədə Təhsil Nazirliyi, Müəllimlər Şurası, Maliyyə Nazirliyi öz təkliflərini versinlər və biz həmin vəsaiti yaxın müddətdə məktəblərin, müəllimlərin, tələbələrin maddi vəziyyətini yaxşılaşdırmağa yönəldək. Bu da indiki görüşlə əlaqədar bir qərardır. Qaldı müəllimlərin məvacibinin verilməsinə, onu Milli Bankın prezidentindən öyrənərik, deyin görüm, onların məvacibi vaxtlı-vaxtında verilirmi? Deyə bilərsinizmi, hansı ay verilib, hansı ay yox?

**Milli Bankın prezidenti:** Yanvar ayının məvacibi verilib. Fevral ayının maliyyələşdirilməsinə isə başlanmışdır.

**Heydər Əliyev:** Mən sizə tapşırıram, başqa sahələr də təmin olunmalıdır, amma həm şəhərlərdə, həm də kəndlərdə müəllimlərin dekabr və yanvar ayları üçün məvacibləri təcili surətdə bir həftənin içində ödənilməlidir. Aydındırmı? Bir həftənin içində ödəyib, mənə şəxsən məlumat verməlisiniz!

İşğal olunmuş ərazilərdən qaçqın düşən müəllimlərin, habelə onların yerləşdirildiyi məktəblərin vəziyyətinə xüsusi diqqət yetirilməlidir. Ona görə də maliyyə nazirinə, Milli Bankın prezidentinə, təhsil nazirinə tapşırıram ki, məsələyə birlikdə baxsınlar, həmin müəllimlərin məvaciblərinin ödənilməsi gecikdirilirsə, belə hallar aradan qaldırılsın, onların maddi vəziyyətini müəyyən səviyyədə saxlamaq üçün əlavə nə kimi tədbirlər lazımdırsa həyata keçirilsin. Şübhəsiz ki, bunların hamısına Nazirlər Kabineti nəzarət etməlidir. Fuad Quliyev, Səməd Sadıqov, Elçin Əfəndiyev bu məsələləri nəzarət altında saxlamalıdırlar. Prezident Aparatından Fatma xanım Abdullazadə bu işlərə ciddi nəzarət etməlidir. Xahiş edirəm bu məsələyə də baxın. Mən indi konkret bir şey deyə bilmərəm. [190-191]

Amma eşitdiyimə görə, həmin məktəblərin təminatında da çox gərginlik var, müəllimlərin məvacibləri də gecikdirilir. Xahiş edirəm bunu da nəzərə alın.

Bu gün sizin çıxışlarınızı, fikirlərinizi dinləyərkən mən belə qənaətə gəldim ki, əlavə tədbirlər görmək lazımdır. Fikirləşirəm ki, bəlkə biz Təhsil Fondu yaradaq. Siz bu təklifə necə baxırsınız?

**Yerdən səslər:** Təhsil Nazirliyinə Firudin Cəlilov rəhbərlik edərkən belə bir fond var idi.

**Heydər Əliyev:** İndi nə təhsil naziri Firudin Cəlilovdur, nə də Təhsil Fondu var. Belə hesab edirəm ki, keçmişdə nə olubsa, kim nə edibsə, bunlar bir kənarda qalsın. Biz Təhsil Fondu yaratmalıyıq. Fikirləşməliyik ki, bu fonda haradan vəsait toplayaq və vəsaiti nəyə sərf edək? Çıxış edənlərdən kimsə dedi ki, kommersiya strukturlarının gəlirindən 0,1 faiz ayrılıb məktəb üçün yönəldilsin. Ola bilsin ki, bu təklifdə də müəyyən bir əsas var. Amma məsələ tək bundan ibarət deyildir. Təhsil Fonduna müxtəlif mənbələrdən vəsait yönəltmək olar. Təhsilimizin problemlərini, çətinliklərini aradan qaldırmaq üçün dövlət büdcəsinin vəsaiti ilə yanaşı, Təhsil Fondunun vəsaitindən də istifadə etmək olar. Necə bilirsiniz? Yaxşımı olar? Onda mən Ramiz Mehdiyevə, Fatma Abdullazadəyə, Elçin Əfəndiyevə tapşırıram ki, Təhsil Fondu yaratmaq üçün təcili surətdə mənim fərmanımı hazırlasınlar. Bəri başdan deyirəm, sərəncam verirəm ki, bu fonda Prezident Fondundan 10 milyard manat köçürülsün. 10 milyard manat!

Hesab edirəm ki, biz Təhsil Fondunu lazımi səviyyədə təşkil edə bilsək, onun başqa mənbələrdən maliyyələşdirilməsini təmin etsək, onda bu fondun geniş imkanları olar və o, təhsilin, məktəbin, müəllimlərin çətinliklərinin aradan qaldırılmasında bir vasitəyə çevrilər. Mən bu qərarı qəbul etdim və indi sadəcə olaraq

fərmanı hazırlayıb mənə vermək lazımdır. Təhsil Fondunun hüquqi cəhətlərini işləməyi Şahin Əliyevə tapşırıram. Buna baxmayaraq, mən bu fondun əsasını qoyaraq 10 milyard manat ayırıram.

Burada çıxış edənlər təklif verdilər ki, keçmişdəki kimi yenə də yerli hakimiyyət orqanları məktəblərə, uşaq bağçalarına və digər uşaq tərbiyə ocaqlarına qayğı göstərsinlər, lazımi işlər görsünlər. Zənnimcə, bu da məqsədəuyğun təklifdir. Təhsil Fondu haqqında mənim fərmanımda belə bir bənd də ola bilər ki, şəhər, rayon icra hakimiyyəti orqanlarına bu barə[191-192]də tapşırıq verilsin. Amma bunu fərmanda rəsmiləşdirmək lazımdır. Qoy onlar kömək etsinlər. Şübhəsiz ki, icra hakimiyyəti orqanları da büdcə hesabına yaşayırlar. Amma hər bir rayonun, hər bir şəhərin ərazisində geniş imkanlar var, özəl sektor da imkanlara malikdir. Bu imkanlardan istifadə etməklə təhsil ocaqlarının bəzi çətin problemlərini aradan qaldırmaq mümkündür. Ona görə gərək bu işdə də bir sistem yaradaq. Məncə bu da vacibdir.

Mən bu qərarları qəbul etdim və düşünürəm ki, bunların hamısı qəbul olunduğu andan həyata keçirilməlidir. İndi iş sizdən, yəni Nazirlər Kabinetindən, Prezident Aparatından, Təhsil Nazirliyindən, Müəllimlər Şurasından, müəllimlərdən və ictimaiyyətdən asılıdır. Bir tərəfdən, çalışmalısınız ki, mənim qəbul etdiyim bu qərarlar təcili olaraq həyata keçirilsin və onlardan səmərəli istifadə edilsin. Digər tərəfdən isə, bizim bu görüşümüzdən istifadə edərək, ictimaiyyətin diqqətini bir daha məktəbə, müəllimin həyatına, tələbənin həyatına qayğının artırılmasına cəlb etmək lazımdır. Hesab edirəm ki, bizim səsimizə səs verəcəklər və məktəb, müəllim indiyədək olduğu kimi, bundan sonra da həm dövlətin, həm də ictimaiyyətin diqqət mərkəzində, qayğısı altında olacaq. Əminəm ki, biz bu çətinliklərdən çıxacağıq.

Dövlətçiliyimiz haqqında, mənim fəaliyyətim haqqında bu gün burada dediyiniz sözlərə görə minnətdaram və bildirmək istəyirəm ki, mənim bütün fəaliyyətim yalnız və yalnız Azərbaycan xalqını bu ağır vəziyyətdən çıxarmağa həsr olunmuşdur və bundan sonra da buna həsr ediləcəkdir. Həyatda mənim məqsədim, amalım ancaq bundan ibarətdir və bu sahədə bütün cəmiyyətimizin, bütün xalqın həmrəy olmasını arzuladığımı bir daha bildirirəm və xalqımızı, cəmiyyətimizi bu həmrəyliyə dəvət edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bu sahədəki fəaliyyətimdə müəllimlərə, təhsil sahəsinin bütün işçilərinə bel bağlaya bilərəm, onlar dövlətçiliyimizin dayağı olacaqlar.

Sağ olun, gələn görüşlərədək! [192]

## RESPUBLİKADA YAŞAYAN LƏZGİ İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ

*Prezident sarayı*

*20 fevral 1995-ci il*

Bizim Azərbaycanın müsbət xüsusiyyətlərindən biri də odur ki, respublikamız çoxmillətli, beynəlmiləl dövlətdir. Mən öz rəsmi bəyanatlarımda, nitqlərimdə dəfələrlə qeyd etmişəm ki, bu, respublikamızın üstünlüyüdür, milli sərvətidir, ümumi sərvətidir. Biz bununla fəxr edirik və bu tərkibi qoruyub saxlamalıyıq.

Məlumdur ki, XX əsrin əvvəllərinədək Azərbaycan müstəqil bir dövlət olmadığı halda ölkəmizin ərazisində başqa millətlər də olub və burada məskunlaşıblar. Bildiyiniz kimi, ilk dəfə müstəqil Azərbaycan Demokratik Respublikası öz fəaliyyətinə başlayarkən, müstəqil demokratik dövlət kimi bütün millətlərin təmsil edilməsini və Azərbaycanın çoxmillətli olmasını əsas amillərdən biri kimi qəbul edib. İndi biz müstəqil dövlət olarkən ərazimizdə əsrlər boyu, bəlkə də təbii obyektiv proseslər əsasında yaranmış bu çoxmillətlilik, beynəlmiləlçilik ənənələrini qoruyub saxlamalıyıq. Bir daha qeyd edirəm ki, biz bunu respublikamızın üstünlüyü kimi qiymətləndirməliyik.

Hələ Sovet İttifaqı vaxtında, – baxmayaraq ki, biz vahid sovet sosialist dövlətinin tərkibindəydik, kommunist partiyası hakim idi, beynəlmiləlçilik kommunist partiyası ideologiyasının əsaslarından biri idi, – o vaxtlar, məsələn, qonşu Ermənistanda respublika rəhbərlərinin apardığı siyasət o istiqamətdə gedirdi ki, onların sözləri ilə desək, Ermənistan "mononasional respublika" olmalı idi və buna da nail oldular. Bütün başqa millətləri dağıtdılar, əziyyət verdilər, vurub çıxardılar. Xatırımdadır, mən Moskvada rəsmi işdən gedəndən sonra parlamentin üzvü kimi qalırdım. 1989-cu ildə bir dəfə SSRİ Ali Sovetinin sessiyasında çox yüksək vəzifəli bir şəxslə görüşüb söhbət edirdim. O danışırdı ki, bu yaxınlarda Ermənistanda olarkən çox iftixar hissi ilə mənə dedilər ki, uzun illər apardığımız siyasət artıq başa çatıb – Ermənistan Sovetlər İttifaqının tərkibində olan on beş respublika arasında yeganə mononasional, [193-194] yəni təkmillətli respublikadır. Onlar bununla fəxr edirdilər. Biz isə, – mən bunu dəfələrlə demişəm, güman edirəm, bütün ictimaiyyətin ümumi fikrini söyləyirəm, – bununla fəxr edirik ki, respublikamız çoxmillətli respublikadır. Ölkəmizdə yaşayan, hər bır millətə məxsus olan adam Azərbaycanın bərabərhüquqlu vətəndaşıdır.

Mən prezident seçilərkən də, prezident vəzifəsini həyata keçirməyə başlayarkən and içdiyim zaman da əsas andlarımdan biri bu olub ki, mən milli mənsubiyyətindən, dilindən, dinindən, siyasi dünyabaxışından asılı olmayaraq, respublikanın bütün vətəndaşlarının hüquqlarının qorunmasının təminatçısı kimi çıxış edəcəyəm. Biz bu siyasəti ardıcıl surətdə həyata keçiririk və həyata keçirəcəyik.

Azərbaycanın bir xüsusiyyəti də ondan ibarətdir ki, – bunu hətta keçmişdə də respublikamıza qeyri-obyektiv münasibət göstərən, kənarda olan yüksək səlahiyyətli şəxslər də deyirdilər, – doğrudan da, Azərbaycan Sovet İttifaqı tərkibində başqa respublikalara nisbətən ən beynəlmiləl respublikadır. Bu da onunla əlaqədardır ki, respublikamızda bütün dövrlərdə, – mən özüm işlədiyim dövrü daha yaxşı bilirəm və onu da qeyd edirəm, – bütün dövrlərdə kimin hansı millətdən, kimin kökünün haradan olmasına fikir verilməyib.

Respublikamızın əhalisinin tam əksəriyyəti azərbaycanlıdır. "Azərbaycanlı" məfhumu çox genişdir. Düzdür, azərbaycanlıların minillik kökünə baxsan, bir qismi o kökdən, bir qismi bu kökdən gəlib. Amma onlar hamısı əsrlər boyu azərbaycanlı kimi formalaşıb. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da – bütünlükdə hamısı azərbaycanlıdır. Bu "azərbaycanlı" sözü bizi həmişə birləşdirib.

Mənim xatirimdədir, hətta 70-ci illərdə bəzi alimlərimiz, yazıçılarımız cəmiyyətimizi, ərazimizdə olan xalqları birlikdə saxlayan bu "azərbaycanlı" sözünə bir az təcavüz etməyə çalışırdılar.

Mən o zaman bu proseslərin şahidi olmuşam və vaxtilə bunların qarşısını almışam. Amma yaxşı ki, elə bunların qarşısı alınıb. Çünki hamımız azərbaycanlıyıq.

Təəssüf edirəm ki, 1992-ci ildə də bütün azərbaycanlıların birliyinə bir az toxunan proseslər gedib və onlar bizim bu tarixi ənənələrimizə müəyyən zərər vurub. Ancaq, – hesab edirəm, etiraf edə bilərsiniz ki, bunu deməyə mənim əsasım [194-195] var, – 1993-cü ilin iyun ayından mən buraya yenidən dönmüşəm, respublikaya rəhbərliyi xalq mənə etibar edibdir. Mən həmişə respublikamızda hamıya azərbaycanlı demişəm. Biz azərbaycanlıyıq. Ancaq yenə də deyirəm, dünyada insanların, insan cəmiyyətinin inkişafı elə mərhələlərdən keçib, elə ərazi dəyişiklikləri olub ki, bunlar hamısı ayrı-ayrı kökdən olan millətləri, xalqları bir-biri ilə birləşdirib. Eyni zamanda istər böyük, istər kiçik xalq olsun, fərqi yoxdur – onların özünəməxsus adət-ənənələri, folkloru, dilinin müəyyən ayrılığı – yaşayıb və yaşamalıdır. Bu da göstərir ki, onlar yaşamağa qadir olan adət-ənənələrdir.

Mən hesab edirəm ki, müstəqil Azərbaycan Respublikasında bu gün də, gələcəkdə də bu istiqamətdə fəaliyyət göstərməliyik. Ancaq eyni zamanda son vaxtlar – bir-iki il deyil, son beş-altı ildə – keçmiş Sovetlər İttifaqında, eləcə də dünyada gedən bir sıra ictimai-siyasi proseslər, ayrı-ayrı xalqların, etnik qrupların arasında baş verən ziddiyyətlər, hərəkətlər yeni bir şərait yaradıb. Bəziləri də bundan istifadə edərək həmin münasibətləri, ziddiyyətləri, prosesləri daha da dərinləşdirməyə, kəskinləşdirməyə çalışırlar. Bunların nəyə gətirib çıxardığını biz keçmiş Sovetlər İttifaqının ərazisində də görürük, dünyanın bir çox digər regionlarında gedən proseslərdə də görürük.

Respublikamızda bütün başqa xalqlarla, millətlərlə, etnik qruplarla yanaşı, ermənilər də yaşayırdılar. Biz tarixən bir yerdə yaşamışıq. Doğrudur, ermənilərlə azərbaycanlılar arasında XX əsr ərzində toqquşmalar, ziddiyyətlər də olub. Lakin sonralar belə hallar ötüb keçib, xalq tərəfindən unudulub və birlik yaranıb.

Hesab edirəm ki, gərək bu birlik qorunaydı, saxlanılaydı. Dünyanın inkişaf etmiş böyük demokratik adət-ənənələrə malik dövlətləri var – Avropa dövlətləri, Amerika qitəsində olan dövlətlər. Burada nə qədər millətlər hamısı bir yerdə yaşayırlar. Şübhəsiz ki, orada ayrı-ayrı xalqlara mənsub olan insanların adət-ənənələri yaşayır, amma onlar bir dövlətin vətəndaşlarıdır. Məhz ona görə də həmin ölkələrdə, dövlətlərdə ümumxalq həmrəyliyi, ümumi vətəndaşlıq məfhumu çox möhkəmdir, əmin-amanlıqdır, sakitlikdir, həyat səviyyəsi, mədəniyyət yüksəkdir, demokratik prinsiplər yüksək səviyyədədir. Amma o yerlərdə ki, bax bu ziddiyyətləri qabardırlar, meydana çıxarırlar, o cümlədən indi dünyanın bir çox regionlarında [195-196] və keçmiş Sovetlər İttifaqının ərazisində bu ziddiyyətlər, bu toqquşmalar baş verir – onlar xalqlara bəladan, qandan, faciədən savayı heç nə gətirmir.

Mən Ermənistanla Azərbaycan arasında münasibətlərə, Azərbaycanda ermənilərin, Ermənistanda azərbaycanlıların yaşaması məsələsinə bir daha qayıdıram. Vaxtilə Azərbaycan da, Ermənistan da müstəqil dövlət deyildi, yaxud Sovetlər İttifaqı vaxtında dövlət olmasa da müttəfiq respublikalar idi. Amma vaxtilə nə Azərbaycanda, nə də Ermənistanda bu vəziyyət var idi. Tutaq ki, çar Rusiyası dövründə bütün ərazi quberniyalara bölünmüşdü. Həmin quberniyaların bəzilərində sonralar əmələ gəlmiş Ermənistan Respublikasının ərazisindən olan hissələr var idi, Azərbaycan Respublikasının ərazisindən olan hissələr var idi. Orada ermənilər də, azərbaycanlılar da yaşayırdılar. Ancaq baxmayaraq ki, guya biz inkişaf etdik, irəliyə getdik və ümumbəşəri dəyərləri mənimsəməyə başladıq, bunlar gətirib bax belə qanlı hadisələrə çıxardı.

Mən sözümün əvvəlində dedim, Ermənistanda təkmillətli respublika, dövlət yaratmaq, "Böyük Ermənistan" xülyası gətirib ona çıxardı ki, yüz minlərlə azərbaycanlılar əsrlər boyu Ermənistanda yox, öz doğma torpaqlarında, öz ərazisində yaşadıqları yerlərdən qovuldular, əzildilər, didərgin salındılar. Biz Azərbaycanda bunlara dözdük. Məsələn, 1918-1920-ci illərdə nə qədər azərbaycanlılar sonra Ermənistan adlandırılan respublikanın ərazisindən didərgin düşdülər. Daha sonra oradakı müəyyən təzyiqlərə görə məcburi köçməyə başladılar. Sonrakı dövrlərdə – 1948-1950-ci illərdə dövlət tərəfindən xüsusi köçürmə həyata keçirildi. Daha sonrakı dövrdə – 1988-ci ildən başlayaraq azərbaycanlılar oradan tamamilə çıxarıldı.

Bu günlərdə mən televiziyada baxdım, – burada bir elmi konfrans keçirilib, azərbaycanlıların öz yerlərindən məcburi köçməsindən və onların başına gələn hadisələrdən danışılıb. Yenə də deyirəm, bunların hamısı bəladan, qandan, faciədən savayı heç bir şey gətirmədi. Amma təkcə Azərbaycan üçün yox, yalnız azərbaycanlılar üçün yox, ermənilərin özləri üçün də.

Ermənilər Bakıda da, Gəncədə də, Sumqayıtda da, başqa yerlərdə də yaşayırdılar və onlar üçün burada hər bir şərait var idi. Bəlkə də onlar burada Ermənistanda olan ermənilərdən də yaxşı yaşayırdılar. Azərbaycanlıları Ermənistandan zorla qovmağa, qırmağa, belə bir münaqişə yaratmağa nə ehtiyac [196-197] var idi? Sonra da ermənilərin buradan çıxması, köçməsi, yaxud da ki, qovulması. Amma buna baxmayaraq, deyirlər ki, yenə də Bakı şəhərində 18 min erməni yaşayır. Deyilənə görə, Azərbaycanda 40 minə yaxın erməni yaşayır.

Yəni demək istəyirəm ki, həqiqət naminə, obyektivlik naminə qeyd etmək lazımdır ki, bizim regionda əmələ gəlmiş münaqişələri, faciələri, hadisələri meydana çıxaran əsas səbəblər Ermənistan tərəfindən olan səbəblərdir. Siz Dağlıq Qarabağı yaxşı tanıyırsınız, hamımız tanıyırıq. Çoxunuz vaxtilə oralarda olmusunuz, mən də olmuşam. Dağlıq Qarabağda ermənilər çox rahat, çox gözəl yaşayırdılar, şəraitləri də yaxşı idi. Dağlıq Qarabağın sosial-iqtisadi inkişafı Azərbaycanın bütün digər regionlarından üstün idi. Bu həqiqətdir, buna heç bir söz ola bilməz. Ancaq bəhanələr gətirdilər ki, nə bilim, Yerevanla əlaqələri azdır, filandır və sairə. Müharibəni başladılar. İndi altı ildir ki, müharibə gedir. Əgər Ermənistan silahlı qüvvələri bəzi üstünlüklərdən istifadə edərək ərazilərimizi işğal ediblərsə, bu o demək deyil ki, onlar böyük bir nailiyyət qazanıblar, xeyr. Bunun özü də onlar üçün böyük bir faciədir ki, belə işğalçılıq yoluna düşüblər. Ancaq tarix buna heç vaxt yol verməyəcək, şübhəsiz ki, Azərbaycanın torpaqları azad olunacaq. Amma müharibə nəticəsində yüz minlərlə insan bəla içərisinə düşdü – elə ermənilər də, azərbaycanlılar da.

Ölkəmizdən gedən ermənilər indi harada yaşayırlar, nə cür yaşayırlar? Burada onların hər cür şəraiti var idi. Ermənistandan qovulan azərbaycanlılar ağır vəziyyətdə yaşayırlar. Amma orada onların hüquqları, imkanları buradakı şəraiti kimi deyildi. Bunu həqiqət naminə demək lazımdır. Amma necə olsa, azərbaycanlılar öz doğma ata-baba yurdunda, kəndində, öz torpağında yaşayırdılar və torpağını buraxıb getmək istəmirdilər. Nə

qədər çətin olsa da, atasının, babasının, ulu babasının qəbirlərini atıb heç yerə getmək istəmirdilər. Ancaq bu zorakılıq, təcavüzkarlıq, qəsbkarlıq gətirib bu nəticəyə çıxardı.

Məsələn, Rusiya çoxmillətli böyük bir dövlətdir. İndi orada müəyyən proseslər gedir. Mən hesab edirəm ki, bütün bunlar Rusiya dövlətini narahat etməyə bilməz. Çünki əgər bu proseslərin qarşısı alınmasa, müəyyən tədbirlər görülməsə, ola bilər, onlar daha da genişlənsin, daha da inkişaf etsin. Bunlar heç bir millətə, heç bir xalqa böyük bir üstünlük, yaxud nailiyyət verməyəcək, onu xoşbəxtliyə çatdırmayacaqdır. Gətirib faciəyə çıxaracaqdır. Başqa yol yoxdur. [197-198]

Elə Şimali Qafqazda biz faciələrin şahidiyik. İndi nə qədər qanlar tökülür. Nə qədər insanlar həlak olur. Bir evi, binanı tikmək, qurmaq nə qədər vaxt tələb edir. Amma onu dağıtmaq üçün bir-iki bomba bəsdir.

Mən bunları nə üçün deyirəm? Ona görə ki, biz bunların hamısından özümüz üçün nəticə çıxarmalı və dərk etməliyik ki, Azərbaycan Respublikası bu milli tərkibini tarixi bir nailiyyət kimi qeyd etməlidir və həmin milli tərkibi, milli nisbətləri qoruyub saxlamalıdır. Azərbaycan vətəndaşlarının hamısı, hər biri Azərbaycanın tam hüquqlu vətəndaşı kimi yaşamalı, özünü məhz belə hiss etməlidir. Biz müstəqil Azərbaycan Respublikasını indiki ağır mərhələdən bu yolla çıxara bilərik. Ümidvaram ki, biz bu ağır dövrləri keçib gedəndən sonra Azərbaycan Respublikasının müstəqil dövlət kimi çox gözəl gələcəyi olacaq və burada yaşayan hər bir insan, milli mənsubiyyətindən, milli köklərindən asılı olmayaraq, – Amerika Birləşmiş Ştatlarındakı kimi, inkişaf etmiş başqa dövlətlərdəki kimi, – özünü bir azərbaycanlı, Azərbaycanın bərabərhüquqlu vətəndaşı hesab edib yaşayacaqdır. Biz bunu bu gün də təmin etməliyik və nə qədər yaxşı təmin etsək, bu çətinliklərdən də əl-ələ verib daha tez çıxa bilərik.

Bu gün mən Azərbaycanda yaşayan ləzgi xalqının bir qrup nümayəndəsi ilə görüşə gəlmişəm. Çoxdan idi ki, belə bir görüş keçirmək istəyirdim, Ancaq bir sıra hadisələr, proseslər olmuşdu. Təəssüf ki, indi bəzi məsələlər o qədər təcili xarakter daşıyır ki, planlaşdırılan məsələ görürsən bir-iki, üç, bəzən altı ay təxirə düşür. Nəhayət, mən bu gün bu imkanı əldə etmişəm və ona görə də sizi dəvət etmişəm. Respublikanın rəhbər vəzifəli şəxsləri də buradadırlar. Mən istəyirəm, sizə elan etdiyim bax bu müddəalar əsasında söhbət aparaq: nə etməliyik ki, dediyim kimi, ölkəmizdə hər bir Azərbaycan vətəndaşı özünü tamhüquqlu vətəndaş kimi hiss etsin, bütün imtiyazlardan istifadə edə bilsin, cəmiyyətimizdə özünə layiq, şübhəsiz ki, öz fəaliyyətinə münasib olan yer tuta bilsin.

Bax bu məqsədlə mən bu gün sizinlə görüşürəm. Ona görə də kimin bu barədə nə sözü, məlumatı, yaxud təklifi, arzusu varsa, sərbəst surətdə söhbət edə bilərik.

## YEKUN SÖZÜ

Öncə qeyd etmək istəyirəm ki, bugünkü səmimi söhbət belə bir görüşün çox zəruri olduğunu sübut edir. Əvvəldə dedi[198-199]yim kimi, mən belə görüşdə çoxdan iştirak etmək istəyirdim, ancaq vaxt imkan vermirdi. Nəhayət, biz buna nail olduq və çox məmnunam belə bir görüş baş tutdu.

Burada açıq söhbət getdi. Hərə öz fikrini dedi. Söylənilən fikirlərin, təkliflərin çoxu dəyərli, əhəmiyyətlidir və gələcək işlərimiz üçün çox faydalı olacaqdır. Hesab edirəm, ən əsas nəticə ondan ibarətdir ki, bugünkü görüş bir daha təsdiq edir, sübut edir və nümayiş etdirir ki, Azərbaycanda ləzgi problemi, azərbaycanlı-ləzgi münasibətləri problemi yoxdur. Bu, çox vacibdir. Ona görə ki, belə bir problemi süni surətdə yaratmaq istəyən adamlar var. Belələri Azərbaycanın özündə – azərbaycanlılar arasında da, ləzgilər arasında da var. Eyni zamanda Azərbaycandan kənarda ölkəmizə qarşı təxribat etmək niyyəti ilə yaşayan, Azərbaycanı parçalamaq istəyən qüvvələr belə bir problem yaratmağa çalışırlar. Onlar bizim respublikaya mənsub olmayan qüvvələrdir.

Açıq danışaq, Dağlıq Qarabağ problemini qaldıran, Azərbaycana qarşı təcavüzə başlayan Ermənistanın qatı millətçi dairələri indi Azərbaycanı başqa tərəfdən də parçalamağa çox cəhd göstərirlər. Bu baxımdan onlar ən çox ləzgi məsələsini ortaya atırlar. Ancaq bunu edən təkcə onlar deyil. Belələrinin arasında Azərbaycana xəyanət edən və indi qaçıb kənarda yaşayan adamlar da var. Bu, heç də təəccüb doğurmur. Çünki biz həmin adamların xalqa nə qədər xəyanət etdiklərini görürük. Vaxtilə Azərbaycanda vəzifə tutan və hazırda ondan kənarda yaşayan Ayaz Mütəllibov, Surət Hüseynov, Rəhim Qazıyev, Əlikram Hümbətov kimi cinayətkarlar öz şəxsi məqsədlərinə nail olmaq üçün həm açıq mətbuatda, həm də gizli surətdə yazılıb orada-burada paylamağa cəhd göstərilən vərəqələrdə Azərbaycanın şimalında problem yaradaraq ölkəni dağıtmaq istədiklərini gizlətmirlər.

Ona görə də bugünkü görüşümüzün əsas mənası, nəticəsi ondan ibarətdir ki, bu düşmənlər, xainlər, Azərbaycana xəyanət edən qüvvələrin, təşkilatların, insanların heç birisi buna nail ola bilməyəcəkdir. Çünki Azərbaycanda bu problem yoxdur. Burada arvadı azərbaycanlı olan ləzgi, yaxud arvadı ləzgi olan azərbaycanlı çıxış etdilər. Beləlləri o qədərdir ki, saymaq mümkün deyildir. Ən dəyərli söz ondan ibarət idi ki, Azərbaycan ləzgilər üçün doğma Vətəndir, doğma torpaqdır və onlar heç bir yerdə özlərini bu qədər rahat hiss etmirlər. Ali məktəbləri, akademiyanı götürün. Bunlarda milliyyətcə ləzgi olan [199-200] nə qədər alim var. Amma onların ləzgi olduğunu heç kəs bilmir və buna ehtiyac da yoxdur. Çünki indiyədək heç kim bu məsələni

qurdalamamışdır. Professor Əli Musayevi götürün. Çox dəyərli insandır. İnstitutda çalışır. Azərbaycan dilində təhsil almışdır. Bundan yaxşı nümunə olarmı?

Yaxud ordumuzda xidmət edən adamları götürək. Keçmişə nəzər salsaq, Azərbaycanın elə bir nöqtəsi yox idi ki, orada ləzgilər xidmət etməsinlər. Bu gün də belədir. Bu gün burada Hacıbalayev çıxış etdi. Mən əvvəlcə onu tanımadım, vaxt keçib, çoxdan görməmişdim. O, öz fəaliyyətinə Naxçıvanda başlamışdır. Naxçıvanda ləzgilər yaşamır. Amma o, rəhbər işçi kimi oraya göndərilmiş və çox yaxşı da işləmişdir. Xatirimdədir, o, vilayət partiya komitəsində şöbə müdiri idi. Biz onu Qusar rayonuna göndərdik, orada partiya komitəsinə rəhbərlik etdi. Mən on dörd il respublikada işlədim, o da on dörd il orada işlədi. Hələ məndən sonra da xeyli işləmişdir.

Belə misallarla vaxtınızı almaq istəmirəm. Mən bir dəfə demişəm, indi də təkrar edəcəyəm. O zaman mən çox gənc idim. Naxçıvan Nazirlər Sovetinin – həmin dövrdə xalq komissarları soveti deyirdilər – sədri milliyyətcə ləzgi olan Balamet Balametov idi. Kim onda deyirdi ki, o, ləzgidir? Deyəsən indi onun oğlu haradasa işləyir, eşitmişəm. Balametov gedəndən sonra Orduxanov Nazirlər Soveti sədrinin birinci müavini işləyirdi. Halbuki, yenə deyirəm. Naxçıvanda ləzgi yaşamır. Demək istəyirəm ki, onlar işləyir, özü də çox yaxşı işləyirdilər. Böyük izlər də qoymuşlar. Naxçıvan əhalisi də onlara çox hörmətlə yanaşırdı. Onlarla bir yerdə işləyənlər, tanıyanlar onlara indi də hörmət edirlər.

Yəni bizim aramızda azərbaycanlı-ləzgi söhbəti olmamışdır. Bunu süni surətdə yaratmaq istəyirlər. Bugünkü görüş göstərir ki, bunu yaratmaq istəyən adamların cəhdi puça çıxacaqdır. Bir daha deyirəm ki, bu, görüşümüzün əsas nəticəsidir.

Eyni zamanda professor Əli Musayev, başqa natiqlər bir neçə məsələ qaldırdılar. Çıxış edənlərin bəziləri doğru dedilər ki, bu problemlər hər yerdə var. Bunlar təkcə ləzgi üçün deyil, azərbaycanlı üçün də, rus üçün də, yaxud başqasından ötrü də problemlərdir. Bunlar bizim ümumi problemlərimizdir, bu çatışmazlıqlar hər yerdə var. Məsələn, professor Əli Musayev sərhədin bağlanması ilə ləzgilərin ağır vəziyyətə düşdüyünü deyir. Bu, doğrudur. Ləzgilər Dağıstanın ərazisində də yaşayırlar. Azərbaycanda isə təkcə Qusarda, Xaçmazda, Qubada [200-201] deyil, başqa yerlərdə – Şəkidə, İsmayıllıda, Qəbələdə də yaşayırlar. Onların da Dağıstanda qohumları var. Asya xanım da dedi ki, bəzilərinin orada uşaqları da oxuyur. Bəli, doğrudur.

Ancaq təsəvvür edin, sərhədin bağlanmasından Azərbaycanın çəkdiyi zərər, ona vurulan zərbə ayrı-ayrı adamların həyatında yaranmış çətinliklərdən, elə ləzgiləri götürsək, onların həyatında yaranmış çətinliklərdən qat-qat çoxdur. Bizim nəqliyyat əlaqələrimiz, mal mübadiləmiz, sənayemizin işləməsi ən çox Rusiya ilə və onun vasitəsilə şimal dövlətləri ilə, bir sözlə, dünya ilə bağlıdır. Şimaldan gələn dəmir yolunun bizdən ötrü həmişə böyük əhəmiyyəti olmuşdur, bəlkə də onun rolunu bağlanandan sonra bilirik. Amma biz bu yolun əhəmiyyətini həmişə bilmişik. Eyni zamanda avtomobil yolu da bağlanmışdır. Hətta, – bunun ləzgilərə heç bir dəxli yoxdur, – hava yolu, dəniz yolu da bağlanmışdır. Xəzər dənizindəki adalarda ləzgilər yaşamır ki, deyək, onlardan ötrü bağlanmışdır, yaxud bundan ötrü ləzgilər əziyyət çəkir. Bütün yollar bağlanmışdır.

Ona görə də buna ləzgilərin problemi kimi baxmaq olmaz. Bu, indi respublikamızın iqtisadiyyatına ən çox zərər vuran bir amildir. Bunu aradan qaldırmağa çalışırıq, amma mümkün olmur. Obyektiv səbəblərlə yanaşı, bunun subyektiv səbəbləri də var. Ali Sovetin sədri Rəsul Quliyev tamamilə doğru dedi. Bilirsiniz, indi Şimali Qafqazda proseslər gedir. Mən bu gün görüşümüzü başlayanda dedim ki, ümumiyyətlə milli, etnik ziddiyyətlərlə əlaqədar cürbəcür proseslər gedir. Şimali Qafqaz müxtəlif köklərdən, müxtəlif xalqlardan ibarət olan regiondur. İndi ora qaynayır. Bu, onların özlərinin, Rusiyanın problemidir. Bəli, biz dəfələrlə demişik, həm də ona görə yox ki, bu hadisələr baş vermişdir. Bu, beynəlxalq normalara, Birləşmiş Millətlər Təşkilatının nizamnaməsinə əsaslanan prinsipdir: hər bir dövlətin ərazi bütövlüyünün, suverenliyinin təmin olunması. Bu prinsipə, ümumbəşəri dəyərlərə və beynəlxalq normalara söykənən prinsipə əsasən dəfələrlə demişik ki, biz hər bir dövlətin, xüsusən Şimal qonşumuz, böyük qonşumuz Rusiyanın ərazi bütövlüyü prinsipinin nəinki tərəfdarıyıq, həm də onu müdafiə edirik və axıradək müdafiə edəcəyik. Biz istəyirik ki, müstəqil Azərbaycan Respublikasının ərazi bütövlüyü prinsipini hamı tanısın, müdafiə etsin. Şübhəsiz, tək buna görə yox. Rusiyanı, yaxud başqa bir dövləti, Gürcüstanı götürək. Yenə də deyirəm, hər birinin ərazi bütövlüyü bey[201-202]nəlxalq hüquq normalarına əsaslanan prinsipdir və bunu rəhbər tutaraq biz Rusiyanın ərazi bütövlüyünə tərəfdarıq. Bu, dövlətimizin mövqeyidir. Biz bunu demişik.

Fevralın 10-da Almatıda görüş zamanı Rusiyanın prezidenti cənab Boris Yeltsinlə danışarkən mən bizim bu mövqeyimizi bir daha bildirdim. Ancaq Rəsul Quliyev doğru deyir, Azərbaycanın, xalqımızın bəlalarından biri də odur ki, son illərdə meydana İsgəndər Həmidov kimi xalqa zərbə vuran adamlar çıxmışdır. Onun keçmişdə nə qədər zərbə vurduğunu indi hamı bilir. Amma o, respublikanın indiki vəziyyətinə belə təxribatçı hərəkətləri ilə, qəzetlərdə verdiyi təxribat xarakterli müsahibələrlə Azərbaycana nə qədər zərbə vurur. Ancaq və ancaq ona görə ki, hansı təbəqələrdəsə guya özünə şöhrət qazansın. Ona görə də Rusiyanın informasiya orqanları bir neçə dəfə məlumat vermişdir ki, guya Azərbaycandan Çeçenistana yaraqlılar gedərək döyüşlərdə iştirak etmişlər. Amma mən isə həm cənab Boris Yeltsinlə, həm də cənab Viktor Çernomırdinlə danışarkən demişəm ki, axı kimdir bu yaraqlılar, göstərin görək. Almatıda görüşəndə də demişəm. Kimsə, haradasa ucuz şöhrət naminə, özünə xal qazanmaq üçün gəvəziyirsə, boş-boş sözlər danışırsa, bunun heç bir əsası yoxdur.

Amma nə edəsən ki, belə şeylər ictimai rəy yaradır. Azərbaycana mənfi münasibət bəsləyən cürbəcür dairələr – belələri var – bundan dərhal istifadə edirlər. Beləliklə, Rusiyanın bəlkə də obyektiv səbəblərdən doğan tədbirlərini – sərhədlərin bağlanması ilə əlaqədar tədbirləri daha da ciddiləşdirirlər. Ona görə də bu problemlərin yaranmasının günahkarı öz daxilimizdə olan, Azərbaycan xalqına xəyanət edən adamlar, ayrı-ayrı qruplardır.

Amma eyni zamanda sərhədin bağlanması bir-iki adamın danışdığı sözlərlə əlaqədar deyildir. Bu, Şimali Qafqazda baş verən hadisələrlə bağlıdır. Bu hadisələrlə əlaqədar Rusiya Dağıstanın Çeçenistanla sərhədini də çox ciddi bağlamışdır. Rəsmi şəkildə elan etmişlər ki, Rusiyanın Azərbaycan ilə də, Gürcüstanla da sərhədi bağlanır. Bununla əlaqədar mən Rusiyanın prezidenti cənab Boris Yeltsinə rəsmi məktubla müraciət etdim. Vəziyyətimizin nə qədər ağır olduğunu bildirdim. O, mənə rəsmi cavab verdi ki, onlar bizim vəziyyətimizi başa düşürlər, ancaq indi hələ bir qərar qəbul etməyə imkanları yoxdur. Bir müddət öncə, mən belə bir cavab aldım.

Ancaq buna baxmayaraq, fevralın 10-da Almatı toplantısın[202-203]da cənab Boris Yeltsinlə xüsusi görüşdüm, danışdım və vəziyyəti ona ətraflı bildirdim, dedim ki, bu, bizim iqtisadiyyatımızı çox ağır vəziyyətə salmışdır. O, mənim xahişimə çox diqqətlə yanaşdı, elə yanımdaca Rusiya Sərhəd Qoşunlarının komandam general Nikolayevə göstəriş verdi ki, bu məsələyə baxılsın. General söz vermişdir ki, yaxın günlərdə Azərbaycana gələcək, sərhəddə olacaq və bu məsələni bizimlə müzakirə edəcəkdir. Biz çox xahiş edəcəyik ki, sərhəd açılsın.

Fürsətdən istifadə edərək mən təkcə sizə yox, ümumiyyətlə vətəndaşlarımıza, xalqımıza müraciət edirəm ki, gərək biz bu məsələlərdə respublikamızın, dövlətimizin, xalqımızın mənafeyini hər şeydən üstün tutaq, təxribatçı şayiələrə, danışıqlara, hərəkətlərə yol verməyək. Təəssüf ki, belə sözləri bir yerdə deyirlərsə, qalanları da onu bəzəyib qəzetlərdə yazırlar. Guya bununla böyük qəhrəmanlıq edirlər və Azərbaycan xalqına xidmət göstərirlər. Bir daha deyirəm, biz Rusiya dövlətinin başçıları ilə danışıqları davam etdirəcəyik ki, yollarımız açılsın. Bayaq dediyim kimi, dənizlə, hava ilə də yük gətirə bilmirik. Digər tərəfdən, özümüz gərək çalışaq ki, daxildə təxribatçılıq edən adamları zərərsizləşdirək, onların belə hərəkətlərinin qarşısını alaq.

Şübhəsiz ki, ləzgi əhalisi gediş-gəliş baxımından müəyyən qədər çətinlik çəkir. Ancaq respublika da çətin vəziyyətdədir. Biz bunu nəzərə alaraq həmin məsələ ilə məşğul oluruq və bundan sonra da məşğul olacağıq.

Professor Əli Musayev dedi ki, parlament seçkilərində ləzgilərə, ümumiyyətlə, milli azlıqlara xüsusi yer verilsin. Biz indi seçkilərə hazırlıq görürük. Seçki haqqında qanunun layihəsi hazırlanır, yaxın vaxtlarda ona baxacağıq. Qərar qəbul edildikdən sonra seçkilərin dəqiq vaxtı elan olunacaq və bu il seçki keçiriləcəkdir. Fürsətdən istifadə edərək demək istəyirəm ki, biz çalışırıq və bundan sonra da çalışacağıq ki, Azərbaycanda seçki qanunu dünyanın ən demokratik prinsiplərini özündə cəmləşdirən bir qanun olsun. Çünki biz demokratik hüquqi dövlət qurmaq yolu ilə gedirik, demokratik hüquqi cəmiyyət formalaşdırırıq. Düzdür, bu, uzun prosesdir. Heç kim düşünməsin ki, biz bunu elan edən kimi ona nail olacağıq. Belə bir demokratik hüquqi dövlət qurmaq üçün hələ çox iş görməliyik və şübhəsiz, bu, həm də çox vaxt aparacaq. Cəmiyyətimizdə həqiqi sivilizasiyalı şərait yaratmaq, ümumbəşəri dəyərlərdən faydalanan dünyəvi cəmiyyət yaratmaq üçün hələ çox işləmə[203-204]liyik. Bunun da əsasını qoyan amillərdən biri, şübhəsiz ki, bizim yeni parlament seçkilərimiz olacaqdır. Həmin seçkilərin də bu səviyyədə keçməsi üçün gərək onu təmin edən qanun olsun.

Ancaq mən dünya təcrübəsində hələ elə bir şey görməmişəm ki, seçkilərdə hansısa millətə yer vermək lazımdır. Əgər biz demokratiyadan danışırıqsa, heç yerdə belə şey yoxdur. Eyni zamanda bu, bizim əsas fikrimizə ziddir. Yəni biz doğrudan da, həqiqətən Azərbaycanda vətəndaşların hüquqlarının bərabərliyini təmin ediriksə, hər bir vətəndaşın hüquqlarını qoruyuruqsa, azadlığını təmin ediriksə, o, milliyyətindən, dilindən, dinindən, siyasi əqidəsindən və sairədən asılı olmayaraq seçki hüququna malikdir. Həm seçmək, həm də seçilmək hüququna malikdir. Ona görə də mən hesab edirəm ki, burada narahat olmağa əsas yoxdur.

Mən səslənən təklifi belə başa düşürəm ki, sadəcə olaraq seçki qanununda da, seçkilərin təşkilində, keçirilməsində də elə şərait yaradılsın ki, milliyyətindən asılı olmayaraq hər bir vətəndaş seçilə bilsin. Mən tam əminəm ki, ləzgilər də seçiləcəkdir. Ləzgiləri bir qrup kimi təsəvvür etmək olmaz ki, onları norma ilə seçək. Bir vaxtlar bəzi yerlərdən olan gəncləri, o cümlədən ləzgi uşaqlarını da institutlara müsabiqədənkənar qəbul etdirirdik. Bu, təbii idi. Çünki Azərbaycanın ayrı-ayrı rayonları, regionları eyni səviyyədə deyildi. Biz istəyirdik ki, bu səviyyələri bərabərləşdirək.

Yaxud da xatirinizdədir, keçmişdə Sovetlər İttifaqının Moskva, Leninqrad və başqa şəhərlərinin ali məktəblərinə Azərbaycandan müsabiqədənkənar tələbə göndərilməsinə nail olmuşduq. Nə üçün? Ona görə ki, Azərbaycan gənclərinin bir çoxu yüksək biliyə malik olsa da, rus dilini zəif bilirdi və gedib həmin ali məktəblərdə imtahan verərkən biliyini lazımınca nümayiş etdirməkdə çətinlik çəkirdi. Biz isə istəyirdik ki, onlar Moskvada, Leninqradda, Kiyevdə, Sverdlovskda və başqa yerlərdə oxusunlar.

Amma indi hansısa bir milli qrupu, milləti, xalqı, əhalinin bir hissəsini, hesab edək ki, seçkilərdə iştirak edib öz hüququ ilə keçə bilməz, ona bir şərait yaradaq – bu, əhalinin həmin hissəsi üçün də yaxşı deyil, sonra deyəcəklər ki, demokratik yolla seçilməyib, onlara xüsusi yer veriblər ki, gəlib otursunlar.

Keçmişdə Sovet İttifaqında ölkə parlamentinə və respublikaların parlamentlərinə, o cümlədən Azərbaycan parlamenti[204-205] nə seçkilərdə qayda belə idi: bu qədər kolxozçu olmalıdır, özü də gərək, məsələn, sağıcı, yaxud traktorçu və ya pambıqçı olsun və s. Mən bu işlərlə vaxtilə məşğul olmuş adamam. Keçmişi təhlil edərək

sizə deyə bilərəm ki, bəzən necə çətinliklərlə rastlaşırdıq. Məsələn, SSRİ parlamentinə üç-dörd rayondan bir deputat seçilirdi. Deyək ki, oradakı çox qabaqcıl kolxozçunu təqdim edə bilmirdik, çünki sağıcı lazım idi. Amma başqa yerdə sağıcını təqdim edəndə o, kolxozçular arasında o qədər də tanınmamış, savadı da olmayan namizəd alınırdı. Bu, o dövrün, o cəmiyyətin, həmin sistemin qüsurları idi. Bunları görmüşük. İndi biz bunlardan uzaqlaşmalıyıq. Mən tam əminəm ki, həm seçki qanunumuz, həm də seçkilərin təşkili hər bir vətəndaşa seçib-seçilməyə imkan verəcəkdir. Şübhəm yoxdur ki, Asya xanım kimi parlament üzvləri gələcək parlamentdə də olacaqdır.

Abbas Abbasov Piral hadisələri haqqında məlumat verdi. Etiraf etdi ki, doğrudan da komissiyanı toplamamışdır. Mən də belə fikirdəyəm ki, o vaxt böyük iş görüldü. Ola bilərdi ki, onda da kiçik bir hadisədən istifadə edərək böyük bir münaqişə yaratsınlar. Təsadüfi deyildi ki, o zaman mən dövlət komissiyası yaratdım və baş nazirin birinci müavinini onun sədri təyin etdim, başqa vəzifəli şəxslər də iş gördülər və məsələni həll etdilər. Mən o vaxt görülən işləri qiymətləndirir və hesab edirəm ki, problem həll olundu. Ancaq bunun sonra axıra çatdırılması, komissiyanın toplanması unudulmuşdur. İndi Abbas Abbasova tapşırıram ki, komissiyanı toplayıb məsələni müzakirə etsin, yekunlaşdırsın və prezident kimi mənə də, ictimaiyyətə, rayon əhalisinə də, bu təşəbbüsü qaldıran şəxslərə də məlumat versin. Bu, şübhəsizdir.

Professor Əli Musayev 1992-ci ildə prezidentin azsaylı xalqlar haqqında verdiyi fərmanın həyata keçirilməsi ilə bağlı məsələyə də toxundu. Bilirsiniz doğrusu, mən bu fərmanı görməmişəm, onun barəsində də bir şey deyə bilmərəm. "Azsaylı xalqlar" ifadəsini kimin dilə daxil etdiyini bilmirəm, ancaq mən də belə bir fikirdəyəm ki, "azsaylı", "çoxsaylı" ifadələrinə baxmaq lazımdır, məsələləri həll etmək lazımdır. Mən dövlət müşaviri Hidayət Orucova, Ramiz Mehdiyevə, Nazirlər Kabinetinə – Abbas Abbasova tapşırıram ki, fərmanı götürüb baxsınlar, əgər onda daxili işlərimizi yaxşılaşdırmaq üçün doğrudan da dəyərli şeylər varsa, fərmanın adından, onun kimin verməsindən asılı olmayaraq, həmin məsələləri həyata keçir[205-206]mək lazımdır. Mən hesab edirəm ki, dediyim adamlar professor Əli Musayevlə və bu məsələ barədə təşəbbüs qaldıran başqa şəxslərlə birlikdə fərmana baxaraq lazımi tədbirlər görərlər və istərdim ki, mənə də bu haqda məlumat verilsin.

Əli Musayev dedi ki, kimsə Milli Qəhrəman adına təqdim olunub, lakin verilməyib. Hərbi hissələrin birindən olan Ağakişiyev haqqında da danışdı. Mən bunu Ramiz Mehdiyevə, müdafiə məsələləri üzrə dövlət müşaviri Nurəddin Sadıqova tapşırıram – özü indi burada yoxdur – bu sənədlərlə tanış olsunlar və lazımi tədbirlər görülsün. Ancaq professor Əli Musayev çıxış edəndə də mən fikrimi qısaca bildirdim, sonrakı natiqlərin çıxışlarında da bu məsələlər səsləndiyinə görə demək istəyirəm ki, Azərbaycan Respublikası altı ildən artıqdır müharibə şəraitindədir. Müharibəni də Azərbaycan başlamayıb, bilirsiniz ki, bu, Ermənistanın təcavüzüdür. Siz burada qiymətləndirdiniz ki, doqquz aydan çoxdur atəşkəsə nail olmuşuq. Bu, doğrudan da çox müsbət hadisə, böyük nailiyyətdir. Məqsədimiz də ondan ibarətdir ki, bunun əsasında böyük sülh müqaviləsi bağlayaq, müharibənin yenidən başlanmasına yol verməyək, işğal edilmiş torpaqlarımız sülh yolu ilə azad olunsun, respublikanın tam ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilsin. Mən belə fikirdəyəm ki, gələcək nəsillər Azərbaycanda da, Ermənistanda da yaşayacaqlar, vaxt gələcək, bütün bu yaralar, ziddiyyətlər də aradan qalxacaq, qonşu dövlətlə sülh şəraitində yaşayacağıq.

Biz bu sahədə çalışır, işləyirik. Ancaq indiyə qədər torpaqlarımızın müdafiəsində Azərbaycanın vətəndaşları, qəhrəman insanları şəhid olmuşlar, yaralanmış, əlil olmuşlar. Minlərlə ailələrə böyük zərbələr vurulmuşdur. Şəkidən gəlmiş hörmətli dostumuz burada çıxış edəndə dedi ki, onun da ailəsindən şəhid olanlar var. Bəli, indi çox az ailə tapmaq olar ki, şəhid verməsin, yaralanan olmasın, müharibənin ağrı-acısı ona toxunmasın.

Böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki, Azərbaycan Respublikasının bütün regionlarının əhalisi bu müharibədə iştirak edir. Ola bilər, biri az, başqası çox, amma hamısı iştirak edir. Özü də bütün xalqlar iştirak edir, azsaylı, çoxsaylı söhbəti yoxdur. O cümlədən Azərbaycanın ləzgi əhalisi torpaqlarımızın müdafiəsində, erməni işğalçılarına qarşı müharibədə qanlarını tökmüş, şəhidlər vermişdir. Mən bunu yüksək qiymətləndirirəm, xalqımız yüksək qiymətləndirir, tarix də yüksək qiy[206-207]mətləndirəcəkdir. Mən şəhidlərimizin, o cümlədən respublikamızın ləzgi əhalisindən olan şəhidlərin ruhu qarşısında baş əyir və ləzgi əhalisinə öz təşəkkürümü, minnətdarlığımı bildirirəm. Milliyyətindən, sayından asılı olmayaraq Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri bu gün də ordumuzun sıralarında sıravi əsgərdən tutmuş komandirə, generala qədər müxtəlif səviyyələrdə xidmət edirlər. Azərbaycanın ləzgi əhalisinin nümayəndələri də xidmət edirlər və gələcəkdə də xidmət edəcəklər. Biz bunu da yüksək qiymətləndiririk.

Ancaq konkret məsələlər ki, qaldırıblar, onlara baxılsın və lazımi tədbirlər görülsün, – əgər bu təkliflər doğrudan da məqsədəuyğundursa, lazımi qərar da qəbul edə bilərik.

Burada "Samur" ləzgi mədəniyyət mərkəzinə bina verilməsi barədə məsələ qaldırıldı. Bu barədə qərar var, lakin indiyədək bina ayrılmamışdır. Mən hesab edirəm ki, onları bina ilə təmin etmək lazımdır. Bakı şəhər icra hakimiyyətinin başçısı Rəfael Allahverdiyevə tapşırıram ki, bu məsələyə baxsın, qısa müddətdə münasib bina ayrılsın və tapşırığın icrası barədə mənə məlumat verilsin.

Asya xanım Dağıstanla Azərbaycan arasında konsulluq yaratmaq haqqında məsələ qaldırdı. Bilirsiniz, bu, bir az mürəkkəb məsələdir. Ancaq, şübhəsiz ki, nümayəndəlik yaratmaq lazımdır. Sizə bildirmək istəyirəm ki,

Dağıstanın rəhbərliyi ilə bizim çox sıx əlaqəmiz var. Onlarla telefonla danışıram. Hələ Şimali Qafqazdakı hadisələr başlanmazdan əvvəl danışmışdıq ki, onlar sərhədə gələcək, mən də gedəcəyəm, görüşəcəyik. Ancaq ara qarışdı, bu məsələ bir az təxirə düşdü. Lakin mütləq görüşəcəyik. Mənim fikrim var ki, Dağıstana da gedim, onları da dəvət etmişəm. On gün öncə mən Dağıstanın rəhbəri Məhəmmədəli Maqomedovla telefonla danışdım, bu məsələləri müzakirə etdik. Bizim çox yaxşı münasibətlərimiz var və bunları inkişaf etdiririk. Ləzgilər Dağıstana mənsub deyil, bunu bilin. Məgər Azərbaycanda ləzgilər Dağıstandakından azdırlar? Ləzgilər Azərbaycana mənsubdurlar. Dağıstanda 150 minədək azərbaycanlı yaşayır, özü də çox yaxşı yaşayırlar. Vaxtilə Dağıstanda azərbaycanlılar indikindən də çox olub. 1920-ci ildən, sovet hakimiyyəti qurulandan sonra bir çox azərbaycanlı Dağıstana rəhbərlik etmişdir. Ona görə Dağıstanla Azərbaycanın əlaqəsi çox sıxdır. Bu əlaqələr təkcə ləzgilərlə deyil, avarlar, kumıklar, laklar, tabasaranlar və başqaları ilə Azərbaycanı elə sıx bağlamışdır ki, indi bizim ailəvi birliyimiz, [207-208] qarışıq ailələr yaranmışdır. Yenə deyirəm, əgər nümayəndəlik yaratmaq mümkün olsa, onu edərik. Ancaq Dağıstanla əlaqələrimiz, təkcə ləzgi məsələsinə, ləzgilərə görə yox, ümumiyyətlə, bundan sonra daha da inkişaf etməlidir. Asya xanım, sizə hətta bəzi tövsiyələr də olub ki, bunları etmək lazımdır. Bu, elə bizim içimizdən gələn fikirlərdir, bunları həyata keçiririk və keçirəcəyik.

Burada qaldırılan başqa məsələlərə də tapşırıram ki, baxılsın. Asya xanım təklif etdi ki, Milli Münasibətlər Komitəsinə ictimai əsaslarla ştat verilsin. Sonra da belə təklif oldu ki, Milli Münasibətlər Komitəsi lazım deyil. Bilirsiniz, biz keçid dövründəyik. O şeyi ki, istəyirik, ona hələ nail olmalıyıq. Bundan ötrü isə çox çətin yollarla gedirik və gedəcəyik. Milli Münasibətlər Komitəsi yaradılıb, amma fəaliyyət göstərmir. Mən hesab edirəm ki, o, fəaliyyət göstərməlidir. Biz istəsək də, istəməsək də kimsə bunu bir yerdə, digəri başqa yerdə qaldıracaq. İndi biz burada yığışdıq, danışdıq, hamımız bir-birimizlə həmrəyik. Amma biz deyə bilmərik ki, bu fikirlərimizə müxalifətdə olan adamlar yoxdur. Mən bunu dedim, eyni zamanda unutmamalıyıq ki, bax bu məsələlərdə Azərbaycanı parçalamaq, dağıtmaq istəyən qüvvələr var. Həm burada, həm də xaricdə belə qüvvələr var. Məsələn, Rusiya kimi bir dövlətdə də Millətlərarası Münasibətlər Komitəsi var, ona Şaxray rəhbərlik edirdi, indi isə Yeqorov başçılıq edir.

Bizdə də bu orqan olmalıdır, Abbas Abbasov işləməlidir. O mənada yox ki, bu gün bir hadisə baş verdi, getdi, həll etdi. Daim bu problemlə məşğul olmalıdır. Prezident Aparatında dövlət müşaviri var, Hidayət Orucov bu məsələlərlə məşğul olur. Lakin bu, aparatdır. Abbas Abbasov isə baş nazirin birinci müavini çox yüksək səlahiyyəti olan adamdır. Ona görə belə bir adamın eyni zamanda Milli Münasibətlər Komitəsinin fəaliyyətini gücləndirməsinə ehtiyac var. Bunun üçün ştat lazımdırsa, verək. Çünki bu məsələləri süni surətdə yaradan adamlar var, bunlara son qoymaq üçün, vaxtında tədbir görmək, başqa işləri həyata keçirmək üçün komitənin fəaliyyəti gücləndirilməlidir. Məsələn, burada dərslikdən, filandan danışıldı. Bir işlə Təhsil Nazirliyi, deyək ki, başqa işlə Mədəniyyət Nazirliyi məşğul olur. Bunların hamısını əlaqələndirməkdən ötrü belə bir komitəyə, şübhəsiz ki, ehtiyac var. Abbas Abbasova bir də tapşırıram ki, bu sahədə fəaliyyətini gücləndirsin və ştatla bağlı təklifini versin. [208-209]

Qalan məsələləri də Abbas Abbasova, Hidayət Orucova, Ramiz Mehdiyevə tapşırıram, baxsınlar və həll etsinlər. Burada bizim hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak edirlər. İnformasiya ilə məşğul olan nazirləri də dəvət etmişəm. Bir şey yadımdan çıxmışdı, mənə xatırlatdılar. Professor Əli Musayev radio verilişləri barədə də danışdı. Xahiş edirəm, bu məsələyə də baxın. Qəzet məsələsinə də toxundular. İş burasındadır ki, indi biz dövlət tərəfindən yalnız “Azərbaycan” qəzetini çıxarırıq. Başqa heç bir qəzet buraxa bilmirik. Mən hesab edirəm ki, əgər mədəniyyət mərkəzi varsa, o özü də qəzet çıxarmalıdır. Mən kömək etmək məsələsini qoymuşam, kömək lazımdır. Abbas Abbasova da, Hidayət Orucova da tapşırıram ki, baxsınlar, görək nə etmək olar. Amma prinsip budur. Məsələn, əgər biz böyük bir dövlətiksə, cəmi bir qəzet buraxa bilirik, başqa heç bir qəzet saxlaya bilmirik. Dərsliklər barədə də təklifləri verin. Təhsil naziri özü yoxdur, müavini buradadır, mətbuat və informasiya naziri Sabir Rüstəmxanlı, Teleradio Şirkətinin sədri də buradadır. Hərə öz sahəsində lazımi işləri görsün.

Mən bir məsələni də demək istəyirəm: bizim öz içərimizdən çıxan adamlar həm Azərbaycanın daxilində, həm də ondan kənarda bəzi məsələləri qızışdırmaq istəyirlər. Mütəllibovun Moskva qəzetlərinə verdiyi müsahibələri oxumusunuz. O, həmin məsələləri orada qızışdırır. Rəhim Qazıyev, Əlikram Hümbətov qaçıblar, axtarışdadırlar. Deyirlər ki, Moskvadadırlar, yaxud başqa yerdədirlər. Şübhəsiz ki, bu işlə məşğul olan orqanlar onların harada olduqlarını biləcəklər. Ancaq onlar artıq Azərbaycanın dövlətçiliyinə qarşı, cəmiyyətimizə qarşı təxribatla məşğuldurlar. Vaxtilə bir cinayət etmiş və buna görə həbs olunmuşdular. Sonra ikinci cinayət etmişlər – qaçmışlar. İndi üçüncü bir cinayət edərək Azərbaycanın daxili sabitliyini pozmaq üçün çirkin işlər görürlər. Belə şayiələr yayırlar ki, Azərbaycanın məhz şimal zonasında guya toqquşma yaradacaqlar, kimsə onlara kömək edəcək, buraya gəlib Azərbaycanı içəridən dağıdacaqlar.

Birincisi, mən bu gün bəyan edirəm ki, heç kəs, heç bir qüvvə indi Azərbaycanın sabitliyini poza bilməz. Hansı biri cəhd göstərərsə, Azərbaycan xalqı, Azərbaycan dövləti onun qarşısını almağa qadirdir. Onlara xəbərdarlıq edirəm ki, bu bəd əməllərindən, çirkin hərəkətlərindən, xəyanətkar işlərin[209-210]dən əl çəksinlər. Vərəqələr yayaraq camaatı harayasa dəvət edirlər, – bundan əl çəksinlər. Heç bir şeyə nail ola bilməyəcəklər.

Ola bilər, yeni bir böhranlı vəziyyət yaratsınlar, amma xalqımız buna cavab verəcəkdir. Xalqımız oktyabrın 4-də dövlət çevrilişi cəhdinə cavab verdiyi kimi, yenə də cavab verəcəkdir.

Bir halda ki, ləzgi əhalinin nümayəndələri buradadır, mən xüsusi qeyd edirəm: oktyabrın 4-də ləzgi əhali Azərbaycan xalqının bütün təbəqələri ilə, bütün bölgələri ilə həmrəy idi. Mən bunu qiymətləndirir və əmin olduğumu bildirirəm ki, – burada çıxışlarda da dedilər – onlar Azərbaycanın dövlətçiliyini qorumaq üçün, ölkədə daxili ictimai-siyasi sabitliyi saxlamaq, respublikamızın müstəqilliyini müdafiə etmək üçün əllərindən gələni əsirgəməyəcəklər. Ona görə də həmin o təxribatçılara, Moskvada oturaraq, yaxud oraya-buraya gedərək cürbəcür vərəqələr, şayiələr yaymaqla Azərbaycanın daxili sabitliyini pozmağa çalışan xainlərə xəbərdarlıq edirəm ki, bu əməllərindən əl çəksinlər. Onlar heç nəyə nail ola bilməyəcəklər.

Burada dedilər, güman edirəm ki, bizim şimal zonamızda, Rusiya ilə sərhəd zonasında yaşayan vətəndaşlarımız, Azərbaycan Respublikasının vətəndaşları milliyyətindən, milli kökündən asılı olmayaraq sərhədlərimizin keşiyində, müstəqilliyimizin, dövlətçiliyimizin keşiyində dayanacaqlar.

Bu sözlərlə görüşümüzü bitirmək istəyirəm. Görüşə dəvət olunan vətəndaşlarımıza, alimlərimizə, dostlarımıza bugünkü səmərəli, mehriban söhbət üçün təşəkkürümü bildirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, işgüzar, mehriban əməkdaşlığımızı bundan sonra da davam etdirəcək və qarşımızda duran problemləri aradan qaldıracağıq.

Sağ olun. [210]

## AKADEMİK İMAM MUSTAFAYEVƏ

Hörmətli İmam Mustafayev!

Sizi 85 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycan xalqı Sizi həyatını kənd təsərrüfatının müxtəlif sahələrinin inkişaf etdirilməsinə sərf etmiş. görkəmli alim, tanınmış ictimai xadim, fəaliyyətini Vətəninə, xalqına xidmətə həsr etmiş böyük vətəndaş kimi tanıyır.

Siz 65 illik yorulmaz, məhsuldar fəaliyyətiniz sayəsində geniş xalq kütlələrinin məhəbbət və ehtiramını qazanmışsınız. İnanıram ki, Siz bundan sonra da elmi və ictimai fəaliyyətinizi davam etdirəcək, yeni-yeni nailiyyətlər əldə edəcəksiniz. Sizə bu şərəfli yolda uzun ömür, möhkəm cansağlığı, xoşbəxtlik arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*23 fevral 1995-ci il* [211]

**ESTONİYA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**LENNART MERİ CƏNABLARINA**

Zati-aliləri!

Estoniya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün dost eston xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ölkənizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Ümidvaram ki, Azərbaycan ilə Estoniya arasında dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın rifahı naminə inkişaf edəcəkdir.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*24 fevral 1995-ci il* [212]

**KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ**
**ƏLAHƏZRƏT ŞEYX CABİR**
**ƏL-ƏHMƏD**
**ƏS-SABAHA**

Əlahəzrət!

Küveyt dövlətinin milli bayramı münasibətilə Sizi və bütün dost Küveyt xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ölkənizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Ümidvaram ki, Azərbaycan ilə Küveyt arasında dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın rifahı naminə inkişaf edəcəkdir.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*24 fevral 1995-ci il* [213]

## XOCALI SOYQIRIMININ ÜÇÜNCÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN XALQINA MÜRACİƏTİ

Əziz həmvətənlərim!

Xalqımızın milli müstəqillik uğrunda mübarizə tarixində ən qanlı səhifələrdən biri olan Xocalı faciəsindən üç il keçir. Xaricdəki imperiyapərəst qüvvələrin dəstəyi ilə törədilən bu soyqırımı erməni qəsbkarlarının müstəqil Azərbaycan dövlətinə qarşı yeritdiyi məqsədyönlü təcavüz planının ən amansız həlqəsi, misli görünməmiş vəhşilik aktı, təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı törədilmiş cinayət kimi XX əsrin tarixinə daxil olmuşdur. Günahsız dinc əhaliyə tutulmuş amansız divan, ağlasığmaz qəddarlıq erməni irticasının və onun xaricdəki havadarlarının iç üzünü beynəlxalq ictimaiyyət qarşısında bütün çılpaqlığı ilə açıqladı.

Bu ağır faciənin baş verməsinə respublika daxilində gedən hakimiyyət davaları da əlverişli zəmin yaratmışdı. O zamankı iqtidarın siyasi səbatsızlığı, ümummilli mənafelərə zidd mövqeyi Xocalı faciəsinin törədilməsində az rol oynamamışdır.

Milli varlığımız və istiqlaliyyət uğrunda dönməz mübarizəmizə qarşı yönəldilmiş belə məqsədyönlü cinayətlər nə qədər amansız olsa da, xalqımızın mübarizə əzmini qıra bilməmiş, onun mətin iradəsini sarsıtmamışdır.

Bu milli hüzn günündə də Azərbaycan xalqını öz iradə və əzmini qoruyub saxlamağa, milli dövlətçiliyimiz və tam müstəqilliyimiz uğrunda gələcək mübarizələrə səfərbər olmağa çağırıram. Bunu bizdən şəhidlərimizin müqəddəs ruhları tələb edir.

Xocalı faciəsinin günahsız qurbanlarının müqəddəs ruhu qarşısında bir daha baş əyir, xalqımıza başsağlığı verirəm.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*25 fevral 1995-ci il* [214]

## XOCALI SOYQIRIMININ ÜÇÜNCÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR KEÇİRİLƏN MƏRASİMDƏ ÇIXIŞ

*Təzəpir məscidi*

*26 fevral 1995-ci il*

Hörmətli həmvətənlərimiz! Hörmətli müsəlmanlar!

Bu gün biz Təzəpir məscidinə, Allah evinə matəm günü münasibətilə toplaşmışıq. Xocalı soyqırımının, faciəsinin üçüncü ildönümünü qeyd edirik.

Azərbaycan xalqı çoxəsrlik tarixində, öz həyat yolunda böyük qələbələr çalmış, yüksək zirvələrə qalxmış, dünya mədəniyyətini zənginləşdirmişdir. Müsəlman aləmi dünya mədəniyyətinə Qurani-Kərim kimi müqəddəs bir kitab bəxş etmişdir. Azərbaycan xalqı çoxəsrlik tarixində böyük bəlalarla da rastlaşmış, müxtəlif mərhələlərdə faciələr də baş vermişdir. Həmin faciələrdən biri də erməni qəsbkarlarının, işğalçılarının xalqımıza qarşı altı ildən bəri davam edən təcavüzüdür və bu təcavüz nəticəsində torpaqlarımızın parçalanması, bir qisminin əldən getməsi, vətəndaşlarımızın həlak olması, qan tökülməsidir. Amma bu ümumi bəlanın içərisində Xocalı faciəsi ən dəhşətlisidir, bizim üçün ən ağır yaradır.

Tarixdə insanın insana qarşı vəhşilik etməsi halları dəfələrlə qeyd olunub. Soyqırımı da dünyanın bir çox yerlərində baş veribdir. Azərbaycana qarşı Ermənistan qəsbkarları, təcavüzkarları tərəfindən edilən soyqırımı bunların ən dəhşətlilərindən biridir. Uzun müddət, demək olar ki, XX əsr ərzində Azərbaycan xalqına, millətinə qarşı Ermənistan təcavüzkarları tərəfindən olunan soyqırımları xalqımıza böyük yaralar vurmuşdur. Onların arasında ən böyük, ən ağır yaralardan biri Xocalı soyqırımıdır, altı il davam edən müharibədir.

Müharibəni erməni təcavüzkarları başlayıblar. Azərbaycan xalqı öz torpaqlarını qoruyur. Şübhəsiz ki, müharibədə qan da tökülür, şəhidlər də veririk, böyük əzab-əziyyətlər də çəkirik. Ancaq üç il bundan əvvəl xocalılara, dinc əhaliyə qarşı, qadına, uşağa, qocaya, xəstəyə qarşı qəsbkarlar tərəfindən vəhşicəsinə aparılmış hərbi əməliyyat, soyqırımı altı illik müharibənin ən dəhşətli mərhələsidir və ən ağır, qara səhifəsidir. [215-216]

Xocalı hadisələri bir də onu göstərdi ki, ermənilər Azərbaycanın təkcə torpaqlarına göz dikmək, ərazimizi qəsb etmək yox, xalqımıza qarşı soyqırımı törətmək kimi vəhşi bir yola düşmüşlər. Bu, Xocalı hadisələrində özünü açıq-aşkar büruzə verdi. O dəhşətli gecədə Azərbaycan xalqının ürəyinə bir süngü taxıldı. O süngü indiyədək bizi sızıldadır. Bu yara hələ sağalmayıb, bağlanmayıb, bu yara qəlbimizdə həmişə olacaqdır. Qeyd etdiyim kimi, gecə vaxtı dinc əhaliyə hücum etmək, uşağı, qadını, qocanı, xəstəni vəhşicəsinə yerindəcə məhv etmək, öldürmək və onlara görünməmiş qəddarlıqla əzab-əziyyət vermək düşmənlərimizin nə qədər vəhşi olduğunu bir daha sübut edir.

Xocalı soyqırımı, ermənilərin xalqımıza qarşı təcavüzü, vəhşiliyi, insana qarşı ən rəzil üsullardan istifadə etməsi bəşəriyyət tarixinə daxil olub və olacaqdır. O gecə, o günlər həlak olanlar, dünyadan gedənlər Azərbaycanın əziz vətəndaşlarıdır, onlar respublikamızın ərazi bütövlüyü yolunda qurban olublar, xalqımızın milli azadlıq yolunda apardığı mübarizənin qurbanlarıdır, şəhiddirlər. Onların faciəli surətdə həlak olması, şəhid olması Azərbaycan xalqının qəhrəmanlığının, mətanətinin, cəsarətinin nümayişidir.

Altı ildən artıq gedən müharibədə biz çox şəhidlər vermişik. Bir də qeyd edirəm ki, Xocalı şəhidləri də Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, müstəqilliyi yolunda şəhid olmuş vətəndaşlarımızdır. Bu gün biz burada onların xatirəsini qeyd edirik, onların ruhu qarşısında baş əyirik, onlara dua edirik. Mən bütün Azərbaycan xalqı adından, Azərbaycan dövləti adından bu matəm günündə xalqımıza bu faciəli hadisə münasibətilə bir daha başsağlığı verirəm. Xocalıda şəhid olanların ailələrinə, qohum-əqrəbalarına dərin hüznlə başsağlığı verirəm. Allah Xocalı şəhidlərinə rəhmət eləsin. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allah Xocalı şəhidlərinin ailələrinə səbir versin. Allah bütün xalqımıza səbir versin. Allah səbir versin ki, biz bütün bu bəlalardan qurtaraq, müstəqil Azərbaycanın tam müstəqilliyini, ərazi bütövlüyünü təmin edək, müstəqil Azərbaycanı əbədi olaraq yaşadaq.

Xocalı faciəsi bizim dərdimizdir, kədərimiz, qəmimizdir. Ancaq eyni zamanda Azərbaycan xalqının əsrlər boyu keçdiyi mübarizə yolu, milli azadlıq yolu şanlı, uğurlu yoldur. Keçmişdə də bizim yolumuzda çətinliklər olub. Çətinliklər bu gün də var. Ancaq heç bir şey Azərbaycan xalqının iradəsini sındır[216-217]mayıb və sındırmayacaqdır. Biz belə hadisələrdən onu götürməliyik ki, daha da cəsur olmalıyıq, daha da mətin, daha da bir olmalıyıq. Dərk etməliyik ki, biz özümüz öz taleyimizin sahibi olduğumuz kimi, özümüz də öz taleyimizi, öz müstəqilliyimizi qorumalı, Allahın bizə buyurduğu yolla gedərək öz yolumuzu açmalı və bu yolla irəliləməliyik.

Buna görə də biz bu gün bütün şəhidlərin ruhuna rəhmət oxuyaraq, eyni zamanda başımızı dik tutmalıyıq. Nə qədər qəmgin olsaq da, o qədər də nikbin olmalıyıq, irəliyə, gələcəyə ümidlə baxmalı, ümidlə yaşamalıyıq. Mən tam əminəm ki, Azərbaycan xalqı bu ağır mərhələlərdən də keçəcəkdir. Çətinliklər təkcə müharibə, torpaqlarımızın işğal edilməsi, qaçqınlarımızın ağır vəziyyətdə olması ilə bağlı deyil. İndi xalqımız keçid

dövründə yaşayır. Sosial-iqtisadi böhran içərisindəyik. İnsanların həyatında, yaşayışında çətinliklər həddindən artıq çoxdur. Ancaq bizim xalqımız əsrlər boyu belə çətin mərhələlərə dözüb, onlardan keçib və ona görə də min illərlə yaşayıb, bundan sonra da min illərlə yaşayacaqdır.

Biz öz inamımızı itirməməliyik, məsləkimizdən, tutduğumuz yoldan çəkinməməliyik. Tutduğumuz bu yol Azərbaycanın müstəqilliyidir, milli azadlığıdır, müstəqil Azərbaycanın müstəqil dövlət kimi əbədi olmasıdır. Tutduğumuz yol bizim mənəvi dəyərlərimizə, adət-ənənələrimizə, dinimizə, dilimizə, tariximizə sədaqətimizdir. Bunlara nə qədər sadiq olsaq, bugünkü ağır şəraitin səbəblərini bir o qədər dərk edəcək, bir-birimizə əl tutacağıq, kömək edəcəyik, erməni qəsbkarlarının qarşısını da alacağıq. Torpaqlarımızı da azad edəcəyik və xalqımızı, respublikamızı bu böhran vəziyyətindən də çıxaracağıq.

Mən əminəm ki, tutduğumuz yol şərəfli, doğru yoldur, xalqımızın mənafeyini təmin edən yoldur. Biz bu yol ilə də gedəcəyik. Azərbaycanın müstəqil dövləti xalqımızın birliyinə əmindir, onun mətanətinə inanır və bu birliyimiz, mətanətimiz, dəyanətimiz, dözümlülüyümüz bizi bu ağır vəziyyətdən çıxaracaqdır.

Mən Xocalı şəhidlərinə bir daha Allahdan rəhmət diləyirəm. Bütün şəhidlərimizə Allahdan bir daha rəhmət diləyirəm. Sizi bir daha əmin etmək istəyirəm ki, Azərbaycan dövləti xalqımızın hüquqlarının qorunmasında, torpaqlarımızın, ərazilərimizin qorunmasında möhkəm duracaq və Azərbaycan xalqını bu bəlalardan çıxaracaqdır. [217]

## AZƏRBAYCAN XALQININ MİLLİ MATƏM GÜNÜ – XOCALI SOYQIRIMININ ÜÇÜNCÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR MATƏM MƏRASİMİNDƏ ÇIXIŞ

*Müslüm Maqomayev adına*
*Azərbaycan Dövlət Filarmoniyası*

*26 fevral 1995-ci il*

Hörmətli bacılar, qardaşlar, hörmətli həmvətənlər!

Biz, burada toplaşanlar – hamımız bu matəm mərasiminin təsiri altındayıq. Xocalı faciəsinin üçüncü ildönümü münasibətilə bütün Azərbaycan xalqına bir daha başsağlığı verirəm. Xalqımıza səbir diləyirəm. Allah Xocalı faciəsinin bütün qurbanlarına rəhmət eləsin. Onlar Azərbaycan xalqının milli azadlığı uğrunda, Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi, müstəqilliyi uğrunda həlak olublar, şəhid olublar. Bu gün biz hamımız o şəhidlərin ruhu qarşısında bir daha baş əyirik. Allah onlara rəhmət eləsin. Allah onların ailələrinə, buraya toplaşanların hamısına səbir versin. Allah Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda, torpaqlarımızın müdafiəsi uğrunda şəhid olanların hamısına rəhmət eləsin.

Bugünkü ədəbi matəm mərasimi, güman edirəm ki, bu salona toplaşanların hamısını həyəcanlandırdı. Xocalı faciəsi gözümüzün önündə bir daha canlandı. Biz kədər içindəyik, qəm içindəyik. Üç ildir ki, biz bu qəm-dərdi çəkirik. Bu gün biz Xocalı faciəsinin nə qədər dəhşətli faciə olduğunu və Azərbaycan xalqına nə qədər böyük zərbə vurduğunu bir daha dərk etdik, bir daha hiss etdik. Ancaq eyni zamanda, bu gün burada səslənən sözlər onu göstərir ki, bu faciə də, bu soyqırımı da, son altı ildə Azərbaycanın başına gələn bəlalar da xalqımızın iradəsini qırmayıbdır və qıra da bilməz! Əksinə, hər belə hal – Xocalı soyqırımı, Xocalı faciəsi, başqa faciələrimiz bu gün burada deyilən sözlər kimi, bizim hamımızda daha çox inam yaradır. Hamımızı daha cəsarətli, rəşadətli, mətanətli olmağa dəvət edir. Hamımızı dəvət edir ki, biz toplaşıb Xocalı faciəsinin cavabını verək, şəhidlərin qanının yerdə qalmaması [218-219] gününü görək, Azərbaycanın ərazi bütövlüyünü təmin edək. Müstəqil Azərbaycanın hüdudlarını tamamilə bərpa edək. .

İnanıram ki, Azərbaycan xalqı belə qüdrətə malikdir. İnanıram ki, Azərbaycan xalqı buna nail olacaq və inanıram ki, bugünkü gecə də hamımızı buna dəvət edir. İnanıram ki, bu gün burada səslənən sözlərdən hər kəs özü üçün nəticə çıxaracaqdır və mən də sizin kimi, gələcəyə nikbin baxıram.

Xalqımız uzun, çoxəsrlik tarixində belə bəlalardan çox keçibdir. Belə qaranlıq günlərin işıqlı günləri olur, xoşbəxt günləri olur. Onlar qabaqdadır. Biz o günlərə doğru gedirik və heç vaxt başımızı aşağı salmamalıyıq. Biz qəmlənərək, eyni zamanda gücümüzü toplamalıyıq və toplayırıq da. Əminəm ki, haqq-ədalət öz yerini tutacaq. Azərbaycan xalqının haqq işi başa çatacaq. Azərbaycan xalqı müstəqilliyini tam bərqərar edəcək, bütün ərazisinin sahibi olacaq, bütün taleyinin sahibi olacaq, ölkəmiz müstəqil dövlət kimi əbədi yaşayacaqdır. Mən buna inanıram və əminəm ki, siz də inanırsınız. Əminəm ki, bütün Azərbaycanın həqiqi vətənpərvər insanları da, vətəndaşları da buna inanırlar.

Mən bu inamla bu gecədən ayrılıram və bu gecəni hazırlayanlara, onu tərtib edənlərin hamısına təşəkkür edirəm. Hörmətli şairimiz Zəlimxan Yaquba, hörmətli sənətkarımız Mikayıl Mirzəyə və bu mərasimdə iştirak edənlərin hamısına təşəkkür edirəm. Siz bizi həm kədərləndirdiniz, həm də bizə güc verdiniz, bizi nikbin etdiniz. Sağ olun. Bir daha, Allah Xocalı faciəsinin qurbanlarına rəhmət eləsin. Sağ olun. [219]

## YAZIÇI GƏRAY FƏZLİYƏ

Hörmətli Gəray Fəzli!

Sizi 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycan xalqı Sizi, həyatını ədəbiyyatımızın və mədəniyyətimizin inkişafına həsr etmiş vətənpərvər şair, görkəmli nasir və publisist kimi tanıyır. Siz dəyərli yaradıcılıq nümunələrinizlə geniş oxucu kütləsinin dərin rəğbətini qazanmısınız. Müxtəlif illərdə çap etdirdiyiniz bir çox şeir və nəsr kitabları xalqımızın mədəni-əxlaqi tərbiyəsi işində böyük rol oynamış, Azərbaycanda gedən ictimai proseslərin bədii inikası kimi xüsusi maraq doğurmuşdur.

Sizə uzun ömür, cansağlığı, müstəqil Azərbaycan Respublikasının mədəniyyətinin inkişafı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*2 mart 1995-ci il* [220]

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Mərhəmətli, rəhmli Allahın adı ilə!

Əziz bacı və qardaşlar! Müqəddəs kitabımız Qurani-Kərimin insanlar üçün nazil edildiyi mübarək Ramazan ayının başa çatması və İslam dünyasının ən əziz bayramlarından olan Ramazan bayramının başlanması münasibətilə sizi ürəkdən təbrik edirəm.

Xalqımız Ramazan bayramım mürəkkəb bir şəraitdə, lakin gələcəyə inamla qeyd edir. Bu, öz azadlığına qovuşaraq müstəqil inkişaf yoluna qədəm qoymuş xalqın gələcəyə inamıdır.

Azərbaycanın müstəqilliyinə qarşı çıxan qüvvələr xalqımızın azadlıq əzmini imtahana çəkir. Lakin bütün bunlar əbəs cəhdlərdir. Əminəm ki, torpaqlarımızda sülh və əmin-amanlıq bərqərar olacaqdır. Xalqımızın düşmüş olduğu ağır vəziyyətdən çıxması üçün mübarək Ramazan ayında edilmiş niyyət və diləklər Allah-təalanın köməyi ilə, xalqın iradəsi və əzmi ilə tezliklə gerçəkləşəcəkdir.

Əziz Ramazan bayramı münasibətilə hamınıza cansağlığı, xoşbəxtlik, Vətənin azadlığı və tərəqqisi yolunda böyük uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*2 mart 1995-ci il* [221]

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ ÇIXIŞ

*"Gülüstan" sarayı*

*3 mart 1995-ci il*

Hörmətli bacılar, qardaşlar, gənclər, əziz balalarımız,
Azərbaycanın əziz övladları!

Biz bu gün Ramazan bayramını qeyd edirik. Ramazan bayramı dünya müsəlmanlarının, o cümlədən azərbaycanlıların ən müqəddəs, ən böyük bayramıdır. Azərbaycan xalqı bu bayramı dərd-qəm içərisində qeyd edir. Burada deyildiyi kimi, respublikamız altı ildən artıqdır ki, Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdır. Azərbaycan böyük itkilər vermişdir, respublikamızın qəhrəman vətəndaşları torpaqlarımızı müdafiə edərək, vətəni qoruyaraq şəhid olmuşlar, həlak olmuşlar. Ərazimizin bir qismi işğal edilmiş, əhalimizin bir milyondan çoxu yerindən-yurdundan didərgin düşmüşdür, qaçqın, köçkün vəziyyətində yaşayır, ağır şəraitdədir. Ümumiyyətlə xalqımız, respublikamız ağır şərait içərisindədir.

Biz bayramı belə bir dövrdə qeyd edirik. Eyni zamanda Azərbaycan xalqı Ramazan bayramını öz müstəqil dövlətinin bayrağı altında keçirir. Xalqımız üç ildən çoxdur ki, milli azadlığa çıxıb, Azərbaycan öz müstəqilliyini əldə edib, müstəqil bir dövlətdir. Müstəqillik, milli azadlıq yolu asan, hamar olmayıb, çox əzab-əziyyətli olub. Həmin yol bundan sonra da çətin olacaqdır. Ancaq itkilərimizlə bərabər, əldə etdiyimiz dövlət müstəqilliyi, suverenliyi, milli azadlıq bizi sevindirir, hamımızda qürur hissi yaradır və bu bayramı böyük nikbinliklə qeyd etməyə imkan verir.

Xalqımız əsrlər boyu yaşamaq, yaratmaq üçün mübarizə aparıb, milli azadlıq uğrunda vuruşub, qurbanlar verib, öz torpağında milli ənənələri, tarixi kökləri əsasında, öz dini, mənəviyyatı əsasında müstəqil dövlət qurmaq arzusunda olub. İndi xalqımız bunlara nail olub. Dediyim kimi, bu yolda itkilər də olub, bu da təbiidir. Biz bundan sonra da şübhəsiz ki, çətin yolla gedəcəyik, böyük maneələrlə rastlaşacağıq. Ancaq ən əhəmiyyətlisi ondan ibarətdir ki, əsrlər boyu həsrətində oldu[222-223]ğumuz müstəqil Azərbaycan dövləti mövcuddur. Biz əsrlər boyu həsrətində olduğumuz milli azadlığa gəlib çıxmışıq.

İndi hər şey bizim əlimizdədir, yəni Azərbaycan xalqının, vətəndaşlarının əlindədir. Hər şey bizim hamımızdan asılıdır. Biz bu nailiyyətləri lazımi qədər qiymətləndirə bilsək, onu əlimizdə saxlayıb əbədiləşdirəcəyik. Bu bayram günü mən bir daha tam əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan xalqında belə inam var. Azərbaycan xalqında artıq belə möhkəm mənəviyyat mövcuddur, xalqımız bu tarixi nailiyyətləri bundan sonra heç vaxt əlindən verməyəcəkdir.

Bunun üçün şübhəsiz ki, biz çox iş görməliyik, xalqımızın mənəvi birliyini təmin etməliyik. Gücümüzün hamısını bir yerə toplamalıyıq. Biz vətəndaş həmrəyliyini, milli həmrəyliyi, xalqın bütün təbəqələrinin həmrəyliyini bir məqsəd üçün – Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq, respublikamızı bu ağır vəziyyətdən çıxarmaq üçün təmin etməliyik. Bu gün sizə bəyan edirəm ki, Azərbaycanın dövləti, hakim dairələri, o cümlədən prezident kimi mən bunu qarşıma məqsəd qoymuşam, bu məqsədə nail olmaq üçün əlimdən gələni etmişəm və bundan sonra da əlimdən gələni əsirgəməyəcəyəm.

Qeyd etdiyim kimi, biz bu bayramı çətin şəraitdə, ancaq böyük nikbinlik əhval-ruhiyyəsi ilə keçiririk. Bu nikbinlik də Azərbaycanın hər bir vətəndaşının qəlbində olan vətənpərvərlik hissindən, Vətəninə, torpağına, xalqına, tariximizə bağlılıq hissindən doğur. Ona görə də mən inanıram ki, biz bu birliyi əldə edə biləcək, onu möhkəmləndirəcək və nailiyyətlərimizi birlikdə qoruyub saxlayacağıq.

Azərbaycan xalqının yaxşı yaşaması üçün ölkəmizin böyük imkanları – təbii sərvətləri, iqtisadi potensialı, gözəl ərazisi, iqlimi, ənənələri və çox zəngin tarixi, mədəniyyəti var. Bunlar hamısı bizim milli sərvətlərimizdir. Bunlar əsas verir bu gün bir daha deyək ki, Azərbaycanın çox gözəl, xoşbəxt, işıqlı gələcəyi var. Bu gələcəyə biz hamımız birlikdə, hamımız əl-ələ verərək getməliyik. Əgər bu məqsədə nail olmaq üçün hamı öz sahəsində namusla, qeyrətlə çalışsa, biz bu gələcəyə çatacağıq. Güman edirəm ki, biz buna nail olacağıq.

Bu gün Azərbaycanın hər yerində Ramazan bayramı qeyd olunur. Hər bir müsəlman azərbaycanlı bu bayramı kimi evində, kimi qonşusu ilə, qohum-əqrəbası ilə qeyd edir. Eyni zamanda şəhərlərdə, rayonlarda, qəsəbələrdə, kəndlərdə yerli icra hakimiyyəti orqanları, ictimai və xeyriyyəçi təşkilatlar, [223-224] cəmiyyətlər bu bayramın geniş miqyasda keçirilməsi üçün fəaliyyət göstərirlər. Ehsanlar verilir, şəhidlərin ruhuna dua oxunur. Beləliklə, bizim milli, dini ənənələrimiz bayram günündə də, matəm günündə də bərpa olunur, cəmiyyətdə, qəlbimizdə öz yerini tutur və güman edirəm ki, bu, ən müsbət hallardan biridir.

Bununla əlaqədar olaraq biz bu gün "Gülüstan" sarayına toplaşmışıq. Bu saray çox böyük mərasimlər görüb. Azərbaycan dövlətinin bu sarayda böyük görüşləri, mərasimləri, ziyafətləri olub. Ancaq burada, artıq deyildiyi kimi, bu mərasimlərdə, görüşlərdə, adətən respublikamızın rəhbər vəzifəli şəxsləri, hörmətli adamlar,

tanınmış ziyalılar iştirak edirlər. "Gülüstan" sarayı şübhəsiz ki, xalqın üzünə açıqdır. Adi adamlar da gəlib burada bayramlarını, şənliklərini, toylarını qeyd edirlər. Bu da təbiidir.

Ancaq bu gün burada əvvəlkilərin hamısından fərqli olan bir məclis toplaşıb. Əsas fərq ondan ibarətdir ki, müqəddəs bayramımız – Ramazan bayramı Azərbaycanın ən möhtəşəm sarayı olan "Gülüstan"da qeyd olunur. Digər fərq ondan ibarətdir ki, bu gün buraya toplaşanlar əvvəlki mərasimlərin iştirakçıları deyillər. Çoxları bəlkə də bu qapıdan ilk dəfə giriblər, buraya addımlarını atıblar, bu masaların arxasında oturublar, bu bayramı burada qeyd edirlər. Bu dəvət olunanlar şəhid ailələridir. Xocalı faciəsinin dəhşətlərini görənlərdir. Xocalıda həlak olanların balalarıdır, uşaqlarıdır, qohum-əqrəbalarıdır. Vətən yolunda şəhid olanların ailə üzvləridir. Vətən yolunda vuruşub xəsarət alanlardır – sadə insanlardır. Ola bilər ki, əksəriyyəti özləri üçün bu gün belə süfrə düzəltməyə imkanı olmayan adamlardır. Ancaq eyni zamanda, bu salona toplaşanlar Azərbaycan xalqının, respublikanın dəyərli, hörmətli insanlarıdır. Onlar vətənpərvər, təmiz qəlbə malik, əzab-əziyyət içərisində olduqlarına görə hörmətli, dəyərli insanlardır. Mənim yanımda oturan balaca Murad Xocalıda valideynlərini itirib, Samirə Xocalıda itkilər verib. Başqaları da belədir. Burada oturanların əksəriyyəti əhalimizin bu təbəqəsindən olanlardır. Güman edirəm, toplaşanların mənəvi haqqı var ki, bu gün Ramazan bayramını məhz burada keçirsinlər, bir yerdə qeyd etsinlər, bir-birilə görüşsünlər, ünsiyyətdə olsunlar, həyat nə qədər çətin keçsə də, heç olmasa bu çətin həyatın bir neçə saatının xoş anlarını yaşasınlar. Amma eyni zamanda hesab edirəm ki, biz heç vaxt bədbinliyə qapıl[224-225]mamalıyıq. Həyat həmişə inkişafdadır. Ona görə də nə qədər ağır itkilərimiz, nə qədər çətinliklərimiz olsa da biz həmişə nikbin olmalıyıq, başımızı həmişə dik tutmalı, irəliyə həmişə inamla baxmalıyıq, ümidlə yaşamalıyıq.

Şübhəsiz, ən böyük arzumuz, ən böyük ümidimiz, ən böyük istəyimiz müharibəyə son qoyulmasıdır, torpaqlarımızın azad edilməsidir, əsirlikdə olan vətəndaşlarımızın geri qayıtmasıdır. Ən böyük arzumuz Azərbaycanın ərazi bütövlüyünün, respublikamızın sərhədlərinin toxunulmazlığının, ölkəmizin suverenliyinin təmin olunmasıdır. Güman edirəm ki, o günlər də uzaqda deyil. Biz o günlərə gəlib çatacağıq. Çatacağıq ona görə ki, xalqımızda olan mərdlik, cəsarət, qəhrəmanlıq, tariximizdə xalqımızın göstərdiyi qəhrəmanlıq nümunələri bizim bu ağır vəziyyətdən çıxmağımıza şübhəsiz ki, kömək edəcəkdir. Tam imkanımız vardır ki, bu ağır vəziyyətdən çıxaq və bütün məqsədlərimizə nail olaq.

Doqquz aydan artıqdır ki, müharibədə atəş dayandırılıbdır. Şübhəsiz ki, bu, böyük hadisədir. Altı il davam edən müharibədə ilk dəfədir ki, belə uzunmüddətli atəşkəs əldə olunub. Ancaq bu atəşkəs müharibəyə sülh yolu ilə son qoymaq, Azərbaycanın işğal olunmuş bütün ərazilərini azad etmək üçün sadəcə bir vasitədir. Bilirsiniz ki, bu sahədə biz çox istiqamətdə iş görürük, tədbirlər həyata keçiririk, diplomatik addımlar atırıq, danışıqlar aparırıq və danışıqları bundan sonra da davam etdirəcəyik. Güman edirəm ki, görülən işlər öz nəticəsini verəcəkdir. Şübhə etmirəm ki, biz istədiyimizə nail olacağıq. Bu gün bayramı qeyd edərkən biz şəhidləri də xatırlayırıq. Dünyasını dəyişən bütün qohum-əqrəbamızı, dostlarımızı, tanışlarımızı, vətəndaşlarımızı da xatırlayırıq. Hamımız şəhidlərin ruhu qarşısında baş əyirik, onlara rəhmət diləyirik, xalqımıza səbir diləyirik. Eyni zamanda bir daha bəyan edirik ki, Azərbaycan xalqı bundan sonra istədiyi kimi, müstəqil yaşamağa, müstəqil dövlətini qurub inkişaf etdirməyə qadirdir və xalqımız buna nail olacaqdır. Bu yolda Azərbaycan dövləti bütün tədbirləri görür və bundan sonra da görəcəkdir. Buna tam əmin ola bilərsiniz. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti [225-226] hər bir vətəndaşın hüquqlarının keşiyində durub, onun hüquqlarının toxunulmazlığını təmin edir və edəcəkdir. Azərbaycanın prezidenti kimi mən verdiyim anda həmişə sadiq qalacağam, hər bir Azərbaycan vətəndaşının hüquqlarının qorunmasına çalışacağam və bunun üçün bütün imkanlarımdan istifadə edəcəyəm.

Gərək hər bir vətəndaş da dövlətinə, torpağına sədaqətli olsun, sədaqətlə yaşasın, xidmət etsin və çalışsın ki, xalqla dövlətin vəhdəti möhkəmlənsin, respublikamız bu ağır vəziyyətdən çıxsın. Mən buna inanıram və əminəm ki, belə də olacaqdır.

Sizi Ramazan bayramı münasibətilə bir daha təbrik edirəm. Hər birinizə cansağlığı, xoşbəxtlik arzu edirəm, işlərinizdə, fəaliyyətinizdə uğurlar diləyirəm. Sağ olun, bayramınız mübarək olsun! [226]

## AZƏRBAYCAN MİLLİ YIĞMA KOMANDALARININ 26-cı YAY OLİMPİYA OYUNLARINA (ATLANTA ŞƏHƏRİ, 1996) HAZIRLIĞINI NÜMAYİŞ ETDİRMƏK MƏQSƏDİLƏ KEÇİRİLMİŞ İDMAN BAXIŞINDA ÇIXIŞ

*Bakı Əl Oyunları Sarayı*

*5 mart 1995-ci il*

Əziz gənclər!

Bacılar, qardaşlar, qızlar, oğlanlar, əziz idmançılar!

Sizi əldə etdiyiniz böyük nailiyyətlərə görə, bu gün nümayiş etdirdiyiniz yüksək səviyyəli, gözəl idman ustalığı münasibətilə ürəkdən təbrik edirəm!

Azərbaycan xalqının çoxəsrlik tarixində idman, bədən tərbiyəsi həmişə görkəmli yer tutub və xalqımız həmişə idmanla məşğul olaraq özünü fiziki cəhətdən inkişaf etdirib, möhkəmləndirib, gücləndiribdir. Tariximizdə igidlik nümunələri göstərmiş xalq qəhrəmanları fiziki cəhətdən də güclü olublar. Onların həyatı, qəhrəmanlığı, keçdikləri böyük yol eyni zamanda Azərbaycan xalqında fiziki gücün nə qədər böyük və qüdrətli olduğunu nümayiş etdiribdir.

Azərbaycanda idman və bədən tərbiyəsi XX əsrdə daha böyük inkişafa çatıbdır. Azərbaycan idmanı elmi əsaslar üzərində və xarici ölkələrin təcrübəsi əsasında daha da inkişaf edibdir. Respublikamızda idman təhsili təşəkkül tapıbdır. 1930-cu ildə Azərbaycanda bədən tərbiyəsi və idman üzrə ali məktəb yaranıbdır. Orta ixtisas məktəbləri təşkil edilib, bədən tərbiyəsi və idman üzrə elmi tədqiqat işləri aparılıb, alimlərimiz meydana çıxıb, idmana dair əsərlər yazıblar. Bunların hamısı onu göstərir ki, idman, bədən tərbiyəsi hər bir sivilizasiyalı xalqda, ölkədə olduğu kimi, Azərbaycan xalqının da, Azərbaycan vətəndaşlarının da həyat tərzinin mühüm bir hissəsidir.

Bir sözlə, respublikamızda idman və bədən tərbiyəsi böyük və şərəfli yol keçib və məhz bunun nəticəsində bu gün burada adları çəkilən və Azərbaycana dünya şöhrəti gətirən idmançılar, idman ustaları, dünya çempionları, Avropa və olimpiya [227-228] çempionları yetişibdir. Belə idmançılarımız bu gün də var və gələcəkdə də olacaqdır.

İndi müstəqil Azərbaycanda idmanın inkişafı üçün, bədən tərbiyəsinin geniş yayılması üçün daha çox imkan yaranıbdır. Bu imkanlardan Azərbaycan vətəndaşları səmərəli istifadə etməlidirlər. Bu imkanlar ondan ibarətdir ki, xalqımız idmanı, bədən tərbiyəsini sevir və bu gün bu salonda müşahidə etdiyimiz çıxışlar bir tərəfdən idmanın və bədən tərbiyəsinin Azərbaycanda dərin köklərini göstərir, digər tərəfdən xalqımızın yüksək mədəniyyətini və yüksək səviyyəli həyat tərzinə malik olduğunu nümayiş etdirir. Bunlar indən sonra müstəqil Azərbaycan Respublikasında idmanın inkişafı üçün yaxşı təməl qoyur və əlverişli zəmin yaradır.

Ötən onilliklərdə Azərbaycanda idmanın inkişafı üçün gözəl maddi-texniki baza yaranıbdır. Doğrudur, son illərdə bu baza bəzən dağıdılıb, ayrı-ayrı əllərə keçibdir. Ancaq həmin baza respublikamızdadır və mövcuddur. Hamısı Azərbaycan xalqının əlindədir və vətəndaşlarımızın, idmanımızın, bədən tərbiyəsinin inkişafı üçün istifadə olunmalıdır və olunacaqdır. Biz istəyirik ki, xalqımız həm mənəvi, həm də fiziki cəhətdən sağlam olsun.

Azərbaycan xalqı öz genetik əsaslarına görə gözəl, fiziki və mənəvi cəhətdən sağlam xalqdır. Tarixi, milli və dini adət və ənənələr xalqımızı həmişə fiziki və mənəvi cəhətdən sağlam həyat tərzi keçirməyə sövq edibdir. Ona görə də xalqımızda mənfi hallara meyl az olubdur. Əgər indi belə meyllər haradasa meydana çıxırsa, bu da onu göstərir ki, əsrlər boyu yaranmış milli və dini ənənələrimizə riayət edilmir və onlar pozulur. Güman edirəm ki, ictimaiyyətimiz bunlara yol verməyəcəkdir və biz xalqımızın fiziki, mənəvi sağlamlığını qoruyub saxlayacağıq, gələcək nəsillərimiz daha sağlam, güclü və möhkəm olacaqdır.

Bunun üçün bədən tərbiyəsi və idmanın xüsusi yeri var. Respublikamızda bədən tərbiyəsi geniş yayılmalıdır. Mən hamını bədən tərbiyəsi ilə məşğul olmağa çağırıram. Yaşından asılı olmayaraq hamını – gəncləri, orta yaşlıları və yaşlı adamları buna dəvət edirəm. Çünki dünya tarixi və təcrübəsi göstərir ki, bədən tərbiyəsi ilə geniş məşğul olan xalq, ölkə həmişə fiziki və mənəvi cəhətdən sağlam olur. Xalqımızın sağlamlığını təkcə səhiyyə və adət-ənənələrimiz vasitəsilə yox, eyni zamanda bədən tərbiyəsi ilə qoruyub saxlamalıyıq, möhkəmlən[228-229]dirməliyik və gələcək nəsillərə çatdırmalıyıq. Bədən tərbiyəsi geniş vüsət alan yerdə, şübhəsiz ki, yüksək idman nəticələri də olacaqdır. Bu idman nailiyyətləri müstəqil Azərbaycan Respublikasının şan-şöhrətini indən sonra da dünyaya yayacaqdır.

Biz indi müstəqil bir dövlət kimi, dünya miqyasında keçirilən bütün ictimai, mədəni, siyasi tədbirlərdə iştirak edirik və bu baxımdan Azərbaycan idmançılarının cürbəcür beynəlxalq idman yarışlarında iştirak etməsi

respublikamız üçün çox əhəmiyyətlidir. 1996-cı ildə ABŞ-ın Atlanta şəhərində XXVI Yay Olimpiya oyunları keçiriləcəkdir. Respublikamız artıq bu yarışlara hazırlaşır. Bununla əlaqədar mən xüsusi sərəncam vermişəm və təşkilat komitəsi yaratmışam. Bu istiqamətdə lazımi tədbirlər görülür və görüləcəkdir.

Bu gün burada, bu sarayda gördüklərimiz bizə inam verir ki, 1996-cı ilin olimpiya oyunlarında Azərbaycan idmançıları uğurla iştirak edəcək və ləyaqətli yer tutacaqlar. Mən buna əminəm. Bu gün burada gördüklərim məni buna daha çox inandırır.

Dediyim kimi, idman, bədən tərbiyəsi gənclərimizin daha da sağlam olması üçün lazımdır. Bu, müstəqil Azərbaycanın gələcəyi üçün əsasdır. Eyni zamanda gənclərimiz fiziki cəhətdən nə qədər güclü, nə qədər hazırlıqlı və sağlam olsalar, bir o qədər yaxşı işləyəcək, öz vəzifələrinin öhdəsindən bacarıqla gələcəklər və müstəqil Azərbaycanın müstəqilliyinin təmin olunmasında ləyaqətlə iştirak edəcəklər.

Bizim milli ordumuz yaranıbdır. Ordumuz Azərbaycan torpaqlarının müdafiəsində durur. Təəssüf ki, altı ildən artıqdır Ermənistan tərəfindən ölkəmizə qarşı təcavüz edilibdir və biz müharibə içərisindəyik. Bu gün böyük iftixar hissi ilə qeyd etmək olar ki, gənclərimiz məhz yüksək fiziki hazırlıqlarına görə, idmanla, bədən tərbiyəsi ilə müntəzəm məşğul olduqlarına görə ordumuzda gənclərin əksəriyyəti ləyaqətlə xidmət edir, döyüşür, qəhrəmanlıq nümunələri göstərir, onların bir çoxu Vətən yolunda şəhid olmuşdur. Güman edirəm ki, ordumuzun qurulması və gələcəkdə də inkişaf etməsi üçün, möhkəmlənməsi üçün gənclərimizin bədən tərbiyəsi və idmanla məşğul olması və respublikamızda idman işlərinin geniş miqyasda aparılması çox əhəmiyyətlidir. Biz buna xüsusi fikir veririk. Yəqin ki, gənclərimiz də buna diqqətli olacaqlar. [229-230]

Müstəqil Azərbaycanın xoşbəxt və işıqlı gələcəyi var. Bu gələcək gənclərindir, sizindir, əziz gənclərimiz! Siz müstəqil Azərbaycanın gələcəyini təmin etmək üçün fiziki cəhətdən də hazır olmalısınız. Sağlam həyat tərzi keçirməlisiniz, sağlam olmalısınız. Ona görə də idmanla və bədən tərbiyəsi ilə məşğul olmalısınız. Bu baxımdan biz Azərbaycan Gənclər və İdman Nazirliyinin işinə xüsusi əhəmiyyət veririk. Bu nazirliyi məhz ona görə yaratmışıq ki, Azərbaycan gənclərinin işi ilə dövlət tərəfindən lazımi səviyyədə məşğul ola bilək və respublikamızda idman işini daha yaxşı apara bilək. Mən yenə deyirəm, biz bu nazirliyin işinə xüsusi əhəmiyyət veririk. Bu nazirliyin işinə hamı kömək etməlidir. Güman edirəm ki, nazirlik özü də qarşısında duran vəzifələri layiqincə yerinə yetirəcəkdir.

İdmana xüsusi qayğı göstərərək, bu gün mən İdman Fondunun yaradılması haqqında və həmin fonda iki milyard manat pul ayrılması barədə fərman imzalamışam. Güman edirəm ki, bu, başlanğıcdır. Hesab edirəm ki, ictimaiyyətimiz idmana çox maraq göstərir. Ona görə də bu fərman, İdman Fondunun yaradılması, onun təməlinin qoyulması və iki milyard manat ayrılması ilə yanaşı, idmana maraq göstərən bütün adamları, idman pərəstişkarlarını bu fondun inkişafı üçün öz paylarım verməyə, öz münasibətlərini göstərməyə dəvət edirəm. Əminəm ki, idman pərəstişkarları, respublikamızın ictimaiyyəti, Azərbaycan gənclərinin qayğısına .qalanlar və onların bu günü və gələcəyi haqqında düşünənlər İdman Fonduna qayğı göstərəcəklər. Əminəm ki, bu fond Azərbaycanda idmanın inkişafı işində layiqli yer tutacaqdır.

Əziz gənclər, mən bugünkü nailiyyətləriniz və göstərdiyiniz idman nümunələri münasibətilə sizi bir daha təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Hamını bədən tərbiyəsi ilə məşğul olmağa dəvət edirəm.

Hamım idmanla məşğul olmağa dəvət edirəm.

Azərbaycanın idmanına uğurlar olsun!

Sağ olun! [230]

## RESPUBLİKADA ÖZƏLLƏŞDİRMƏNİN HƏYATA KEÇİRİLMƏSİ MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ

*Prezident Sarayı*

*7 mart 1995-ci il*

Bugünkü geniş müşavirə respublikada iqtisadi islahatların həyata keçirilməsinə həsr olunub. Dəfələrlə bəyan edilib ki, Azərbaycan dövlətinin iqtisadi sahədə siyasəti iqtisadiyyatı bazar iqtisadiyyatı yolu ilə qurmaqdan və bu yol ilə Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatı ilə bağlamaqdan ibarətdir. Məhz bunun üçün də müvafiq iqtisadi islahatların keçirilməsi vacibdir. Son illər bu barədə danışıqlar, çıxışlar, bəyanatlar çox olub və müəyyən sənədlər də var. Ancaq təəssüf ki, konkret tədbirlər az həyata keçirilib.

Bilirsiniz ki, son vaxtlar biz bu işi gücləndirmişik. Aqrar bölmədə islahatların həyata keçirilməsi ilə əlaqədar son aylarda çox güclü iş görüldü, müzakirələr aparıldı. Təyin olunmuş komissiya layihələr təqdim etdi. Bu layihələr yerlərdə kənd təsərrüfatında, aqrar bölmədə müzakirə olundu, ümumrespublika müşavirəsi keçirildi. Həmin tədbirlərin yekunları ilə əlaqədar məsələləri komissiya müzakirə etdi və nəhayət ki, iki böyük qanun layihəsi Milli Məclisə təqdim olundu. Bu layihələr Milli Məclisdə müzakirə olunub qəbul edildi, onlar qanun kimi mənim tərəfimdən imzalandı.

Bu qanunların həyata keçirilməsi üçün artıq əməli iş başlanıbdır. Kolxozların, sovxozların islahatını aparmaq üçün mərkəzi komissiya yaradılıb. Bu komissiyanın verdiyi məlumata görə, artıq fəaliyyət göstərir, yerlərdə komissiyalar yaranır. Güman edirəm ki, bu sahədə islahatların aparılması üçün artıq hüquqi əsaslar vardır, sənədlər hazırlanıb, təşkilati işlər görülüb. İndi iş həmin sənədlərin əməli surətdə həyata keçirilməsindən asılıdır.

Son aylarda müzakirələr göstərdi ki, ictimaiyyətin tam əksəriyyətinin rəyi bu islahatların xeyrinədir. Bu rəylər islahatların aparılmasının zəruri olduğunu əks etdirir, təsdiq edir. Ona görə də güman edirəm ki, bu islahatlar həyata keçiriləcək və keçirilməlidir. Şübhəsiz ki, bunun üçün çox güclü, [231-232] ardıcıl təşkilati iş lazımdır. Bu təşkilati işi bizim mərkəzi komissiya, yerlərdəki komissiyalar aparmalıdır. Aqrar bölmədə islahatların aparılmasına bilavasitə və yaxud dolayısı ilə bağlı olan təşkilatlar, nazirliklər, idarələr, elmi dairələr bu qanunların həyata keçirilməsini təmin etməlidirlər.

Bu, iqtisadiyyatımızın bir sahəsidir. İqtisadiyyatımızın böyük bir sahəsi də sənayedir, nəqliyyatdır, ticarətdir, məişət xidmətidir və digər sahələrdir. Bu sahələrdə də iqtisadi islahatların aparılması haqqında dövlətin mövqeyini dəfələrlə bildirmişik. Həmin sahələrdə iqtisadi islahatların aparılması birinci növbədə özəlləşdirmə tədbirlərinin həyata keçirilməsi ilə əlaqədardır.

Azərbaycan parlamenti özəlləşdirmə haqqında 1993-cü ilin yanvarında qanun qəbul edib. Bu qanun qəbul edilən vaxtdan iki ildən çox vaxt keçib. Həmin qanuna bu gün bir daha baxsaq, hesab edirəm ki, özəlləşdirməni həyata keçirmək üçün o, yaxşı hüquqi əsas yaradır. Ancaq qanunda nəzərdə tutulmuş tədbirlər qanun qəbul olunandan sonra təəssüf ki, həyata keçirilməyib. Bu gün demək olar ki, bunların obyektiv və subyektiv səbəbləri var. Həmin səbəbləri mən indi o qədər də təhlil etmək fikrində deyiləm. Ancaq bir neçə kəlmə demək məcburiyyətindəyəm. Onu qeyd etmək istəyirəm ki, bu qanunun həyata keçirilməsinin ləngiməsi bəzi dairələrdə – müxalifət dairələrdə, yaxud bizim dövlət strukturunda olan ayrı-ayrı dairələrdə belə fikirlər yaradır ki, guya özəlləşdirməni kimsə həyata keçirmək istəyir, kimsə istəmir, kimsə bunu ləngidir, mane olur, kimsə canfəşanlıq edərək bunun tərəfdarıdır.

Güman edirəm ki, bunların heç birinə əsas yoxdur. Respublikamızda daxili ictimai-siyasi sabitliyi pozmaq istəyən qüvvələr, yaxud dövlətin ümumən siyasətinə, o cümlədən iqtisadiyyat sahəsindəki siyasətinə ləkə salmaq istəyən qüvvələr belə şayiələri, sözləri meydana atırlar. Bir prezident kimi, dövlət başçısı kimi mənim mövqeyim məlumdur. Mən Azərbaycanda dövlət başçısı, prezident vəzifəsini həyata keçirməyə başlamamışdan bir neçə il öncə də, ümumiyyətlə Sovetlər İttifaqı dağılandan, Azərbaycan müstəqillik qazanandan, hətta Azərbaycan müstəqilliyə can atan vaxt özəlləşdirmənin, iqtisadi islahatların tərəfdarı olmuşam; nəinki tərəfdarı olmuşam, hətta onların Azərbaycanda həyata keçirilməsinin həddindən ziyadə zəruri olduğunu bildirmişəm. [232-233]

Sovetlər İttifaqının saxlanılıb-saxlanılmaması haqqında Azərbaycan parlamentində 1991-ci ilin martında gedən müzakirələr zamanı – hələ o vaxt Sovetlər İttifaqı mövcud idi, kommunist partiyasının hakimiyyəti var idi – mən bu barədə öz fikirlərimi burada, Azərbaycanda da demişəm, Naxçıvanda işlədiyim vaxtlar da bu barədə öz fikirlərimi açıq-aydın söyləmişəm. Bunlar ondan ibarətdir ki, Azərbaycan keçmiş iqtisadi sistemlə yaşaya bilməz. Ölkəmizin böyük təbii sərvətləri, iqtisadi, intellektual, elmi potensialı Azərbaycan üçün çox yaxşı gələcək yarada bilər. Bu gələcək də yalnız və yalnız iqtisadiyyatın aparılması sisteminin, mülkiyyət

formasının dəyişdirilməsindən, sərbəst iqtisadiyyata, təşəbbüskarlığa geniş yer verilməsindən, bazar iqtisadiyyatı yolu ilə getməkdən ibarətdir.

Mənim bu mövqeyim dəyişilməyib. Bir neçə il bundan əvvəl ifadə etdiyim bu mövqeyi mən bu gün daha kəskin surətdə bir daha bəyan edirəm. Güman edirəm ki, dövlət orqanlarımızda rəhbər işlərdə çalışan vəzifəli şəxslərin əksəriyyəti belə fikirdədir. Baxmayaraq ki, 94-cü ilin sonunda bu məsələlər müzakirə edilərkən bizim içərimizdə iqtisadi islahatların keçirilməsinə, ölkəmizin bazar iqtisadiyyatına keçməsinə müxalif olan səslər də gəlirdi, müxalif mövqelər də bəyan edilirdi, ancaq bu o vaxt azlıq təşkil edirdi, həlledici bir amil deyildi. Əksəriyyət, yəni dövlət orqanlarında çalışan vəzifəli adamların əksəriyyəti də, mənə məlum olduğu kimi, bu prinsiplərin həyata keçirilməsinin tərəfdarıdır. Ancaq bir var tərəfdar olmaq, bəyan etmək, bir də var onu əməli surətdə həyata keçirmək.

Təəssüf ki, bu məsələlərin həyata keçirilməsində biz istənilən nailiyyətləri əldə edə bilməmişik. Qeyd edirəm ki, bunun obyektiv və subyektiv səbəbləri var. Obyektiv səbəblər – bu amillər çox vaxt ortaya çıxır – ölkənin müharibə şəraitində olması (doğrudur, son vaxtlar atəş kəsilib, ancaq başımız çox vaxt müharibəyə qarışırdı, bu, hamıya məlumdur), qaçqınlar problemi və s. vaxtımızı çox alır. Subyektiv səbəblər isə ondan ibarətdir ki, bəzi vəzifəli şəxslər bu prosesin həyata keçirilməsinə aşkar da olmasa, qeyri-aşkar mane olmağa çalışıblar, tədbirləri vaxtında hazırlamayıblar, bu layihələrin hazırlanmasında səhlənkarlığa yol veriblər, yaxud onları elə hazırlayıblar ki, bunları o cür həyata keçirmək olmaz. Bu da müəyyən qədər vaxt alır.

Ancaq bir həqiqəti də bildirmək lazımdır ki, 1993-cü il iyu[233-234]nun sonundan 1994-cü il oktyabrın əvvəllərinədək Nazirlər Kabinetində bu barədə mövqe bizim ümumi mövqedən fərqli olmuşdur. Düzdür, əgər biz bu işi cəsarətlə aparmış olsaydıq, həmin mövqe heç bir maneçilik törədə bilməzdi. Ancaq cürbəcür əhval-ruhiyyə, şayiələrin yaranması və Nazirlər Kabinetinin başında duran, sizə məlum olan şəxsin həm savadsızlığı, həm də bu işi qəsdən pozması nəticəsində şübhəsiz ki, nazirliklərdə, müəyyən iqtisadi orqanlarda, təsərrüfat orqanlarında bir qədər qeyri-müəyyənlik olmuşdur. Bunları inkar etmək olmaz. Çünki bunlar bizim keçmiş vaxtımızın həqiqətləridir.

Ancaq bütün bunlara baxmayaraq, müəyyən işlər görülür. Mən bu gün istərdim ki, görülən işlərin hansı səviyyədə olduğunu biz birlikdə müşahidə edək və onu birgə müzakirə edib, bu məsələlərin sürətləndirilməsi üçün lazımi tədbirlər görək.

İqtisadiyyatda ümumiyyətlə, dəyişikliklər aparılması təkcə Azərbaycanın müstəqilliyinin əldə olunduğu vaxtdan deyildir. Bilirsiniz ki, hələ Sovetlər İttifaqı mövcud olan vaxtda, təxminən 1984-1985-ci illərdə həm o dövlətin iqtisadiyyat sahələri ilə məşğul olan başçıları, həm də iqtisadçılar, alimlər iqtisadiyyatın səmərəliliyini təmin etmək üçün yollar axtarırdılar. Cürbəcür təkliflər, proqramlar hazırlanırdı. Ola bilər, bu proqramların bəzisi uğurlu, bəzisi uğursuz olurdu. Hər halda təxminən 1985-ci ildən başlayan proseslər bir tərəfdən axtarış yolları idisə, ikinci tərəfdən iqtisadiyyatın get-gedə tənəzzülə uğramasına şərait yaratdı və iqtisadiyyatı tənəzzülə apardı – həm Sovetlər İttifaqında, həm də sonra SSRİ-dən ayrılmış respublikalarda, o cümlədən Azərbaycan Respublikasında.

Amma eyni zamanda vaxt – aylar, illər keçdikcə daha çox dərk olunurdu ki, artıq iqtisadiyyat keçmiş formalarla aparıla bilməz. Bu məsələlərlə Azərbaycanda da respublikamızın rəhbərliyi məşğul olub. Bu gün burada o rəhbərlikdən bir çox şəxslər iştirak edirlər. Əgər 1990-1991-ci illəri götürsək, o dövrdə Nazirlər Sovetinin sədri olmuş Həsən Həsənov buradadır və o, bu işlərlə məşğul olubdur. Ondan sonra Nazirlər Sovetinin sədri Rəhim Hüseynov olub, mən onu da buraya dəvət etmişəm, buradadır. Rəhim Hüseynovdan sonra gərək ki, bu işlərlə Əli Məsimov məşğul olub. Mən demişdim ki, bir iqtisadçı kimi onu da dəvət etsinlər. Dəvət ediblər, gəlməyib, özü bilər. Bu işlərlə sonra alimlər, məsələn, Ziyad Səmədzadə məşğul olub. Mən demişdim onu da dəvət etsinlər, yəqin ki, buradadır. Sonralar, məsələn, Pənah Hüseynov baş nazir olub, [234-235] amma bilmirəm bu işlərlə nə qədər məşğul olub, yaxud olmayıb. Ancaq o yoxdur. Yəqin ki, olsaydı da ondan bir şey öyrənmək mümkün deyildi.

Başqaları da bu işlə məşğul olublar. Hərə öz dövründə müəyyən iş görüb, bu prosesləri müəyyən qədər irəliyə aparıb. Amma nəticə etibarilə biz hələ istədiyimizə nail ola bilməmişik və istənilən səviyyəyə gəlib çata bilməmişik.

Qeyd etdiyim kimi, 1993-cü ilin yanvarında parlament, Milli Məclis özəlləşdirmə haqqında qanun qəbul edib. Dövlət Əmlak Komitəsi yaradılıb. O vaxtdan da Əmlak Komitəsinə Qüdrət Əbdülsəlimzadə rəhbərlik edib. Mən xahiş etmişdim ki, onu dəvət etsinlər, buradadırmı? Buradadır, çox sağ olun ki, gəlmisiniz. Doğrusu, mən bu gün etiraf etməliyəm ki, həmin komitənin işi ilə o qədər tanış ola bilməmişəm. Ancaq mən işlədiyim dövrdə komitə özü də elə bir təşəbbüs etməyib ki, bir təklif irəli sürsün, biz ona baxa bilək. Yəni məndə belə təsəvvür olub ki, bu komitə çox passiv vəziyyətdə olubdur. Nəsə iş görüb, nəsə hazırlayıb, amma onu üzə çıxara bilməyib, yaxud üzə çıxarmaq istəməyib, yaxud kimsə ona mane olub. Bunları nəzərə alaraq 1994-cü il yanvarın 13-də Tofiq Əzizov Əmlak Komitəsinə sədr təyin olunub, eyni zamanda bu sahəyə xüsusi əhəmiyyət vermək üçün o, baş nazirin müavini təyin edilib: baş nazirin müavini, Əmlak Komitəsinin sədri.

Tofiq Əzizovun verdiyi məlumata görə, bu müddətdə xeyli iş görülüb, müəyyən layihələr, sənədlər hazırlanıb. Mən Tofiq Əzizovla görüşmüşəm, ətraflı söhbət etmişəm, onun məruzəsini dinləmişəm. Tofiq

Əzizov özəlləşdirmə haqqında proqram təqdim edib. Düzdür, bu konsepsiyadır, amma mənə proqram kimi təqdim olunub.

Mən istəməzdim ki, bəzi fikirlərimi deyim, öz fikirlərimlə müzakirənin gedişinə təsir edim. Bu gün mən bura həm vəzifəli şəxsləri, həm müəssisə rəhbərlərini, həm də alimləri, nəzəri sahədə çalışanları dəvət etmişəm ki, biz sərbəst fikir mübadiləsi aparaq. Ona görə də mən bu barədə heç bir şey demək istəmirəm. Ancaq onu qeyd etmək istəyirəm ki, yəqin bu müddətdə ciddi bir taktiki səhv buraxılıb. Bu səhv də ondan ibarətdir ki, 1993-cü ilin yanvarında qəbul edilmiş qanunun həyata keçirilməsi təşkil olunmayıb. Mən o qanuna diqqətlə baxdım. Ümumiyyətlə, bu qanun məqsədəuyğun sənəddir. Mən onu bu gün də aktual bir qanun hesab edirəm. Ancaq o [235-236] qanundan irəli gələn vəzifələrin, tədbirlərin həyata keçirilməsi təmin olunmayıb.

Qanun özəlləşdirməni həyata keçirmək üçün özəlləşdirmə proqramının olmasını nəzərdə tutur. Bax, bu əsas sənədi – özəlləşdirmənin proqramını Əmlak Komitəsi hazırlayıb meydana çıxara bilməyib. Özəlləşdirmənin proqramı olmadığına görə, onun hansı yollarla getməsi müəyyən edilmədiyinə görə və özəlləşdirmənin mərhələləri müəyyənləşdirilmədiyinə görə özəlləşdirmə prosesi həyata keçirilməyib.

Hesab edirəm ki, bu gün bu müzakirədə əsas məqsədimiz ondan ibarət olmalıdır ki, həmin qanunun müddəalarını biz nə cür həyata keçirməliyik. Şübhəsiz ki, indiyədək görülən işləri nəzərdən keçirərək, təhlil edərək, əldə olan sənədlərə, yaxud tədbirlər planlarına nəzər salaraq biz özəlləşdirməni əməli surətdə həyata keçirmək üçün hansı müddətdə hansı işləri görmək lazım olduğunu müəyyənləşdirməliyik. Bunun üçün də, şübhəsiz, özəlləşdirmənin proqramı olmalıdır.

Əgər 1993-cü ilin yanvarında bu qanun qəbul ediləndən bir, iki, üç, dörd ay sonra proqram hazır olsaydı, şübhəsiz ki, özəlləşdirməni həyata keçirmək mümkün olardı. Mən demək istəmirəm ki, özəlləşdirməni bir, yaxud beş ayda, bir ildə həyata keçirmək olar. Bu, böyük prosesdir. Başqa ölkələrin, məsələn, Şərqi Avropa ölkələrinin özəlləşdirmə, iqtisadi islahatlar aparmaq təcrübəsi, yaxud Rusiyada bu sahədə çox böyük işlər görülüb – onların təcrübəsi göstərir ki, iqtisadi islahatların həyata keçirilməsi müəyyən vaxt tələb edir.

Ancaq bu vaxt bizdə müəyyən qədər itirilibdir. Eyni zamanda güman edirəm ki, əgər bu tədbirlərin əməli surətdə həyata keçirilməsi vaxtı itirilibsə, bu müddətdə yəqin müəyyən qədər də təcrübə toplanıb, hazırlıq işləri görülübdür. Xüsusən Tofiq Əzizovun verdiyi məlumatdan mən belə başa düşdüm ki, bu müddətdə xeyli hazırlıq işləri görülüb və biz bu işlərin əsasında həmin proqramı müəyyən etməliyik. Güman edirdim ki, təqdim olunan bu sənəd bir proqram olacaqdır və biz bu proqramı müzakirə edəcəyik. Təəssüf ki, bunun adı da konsepsiyadır və tanış olandan sonra mən gördüm ki, bunu proqram kimi yəqin, qəbul etmək olmaz. Ancaq müzakirə etmək lazımdır. Bəlkə də onun üzərində işləyib proqram kimi qəbul etmək olar. Ona görə də mən heç bir konkret söz demək istəmirəm.

Bir sözlə, özəlləşdirməni aparmağımız üçün hüquqi baza [236-237] var, müəyyən iş görülür. Eyni zamanda, biz çox ləngimişik. Bunların əsasında gərək bundan sonra ardıcıl tədbirlər həyata keçirək. Güman edirəm ki, ictimaiyyət də, cəmiyyətimiz də bunlara hazırdır. Hesab edirəm ki, 1995-ci il bu sahədə bizim üçün çox məhsuldar il olmalıdır.

Qeyd etdim ki, aqrar sahədə islahatların keçirilməsi üçün hüquqi baza yaradılıb və təşkilati işlər artıq görülüb və bu islahatlar aparılmalıdır. Başqa sahələrdə də özəlləşdirmə proqramını qəbul edib onun təcili surətdə həyata keçirilməsinə başlamalıyıq. Eyni zamanda biz başqa sahələrdə də islahatlar aparmalıyıq.

Biz bu il parlamentə seçkilər keçirməliyik. Artıq bu barədə ictimaiyyət arasında söhbətlər gedir, mətbuatda yazılar verilir. Bu da təbiidir. Çünki mövcud parlamentin səlahiyyəti bu ilin sentyabrında bitir. Parlament öz işinə 1991-ci ilin əvvəlində başlayıb. Hər halda hesab edirəm ki, bu ilin sentyabrı parlamentin fəaliyyətinin başa çatması vaxtıdır. Seçki qanununun layihəsi hazırlanıbdır. Bu layihəyə baxılacaq, mən bu barədə öz fikrimi demişəm və bu gün bir daha bildirirəm ki, biz qısa müddətdə seçki qanununun layihəsinə baxmalıyıq. Şübhəsiz ki, bundan sonra o, Milli Məclisdə müzakirə olunacaq, xalqın müzakirəsinə veriləcək və qəbul ediləndən sonra seçkilər keçiriləcəkdir.

Mən bunu xüsusi qeyd edirəm, ona görə ki, burada da bəzi qüvvələr – onlar Azərbaycanın sabit yaşamasına, inkişaf etməsinə mane olmaq istəyən qüvvələrdir – orda-burda şayiələr yayırlar ki, seçkilər olacaq, ya olmayacaq, seçki qanunu nə təhər olacaq? Hətta seçki qanunu heç müzakirə olunmadan, meydana çıxmadan "seçki qanunu belə olmamalıdır, belə olmalıdır" kimi söhbətlər aparırlar. Mən bu barədə öz fikrimi yenə də deyirəm: parlament seçkiləri vaxtında, demokratik şəraitdə, bütün partiyaların iştirakı ilə keçirilməlidir. Biz seçkilərin demokratik prinsiplər əsasında keçirilməsi üçün münasib qanun qəbul etməliyik və bu qanun da həm demokratik seçkilər aparılmasının əsasını qoymalıdır, həm də demokratik seçkilər keçirilməsini təmin etməlidir. Öz tərəfimdən deyə bilərəm ki, mən bütün imkanlarımdan istifadə edəcəyəm ki, seçkilər həm vaxtında, həm də tam demokratik şəraitdə keçirilsin. Bu barədə beynəlxalq təşkilatlardan da təkliflər var. Yəni onlar bu seçki qanununun hazırlanmasında bizə kömək etmək istəyirlər, seçkilərin demokratik qaydada aparılması ba[237-238]rədə də bizə öz köməklərini təklif edirlər. Şübhəsiz ki, biz bunların hamısından istifadə edəcəyik. Bir sözlə, 1995-ci il bu sahədə bizim üçün həm məhsuldar il olacaq, həm də qeyd etdiyim bu tədbirlərin müvəffəqiyyətlə həyata keçirilməsi üçün çox əhəmiyyətli il olacaqdır.

İndi isə mən istərdim ki, məsələnin konkret müzakirəsinə başlayaq. Əvvəlcə təklif edərdim ki, özəlləşdirmə haqqında qanunu bir də yadımıza salaq. Çünki qanun 1993-cü ilin yanvarında qəbul olunub. Mən şəxsən özüm onu diqqətlə oxumuşam. Amma ola bilər ki, həmin qanun bu gün kiminsə xatirindədir, kiminsə xatirində deyil. Bu qanun bizim üçün hüquqi əsasdır. Ona görə də mən istərdim ki, həmin qanun burada oxunsun – çünki bizim bu barədə başqa qanunumuz yoxdur – görək bu qanuna əsasən nə iş görməliyik. Şübhəsiz ki, o qanunda da müəyyən dəyişikliklər, əlavələr ola bilər. Ancaq hesab edirəm ki, bu qanun əsas kimi götürülə bilər: mən Şahin Əliyevə söz verirəm ki, həmin qanunu oxusun və bu, bizim üçün başlanğıc olsun.

Bir daha qeyd edirəm ki, fikrimcə qanun özəlləşdirməni həyata keçirmək üçün hüquqi əsas yaradan bir sənəddir. Şübhəsiz ki, bugünkü müzakirədə dəyərli təkliflər irəli sürülərsə, qanuna əlavələr və ya dəyişikliklər etmək olar və bu da mümkündür. Ancaq güman edirəm ki, özəlləşdirməni aparmaq üçün bu qanun tam hüquqi əsas verir. İndi isə Tofiq Əzizovu dinləyək. Qoy o, görülən işlər barədə məlumat versin və öz təkliflərini bildirsin.

## YEKUN SÖZÜ

Bu gün biz xeyli vaxt sərf edərək respublikamızın iqtisadiyyatı, bu günü, gələcəyi üçün ən vacib məsələlərdən biri haqqında çox səmərəli müzakirə apardıq, fikir mübadiləsi etdik. Mən müşavirəni başlayarkən dedim və yekunlaşdırarkən də demək istəyirəm ki, bu müşavirəni çağırmaq qərarı qəbul edərkən açıq-aydın bilirdim ki, müşavirədə müzakirə etmək üçün, hətta təxminən hazır olan bir sənəd yoxdur. Eyni zamanda Tofiq Əzizovun təqdim etdiyi konsepsiya ilə, 1993-cü ilin yanvar ayında qəbul edilmiş qanunla və o qanundan sonra gedən proseslərlə bir daha tanış olandan sonra mən belə bir fikrə gəldim ki, mütləq bu müşavirə keçirilməlidir, fikir mübadiləsi aparılmalıdır. İndi, müşavirə sona çatarkən hesab edirəm ki, bu, çox zəruri imiş. [238-239]

Birincisi, biz hamımız bir daha eyni fikirdə olduq. Mən bunu dövlət adından bəyan edirəm ki, respublikada özəlləşdirməni sürətlə keçirmək lazımdır. Bu barədə başqa bir fikir ola bilməz. Özəlləşdirmənin keçirilməsi və yaxud keçirilməməsi artıq müzakirə olunmamalıdır. Biz çoxdan da belə fikirdə idik, amma bu gün bunu bir daha qeyd edirik.

Mən prezident kimi deyirəm ki, özəlləşdirmə keçirilməlidir və özəlləşdirmənin keçirilməsində respublika gecikibdir. Təhlil etdik və müəyyən olundu ki, 1993-cü ilin yanvarında qanun qəbul ediləndən sonra müəyyən cəhdlər göstərilməsinə baxmayaraq, özəlləşdirmənin aparılması üçün proqram əldə olunmayıbdır və lazımi tədbirlər həyata keçirilməyibdir. Doğrudur, proqram layihələri olub. Burada Əbdülsəlimzadə dedi ki, onlara bir ay vaxt verilmişdi və onlar bu müddətdə proqram layihəsi hazırladılar, ancaq buna baxıla bilmədi. Sonra belə bir proqram layihəsi hazırlanıb, 1994-cü ilin aprelində Milli Məclisin müzakirəsinə verilib, ancaq mən belə başa düşdüm ki, o layihə uyğun hesab olunmadığına görə müzakirə edilməyib. Bundan sonra da o layihə tələblərə cavab vermirsə, onu təkmilləşdirmək, yaxud yeni bir proqram hazırlamaq məsələsi həll olunmayıbdır. Baş nazirin müavini, Dövlət Əmlak Komitəsinin sədri Tofiq Əzizov yanvar ayında bu vəzifəyə təyin olunandan sonra bu işə ciddi girişib, bir çox sənədlər, habelə konsepsiya hazırlayıbdır. Ancaq proqramın hazırlanması ilə məşğul ola bilməyibdir. Ona görə də cürbəcür layihələr var, ancaq proqram yoxdur. Təqdim olunan konsepsiya da proqram tərtib etmək üçün istənilən səviyyədə əsas yaratmır.

Hesab edirəm ki, bugünkü müzakirə çox əhəmiyyətlidir. Güman edirəm ki, bu, gələcək işlərimizə çox kömək edəcəkdir və bu müzakirənin əsasında indi biz öz işlərimizi qurmalıyıq, tədbirləri sürətlə həyata keçirməliyik.

Birinci növbədə özəlləşdirmə haqqında proqram tərtib olunmalıdır. İndiyə qədər olan proqram layihələrindən də, təqdim olunan konsepsiyadan da istifadə edilə bilər. Burada irəli sürülən təkliflərdən mütləq istifadə etmək və bunların əsasında proqram tərtib etmək lazımdır. Çünki özəlləşdirmə haqqında qanun da birinci növbədə özəlləşdirmənin proqramını tələb edir. Ancaq təkcə ona görə yox ki, qanun tələb edir və biz kortəbii olaraq bu qanunu həyata keçiririk. Yox, qanun bunu tələb edir, ancaq qanun qəbul olunandan sonra bizim keçdiyimiz yol və bu barədə olan araşdırmalar, bugünkü mü[239-240]zakirələr bir daha onu göstərir ki, özəlləşdirməni kompleks şəkildə həyata keçirmək üçün kompleks xarakterli proqram olmalıdır.

Qanundan irəli gələn tələblər, özəlləşdirmənin prinsipləri bu proqramda öz əksini tapmalıdır. Burada bütün çıxışlarda cürbəcür fikirlər söyləndi, ancaq yekdil fikir olmadı. Şübhəsiz ki, özəlləşdirməni keçirmək üçün bizim özəlləşdirilməli olan fondlarımız qiymətləndirilməlidir. Müəyyən olunmalıdır ki, hansı sahələr mütləq özəlləşdirilməli, hansı sahələr dövlətin mülkiyyəti kimi saxlanılmalıdır. Özəlləşdirilən sahələrin hamısı qiymətləndirilməlidir. Qanunda göstərildiyi kimi, bugünkü müzakirələrdən göründüyü kimi, şübhəsiz ki, hər bir vətəndaşın payı olmalıdır. Ancaq bu pay hansı şəkildə olmalıdır, vətəndaş bu dövlət mülkiyyətinin özəlləşdirilməsindən nə götürəcək və nə cür iştirak edəcək – bunlar hamısı proqramda müəyyən olunmalıdır.

Burada Tofiq Əzizovun təklifi var ki, vauçer olsun. Vauçerin əleyhinə təkliflər var, vauçerin qiymətinin olub-olmaması barədə təklif var, vauçerin qiymətinin göstərilməməsi barədə təklif var. Əvvəlki layihədə, burada deyildiyi kimi, vauçer yox, ancaq hər bir vətəndaşa müəyyən məbləğdə vəsait ayrılması var. Vauçer məsələsinin də həyata keçirilməsində Tofiq Əzizovun təklifləri əsasında çox böyük texniki işlər görülməsi lazım olacaqdır –

vauçerlərin istehsal olunması, yaxud hazırlanması, depozitarinin yaranması, vauçerlərin paylanması üçün şəbəkələr və cürbəcür başqa məsələlər. Bunların hamısı da həm vaxt, həm də vəsait tələb edəcəkdir.

Ona görə də mən görürəm ki, bu barədə fikir ayrılığı tamamilə təbiidir və qəti bir fikir də demək çətindir. Şəxsən mən bunu demək istəmirəm. Ancaq bir şey aydındır ki, özəlləşdirmə zamanı vətəndaşların payı olmalıdır, hər bir vətəndaş öz payını almalıdır, bu payından istədiyi kimi istifadə etməlidir. O, ya özəlləşdirilən müəssisənin bır hissəsinin sahibi olacaqdır, yaxud öz payını başqasına verəcək və ya satacaqdır. Bunlar hamısı gələcək proseslərdə olacaqdır. Amma vətəndaşın payı olmalıdır.

Burada çıxış edənlərin bir çoxu dedi – özəlləşdirmədə əhalinin sosial müdafiəsi təmin olunmalıdır. Bu da proqramda öz əksini tapmalıdır. Şübhəsiz, burada deyildiyi kimi, özəlləşdirmə uzun bir müddətdə aparıla bilməz. Əbdülsəlimzadə dedi ki, xalqımızın xüsusiyyəti, mentaliteti və başqa amillər imkan ver[240-241]mir ki, biz özəlləşdirməni qısa müddətdə aparaq. Bəlkə bir neçə ilə onun 30 faizini apara bilərik, ondan sonra daha bir hissəsini. Yəni bu özəlləşdirmə 10 il, 15 il, 20 il çəkəcəkdir. Belə olan surətdə əgər biz bu gün hesab ediriksə ki, dövlət əmlakı özəlləşdiriləcək və insanlar ondan bu payı alacaq, bəs bu payı nə vaxt alacaq? Belə çıxır ki, biri payını bu gün alacaq, biri bir ildən sonra, biri də 15 ildən sonra, 20 ildən sonra alacaq. Bəs bu, necə müəyyən olunacaq?

Buradakı bəzi fikirlərdən mən belə anladım ki, kiçik müəssisələr özəlləşdirilsin, böyük müəssisələr qalsın. Yaxşı, böyük müəssisələr artıq elə vəziyyətdədir ki, onların fəaliyyəti günü-gündən çətinləşir. Dövlət də onları dövlət müəssisəsi kimi əvvəlkitək dotasiya və başqa köməklərlə saxlamaq imkanından məhrumdur. Ona görə də bunun yolu müəssisəni ancaq özəlləşdirərək istifadə etməkdən ibarətdir.

Şübhəsiz, burada deyilən belə bir fikir aydındır ki, böyük müəssisələr səhmdar cəmiyyətlərə çevriləcək. Bu, təbiidir. Həm də bu, özəlləşdirmənin əsas formalarından biridir. Ona görə də bu proqram kompleks şəkildə olmalıdır, bütün sahələri əhatə etməlidir. Bu proqramda mütləq göstərilməlidir ki, hansı sahələr dövlət bölməsində qalacaq ki, onlar haqqında dövlət xüsusi plan tərtib etsin və onların fəaliyyəti dövlət tərəfindən idarə olunub, bu fəaliyyətin iqtisadi cəhətdən səmərəliliyini artırmaq üçün xüsusi bir plan tərtib edilsin. Özəlləşdiriləcək və özəlləşdirilməli olan digər sahələrdə isə, şübhəsiz, bu işlərin müddəti göstərilməlidir – özəlləşdirmə nə vaxt, hansı müddətdə getməlidir.

Hesab edirəm ki, belə bir proqramın indi yaranması ən zəruri vəzifədir və bu proqramı təcili yaratmaq lazımdır. Mənim fikrimcə, bir ay müddətində belə bir proqram yaradılmalıdır. Bu bir ay 1992-ci ildə verilən bir ay deyil. Yəni biz artıq iki ildir ki, bu işlə məşğul oluruq. Təcrübə də toplamışıq, cürbəcür layihələr də var. Bu gün altı saatdır müzakirə gedir. Bu proqram bir ay müddətində tərtib edilib təqdim olunmalıdır.

Proqramı tərtib etmək üçün komissiya yaranmalıdır. Mən Tofiq Əzizovu komissiyanın sədri təyin edirəm. Burada mənə komissiyanın tərkibi haqqında siyahı veriblər. Ancaq mən bunu indi elan etmək istəmirəm və buna ehtiyac da yoxdur. Birincisi, mən sadəcə olaraq ona baxmamışam. İkincisi isə, bu[241-242] rada gedən müzakirələrə görə çalışarıq bu komissiyanın tərkibi elə olsun ki, bu işə bütün sahələrdən yaxşı, səmərəli kömək edə bilən, ona qadir olan şəxslər buraya daxil edilsinlər. Həm dövlət strukturunda olan adamlar, həm alimlər, həm də müəssisələrin, ictimaiyyətin nümayəndələri komissiyaya daxil olsunlar.

Bu komissiya mənim fərmanımla təşkil ediləcək və onun tərkibi sabah elan olunacaqdır.

Ona görə də özəlləşdirmə prosesi bəzi çıxışlarda deyildiyi kimi uzun bir müddətdə gedə bilməz. Aydındır ki, bunu çox qısa müddətdə də keçirmək mümkün deyil. Ancaq nəzərdə tutulurdu ki, 15-20 ilə özəlləşdirmə keçirilsin. Mənə elə gəlir ki, bu heç ola bilməz. Bu, iqtisadiyyatımızı ağır vəziyyətə sala bilər. Bir şeyi də anlamaq lazımdır. Belə çıxacaq ki, bizim iqtisadiyyatda iki sistem uzun müddət davam edəcək. Əgər biz deyiriksə ki, özəlləşdirmə prosesində bir sahəni dövlət mülkiyyətində saxlayacağıq, iqtisadiyyatımızın çox sahəsi isə özəlləşdiriləcək, bu, təbiidir. Onda biz dövlət mülkiyyətində olan sahələrlə özəl bölmədə olan sahələrin münasibətlərini aydınlaşdırıb təşkil etmək imkanına malik olacağıq. Amma özəlləşdirmənin vaxtını həddindən artıq uzatsaq, bu da bizim tərəfimizdən idarə olunmayan bir prosesə çevrilsə, onda belə olacaq: müəssisələrin bir qismi özəlləşdiriləcək, qalan hissə isə özəlləşdirilməyəcəkdir və onda biz hansı iqtisadi qanunlar əsasında yaşayacağıq?

Biz deyirik ki, bazar iqtisadiyyatına gedirik. Şübhəsiz, bazar iqtisadiyyatı elə bir şey deyil ki, bu sahildən o sahilə 5 metr tullanıb o tərəfə düşəsən. Bu, belə deyil. Amma eyni zamanda bazar iqtisadiyyatına gedən yol elə bir uzun yol deyil ki, bir adamın ömrü ona çatmasın. Belə şey ola bilməz. Bəziləri ayrı-ayrı ölkələrdə uzunmüddətli özəlləşdirmə prosesinin tarixini misal gətirirlər. Bəli, bu ölkələrdə sosialist sistemi olmayıb, dövlət mülkiyyəti olmayıb. Mülkiyyətin cürbəcür formaları olub, müəyyən müddətdə onun bir hissəsi dövlət mülkiyyətinə keçib. Amma özəl bölmə həmişə üstün mövqedə, üstün vəziyyətdə olub. Ona görə də həmin prosesin müəyyən bir tarixi var. Amma indi biz sosialist iqtisadi sistemindən bazar iqtisadiyyatına keçiriksə, bunu bə'zi çıxışlarda deyildiyi kimi həddindən artıq uzatmaq bizə çox böyük çətinliklər yaradar, iqtisadiyyatımızı daha da pis vəziyyətə sala bilər. Bununla heç cür razılaşmaq olmaz. Tofiq Əzizov komissiyanın sədri kimi artıq [242-243] işə başlamalıdır. O cümlədən burada mübahisəli olan, ayrı-ayrı fikirlər doğuran məsələlər də bu komissiyada müzakirə edilməlidir. Əgər bu komissiyaya bir ay vaxt verilərsə, ola bilər ki, on beş gündən sonra o mübahisəli məsələlər haqqında fikirləri bizim müzakirəmizə çıxarsınlar. On beş

gündən sonra həmin mübahisəli məsələlər haqqında hansı fikrə gələrlərsə, gətirib bizə təqdim edərlər, biz də bir yerdə yığışıb o barədə son sözümüzü deyərik. Bundan sonra on beş gün də vaxt lazım olacaq ki, mübahisəli məsələlər aydınlaşandan sonra tam bir ay müddətində proqram tərtib olunub təqdim edilsin.

Bu gün burada nazirlər, dövlət komitələrinin sədrləri, böyük müəssisələrin rəhbərləri müzakirə vaxtı respublika sənayesinin, ümumiyyətlə iqtisadiyyatımızın, istehsalın vəziyyəti haqqında da bəzi fikirlər söylədilər. Fürsətdən istifadə edib demək istəyirəm ki, biz bu islahatları keçiririk və keçirəcəyik. Ancaq indi oturub düşünək, əlimizi-əlimizin üstünə qoyub gözləyək ki, bu islahatlar nə vaxt həyata keçəcək və bundan sonra biz nəsə əldə edəcəyik, – bu, qətiyyən yaramaz. Hərə öz sahəsində çox ciddi tədbirlər görməlidir.

Sənayemizdə, ümumiyyətlə, iqtisadiyyatımızda mövcud potensial imkanlar – hətta blokada şəraitində olmağımıza, başqa çətinliklərə baxmayaraq, (şimal tərəfdən yollarımız bağlıdır) – istehsalın xeyli yaxşı işləməsinə imkan verir. Ancaq qeyd etməliyəm ki, nazirliklər, şəxsən nazirlər, komitələr, komitə sədrləri, Nazirlər Kabineti, müəssisə, idarə rəhbərləri, təəssüf ki, son vaxtlar əməli işi zəiflədiblər, lazımi tədbirlər görmürlər. Daxili imkanlardan səmərəli istifadə etmirlər.

Ona görə də mən bu gün həm Nazirlər Kabinetindən, həm nazirlərdən, komitə sədrlərindən, müəssisə rəhbərlərindən, həm də iqtisadiyyatla məşğul olan bütün vəzifəli şəxslərdən tələb edirəm ki, işdə ciddi dönüş yaratmaq lazımdır. Bir də qeyd edirəm ki, Azərbaycanın iqtisadi, sənaye potensialı mövcud şəraitdə sənaye istehsalının xeyli artırılmasına imkan verir. Bu imkanlar hər bir müəssisədə, hər bir zavodda, fabrikdə, hər nazirlikdə, hər komitədə var. Əgər bu imkanlardan istifadə olunmursa, demək, bu rəhbər şəxslər öz vəzifələrini layiqincə yerinə yetirə bilmirlər, ya da yerinə yetirmək istəmirlər.

Mən hər kəsin nəzərinə çatdırmaq istəyirəm ki, belə vəziyyətə dözməyəcəyəm. İşində dönüş yaratmayan adamlar, şübhə[243-244]siz ki, öz vəzifələrindən kənarlaşdırılacaqdır. Ancaq mən bunu sadəcə xəbərdarlıq etmək üçün deyirəm, heç kəsə də hədə-qorxu gəlmirəm. Mən hər bir vəzifəli şəxsi vicdanla işləməyə dəvət edirəm. Respublikamız elə bir vəziyyətdədir ki, hər bir vəzifəli şəxs, kollektiv rəhbəri, idarə rəhbəri, nazirlik rəhbəri başa düşməlidir ki, onun işindən nəinki rəhbərlik etdiyi sahədə çalışan adamların maddi vəziyyəti, respublikamızın iqtisadi vəziyyəti asılıdır.

Respublikamızın ağır iqtisadi böhran vəziyyətindən çıxmaq üçün biz bu böyük tədbirlərlə yanaşı, yeni iqtisadi islahatlar aparmaqla yanaşı – onların nəticəsini bir ildən sonra alacağıq – indi mövcud olan imkanlardan səmərəli istifadə etməliyik. Səmərəli istifadə etmək üçün isə, mən bir də deyirəm, hər bir yerdə imkanlar var. O imkanlardan istifadə edilməlidir.

Müxtəlif pillələrdə, cürbəcür təbəqələrdə iqtisadiyyata rəhbərlik edən, məsul vəzifə daşıyan şəxslər təşəbbüskar olmalıdır. Hərə öz sahəsində çevik hərəkət etməli, axtarışlar aparmalıdır. Bu, yeni iqtisadi formalardan istifadə edərək, iqtisadiyyatın səmərəliliyini təmin etməlidir, istehsalı irəliyə aparmalıdır. Zavodun, fabrikin, müəssisənin işini yaxşı təşkil etməlidir. Mən güman edirəm ki, bu imkanlar var. Həmin imkanları həyata keçirmək üçün şübhəsiz ki, Nazirlər Kabineti öz işini gücləndirməli və bu sahələrə daha mütəşəkkil rəhbərlik etməlidir.

Bir çox sahələrdə başqa qanunlar da qəbul olunmalıdır. Bunu bir neçə dəfə demişəm, – xüsusən gömrük sahəsində. Gömrük rüsumları sahəsində qanun, təlimat, əsasnamə və nə lazımdırsa, tezliklə təmin etmək lazımdır. Biz burada gecikirik və çox şey itiririk. Dəfələrlə deyilib, bəlkə də bunu təkrar etməyə ehtiyac yoxdur. Bizim gömrük siyasətimizdə daxili bazarımıza zərər vuran çox hallar var. İxrac, idxal siyasətimizdə çox böyük qüsurlar var. İqtisadiyyatımız bundan çox böyük zərərlər çəkir. Ancaq nədənsə biz bunun qarşısını almırıq, yaxud ala bilmirik. Bu zərərlər də iqtisadiyyatımızı ümumiyyətlə geriyə salır.

Mən tələb edirəm ki, Nazirlər Kabineti, Prezident Aparatı tezliklə bu məsələlər haqqında öz təkliflərini versinlər. Güman edirəm ki, əgər qanunlar qəbul olunmalıdırsa, bunlar Milli Məclis tərəfindən də tezliklə qəbul ediləcəkdir. Bir sözlə, biz islahatların həyata keçirilməsi ilə ciddi məşğul olmalıyıq. Ancaq islahatlar, özəlləşdirmə təkcə özəlləşdir[244-245]mə, mülkiyyət formasının dəyişdirilməsi naminə deyil, ən son nəticə olaraq respublika iqtisadiyyatının səmərəliliyinin artırılması naminədir. Ona görə də bütün tədbirlərimiz bu məqsədin yerinə yetirilməsinə yönəldilməli və özəlləşdirmə haqqında proqram da bu məqsədi əsas tutmalıdır.

Güman edirəm ki, bununla da bugünkü müzakirəni sona çatdırmaq olar. Sabah qadınların bayramıdır. Bu bayram Azərbaycanda da qeyd olunur. İş günü deyil. Ancaq güman edirəm ki, qadınlar istirahət edəcək, kişilər işləyəcəklər. Qadınları bayram münasibətilə təbrik edirəm, onlara cansağlığı, xoşbəxtlik arzulayıram.

Biz Novruz bayramı ərəfəsindəyik, bu gün mən istəyirəm bütün dövlət orqanlarına tapşıram, güman edirəm, ictimai, xeyriyyəçi təşkilatlar da buna qoşulacaqlar, – Novruz bayramına ciddi hazırlaşmaq lazımdır. Yəni hazırlaşmaq o mənada yox ki, xüsusi tədbirlər keçirilməlidir, yox. Novruz bayramını adətən, dövri qədimdən xalqımız milli bayram kimi keçirib. Bu bayramda insanlar sadəcə olaraq baharı qarşılayırlar, hər şeyi yeniləşdirirlər. Bu bayramda bayram süfrəsi arxasında otururlar. Mənim ən böyük arzum ondan ibarətdir: biz hamımız çalışaq, Azərbaycan vətəndaşları Novruz bayramını yaxşı əhval-ruhiyyə ilə qarşılasınlar və yaxşı bayram süfrəsi ətrafında Novruz bayramını keçirə bilsinlər. Mən bütün vəzifəli şəxslərə müraciət edirəm və güman edirəm ki, hərə öz sahəsində lazımi işlər görməlidir.

Sağ olun. Bununla da bugünkü müşavirə başa çatır. [245]

## BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ BAYRAM MƏRASİMİNDƏ TƏBRİK NİTQİ

*Rəşid Behbudov adına*
*Azərbaycan Dövlət Mahnı Teatrı*

*8 mart 1995-ci il*

Əziz qadınlar, əziz bacılar!

Sizin hamınızı bugünkü bayram münasibətilə səmimi qəlbdən təbrik edirəm, hamınıza cansağlığı, xoşbəxtlik və bütün arzularınızın həyata keçməsini diləyirəm.

Mən uzun illərin fasiləsindən sonra burada qadınlar bayramında iştirak edirəm. Azərbaycanda bu bayram vaxtilə çox keçirilib. Bu bayramı çoxlarınızla birlikdə qeyd etmişik. Bilirsiniz ki, bir çox illər mən vətəndən – Azərbaycandan, Bakıdan ayrı idim. Mən Moskvada olanda da şübhəsiz ki, qadınlar bayramında iştirak etmişdim. Uzun fasilədən sonra yenidən burada, öz torpağımızda bacılarımızla birlikdə bu bayramı qeyd edirik. Mən bundan çox məmnunam. Düzü, mən bu mərasimi belə təsəvvür edə bilmirdim. Mənə dünən axşam dedilər ki, belə bir bayram mərasimi olacaq və məni də dəvət ediblər. Mən dedim ki, mütləq gedəcəyəm. Ancaq bu tədbirin bu qədər təsirli, möhtəşəm və təntənəli olacağını təsəvvür etmirdim.

İndi mən həyəcan içərisindəyəm. Çünki burada, bu kiçik salonda Azərbaycanın görkəmli xanımlarını görürəm. Mən onları görməkdən çox məmnunam. Biz uzun illər bir yerdə çalışmışıq, işləmişik, əlaqələrimiz və münasibətimiz olubdur. Mən indi burada, xalqımızın bu ağır, çətin dövründə qadınları yenə də bayram əhval-ruhiyyəsində görəndə çox sevinirəm.

Bu gün biz burada gözəl konsertə baxdıq. Bizim incəsənətimiz zəngindir, – bunu bütün dünya bilir. Biz də bilirik. Ancaq bəzən biz özümüzün qədrini bilmirik, nəyə qadir olduğumuzu dərk edə bilmirik. Burada çıxış edənlərin bəziləri gənclərdir. Biz səhnədə eyni zamanda incəsənət ustalarımızı, sönməyən ulduzlarımızı, Azərbaycan mədəniyyətini uzun illər yaşadanları, inkişaf etdirənləri gördük. Bu salonda onların bir çoxu əyləşibdir. XX əsrin tarixini – keçmişi, bu günü və gələcəyi bura[246-247]da bu salonda əyləşənlərin timsalında, həyat və yaradıcılıq yolunda görürük. Bu, böyük xoşbəxtlikdir.

Burada Azərbaycan qadını haqqında xoş sözlər dedilər. Ola bilər ki, mən deyilənlərə bir şey əlavə edə bilməyim. Ümumiyyətlə, qadın cəmiyyətin ən hörmətli üzvüdür. Hamı qadının qarşısında baş əyməlidir, hamı qadına hörmət etməlidir. Mən bütün həyatım boyu qadına hörmət etmişəm və cəmiyyətimizi, millətimizi, xalqımızı qadına hörmət etməyə dəvət etmişəm.

Bu gün bir daha görürəm ki, Azərbaycan qadınları xalqımızın adət-ənənələrini, mədəniyyətini, elmini, intellektual potensialını yüksək səviyyədə təmsil etmişlər və bu, indi də belədir. Qadınlara hörmət, qadınlara təşəkkür, qadınlara cansağlığı!

Mən bu gün sizinlə bir yerdə olduğuma görə çox sevinirəm. Bir daha sizi təbrik edirəm, cansağlığı və xoşbəxtlik arzulayıram!

Burada Elmira ana çıxış etdi. Mən bilmirdim ki, cəbhədə bizim belə analar var. Şübhəsiz ki, Azərbaycan qadını həmişə qəhrəman olubdur. Onların cəsarətli olduğunu hamı, o cümlədən mən də bilirəm. Ancaq mən bilmirdim ki, cəbhədə sizin kimi Elmira ana var. Mən sizə təşəkkür edirəm. Bəlkə, bu, gözlənilməz bir qərar olacaq, ancaq mənim bir prezident kimi buna səlahiyyətim var. Mən buradaca sizi respublikamızın ən yüksək ordeni – "Azərbaycan Bayrağı" ordeni ilə təltif edirəm.

Azərbaycanın ulduzları bizim gözümüzün önündən keçdilər. Leyla xanım, Sara xanım, Tükəzban xanım, Firəngiz xanım, Gülxar xanım, Şəfiqə xanım burada əyləşiblər. Mən sizin yaradıcılığınızın həmişə pərəstişkarı olmuşam. Sizi səhnələrdə də görmüşəm, şəxsən də görüşmüşük. Mən həmişə sizinlə fəxr etmişəm. Çox fəxr edirəm ki, siz bu gün bu məclisə də yaraşıq verirsiniz. Hamınızı, xüsusən ulduzlarımızı təbrik edirəm. Leyla xanım, söylədiyiniz xoş arzular üçün təşəkkürümü bildirirəm. Sizinlə üzbəsurət görüşməyimə çox sevinirəm. Çünki adətən sizi ekranlarda görürük. Yəqin ki, siz də məni bəzən ekranlarda görürsünüz.

**Salondan səslər:** Biz Sizin üçün darıxmışıq.

**Heydər Əliyev:** Amma mən sizdən ötrü daha çox darıxmışam. Sara xanım, xatirinizdədirsə, sizin yubileyiniz zamanı mən Naxçıvanda idim. Sizə təbrik göndərdim. Çox sevindim. Mən Naxçıvanda blokada şəraitində idim. Mən Sizə telefon [247-248] etdim. Burada Sizinlə görüşdüyümə görə çox şadam. Hamınızı görməyimə çox məmnunam.

Burada xarici ölkələrin səfirləri öz xanımları ilə birlikdə iştirak edirlər. Bilmirəm, bu bayram Amerikada, Türkiyədə, İngiltərədə, başqa ölkələrdə qeyd olunur, yoxsa yox? Fərqi yoxdur, onların bu gün burada iştirak etməsi və bu bayramı bizim qadınlarla birlikdə qeyd etmələri çox gözəl haldır. Mən sizin adınızdan və öz

adımdan xarici ölkələrin səfirlərinin xanımlarını bizimlə birlikdə olduqlarına görə təbrik edirəm, səfirlərə, diplomatik nümayəndəliklərin başçılarına təşəkkürümü və minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün mənim həyəcanlanmağımın səbəbi odur ki, xalqımız çətin, ağır vəziyyətdə, müharibə şəraitində yaşayır – bunların hamısını mən bilirəm, bu çətinliklərə görə qəlbən əzab-əziyyət çəkirəm, çünki bunların hamısına cavabdehəm. Ancaq eyni zamanda sizi şən, xoşbəxt görəndə, bu çətinliklərə baxmayaraq, sizi xoş əhval-ruhiyyədə, nikbin görəndə mən bir daha inanıram ki, xalqımız bu çətinliklərin hamısından çıxacaqdır. Bizim qələbəmizin dayağı qadınlardır, qadınlardır, qadınlardır!

Qadınlara hörmət, qadınlara məhəbbət! Qadınlar bizim qəlbimizdədir!

Sağ olun, təbrik edirəm! [248]

**AZƏRBAYCAN RESPUBLİKASININ TEATR XADİMLƏRİNƏ**

Əziz teatr xadimləri!

Sizi Azərbaycan Milli Teatr günü münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycanın teatr xadimləri bütün mütərəqqi fikirli ziyalılarla birlikdə həmişə milli azadlıq hərəkatımızın ön cərgəsində getmiş, xalqın ağır günlərində ona mənəvi dayaq olmuşlar, bu gün də qədim mədəniyyətimizin dünyaya tanıdılmasında böyük işlər görürlər.

Bu əlamətdar gündə milli teatrımızın çiçəklənməsi, daha da inkişaf etdirilməsi naminə sizin hamınıza cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*8 mart 1995-ci il* [249]

## KOPENHAGENDƏ SOSİAL TƏRƏQQİ NAMİNƏ YÜKSƏK SƏVİYYƏDƏ ÜMUMDÜNYA GÖRÜŞÜNDƏ ÇIXIŞ

*12 mart 1995-ci il*

Hörmətli cənab sədr!
Hörmətli dövlət və hökumət başçıları, ümumdünya görüşünün iştirakçıları!

İcazə verin, sosial tərəqqi naminə yüksək səviyyədə ümumdünya görüşünün işi üçün yaradılmış çox gözəl şəraitə görə Danimarka hökumətinə təşəkkür edim. Bu görüşün hazırlanmasında böyük zəhmət çəkdiklərinə görə hazırlıq komitəsinə, şəxsən Birləşmiş Millətlər Təşkilatının Baş katibinə minnətdarlığımı bildirirəm.

Bəşər tarixində ilk dəfədir ki, dünyanın dövlət və hökumət başçıları dünyanın bütün xalqlarının sosial rifahına nail olmaq naminə razılaşdırılmış siyasət yürütmək məqsədi daşıyan məclisə toplaşmışdır. Bu sübut edir ki, bəşəriyyət soyuq müharibə, qlobal hərbi və ideoloji qarşıdurma başa çatandan sonra öz inkişafının yeni, daha yüksək mərhələsinə qədəm qoyur.

İlk dəfədir ki, dünya birliyi insanın harada yaşamasından, hansı irqə və ya dinə mənsub olmasından asılı olmayaraq onun həyatının sosial şəraitinə görə öz kollektiv məsuliyyətini başa düşdüyünü parlaq şəkildə nümayiş etdirir.

Hörmətli xanımlar və cənablar!

Öz dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası demokratik hüquqi dövlət quruculuğu yolu ilə gedir, mükəmməl bazar islahatları həyata keçirir.

Respublikamızda böyük çətinliklərlə müşayiət edilməsi labüd olan bu keçid dövrü Ermənistan tərəfindən hərbi təcavüz, altı ildən çox davam edən müharibə nəticəsində daha da mürəkkəbləşmişdir. Azərbaycanın ərazisinin iyirmi faizindən çoxu işğal olunmuş, həmin ərazidə bütün iqtisadi potensial və sosial infrastruktur dağıdılmışdır. Bir milyondan çox azərbaycanlı işğal olunmuş ərazilərdən qovulmuş və indi çadır şəhərciklərində yaşayır, ərzaq, dava-dərman sarıdan korluq çəkir, həyat üçün ən zəruri və ən adi vasitələrə kəskin ehtiyac duyur. [250-251]

Bu çətin şəraitdə biz respublika vətəndaşlarının sosial müdafiəsi sahəsində mümkün olan bütün tədbirləri görürük. Lakin təcavüzün vurduğu çox böyük iqtisadi zərər Azərbaycanın bütün əhalisinin vəziyyətini son dərəcə pisləşdirmiş, vətəndaşlarımızın böyük bir hissəsinin həyat səviyyəsini kəskin surətdə aşağı salaraq onları yoxsulluq həddinə yuvarlatmışdır.

Bütün bunlar sosial inkişaf vəzifələri ilə dünyada siyasi sabitlik, beynəlxalq hüququn müəyyən edilmiş normalarına, BMT nizamnaməsinə dönmədən əməl olunması məsələləri arasında qırılmaz əlaqəni sübut edir.

Buna görə də dövlət tərəfindən vətəndaşların sosial müdafiəsinə təminat verilməsi dövlətlərin özlərinin suverenliyinin, ərazi bütövlüyünün kənardan təhlükəyə məruz qalmayacağına beynəlxalq təminatlar verilməsi ilə tamamlanmalıdır.

İnsanın sosial müdafiəsinə siyasi, iqtisadi və humanitar cəhətdən vəhdət şəklində beynəlxalq təminat normaları işlənib hazırlanmalıdır.

Bununla əlaqədar olaraq, mən Birləşmiş Millətlər Təşkilatının yüksək səviyyəli məclisinin tribunasından beynəlxalq birliyi Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması sahəsində səyləri gücləndirməyə çağırıram.

Biz münaqişəyə ATƏT çərçivəsində son qoyulmasının sülh yolunun tərəfdarı olaraq qalırıq, ATƏT-in Minsk qrupunun fəaliyyətini və Budapeşt Zirvə toplantısının prinsipial qərarlarını müdafiə edirik. Ayrı-ayrı hallarda atəşkəs rejiminin pozulmasına baxmayaraq, bundan sonra da bu rejimi saxlamaq niyyətindəyik. Lakin Ermənistan Respublikası Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının Azərbaycanın işğal olunmuş ərazilərindən erməni işğalçı qüvvələrinin qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə hələ də məhəl qoymur və bu, münaqişənin tamamilə aradan qaldırılması yolunda başlıca maneədir. Beynəlxalq birlik münaqişənin həllində müsbət nəticələr əldə etmək üçün öz yüksək nüfuzundan istifadə edib sülh danışıqları prosesinə təsir göstərməlidir.

Hörmətli xanımlar və cənablar!

Azərbaycan keçid dövrünün və xarici təcavüzün mürəkkəb şəraitində dünya birliyinin əməli köməyinə ehtiyac duyur.

Biz təcavüzdən zərər çəkənlərə humanitar yardım göstərdiklərinə görə Birləşmiş Millətlər Təşkilatına, müxtəlif beynəlxalq təşkilatlara və ayrı-ayrı ölkələrə minnətdarıq. Bununla yanaşı Azərbaycandakı sosial vəziyyət hələ də son dərəcə [251-252] mürəkkəb olaraq qalır və belə yardımın gücləndirilməsini tələb edir.

Biz aqrar islahatı, dövlət mülkiyyətinin özəlləşdirilməsi və iqtisadiyyatın struktur cəhətdən yenidən qurulması sahəsində geniş miqyaslı proqramların həyata keçirilməsinə başlamışıq.

Biz xarici sərmayə üçün böyük imkanlar açırıq. Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənməsi sahəsində dünyanın ən iri şirkətlərinin konsorsiumu ilə "Əsrin müqaviləsi"nin həyata keçirilməsinə başlanmışdır.

Bu il Azərbaycanda ilk dəfə olaraq çoxpartiyalı əsasda azad, demokratik parlament seçkiləri keçiriləcəkdir.

Ümid edirəm ki, bu planların həyata keçirilməsi Azərbaycan cəmiyyətinin əsas sosial problemlərini həll etməyə kömək edəcək və bizə sosial inkişaf sahəsində beynəlxalq səylərdə fəal iştirak etməyə, ehtiyacı olan ölkələrə kömək göstərməyə imkan verəcəkdir.

Görüşün iştirakçılarına səmərəli iş arzulayıram və əmin olduğumu bildirirəm ki, bizim qəbul etdiyimiz qərarlar bütün dünyada milyonlarla binəsibin ümidlərini doğruldacaq. XXI əsrdə beynəlxalq sabitliyin, tərəqqinin və inkişafın əsas dayaqlarından birinə çevriləcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm. [252]

## MİLLİ TELEVİZİYA VƏ RADİO İLƏ XALQA MÜRACİƏT

*15 mart 1995-ci il*

Hörmətli həmvətənlər, bacılar və qardaşlar! Axşamınız xeyir olsun. Bu axşam respublikamızın həyatına aid bəzi mülahizələrimi, fikirlərimi sizinlə bölüşmək üçün bilavasitə televiziya və radio ilə sizə müraciət edirəm.

Xalqımız, respublikamız dövlət müstəqilliyinin dördüncü ilini yaşayır. Bahar gəlir, biz böyük bayram, milli bayramımız olan Novruz ərəfəsindəyik. Şübhəsiz ki, hər bir bayram, şadlıq, sevinc gətirir və güman edirəm, bu Novruz bayramı da xalqımıza, millətimizə sevinc, şadlıq gətirəcəkdir. Ancaq dərdimiz də çoxdur, kədərimiz də böyükdür. Respublikamız altı ildən artıqdır ki, müharibə şəraitində yaşayır. Bu müddətdə itkilərimiz olub, şəhidlər vermişik. Dünən axırıncı çərşənbə axşamı idi, buna xalqımız arasında ilaxırı deyirlər. Bu günlər şəhidlərimizi xatırlayırıq, onların ruhuna dualar oxunur. Sizinlə görüşümün əvvəlində Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü yolunda şəhid olanların hamısının xatirəsini yad edirəm və Tanrıdan onlara rəhmət diləyirəm.

Altı ildən artıq gedən müharibədə xalqımız böyük sınaqlardan çıxmış, ağır mərhələlərdən keçmişdir. İndi də böyük bir sınaq içərisindəyik, böyük bir tarixi mərhələni yaşayırıq. Son vaxtlar, respublikamızın həyatında şübhəsiz ki, müəyyən müsbət dəyişikliklər var, bəlkə də bəzi nailiyyətlər var. Ancaq bunlar azdır. Ümumiyyətlə, respublikamız, onun iqtisadiyyatı ağır sosial böhran içərisindədir. Bir milyondan artıq qaçqın, müharibədə əlil olmuş adamlar, iqtisadi-sosial böhran nəticəsində ağır iqtisadi vəziyyətdə yaşayanlar – bunlar hamısı bizi, şəxsən bir Prezident kimi məni narahat edir, ağrıdır, eyni zamanda bütün bu problemlərin həll olunması üçün daha da ciddi fəaliyyət göstərməyə dəvət edir.

Bütün bu həyatımızın içərisində mühüm hadisələrdən biri ondan ibarətdir ki, on aydan artıqdır atəşin kəsilməsinə və onun pozulmamasına nail olmuşuq. On aydan artıqdır ki, cəbhədə atəş yoxdur, qan tökülmür, şəhidlər verilmir, matəmlərin [253-254] arası kəsilmişdir. Güman edirəm ki, 1988-ci ildən başlayan və indiyə qədər davam edən müharibədə ilk dəfə belə bir uzunmüddətli sülh xalqımız üçün böyük qənimətdir. Biz bu fürsətdən, müddətdən səmərəli istifadə etməyə çalışırıq. Məqsədimiz də ondan ibarətdir ki, müharibəyə danışıqlar yolu ilə son qoyaq, işğal olunmuş torpaqlarımızı sülh yolu ilə azad edək, respublikamızın ərazi bütövlüyünü təmin edək. Bunları indi bir daha, təkrarən, geniş surətdə sizə çatdırmağa ehtiyac yoxdur. Məhz apardığımız məqsədyönlü, ciddi, prinsipial siyasət nəticəsində, xüsusən xarici siyasət sayəsində, Ermənistanla münasibətlərimiz barəsində apardığımız konstruktiv, eyni zamanda prinsipial siyasət nəticəsində atəşkəsə nail olmuşuq və məsələnin sülh yolu ilə həlli üçün bir çox yeni nailiyyətlər əldə etmişik.

Xatirinizdədir, keçən ilin dekabrında Budapeşt Zirvə görüşündə Azərbaycanın həyatı üçün çox böyük tarixi əhəmiyyəti olan bir qətnamə qəbul olundu. Bu, Ermənistan-Azərbaycan münaqişəsinin dayandırılması üçün ATƏT-in çoxmilli beynəlxalq sülhü mühafizə qüvvələrinin yaranması, Minsk qrupunun fəaliyyətinin daha da artırılması, Minsk qrupunun iki sədrinin seçilməsi və bunların vasitəsilə də Böyük Sülh Müqaviləsinin hazırlanıb həyata keçirilməsi barədədir. Keçən ilin dekabrından indiyə qədər bu sahədə çox iş görülmüşdür. Görüşlər, danışıqlar, müzakirələr olmuşdur. Bu günlərdə Stokholmda, Vyanada Minsk qrupunun görüşləri olacaqdır. Bizim nümayəndələr orada iştirak edir, iş görürlər. Böyük dövlətlərin başçıları, onların nümayəndələri ilə, diplomatik missiyaların rəhbərləri ilə mütəmadi olaraq danışıqlar aparırıq. Bunlar hamısı sizə məlumdur, bu barədə vaxtaşırı məlumat alırsınız.

Bildiyiniz kimi son günlərdə mən Danimarkanın Kopenhagen şəhərində oldum. Orada bu gün üçün və dünyanın, bəşəriyyətin gələcəyi üçün əhəmiyyətli bir toplantı keçirildi. Dünyanın sosial problemlərinin həlli ilə bağlı Birləşmiş Millətlər Təşkilatının keçirdiyi bu Zirvə görüşündə bütün ölkələrin dövlət və hökumət başçıları iştirak edirdi. Birləşmiş Millətlər Təşkilatının əlli illik tarixində bu səviyyədə və bütün dünya üçün hər bir vətəndaş, xalq üçün mühüm olan belə bir tədbir keçirilməmişdi. Bu tədbirdə mən də iştirak etdim, Azərbaycan xalqının sözlərini o böyük məclisin tribunasından dünyaya bildirdim, Azərbaycanın bugünkü vəziyyətini, bizim tələblərimizi, xahişlərimizi bəyan etdim. Orada dövlət rəhbərləri, hökumət [254-255] başçıları ilə bir çox görüşlər oldu. Bunlar mətbuatdan sizə məlumdur. Bu görüşlərin məqsədi birinci növbədə Azərbaycanın beynəlxalq aləmdə mövqelərini möhkəmləndirmək, Azərbaycan həqiqətini dünya ölkələrinin rəhbərlərinə bilavasitə çatdırmaq, ölkəmizi tanıtmaq, onun bugünkü imkanlarını bir daha bildirmək və bunların əsasında Azərbaycanla dünya ölkələri arasında əlaqələri inkişaf etdirmək və möhkəmləndirmək, Azərbaycanı dünyaya daha da geniş açmaqdan ibarət idi. Güman edirəm ki, mənim orada olan görüşlərim, danışıqlarım, söhbətlərim bu istiqamətdə apardığımız siyasətdə yeni bir addımdır və bunun da müsbət nəticələri mütləq olacaqdır. Mən buna ümidvaram.

Şübhəsiz ki, bu görüşlərdə, danışıqlarda yenə də əsas mövzu Azərbaycanın müharibə vəziyyətindən çıxarılması, Ermənistanla Azərbaycan arasında olan münaqişəyə son qoyulması, Ermənistanın Azərbaycana

qarşı təcavüzünə bizim etirazımız idi. Dünyaya bir daha bildirdik ki, Ermənistan Azərbaycana təcavüz edib, torpaqlarımızın bir qismini işğal edib, Azərbaycanın bir milyondan artıq vətəndaşını qaçqın, didərgin vəziyyətinə salmışdır. Hesab edirəm ki, həmin görüşlərdə bütün imkanlardan istifadə edərək bunları dünya ictimaiyyətinə çatdıra bildim.

Martın 12-dən 13-nə keçən gecə mən oradan qayıtdım və 13-də Pakistana yola düşməli idim. Bu günlərdə İslamabadda da bizim üçün çox əhəmiyyətli olan bir toplantı – on müsəlman ölkəsi başçılarının görüşü keçirilir. Bu, iqtisadiyyatla əlaqədar ənənəvi bir görüşdür. Mən həmin görüşə getməli idim, orada deyiləsi sözlərimiz, müzakirə olunacaq məsələlər var idi. Təəssüf ki, respublikamızda yaranmış vəziyyət – bir qədər sonra bu barədə öz fikirlərimi deyəcəyəm – məni bu səfərdən məhrum etdi. Çox təəssüf. Çünki İslamabad toplantısı respublikamız üçün çox əhəmiyyətli bir Zirvə görüşüdür. Lakin nümayəndə heyətimiz orada iştirak edir.

1995-ci ilin birinci rübü başa çatır. Bu müddətdə gördüyümüz işlər təkcə Dağlıq Qarabağ ilə, yaxud Ermənistanla Azərbaycan arasındakı münaqişə ilə, Azərbaycanın müharibə şəraitindən çıxarılması ilə əlaqədar deyildir. Hesab edirəm ki, başqa sahələrdə də bizim fəaliyyətimiz çox ciddi, çox sürətlə gedir. Mən bu ilin əvvəlində demişəm ki, 1995-ci il Azərbaycan üçün çox böyük dəyişikliklər ili olmalıdır. Biz bu il iqti[255-256]sadiyyatda, dövlət quruculuğunda, cəmiyyətdə demokratik prinsiplərin hamısının tam qətiyyətlə həyata keçirilməsinə nail olmalıyıq. Dövlət quruculuğunun bütün sahələrində islahatlar keçirməli, respublikamızı demokratiya yolu ilə, bazar iqtisadiyyatı yolu ilə daha sürətlə irəli aparmalıyıq.

Bu sahədə bəzi işlər görülmüşdür və onlar göz qabağındadır. Bildiyiniz kimi, bizim məqsədimiz iqtisadiyyatı bazar münasibətləri yolu ilə aparmaqdır. Şübhəsiz ki, bu, asan məsələ deyil. Yetmiş ildən artıq müddətdə sosialist sistemi əsasında qurulmuş iqtisadiyyatı dəyişdirmək, bazar iqtisadiyyatı yolu ilə aparmaq çətin bir məsələdir. Bu, bir günün, bir ayın işi deyildir. Artıq bir neçə ildir ki, bu proses davam edir, ancaq hələ bir nailiyyət yoxdur. Lakin mənə belə gəlir ki, nailiyyətlər uzaqda deyil, biz bunlara çatacağıq. Ona görə də biz iqtisadi islahatlar aparmalıyıq.

Bu baxımdan bir çox işlər görülmüşdür. Bilirsiniz ki, bir neçə ay müddətində respublikanın aqrar bölməsində – kənd təsərrüfatında islahatlar aparılması məsələsini müzakirə etdik. Komissiyalar yarandı, yerlərdə müzakirələr oldu, Ümumrespublika müşavirəsi keçirildi. Qanun layihələri hazırlandı, mən onlara dəfələrlə baxdım, komissiyalarla məsləhətləşmələr aparıldı. Nəhayət, mən iki böyük qanun layihəsini Milli Məclisə təqdim etdim, onlar qəbul olundu. Mən həmin qanunları təsdiq etmişəm və onlar işləməyə başlamışdır. Aqrar islahatın əsasları, kolxoz və sovxozların islahatı haqqında bu qanunların həyata keçirilməsi üçün dövlət komissiyası yaradılmışdır və artıq fəaliyyət göstərir. Kənd təsərrüfatı rayonlarında rayon komissiyaları, kəndlərdə kənd komissiyaları yaradılır. Aqrar islahat artıq praktiki şəkildə həyata keçirilir və güman edirəm ki, bu bizə böyük nailiyyətlər gətirəcəkdir.

Bazar iqtisadiyyatına keçmək üçün maliyyə məsələlərinin də tənzimlənməsi lazımdır. Bilirsiniz ki, qiymətlərin sərbəstləşdirilməsi, valyuta tənzimlənməsi, maliyyə işlərinin dünya standartlarına, bazar iqtisadiyyatına uyğun olaraq qurulması sahəsində bir sıra fərmanlar vermişəm. Burada bizim çox çətinliklərimiz olmuşdur. Məlumdur ki, 1994-cü ilin son aylarında böyük inflyasiyaya uğradıq. Bu da təsadüfi deyildi. Görülən tədbirlər təbii olaraq belə vəziyyət yaratmalı idi. İkinci tərəfdən isə buna təxribat səbəb oldu. Ölkəmiz təkcə Ermənistanın hərbi təcavüzü ilə qarşılaşmamışdı. Bizə qarşı hər tərəfdən təxribat edən qüvvələr var: daxildə də, xaricdə də; iqtisadiy[256-257]yatda da, ictimai-siyasi həyatımızda da. Bunların hamısını gördük, qarşısını almaq üçün lazımi tədbirlər həyata keçirdik. Bu gün məmnuniyyət hissi ilə qeyd edə bilərəm ki, artıq maliyyə sistemində müəyyən sabitlik yaranır. Üç aydan artıqdır ki, manatın dollara, yəni dönərli valyutaya nisbətən məzənnəsi sabitdir. Bu gün maliyyə naziri mənə məlumat verdi ki, son bir həftədə manatın məzənnəsi dollara nisbətən hətta 80 manat artmışdır, yəni manat möhkəmlənir. Bunlar iqtisadiyyatımızda baş verən çox mühüm və hesab edirəm ki, müsbət hadisələrdir.

Ancaq bu, işimizin başlanğıcıdır. Biz bu yolla getməliyik. Bundan ötrü isə bütün sahələrdə islahatlar aparılmalıdır. İslahatlar da özəlləşdirmə yolu ilə aparılmalıdır. Bilirsiniz ki, biz bu barədə komissiya yaratmışıq. Mən Əmlak Komitəsinin rəhbərliyini dəyişdirmişəm, oranı möhkəmləndirmişəm. Əmlak Komitəsinin sədri eyni zamanda baş nazirin müavini təyin olunmuşdur ki, bu sahə daha da güclənsin. İş gedir, onlar müəyyən layihələr təqdim ediblər. Martın 7-də geniş müşavirə keçirdik və demək olar, səkkiz saat ərzində bu məsələni müzakirə etdik. Xahiş etdim ki, televiziya, mətbuat vasitəsilə bu müşavirə, müzakirə bütün ictimaiyyətə çatdırılsın, hamı bilsin. çünki dövlət mülkiyyətinin xüsusi mülkiyyətə çevrilməsindən, mülkiyyət formasının dəyişilməsindən söhbət gedir. İndi dövlətin əlində olan mülkiyyət, bu iqtisadi potensial xalqın zəhməti, vəsaiti ilə yaranmışdır, xalqa məxsusdur. Ona görə də özəlləşdirmə elə getməlidir ki, xalq bundan bəhrələnsin, hər bir vətəndaş öz payını götürə bilsin və bu iqtisadiyyatımızda böyük inkişafın əsasını qoysun, onu dünya iqtisadiyyatına bağlaya bilsin, biz dünya iqtisadiyyatında layiqli yerimizi tuta bilək.

Mən hesab edirəm ki, martın 7-də keçirilən müşavirə bu sahədə çox önəmli bir yer tutur. Mən yaranmış komissiyaya bir ay möhlət verdim və o, bu müddət ərzində özəlləşdirmə proqramını hazırlayıb təqdim etməlidir. Həmin proqram təqdim olunan kimi baxılıb Milli Məclisin müzakirəsinə veriləcək, sonra isə mənim tərəfimdən təsdiq ediləcək və həyata keçiriləcəkdir. Güman edirəm ki, biz bu yolla cürətlə, cəsarətlə və tam inamla gedirik

və gedəcəyik. Ancaq mənim mövqeyim ondan ibarətdir ki, bu özəlləşdirmə, bu islahatlar elə getsin ki, hər bir vətəndaş bundan mənfəət götürsün, ümumi mülkiyyətdən öz xüsusi mülkiyyəti üçün paymı ala bilsin. Əmin ola [257-258] bilərsiniz ki, bir prezident kimi mən bunu təmin edəcəyəm və hər bir vətəndaşın hüquqlarının qorunması keşiyində indiyə qədər dayandığım kimi bundan sonra da dayanacağam.

Ancaq bizim həyatımızda ciddi dəyişikliklər yaratmaq, demokratiyanı daha sürətlə inkişaf etdirmək üçün ictimai-siyasi tədbirlər də görülməlidir. Mən qeyd etdim, dövlət quruculuğu sahəsində biz bir çox işlər görürük və görməliyik. Bunlardan ən başlıcası demokratik əsasda yeni parlament seçkilərinin keçirilməsidir. Mən hesab edirəm ki, bu il sentyabr, yaxud oktyabr ayında Azərbaycan Respublikasının yeni parlamentinə seçkilər keçirilməlidir. Seçkilərin tam demokratik şəraitdə keçirilməsi üçün əsas şərait yaradılmalıdır. Bunu isə şübhəsiz ki, seçkilər haqqında qanun yarada biləcəkdir. Hesab edirəm ki, əlimizdə olan layihə daha da təkmilləşdirilməlidir. Biz gərək ümumxalq müzakirəsinə elə bir layihə təqdim edək ki, o respublikamızda həqiqi demokratiyanın bərqərar olması üçün yaxşı zəmin, yaxşı əsas yaratsın. Mənim mövqeyim bundan ibarətdir və onu həyata keçirmək üçün bütün imkanlardan istifadə edəcəyəm.

Bir sözlə, bu yaxınlarda seçki qanunu müzakirəyə veriləcək, seçkilərə hazırlıq gedəcək və payızda Azərbaycan Respublikasının parlamentinə yeni, demokratik seçkilər keçiriləcəkdir. Şübhəsiz ki, seçkilərdə bütün partiyaların, hər bir vətəndaşın sərbəst iştirak etməsinə şərait yaradılacaqdır. Mən öz tərəfimdən bu gün bunu bəyan edirəm və bütün imkanlarımdan istifadə edəcəyəm ki, hər bir vətəndaş seçmək və seçilmək hüququndan sərbəst istifadə edə bilsin. Şübhəsiz ki, biz seçkiləri bütün dünya ictimaiyyəti qarşısında açıq-aşkar keçirəcəyik. Beynəlxalq təşkilatlardan bizə müraciətlər olmuşdur və biz də onlara müraciət etmişik. Onlar, habelə demokratiya sahəsində böyük nailiyyətləri olan ayrı-ayrı dövlətlər bizə kömək edəcəklər. Biz bu köməkdən istifadə edərək müşahidəçilər dəvət edib seçkiləri keçirəcəyik.

Respublikamızın demokratiya yolu ilə getməsi üçün ölkəmizə yeni, demokratik konstitusiya lazımdır.

Bildiyiniz kimi, konstitusiya komissiyası yaradılmışdır və mən onun sədriyəm. Konstitusiyanın layihələri hazırlanır və artıq bəzi layihələr var. Güman edirəm ki, yaxın vaxtlarda konstitusiya komissiyası bu layihələrə baxacaq, respublikamızın həm milli ənənələrinə, həm tarixi ənənələrinə, həm bugünkü vəziyyətinə, həm də yaxın gələcəyinə, uzaq gələcəyinə uyğun [258-259] olan layihə ümumxalq müzakirəsinə veriləcəkdir. Əminəm ki, xalqımız müdriklik göstərəcək, hərə öz səyini əsirgəməyəcəkdir və biz tariximizdə ilk dəfə olaraq müstəqil Azərbaycan Respublikasının demokratik konstitusiyasını qəbul edəcəyik. Bu da bu il görəcəyimiz böyük işlərdən biridir.

Başqa işlər də var. Şübhəsiz ki, digər sahələrdə də islahatlar aparılmalı – məhkəmə islahatı keçirilməli, təhsil qanunu qəbul edilmişdir, bu sahədə bəzi islahatlar keçirilməlidir və s. Biz bunların hamısının üzərində işləyirik və bundan sonra da işləyəcəyik.

Bunlarla yanaşı biz 1994-cü ildə və bu ilin ötən aylarında çox fəal xarici siyasət aparmışıq. Dünyanın ən böyük dövlətləri ilə sıx əlaqələr yaratmışıq, müqavilələr, ayrı-ayrı sazişlər imzalamışıq. Böyük dövlətlərin, demək olar, hamısının başçıları ilə mənim şəxsi görüşlərim, rəsmi səfərlərim, beynəlxalq təşkilatlarda görüşlərim olmuşdur. Bunlar hamısı respublikanın beynəlxalq aləmdə mövqeyini möhkəmləndirmişdir. Kopenhagendə olan son görüşlərim haqqında da sizə məlumat verdim. Bu işlər gələcəkdə də davam edəcəkdir. Mən bir çox ölkələrdən dəvətlər almışam, bir çox dövlətlərin başçılarını Azərbaycana dəvət etmişəm. Biz bu sahədə də böyük işlər görəcəyik və mənə belə gəlir ki, bunlar beynəlxalq aləmdə Azərbaycanın mövqelərini möhkəmləndirəcəkdir.

İqtisadiyyatda daxili imkanlardan istifadə etmək, istehsalı qaldırmaq, iqtisadi potensialı hərəkətə gətirmək tədbirləri, şübhəsiz, zəruridir və biz bu sahədə işləyirik. Ancaq çətinliklərimizin üzərinə çətinlik gəlir. Müharibə bizə bir çətinlik yaratmışdır, bir milyondan artıq qaçqın Azərbaycana digər çətinlik yaratmışdır. Bu tərəfdən də altı-yeddi aydır ki, Rusiya ilə dəmir yolu, avtomobil yolu bağlanmışdır. Hava yolu, dəniz yolu da bağlanmışdır. Rusiya ilə sərhədimiz də bağlanmışdır. Mən məlumat vermişdim ki, Rusiya ilə sərhədimizin bağlanması bizə çox böyük iqtisadi zərər vurur. Çünki bizim iqtisadiyyatımız Rusiya və Rusiya ərazisi ilə, MDB-nin başqa ölkələri ilə, Avropa ölkələri ilə bağlıdır. İqtisadiyyatımız həmin ölkələrin sənayesi, ümumən iqtisadiyyatı ilə çox inteqrasiyadadır. İndi bu əlaqələr qırılmışdır. Bunları hərəkətə gətirmək üçün bizə yol, kommunikasiya lazımdır.

Əvvəllər dediyim kimi, Almatı görüşü zamanı mən bu barədə Rusiyanın prezidenti cənab Boris Yeltsinə müraciət et[259-260]mişdim. Kopenhagendə olarkən Rusiyanın baş naziri cənab Viktor Çernomırdinlə görüşdüm. Onunla ümumən, o cümlədən sərhədin tezliklə açılması haqqında ətraflı söhbət etdim. Bu gün mənə məlumat verdilər ki, oradan qayıtdıqdan sonra cənab Çernomırdin öz müavinlərinə müvafiq göstərişlər vermişdir. Biz əlaqəyə girmişik və bu məsələlərin həlli üçün lazımi tədbirlər görürük. Amma eyni zamanda daxili imkanlarımızdan istifadə edərək, şübhəsiz ki, beynəlxalq təşkilatların imkanlarından da istifadə etməyə çalışırıq.

Bu baxımdan Avropa Şurasının Azərbaycana indiyə qədər etdiyi və bundan sonra edəcəyi kömək çox əhəmiyyətlidir. Bu da ondan ibarətdir ki, biz Avropa Şurasından 300 min ton taxıl, un göndərilməsi haqqında qərar almışıq. Bunun bir qismi göndərilmişdir. Mən sizə açıq deyə bilərəm ki, indi respublikamızın çörək təminatı əsasən Avropa Şurasından alınan buğdanın, unun hesabınadır. Həmin taxılın, unun qalan hissəsi də

göndəriləcəkdir. Bundan əlavə, Avropa Şurasından iki min tonadək yağ, 2500 tona qədər ət gəlmişdir. Bunlar hamısı respublikanın təchizatına yönəldilmişdir. Bütün bunlar Avropa Şurasının respublikaya maddi yardımıdır, əvəzsiz yardımıdır. Eyni zamanda Avropa Şurası respublikamıza təxminən 80 milyon dollar kredit ayırmışdır. Həmin kredit hesabına təxminən 25 milyon dollar dəyərində dava-dərman almışıq və bunlar respublikamıza gəlir. Kreditin bir hissəsini taxıl və başqa ərzaq məhsulları alınmasına yönəltmişik. Bunlar da Azərbaycana gətirilir. Bütün bunlar respublikanın iqtisadiyyatına köməkdir. Şübhəsiz ki, dünyanın humanitar təşkilatları mütəmadi olaraq bizim qaçqınlara kömək edirlər. Bu işlə məşğul olmaq üçün xüsusi olaraq baş nazirin bir müavinini təyin etmişəm. İzzət Rüstəmov bu məsələlərlə ciddi məşğul olur. Beynəlxalq təşkilatlardan bundan sonra da kömək gələcəkdir.

Biz Beynəlxalq Valyuta Fondu, Dünya Bankı ilə geniş əməkdaşlıq edirik. Bazar iqtisadiyyatına keçməyimizə, islahatlar aparmağımıza kömək göstərəcəkləri barədə onların bəyanatları var. Onlar müəyyən şərtlər də irəli sürmüşlər və biz bunları həyata keçirmişik. Mən özüm həm Davosda olarkən, həm də keçən il İngiltərəyə səfərim zamanı, Nyu-Yorkda olarkən həm Avropa Yenidənqurma və İnkişaf Bankının, həm də Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun rəhbərləri ilə danışıqlar aparmışam. Onların nümayəndələri Azərbaycana gəlmiş və biz görüşmüşük. Bunların nəticəsində Beynəlxalq [260-261] Valyuta Fondu Azərbaycana kredit verməyi qərara almışdır. Güman edirəm ki, artıq aprel ayında Azərbaycana 70 milyon dollardan çox kredit veriləcəkdir. Bununla yanaşı, Avropa Yenidənqurma və İnkişaf Bankı Yenikənd su elektrik stansiyasının tikintisi üçün 60 milyon dollardan artıq, Bakının su təchizatından ötrü 40 milyon dollardan çox kredit ayrılması haqqında qərar qəbul etmişdir. Şübhəsiz ki, bunların hamısı Azərbaycanın iqtisadi-sosial problemlərinin həlli üçün atılan addımlar, gördüyümüz işlərin nəticəsidir və gələcək üçün də böyük bir zəmin, əsas yaradır. Biz bu istiqamətdə hərəkət edirik və edəcəyik.

Ötən il sentyabrın 20-də imzalanmış neft müqaviləsi fəaliyyətdədir. Neft şirkətləri konsorsiumu bu il üçün yüz milyon dollardan artıq vəsait ayırmışdır və onlar artıq işə başlayırlar. Mən Kopenhagenə getməkdən öncə konsorsiumun rəhbəri cənab Terri Adamsla görüşdüm. O mənə dedi ki, biz gözlədiyimizdən də çox nailiyyətlər əldə edirik. Məsələn "Çıraq" yatağında bizim bir platformamız var, onun istifadə olunması konsorsiumla imzalanmış müqaviləyə daxil edilmişdir. 18 ay müddətində ondan istifadə edilərək oradan ilk neftin çıxarılması nəzərdə tutulmuşdur. Lakin görülən işlər göstərir ki, biz orada bundan xeyli əvvəl neft çıxaracağıq. Yəni müqavilə artıq fəaliyyətdədir, konsorsiumun iştirakçıları bu işə həvəslə girişmişlər. Düzdür, bu müqavilə bizə çox baha oturdu: itkilər də verdik, bizə çox təzyiqlər də oldu. Təzyiqlərə davam gətirdik, indi də davam gətiririk. Təzyiqlər bu gün də var, ancaq neft müqaviləsi işləyir və işləyəcək, Azərbaycanın həm yaxın, həm də uzaq gələcəyi üçün çox böyük mənfəət verəcəkdir.

Ancaq Xəzər dənizinin Azərbaycana aid hissəsində daha bir neçə zəngin yatağımız var: "Şahdəniz", "Qarabağ", "Naxçıvan" yataqları və sairə. Artıq dünyanın ən böyük neft şirkətləri Azərbaycana üz tutur, onların prezidentləri dalbadal ölkəmizə gəlirlər. Mənimlə görüşürlər, görüşmək istəyirlər. Davosda, Budapeştdə, Kopenhagendə olanda da mənimlə görüşmək istədilər. Onlar bizimlə əməkdaşlığa can atırlar. Yəni dünyanın böyük şirkətlərinin Azərbaycana etibarı, inamı artmışdır. Onlar bizimlə əməkdaşlıq etmək istəyirlər və biz də bu əməkdaşlığı edirik. Dediyim həmin neft yataqlarından birgə istifadə olunması üçün danışıqlar gedir. Güman edirəm ki, yeni müqavilələr bağlanacaq və bunlar hamısı Azərbaycan iqtisadiyyatının inkişafı üçün böyük imkanlar yaradacaqdır. [261-262]

İndi neft müqaviləsindən alınan ilkin bonusdan valyutanın tənzimlənməsi üçün istifadə olunması iqtisadiyyatımız üçün böyük bir dayaqdır. Yəni həyatımızın çətinlikləri ilə yanaşı, bu günümüz, gələcəyimiz üçün, necə deyərlər, müsbət işlərimiz də göz qabağındadır. Bu işlər bu gün də, sabah da həyata keçiriləcəkdir. Tam əminəm ki, biz bu ağır vəziyyətdən çıxacaq, Böyük Sülh Müqaviləsinə nail olacağıq. Tam əminəm ki, torpaqlarımızın hamısını geriyə qaytaracağıq, qaçqınlarımız öz yerlərinə qayıdacaqlar.

Ancaq təəssüflər olsun ki, biz bütün bu çətinliklər içərisində yaşayaraq ağır problemləri həll edərkən həm xaricdən, həm də daxildən təxribatlarla rastlaşırıq. Xaricdən bizə qarşı cürbəcür təzyiqlər var. Ən böyük təzyiq ondan ibarətdir ki, Azərbaycanın müstəqilliyini laxlatmaq, onu necə deyərlər, müəyyən qədər azaltmaq istəyirlər. Mən dəfələrlə demişəm və bu gün vətəndaşlarımın, xalqımın qarşısında bir daha deyirəm ki, prezident kimi Azərbaycanın müstəqilliyinin qorunmasını bu günə qədər təmin etdiyim kimi bundan sonra da təmin edəcəyəm. Böyük-kiçikliyindən asılı olmayaraq heç bir dövlət Azərbaycanın müstəqilliyini dayandırmaq üçün göstərdiyi təzyiqdən heç bir nəticə əldə etməyəcəkdir. Çünki mən Azərbaycan xalqının iradəsinə arxayınam və özümün də iradəmə əsaslanıram. Özümün də iradəm budur ki, Azərbaycan xalqı daim müstəqil dövlət çərçivəsində yaşamalıdır, öz taleyinin sahibi olmalıdır və taleyini özü həll etməlidir. Azərbaycanın təbii sərvətləri, təbiəti, Azərbaycan xalqının intellektual imkanları, respublikamızın iqtisadi potensialı ölkəmizin müstəqil yaşamağına imkan verir. Ona görə də biz bu müstəqilliyi qoruyub saxlayacağıq.

Müstəqilliyimizə qarşı olan təzyiqlər təkcə ayrı-ayrı dairələrin təzyiqi deyil. Təəssüf ki, Azərbaycanın öz içərisindən çıxan adamların, vəzifə hərislərinin də müstəqilliyimizə zərbə vurmaq cəhdlərinin şahidisiniz. Keçən il oktyabrın 4-də dövlət çevrilişi etmək istəyən adamlar, həbsxanadan qaçanlar Moskvada toplaşmışlar. Əvvəl qaçanlar da oradadırlar. Mən Moskvanı günahlandırmıram. Bu işdə Rusiyanı da günahlandırmıram. Sadəcə

olaraq onların toplaşdıqları yeri deyirəm. Onlar Azərbaycan haqqında düşünmürlər, şəxsi məqsədlərinə nail olmaq üçün Azərbaycanı qurban verməyə hazır olduqlarını bildirirlər. Bu, mətbuatdan məlumdur. Son günlər Mütəllibovla Surət Hüseynov "Arqumentı i faktı" qəzetində əl-ələ ve[262-263]rərək bəyanat verirlər ki, guya onlar vətəndaş ittifaqı yaratmışlar. Bu bir daha göstərir ki, Azərbaycanın müstəqilliyi onlar üçün heç bir şeydir, şəxsi məqsədlərinə nail olmaq üçün hansı dövlətə, hökumətə, hansı dairəyə istəsən söz verirlər. Belə qüvvələr var, onlar Azərbaycanda sabitliyi pozmaq istəyirlər.

Bəli, ayrı-ayrı ölkələrdə bizə düşmən olan dairələr Ermənistanın bizə qarşı təcavüzünü daha da gücləndirmək üçün, Azərbaycanı parçalamaq, dağıtmaq üçün cəhdlər göstərirlər. Dövlət dairələrində, ayrı-ayrı ictimai dairələrdə, siyasi dairələrdə belə cəhdlər göstərirlər. Təəssüf ki, Azərbaycandan olan, onun hüdudlarından kənarda yaşayanlar da, daxildə yaşayanlar da onlara rəvac, dəstək verirlər. Bütün bu mühafizəkar qüvvələr, Azərbaycanın müstəqilliyinə təcavüz etmək əzmində olan bütün bu qüvvələr birləşirlər. Çünki görürlər ki, Azərbaycan artıq dördüncü ildir müstəqil dövlət kimi yaşayır, bütün bu təzyiqlərə sinə gərir və möhkəm dayanmışdır. Onlar Azərbaycan xalqının iradəsini görürlər. Ona görə də içəridən dağıtmaq istəyirlər, cürbəcür qüvvələri hərəkətə gətirirlər. Görürlər ki, əgər tutduğumuz proqram bu il həyata keçirilərsə, iqtisadiyyatda böyük dəyişikliklər əmələ gələcək, xalqın rifahı yaxşılaşacaq, demokratiya yolu ilə daha da irəliyə gedəcəyik, iqtisadi islahatlar, seçkilər keçiriləcəkdir, yeni, əminəm ki, demokratik parlament yaranacaqdır. Azərbaycanın xoşbəxt gələcəyi üçün böyük bir sənəd olan yeni konstitusiya qəbul olunacaqdır.

Bunlara mane olmaq istəyən qüvvələr var. Həm xaricdəki, həm də daxildəki qüvvələr bundan ötrü cürbəcür çirkin yollara əl atırlar. Oktyabrın əvvəlində çevriliş etmək istədilər, baş tutmadı. Ondan sonra yenə də niyyətlərindən əl çəkmədilər. Qəzetlərdə yazırlar ki, nə bilim, on gündən sonra orada çevriliş olacaq, on beş gündən sonra burada çevriliş olacaq, Novruz bayramında, ondan əvvəl, ondan sonra çevriliş olacaq və sairə. Təəssüf ki, daxildəki ayrı-ayrı müxalifət qüvvələri də bunlardan istifadə edirlər. Anlamırlar ki, əgər Azərbaycanın müstəqilliyi əldən getsə, respublika dağılsa onlar özləri bundan da pis vəziyyətə düşəcəklər. Təəssüf ki, bunu anlamırlar. Ona görə də daxildə ictimai-siyasi sabitliyi pozmaq istəyirlər.

Bəli, dünyanın iqtisadi mərkəzləri, maliyyə mərkəzləri, böyük ölkələri, böyük şirkətləri Azərbaycana üz tutmuşlar. Azərbaycana investisiya gəlir, Azərbaycan yüksələ, inkişaf edə bi[263-264]lər. Bunun qarşısını almaq, bunu pozmaq istəyirlər. Bundan ötrü də daxili sabitliyi pozmağa çalışırlar. Bəli, əgər ictimai-siyasi sabitlik pozularsa, həmin şirkətlər buraya investisiya qoymayacaq, gəlib bizimlə əməkdaşlıq etməyəcəklər. Çünki gərək onların ümidi, inamı olsun ki, bir il, beş il, on il yox, iyirmi, otuz, əlli il burada fəaliyyət göstərəcək və bizimlə müştərək işləyərək mənfəət götürəcəklər. Bu, təbiidir, dünya iqtisadiyyatının qanunudur.

Ona görə də bizə düşmən olan qüvvələr artıq 1995-ci ildə üfüqdə sezilən dəyişiklikləri görüb vahiməyə düşmüşlər və həmin dəyişiklikləri pozmaq üçün cürbəcür çirkin yollara əl atır, ictimai-siyasi sabitliyi pozmaq istəyirlər. Ancaq mən əminəm, inanıram ki, xalqımız buna yol verməyəcəkdir. Dözümlü xalqımız – bu isə onun ən yüksək mənəvi keyfiyyətlərindən biridir – nə qədər ağır vəziyyətdə yaşasa da buna yol verməyəcəkdir. Mən buna əminəm, inanıram ki, bizim sağlam qüvvələrimiz buna yol verməyəcək, biz tutduğumuz yolla gedəcək və bu məqsədlərə nail olacağıq.

Amma eyni zamanda bilmək lazımdır və mən bu gün açıq demək istəyirəm ki, bəzi qüvvələr həddindən artıq cızığından çıxmışlar, həddən artıq cinayət edir və daxildə ictimai-siyasi vəziyyəti pozmaq istəyirlər. Mən bir-iki saat əvvəl Amerika Birləşmiş Ştatlarının səfirini onun xahişi ilə qəbul etdim. O da narahatdır. Deyir ki, bəli, siz böyük çətinliklə Ermənistanla sülh yaratmaq istəyirsiniz, biz də bunu istəyirik, sizə kömək edirik. İstəyirik ki, burada sülh, əmin-amanlıq olsun. Ancaq sabitlik pozulsa, şübhəsiz ki, bütün bunlar baş tutmayacaqdır. Aydındır, mən də belə fikirdəyəm, Amerika Birləşmiş Ştatları da bu fikirdədir, onun nümayəndəsi də bunu mənə deyir.

Təəssüf ki, bəzi qüvvələr bunların heç birisini nəzərə almırlar. Ancaq öz məqsədləri, qazancları, çirkin niyyətləri, nəyin bahasına olursa-olsun vəzifə tutmaq barədə düşünürlər. Onlar dağıtmağa, parçalamağa doğru aparırlar, başqa mənəviyyatla yaşayırlar, xalqın mənəviyyatı ilə yaşamırlar. Ona görə də mən bu gün hər şeyi açıq-aydın demək istəyirəm.

Bəzi qüvvələr baş qaldırır və son günlər respublikada sabitliyi pozmağa çalışırlar. Qabaqda gedən guya Rövşən və Mahir Cavadov qardaşlarıdır. Onlar Xüsusi Təyinatlı Polis Dəstəsindən istifadə edirlər. Bir dəfə bundan istifadə etməyə çalışdılar. Bəzi qüvvələrin əlində alət oldular. Bir az başa düşdülər, bir az da biz onları bağışladıq. Ancaq indi yenə baş qal[264-265]dırmışlar. Nə üçün, nə istəyirlər? Açıq demək istəyirəm ki, 1994-cü il oktyabrın əvvəlində dövlət çevrilişinə cəhd göstərən qüvvələrin biri də Rövşən Cavadov olmuşdur. O, Xüsusi Təyinatlı Polis Dəstəsinin bəzi adamlarını ələ keçirərək Surət Hüseynovla birlikdə hərəkət etmişlər. Dövlət çevrilişi də məhz oradan başlandı. Gəlib prokurorluğu tutdular, qanunsuz hərəkətlər etdilər. Respublika prokurorunu döydülər, prokurorluğun binasını dağıtdılar, cinayət etdilər.

Ondan sonra çevrilişin ikinci mərhələsi başlandı. Lakin mən xalqa müraciət etdim. Xalq Prezident Aparatının qarşısına toplaşdı. Rövşən Cavadov başa düşdü ki, o uduzmuşdur, bir şeyə nail ola bilməyəcək. İki gün idi ki, onunla danışıq aparılırdı. Mən onunla hər şeyi danışdım. Mən bu məsələni sülh yolu ilə həll etmək istəyirdim. O, danışıq aparmaq üçün hər gün söz verirdi, lakin gəlmirdi. Ancaq xalq bura toplaşanda o, özü çıxıb

buraya gəldi və bəyan etdi ki, o da Azərbaycanın dövlətçiliyinin tərəfdarıdır, respublikanın prezidentini müdafiə edir. Mitinqdə çıxış etdi və bəyanatlar verdi. Çox yaxşı. Ancaq mənə də, hamıya da məlumdur ki, həmin hadisələrin başında o dururdu və Surətin Gəncədə apardığı fəaliyyətlə onların hərəkətləri bir-birinə bağlı idi. Şahidlər var ki, o buraya gələndən sonra, bu binadan Gəncəyə zəng edib, orada çevrilişə rəhbərlik edən Səfixanova bildirib ki, biz artıq öz tədbirlərimizi dayandırmışıq, siz də dayandırın. Biz Prezidentin tərəfindəyik. Yəni bütün bunlar hamısı əlaqəli işdir. O, mənim yanıma gəldi, danışdıq. Hesab etdim ki, gəncdir, başa düşdü. Yolunu azıb, düzəlib. Bəlkə qanunu müəyyən qədər pozub, – çünki prokurorluq binasının dağıdılması haqqında qaldırılmış cinayət işi indiyə qədər davam edir, – dedim ki, gəlin bu məsələnin üzərindən keçək. Bir halda ki, səhv etmiş adam öz səhvini başa düşüb, anlayıbsa, onu bağışlamaq lazımdır. Mən də bağışladım, xalq da bağışladı. Xalq bunu çox yaxşı qəbul etdi. Mən də hesab etdim ki, məsələlər həll olundu.

Sonra mən onu da, Usubovu da dəvət etdim, ikisi də bir yerdə gəlmişdi. Dedim ki, gedin əl-ələ verib işləyin. Nə olubsa, o keçmişdə qalsın. Bizim nə qədər dərdimiz var, ən əsası isə Ermənistanın təcavüzüdür.

Azərbaycanı parçalamaq istəyən qüvvələr çoxdur: biri içərimizdədir, o birisi başqa yerdədir. Bəzi şeylərdə güzəştə getməliyik, bəzi şeyləri bağışlamalıyıq. Bu gün sizə bir daha deyirəm ki, mən çox şeyləri bağışlamışam. Hətta bəziləri təəccüblənir[265-266]lər ki, biz Heydər Əliyevi tanıyırıq, 70-ci illərdəki Heydər Əliyevlə indiki arasında fərq var. Fərq ondan ibarətdir ki, o vaxt o, daha qətiyyətli, daha ciddi, daha kəskin idi. Amma indi həm yumşaqdır, həm də bəzi şeyləri bağışlayır.

Bunların bir sıra səbəbləri var. Bu səbəb də ondan ibarətdir ki, biz demokratiya şəraitində yaşayırıq. O vaxtkı dövlət quruluşu ilə indiki dövlət quruluşu arasında fərq var. Mən demokratiya yolu ilə gedirəm, Azərbaycanda demokratiya prinsiplərini bərqərar edən bir adam kimi çox şeyləri güzəştə gedirəm. Demokratiya yolu ilə getmək, insanlar arasında sülh, əmin-amanlıq, vətəndaş həmrəyliyi, birliyi yaratmaq lazımdır.

Mən hesab edirəm ki, oktyabr hadisələrində əsas cinayətkarlar Surət Hüseynov və onun ətrafında olan adamlardır. Onlar cinayət məsuliyyətinə cəlb olunacaqlarını bildilər, qaçdılar. Bir hissəsi tutuldu, 170-ə qədər adam həbs olundu. Nəyə lazım idi ki, dövlət çevrilişi üçün 170 adam həbsxanada yatsın? Bir qismi qaçıb gizlənib. O cümlədən dövlət çevrilişi edən, Surət Hüseynovun ətrafında olan adamlardan bəziləri orda-burda gizləniblər. Bu, nəyə lazımdır? Nəyə lazımdır ki, onlar gedib mühacirətdə yaşasınlar? Oturub işləmək, əl-ələ vermək, xalqın dərdlərini həll etmək lazımdır. Ancaq bu insanlar həmin yolla gedə bilmədilər. Onlar iqtisadiyyatı dağıtmaq, şəxsi məqsədlərini təmin etmək, çirkin işlər görməklə məşğul idilər. Mən onların bəzilərini, mənim fəaliyyət dairəmə yaxın olanları tərbiyə etməyə çalışdım, ancaq tərbiyə edə bilmədim. Çox təəssüf. Onlar indi öz cəzalarmı alacaqlar. Qaçıb Moskvada oturanlar heç bir şey edə bilməyəcəklər, onlar da cəzalarına çatacaqlar. Haqq-ədalət hamısının cəzasını verəcəkdir, mən buna əminəm.

İndi Rövşən Cavadov yenidən ayağa qalxıb. Son vaxtlar orada bir bəyanat verir, burada bir bəyanat verir, özünü həddindən artıq yaramaz aparır. Birincisi Rövşən Cavadov kimdir – daxili işlər nazirinin müavini. Hərə öz vəzifəsi çərçivəsində fəaliyyət göstərməlidir. Azərbaycanda heç kəsə ərköyünlük etməyə imkan verilə bilməz, heç kəs özünü ərköyün uşaq kimi hiss etməməlidir. Yenə də deyirəm, hərə öz vəzifəsi çərçivəsində işləməlidir. Rövşən Cavadov isə daxili işlər nazirinin müavini kimi işləməyib, cürbəcür işlərlə məşğul olub.

Həmin bu Xüsusi Təyinatlı Polis dəstəsi 90-cı ildə, hələ Sovet hakimiyyəti dövründə yaranıb. Ancaq bunun fərqi yoxdur: o, Azərbaycanın erməni təcavüzündən qorunması üçün yaradı[266-267]lıb. Bəli, çox sağlam əsasda yaranıb. Ancaq onu yaradanlar Rövşən Cavadov deyil, başqaları olub. O dəstələr vuruşublar, döyüşüblər, fəaliyyət göstəriblər, şəhid veriblər. Bunlar hamısı xalqın tarixində əks olunub. Mən o şəhidlərin ruhu qarşısında bu gün də baş əyirəm.

Orada bu gün də çox sağlam fikirli, xalqına, millətinə, dövlətçiliyimizə sədaqətli adamlar, gənclər var. Onlar qiymətləndirilir və qiymətləndiriləcəklər. Ancaq Rövşən Cavadov və onun qardaşı Mahir Cavadov bu dəstəyə heç bir münasibəti olmayan adamlardır. Yəni dövlət, vəzifə nöqteyi-nəzərindən heç bir əlaqəsi olmayan bir adam bu dəstəyə rəhbərlik edir. Amma nə cür rəhbərlik edir? Onlar öz şəxsi məqsədləri, qazancları üçün bundan istifadə edirlər, bu dəstənin içərisində olan bəzi adamları pozurlar. Bəziləri özləri pozulublar. Bəzilərini bunlar pozublar. Bu barədə Rövşən Cavadova dəfələrlə deyilib. Həmin oktyabr hadisələrindən sonra deyilib ki, sən özün düz yolda deyilsən. XTPD-də əyri yolla gedən adamları da düz yola gətirmək lazımdır. Biz heç kəsi itirmək istəmirik. Biz indi o qədər də zəngin deyilik ki, hər addımda bir adam itirək.

Bunlar hamısı ona deyilib. Ancaq o öz işi ilə məşğul olmaq əvəzinə siyasətlə məşğul olmağa başlayıb, cürbəcür bəyanatlar verib. Bizim qanunumuz var: dövlət orqanında, hüquq-mühafizə orqanlarında, Daxili İşlər Nazirliyində işləyən adam heç bir siyasi partiyaya mənsub ola bilməz, siyasətlə məşğul ola bilməz. Amma Rövşən Cavadov məşğul olur. Orada onu hədələyir, burada başqasını hədələyir: "Bunu edəcəyik, onu edəcəyik". Beləliklə də respublikada çaşqınlıq yaranır.

Necə olur ki, daxili işlər nazirinin müavini nazirə, daxili nizam-intizama tabe olmur? Özünü həddindən çox sərbəst, yaramaz aparır. Heç bir qanuna tabe deyil. Nəyə görə? Nə haqqı var, bu haqqı ona kim verib? Əgər güzəşt varsa, güzəştdən nəticə çıxarmaq lazımdır. Əgər güzəşt olunandan sonra daha pis yola gedəcəksənsə, onda bu güzəşt olmayacaq. O, son vaxtlar bu sahədə fəaliyyətini, öz cinayət hərəkətlərini artırıb. Məhz bunun nəticəsidir ki, XTPD-nin bəzi üzvləri son aylar qatı cinayətkarlıq edirlər. Onların bir çoxu son dörd-beş ay

içərisində həbs edilib, indi istintaq altındadırlar. Onların bəziləri, o cümlədən XTPD-nin Qazax bölgəsində olan dəstəsinin üzvləri daim cinayətlə məşğuldurlar.

Burada "Cənub" mehmanxanası var, onlar bu mehmanxana[267-268]nın bir hissəsini zəbt ediblər. Məlumat veriblər ki, 60 nəfərdirlər və Qazax rayonundan gəliblər. Onlar orada nə edirlər? Axı bu XTPD nə ilə məşğuldur? İndi cəbhədə bunların mövqeyi yoxdur. Cəbhədə ordu var, daxili qoşunlar var. Onlar cəbhəni gözləyirlər və müharibə aparırlar. Əgər XTPD daxili asayişi qorumaq üçün lazımdırsa, daxili işlər nazirinin əmrini, göstərişlərini yerinə yetirməlidir. Lakin onlar nazirin göstərişlərinə əməl etmirlər. Özləri nə istəyirlər, onu da edirlər, mafioz qruplara xidmət edirlər, oradan öz mənfəətlərini götürürlər və cürbəcür cinayətlər törədirlər.

Həmin dəstənin Qazaxda yerləşən üzvləri və o bölmənin başçısı Elçin adlı bir adam qatı cinayətkardırlar. Mən bunu sizə deməliyəm, etiraf etməliyəm ki, qarşısı alınmadığına görə, biz onlara çox güzəşt etdiyimizə görə, bəzi hallarda vəziyyəti gərginləşdirməmək üçün, cinayətlərinə qanun nöqteyi-nəzərindən bəzən ciddi xarakter vermədiyimizə görə onlar qudurublar. Belə hesab edirlər ki, hər şey, hətta dövlət çevrilişi də edə bilərlər.

Martın 12-dən 13-nə keçən gecə mən Bakıya saat 1-də gəldim. Gecə saat 4-də heç yatmamışdım, gələndən sonra bir neçə işlə məşğul idim. Pakistana getməyə hazırlaşırdım. Saat 4-də mənə telefonla zəng etdilər ki, Xüsusi Təyinatlı Polis Dəstəsi Qazaxda və Ağstafada icra hakimiyyəti orqanlarını zəbt edib, Ağstafada döyüş gedib, qan tökülüb. Bu işlə məşğul olmağa başladım. Aydınlaşdırdıq ki, bəli, onlar Qazax rayon polis idarəsini tamamilə zəbt ediblər. Orada olan bütün silahları ələ keçiriblər. Rayon icra hakimiyyətini zəbt ediblər, icra hakimiyyəti başçısını qovublar, gətirib oraya öz dəstələrini qoyublar və heç kimi buraxmırlar. Rabitəni ələ keçiriblər, rabitə yoxdur. Ağstafa rayonunda da vəziyyət belə idi.

Düzdür, Qazaxda polis müqavimət göstərməyib, Ağstafada polis müqavimət göstərib, nəticədə, qan tökülüb. Onlar qan töküblər. Polis əməkdaşı həlak olub. Onlar tərəfdən də həlak olan var. Sonra onlar hərəkətlərini gücləndirməyə başlayıblar ki, Tovuzu da, Gəncəni də zəbt etsinlər.

Mən bu işlə səhərə qədər məşğul oldum, məsələni sülh yolu ilə həll etmək istədim. Daxili işlər nazirinin birinci müavini Zahid Dünyamalıyevi, Müdafiə Nazirliyinin rəhbər vəzifəli işçisi İsa Sadıqovu oraya göndərdik. Rövşən Cavadovun özünə də təklif edildi ki, oraya getsin – çünki bu adamların hamısı onunla bağlıdır – danışıqlar aparsın. Ancaq danışıq[268-269]lar o yana qalsın, məlumat verdilər ki, gəlib Ağstafa ilə Tovuz arasındakı "Cavanşir" restoranı deyilən yeri zəbt ediblər, oranı tamamilə ələ keçiriblər, postlar qoyublar, heç kəsi buraxmırlar, hakimiyyəti devirirlər.

Rövşən Cavadov orada nə iş görüb-görməyib, – bilmirəm. Özbaşına çıxıb gəlib. Gələndən sonra da gedib buradakı XTPD-nin içərisində oturub.

Bizim nümayəndələr orada üç dəfə danışıqlar aparıblar. Bu danışıqlar nədən ibarət olmuşdur? Yaxşı, cinayət eləmisiniz, bunu sonra aydın edərik. Silahları qaytarın. Yerinizə qayıdın. Sizin bazanız Qazaxdadır. Ancaq nə yerlərinə qayıdırlar, nə də silahları qaytarırlar. Nəhayət, dünən axşam söz veriblər ki, səhər saat 9-da bütün silahları qaytaracağıq. Bizimkilər də deyiblər ki, səhər saat 9-a qədər dözürük. Amma gecə yarısı onlar Tovuzdakı hərbi hissəyə hücum ediblər. Şübhəsiz ki, hərbi hissə də cavab verib, döyüş başlanıb.

Onlar böyük xülya ilə yaşayırdılar ki, dövlət çevrilişi ediblər və hətta guya 1993-cü ilin iyun ayında Gəncədən buraya hücum olunduğu kimi, onlar da oradan hücum edəcəklər. Saat 2-dək davam edən döyüşdə onlar darmadağın olunublar. Bizim oradakı qəhrəman, cəsarətli döyüşçülərimiz onlara cavab veriblər, beş zirehli texnikanı geri alıblar. XTPD bölməsi 50-60 adamdan ibarət imiş. Onlardan 49 nəfərdən artıq adam həbs olunub, ancaq onlar zəbt etdikləri silahları oradakı ayrı-ayrı adamlara paylayıblar, indi bu silahlar kimin əlindədir – məlum deyil.

Bu döyüşlərdə yenə qan tökülüb. Bu qanı onlar töküb. Bizim dörd nəfər gənc döyüşçü əsgərimiz Azərbaycanın dövlətçiliyini, müstəqilliyini, konstitusiyasını qoruyaraq qəhrəmancasına həlak olub. Allah onlara rəhmət eləsin. Onların şücaəti unudulmayacaqdır. Dövlət onların, bu keçən gecə həmin quldur dəstəsini dağıdanların xidmətini yüksək qiymətləndirəcəkdir. Mən bu gün bunu bəyan edirəm.

O quldur dəstəsinin qalan üzvləri qaçıb ora-bura dağılıblar. Mənə dedilər ki, onlar Gürcüstana keçmək istəyirlər. Bu döyüşlər Ermənistanla bizim sərhədimizin beş-altı kilometrliyində olan yerlərdə gedib. Quldurlar sərhəd kəndlərinə gediblər ki, orada gizlənsinlər. Mən bu gün Gürcüstan dövlətinin rəhbəri cənab Eduard Şevardnadzeyə zəng vurdum, ondan xahiş etdim. O dərhal göstəriş verdi. Axşam mənə xəbər verdi[269-270]lər ki, qaçıb Gürcüstana keçən iki nəfər həbs olunub və buraya göndərilir.

Sonra mən hiss etdim ki, bunlar, ola bilər, cəbhədə atəşkəsi pozsunlar, çünki belə adamlar üçün müqəddəs bir şey yoxdur. Onlar canidirlər, cinayətkardırlar. Mən bu gün Ermənistan prezidenti cənab Levon Ter-Petrosyana telefon etdim, onunla danışdım. O məni əmin etdi ki, hər şeyi başa düşürəm və biz eşidirik, hiss edirik, orada – Qazaxda, Tovuzda olan hadisələri izləyirik, əmin ola bilərsiniz ki, biz atəşkəs rejiminə sadiq olacağıq və heç bir təxribata yol verməyəcəyik.

Görürsünüz, nələr baş verir. O dəstənin üzvləri Tovuzu, Gəncəni almaq və buraya gəlmək istəyirdilər. Burada da Rövşən Cavadov qayıdıb, gedib XTPD-yə, dünəndən orada oturub, dəstə yığır, dövlət çevrilişi

edəcəyini bəyan edir, prezidentin, Ali Sovetin sədrinin istefasını tələb edir və hədələyir ki, əgər istefa olmasa buna zorla nail olacaqlar, prezidenti də öldürəcəklər, vətəndaş müharibəsi olacaq...

Onlar bu vətəndaş müharibəsinə başlayıblar. Rövşən Cavadov və onun dəstəsi tökülən qanların günahkarıdırlar. Bilirsiniz, XTPD-nin yerləşdiyi 8-ci Kilometrdəki bazaya cinayətkarları toplayırlar. Bu ağır vəziyyətimizdə gəncləri tərbiyə etmək əvəzinə cinayətə sövq edirlər, onlara silah paylayırlar, dövlət əleyhinə çıxmaq istəyirlər. Onlar Nizami Rayon Polis İdarəsinə hücum ediblər. Polis əməkdaşları o hücumun qarşısını alıblar, qəhrəmanlıq göstəriblər. İki nəfər polis əməkdaşı yaralanıb. Beləliklə, Ağstafada, Qazaxda da, gəlib Bakıda da qan töküblər. Düzdür, XTPD-dən də biri həlak olub və bəlkə də o, günahsız bir zavallıdır. Allah ona da rəhmət eləsin. O da vətəndaşımızdır, o da Azərbaycan Prezidenti kimi mənim vətəndaşımdır. Onun cinayət yoluna düşməsi özünün günahı deyil, Cavadovların günahıdır. Bütün o tökülən qanlarda günahkar onlardır.

İndi dəstə yığırlar, bəyanatlar verirlər. Bəli, müxalifətdə olan cürbəcür adamlar özlərini oraya soxurlar, oraya müxbirlər də gedirlər. Dünyaya bəyanat verirlər ki, Azərbaycanda sabitlik pozulub, Azərbaycanla əlaqələri kəsmək lazımdır. Belə danışıqlar gedir. Görün nə zərbələr vururlar. Nədən ötrü, nə üçün? Rövşən Cavadov nə iddia ilə yaşayır, o kimdir? Dövlət başçısı olmaq istəyir. Hətta bu gün onun bütün dünyaya yayılmış bəyanatını gətirib mənə oxudular: o, hakimiyyətə gə[270-271]ləndən sonra hansı partiyaların onunla bir yerdə respublikanı idarə edəcəklərini deyəcəkdir.

Bilirsiniz, vay Azərbaycan xalqının gününə ki, bu bədbəxt, zavallı insanları, xalqın malını oğurlayaraq, qanını soraraq qudurmuş, zənginləşmiş, harınlaşmış adamlar gəlib bu xalqa rəhbərlik etmək istəyirlər. Bu xalq nə qədər bədbəxt ola bilərmiş. Əslində belə deyil, onlar belə düşünürlər. Tarix boyu xalqımızın dahi rəhbərləri, siyasi xadimləri, sərkərdələri olub – xalqın içərisindən çıxıb Azərbaycanın tarixinə düşmüş adamlar. İndi görün vəziyyət nə yerə gəlib ki, Rövşən Cavadov və onun kimi heç bir şeyə qadir olmayan adamlar belə iddialarla yaşayırlar. Məgər onlar başa düşmürlər ki, indiyədək Azərbaycanı, bu xalqı soyduqları bəs deyil? İndi gəlib dağıtmaq istəyirlər.

Təəssüf ki, bəzi adamlar hərəsi öz mövqeyini təmin etmək üçün istəyirlər ki, yenə də onlara havadarlıq etsinlər. Bəli, xəlvətdə onlara silah aparanlar da var, biz bunu müşahidə edirik. Başqa şeylər etmək istəyənlər də var. Ancaq bunlar əbəsdir, bunların heç biri nəticə verməyəcəkdir.

Ona görə də mən bu gün sizə həqiqəti çatdırıram. Azərbaycanda Cavadov qardaşlarının cinayəti nəticəsində, onların himayəsindəki, XTPD-dən olan cinayətkar adamların cinayəti nəticəsində qan tökülübdür, Qazax, Ağstafa rayonlarında hakimiyyət orqanlarına təcavüz olunubdur. Bu gün də Azərbaycan dövlətçiliyinə təcavüz etmək haqqında, vətəndaş müharibəsi başlanması haqqında bəyanatlar verilir.

Mən əminəm ki, Azərbaycan dövləti, onun dövlət orqanları bu təcavüzlərin hamısına cavab verməyə hazırdır. Əminəm ki, xalqımız, vətəndaşlarımız dərk edirlər ki, Azərbaycanın başına gətirilən bu bəlalar bəsdir. 20 yanvarda, ondan sonrakı vaxtlarda, nəhayət, keçən ilin oktyabr ayında nə bəlalar gətirdilər, bəsdir. Oktyabr hadisələrindən sonra Azərbaycan Respublikasının bütün təbəqələrindən, regionlarından mənə Azərbaycan Prezidentini müdafiə edən, dəstəkləyən on minlərlə məktub, teleqram gəlib və bu gün də gəlir.

Azərbaycanda etnik ziddiyyətlər yaratmağa çalışırdılar. Rəhim Qazıyev, Surət Hüseynov, Mütəllibov kimi və burada oturan Rövşən Cavadov kimi adamlar etnik qrupları bir-birinə vurmağa çalışırlar. Ancaq bu, olmayacaq. Xatirinizdədir ki, mən ləzgi xalqının nümayəndələri ilə burada görüş keçirmişəm. Onlardan indiyədək mənə minnətdarlıq məktubları gəlir. O birilərindən də, hamısından məktublar gəlir. Mən demişəm [271-272] və bu gün bir daha deyirəm: Azərbaycan çoxmillətli demokratik bir dövlətdir. Hər bir insan, hər bir Azərbaycan vətəndaşı bərabər hüquqa malikdir. Milliyyətindən asılı olmayaraq hər bir vətəndaşımız üçün Azərbaycan ana vətəndir. Mən bir Prezident kimi bax, bu prinsiplərin keşiyində durmuşam və duracağam. Heç kəs də ümid etməsin ki, kimisə kimləsə toqquşduracaqdır. Heç kəs heç kəslə toqquşmayacaq. Çünki bu xalq bir-biri ilə birləşmiş bir xalqdır. Hamısı azərbaycanlıdır, Azərbaycan vətəndaşıdır.

Güman edirəm ki, xalqın milli birliyi, həmrəyliyi, vətəndaş birliyi bu çətinliklərin aradan götürülməsinə şərait yaradır və bizim üçün kömək olacaqdır.

İndi belə bir şərait yaranıb ki, Rövşən Cavadov 8-ci Kilometr qəsəbəsində oturub, cinayətkar adamları başına yığıb. Düzdür, orada – həmin o bazada da, yəni XTPD-də xidmət edənlərin içərisində sədaqətli, namuslu Azərbaycan oğulları var. Mən onlara hörmət və ehtiramımı bildirirəm. Bizə məlumdur ki, onlar Rövşən Cavadovun bu cür çirkin hərəkətlərini bəyənmirlər, qəbul etmirlər. Ancaq onlar orada qorxu altındadırlar, onları hədələyirlər, deyirlər ki, kim bizdən deyilsə, onu öldürəcəyik. Bax orada bu cür atmosfer yaranıb. Bunlar hamısı bizə məlumdur. Güman edirəm ki, heç kəs, namuslu, qeyrətli azərbaycanlı canından qorxmamalıdır. Vətən, dövlət yolunda hər kəs öz xidmətini göstərməlidir.

Şübhəsiz ki, nə qədər qan tökülübsə, nə qədər cinayət ediblərsə də mən bu gərginliyin davam etməsinin tərəfdarı deyiləm. Əksinə, mən tələb edirəm ki, onlar bu cinayət əməllərindən əl çəksinlər.

Son vaxtlar Rövşən Cavadov orada-burada bildirmişdir ki, guya mənimlə .görüşmək istəyir. Bilirsiniz ki, mənim iş rejimim çox gərgindir. İctimaiyyət bilir ki, mənim həyatım işlə bağlıdır. Güman edirəm ki, bunu sübut etməyə ehtiyac yoxdur. Həyatımı sərf etmişəm, son nəfəsimə qədər də xalqımın bu vəziyyətdən çıxmasına sərf edəcəyəm. Vaxtım azdır, məhduddur. Mənimlə görüşmək istəyən adamlar – xaricdən gələnlər, daxildə olan

adamlar, mənim özümün görüşmək istədiyim adamlar çoxdur. Buna baxmayaraq, mən dedim ki, yaxşı, əgər doğrudan da Rövşən Cavadovu nəsə narahat edirsə, mən qəbul edib onunla görüşərəm.

Türkiyənin burada olan səfiri hörmətli Altan Karamanoğlu da bu işdən çox narahatdır – mənim yanıma gəldi ki, siz [272-273] Rövşən Cavadovla danışın, söhbət edin, o nədənsə narazıdır. Mən dedim ki, biz axı ona hörmət etmişik, ona bu qədər güzəştə getmişik. Nədən narazıdır – mənim yanıma gəlsin. Dedi yaxşı qəbul edin. Dedim qəbul edərəm. Bir dəfə vaxt təyin etdim – olmadı. Hörmətli Altan Karamanoğlu sonra bir dəfə də telefon etdi. Mən dəqiq vaxt təyin etdim: mart ayının 9-da saat 4-də – baxmayaraq ki, martın 10-da Kopenhagenə uçmalı idim, işlərim də çox idi. Gündüz saat 4-də Rövşən Cavadov gəlmədi. Bu qədər hörmətsizlik olar? Sən kimsən? Daxili işlər nazirinin müavini. Mənim hər bir göstərişim sənin üçün qanundur. Türkiyənin səfiri məndən xahiş edib, mən də qəbul etmişəm. Vaxt təyin etmişəm, amma Rövşən Cavadov gəlməkdən imtina edir, iddialarla yaşayır. Yəni demək istəyirəm ki, onun günahlarına baxmayaraq, – onun qanunsuz hərəkətləri mənə məlum idi, ancaq mən yaşca ondan çox böyük bir adam kimi başqa şeyləri kənara qoyuram – dedim ki, yaxşı, söhbət edək, danışaq. Nə aydın deyilsə, mən onun üçün aydınlaşdırın, nə dərdi varsa, mənə desin. İmtina etdi. Çünki böyük iddialarla yaşayır.

Ancaq onu bu günə salan bəzi adamlardır. Onun qoltuğuna verirlər, qızışdırırlar. Gedib onun üçün müsabiqə, nə bilim nə keçirirlər. Burada camaat acından ölür, insanlar yaşaya bilmir. Rövşən Cavadovun şərəfinə turnir keçirirlər. Bunu təşkil edənlər də onun özünə düşmən olan adamlardır ki, onu bu günə salırlar. Bunların hamısını bağışlayıram, üstündən keçirəm. Yaxşı, gəl, nə dərdin var danışaq.

İndi son bəyanatlarında daha böyük iddialar edir. Bunların hamısına baxmayaraq, mən hər bir vətəndaşın hüququnun keşiyindəyəm və hər bir vətəndaşa qayğı göstərməliyəm. Xalq mənə etimad göstərdiyinə görə mən bu vəzifəni öhdəmə götürmüşəm. Bu mənim borcumdur və bu borcu yerinə yetirmək üçün mən hər şeyə gedirəm. Ona görə də əgər bu gün də onlar çirkin əməllərindən əl çəksələr, silahları yerə qoysalar, şübhəsiz ki, cinayətkarların bir qismini bağışlayacağam. Bunları da bağışlayacağam. Yəni mən, baxmayaraq ki, çox kəskin vəziyyət yaranıb, ictimaiyyət Rövşən Cavadova və onun ətrafında olan o quldurlara çox nifrət edir – yenə də bu addımı atıram.

8-ci Kilometr böyük bir qəsəbədir. Orada yüz minlərlə adam yaşayır. Mənə məlumdur ki, o ətrafda yaşayan adamlar [273-274] XTPD-də olan o cinayətkarların əlindən boğaza yığılıblar, onlara nifrət edirlər, qorxu altında yaşayırlar. Bu gün mənə deyirlər ki, quldurlar oradan çıxıblar, polis idarəsinə basqın ediblər. Bir mağazadan zorla şey götürürlər, gəlib bir adamın əlindən zorla şey alırlar. Buna kim dözər? Əhmədli qəsəbəsində də yüz minlərlə adam yaşayır, onlar da bu cinayətkarların əlindən boğaza yığılıblar.

İndi nə edək? Demək, bir dəstədən ötrü yüz minlərlə adamın hüquqlarını tapdalayaq? Buna hansı qanun yol verir? Allah da, qanun da, vicdan da buna yol verməz.

Mahir Cavadov oktyabrın əvvəlində cinayət edib, prokuror kimi işdən çıxarılıb, gecə-gündüz eyş-işrət içindədir. Mənə deyirlər ki, onun evinin qarşısında XTPD-nin 25-30 nəfər silahlı adamı durur. Nə üçün? Hara gedirsə 25-30 nəfər onu müşayiət edir, nədən ötrü? XTPD dövlət orqanında olan bir dəstədir. Nə üçün o, Mahir Cavadova xidmət etməli, onu qorumalıdır? Nə üçün Mahir Cavadovun arxasınca bu qədər adam gəzməlidir? Rövşən Cavadovun arxasınca 15 nəfər qoruqçu gəzir. Nazirin cəmi iki mühafizəçisi var. Burada, Bakıda 2 milyondan artıq adam yaşayır. Məgər onlar insan deyilmi? Onları ana doğmayıbmı? Onlar Azərbaycan vətəndaşı deyilmi? Onları kim mühafizə edir? Hansı əsasa, nə əsasa, nə hüquqa görə Mahir Cavadov cəmiyyətdə belə bir yer tutsun, istədiyini etsin? Nə üçün bu XTPD dəstəsi iki qardaşın əlində olsun, nə üçün onlara xidmət etsin?

Ona görə də mən hesab edirəm ki, daxili işlər naziri general Usubov dünən tamamilə düzgün əmr verib. Birincisi ona görə ki, bu dəstənin indi, ümumiyyətlə fəaliyyət göstərmək zərurəti artıq itib, yoxdur. İkincisi ona görə ki, bu dəstənin içərisində çoxlu cinayətkar adamlar yığışıblar. Üçüncüsü ona görə ki, bu cinayətkar adamlardan öz cinayətkar məqsədləri üçün istifadə edirlər. Şübhəsiz ki, bu, əmrdə yazılıb. Mən də onu dəstəkləyirəm, tərəfdarıyam. Bu dəstənin içərisində olan sağlam adamlar, dövlətə xidmət etmək istəyən adamlar Daxili İşlər Nazirliyinin ayrı-ayrı bölmələrində, strukturlarında ondan yaxşı vəzifələr alacaqlar, xidmət edəcəklər və onların hüquqları qorunacaqdır. Cinayət etmiş adamlar əgər cinayətlərini boyunlarına alsalar, onlar da bağışlana bilərlər, ancaq bu vəziyyətdə XTPD-ni artıq saxlamaq olmaz. Mən belə hesab edirəm ki, bu əmr tamamilə düzgündür.

Bunların hamısını nəzərə alaraq mən Rövşən Cavadovun [274-275] qeyri-qanuni hərəkətlərinə ümumi işimizin xatirinə, milli həmrəylik xatirinə uzun müddət dözmüşəm. Artıq bu gün dözə bilmədim. Mən bu gün Rövşən Cavadovun vəzifəsindən azad edilməsi haqqında sərəncam verdim. Artıq Rövşən Cavadov daxili işlər nazirinin müavini deyil. XTPD də yoxdur, ancaq o dəstədə olan adamlar Daxili İşlər Nazirliyinin əməkdaşlarıdır. Həmin nazirlik də üç gün müddətində onların yerini müəyyən edəcəkdir. Bunun üçün isə onlar gərək daxili işlər nazirinə tabe olsunlar. Halbuki əmr dünəndən verilib, onlar isə tabe olmurlar, əksinə, guya XTPD-nin şöhrətini qorumaq üçün dəstə yığıb mübarizə aparmaq istəyirlər.

Bilirsiniz, Azərbaycanın tarixində cürbəcür qurumlar, dəstələr, müxtəlif ordular olub. Hərəsinin öz vaxtı, tarixdə hərəsinin öz yeri var. XTPD-nin də Azərbaycan tarixində öz yeri var. O öz missiyasını vaxtilə şərəflə

yerinə yetirib və o yeri, tarixi nailiyyəti, xidməti heç kəs unutmayıb və unutmayacaqdır. Ancaq bu gün bu vəziyyətə dözmək mümkün deyil. Rövşən Cavadov da bunu anlamalıdır və XTPD-də olan şəxsi heyətin hamısı anlamalıdır.

8-ci Kilometr qəsəbəsində yerləşən Xüsusi Təyinatlı Polis Dəstəsinin üzvlərinə – Daxili İşlər Nazirliyinin əməkdaşlarına, Azərbaycanın vətəndaşlarına müraciət edirəm: bu əməlinizdən, cinayətkar niyyətlərinizdən əl çəkin, bu yoldan çəkinin, düz yolda deyilsiniz. Tökdüyünüz qanlar, etdiyiniz cinayətlər bəsdir! Təklif edirəm, kim mənim bu çağırışıma səs verirsə, oradan çıxsın və o, cəmiyyətdə də, Daxili İşlər Nazirliyində də öz yerini alacaqdır. Ümumiyyətlə, dəstəyə və Rövşən Cavadova deyirəm: bu cinayətkar əməllərinizdən əl çəkin, təslim olun! Silahlar bu gün təhvil verilməli, oradan çıxıb hərə öz yerinə getməli, təslim olmalıdır. Dövlətlə dövlətlik etmək olmaz. Azərbaycanın dövləti var, xalq tərəfindən seçilmiş Prezidenti var.

Mən dəfələrlə demişəm, bu gün, gərginlik yaranan vaxtda bir daha deyirəm: Azərbaycanın dövlətçiliyini son damla qanımadək qoruyacağam və Azərbaycanın dövlətçiliyinə təcavüz edən adamların cəzasını da qanun çərçivəsində verəcəyəm. Bunu bilmək lazımdır. Ancaq mən heç kimi cəzalandırmaq istəmirəm. İstəyirəm ki, heç kim cinayət törətməsin, heç kim dövlətçiliyə xəyanət etməsin. Bunu istəyirəm, müraciət edirəm, yol göstərirəm. Yol da dediyim yoldur, başqa yol yoxdur. Gü[275-276]man edirəm ki, mənim bu müraciətimi Azərbaycan ictimaiyyəti qəbul edəcək, Azərbaycanın hörmətli adamları, ağsaqqalları, ağıllı adamları bugünkü müraciətimi dərk edəcək, qəbul edəcək və qiymətləndirəcəklər. Güman edirəm ki, Azərbaycan xalqı mənim səsimə səs verəcəkdir.

Bu gün biz yenə də vətəndaş müharibəsinin astanasındayıq. Bu vətəndaş müharibəsini Rövşən Cavadov bizə açıq-aydın elan etmişdir. Qan tökmüşdür və yerli müxbirlərə, xarici müxbirlərə verdiyi bəyanatlarda elan etmişdir ki, onlar vətəndaş müharibəsi törətməyə hazırdırlar. Mən isə hesab edirəm ki, bu, Azərbaycan xalqı üçün yeni bir faciədir. Son illərdə Azərbaycan xalqının çəkdiyi faciələr bəsdir. Ona yeni faciələr yaratmaq lazım deyildir. Belə adamlar şəxsi hikkələrindən əl çəksinlər və hamı birləşərək Azərbaycan xalqını bu ağır vəziyyətdən çıxarmağa çalışsın. Mən hamını buna dəvət edirəm. İnanıram ki, xalqın müdrikliyi, inamı, müstəqilliyə bağlılığı bu gün də bizi bu vəziyyətdən çıxaracaqdır.

Ona görə də mən 8-ci Kilometr qəsəbəsində yerləşən Xüsusi Təyinatlı Polis Dəstəsinin üzvlərinə bir daha müraciət edirəm. Onlara təklif edirəm: bütün bu niyyətlərdən əl çəkin, silahı yerə qoyun, ev-eşiyinizə gedin, sizin bütün təhlükəsizliyiniz təmin olunacaqdır. Əks təqdirdə dövlətin qanunları tətbiq ediləcəkdir. Əgər ötən gecə həmin polis dəstəsinin üzvləri bizim danışıqlara qulaq assaydılar, öz yerlərinə getsəydilər, onlar bağışlanacaqdılar və biz də bu vəziyyətdən çıxacaqdıq. Ancaq onlar azğınlaşdılar, qudurdular və hesab etdilər ki, gəlib Bakını tutacaqlar. Lakin heç bir şey edə bilmədilər və bu gecə dağıldılar. İndi Rövşən Cavadov da, ətrafındakı adamlar da fikir formalaşdırır ki, Elçin, Qazaxdakı Xüsusi Təyinatlı Polis Dəstəsi oraları tutub gəlir. Yalandır! Mən sizə dedim, 50 nəfər adam, o cümlədən ikisi Gürcüstanda həbs edilmişdir. Qalanları da axtarılır və bu gecə səhərədək hamısı həbs olunacaqdır. Orada Xüsusi Təyinatlı Polis Dəstəsi yoxdur. Rayonlar normal vəziyyətdə işləyir. Qazaxda, Ağstafada, Tovuzda tam sabitlik təmin edilmişdir. Bütün şəhər və rayonlarda tam sabitlikdir.

Rövşən Cavadov orada deyir ki, Lənkəran qalxır. Heç kəs qalxmır. Lənkəran Azərbaycan Prezidentini müdafiə edir. Bu gün bütün bölgələrdən mənə telefon zəngləri olur və deyirlər ki, biz Azərbaycan dövlətçiliyini müdafiə edirik, Azərbaycan Prezidentinin arxasındayıq. Deyirlər ki, Naxçıvan qalxır. Naxçıvan Azərbaycan dövlətçiliyinin, Azərbaycan Prezidentinin ar[276-277]xasında möhkəm dayanmışdır, əmin olsunlar. Rövşən Cavadov şayiə yayır ki, guya Sumqayıtda onu müdafiə edirlər. Heç kəs onu müdafiə etmir.

Mənə məlumdur ki, onun elçiləri bu gün Kəlbəcərdən, Laçından, Qubadlıdan, başqa yerlərdən olan qaçqınların yanına getmişlər. Lakin qaçqınlar onları qovmuşlar. Əminəm ki, qaçqınlar mənim səsimi eşidirlər, bilirlər ki, mənim gecəm-gündüzüm onları bu vəziyyətdən çıxarmağa həsr olunmuşdur və bundan sonra da həsr ediləcəkdir. Mən özümü daim o çadırlarda görürəm. Gecə yatanda da hesab edirəm ki, o çadırda qaçqın uşaqla qucaqlaşıb yatıram. Amma bunlar xalqı soyub, qudurub və harınlayaraq indi gedib qaçqınlara müraciət edirlər. Nə üzünüz var qaçqınlara müraciət edəsiniz.? O dövləti, varı, silahları xalqın qanını soraraq yığmısınız. İndi bundan xalqa qarşı istifadə etmək istəyirsiniz. 8-ci Kilometr qəsəbəsindəki Xüsusi Təyinatlı Polis Dəstəsinin üzvlərinə aydın olmalıdır ki, onların dedikləri şayiədir, yalandır. Azərbaycanın bütün bölgələrində, bütün şəhərlərində, rayonlarında tam sakitlikdir. Adamlar hər yerdə Azərbaycanın dövlətçiliyini müdafiə etməyə hazırdırlar. Bakıda da, hər yerdə də buna hazırdırlar. Ona görə də dəstənin üzvlərinə deyirəm: reallığı nəzərə alın, bilin ki, sizi aldatmışlar, yoldan çıxarmışlar. Aldandığınıza, yoldan çıxdığınıza görə sizi əfv edirəm, bağışlayıram. Ancaq silahlarınızı qoyub oradan çıxın, əks təqdirdə qanun tətbiq olunacaqdır.

Mən hesab edirəm ki, bu gün verdiyim məlumat, mənim mülahizələrim Azərbaycan Respublikasının ictimaiyyətinə və bütün dairələrə müəyyən aydınlıq gətirir. Eyni zamanda ümidvar olduğumu bildirmək istəyirəm ki, torpağım, Vətənini sevən hər bir insan, vətəndaş bu gün gərək düşünsün. Vətən nə vəziyyətdədir və bu vəziyyətdə onun rolu nədən ibarətdir. Ona görə də kim müxalifətdədir, hansı siyasi platformadadır – bunun əhəmiyyəti yoxdur. Azərbaycanda siyasi plüralizmdir, qəzetlər istədiyini yazır, partiyalar fəaliyyət göstərir və tam zəmanət verirəm ki, bu partiyalar parlament seçkilərində iştirak edəcəklər. Hər halda mən bu zəmanəti bir

Prezident kimi öz tərəfimdən verirəm. Güman edirəm ki, bu, az zəmanət deyildir. Ona görə də bu qarışıqlıqdan heç kəs öz məqsədləri üçün istifadə etməsin, – heç bir şey çıxmayacaqdır. 4 oktyabrda bəziləri çalışdılar, lakin bir şey çıxmadı.

Gəlin hər şeyi bir kənara qoyaq, dövlətçiliyimizi, müstəqil[277-278]liyimizi müdafiə etmək yolunda əl-ələ verərək irəliyə gedək. Mən bütün Azərbaycan xalqını milli birliyə, milli həmrəyliyə dəvət edirəm. Əminəm ki, mənim səsimə milyonlarla adam səs verəcəkdir. Mən əminəm ki, xalq Azərbaycan dövlətçiliyini, Azərbaycan Prezidentini müdafiə edəcəkdir. Mən əminəm ki, xalq, bütün vətəndaşlar bu cinayətkarlara öz nifrətini bildirəcəkdir.

Son olaraq bir də deyirəm: 8-ci Kilometrdə silahlar tezliklə yerə qoyulmalı, hamı öz yerinə getməlidir.

Novruz bayramı ərəfəsində Azərbaycan vətəndaşlarına bir daha sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayır, hər bir vətəndaşa hörmət və ehtiramımı bildirirəm. Bu günlərdə həlak olmuş Azərbaycan vətəndaşlarının ruhunu yad edirəm, onlara Allahdan rəhmət diləyirəm.

Gecəniz xeyrə qalsın. Xoşbəxt günlər naminə! Sağ olun. [278]

## AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN QORUNUB SAXLANMASI MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ

*Prezident Sarayı*

*17 mart 1995-ci il*

Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycan Respublikasının dövlətçiliyinin qorunub saxlanması ilə bağlı, eyni zamanda faciəli hadisələrlə əlaqədar mən sizi müşavirəyə dəvət etmişəm. Bildiyiniz kimi, son vaxtlar Azərbaycanda olan mənfi qüvvələr həm respublikadakı havadarlarının təsiri altında, həm də xaricdə olan ayrı-ayrı dairələrin, qüvvələrin – ölkəmizə qarşı təxribatçılıq hərəkətləri aparmaq istəyən şəxslərin göstərişi, məlumatları əsasında Azərbaycanda ictimai-siyasi sabitliyi pozmağa çalışıblar.

Sizə məlumdur ki, son vaxtlar, son aylar respublikamızda və hətta ölkəmizdən kənarda Azərbaycanda dövlət çevrilişinin gözlənilməsi haqqında şayiələr, söhbətlər, danışıqlar geniş yayılmışdır. Bunlar hamısı Azərbaycanın və xarici ölkələrin mətbuatında, digər informasiya orqanlarında da əksini tapmışdır. Şübhəsiz ki, bu da respublikamızda, insanlarda narahatçılıq törədir, vahimə hissi yaradır, ölkəmizdə mənəvi-psixoloji mühitə mənfi təsir göstərir.

Bunlar hamısı olmuş həqiqətlərdir, sizə məlum olan faktlardır. Axır zamanlar belə söhbətlər gedir, bizə məlumatlar gəlirdi, şayiələr də yayılırdı: deyirdilər fevral ayında, fevral ayı keçəndən sonra mart ayında, ən nəhayət, Novruz bayramı ərəfəsində Azərbaycanda dövlət çevrilişi olacaq, ölkəmizin qanuni dövləti devriləcək və burada yenidən vətəndaş müharibəsi baş verəcəkdir. Hətta bəzi ölkələrin səfirləri son vaxtlar mənimlə görüşləri zamanı çox narahatçılıq hissi ilə bu məlumatların yayılması haqqında bildiklərini mənə çatdırır və müəyyən qədər xəbərdarlıq edirdilər.

Bu məlumatlar, xəbərdarlıqlar hamısı prezident kimi mənim tərəfimdən təhlil olunurdu. Şübhəsiz ki, mən bunlara laqeyd baxa bilməzdim. Bunların hamısını nəzərə alırdım. Amma eyni zamanda həmişə, keçmişdə olduğu kimi, xalqın rəyini, əhali-ruhiyyəsini hiss edərək, xalqın dövlətçiliyimizi qorumaq əzmini, Azərbaycan Prezidentini daim müdafiə etdi[279-280]yini bilərək hesab edirdim ki, bunların heç birisi ya baş verə bilməz, yaxud da baş versə, heç bir nəticə əldə olunmaz.

Çevrilişin gözlənildiyi barədə son vaxtlar Moskva mətbuatında məlumatlar gedirdi, Mütəllibovun, Surət Hüseynovun müsahibələri, ayrı-ayrı müxbirlərin yazıları, qəzetlərdə, başqa informasiya orqanlarında verilən xəbərlər, şübhəsiz ki, respublikamızda aranı qızışdırırdı. Amma təkcə Moskva deyil, başqa ölkələrdə də belə yazılar gedirdi. Nəhayət, son vaxtlar bu hadisələrin, yəni çevriliş əməliyyatının Rövşən Cavadov və onun ətrafında olan Xüsusi Təyinatlı Polis Dəstəsinin gücü ilə aparılacağı bildirilirdi. Təəssüflər olsun ki, Rövşən Cavadov da bir-iki ay bundan əvvəl orada-burada, qəzetlərdə öz müsahibələrində, çıxışlarında bu fikirləri birbaşa, yaxud dolayısı ilə ifadə edirdi. Bizə gələn məlumatlardan görünürdü ki, Rövşən Cavadov öz dairəsində olan adamlarla daha açıq danışıqlar aparır, Azərbaycanda hakimiyyət dəyişikliyi etmək haqqında fikirlərini gizlətmirdi və bunu da bildirirdi. Bu məlumatlar da bizə gəlib çatırdı və biz onları əldə edəndən sonra müəyyən təhlillər aparıb lazımi tədbirlər görməyə çalışırdıq ki, bu hadisələrə yol verilməsin.

Rövşən Cavadov son vaxtlar ayrı-ayrı siyasi qüvvələrin, qrupların əlində, demək olar ki, bir alətə çevrilmişdi. O, guya böyük bir hərbi gücə malik olduğuna görə ayrı-ayrı qüvvələr bundan istifadə etməyə çalışmış, onu qızışdırmış, bəzi siyasi oyunlara sövq etmişdilər. O, gah gənclər təşkilatı yaradıb, gah bir xeyriyyə cəmiyyətinə rəhbərlik edib, gah başqa işlərlə məşğul olub – hər halda öz işi ilə məşğul olmayıbdır. Ona rəvac verənlər, qızışdıranlar, havadarlıq edənlər, onu maliyyələşdirənlər – bunlar hamısı göz qabağında idi. Təəssüflər olsun ki, həmin mafioz qruplardan savayı, bu işlərə ayrı-ayrı siyasi partiyaların, ictimai təşkilatların nümayəndələri də qoşulmuşdu. Dediyim kimi, respublikamıza qarşı düşmənçilik mövqeyi tutan Mütəllibov, Surət Hüseynov, Rəhim Qazıyev və başqaları da bundan müxtəlif yollarla istifadə etməyə çalışmışlar.

Bunları nəzərə alaraq, – keçən dəfə televiziya ilə müraciətimdə də dedim, – Türkiyənin Azərbaycandakı səfiri hörmətli Altan Karamanoğlunun verdiyi məlumatlardan sonra, onun təklifi ilə və Rövşən Cavadovun, doğrudan da, nəsə edə biləcəyini hiss edərək mən onu yanıma dəvət etdim. Hesab etdim ki, əgər o, əyri yoldadırsa ona müəyyən məsələləri başa salmaq lazımdır. Ancaq o, birinci dəfə də, ikinci dəfə də təyin [280-281] olunan vaxtda gəlmədi. Sonra o öz ətrafında bu dəvətlər haqqında cürbəcür mənfi söhbətlər aparmışdır. Bunlar hamısı məlumdur.

Nəhayət, martın 12-dən 13-nə keçən gecə Qazax və Ağstafa rayonlarında həmin bu XTPD, Rövşən Cavadov və onun ətrafında olan banda tərəfindən dövlət çevrilişinə cəhd göstərilmişdir. İndi kim bunu necə ifadə edir, ona necə qiymət verir – bu onun öz işidir, ancaq dövlət çevrilişinin buynuzu olmur ki! Əgər silahlı qüvvələr tərəfindən rayonda dövlət hakimiyyət orqanları zəbt edilibsə, onların fəaliyyəti dayandırılıbsa, polis

orqanı zəbt olunubsa, bütün polis işçiləri tərksilah ediliblərsə, dövlətin silahları ayrı-ayrı adamların əlinə keçibsə, rabitə ələ keçirilibsə, – demək, bu rayonda dövlət hakimiyyəti devrilib: Qazaxda da, Ağstafada da belə olmuşdur. Biz bu məsələyə də yenə soyuqqanlılıqla, təmkinlə yanaşdıq, məsələni araşdırıb lazımi tədbirlər görməyə çalışdıq. Bunu mən martın 15-dəki müraciətimdə demişəm, indi təkrar etməyə ehtiyac yoxdur. Ancaq bir həqiqət aydındır ki, Qazax, Ağstafa rayonlarında dövlət çevrilişinə cəhd başlanmış və həyata keçirilmişdi. İndi artıq məlum olan planlara görə o, davam edib digər rayonları da əhatə etməli və Bakıya gəlməli idi, yaxud Bakıda da bu çevriliş başlanmalı idi. Biz bunu hiss etdik və gördük.

Bizim iki gün ərzində məsələni sülh yolu ilə yatırtmaq və onun qarşısını almaq üçün gördüyümüz tədbirlər nəticə vermədi. Martın 13-dən 14-nə keçən gecə həmin silahlı dəstə öz niyyətini yerinə yetirmək üçün – yəni Tovuz, Gəncə bölgələrini zəbt etmək üçün Tovuzda olan hərbi hissəyə hücum etdi, döyüş başlandı və bu döyüş nəticəsində o banda darmadağın oldu. Orada olan itkilər və bizim çətinliklərimiz sizə məlumdur. Bu gün artıq sizə deyə bilərəm ki, həmin bu bandanın üzvləri – orada deyirdilər ki, XTPD-nin cəmi 60 nəfər üzvü var, lakin onlar kənardan da adamlar cəlb edib silahlandırmışdılar – 160 nəfər həbs olunmuşdur.

Görürsünüz, bir qrup, bir neçə adam – ola bilər 10-15, 20-25 adam cinayət edərək nə qədər adamı dartıb bu cinayətə gətirib çıxarmışdır. Qeyd etdiyim kimi, biz bunun qarşısını aldıq. Ancaq bütün bu işlərə rəhbərlik edən Rövşən Cavadov öz niyyətlərindən əl çəkmədi. O, Qazaxa getmişdi ki, guya bu işlərin həll olunmasına kömək etsin. Kömək etmədi. Əksinə, orada aranı daha da qızışdırdı. Ondan sonra gəlib burada, 8-ci [281-282] Kilometr qəsəbəsində XTPD-nin bazasında bu dəstəni qızışdırıb, silahlandırıb dövlət çevrilişi etməyə hazırladı.

Bunların hamısını görərək və qarşıdakı təhlükəni, respublikamızda yenə də dövlət çevrilişi cəhdi baş verə biləcəyini hiss edərək mən martın 15-də televiziya ilə xalqa müraciət etdim. Müraciət məlumdur. Mən orada bütün prosesləri təhlil etdim. Müraciətimin əsas məqsədi ondan ibarət idi ki, Rövşən Cavadova, onun dəstəsinə və respublikamızın içindən, xaricindən ona havadarlıq edən, onu istiqamətləndirən, ona güc verən, bu işlərə sövq etdirən qüvvələrə başa salım ki, Azərbaycanı dağıtmaq, qan tökmək daha bəsdir. Bunlardan əl çəkmək, Azərbaycanın dövlətçiliyini qorumaq lazımdır. Azərbaycan xalqı artıq öz dövlətçiliyini qiymətləndirməlidir, bunu anlamalıdır və bunun nə qədər böyük sərvət olduğunu bilməlidir və hər bir vətəndaş bu sərvətin qorunmasına öz payını verməli, öz xidmətini göstərməlidir.

Deyə bilərəm ki, bizə, mənə gələn teleqramlardan, məktublardan, telefon zənglərindən və bu iki günün içərisində ictimaiyyətimizdə gedən proseslərdən məlum olur ki, mənim bu müraciətim xalq tərəfindən böyük rəğbətlə və hörmətlə qarşılanıbdır. Azərbaycan Prezidentinin xarici və daxili siyasəti, onun fəaliyyəti və irəli sürdüyü vəzifələrin hamısı xalqın əksəriyyəti tərəfindən bəyənilibdir. Bu günlər respublikanın şəhərlərində, rayonlarında, əmək kollektivlərində keçirilən yığıncaqlar, mitinqlər, gedən danışıqlar, müsahibələr, yazılar – hamısı onu göstərir ki, xalq həmrəydir, dövlətçiliyi qorumaq əzmindədir və Prezidenti müdafiə edir.

Mən güman edirdim, şübhəsiz, buna ümid bəsləyirdim ki, bütün bunlar azğınlaşmış, mənəviyyatmı itirmiş insanları müəyyən qədər oyada bilər, onlara təsir edə bilər, onlar bunu anlaya bilərlər. Bir halda ki, insanlar, hörmətli adamlar, əmək kollektivləri, ağsaqqallar mitinqlər keçirir, çıxışlar edirlər, teleqramlar verirlər, televiziya və radio ilə öz fikirlərini deyirlər – onlar buna biganə qalmamalıdırlar. Mən bütün bunlardan həmin azğınlaşmış adamlara ictimaiyyətin təsiri kimi istifadə etməyə çalışdım. Ümidvar idim ki, bu öz nəticəsini verəcəkdir.

Ancaq təəssüflər olsun ki, bu, istənilən nəticəni vermədi. Müraciətimlə yanaşı, mən bəzi başqa tədbirlər də gördüm, bəzi vasitələrlə XTPD-nin adamlarına çatdırdım ki, əgər onlar bu əməllərindən əl çəksələr – bunu öz müraciətimdə də [282-283] dedim, – onlar əfv olunacaqlar, mən hətta onlara bundan da artıq bəzi vədlər verdim ki, işlə təmin olunacaqlar, onlara qayğı göstəriləcək. Lakin bütün bunları anlamadılar, başa düşmədilər.

Bilirsiniz ki, mən dünən bir fərman verdim. Bu fərmanın da məqsədi ondan ibarətdir ki, XTPD-də olan adamları bir də başa sala bilim ki, onlar cinayətlərindən əl çəksələr sakit yaşayacaqlar və hətta cinayət etdiklərinə görə məsuliyyətə alınmayacaqlar. Mənim bu fərmanım dünən axşam televiziya ilə oxundu. Həmin XTPD-nin içərisində sağlam ruhlu adamlar çoxdur. Oradan mənə belə təkliflər, xahişlər gəlmişdir ki, "bizim əksəriyyətimiz buradan çıxmaq istəyirik. Sizin çağırışınızı qəbul edirik, müraciətinizə səs veririk. Ancaq burada yaranmış mənəvi-psixoloji mühit – bir tərəfdən bizə olan təzyiq, zorakılıq, ikinci tərəfdən özümüzdə olan qorxu bizə imkan vermir. Ona görə də sizin bu müraciətinizi və əfv haqqında bəyanatınızı bir hüquqi sənədlə də ifadə etsəniz, biz bu addımları ata bilərik". Bu müraciətləri nəzərə alaraq mən dünən belə bir fərman verdim.

Həmin bu XTPD-nin komandiri Nizami Şahmuradov və onun müavini Cəfərov dünən xahiş etdilər ki, onları qəbul edim. Baxmayaraq ki, günahkardırlar, onlar özləri çox cinayətlər ediblər – mən onları qəbul etdim. Uzun-uzadı söhbətlər apardım. Xeyli vaxt sərf edərək onları başa salmağa çalışdım ki, siz çox pis yola düşmüsünüz, cinayət etmisiniz. Bu yoldan çəkinin. Siz komandirsiniz, gedin onları başa salın, anladın. Doğrudur, onlar bu danışıqlarda "Biz Prezidenti dəstəkləyirik, Prezidentin tərəfdarıyıq, biz siyasətə qarışmırıq, siyasət adamı deyilik" və sair sözlər söylədilər. Ancaq bir həqiqət şəxsən mənə əvvəl də məlum idi və bu günlər daha da dəqiq məlum oldu ki, Rövşən Cavadov və onun qardaşı Mahir Cavadov mafioz hərəkətləri ilə və eyni zamanda mafioz qruplarla olan əlaqələri ilə həddindən artıq vəsait əldə edib, bu insanların bəzilərinə xeyli pul

və başqa vəsaitlər verməklə, ikinci tərəfdən isə hədələyib qorxutmaqla bunları öz təsiri, tabeliyi altında saxlamış, demək olar ki, qul, özlərinin əlində alət etmişlər.

Mən dünən Nizami Şahmuradov və Cəfərovla danışığımda bunu bir daha hiss etdim. Mən onlara anlatdım ki, siz gəncsiniz, ayılın, başa düşün ki, bir, iki, üç adamın zoru altında, yaxud onun sizə verdiyi qeyri-qanuni maddi imtiyazlar, başqa [283-284] şeylərlə əlaqədar bu cinayət yolu ilə gedirsiniz, bunun axırı yoxdur. Mən bunu da etdim.

Dünən axşam bizim hörmətli xalq şairimiz Bəxtiyar Vahabzadə mənə telefon etdi, narahatlığını bildirdi və dedi ki, mən nə edə bilərəm? Mən ona dedim ki, siz hər şeyi görürsünüz. Əgər Azərbaycan xalqı bu gün cinayətkar adamların əlinə düşüb, onların iradəsi altında yaşayacaqsa, mən hesab edirəm ki, bu xalqın artıq axırı gəlib çatıb. Siz bunları, bu prosesləri görürsünüz və mənim müraciətimi eşitmisiniz. Hərə öz sahəsində öz işini görsün. O da ürək ağrısı ilə dedi ki, bəli, bunlar hamısı məni incidir, ürəyimi ağrıdır və çox narahat edir. O dedi ki, mən öz tərəfimdən lazımi tədbirlər görərəm.

Yəni, martın 15-dəki müraciətimdən sonra apardığımız işləri də sizə deyirəm və bu işlər də məhz onunla əlaqədardır ki, məsələləri sülh yolu ilə yatırdaq, cinayətkarları bu cinayət yolundan çəkindirək, respublikamızın dövlətçiliyini qoruyaq, ictimai-siyasi sabitliyi təmin edək və onun pozulmasına yol verməyək.

Ancaq bunlar nəticə vermədi. Bu günlər bizə ciddi məlumatlar gəlirdi ki, Rövşən Cavadov artıq dövlət çevrilişi etməyə hazırlaşıb və bunu həyata keçirəcəkdir. Rövşən Cavadov da bunu gizlətmirdi. Keçən il oktyabrın əvvəlində olduğu kimi, son günlər bu XTPD haqqında məlumat yayılandan sonra ayrı-ayrı mafioz adamlar, cürbəcür siyasətbazlar, guya siyasətlə məşğul olan adamlar başladılar ora axışmağa, onunla danışıqlar aparmağa. Bundan bəlkə hərə öz məqsədləri üçün istifadə etməyə çalışırdı. Şübhəsiz, xarici ölkələrin, respublikamızın müxbirləri də ora getdilər, onun fikirlərini bilmək istədilər. O, açıq-aydın müsahibələr verirdi. Siz bunları artıq bilirsiniz, bunlar mətbuatda da dərc olunub. Moskva televiziyası bunu həddindən artıq şişirdilmiş şəkildə veribdir. Rövşən Cavadov başqa ölkələrin televiziya və mətbuat orqanlarında da öz niyyətlərini açıqca deyirdi və yenə də bildirirəm ki, bu, nəinki mətbuatda dərc olunub, hətta onun verdiyi müsahibələr barədə yazılar bizə də gəlibdir.

Bəli, o deyirdi ki, Azərbaycan Respublikasının rəhbərliyini zorakılıqla dəyişdirmək istəyir, vətəndaş müharibəsindən də çəkinməyəcək, vətəndaş müharibəsi olacaq. Hakimiyyəti ələ keçirmək, siyasi şura yaratmaq, bu şuraya rəhbərlik etmək istəyir və ayrı-ayrı partiyaların nümayəndələrini həmin siyasi şuraya dəvət edəcəkdir. Cürbəcür belə sözlər, çağırışlar, açıq [284-285] bəyanatlar verirdi. Yəni, bu, gizli məlumatlar deyildi. O öz fikirlərini açıq-aydın bildirirdi.

Yəqin ki, bu elə onun öz şəxsiyyətinə xas olan bir şeydir və ona görə də təəssüf etməyə də ehtiyac yoxdur. Çünki görünür, o bu cür tərbiyə almış və bu tərbiyənin sahibidir. Dövlətçilik haqqında, Azərbaycanın prezidenti haqqında, başqa vəzifəli şəxslər haqqında çox çirkin, təhqiramiz sözlər deməkdən də çəkinməmişdir. Hətta dünən və ya srağagün axşam Moskvanın hansı proqramındasa verirdilər, – o deyirdi ki, "Azərbaycanda real qüvvə məndə – Rövşən Cavadovdadır. Yəni, dövlət hakimiyyətində, Azərbaycan Prezidentində deyil, bu qüvvəyə mən malikəm. Ona görə də bu qüvvə ilə mən Azərbaycanda dövləti dəyişdirəcəyəm".

Bu bəyanatların nə qədər təhlükəli, ağrıdıcı olmasına baxmayaraq, şəxsən mən onlara çox soyuqqanlılıqla, çox səbirlə yanaşırdım və hesab edirdim ki, onlar heç bir nəticə verməyəcəkdir. Dünən bizə məlumatlar gəldi ki, orada dövlət çevrilişinin planı, dörd əməliyyat qrupu hazırlanıb, onların qarşısına vəzifə qoyulubdur: biri Prezident Sarayını zəbt etmək, Azərbaycan Prezidentini ya öldürmək, ya həbs etmək, ikincisi Ali Soveti zəbt etmək, üçüncüsü Azərbaycan milli televiziyasını zəbt etmək, dördüncü qrup respublika Daxili İşlər Nazirliyini zəbt etmək üçün ayrılmışdı.

Bunların icraçıları da artıq məlum idi. Bu tədbirin necə həyata keçirilməsi də aydın idi. Şübhəsiz ki, biz bunlara biganə qala bilməzdik, öz tədbirlərimizi görürdük. Bildiyiniz kimi, XTPD-nin bazasında onlar o silahları yerləşdirmişdilər və orada çox narahat hərəkətlər edirdilər. Bundan əlavə, onun ətrafında olan hər bir binanın damında iriçaplı və başqa növ silahlarla silahlanmış 15-20 nəfər adam da qoymuşdular. Bütün o meydan, məhəllə silah altında yaşayırdı. Bu, 5-6 evin üstündə idi. Gedənlər görmüşdülər.

Bütün bunlar onu göstərdi ki, bəli, onlar həqiqətən bu işə hazırlaşırlar. Bunları nəzərə alaraq biz o məhəlləni hərbi hissənin gücü ilə müəyyən qədər mühasirəyə almağa çalışdıq ki, oraya giriş-çıxışa nəzarət olunsun, əgər onlar bir hərəkət edərlərsə, biz onun qarşısını ala bilək. Bizim o hərbi qüvvəmiz o qədər də böyük deyildi, sadəcə olaraq, orada vəziyyətə nəzarət etmək məqsədilə qoyulmuşdu.

Bu gecə təxminən saat 2 radələrində XTPD üzvləri artıq hücuma başladılar, atəş açdılar, birinci atəşlə bizim dörd əsgə[285-286]rimizi öldürdülər. Ondan sonra həmin planlarını həyata keçirməyə başladılar. Şübhəsiz ki, onlar bunun üçün orada olan hərbi qüvvələri ləğv etməli, məhv etməli idilər.

Əsgərlərimiz, Silahlı qüvvələrimizdə xidmət edən zabitlərimiz, ordu dəstələri şücaət, mərdlik, müqavimət göstərdilər və böyük döyüş başlandı. Bu döyüş təxminən gecə saat 4-də çox şiddətləndi və saat 11.30-a, yaxud 11.40-a qədər davam etdi. Döyüş çox kəskin oldu. Onlar azğıncasına, vəhşicəsinə hərəkət etdilər. Əllərində olan böyük silahlardan atəş açdılar. Şübhəsiz ki, Azərbaycanın dövlətçiliyini qoruyan hərbi hissə də onlara qarşı atəş açdı.

İtkilər var, yaralananlar var. Böyük qan tökülüb. Bu bizim üçün faciədir. Həmin bu əməliyyatlara başçılıq edən Rövşən Cavadov səhərə yaxın yaralanıb, sonra Daxili İşlər Nazirliyinin hospitalına gətirilib, orada ölüb. Onun qardaşı Mahir Cavadov öz evində iki gün böyük bir quldur dəstəsi ilə mühafizə olunaraq – Daxili İşlər Nazirliyinin əməkdaşları onu cinayətlərinə görə həbs etmək istəmişlər, orada müqavimət göstərmişdir. 5-6 polis nəfərini yaralamışdır, – oradan qaçıb bazaya girmişdi. Onun indi harada olduğu məlum deyil. O biriləri haqqında da mənim məlumatım yoxdur və bugünkü danışıq üçün bu əsaslı deyil.

Hər halda, nəhayət, Rövşən Cavadov və onun himayəsində olan dəstələr uzun müddət ayrı-ayrı qüvvələrin təsiri altında, bu qüvvələr tərəfindən istiqamətləndirilərək Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq, dövlətçiliyimizə qəsd etmək niyyətlərini son dərəcədə həyata keçirməyə çalışdılar, ancaq buna nail ola bilmədilər. Azərbaycanın mərd, cəsur əsgərləri respublikamızın müstəqilliyinin, dövlətçiliyinin keşiyində duran Azərbaycan övladları onların cavabım verdilər, respublikamızın dövlətçiliyini, müstəqilliyini qorudular. Ancaq təəssüf ki, böyük itkilər oldu və böyük qan töküldü.

Mən bunu, qan töküləcəyini görürdüm. Ona görə əvvəllər də və xüsusən martın 15-də xalqa müraciət edəndə də dəfələrlə dedim ki, artıq bəsdir, qan tökmək lazım deyil. Ancaq bu insanlara nə qardaş qanı, nə millət qanı, nə xalq qanı əzizdir. Öz çirkin niyyətləri, əməlləri onlar üçün hər şeydən üstündür, özləri də bu çirkin əməllərinin .qurbanı oldular.

Azərbaycanın dövlətçiliyini, ₜ müstəqilliyini, suverenliyini, xalqın həyatını qoruyaraq həlak olmuş döyüşçülərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etməyi xahiş edirəm. [286-287]

Allah onlara rəhmət eləsin!

Mən çıxışımın əvvəlində dedim, bu gecəki hadisə bir tərəfdən Azərbaycan dövlətinin qüdrətini, onun iradəsini bütün düşmən qüvvələrə – Azərbaycanın içində də, xaricində də olan qüvvələrə nümayiş etdirdi. Bu, Azərbaycan xalqının, müstəqil respublikamızın tarixində əlamətdar bir hadisədir, haldır və mən bunu yüksək qiymətləndirirəm.

Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin qorunması uğrunda xidmət göstərmiş döyüşçülərimizin hamısına, vətəndaşlarımıza öz təşəkkürümü, minnətdarlığımı bildirirəm. Bütün bu işlərdə Müdafiə Nazirliyinin zabitləri, əsgərləri, Daxili İşlər Nazirliyinin, xüsusi idarənin, Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları iştirak etmişlər. Ancaq bu qiyamın, dövlət çevrilişinin qarşısının alınmasında Müdafiə Nazirliyi zabitlərinin, generallarının, əsgərlərinin və müdafiə naziri Səfər Əbiyevin, baş qərargahın rəisi Nəcməddin Sadıqovun xidmətlərini xüsusi qeyd edirəm və onlara təşəkkür edirəm.

Bizim orada döyüşən qəhrəman zabitlərimiz çoxdur. Həlak olanlar da və axıra qədər döyüşüb dövlətçiliyimizi qoruyanlar da var. Bunların hamısı qeyd olunacaqdır. Onların hamısı Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə mükafatlandırılacaqdır. Ancaq orada bilavasitə döyüş aparanlardan alay komandiri Rövşən Əkbərovun, batalyon komandiri Ağayevin xidmətlərini xüsusi qeyd edirəm. Güman edirəm ki, burada ayrı-ayrı familiyaları çəkməyə daha ehtiyac yoxdur. Bizim bu müşavirəmiz ümumi siyasi xarakter daşıyır. Mən bəyan edirəm ki, heç kəs unudulmayacaq, hər kəsin xidməti qeyd olunacaqdır.

Görürsünüz, həyatımızın ziddiyyətləri necədir. Bir tərəfdə Azərbaycana, onun dövlətinə, müstəqilliyinə sədaqətlə xidmət edən gənc, qəhrəman övladlarımız, əsgərlərimiz, zabitlərimiz, ordumuz; ikinci tərəfdə isə Azərbaycan xalqına xəyanət edən, müstəqilliyimizi pozmaq, respublikamızı yenidən vətəndaş müharibəsinə sürükləmək, Azərbaycanı parçalamaq istəyən düşmən qüvvələr. Onlar bizim içimizdə və xaricdədir. Görünür ki, bu da həyatımızın gerçəkliyidir. Biz bunu bilməliyik və bunları bilərək öz işimizi qurmalıyıq.

Bir sözlə, bu gecə, yəni martın 16-dan 17-nə keçən gecə Azərbaycanda güclü dövlət çevrilişi cəhdi meydana çıxdı və onun qarşısı məharətlə, cəsarətlə, dövlətin qüdrəti ilə alındı. Dövlət çevrilişinə bu cəhd keçmişdə olan cəhdlərin davamıdır. [287-288] Bu, bilavasitə 1994-cü il oktyabrın əvvəlindən başlanmış dövlət çevrilişi cəhdidir. Mən martın 15-də xalqa müraciətimdə bunu qeyd etdim. O vaxt da dövlət çevrilişini Surət Hüseynovla bərabər, əl-ələ Rövşən Cavadov hazırlayırdı, onun ətrafında olan quldur dəstələri hazırlayırdı və o vaxt da, o ərəfədə – sentyabr ayında, hətta avqust ayında Azərbaycan mətbuatında da, xarici mətbuatda da çevrilişin hazırlanması, gözlənilməsi barədə yazılar verilirdi. Surət Hüseynovun, Rövşən Cavadovun adları həmin yazılarda var idi.

Xatirinizdədir, mən Amerika Birləşmiş Ştatlarına, BMT Baş Məclisinin sessiyasına yola düşərkən İstanbulda dayandım. Orada mətbuat nümayəndələri böyük bir həyəcan hissi ilə mənə sual verirdilər və qəzetlərdə də böyük şriftlərlə yazılmış məqalələr göstərirdilər ki, Azərbaycanda çevriliş gözlənilir, bu çevrilişi Rövşən Cavadov, Surət Hüseynov edəcəklər. Orada bir neçə başqa familiya da yazılmışdı.

O vaxt bunlar hamısı bir yerdə idi. Həmin o dövlət çevrilişi cəhdi oktyabrın 4-də özünü büruzə verdi. O, oktyabrın əvvəlində başlanmışdı, Rövşən Cavadovun, onun qardaşı Mahir Cavadovun Azərbaycan Respublikası Prokurorluğunu zəbt edib orada qeyri-qanuni, cinayətkar hərəkətlər etməsindən başlanmışdır. O günlər xatirimizdədir. Biz o günləri necə əzab-əziyyətlə keçdik və bizə nə qədər müdriklik, səbirlilik lazım idi ki, bu məsələlərin inkişaf etməsinə yol verməyək.

Ancaq bu hadisələr inkişaf etdi, oktyabrın 4-də çevriliş Gəncədən başlandı. Mənim xalqa müraciətim Rövşən Cavadovu məcbur etdi ki, geriyə çəkilsin. Amma onlar bir idilər, bizə məlumdur. Artıq mən bunu deyə

bilərəm, o vaxt isə demək istəmirdim. Mən o vaxt istədim ki, Rövşən Cavadovu və onun yanında olanları gənc adamlar kimi, bu məsələləri bəlkə başa düşmədiklərinə, anlamadıqlarına görə bunlardan ayıram, onlara güzəşt etdim, onları bağışladım. Onunla söhbətlər apardım, başa saldım ki, bu yoldan çəkil. Ona görə də mən o vaxt bir neçə faktı demədim. Ancaq bu fakt məlum idi ki, respublika prokurorluğu zəbt olunanda Rövşən Cavadov Surət Hüseynova telefon etdi və bildirdi ki, "mən prokurorluğu götürdüm, siz də gedin Ali Soveti və Prezident Aparatını götürün". Ondan sonra bir daha prokurorluqdan, baş prokurorun kabinetindən telefon edib Surət Hüseynova demişdi ki, "biz hərəkət etmişik, siz niyə gecikirsiniz?"

Başqa sübutlar və dəlillər də var. Bunların hamısını istin[288-289] taq açacaqdır. Ən nəhayət, oktyabrın 4-də mən televiziya ilə xalqa birbaşa müraciət edəndən sonra yüz minlərlə adam Prezident Aparatının qarşısına toplaşan zaman Rövşən Cavadov buraya gəldi, prezidentin yanında olduğunu göstərməyə çalışdı. Ancaq məlumdur ki, həmin bu binadan o, telefonla Gəncə ilə danışdı, orada olan Səfixanova və başqalarına bildirdi ki, "biz fəaliyyətimizi dayandırdıq, siz də dayandırın, artıq geriyə çəkilirik". Bunların hamısı, bu məqsədləri onların bir yerdə hazırladıqlarının sübutudur. İstintaqda başqa sübutlar da var.

Mən bunları, sadəcə olaraq, açmaq istəmirdim. Çünki mən istəyirdim ki, Rövşən Cavadovu və onun yanında olan adamları tərbiyə edim, onları bu cinayət əməllərindən uzaqlaşdırım. Ancaq mümkün olmadı. Ona görə ki, görünür, bu insanın, gənc adamın təbiəti belə imiş. Ona görə ki, bu adam və onun qardaşı uzun illər Azərbaycanda azğınlıq ediblər, çox cinayət işləri görüblər və onların qarşısı alınmayıb. Ayrı-ayrı dairələr, ayrı-ayrı vəzifəli adamlar onlara havadarlıq ediblər, onları maliyyələşdiriblər, cinayətlərinin üstünü örtüblər. Bəziləri qorxub, bəziləri onlardan istifadə edib. Beləliklə onlar qudurublar.

Xatirimdədir, 1993-cü ilin iyun ayında Əbülfəz Elçibəy məni Bakıya dəvət edəndə mən onunla söhbət etdim. Gərək ki, bu söhbətdə Rəsul Quliyev də iştirak edirdi. Bəzi adamlardan söhbət düşdü. Gördüm ki, Əbülfəz Elçibəy çox böyük əzab-əziyyətlə deyir ki, bu Cavadov qardaşları nə qədər böyük cinayətlər edirlər. Eyni zamanda mən hiss etdim ki, bu adam nə qədər acizdir. Cinayətləri görür, ürək ağrısı ilə deyir, ancaq qarşısını ala bilmir. Niyə? Çünki onlar artıq çərçivədən çıxmışdılar və başqa-başqa dairələrdən o qədər idarə olunurdular ki, görünür, Əbülfəz Elçibəy də burada heç bir iş görə bilməmişdi.

Bir sözlə, yenə də deyirəm, görünür, pozulmuş mənəviyyatları onları belə bir axıra gətirib çıxartdı. Bu da tamamilə qanunauyğundur. Təbiidir. Belə də olmalı idi. Ancaq millətimizə, cəmiyyətimizə, dövlətimizə onlar nə qədər zərbələr vurur, işimizi ləngidir, pozur, – bunlar hamısı göz qabağındadır. Bir sözlə, bu çevriliş cəhdi oktyabrdakı dövlət çevrilişi cəhdinin təbii davamıdır və hamısı bir kompleksdir.

Artıq məlumdur ki, bunlar Moskvada yerləşmiş Mütəllibov, Surət Hüseynov, gah Moskvada, gah da deyirlər Azərbaycan[289-290]da olan Rəhim Qazıyev və onlar kimi adamlar tərəfindən, habelə xarici ölkələrdəki ayrı-ayrı dairələr, Azərbaycandakı ayrı-ayrı mafioz qruplar tərəfindən idarə olunurlar. Təəssüf ki, Azərbaycanda da bəzi siyasi partiyalar, ictimai-siyasi təşkilatlar bu cür adamlardan, quldur dəstələrindən istifadə edir, öz hakimiyyət iddialarını yerinə yetirməyə çalışırlar. Təsadüfi deyil ki, bu son günlərdə Rövşən Cavadovun hərəkətlərinə o partiya ordan, bu partiya burdan müraciət verdi, bəzi partiyalar guya bizimlə onların arasında vasitəçilik etmək istədilər. Hətta bəzi təşkilatlar, partiyalar, – ola bilər məndən sonra çıxış edənlər bunları desinlər, – ümid bəslədilər ki, bəli, bu gün bizim haqqımızda bəyanat verəcək, biz bundan istifadə edəcəyik, sabah o birisinin haqqında bəyanat verəcək, – istifadə edəcəyik. Bunlar hamısı onu göstərir ki, guya müxalifətdə duran həmin bu bəzi partiyalar üçün də dövlət, xalq, millət qiymətli deyil. Ancaq öz şəxsi hikkələri, niyyətləri, çirkin hərəkətləri qiymətlidir.

Demək, bu mənfi qüvvələrin hamısının birləşməsi gətirib Rövşən Cavadov kimi bir amilin meydana çıxmasına səbəb oldu. Hesab edirəm ki, bu, nəinki bugünkü Azərbaycan üçün böyük bir təhlükə idi, həm də respublikamızın sabahı, gələcəyi üçün təhlükə idi. Çünki bu dəstə, bu qrup, böyük silahlara malik olan, çox böyük cinayətlər etmiş və çox böyük cinayətlər etməyə hazır olan adamlar, şübhəsiz, Azərbaycanı dağıtmağa qadir idilər. Onlar başqa vaxt da dağıda bilərdilər. Necə ki, 1993-cü ilin iyun ayında o birisi qrup dağıtdı, onlardan da çox dağıda bilərdilər, Ancaq mən yenə də məmnuniyyət hissi ilə deyirəm ki, Azərbaycan dövləti artıq özünü qorumağa qadirdir, gücü də, iradəsi də və bütün imkanları da var. Azərbaycan öz dövlətçiliyini, müstəqilliyini bundan sonra da qoruyub saxlayacaqdır.

Şübhəsiz ki, bütün bunlardan nəticə çıxarmaq lazımdır. Bu gecə bizim həyatımızda böyük faciə baş verib, insanlar tələf olub, qan tökülüb. Binalar dağılıbdır. Bu məhəllədə böyük atəşlər açılıbdır. Bir neçə gün bundan qabaq bu hadisələr Tovuzda, Qazaxda baş veribdir. Ancaq güman edirəm ki, biz artıq bunlara son qoyuruq. Bu itkilərimiz, çətinliklərimiz, bizə vurulan maddi və mənəvi zərbələr nə qədər ağır olsa da, eyni zamanda onu göstərir ki, Azərbaycanda sabitlik saxlanılır, qorunur və bunu pozmaq heç də mümkün deyil.

Mən sizə deyim ki, bu son günlərdə respublikamızda yaran[290-291]mış vəziyyət Azərbaycanın beynəlxalq aləmdə imicinə, nüfuzuna çox mənfi təsir göstərməyə başladı. Ayrı-ayrı ölkələrdə öz diplomatik missiyalarına göstəriş verdilər ki, onların əməkdaşları buradan çıxıb getsinlər. Bəzi ölkələrdən buraya gəlməyə hazırlaşan adamlar öz səfərlərini dayandırdılar. İş adamları fikirləşməyə başladılar ki, burada iş aparmaq, investisiya qoymaq bəlkə də bundan sonra təhlükəlidir. Bizdə sabitliyin pozulması Azərbaycanın ətrafında olan ölkələri də narahat edirdi.

Türkiyənin hörmətli prezidenti Süleyman Dəmirəl bu müddətdə Pakistandan mənimlə üç dəfə telefon əlaqəsi saxlayıb. Axırıncı dəfə dünən də zəng etdi. Hər dəfə də narahatçılığını bildirirdi. Azərbaycanda sabitliyin saxlanması, dövlətçiliyin qorunması haqqında rəsmi bəyanat verib. Türkiyənin baş naziri hörmətli xanım Tansu Çillər də bu barədə bəyanat verib. ABŞ Dövlət Departamenti bəyanat verib. Başqa ölkələrdən də bəyanatlar gəlir. Burada olan səfirliklərdən narahatçılıq hissi, eyni zamanda bəyanatlar gəlir.

Bunlar hamısı onu göstərir ki, Azərbaycanın beynəlxalq aləmdə tutduğu mövqeyə, onun haqqında yaranmış fikrə addım-addım, qram-qram yığılan imicimizə bu cinayətkarlar bir-iki günün içində nə qədər böyük zərbələr vurublar.

Güman edirəm ki, məsələ artıq hamıya, bütün dünyaya, ölkəyə məlum oldu. Çünki bəzi dairələrdə, təəssüf ki, Moskva televiziyasında bu hadisələrin şərhi şişirdilmiş və qızışdırıcı xarakter daşıyırdı. Bu hadisələrdən qabaq Moskva mətbuatında Mütəllibovun "Azərbaycan böyük dəyişikliklər qarşısındadır, qan töküləcək". Surət Hüseynovun "Azərbaycanda dövlət çevrilişi olacaq, qan töküləcək" məzmunlu müsahibələri verilmişdi. Hətta bir neçə gün bundan qabaq onlar orada bəyanat veriblər – düzdür, mətbuatda bu yoxdur – guya Mütəllibovla Surət Hüseynov hazırlaşırlar ki, bu hadisələr genişlənən kimi gəlsinlər burada hakimiyyətdə iştirak etsinlər. Yaxud, hakimiyyəti ələ alsınlar. Bunlar hamısı puça çıxdı və puça da çıxacaq idi. Mən bunları bilirdim, əmin idim. Ona görə ki, yenə də deyirəm, mən xalqımıza güvənərək buna əmin idim, öz iradəmə güvənərək buna əmin idim.

Ancaq bütün bunlardan nəticə çıxarılmalıdır. O mənada nəticələr çıxarılmalıdır ki, dövlətimizi qoruyan orqanlar gərək öz işlərini daha yaxşı qursunlar, möhkəmləndirsinlər. Çünki bu [291-292] günlər əldə olunmuş nailiyyətlərlə yanaşı, bu orqanların işində böyük səhvlər, nöqsanlar da aşkar oldu, meydana çıxdı.

Ümumiyyətlə, hər bir insan, vətəndaş və xüsusən vəzifəli şəxs öz mövqeyini artıq müəyyən etməlidir. Son günlər mənə ordan-burdan xəbərlər gəlirdi: bəzi adamlar oturub fikirləşirlər, külək hansı tərəfə əsir – o tərəfə, bu tərəfə əsir? Mən hansı tərəfdə duracağam, nə təhər eləyəcəyəm? Bəzi adamlar öz qınına çəkilib gözləyirdi ki, nə təhər olacaq, kiminlə birləşəcəyəm, kim gələcək, kim gedəcək? Mən fikirləşirdim: yazıq bu adamlar! Bunlar nə qədər zavallı, nə qədər mənəviyyatsızdırlar ki, indi – Azərbaycan ayağa qalxdığı bir vaxtda da belə fikirlərlə yaşayırlar. Bəziləri bunu istəyirlər, ona görə belə yaşayırlar. Bəziləri yalnız və yalnız özlərini saxlayıb, qoruyub, nəyin bahasına olursa-olsun, kimin hakimiyyətində – hətta Rövşən Cavadov kimi yaramaz bir adamın hakimiyyəti altında olsun, yaşamaq, öz vəzifəsində qalmaq barədə fikirləşiblər. Bunlar hamısı mənəviyyatsızlıq nümunələridir. Buna görə də hər kəs, hər bir vətəndaş bu işlərdən, proseslərdən nəticə çıxarmalıdır, cəmiyyətimizdə öz mövqeyini bildirməlidir, axıradək bir mövqedə durmalıdır.

Siz mənim mövqeyimi bilirsiniz: Azərbaycanın müstəqilliyi, dövlətçiliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, xalqımızın rifah halı – budur mənim mövqeyim. Azərbaycanın bu bəla vəziyyətindən çıxarılması, respublikamızın demokratiya yolu ilə getməsi, demokratik islahatların aparılması, demokratik seçkilərin keçirilməsi, demokratik konstitusiyanın qəbul olunması – budur mənim mövqeyim. Mən bu mövqeyimlə yaşayıram, bundan sonra da bu mövqe ilə fəaliyyət göstərəcəyəm. Bütün dünyaya bəyan edirəm ki, heç bir qüvvə məni xalq tərəfindən seçilmiş qanuni Azərbaycan prezidenti kimi öz mövqeyimdən çəkindirə bilməz. Bu günlərdə gedən proseslər bunu bir daha sübut etdi.

Bax, bu hadisələr haqqında qısa məlumat və bəzi fikirlər bundan ibarətdir. Hesab edirəm ki, bizim güc nazirliklərinin başçıları bu hadisələr haqqında təfsilatlı məlumatlar versinlər ki, hər şey aşkar olsun. Mən buraya gələn gündən, yəni Azərbaycanda işə başladığım gündən aşkarlıq ruhunda fəaliyyət göstərirəm. Ona görə də buradakı çıxışlar canlı yayımla bütün Azərbaycana göstərilir. Mən xahiş etdim ki, buraya müxbirlər dəvət olunsun, onlar deyəsən burada iştirak edirlər. Xalqdan gizli heç bir şeyimiz yoxdur. Bir prezident kimi mənim xalqdan [292-293] gizli heç nəyim yoxdur. Hər şeyi açıq deyirəm, sabah da, gələcəkdə də açıq deyəcəyəm. Ona görə də xalqın, əhalinin daha geniş məlumat alması üçün istəyirəm ki, güc nazirlikləri, nazirlər mənim bu çıxışıma əlavə olaraq və yaxud hadisələrin təfsilatını çatdırmaq üçün öz sözlərini desinlər.

## YEKUN SÖZÜ

Görürəm ki, çıxış etmək istəyənlər çoxdur. Ancaq bildirmək istəyirəm ki, mənim təxirəsalınmaz çoxlu başqa işim də var. Hesab edirəm ki, artıq baş vermiş olan hadisə, onun səbəbləri və gedən proseslər burada açıq-aşkar bildirildi. Odur ki, mən bir neçə kəlmə ilə bu müşavirəni yekunlaşdırmaq istəyirəm.

Qeyd etmək istəyirəm ki, biz hamımız baş vermiş hadisələrdən nəticə çıxarmalıyıq. Bu hadisələr Azərbaycana müəyyən zərbələr vursa da, bizim üçün yeni dərd, kədər gətirsə də, eyni zamanda, dövlətçiliyimizin möhkəm, qüdrətli olduğunu nümayiş etdirdi və bir daha göstərdi ki, ölkəmizdə, respublikamızda hər bir vətəndaş qanun-qaydaya, konstitusiyaya, insan hüquqlarının qorunmasına riayət etməlidir. Bir daha hamı bilməlidir ki, zor işlətməklə respublikamızda nəyəsə nail olmaq mümkün deyildir. Biz demokratiya yolu ilə gedirik, gedəcəyik, demokratik proseslərin inkişafı üçün hər cür şərait yaradılacaqdır. Lakın zorakılığa, güc işlədilməsinə yol verilməyəcəkdir. Bu, bizim qanunlarımıza, beynəlxalq hüquq normalarına ziddir və biz bunlara yol verməyəcəyik.

Şübhəsiz, heç kəs istəməzdi, mən də istəməzdim ki, öz şəxsi hikkələrini, şəxsi niyyətlərini zor gücünə həyata keçirməyə çalışan adamlar gəlib respublikamızı belə faciəli vəziyyətə salsın və özləri də həm fiziki, həm də mənəvi cəhətdən məhv olsunlar. Amma bu onların öz günahıdır və onlara havadarlıq edənlərin, onları qızışdıranların, onlardan alət kimi istifadə edənlərin günahıdır. Bunları deməklə mən bütün siyasi qüvvələrə, qruplara, partiyalara, təşkilatlara, ayrı-ayrı şəxslərə müraciət və xəbərdarlıq edirəm ki, bu yollardan əl çəksinlər.

Respublikamız ağır keçid dövrünü yaşayır. Dərin iqtisadi-sosial böhran içindəyik. Xalqımızın böyük bir qismi maddi-iqtisadi cəhətdən əzab-əziyyət çəkir. Respublikamızdakı bir milyondan artıq qaçqın bizim üçün böyük bir problemdir. Onların həyat tərzi, yaşayışı bizim üçün böyük bir problemdir. Onların [293-294] həyat tərzi, yaşayışı bizim diqqət mərkəzimizdədir. Ancaq eyni zamanda onlara lazımi qayğı göstərmək üçün bizə işləməyə imkan vermək gərəkdir. Qeyri-qanuni yollarla zənginləşmiş, qanunu pozan, mənəviyyatımıza zidd həyat tərzi keçirən ayrı-ayrı adamlar düşünməlidirlər ki, xalqın əksəriyyəti ağır vəziyyətdə yaşayır. Ağır vəziyyətdə yaşayanlar o kəslərdir ki, biz müharibə şəraitinə düşdüyümüz vaxtdan indiyədək respublikanın ağırlıqlarını öz üzərlərində aparırlar. Ona görə də bu hadisələr, bu faciə hər bir kəsə, hər bir siyasi quruma, hər bir ictimai təşkilata, hər bir siyasi partiyaya xəbərdarlıq kimi qəbul olunmalıdır.

Mən bir daha böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, xalqımız yenə ağır bir sınaqdan çıxdı. Həm də bu sınaqdan çıxmağa xalqımızın müdrikliyi, milli həmrəyliyi, inamı, dövlətçiliyə hörmət və ehtiramı kömək etdi. Mən Azərbaycanın bütün vətəndaşlarını bir daha həmrəyliyə dəvət edirəm. Azərbaycanın bütün siyasi qurumlarını, təşkilatlarını, partiyalarını bir daha həmrəyliyə dəvət edirəm. Azərbaycanın bu günü və gələcəyi naminə. Əminəm ki, biz bu böyük sınaqdan çıxaraq, respublikada vəziyyəti daha da sabitləşdirməyə və qarşımızda duran vəzifələri həyata keçirməyə nail olacağıq. Mən buna əminəm. Dövlətçiliyə, Azərbaycanın konstitusiyasına, Azərbaycanın hüquqi dövlət qurumuna xalq tərəfindən göstərilən bu dəstək, hörmət və ehtirama görə bütün Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Bu ağır sınaq dövründə mərdlik və cəsarət göstərənlərə, xalqımızı bu böyük bəladan xilas edənlərə qəlbimdəki ən gözəl hissləri çatdırıb təşəkkürümü, minnətdarlığımı bildirirəm. Milli ordumuza, onun əsgərlərinə, zabitlərinə, hüquq-mühafizə orqanlarında fəaliyyət göstərən sədaqətli əməkdaşlara və bu ağır günlərdə çox zəhmət, əziyyət çəkmiş dövlət orqanlarına, vətəndaşlarımıza təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Bu günlərdə respublikamıza böyük maraq göstərmiş, dövlətçiliyimizin qorunması sarıdan narahat olmuş və bizi dəstəkləmiş xarici ölkələrin rəhbərlərinə, onların diplomatik nümayəndəliklərinə, səfirliklərinə təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Bu faciəli gündə Azərbaycanın dövlətçiliyini qoruyaraq, cəsurluq göstərib şəhid olanların xatirəsini yad edirəm, onlara [294-295] Allahdan rəhmət diləyirəm, ailələrinə başsağlığı verirəm, onlara Tanrıdan səbir diləyirəm. Onlar əmin ola bilərlər ki, Azərbaycan dövləti, Azərbaycan Prezidenti qəhrəmanlıq göstərmiş şəhidlərimizin xatirəsini heç vaxt unutmayacaqlar. Şəhidlərin xatirəsi əbədiləşdiriləcək və ailələri daim dövlətin qayğısı ilə əhatə olunacaqlar.

Mən hesab edirəm ki, bu gün biz irəliyə daha inamla, nikbinliklə baxa bilərik. Qarşımızdakı planların həyata keçirilməsi üçün daha sərbəst fəaliyyət göstərə bilərik və əminəm ki, bizim gələcəyə doğru yolumuz uğurlu olacaqdır.

Hamınıza təşəkkür edirəm və bununla da bugünkü görüşü sona çatdırıram. Sağ olun.

## MÜŞAVİRƏDƏN SONRA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

**Sual: Gələcəkdə bu cür dövlət çevrilişi cəhdlərinin təkrar olunmaması üçün Siz Azərbaycan dövlətçiliyini, dövlətin təhlükəsizliyini möhkəmləndirmək üçün nə etmək fikrindəsiniz?**

**Cavab:** Bilirsiniz, çox tədbirlər görmək lazımdır, özü də bunlar birdəfəlik tədbirlər olmamalıdır. Dövlət orqanlarımızı, dövlətçiliyimizi möhkəmləndirmək üçün daim işləmək lazımdır. Baş verən hadisə bizdən ötrü fəlakət, faciə olsa da, zənnimcə, o, eyni zamanda sübut edir ki, biz dövlətçiliyimizi möhkəmləndirməyə qadirik.

**Sual: İkincisi, deyirlər ki, bu günlər Siz aparıcı xarici dövlətlərin rəhbərləri ilə dövlətlərarası səviyyədə gərgin danışıqlar aparmısınız. Bu barədə bir qədər danışın. Sizi necə dəstəkləmişlər?**

**Cavab:** Kiminlə görüşmüşəmsə, kiminlə danışmışamsa hamı bizi dəstəkləmişdir. Hamı narahat olduğunu bildirmişdir. Hamı bir şey istəyirdi: respublika bu çətin günləri, bu çətin dövrü aradan qaldırsın. Allaha şükür ki, biz bunları aradan qaldırdıq, baxmayaraq ki, zərər böyükdür, qurbanlar var. Nə edəsən? Özlərini bu vəziyyətə gətirib çıxaran adamlar özləri də zərər çəkdilər, respublikamıza da çox böyük zərər vurdular.

**Sual: Heydər Əliyeviç, bu hadisələrə Rusiya Federasiyası rəhbərliyinin münasibəti necə idi, Sizin onlarla əlaqəniz olmuşdurmu?**

**Cavab:** Bilirsiniz, konkret əlaqəm olmamışdır. Lakin bilirəm ki, onlar burada, Azərbaycanda gedən prosesləri çox [295-296] diqqətlə izləyirdilər. Əminəm ki, onlar Azərbaycanda vəziyyəti sabit görmək istəyirlər, sabitliyin pozulmasını istəmirlər.

**Sual: Müşavirədəki çıxışlarda belə bir fikir səsləndi ki, "İzvestiya" qəzeti Sizin əleyhinizə nə isə yazmışdır.**

**Cavab:** Bilmirəm. Əgər kimsə nə isə demişdirsə, mən buna cavabdeh deyiləm. Əgər hətta "İzvestiya" da mənim əleyhimə nə isə yazmışdırsa, əsla incimirəm: qəzet azaddır, mətbuat azaddır. Kim istəyir, qoy yazsın. Əlbəttə, yaxşı olar ki, obyektiv, ədalətli yazsınlar. Lakin həyatımın elə mərhələləri olmuşdur ki, mənim barəmdə qeyri-obyektiv çox şey yazmışlar. Mən buna adət etmişəm və fikir vermirəm.

**Sual: Sağ olun, Heydər Əliyeviç. Əgər bu adamın cinayətkar qruplaşmalarla, mafioz dairələrlə əlaqələri məlum idisə, nə üçün son anadək öz vəzifəsində qalmışdı?**

**Cavab:** Bilirsiniz, müşavirənin əvvəlində çıxışımda mən bu suala müəyyən dərəcədə cavab vermişəm. Ola bilsin, fikrimi tuta bilməmisiniz, yaxud sizə tərcümə etməmişlər. İş burasındadır ki, bu adamlar neçə müddətdir hansısa xüsusi vəziyyətdə idilər. Başa düşürsünüzmü, bəziləri onlara himayədarlıq göstərir, digərləri onlardan istifadə edir, bir başqaları özlərinin mafioz işlərini onlarla birlikdə görürdülər. Onlar özləri də, necə deyərlər, belə hesab edirdilər ki, hansısa xüsusi statusları var, hətta cinayət törədəndə də toxunulmazdırlar. Fikir verin, dünən daxili işlər naziri mənə dedi ki, onlar həmin Mahir Cavadovu həbs etmək üçün onun mənzilinə getmişdilər. Sən demə, bir binada onun bir neçə mənzili var, bütöv bir mərtəbəni tutmuşdur. Halbuki bu adam yalnız rayon prokuroru idi. Şəxsi mühafizə və ya nə isə buna bənzər iş üçün çoxlu adam saxlayır. Bu qədər vəsait haradandır? Deməli, əyri yolla əldə edilmişdir.

Təəssüf ki, bizim ölkəmizin və keçmişdə Sovet İttifaqına daxil olan digər ölkələrin həyatının son dövrü üçün belə hallar xarakterikdir. Bu, yeganə hadisə deyildir. Lakin onlar, mən Rövşən Cavadovu nəzərdə tuturam, o birisinin üzünü də görməmişəm, sizə deyim ki, tamamilə həyasızlaşmış adamlardır. Mən onların cinayətkar əməllərindən xəbərdar idim. Lakin respublikadakı daxili vəziyyəti nəzərə alaraq, sabitliyi qorumağa çalışıb ümummilli mənafelər naminə ona çox güzəştlər etdim. Lakin, görünür, belələri bunu başa düşmürlər. [296-297]

**Sual: Bu o deməkdirmi ki, respublikada onların təsiri var idi?**

**Cavab:** Yox, təsiri yox idi. Mən bu günlərdə XTPD-nin üzvləri ilə bir neçə dəfə görüşmüşəm. Onlar mənə açıq dedilər ki, orada hər şey iki prinsipə – pula və qorxuya əsaslanırdı. O, XTPD-nin üzvlərindən ibarət saxladığı qrupdakıların hər birinə çox böyük məbləğdə pul verirdi. Şübhəsiz ki, bu pul cinayət yolu ilə əldə edilmişdir. İkincisi, orada elə bir vəziyyət yaradılmışdı ki, onun dediklərini yerinə yetirməyəni ya öldürür, ya da olmazın işgəncə verirdilər. Bax bu günlərdə biz onları qanunlara, hakimiyyət orqanlarının tələblərinə tabe etməyə çalışdıqda, mənim müraciətimdən sonra bəziləri XTPD-dən gedirdilər. Lakin o, Rövşən Cavadov onların ardınca evlərinə adam göndərib geri qaytarırdı. Onları döyürdülər. Bəzilərini hətta yaralamışlar. Bilirsiniz, nə isə çox iyrənc bir vəziyyət yaranmışdı.

**Sual: Heydər Əliyeviç, burada güc nazirliklərinin rəhbərləri öz çıxışlarında bildirdilər ki, Rövşən Cavadov başqalarının əlində yalnız oyuncaq idi və onun fəaliyyəti xaricdən istiqamətləndirilirdi. Bununla bağlı onun keçmiş prezident Mütəllibovla və Surət Hüseynovla əlaqədə olduğu qeyd edildi.**

**Cavab:** Bilirsiniz, onu adicə oyuncaq adlandırmaq olmaz. Mən keçən dəfə, ayın 15-dəki çıxışımda da, bu gün də dedim ki, o müxtəlif qütblərdə olan cürbəcür adamların əlində əlverişli alətə çevrilmişdi. Deyək ki, Moskvada məskən salanlar – Mütəllibov, Surət Hüseynov, Qazıyev – bunlar bir qrupdur. Deyək ki, o, Xalq Cəbhəsinə lazım idi, eyni zamanda bəzi başqa partiyalara da lazım idi. Hərəyə özlərinin mənafeyi baxımından lazım idi. Hələ tam yetkinləşməmiş və zənnimcə, özünün əqli və bütün başqa qabiliyyətlərini həddindən artıq qiymətləndirən bu adam sadəcə olaraq pozulmuşdu, onu qudurtmuşdular, həddən artıq qudurtmuşdular. Bir sözlə, o belə hesab edirdi ki, guya hamının ona ehtiyacı var və onlardan dəstək almaq üçün istifadə edirdi. Beləliklə, öz məqsədinə nail olmağa çalışırdı. Onlar isə Rövşən Cavadovdan sabitliyi pozmaq və öz məqsədlərinə yetmək üçün istifadə edirdilər. Bir sözlə, burada hər şey qarşılıqlı əlaqədə idi.

**Sual: Sizcə o, nəyə ümid bəsləyirdi? Axı, zənnimcə, vəziyyət tamamilə qeyri-real idi.** [297-298]

**Cavab**: Bilirsiniz, o, nəyə isə ümid bəsləyirdi. Səhv etmirəmsə, iki gün əvvəl "Vesti" proqramı onun bəyanatını vermişdi. Özü də onu həddən artıq təmtəraqla təqdim etmişdi. Mən özüm bu verilişə baxmışam. O deyirdi ki, məqsədinə çatmışdır və indi qanuni hakimiyyəti süpürüb atacaq, burada öz hakimiyyətini quracaqdır. O deyəndə ki, "Əliyev elə bilir real qüvvə onun əlindədir, əslində isə real hərbi qüvvə mənim əlimdədir", o, həqiqətən .böyük silahlı quldur dəstəsi olan XTPD-ni nəzərdə tuturdu. İndi həmin dəstə Azərbaycan daxili işlər nazirinin əmri ilə ləğv edilmişdir. Bu adamlar cəbhədə vuruşsalar da, onlardan bir çoxu müxtəlif cinayətlər törətmişdir. Mənə danışmışlar ki, o, deyək ki, kiminsə cinayətindən xəbərdar idi. Lakin bunu ört-basdır edirdi və həmin adam buna görə ona minnətdar olurdu. Hərə bir şeyə görə ona borclu idi. Təxminən 400-500 nəfərlik, özü də döyüşkən, açığını deyim ki, yaxşı silahlanmış və üstəlik oktyabrın 2-də prokurorluğun binasını tutanda cəzalandırılmadıqlarını hiss edən adamlardan ibarət belə bir qüvvəyə malik olan Rövşən Cavadova elə gəlirdi ki, onun qarşısına heç kim çıxa bilməz. Ona görə də belə bəyanatlar verir, buna ümid bəsləyirdi. Gecə hakimiyyəti devirmək üçün son cəhdə əl atanda o belə hesab edirdi ki, buna nail olacaqdır. Lakin gördüyünüz kimi, yanılmışdı.

**Sual: Heydər Əliyeviç, axı buna nail olmaq üçün təkcə silahlı qüvvə azdır, sosial dayaq da olmalıdır.**

**Cavab:** Bilirsiniz, bunlar pozulmuş adamlardır, onlardan ötrü sosial dayaq məfhumu yoxdur. Axı onlar ümumxalq hiddətinin, özlərinə qarşı nifrətin təzahürünü televiziya vasitəsilə görürdülər. Bununla belə, o güman edirdi ki, silah gücünə hakimiyyəti ələ alacaq və ölkəni idarə edəcək.

**Sual: Heydər Əliyeviç, bəs Vətəndaş Birliyi deyilən bədnam qurumun Moskvadakı liderləri necə? Onların Azərbaycana qaytarılması üçün, başqa dövlətdə yaşayaraq Azərbaycan əleyhinə anti-dövlət fəaliyyəti göstərmələrinə son qoymaq üçün hansısa tədbirlər görmək niyyətindəsinizmi?**

**Cavab**: Azərbaycan prokuroru Rusiya Federasiyasının prokurorluğuna rəsmi qaydada müraciət etmişdir. Lakin belə bir bürokratik cavab almışdır ki, onların harada yaşadıqlarını müəyyənləşdirirlər. Halbuki yerləri məlumdur, – jurnalistlər onların yanına gedirlər, onlar müsahibə verirlər. Mən bu məsələ barədə prezident Boris Yeltsinə müraciət etdim. Mənə dedi ki, [298-299] o da göstəriş verəcəkdir. Lakin hələlik heç nə etməmişdir. Bəlkə də, onların orada qalması kiməsə sərfəlidir.

**Sual: Heydər Əliyeviç, zəhmət olmasa deyin, necə bilirsiniz, əllərdə hələ silah çoxdurmu və daha hansı profilaktik iş görmək lazımdır?**

**Cavab:** Təəssüf ki, əllərdə silah çoxdur. Bu, təkcə XTPD-yə məxsus silah deyil, başqa silahlar da var. Məsələn, Qazaxda XTPD-çilər polis şöbəsindən bir dəfəyə 267 avtomat götürərək müxtəlif adamlara, lap cavan uşaqlara paylamışlar. Bu gün dedilər ki, 160 və ya 170 nəfəri həbs olunmuşdur. Lakın orada həmin polis dəstəsindən olanlar cəmi 60 nəfər idi, qalanları isə bu işə cəlb olunmuş adamlardır. Amma hamısı həbs edilməmişdir. Deməli, əllərdə silah var. Cürbəcür yollarla əldə edilmiş başqa silahlar da var. Lakin biz bunların hamısını yığmaq üçün tədbirlər görürük və görəcəyik.

Sağ olun. [299]

## RESPUBLİKADA DÖVLƏT ÇEVRİLİŞİ CƏHDİ VƏ ONUN QARŞISININ ALINMASI İLƏ BAĞLI KEÇİRİLƏN MÜŞAVİRƏDƏ GİRİŞ VƏ YEKUN SÖZÜ

*Prezident sarayı*

*19 mart 1995-ci il*

Martın 17-də çağırılan müşavirədə biz ayın 16-dan 17-nə keçən gecə respublikamızda dövlət çevrilişi cəhdi və bu cəhdin qarşısının alınması haqqında ətraflı danışdıq, həmin müşavirədə məsələlər həm onun iştirakçıları üçün, həm də respublika ictimaiyyəti üçün aşkar oldu. Ayın 18-də bu dövlət çevrilişi cəhdinin qarşısını alan əsas qüvvələr – Müdafiə Nazirliyi və hərbi hissələr, hüquq-mühafizə orqanları – Daxili İşlər Nazirliyi, Baş Prokurorluq, Milli Təhlükəsizlik Nazirliyi, Xüsusi İdarə və başqa orqanlar lazımi tədbirlər görmüşlər. Artıq bu gün bir çox məsələlərə aydınlıq gəlir və dövlət çevrilişinin necə hazırlanması, həyata keçirilməsi haqqında da sənədlər əldə edilməkdədir.

Görülmüş tədbirlər barəsində məlumat vermək üçün, habelə bəzi tədbirlərə dair lazımi qərarlar qəbul etmək üçün mən bu müşavirəni labüd bilmişəm. İstərdim ki, birinci növbədə Müdafiə Nazirliyinin rəhbərləri, bu dövlət çevrilişi cəhdinin qarşısını alan komandirlərimiz qısa məlumat versinlər. Baş prokurorun vəzifəsini icra edən Eldar Həsənovun rəhbərliyi ilə istintaq işinə başlanmışdır. Onu da, daxili işlər nazirini də dinləmək olar. Başqa da kimin sözü olsa, onları da dinləyə bilərik.

Bu hadisə respublikamızın həyatında çox ağır, ciddi və faciəli hadisədir, həm də indi respublikanın həyatında böyük bir dönüş yaradan hadisədir. Ona görə də bu gün müəyyən məsələləri müzakirə etmək lazımdır.

### YEKUN SÖZÜ

Bugünkü müşavirədən nə kimi nəticə çıxarılmalıdır? Birincisi, heç kəs hesab etməsin ki, hər şey bitmişdir. Azərbaycanın dövlətçiliyinə qəsd edən qüvvələr təkcə XTPD-nin bazasında olan adamlar deyil. Onları istiqamətləndirən, onlara havadarlıq edən, onları maliyyələşdirən, cinayətkar yola sövq edənlər var. Bunlar həm Azərbaycanda, həm də onun xaricindədirlər. [300-301]

Ona görə də Vətəninə sadiq olan hər bir vətəndaş bilməlidir ki, bu gün Azərbaycanın həyatında çox gərgin vəziyyət yaranmışdır və bu gərginlik hələ aradan qalxmamışdır. Doğrudur, Azərbaycanda təxribat etmək istəyən, təcavüz etmək istəyən, onun dövlətçiliyini dağıtmaq istəyən qüvvələrin istinad etdiyi, istifadə etdiyi ən qorxulu hərbi hissə dağıdılmışdır. Ancaq yenə deyirəm, onları bu işə istiqamətləndirən qüvvələrin hamısı öz yerindədir. Şübhəsiz ki, indi onlar böyük zərbə almışlar, lakin öz çirkin niyyətlərindən əl çəkmirlər.

Ona görə də bütün vətəndaşlar həm sayıq olmalı, həm də cəmiyyətimiz, vətəndaşlarımız sıx birləşməlidir. Azərbaycanın dövlətçiliyini qorumaq üçün hər kəs öz xidmətini göstərməlidir. Səhv yola düşən adamları bir daha doğru yola dəvət edirəm. Rövşən Cavadovun yanına gedərək onu qızışdıranlar, onu maliyyələşdirənlər, faciəli vəziyyətə salanlar artıq gördülər ki, belə əməllərin nəticəsi yoxdur. Bu gün burada bizim generallar, zabitlər çıxış etdilər. Dövlətçiliyimizi qorumaq üçün Azərbaycanın silahlı qüvvələrinin, dövlətin gücü var, bu güc də nümayiş etdirildi.

Ancaq özlərini guya müxalifət hesab edərək cinayətlə məşğul olanlar müxalifət deyil. Müxalifət siyasi müxalifət olmalıdır, amma onlar cinayətkarlardır. Bir yerdə cinayət etdilər – bağışlandı. İkinci yerdə cinayət törətdilər – bağışlandı. Görün, indi nələrə əl atırlar! Əgər biz bu gün soruşsaq ki, "Kimdir tökülən qanların günahkarları?", deyə bilərik ki, onlardır və onlardır! Həmin cinayəti həyata keçirən adamlarla haqq-ədalət məhkəməsində birlikdə cavab verəcəklər. Mən buna əminəm. İnanıram ki, istintaq ədalətli gedəcək və onların hamısının iç üzü açılacaqdır.

Eyni zamanda XTPD-dən kənarda qalaraq könüllü surətdə gətirib silahları təhvil verənlərə, hökumətə təslim olanlara da təklif edirəm ki, xalqa xəyanət, cinayət hərəkətlərindən əl çəksinlər. Kim siyasi müxalifətdə dayanır-dayansın, ancaq cinayətlə məşğul olmasın. İnsanları silahlı dəstələrdə birləşib cinayət törətməyə sövq etməsinlər. Onlar – həmin o Tofiq bəylər, Fərman bəylər – bu cinayəti törədənlərdən də artıq cinayətkardırlar. Güman edirəm ki, onlar ən böyük düşmənlərdir, bu qanın ən böyük günahkarlarıdır. Bu fikri biz başqa yerdən götürmədik. Rövşən Cavadovun atası Bəxtiyar Cavadovun məktubundan götürdük. Bu sənəddir, elə-belə söz, şayiə deyildir. Çox sənədlər var. Hamısı açılacaqdır[301-302].

Amma eyni zamanda mən martın 17-də dediyim kimi, bu gün də deyirəm: milli həmrəyliyi, vətəndaş həmrəyliyini təmin etmək üçün hər kəs ayılsın, başa düşsün. Bəxtiyar Cavadovun oğluna yazdığı məktubda dediyi kimi, ziyanın yarısından qayıtmaq da böyük işdir. Tamamilə müdrik sözlərdir, ata sözləridir. Əsrlərdən-

əsrlərə keçən bir ifadədir. Mən indi o sözləri həmin bu işlərə qoşulmuş adamlara deyirəm: ziyanın yarısından qayıtmaq da qazancdır, qayıdın!

Eyni zamanda hüquq-mühafizə orqanlarına bir daha tapşırıram ki, ciddi tədbirlər görsünlər. Daxili İşlər Nazirliyinin polis orqanlarının işi zəifdir. Onlar öz vəzifələrini layiqincə yerinə yetirə bilmirlər, qaçan adamları tuta bilmirlər. Aralarında xəyanət edənlər, satqınlar da var. Güman edirəm ki, əgər bunlar tam xəyanətkar deyildirsə, sadəcə olaraq həm o tərəfə, həm də bu tərəfə baxanlardırsa, onlar da özləri üçün nəticə çıxarsınlar. Ancaq mən daxili işlər naziri Usubova tapşırıram ki, bütün bu deyilənlərdən nəticə çıxarsın. Nazirlikdəki xəyanətkar adamlar tezliklə ifşa edilib kənarlaşdırılmalıdır. Daxili İşlər Nazirliyinin tam əksəriyyəti sağlam qüvvə kimi bu tədbirlərin həyata keçirilməsinə səfərbər edilməlidir. Mən bu tapşırığı bütün hüquq-mühafizə orqanlarına verirəm. Ciddi axtarışlar aparılmalıdır. Baş prokuror vəzifəsini icra edən Eldar Həsənov məsələləri tamamilə düzgün qoyur. Bunları təcili olaraq və ciddi həll etmək lazımdır. Ona görə ki, kənarda qalan hər bir cinayətkar yeni cinayət törədə bilər. Nə qədər ki, belələrinin hamısı tutulmamışdır, cəmiyyətdən təcrid olunmamışdır, cinayət etmək təhlükəsi göz qabağındadır. Bu, bizim polis orqanlarının ümdə vəzifəsidir və onu həyata keçirmək lazımdır.

Nəhayət, bir daha bildirmək istəyirəm ki, Azərbaycan dövlətinin özünü qoruya bilməsi, Azərbaycan dövlətinin iradəsi nümayiş etdirildi. Biz haqq yolundayıq, ədalət yolundayıq. Biz müstəqil dövlətimizi qoruyuruq, onun inkişafını təmin edirik və bu yolda kim bizə mane olacaqsa, öz cəzasını alacaqdır. Buna xalqımız da, işlərimizə mane olan ünsürlər, qüvvələr də əmin ola bilərlər.

Xalqımıza bəyan edirəm ki, heç kimdə çaşqınlıq yaranmasın. Dövlət Azərbaycan xalqının hüquqlarının qorunması üçün əlindən gələni edəcəkdir. Bunu bəyan edir və xalqı buna əmin edirəm. [302]

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!
Əziz bacılar və qardaşlar!

Sizi, bütün Azərbaycan xalqını, respublikamızın bütün vətəndaşlarını qədim milli bayramımız – Novruz bayramı münasibətilə təbrik edirəm!

Novruz bayramı həmişə özü ilə yeni il, yeni arzular, yeni ümidlər gətirir. Mən inanıram ki, bu yeni ildə Azərbaycan torpağında sülh və əmin-amanlıq nəhayət, bərqərar olacaqdır.

Novruz bahar bayramı olmaqla yanaşı, həm də Azərbaycanın müstəqillik və dövlətçilik rəmzidir. Yalnız öz müstəqilliyini qazandıqdan, öz dövlətçiliyini bərpa etdikdən sonra bu bayram rəsmi status almış və dövlət bayramı kimi qeyd olunmağa başlamışdır.

Əsrlər boyu Novruz Azərbaycan xalqı üçün barış və saf niyyətlər bayramı olmuşdur. Bu gün də Azərbaycan xalqının milli barışa və saf niyyətli insanların həmrəyliyinə böyük ehtiyacı var. Bu Novruz günlərində mən yenə də bütün Azərbaycan vətəndaşlarını milli barışa, vətəndaş həmrəyliyinə dəvət edirəm.

Əziz həmvətənlər! Ulu Tanrıdan sizin hər birinizə xoşbəxtlik, səadət diləyir, həyatınızda, işinizdə uğurlar arzulayıram!

Bayramınız mübarək olsun!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*20 mart 1995-ci il* [303]

## ÜMUMDÜNYA SAĞLAMLIQ GÜNÜ MÜNASİBƏTİLƏ BAKIDAKI 5 SAYLI KLİNİKİ DOĞUM EVİNİN İŞÇİLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*7 aprel 1995-ci il*

Sağlam nəsil böyüdülməsi dövrümüzün ən başlıca sosial vəzifəsi kimi qarşımızda durur. Son illərin təcrübəsi göstərir ki, Ümumdünya Səhiyyə Təşkilatı və YUNİSEF tərəfindən bu vəzifənin irəli sürülməsi və onun həyata keçirilməsindən ötrü lazımi şərait yaradılması, bu işin zəruri səhiyyə xidmətləri, tibbi preparatlar və dərmanlarla görülməsi böyük hadisədir.

Bu gün Azərbaycanda da Ümumdünya Sağlamlıq gününü və poliomielit xəstəliyinə qarşı mübarizənin bir gününü qeyd edirik. Burada verilən məlumatlardan aydın oldu ki, bu sahədə YUNİSEF təşkilatı Azərbaycana yaxından kömək edir. Mən bu beynəlxalq təşkilatın xidmətlərini yüksək qiymətləndirirəm. Mən ötən ilin sentyabrında Nyu-York şəhərində olarkən YUNİSEF-in rəhbərliyi ilə görüşüb, Azərbaycanın bu təşkilatın proqramına qoşulması üçün zəruri sənədlərin hazırlanmasında iştirak etmişəm və həmin sənədləri respublikamızın adımdan imzalamışam.

YUNİSEF təşkilatının ölkəmizdə fəaliyyəti görünür və xalqımız buna görə öz minnətdarlığını bildirir. Böyük sosial bəlanın, yəni poliomielitin tamamilə ləğv olunması, o cümlədən Azərbaycanda bu xəstəliklə mübarizə və 2000-ci ilə qədər onun ləğv edilməsi sahəsində YUNİSEF-in fəaliyyətinə yüksək qiymət verərək bu təşkilata öz təşəkkürümü bildirirəm.

Fürsətdən istifadə edib Azərbaycanın səhiyyə işçilərinə müraciət edərək bir daha bildirmək istəyirəm ki, səhiyyə respublikamızın sosial sahəsinin ən mühüm hissəsidir. Azərbaycanda səhiyyəyə daim diqqət göstərilib və bu, indən sonra da belə olacaqdır. Səhiyyə işçilərinin borcu Azərbaycanın bu dar, böhran dövründə bütün qüvvələrini səfərbər edərək respublikamızın vətəndaşlarının sağlamlığı üçün mübarizəni daha da gücləndirməkdən ibarətdir.

Aydındır ki, indi səhiyyə sahəsində də problemlərimiz var[304-305]dır. Maddi-texniki bazanın bəzi sahələrdə zəifliyi, yaxud zəruri ləvazimatla, cihazlarla təmin edilə bilməməsi və digər obyektiv səbəblər səhiyyədə çalışanları heç də işdən soyutmamalı, ruhdan salmamalıdır. Əksinə, tarix sübut edir ki, səhiyyə işçiləri çətin vəziyyətlərdə, ağır şəraitdə daha da fədakar olur, əzmlə çalışır və fəaliyyət göstərirlər.

Əgər səhiyyənin tarixinə nəzər salsaq, bunu dünyada, o cümlədən də Azərbaycanda aydın görmək mümkündür. Ona görə də biz səhiyyənin inkişafı üçün bütün dövrlərdə öz imkanlarımızdan istifadə edərək zəruri şəraiti yaradacağıq. Çünki səhiyyə vətəndaşlarımızın, xalqımızın sağlamlığı və gələcəyidir. Ancaq çətinlikləri nəzərə alaraq səhiyyə işçiləri gərək daha fəal olsunlar və ağır vəziyyətdən çıxmaq üçün lazım olan bütün tədbirləri görsünlər. Mən bu gün belə bir müraciətlə üzümü səhiyyə işçilərinə tuturam və güman edirəm ki, onlar mənim bu müraciətimə səs verəcəklər.

Azərbaycanda səhiyyə işçilərinə daim hörmət və ehtiramla yanaşıblar, onlar dövlətin, ictimaiyyətin qayğısı altında olublar və bu, indən sonra da belə olacaqdır. Güman edirəm ki, səhiyyə işçiləri də öz şərəfli vəzifələrini həmişə vicdanla yerinə yetirəcəklər.

Sizi Ümumdünya Sağlamlıq günü münasibətilə bir daha təbrik edirəm, Azərbaycan vətəndaşlarına möhkəm sağlamlıq, səhiyyə işçilərinə isə öz işlərində uğurlar diləyirəm.

## 5 SAYLI KLİNİKİ DOĞUM EVİNƏ – UZUN MÜDDƏT BU TİBB OCAĞINA RƏHBƏRLİK ETMİŞ SOSİALİST ƏMƏYİ QƏHRƏMANI ŞAMAMA ƏLƏSGƏROVANIN ADININ VERİLMƏSİ TƏKLİFİ İLƏ BAĞLI ÇIXIŞ

Əgər kollektiv belə bir təklif irəli sürürsə, mən də buna etiraz etmirəm. Mən Şamama Ələsgərovanı yaxşı tanıyıram. Bildiyimə görə, Şamama Ələsgərova 31 il bu doğum evinə rəhbərlik etmiş, hətta İkinci dünya müharibəsi dövründə bura hərbi qospital olan vaxtdan burada çalışmışdır. Şamama Ələsgərova bütün səhiyyə işçilərinə örnək və nümunə idi. Onun gecəsi-gündüzü elə burada keçirdi. Doğum evi binasının abadlaşması, müasir avadanlıqla təchiz edilməsi, həkimlərin biliklərinin təkmilləşdirilməsi, elmi işlər aparılması və başqa sahələrdə o, çoxlu işlər görübdür. [305-306]

Bu doğum evi mənim üçün də çox əzizdir. Çünki hər iki övladım – qızım və oğlum burada anadan olublar. Bir şeyi deyə bilərəm ki, 1954-cü ildə qızım anadan olarkən mən bütün gecəni burada keçirdim. Lakin Şamama xanım mənə yuxarı qalxmağa icazə vermədi. Qızım olması münasibətilə məni təbrik etdi, amma mənə onu görməyə icazə vermədi. Uç gün ərzində uşağı görmək mümkün olmadı. Mən mərhum həyat yoldaşım Zərifə xanıma məktub yazırdım, Şamama xanım onu aparırdı və cavab gətirirdi.

Oğlum olanda isə Şamama xanım məni aldatdı. Mən axşam həyat yoldaşımı doğum evinə gətirəndə Şamama xanım dedi ki, uşaq hələ gec olacaqdır, sən burada qalma. Mən də ona inandım və evə getdim. Təxminən üç saatdan sonra zəng vurub məni təbrik edərək dedi ki, oğlun olubdur. Mən çox sevindim. Səhərisi günü yenə bura gəldim. Amma Şamama xanım yenə də məni yuxarı buraxmadı. Mən bunları ona görə deyirəm ki, o, çox nizam-intizam sevən adam idi. Heç kəsə güzəşt etmirdi. Siz bilirsiniz ki, Şamama xanım mənim qohumumdur. O mənim həyat yoldaşım Zərifə xanımın bibisi idi. Buna baxmayaraq o, nə qohumluğu, nə tanışlığı, nə dostluğu, nə vəzifəni, nə də başqa bir şeyi nəzərə alan adam deyildi. Şamama xanım deyirdi: qanun hamı üçün qanundur, kimsəyə güzəşt olmayacaqdır. Nə vaxt həyat yoldaşınız buradan çıxacaqsa, onda gəlib uşağı görərsiniz.

Şamama xanım haqqında xatirələr çoxdur. O vaxtlar o, ən yüksək ada – Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü, respublika Ali Sovetinin deputatı idi. O, çox fədakar insan idi. Onun şəxsi həyatı yox idi, bütün ömrü burada keçirdi. Çox gözəl insan, xeyirxah adam idi. Həyat yoldaşım bəzən mənə danışırdı ki, Şamama xanım üç gündür evə gəlmir, ağır xəstələri var. Mən Şamama xanıma sağlığında da böyük hörmətlə yanaşmışam, onun xatirəsi də mənim üçün həmişə əzizdir. Azərbaycanın səhiyyə tarixində Şamama xanımın görkəmli yeri vardır. [306]

## FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏNİN 50 İLLİYİNƏ HAZIRLIQLA ƏLAQƏDAR MÜHARİBƏ, ƏMƏK VƏ SİLAHLI QÜVVƏLƏRİN VETERANLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Prezident sarayı*

*7 aprel 1995-ci il*

Əziz veteranlar!

1941-1945-ci illər müharibəsinin veteranları, bizim hörmətli, dəyərli dostlarımız!

Müharibənin başa çatmasından 50 il keçir. Mayın 9-da 1941-1945-ci illər müharibəsində əldə edilmiş qələbənin 50-ci ildönümü qeyd olunacaqdır. Bu yubileyi bütün dünya, xüsusən qələbənin çalınmasında iştirak etmiş dövlətlər yüksək səviyyədə bayram edəcəklər. Biz də bunu qeyd etmək fikrindəyik. Bilirsiniz ki, bu məqsədlə lazımi hazırlıq işləri görülür.

Bu qələbənin 50 illiyinin layiqincə qeyd olunması üçün Azərbaycanda dövlət komissiyası yaradılıb. Dövlət komissiyasına baş nazirin vəzifəsini icra edən Fuad Quliyev başçılıq edir, yüksək vəzifəli bir sıra şəxslər, müharibə veteranları bu komissiyanın tərkibindədirlər. Qələbənin 50 illiyinin qeyd olunmasına, əlamətdar günə az vaxt – bir ay qalır. Mən arzu etdim ki, sizinlə görüşüb söhbət edək, məsləhətləşək. Şübhəsiz ki, dövlət komissiyası sizin fikirlərinizi öyrənir, onları nəzərə alır. Ancaq güman edirəm, komissiya veteranları bu cür geniş tərkibdə dəvət etməyib. Mən istədim ki, şəxsən görüşüb söhbət edək.

Əvvəla, mən sizi ürəkdən salamlayıram. Sizə və sizin şəxsinizdə 1941-1945-ci illərin Böyük Vətən müharibəsində, İkinci dünya müharibəsində iştirak edənlərin hamısına hörmət və ehtiramımı bildirirəm. Əminəm ki, Azərbaycan xalqı, ictimaiyyət bu 50 ildə sizi yüksək qiymətləndirdiyi kimi, sizin fəaliyyətinizi, əməyinizi, xidmətlərinizi, rəşadətinizi bu gün də qiymətləndirir və bundan sonra da qiymətləndirəcəkdir.

Müharibədə sizin xidmətləriniz, rəşadətiniz, qəhrəmanlığınız bu müharibənin, Azərbaycan xalqının tarixində əks olunub. Siz xoşbəxt adamlarsınız ki, 50 il bundan əvvəl qələbənin [307-308] əldə olunmasına və bu 50 ildə xalqınıza, ölkənizə, millətinizə xidmət etmisiniz, indi sizə qələbənin 50 illik yubileyində iştirak etmək nəsib olub.

Mən sizi qələbə münasibətilə təbrik edirəm. O qələbədən keçən 50 ilin hər biri xalqımız üçün böyük bir mərhələ olub. Xalqımız bu 50 il içərisində böyük bir tarix yaşayıb və nəhayət, milli azadlığına nail olub. Azərbaycan xalqı öz müstəqil dövlətini yaradıb. İndi Azərbaycan müstəqil dövlətdir və nə qədər çətin olsa da, xalqımız müstəqillik şəraitində özü öz taleyinin sahibidir.

Sizin xoşbəxtliyiniz bir də ondan ibarətdir ki, 50 il bundan əvvəl Azərbaycanın bugünkü gələcəyi üçün döyüşmüsünüz, vuruşmusunuz, qan tökmüsünüz, rəşadət göstərmisiniz. 50 ildən sonra bu gün Azərbaycanı müstəqil bir dövlət kimi görürsünüz. Bu, böyük xoşbəxtlikdir, səadətdir və bu da sizə nəsib olubdur.

Bax, bunların hamısı münasibətilə mən sizi ürəkdən təbrik edirəm, hamınıza cansağlığı, xoşbəxtlik arzu edirəm. Sizin simanızda 1941-1945-ci illər müharibəsində iştirak edənlərin, o qələbənin çalınmasında xidmət göstərənlərin hamısını ürəkdən təbrik edirəm, hörmət və ehtiramımı bildirirəm.

Mən istərdim ki, bu gün bizim sərbəst söhbətimiz olsun. Bir neçə məsələ ətrafında, şübhəsiz ki, əsasən qələbənin 50 illik yubileyinin hazırlanması, keçirilməsi ətrafında söhbət edək.

Bu sizin yubileyinizdir. Ona görə də bu yubileyin necə, hansı şəkildə keçirilməsi üçün sizin fikriniz əsasdır. Sizin nə arzunuz olsa, şübhəsiz ki, biz hamısını nəzərə almalıyıq və onların əsasında öz tədbirlərimizi qurmalıyıq.

Bir daha qeyd edirəm ki, dövlət komissiyası bu işlə məşğul olur. Ancaq mən bu məsələyə xüsusi münasibət göstərdiyimə, fikir verdiyimə görə istərdim ki, sizinlə şəxsən görüşəm.

Bu qələbə haqqında son illərdə cürbəcür söhbətlər gedir. Hətta xatirimdədir ki, deyəsən, ya 1991-ci, ya da 1992-ci ildə bu bayramı Azərbaycanda heç qeyd etməmişdilər. Hər halda dəqiq xatirimdədir ki, demişdilər belə bir qələbə yoxdur. Ancaq mən o vaxt Naxçıvanda yaşayırdım və biz bu qələbəni orada qeyd edirdik. Sovet İttifaqı Qəhrəmanı, hörmətli Ziya Bünyadov da gördü ki, burada qeyd etmirlər, Naxçıvana gəldi ki, bayramı heç olmasa orada keçirsin.

Yəni belə yaramaz fikirlər də meydana çıxmışdı

Fuad Quliyev indi mənim yanıma gəlib məsləhət almaq [308-309] istəyir ki, bu qələbənin adını necə yazmaq lazımdır. Çünki komissiyada cürbəcür fikirlər söylənilir. Rusiyada 1941-1945-ci illərin Böyük Vətən müharibəsində qələbə yazılır. Kimsə hesab edir ki, bu, Böyük Vətən müharibəsi olmayıb. Yaxşı, bəs nə müharibəsi olub? Ona görə də komissiya üzvləri çaşbaş qalıblar ki, bunu nə cür yazaq.

Bu, nədən əmələ gəlir? Son illərdə tariximizi təhrif etməyə cəhdlər çox olub. Ancaq bu da yeni bir şey deyil. Təəssüf ki, elə XX əsrin əvvəllərindən, daha dəqiq desək, ola bilər, 1920-ci ildən tariximizi təhrif edə-edə gəlmişik. Tariximizi müəyyən dövrdə bir qüvvələr təhrif edirdi, son illərdə, xüsusən 1991, 1992, 1993-cü illərdə isə başqa cür təhrif etməyə başladılar. Yenə də deyirəm, 1992-ci ildə eşitdik ki, bu qələbə bayramını Azərbaycanda heç yerdə qeyd etmirlər. Mən təəccübləndim. Naxçıvanda biz veteranlarla görüşdük, danışdıq, hazırlıq gördük və bayramı qeyd etdik.

Sonra mən araşdırmağa başladım ki, bəs bunu niyə qeyd etmirlər? Bildirdilər ki, o vaxt hakimiyyətdə olan adamlar deyirdilər ki, bu, Vətən müharibəsi, qələbə deyil. O vaxt mən də ordan-burdan eşidirdim, bəziləri deyirdilər ki, faşistlər gəlib Azərbaycanı tutsaydı, yaxşı olardı. Belə sözlər də danışanlar var idi. Yəni belə ideoloqlar meydana çıxmışdılar və tarixi təhrif edirdilər. Axı bundan da böyük cinayət ola bilməz.

Özü də biz gərək tarixi təcrübədən dərs götürək. Əgər 1920-ci ildən sonra – kommunist, sosialist rejimi vaxtında keçmiş tariximiz təhrif olunmuşdursa, marksizm-leninizm ideologiyasına uyğunlaşdırılmışdısa, uyğun gəlməyənlər tarix kitablarımızdan çıxarılmışdırsa və biz indi bunu etiraf ediriksə, demək, bundan sonra təhrifə yol vermək olmaz.

Tariximiz o vaxt bir cür təhrif olunub, indi isə meydana yeni ideoloqlar çıxıb. Hansılar ki, dünyanı görməyiblər, əgər bizim veteranların sözü ilə desək, barıt qoxusu iyləməmiş, oddan keçməmiş adamlar gəlib başlayıblar ki, yox, müharibə də olmayıb, müharibədə qələbə də olmayıb, heç bu, Vətən müharibəsi də deyildir və sairə.

Fuad Quliyev gəlib mənə deyəndə, doğrusu, təəccübləndim. Axı bundan niyə narahat olursunuz? Bu qələbəni indi bütün dünya qeyd edir. Onu da bilməlisiniz ki, bu qələbəni Rusiya, MDB-yə daxil olan dövlətlərin hamısı qeyd edir. Biz dekabrın 10-da Almatıda MDB ölkələri dövlət başçılarının görüşündə qərar qəbul etdik ki, qələbənin 50 illiyi geniş qeyd olunsun. [309-310] Bu, bizim birgə qərarımızdır. Doğrudur, orada söhbət düşdü ki, Rusiya MDB-nin bütün ölkələrinin dövlət başçılarının mayın 9-da toplaşmasını istəyir. Bir az mübahisə getdi, sonra razılıq əldə olundu. Axı dövlət başçıları öz ölkələrində də bu bayramda iştirak etməlidirlər. Söhbət ondan gedirdi ki, bəs bu necə olsun?

Qələbənin 50 illiyi, məsələn, İngiltərədə də qeyd olunur. Bizim ölkəmizə, şəxsən mənə rəsmi dəvət gəlibdir. Bu bayram mayın 6-7-də Böyük Britaniyada, Londonda, mayın 8-də Fransada, habelə Amerika Birləşmiş Ştatlarında qeyd olunacaqdır. Avropa Şurasına daxil olan 52 dövlətin başçılarının hamısı İngiltərəyə, Fransaya dəvət edilib. O cümlədən Azərbaycan dövlətinin başçısı da dəvət olunub.

Televiziyadan, mətbuatdan aldığınız məlumatlardan sizə məlumdur ki, mayın 9-da keçmiş koalisiya dövlətləri başçılarının hamısı Moskvaya gedəcək, Qələbə günü orada qeyd ediləcəkdir. Qələbənin bir neçə böyük mərkəzlərdə qeyd olunması barədə Almatıda söhbət getdi. Bəs nə cür olsun ki, hərə öz ölkəsində də bunu qeyd edə bilsin? Bu, başqa məsələ. Hər halda bunu müzakirə və həll etmək olar. Ancaq qələbəni şübhə altına almaq, yaxud adının dəyişdirilməsinə cəhd etmək tamamilə yaramaz bir şeydir.

Ona görə də mən istədim ki, bu barədə öz fikirlərimi sizə deyəm və sizin də fikirlərinizi bilək, komissiya da bu barədə öz prinsipial mövqeyini tutsun, öz işini aparsın.

Şübhəsiz ki, qələbənin 50 illik yubileyi münasibətilə veteranlara müəyyən güzəştlər, mükafatlar, yardımlar da olmalıdır. Komissiya bu barədə öz təkliflərini hazırlayıbdır. Yəqin ki, bunları da indi müəyyən qədər nəzərdən keçirmək olar. Sonra komissiya bu təklifləri tamamilə hazırlayıb təqdim edər və bütün bunlar mənim fərmanımda öz əksini tapa bilər.

Kimin ürəyində başqa nə söz varsa, deyə bilər. Şübhəsiz ki, sizin də, bizim də o qədər vaxtımız yoxdur. Ona görə də çox vaxt sərf etmədən bu gün ancaq yığcam fikir mübadiləsi aparıb, söhbət edib qarşıdakı bir ay müddətində görüləcək hazırlıq işlərini gücləndirmək məqsədi ilə mən bu gün sizi buraya dəvət etmişəm.

Müharibənin bitməsindən 50 il keçib. Azərbaycan xalqı bu müharibədə iştirak edib, qurbanlar verib. 1941-1945-ci illər müharibəsində həlak olmuş soydaşlarımızın, vətəndaşlarımızın xatirəsini bir dəqiqəlik sükutla yad etməyinizi rica edirəm.

Allah bütün həlak olanlara rəhmət eləsin! [310]

## YEKUN SÖZÜ

Bilirəm ki, burada söz demək istəyən çoxdur. Hamının ürəyində səmimi sözlər var, ancaq əsas təkliflər olundu. Mən hiss edirəm ki, bu təkliflər əsasında işləmək olar. Gələcəkdə öz işlərimiz olacaq, yenə də görüşəcək, danışacağıq. Bu gün kim danışa bilmədisə, gələcək görüşlərimizdə danışa bilər. Etiraz etmirsinizsə, bu görüşü sona çatdıraq.

Mən bir daha məmnuniyyətlə qeyd etmək istəyirəm ki, bu görüş bizə nəsib oldu, biz Azərbaycan xalqının çox dəyərli insanları ilə görüşdük. Şəxsən mənim üçün bu, böyük bir hadisədir. Burada hamımızın eyni bir fikri hasil oldu ki, 1941-45-ci illər müharibəsi Azərbaycan üçün də Böyük Vətən müharibəsidir. Bu, İkinci dünya müharibəsidir. Dünya tarixində, bəşəriyyət tarixində bu, ən dəhşətli, ən ağır, ən genişmiqyaslı müharibə olubdur. Burada. nə qədər insanlar tələf olubdur. O vaxt biz hamımız Sovet İttifaqına daxil idik. Son tədqiqatlar

göstərir ki, Sovet İttifaqının ərazisindən 27 milyon adam bu müharibədə həlak olubdur. Şübhəsiz ki, Avropa ölkələrindən də, digər ölkələrdən də çox adamlar həlak olublar.

Bu müharibə Hitler faşizminə qarşı müharibə idi. Bu qələbə Hitler faşizmi üzərində qələbə idi. Bu, böyük qələbədir. Tarixdən bunu heç kəs silə bilməz və silməyə haqqı da yoxdur. Bu gün söhbətimizə başlayarkən mən dedim ki, tarixi təhrif edənlər keçmiş tariximizdən özlərinə dərs götürməlidirlər. Tarixi heç kəs təhrif etməməlidir. Heç kəs tarixi dəyişdirməyə çalışmamalıdır. Tarix necə varsa, elə də var. Həyatda nə olubsa, olubdur. Tarixin o parlaq səhifələrini bu gün kimsə utana-utana, çəkinə-çəkinə xatırlamamalıdır, əksinə, biz bu bayramı qürur hissi ilə qeyd etməliyik. Elə olmamalıdır ki, qələbə, müharibə haqqında söhbət gedəndə kimsə hansı sözü necə demək haqqında fikirləşsin. Dürrə xanım burada çıxışında söylədi: ona deyiblər ki, bu medallarını ayaqlarının altına sal, tapdala. Bilirsiniz, belə insanlar sadəcə olaraq ya həyatı başa düşməyən adamlardır, ya da xalqına, millətinə xəyanət edənlərdir. Nə cür ola bilər ki, insanların canı, qanı bahasına aldığı mükafatlar, ordenlər bu gün gözdən düşsün?

Bilirsiniz, hər dövlətin öz medalı, öz ordeni var. Yenə də tarixə qayıdaq. 1917-ci il oktyabr inqilabından, Azərbaycanda da sovet hakimiyyəti qurulduqdan sonra çar dövlətinin bütün [311-312] ordenləri, medalları, mükafatları qadağan, yasaq olundu. Bunlar kimdə var idisə, yazıq qorxusundan gizlədirdi, aşkara çıxarmırdı. Qohumu-əqrəbası olanlar onun adını çəkməyə də qorxurdular. Məgər bu düz idimi? Xeyr. Bu da ədalətsizlik idi. Bəs sonra nə oldu? Birinci dünya müharibəsində rus ordusunda, çar Rusiyası ordusunda qəhrəmanlıq göstərən adamlar sonra həmin bu Böyük Vətən müharibəsi vaxtında, İkinci dünya müharibəsində də qəhrəmanlıq göstərdilər və onların çar Rusiyası ordusunda aldığı orden və medallar böyük hörmətlə qaldı.

Doğrudur, bütün bu təhriflərin çoxu oktyabr inqilabından, sovet hakimiyyəti qurulandan, bolşevizmin qələbəsindən sonra oldu. Amma eyni zamanda bilirsiniz ki, Kremldə böyük-böyük salonlar var. Onlardan biri də Georgiyevsk salonudur. Məsələn, Georgiyevsk salonunda olanlar bilirlər, – hansı hərbi hissənin hansı döyüşdə iştirak etdiyi, hansı ordeni, medalı, nişanı aldığı orada həkk olunub və heç kəs də bunu pozmur.

Tarix tarixdir və 1941-1945-ci illər Azərbaycan xalqının tarixində də çox görkəmli yer tutur, xalqımızın tarixinin parlaq səhifələridir. Biz bunları böyük hörmət və ehtiramla xatırlamalıyıq. Bu dövrün insanlarını – həm həmin dövrdə döyüşən, həlak olanları, cəbhədə yaralananları, həm də rəşadət göstərib bu gün yaşayanları həmişə xatırlamalı, onlara böyük hörmət və ehtiramımızı bildirməliyik.

Burada tamamilə doğru deyildi ki, 1941-1945-ci illər müharibəsində Azərbaycan xalqının iştirakı təkcə cəbhədə döyüşməkdən ibarət olmayıb. Bəli, Azərbaycanın nefti həmin müharibədə qələbənin əldə olunmasının əsasını təşkil edən amillərdəndir. Təsadüfi deyildir ki, Hitler və Hitler ordusu gəlib Bakını işğal etməyə, zəbt etməyə can atırdı. Hitler ordusu Bakını işğal edə bilsəydi, vəziyyət bəlkə də bambaşqa ola bilərdi. Tamamilə doğru deyildi ki, o vaxt Sovet İttifaqında hasil olunan neftin 75 faizini Azərbaycan verirdi. Bizim Azərbaycan neftçiləri bu nefti nə qədər əzab-əziyyətlə çıxarırdılar.

Bilirsiniz ki, Qafqaza yol bağlanmışdı, Hitler ordusu gəlib Mozdokda durmuşdu. Burada dəmir yolu yox idi. Ancaq Xəzər dənizi, Orta Asiya vasitəsilə o dövrdə – o dövrü indiki dövrlə müqayisə etmək olmaz, çünki çətinliklər daha da çox idi – bütün çətinliklərin öhdəsindən gələrək neft də çıxarılırdı, cəbhəyə də göndərilirdi. Təkcə neft deyildi. O vaxt Azərbay[312-313]canın maşınqayırma zavodlarında silah istehsal olunurdu. Bu, Azərbaycan xalqının tarixidir.

Azərbaycanın tarixində ən çox neft 1941-1945-ci illərdə çıxarılmışdır. Burada bizim insanlar – fəhlələr, mühəndislər, texniklər çalışıblar, bunları unutmaq olarmı? Həzi Aslanovu, Azərbaycan xalqının o cür qəhrəmanlıq göstərmiş nümayəndəsini biz unuda bilərikmi? Bu gün deyə bilərikmi ki, Həzi Aslanov canını elə-belə veribdir? Yox, o, canını Vətən yolunda veribdir.

Siz Stalinqradda, Mamay təpəsindəki muzeydə yəqin ki, olmusunuz. Məsələn, mən həmin muzeyi ziyarət edərkən Həzi Aslanovun familiyasını başqa Sovet İttifaqı qəhrəmanları ilə bir yerdə görəndə çox böyük fəxr etdim ki, burada bizim azərbaycanlının da adı var. Yaxud Mehdi Hüseynzadəni götürün: o vaxtlar döyüşdü, döyüşdü, əsir düşdü, əsirlikdən qaçıb Yuqoslaviyada, İtaliyada böyük igidliklər göstərdi və qəhrəmancasına da həlak oldu. Biz onu unuda bilərikmi? Amma təkcə bunlar deyil. Vaxt alıb hamısının adını çəkmək istəmirəm. Güman edirəm ki, bu bayram ərəfəsində, yubiley günlərində Böyük Vətən müharibəsinin qəhrəmanları mütləq təbliğ olunmalı, yada salınmalıdır. Onlar haqqında televiziyada, radioda verilişlər təşkil edilməli, qəzetlərdə yazılar verilməlidir. Yenə də deyirəm, bunlar tariximizin ən parlaq, ən gözəl səhifələridir. Biz onları heç vaxt unuda bilmərik.

Yaxud neftçilər, ümumiyyətlə, arxa cəbhədə çalışanlar unudulmamalıdır. Məsələn, yadınızdadır ki, o vaxtlar böyük alimlərimiz Yusif Məmmədəliyev, Əli Quliyev yüksək keyfiyyətli benzin ixtira etdikləri üçün Dövlət mükafatı almışdılar. Biz bunu unuda bilərikmi? Unuda bilmərik. Mənim xatirimdədir ki, böyük neftçi, çox təcrübəli insan Süleyman Vəzirov, Rüstəm İsmayılov müharibə vaxtı məhz neft hasilatı və cəbhəni neftlə təmin etmək sahəsindəki xidmətlərinə görə Sosialist Əməyi Qəhrəmanı adı almışdılar.

Bilmirəm, Əliş Ləmbəranski buradadır, ya yox? Mən onu buraya dəvət etmişdim (**yerdən səs**: xəstədir). Xahiş edirəm, mənim salamımı ona çatdırasınız. Məsələn, Əliş Ləmbəranski o vaxtlar cəbhədə olmuşdu. Bakıya

qayıtdıqdan sonra neft sənayesində çox böyük fəaliyyət göstərmişdir. İndi də yaşayır. Çoxlarının adlarını çəkmək olar.

Bəs necə demək, olar "bu qələbə bizim qələbə deyil" ki, böyük bəstəkarımız Üzeyir Hacıbəyov o vaxt öz şəxsi məvacibi, [313-314] pulu ilə bir təyyarə alıb cəbhəyə göndərmişdi? Məgər Üzeyir Hacıbəyov bilmirdi ki, bunu nədən ötrü edir? Azərbaycandan müharibəyə tank alıb göndərənlər var idi. Respublikanın qabaqcıl əmək adamları, kəndlilər öz pulları ilə tank alırdılar, təyyarə alınmasına pul verirdilər, nə qədər vəsait toplanırdı. Bunların hamısını unutmaqmı olar? Bunlar bizim qardaşlarımız, atalarımız, babalarımız, vətəndaşlarımızdır, azərbaycanlılardır.

Burada dedilər ki, Böyük Vətən müharibəsində 400, 500, 600 min nəfər azərbaycanlı həlak olub. Onların xatirəsini unutmaqmı olar? Yenə də deyirəm, o vaxtlar arxa cəbhədə, Azərbaycanda ağır şəraitdə neft çıxarılırdı, sənaye işləyirdi, kənd təsərrüfatı məhsulları istehsal olunurdu. Şairlərimiz, bəstəkarlarımız Vətən müharibəsinin qəhrəmanlarına həsr olunan, xalqı döyüşə çağıran, xalqda vətənpərvərlik ruhu yaradan nə qədər gözəl mahnılar yazdılar, əsərlər yaratdılar. Bunlar hamısı bizim tariximizdir.

İndi mövcud olmuş, küçədən gəlib hakimiyyəti müvəqqəti olaraq əlinə keçirmiş iki-üç nəfər gəlib onu da, bunu da qaralayır.

Azərbaycanın tarixində heç nə qalmır. Özü də Azərbaycan xalqı üçün bir qəpiklik iş görməyib. Əgər bir qəpiklik iş görmüş olsaydı, deyərdim ki, bəli, o da bu işi görüb, ona görə də onun nəyisə qaralamağa haqqı var. Hakimiyyətdə müvəqqəti olan bu adamlar tariximizə zərbə vurmaq istədilər, öz hərəkətləri ilə Azərbaycan xalqı qarşısında böyük cinayətlər etdilər. Eyni zamanda gedib o dövrdə faşizmin yuvası olan Berlində Hitlerlə, Göbbelslə görüşüb söhbət edən adamları təbliğ etməyə başladılar. Axı bu yaramaz! Tarix tarixdir. O da olub, bu da olub. Ancaq azərbaycanlı kimi biz burada özümüzü qorumuşuq, öz Vətənimizi qorumuşuq. Bizim o vaxt da bir vətənimiz var idi. Bəli, 1922-ci ildə Azərbaycan başqa respublikalarla birlikdə Sovetlər İttifaqına daxil olmuşdu. O vaxt Azərbaycana rəhbərlik edən adamlar bunu münasib bildilər, bu da oldu və o dövrdə Azərbaycan böyük nailiyyətlər əldə etdi. Bunu nə unutmaq olar, nə də qaralamaq, pozmaq olar.

Ona görə də güman edirəm ki, bu cür hallar tamamilə aradan qaldırılacaqdır. Cəmiyyətimizdə belə hallara yol vermək olmaz. Heç də mübahisə aparmaq lazım deyildir ki, medalın üzərində nə yazılsın. Necə var, elə də yazılsın: 1941-1945-ci il[314-315]lərin Böyük Vətən müharibəsində qələbə. Ancaq olanı geriyə qaytarmaq mümkün deyil. O vaxt nə cür olub, olub. Adı da nə cür olub, onu dəyişdirmək mümkün deyil. Orada kim necə vuruşub, onu da dəyişdirmək mümkün deyil. Kimin hansı ordeni, medalı, nişanı var, onu böyük iftixar hissi ilə daşıya bilər. Heç kəs nə utansın, nə çəkinsin. O qədər böyük bir ölkənin, savaşın, vuruşun, böyük bir müharibənin qəhrəmanı olub fərqlənəsən, orden, medal alasan, 50 ildən sonra fikirləşəsən ki, mən bunu bu gün saxlamalıyam və ya saxlamamalıyam? Əksinə, onları siz də daşımalısınız, sizdən sonra nəvələriniz də böyük yadigar kimi saxlamalı və nəsillərdən-nəsillərə çatdırmalıdırlar.

Bizim tariximiz elə belə olub. Götürək çar Rusiyası ordusunu, orada bizim nə qədər generallarımız olmuşdur. Sovet İttifaqı vaxtında bunların hamısının üstündən qələm çəkildi. Sonradan-sonraya, o da Böyük Vətən müharibəsindən sonra iki general – Mehmandarov və Şıxlınski yada düşdü. O vaxta qədər onların adı heç yerdə çəkilmirdi. Onlar xalq düşməni kimi idilər. Böyük Vətən müharibəsindən, 1941-1945-ci illər müharibəsindən sonra ab-hava bir az dəyişildi, onlar yada düşdü və onların haqqında yazmağa başladılar. Amma bizim generallarımız tək bunlar idimi? Xeyr. Hüseyn xan Naxçıvanski, Kəlbəli xan Naxçıvanski, Talışınskı – çar Rusiyasında bizim nə qədər generallarımız olub. Şıxlinski Port-Arturda olmuşdurmu? İndi gəlin, Əliağa Şıxlinskini günahlandıraq ki, Port-Artur müharibəsində iştirak edib, çar Rusiyasını müdafiə edib. Biz onu günahlandırmalıyıqmı? Rus ordusunda Əliağa Şıxlinskiyə "Artilleriya allahı" deyirdilər. O bizim fikrimizdir. Eləcə də 1941-1945-ci illər müharibəsində iştirak edən qəhrəmanlar – generallar da, zabitlər, adi döyüşçülər də – burada kimsə mənə Gəncədən Məhərrəm Ocaqverdiyevi təqdim etmək istədi, Məhərrəm Ocaqverdiyev də, – hamısı fəxrimizdir.

Biz Qələbə bayramına böyük iftixar hissi ilə hazırlaşmalıyıq, bu bayramı layiqincə keçirməliyik. Bu bayramın keçirilməsi, qələbənin təbliğ olunması Azərbaycan xalqının qəhrəmanlıq nümunələrinin gənc nəslə çatdırılmasına, müstəqil Azərbaycan Respublikasının Milli Ordusunun yaranmasına, inkişaf etməsinə çox böyük fayda verəcəkdir. Bəli, gənclərimiz bilməlidirlər ki, vaxtilə çar Rusiyası ordusunda da bizim çox görkəmli zabitlərimiz, generallarımız, çox böyük şücaət, qəhrəmanlıq göstərən insanlarımız, azərbaycanlılar var idi. [315-316]

Gənclər bilməlidirlər ki, 1941-1945-ci illər müharibəsində, dünya, bəşəriyyət tarixində ən dəhşətli müharibədə Azərbaycan xalqının qəhrəmanlıq göstərən generalları, zabitləri, sıraviləri olub.

Onlar öz qəhrəmanlıqları ilə xalqımızın hörmətini qaldırıblar, Azərbaycan xalqını tanıdıblar. Bunların hamısı gənc nəslimiz üçün örnəkdir və örnək olmalıdır. İndi yaratdığımız, qurduğumuz Milli Ordunun yaranmasında, qurulmasında bu təcrübədən istifadə edilməlidir.

Bunlar hamısı bir-birinə silsilə ilə bağlı tariximizdir və biz bu tariximizə həmişə böyük hörmətlə yanaşmalı, onu qiymətləndirməliyik.

Qələbənin 50 illiyi ilə əlaqədar mənim fərmanımla yaradılan, Fuad Quliyevin başçılıq etdiyi komissiya müharibə, əmək veteranlarına əlavə güzəştlər, qayğılar, maddi yardımlar göstərilməsi və başqa tədbirlər üzərində işləyir. Fuad Quliyev burada qısa məlumat verdi. Güman edirəm ki, yaxın günlərdə onlar sizinlə birlikdə, – bu komissiyanın tərkibində veteranlar da var, – bu təklifləri tamamlayacaq, təqdim edəcəklər və mən bu barədə xüsusi fərman verəcəyəm. Mən fikirləşirəm ki, müharibə, əmək veteranlarına indi maksimum imkanlarımız daxilində – siz bunu da bilməlisiniz – maddi yardım edək, onların həyat tərzini, yaşayışını yüngülləşdirmək, yaxşılaşdırmaq üçün lazımi tədbirlər görək. Bunu mütləq edəcəyik.

Burada muzey haqqında söhbət qaldırıldı. Bilirsiniz, Səlimov tamamilə doğru deyir, o muzeyin necə yaranmasının indi böyük əhəmiyyəti yoxdur. Həmin muzey 1974-cü ildə yarandı, adı da 18-ci ordunun Döyüş Şöhrəti muzeyi oldu. Bu muzey Fəvvarələr meydanının yanındakı döngədə xırda bir otaqda yarandı. Amma ilbəil muzeydən xahiş etdilər, biz də göstəriş verdik, əlavə yer ayrıldı, muzey genişləndi, əlavə ekspozisiyalar toplandı. Böyük Vətən müharibəsində Azərbaycan xalqının iştirakı burada çox yaxşı əks olunurdu.

Bilirsiniz, o muzeyi qurmaq üçün bir çox il lazım oldu. Amma onu dağıtmaq üçün böyük qəhrəmanlıq lazım deyildi. Bir-iki günün, bir ayın içərisində o muzeyi vurub dağıtdılar.

Mən hesab edirəm ki, muzey yaranmalıdır. Onun adı necə olacaq – bunu özünüz müəyyən edərsiniz. Hər halda 1941-45-ci illər müharibəsində Azərbaycan xalqının həm ön cəbhədə, həm də arxa cəbhə tarixinə həsr olunmuş muzey yaranmalıdır, eksponatlar toplanmalıdır. Mənə elə gəlir ki, vete[316-317]ranların da bir çoxu bu işdə həvəskardırlar, həvəskar da olacaqlar və bu muzeyin işində yaxından iştirak edəcəklər.

Həmin muzeyin yeri münasib olsa – elə orada olsun, yaxud başqa təklif də olsa komissiya bunu müzakirə etsin. Biz lazımi tədbir görərik. Yadımdadır ki, vaxtilə Səlimov böyük həvəslə bu muzeyin yaradılması ilə məşğul olurdu. Hələ indi də deyəsən həvəsi var. Bizim aramızda Səlimov kimilər çoxdur, bu muzeyi yaradarlar, düzəldərlər.

Moskvada qələbənin bayram edilməsinə respublikamızdan 30 nəfərlik nümayəndə heyəti dəvət edilib, onlar müəyyən olunub. Londona mən və beş nəfər veteran dəvət olunmuşuq. Həmin beş nəfəri biz müəyyən edəcəyik. Oraya Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadov, Məlik Məhərrəmov gedəcəklər, gərək Məzahir Abbasov da getsin. Üç nəfərin adını dedim, qalanlarını da deyəcəyəm.

Digər nümayəndə heyətlərinin tərkibi də yaxın günlərdə müəyyən olunar. Respublikada da bu tədbirləri keçirərik. Çalışarıq ki, başqa ölkələrdə də Azərbaycanı yaxşı təmsil edək.

İndi burada qələbə münasibətilə respublikamızda keçiriləcək tədbirlər haqqında da, təntənəli yığıncaq haqqında da söhbət oldu. Bəziləri dedilər olsun, bəziləri dedilər olmasın. Moskvada qələbənin 50 illiyi münasibətilə parad olacaq, bizdə olmayacaq. Şübhəsiz ki, buna ehtiyac da yoxdur. Amma nəsə bir tədbir lazımdır. Xatirinizdədir ki, bizdə adətən mayın 9-da Həzi Aslanovun qəbrini, Mehdi Hüseynzadənin abidəsini, bu müharibədə həlak olanların qəbirlərini ziyarət edirdik. Görünür, bizim proqramda bunlar da olmalıdır.

Ancaq Moskvadakı kimi hərbi parad keçirməsək də, respublikamızda nəsə bir mərkəzi tədbir olmalıdır. Əgər veteranların hamısı belə bir arzudadırlarsa, onda respublikada təntənəli yığıncaq keçirmək mümkündür. Bu, çətin bir şey deyil. Biz veteranlar üçün belə bir tədbirin keçirilməsindən çəkinməməliyik.

**Yerdən səslər: Veteranlar sizinlə görüşmək üçün belə bir tədbirin keçirilməsini istəyirlər.**

**Heydər Əliyev**: Söhbət təkcə mənimlə görüşməkdən getmir, yəqin ki, həm də bir-birləri ilə görüşmək, gəlib orada qürur hissi ilə oturmaq istəyirlər. Bunu da etmək olar, fikirləşmək lazımdır. Hər halda bu tədbirləri ümumiləşdirib son qərar qəbul edəcəyik. [317-318]

**Yerdən səs: Hörmətli prezident, 9 May iş günü hesab olunacaqmı?**

**Heydər Əliyev**: Yaxşı, bu məsələyə də baxarıq. Dövlət komissiyasının sədri Fuad Quliyev bu təklifi qeyd etsin, ona baxarıq.

**Yerdən səs: Hörmətli prezident, bizim belə bir təklifimiz də var ki, 1941-45-ci illərdə arxa cəbhədə çalışanların da statusu qaldırılsın və onlara müharibə iştirakçısı statusu verilsin.**

**Heydər Əliyev**: Yaxşı, qoy komissiya bu məsələyə də baxsın.

**Yerdən səs: Hörmətli prezident, müharibə dövrünün orden və medallarının satın alınması barədə qəzetlərdə tez-tez elanlar verilir. Məncə, bu, düzgün məsələ deyildir.**

**Heydər Əliyev**: Burada heç bir qanunsuzluq yoxdur. Kolleksiyaçılar və bu işlə məşğul olan təşkilatlar belə elanlar verirlər. Kim istəyir satsın, kim istəyir satmasın, bu işə müdaxilə etmək olmaz.

**Yerdən səs: Hörmətli prezident, müharibə iştirakçıları üçün Jukov ordeni və medalı yüksək təltiflər hesab olunur. Görəsən biz müharibə iştirakçılarına da Jukov ordeni və medalı veriləcəkmi?**

**Heydər Əliyev**: Dekabrın 10-da Almatıda MDB ölkələri dövlət başçılarının görüşündə bu məsələ qaldırıldı. Jukov ordenini və medalını Rusiya Federasiyası təsis edib. Yəqin ki, Sovet İttifaqı qəhrəmanları Jukov ordeni ilə təltif olunacaqlar.

**Yerdən səs: Hörmətli prezident, respublikadakı müvafiq qanunvericilikdə vəfat etmiş müharibə veteranlarının dəfninin təşkili üçün müəyyən imtiyazlar nəzərdə tutulur. Lakin bəzən yerlərdə buna lazımınca əməl edilmir.**

**Heydər Əliyev**: Əgər qanunun hansı hissəsisə yerinə yetirilmirsə, dövlət komissiyası bu məsələyə də baxsın. Yoxlasın görək, əlavə nə tədbir görmək lazımdır ki, qanun həyata keçirilsin. Yaxud o qanunu bir az da təkmilləşdirmək lazımdır.

Başqa sözünüz varmı? Gələcək bayram münasibətilə sizi bir daha təbrik edirəm. Hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram. Gələn görüşlərədək! [318]

**BEYNƏLXALQ MÜSABİQƏLƏR LAUREATLARI VƏ DİPLOMANTLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**

*Üzeyir Hacıbəyov adına Musiqi Akademiyası*

*8 aprel 1995-ci il*

Öncə mən bizim gənc istedadları təbrik edirəm. Çox sevindirici haldır ki, Azərbaycanın böyük tarixə malik olan incəsənəti, musiqi sənəti hər il yeni istedadlar yetişdirir. Bu, xalqımızın mədəniyyətinin, incəsənətinin zənginliyini nümayiş etdirir. Eyni zamanda xalqımızın içində böyük, fitri istedadlı insanların daim olmasını, yaşamasını göstərir.

Bilirsiniz, xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir. Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir. Mədəniyyət bir tərəfdən bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir və onların mədəniyyəti bu yolla inkişaf edir. Amma bundan əvvəl, bundan əsas xalqın, millətin içində o fitri istedadların olmasıdır. Bizim böyük və dahi şairlərimiz, yazıçılarımız, mütəfəkkir adamlarımız, dünya mədəniyyətini zənginləşdirmiş insanlar – Nizami Gəncəvi, Füzuli, onlardan sonra gələnlər xalqımızın öz kökü, geni ilə böyük mədəniyyətə malik olduğunu sübut edir.

XX əsrdə mədəniyyətimiz yeni bir inkişaf mərhələsi keçibdir. Xüsusən, incəsənətimizin böyük bir sahəsi olan musiqidə professional musiqi yaranıbdır. Bu sahədə də, şübhəsiz ki, dünya miqyasında yüksək zirvələrə çatmış professional musiqi nümunələrindən istifadə edən, eyni zamanda fitri istedada malik olan şəxsiyyətlərimiz tərəfindən böyük bir məktəb yaradılmışdır. Əsasını mərhum Üzeyir Hacıbəyovun qoyduğu böyük bir məktəb. Bu məktəb əsrin əvvəlində yaranıb. İndi, XX əsrin axırlarında biz bu məktəbin nə qədər böyük yol keçdiyini, eyni zamanda xalqımız üçün nə qədər faydalı olduğunu, onun hörmətini, şərəfini nə qədər yüksəklərə qaldırdığını və [319-320] xalqımızın ümumi mədəniyyətinə necə böyük təsir etdiyini görürük və bunun şahidiyik.

Bu dövrdə Azərbaycanda incəsənət sahəsində, musiqi sahəsində böyük şəxsiyyətlər – bəstəkarlar, ifaçılar, müğənnilər yetişib. Onların adları məşhurdur və bizim tariximizə yazılıbdır, həyatdan gedənləri də bizim üçün əzizdir, bu gün yaşayanları da xalqımızın, cəmiyyətimizin hörməti və qayğısı ilə əhatə olunublar. Ancaq bu gün məni çox sevindirən odur ki, bizim bu böyük mədəniyyət yolu davam edir və gənc istedadlar meydana çıxır. Doğrudur, son illər xalqımız, respublikamız ağır şəraitdədir. Yeddi ildir müharibə şəraitində yaşayırıq. Cəmiyyətdə böyük ictimai-siyasi proseslər, dəyişikliklər gedir. Belə bir vaxtda mədəniyyətə bəzən diqqət də azalır. İnsanların əksəriyyəti ancaq özlərini dolandırmağa çalışır, mədəniyyətə bəzən o qədər də fikir verilmir. Ancaq belə bir dövrdə də mədəniyyətimizin, incəsənətimizin durmadan inkişaf etməsi və bunun nəticəsi olaraq gənc istedadların meydana çıxması çox sevindirici haldır.

Bilirsiniz ki, mən uzun müddət respublikadan aralı idim. 1982-ci ildən sonra respublikada gedən prosesləri şübhəsiz ki, izləyirdim, uzaqdan da olsa görürdüm. Ancaq bura dönəndən sonra, xüsusən Vətənimizin, torpağımızın müdafiəsi ilə məşğul olduğumuz dövrdə, respublikamızda ictimai-siyasi proseslərin gərgin olduğu bir vəziyyətdə mən vaxtaşırı mədəniyyətimizdə, incəsənətimizdə gənc istedadları görərkən həddindən artıq sevinirəm və bir daha özüm-özümə deyirəm ki, doğrudan da, xalqımız nə qədər ağır vəziyyətdə də olsa mədəniyyəti, incəsənəti unutmayacaq və nə qədər çətin şəraitdə yaşasa da, o istedadlar cücərəcək, meydana çıxacaqlar. Necə ki, bəzən qarın altından çiçək çıxır. Yaxud, bir də görürsən ki, asfaltın altından ot cücərib çıxır. Bax, bu istedadlar da bizim indiki çətin dövrdə, şəraitdə meydana çıxırlar. Bu özü çox səciyyəvidir, çox sevindiricidir. Ona görə mən sizi təbrik edirəm və hamınıza uğurlu yollar arzulayıram.

Bu gün sizin ifanızda incəsənət, musiqi nümunələri çox yüksək professional səviyyəni nümayiş etdirir. Bizim musiqimiz – xalq musiqisi, folklor musiqisi çox rəngarəngdir, çox zəngindir. Elə hər bir kənddə yaşayan adam da atadan-babadan qalmış mahnıları oxuyur. Biri yaxşı ifa edir, biri nisbətən zəif. Ancaq bu folklor musiqisi, xalq musiqisi daim yaşayır. [320-321] Amma həm ifa üçün, həm də qavramağa görə mürəkkəb olan professional musiqi nümunələrini yaratmaq, şübhəsiz ki, bundan çox fərqlidir və bu da bizim üçün daha qiymətlidir.

Biz Azərbaycanda professional musiqini inkişaf etdirməliyik. Bunun üçün böyük əsas var. Dediyim kimi, böyük bəstəkarlarımızın, musiqiçilərimizin, ifaçılarımızın qoyduğu irs böyük əsasdır. Onunla yanaşı, bu gün bizim böyük məktəbimiz var. Bu məktəb yeni-yeni istedadları cəlb eləyib, tərbiyə edib həyata gətirəcəkdir. Bizim böyük istedadlarımız var. Buradakı gənclərə baxanda mən sevinirəm. Cavan qızlar, oğlanlar həm zərif, həm incə, eyni zamanda nə qədər istedadlıdırlar. Bu, çox gözəl haldır. Sizi təbrik edirəm və bu gün məni buraya dəvət etdiyinizə görə təşəkkür edirəm. Ümidvaram ki, bizim musiqimiz daha da inkişaf edəcəkdir. Əmin ola

bilərsiniz – dövlət çalışacaq ki, sizin kimi istedadlı adamların inkişaf etməsi üçün yollar açılsın və qarşınızda duran çətinliklər aradan götürülsün.

Şübhəsiz ki, istedad qayğı istəyir. Qayğı olmayanda istedad bəzən özünə yol tapa bilmir, yaxud da ki, onun inkişaf yolu çətin olur. Bilin ki, indi həyatımız nə qədər çətin olsa, dövlət işləri başımızı nə qədər çox qarışdırsa da, biz istedadlara daim qayğı göstərəcəyik. Buna əmin ola bilərsiniz.

Mən Fərhad Bədəlbəyliyə baxıram. 25 il bundan öncə Fərhad Bədəlbəyli gənc bir pianoçu idi, gəlib konsertlərdə musiqi ifa edirdi. Şübhəsiz ki, fitri istedadı onu gətirib o dərəcəyə çatdırmışdı, ancaq o vaxt o, sizin kimi gənc bir pianoçu idi. Onun yetişməsində rəhmətlik Niyazinin xidmətləri çoxdur. Mənim xatirimdədir, 70-ci ilin əvvəllərində ilk dəfə böyük simfonik konsertlərdə Niyazi Fərhadı təqdim etdi və gördük ki, Fərhad aybaay, ilbəil, hər yeni görüşdə inkişaf eləyir, daha da yüksəlir, öz ixtisasını artırır və nəhayət, böyük yola çıxdı. Bunlar hamısı şəxsən mənim gözümün qabağındadır. Fərhad da yəqin unutmayıb ki, onun inkişafı üçün biz nə qədər qayğı göstərdik. Nə üçün? Çünki mən görürdüm ki, belə bir istedad meydana çıxıb. Ona kömək etmək, qayğı göstərmək, irəli çəkmək lazımdır və onun yolu geniş açılsa, o öz istedadını daha da parlaq göstərə biləcəkdir. İndi sən xatırlatdın ki, 72-ci ildə sənə ilk dəfə əməkdar artist adı verdik. Bu, şübhəsiz ki, o vaxtlar bizim Azərbaycanda incəsənət sahəsində böyük bir ad idi. Amma Fərhad bunu çox gənc ikən aldı. Bilmirəm, neçə yaşın vardı sənin? [321-322]

**Fərhad Bədəlbəyli:** İyirmi dörd.

**Heydər Əliyev:** Hə, iyirmi dörd yaşında əməkdar artist adı aldı. Ondan sonra da hər il görüşlərimiz davam edirdi. Atası rəhmətlik Şəmsi Bədəlbəyli ilə də mənim çox dostluq əlaqəm vardı. O, uzun müddət bizim Teatr Cəmiyyətinin sədri idi. Ümumiyyətlə, teatrın inkişafında, Teatr Cəmiyyətinin fəaliyyətində çox böyük xidmətləri olmuşdur. Şübhəsiz ki, həm incəsənət ustası kimi, həm rejissor kimi, həm teatrımızın böyük bir xadimi kimi və eyni zamanda Teatr Cəmiyyətinin sədri kimi son vaxtlara qədər böyük işlər görürdü.

Xatirimdədir, bir vaxt Sovetlər İttifaqında "Drujba narodov" teatrı yaranmışdı. Şəmsi Bədəlbəyli cürbəcür şəhərlərin, ölkələrin, respublikaların yüksək səviyyəli teatrlarını dəvət edib gətirdirdi bura. Moskvadan da, Leninqraddan da, Gürcüstandan da, hətta indi bizim üçün düşmən olan Ermənistandan da bura teatrlar gəlir, tamaşalar göstərirdilər. Bunlar hamısı xatirimdədir.

Ancaq mən Fərhad Bədəlbəylinin yaradıcılıq yolunu yadıma salıram və o da xatirimdədir ki, bizim büro iclasında yenə də bir qrup incəsənət xadiminə ad verirdik. O vaxtlar mən təklif elədim Fərhada xalq artisti adı verilsin. Neçənci il idi?

**Fərhad Bədəlbəyli:** 78-də.

**Heydər Əliyev:** Bəli, 78-ci ildə. Təklif elədim ki, ona xalq artisti adı versinlər. Bizim bəzi yoldaşlar, şübhəsiz ki, Fərhadın istedadını qiymətləndirməklə bərabər, mənə dedilər ki, çox cavandır, o biri adı da tez vermisiniz, bunu da tez verirsiniz, ola bilər, onu korlasın. Yox, pis fikirlə demirdilər bunu, xeyirxahlıqla deyirdilər bəziləri. Mən onları dinlədim, dedim, eybi yoxdur, mən belə güman edirəm ki, əksinə, bu ad onu özünə daha da tələbkar olmağa məcbur edəcəkdir. 78-ci ildə o adı verdik.

İndi bax, onun həyat yolu göz qabağındadır. Sizin üçün də örnəkdir. Bəzən tarixdə belə olubdur: böyük istedadlar meydana çıxıb, amma qısa bir müddətdə sönüblər. Ona görə yox ki, onların istedadı birdən kəsilibdir. Yox, ona görə ki, bəzi səbəblərdən onlar o yolu düz seçə bilməyiblər, o yolla inamla gedə bilməyiblər.

Ona görə də mən demək istərdim ki, bu gün sizin həyatınızda yeni bir mərhələ başlanır. Adlar almısınız, qalib gəlmisiniz, məşhurlaşmısınız. İstərdim ki, bununla kifayətlənməyəsi[322-323]niz. Öz üzərinizdə çox çalışasınız, işləyəsiniz. Mənə belə gəlir ki, sizin hər biriniz böyük yaradıcılıq yolu ilə gedəcəksiniz. Hər birinizin böyük gələcəyiniz var. Mən buna ümid bəsləyirəm, mən bunu arzu edirəm.

Burada Fərhad dedi ki, biz incəsənət adamıyıq, siyasətə qarışmırıq. O qədər də düz demədi. O özü siyasətə qarışır, cürbəcür təşkilatlarda iştirak edir. Bəzisində sədrdir, bəzisində müavindir. Bəzisində üzvdür. Demək istəyirəm ki, heç bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır. Bir var dövlət işi ilə məşğul olan adamlar, bir var siyasətlə məşğul olan adamlar, bir də var adi vətəndaş. Adi vətəndaş da, əgər həqiqətən vətəndaşdırsa, Vətəninin övladıdırsa, demək, öz Vətəninə, burada gedən proseslərə, dövlətinə biganə qala bilməz.

İndi Azərbaycan dövləti çox ağır sınaq dövrü keçirir. Uç ildən bir az artıqdır ki, müstəqillik əldə etmişik. Biz müstəqil dövlətik. Yeni dövlət qururuq, irəliyə gedirik. Keçdiyimiz yollar sizin bu yaradıcılıq yollarınızdan bilirsiniz nə qədər ağırdır, nə qədər çətindir! Çox çətindir. Bu müstəqillik yolu qədər çətin yol yoxdur. Kim belə hesab edirsə ki, biz müstəqilliyi elan etdik, deməli, hər şey qurtardı, – belə deyil. Bizim müstəqilliyimizi xaricdən də boğmaq istəyənlər var, daxildən də buna qarşı təxribat etmək istəyənlər var.

Son illərdə Azərbaycanda gedən ictimai-siyasi proseslər bunu sübut edir. Bunlar hamısı göz qabağındadır və heç bir vətəndaş, o cümlədən mədəniyyət işçiləri, mədəniyyət xadimləri, incəsənət sahəsində çalışan vətəndaşlar bu işlərə biganə qala bilməzlər. Necə biganə qala bilərsiniz ki, əgər sabah bu müstəqil dövlət dağılsa siz nə olacaqsınız, başınıza nə iş gələcəkdir?

Bu son mart hadisələri ilə əlaqədar mənə danışırlar ki, çox yerlərdə, bütün kollektivlərdə müzakirələr gedir, insanlar öz fikrini bildirirlər, müraciətlər qəbul edirlər. Yaxın günlərdə mədəniyyət xadimlərinin böyük

bir toplantısı keçirilmişdir. Orada bəstəkarlar da, teatr xadimləri də, yazıçılar da olmuşlar. Hətta televiziyada da bir balaca göstərdilər. Mənə danışdılar və mən bunu çox tutarlı bir söz kimi qəbul etdim. Bizim çox dəyərli bir şairimiz var – Qabil, çox orijinal bir adamdır, durub deyib ki, ay camaat, gəlin bir dəqiqə təsəvvür eləyək ki, Rövşən Cavadov və onun ətrafında olan o cinayət[323-324]kar OMON adamları gəldilər bu dövləti dağıtdılar, gəlib girdilər bu teatra, gəlib girdilər bu Yazıçılar Birliyinə, elə təsəvvür eləyin ki, bu cinayətkarlar, bu vəhşilər gəlib girdilər konservatoriyaya. Neyləcəkdiniz? Bu, Qabil İmamverdiyevin sözüdür. Çox orijinal söz olduğuna görə mən bunu təkrar eləyirəm.

Doğrudan da belədir. Bu adamlar nə mədəniyyət anlayırdılar, nə incəsənət, nə insanlıq – heç bir şey yox. Ancaq cinayətkarlıqla məşğul idilər. və cinayət yolu ilə də gəlib dövləti devirmək istəyirdilər. İndi tutaq ki, dövləti devirdilər, kimi isə öldürdülər, nəyi isə dağıtdılar. Bu bir tərəfə. Axı bu xalq var, bu cəmiyyət var, yüz illərlə toplanmış mədəniyyət, incəsənət sərvətlərimiz var, bu insanlar var, yeni-yeni addım atan, parlaq gələcəyi olan bu gənc qız, gənc oğlan var. Bunlar gəlib burada fortepiano və ya skripka çalır. Birdən kimsə avtomat əlində gəlib vurdu dağıtdı. Neyləyəcəksən?

Ona görə də siz bilməlisiniz, biz bu cür cinayətkarların qarşısını alarkən, dövləti qoruyarkən hər bir vətəndaşı qoruyuruq. Hər birinizi bu bəlalardan qoruyuruq. Ona görə də bu işlərə biganə qalmaq olmaz. İncəsənətlə də məşğul olun, mədəniyyətlə də məşğul olun, əsərlər də yazın, ifaçılıq işini də inkişaf etdirin. Ancaq həyatda heç nəyə biganə olmayın. Həyatınızın hər bir sahəsi sizin üçün doğma olmalıdır və belə də var, belə də olacaqdır.

Bax bu son vaxtlar bir dəfə 93-cü ilin iyun ayında dövlət çevrilişi oldu, biz vətəndaş müharibəsinin qarşısını aldıq, böyük bir bəladan qurtardıq Azərbaycanı. Parçalanmışdı Azərbaycan, qan tökülmüşdü. Keçən ilin oktyabr ayında da, bu ilin mart ayında da yenə dövlət çevrilişinin qarşısını aldıq. Qan töküldü. İnsanlar həlak oldu.

Mən o gün fərmana imza atırdım, fərqlənmiş adamları mükafatlandırırdım. Bizim ordumuzun 27 gənc zabiti, əsgəri həlak olubdur. Mən onlara Milli Qəhrəman adı verdim. Bir gecənin içində həlak olublar. Nə üçün? Gənc insanlardır, bunların 18-19-20-21-22 yaşı var. Qarşıda onların nə qədər böyük həyat yolu var idi. Amma həlak oldular. Doğrudur, onların ölümü şərəfli ölümdür, çünki Vətən yolunda, Azərbaycanın müstəqil dövlətçiliyini qoruyarkən şəhid olublar. Ancaq bir var ki, erməni işğalçıları bizə hücum ediblər, biz müharibə aparırıq, Vətənimizi qoruyuruq. Ermənini biz idarə edə bilmirik, erməni bizim torpaqlarımızı almaq istəyir, [324-325] Azərbaycanı dağıtmaq istəyir Ermənistan. Biz onunla müharibə aparırıq. Orada həlak olmaq, aydındır ki, Vətəni qorumaq, şəhid olmaq deməkdir. Amma kimsə gəlib öz Vətəninin, dövlətinin içində, öz şəxsi iddialarına, şəxsi məqsədlərinə, cinayətkar məqsədlərinə görə qan töksün və bir belə adam şəhid olsun, – bunlar, bilirsiniz, çox ürəkağrıdıcıdır, çox incidicidir.

Təəssüf ki, bizim həyatımız bax, belə çətinliklərlə rastlaşır. Amma mən sizi əmin etmək istəyirəm ki, bizim dövlətimiz indi o qədər güclüdür və xalq tərəfindən o qədər müdafiə olunur ki, dövlətçiliyimizə qarşı hər bir qəsdin qarşısı alınacaqdır. Ancaq mən heç də istəməzdim ki, belə qəsdlər olsun. Çünki belə qəsdlər faciəli hadisələrə, insan tələfatına gətirib çıxarır. Şübhəsiz ki, qəsd edən adamlardan da həlak olanlar var. Onların da atası var, anası var, qohum-əqrəbası var. Onlar da bizim vətəndaşlarımızdır. Ancaq onları o cinayətkar yola salanlar var və bu yolla gedirdilərsə, şübhəsiz, onların aqibəti elə olmalı idi, elə də olacaqdır. Başqa cür ola bilməz.

Bu hadisələr münasibətilə o cinayətkarlar, şübhəsiz ki, həbs olunublar. Ancaq mən dünən baş prokurora göstəriş verdim ki, çox ciddi yanaşsın. O adamlar ki, doğrudan da cinayət ediblər, – onlar cəzalanmalıdırlar, cəzasını almalıdırlar. Amma elə adamlar var ki, ola bilər, yolunu azıblar, yanılıblar, yaxud təsadüfən gəlib cinayətkarların təsiri altına düşüblər. Şübhəsiz ki, onlara münasibət başqa cür olmalıdır. Yəni mən istəyirəm deyəm ki, bu cinayətkarlar nə qədər ağır cinayət etmiş olsalar da, onların haqqında qəbul ediləcək qərarlar tam ədalətli olacaqdır və ədalətli də olmalıdır. Birinci növbədə qatı cinayətkarlar cəzalanacaq və cəzalandırılmalıdırlar.

Bunları sizə, bizim gənc istedadlara deməkdə məqsədim ondan ibarətdir ki, arxayın olun. Hər bir vətəndaşın hüququ, həyatı qorunur və biz çalışacağıq ki, dövlətimizi də, cəmiyyətimizi də, hər bir vətəndaşı da, onun hüququnu da qoruyaq. Kim bizim dövlətçiliyimizə, vətəndaşların hüququna, insanlara qəsd edəcəksə, biz onlara qarşı amansız olmuşuq və şübhəsiz ki, bundan sonra da amansız olacağıq.

Ancaq mən söhbətimi yenə də incəsənət mövzusu ilə bitirmək istərdim. Çox sevinirəm ki, bu gün bu gənclərlə bərabər bizim dostumuz Tofiq Quliyev də burada göstərdi ki, o yenə də gəncdir. Çünki onun ifa etdiyi musiqi mənə belə gəlir ki, sizinkindən heç geri qalmadı. [325-326]

**Fərhad Bədəlbəyli:** Yox, bizdən yaxşı oldu.

**Heydər Əliyev:** Siz hələ gərək o səviyyəyə çatasınız. Bu göstərir ki, bizim nəsillər estafeti, öz təcrübəsini, biliyin gənclərə verir, amma özü də yerində durmur. İrəliyə gedir Tofiq də inkişaf edir, irəliyə gedir. Fərhad da, baxmayaraq ki, bu gün özünü başqalarına nisbətən ağsaqqal hesab edir, onu mən gənc vaxtında görəndə bir çocuq kimi baxırdım. Amma indi böyük bir kişidir. Bax, bu yaradıcılıq yolu gənclər üçün örnəkdir və güman

edirəm ki, bütün bu müsbət təcrübələrdən siz faydalı istifadə edəcəksiniz. Hamınıza yeni-yeni uğurlar arzulayıram. Cansağlığı, xoşbəxtlik arzu edirəm. Sağ olun. [326]

## AZƏRBAYCAN VƏ TÜRKİYƏ RESPUBLİKALARI ARASINDA NEFT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZİŞİN YÜKSƏK SƏVİYYƏDƏ İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*"Gülüstan" sarayı*

*12 aprel 1995-ci il*

Türkiyə Cümhuriyyətinin hörmətli baş naziri, bacımız xanım Tansu Çillər!

Türkiyə Cümhuriyyətinin nazirləri, hörmətli qonaqlar, xanımlar və cənablar!

Türkiyənin baş naziri hörmətli xanım Tansu Çillər bu gün Azərbaycana qısamüddətli işgüzar səfərə gəlibdir. Bu səfərin məqsədi həm qısa görüşlər keçirib danışılar aparmaq, həm də, xüsusən, Azərbaycan Dövlət Neft Şirkəti ilə "Türkiyə petrolları anonim ortaqlığı" şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı yataqların istifadə olunması üçün bir sazişin imzalanması ilə əlaqədardır. Mən sizin adınızdan və öz adımdan Türkiyə Cümhuriyyətinin Azərbaycana ilk dəfə gəlmiş baş naziri, qardaş ölkənin tanınmış dövlət xadimi, respublikamızın hörmətli və əziz dostu, bacımız xanım Tansu Çilləri səmimi qəlbdən salamlayıram və Azərbaycana gəlişi münasibətilə ona təşəkkürümü bildirirəm.

Məlumunuzdur ki, 1994-cü il sentyabrın 20-də burada, "Gülüstan" sarayında "Əsrin müqaviləsi" adlanan bir müqavilə imzalanmışdır. Həmin müqavilə Xəzər dənizinin Azərbaycan sektorunda üç neft yatağının – "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dünyanın böyük şirkətləri ilə müştərək istifadə olunması ilə əlaqədardır. Bu müqavilədə Türkiyənin şirkəti də iştirak edir. O vaxt həmin sənəd imzalanarkən Türkiyə şirkəti bu müqavilənin layihəsinin 1,75 faizinin sahibi olmuşdur. Yəni Türkiyə bu müqavilədə əvvəldən var. Sonradan isə Azərbaycan Respublikasının öhdəsində qalmış 20 faiz haqqında fikirləşdik. Türkiyənin bu barədə bizə müraciəti olmuşdur. Türkiyə prezidenti, əziz dostumuz və qardaşımız hörmətli Süleyman Dəmirəl mənə məktub göndərmiş və xüsusi [327-328] müraciət etmişdir. Baş nazir, hörmətli xanım Tansu Çillərin də mənə bu barədə müraciəti olmuşdur. Bunları və Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələrini nəzərə alaraq, onların daha da inkişaf etdirilməsini istəyərək, respublikamız həmin müqavilədə öz payından 5 faizin əlavə olaraq Türkiyə Cümhuriyyətinə, bu ölkənin şirkətinin sərəncamına keçməsinə razılıq vermişdir. Artıq bu barədə danışıqlar aparılıb, müəyyən sənədlər hazırlanıb və bu gün bura həmin sənədlərin imzalanması üçün toplaşmışıq. İndi mən istərdim ki, Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev və "Türkiyə petrolları" şirkətinin prezidenti Sidqi Səncər bu sənədləri imzalasınlar.

Hörmətli baş nazir xanım Tansu Çillər!

Hörmətli nazirlər, qonaqlar, xanımlar və cənablar!

Bu gün burada – Bakının "Gülüstan" sarayında yeni, həm də tam cəsarətlə deyə bilərəm ki, tarixi bir hadisə baş verir. Xəzər dənizinin Azərbaycan sektorundakı yataqların işlənməsi haqqında imzalanmış müqavilə daha da genişlənir, onun dairəsi böyüyür. Dost və qardaş Türkiyənin neft şirkətləri, bütün Türkiyə Cümhuriyyəti bizim bu böyük işimizə, 30 il müddətinə bağlanmış müqaviləmizə qoşulur. Bu məsələ indi imzalanmış sazişlərlə həll olundu. Mən sizin hamınızı, xüsusən də Türkiyədən gəlmiş qonaqlarımızı, baş nazir xanım Tansu Çilləri bu hadisə münasibətilə təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, bu, Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin daha da inkişaf etməsi üçün böyük bir addım olacaqdır.

Dostluq və qardaşlıq əlaqələrimizin çoxəsrlik tarixi vardır. Bizim köklərimiz, adət-ənənələrimiz, tarixi keçmişimiz birdir. Bunların hamısı keçmiş zamanlarda da bizi bərabər yaşamağa, torpaqlarımızı qorumağa gətirib çıxarmışdır. Son illərdə bu, öz yeni bəhrələrini verir. Doğrudan da, əsrlər boyu bir yerdə, bir kökdən olmuş xalqlarımız, xanım Tansu Çillərin ifadəsi ilə desək, bir ananın uşaqları 70 ildən sonra bir də qovuşub, əl-ələ verib birlikdə irəliyə gedirlər. Ayrılıq bizi nə qədər incitmiş, əziyyətlər vermiş, çətinliklər yaratmış olsa da bizi tamamilə bir-birimizdən ayıra bilməmişdir. Bütün tarixi əlaqələrimiz qısa müddət ərzində bərpa olunmuş, dostluğumuz, qardaşlığımız göz qabağında, bütün dünyada nümayiş etdirilmiş və etdirilir.

Bu gün bir daha deyə bilərəm ki, Azərbaycan üçün Tür[328-329]kiyə ən yaxın dost, qardaş ölkədir. Eyni kökdən olmağımız, eyni dinə və mədəniyyətə mənsubluğumuz bizim bu günümüz və gələcəyimiz üçün böyük əsas və təməldir. Ötən il və bu il biz bütün Şərqin, bütün türk xalqlarının böyük şairi Məhəmməd Füzulinin 500 illik yubileyini qeyd edirik. Təsadüfi deyildir ki, bu yubiley həm Azərbaycanda, həm Türkiyədə, həm də digər türkdilli ölkələrdə təntənəli şəkildə keçirilir. Bu faktın özü onu göstərir ki, 500 il əvvəl də bir yerdə olmuşuq. Füzuli kimi böyük şairimiz var. O, böyük mədəni irs qoyub gedib. Həmin mədəni irsdən bugünkü nəsillər həm Türkiyədə, həm də Azərbaycanda istifadə edərək mədəniyyətimizi, elmimizi, bütün həyatımızı inkişaf etdirməyə çalışırlar.

Azərbaycan müstəqil dövlət kimi gənc bir ölkədir. Üç ildən bir az artıqdır ki, biz müstəqil dövlət kimi

yaşayırıq. Ancaq bu gün böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, respublikamız müstəqillik uğrunda çalışarkən Türkiyə həmişə onu dəstəkləmiş, bizə dayaq olmuş və Azərbaycan öz müstəqilliyini elan edən kimi dünya ölkələri içərisində Türkiyə birinci olaraq Azərbaycanın müstəqilliyini tanımış, bununla da respublikamızın dünya dövlətləri tərəfindən tanınmasına yol açmışdır.

Hörmətli xanım Tansu Çillər tamamilə doğru buyurdu ki, Azərbaycanın hələ bir çox ölkələrdə səfirlikləri, nümayəndəlikləri olmadığına görə biz Türkiyə nümayəndələrinin və səfirlərinin xidmətlərindən istifadə edirik. Mən minnətdarlıq hissi ilə deyə bilərəm ki, hər yerdə və həmişə Türkiyə Cümhuriyyətinin nümayəndələri, elçiləri, səfirləri Azərbaycan nümayəndələrinə kömək edirlər və beynəlxalq təşkilatlarda respublikamıza aid bütün məsələlərin həll olunmasında Türkiyə çox prinsipial mövqe tutur, bizi dəstəkləyir və bizə kömək edir.

Azərbaycan yeddi ildən artıq bir müddətdir ki, Ermənistanın təcavüzünə məruz qalmışdır. Ermənistan torpaqlarımızı işğal etmək, Azərbaycanın Dağlıq Qarabağ bölgəsini ələ keçirmək üçün respublikamıza hərbi təcavüz etmişdir. Ermənistan silahlı qüvvələri bəzi səbəblərdən Azərbaycan torpağının bir qismini işğal edə bilibdir. Hazırda respublikamızın ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu torpaqlardan bir milyondan çox vətəndaşımız qaçqın düşübdür. Həmin illərdə Azərbaycanın öz haqq səsini dünyaya [329-330] yaymaq, Ermənistanın hərbi təcavüzünü dünyanın bütün ölkələrinə, xalqlarına, beynəlxalq təşkilatlara çatdırmaq üçün çox böyük köməyə, yardıma ehtiyacı olmuşdur. Bu məsələlərdə də və ümumiyyətlə, Azərbaycana Ermənistanın təcavüzü barədə Türkiyə həmişə çox prinsipial, çox ardıcıl mövqe tutub, respublikamızı həmişə dəstəkləyib, Ermənistanın təcavüzünü daim pisləyib, Ermənistana bir təcavüzkar ölkə kimi öz münasibətini bildirib.

Bunların hamısı təbiidir, ona görə ki, biz, bir daha deyirəm, yaxın dost, qardaş ölkələrik, keçmiş və bugünkü əlaqələrimiz bizi bu cür münasibətlərlə yaşamağa dəvət edir. Türkiyədə də yaxşı bilirlər ki, Azərbaycanda bu ölkəyə və onun xalqına böyük hörmət və ehtiram var. Bizim bu münasibətlərimiz gündən-günə artır, iqtisadi, təhsil, elmi, mədəni və digər sahələrdə olan əlaqələrimiz daim inkişaf edir. Bu həm Azərbaycan xalqının, həm də Türkiyə xalqının bu günü və gələcəyi üçün çox gərəklidir.

Bu gün biz bu sazişi imzaladıq. Güman edirəm ki, burada Türkiyə vəsaitinin Azərbaycan neftinin çıxarılmasına qoyulması və Türkiyənin bu müqavilədə fəal iştirak etməsi iqtisadi cəhətdən həm Azərbaycan, həm də Türkiyə üçün böyük əhəmiyyətə malikdir. Ancaq bunun mənəvi əhəmiyyəti, ölkələrimizin bu günü və gələcəyi üçün, dostluq və qardaşlıq əlaqələrimizin möhkəmlənməsi və inkişafı üçün qiyməti əvəzsizdir. Güman edirəm ki, bu da indi imzaladığımız sazişin əsasını təşkil edir.

Bu saziş əsasında 30 il müddətində Xəzər dənizində "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından neft çıxarılacaq, ixrac və istifadə olunacaq və Azərbaycanın iqtisadiyyatı üçün çox fayda gətirəcəkdir. Şübhəsiz ki, bu neftin ixrac olunması məsələsi də var. Bu barədə də müəyyən danışıqlar aparırıq. Bizim fikrimiz belədir ki, neftin ixracı üçün boru xəttinin Türkiyədən keçməsi hər şeydən üçün və bizim üçün hər şeydən əlverişli ola bilərdi. Biz bu sahədə də öz fikrimizi demişik və bundan sonra da deyəcəyik.

Beləliklə, ölkələrimiz və xalqlarımız arasında olan əlaqələrin gələcək inkişafı üçün yeni bir addım atılıbdır. Bu münasibətlə sizin hamınızı bir daha təbrik edirəm.

Hörmətli Tansu xanım, sizi təbrik edirəm və Azərbaycan xalqına göstərdiyiniz hörmət və ehtirama, köməyə və səmimi münasibətinizə görə sizə öz təşəkkürümü bildirirəm. Əmin ola [330-331] bilərsiniz ki, Türkiyənin baş naziri, böyük bir alim, ictimai-siyasi xadim kimi sizi Azərbaycanda çox sevirlər və sizin respublikamıza gəlişinizdən çox məmnundurlar. Güman edirəm ki, siz Azərbaycanda daim böyük hörmət və ehtirama layiq olacaqsınız.

Bu səfəriniz çox qısamüddətlidir. Mən sizi Azərbaycana rəsmi dəvət etmişəm və səbirsizliklə sizin respublikamıza böyük rəsmi səfərinizi gözləyəcəyik. Bir daha sizi təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzu edirəm. Türkiyə xalqına öz hörmət və ehtiramımı bildirirəm. Buradan, Xəzər dənizinin sahilindən, "Gülüstan" sarayından Ankaraya, İstanbula və bütün Türkiyəyə Azərbaycan xalqının salamlarını çatdırıram. [331]

## TÜRKİYƏNİN İŞ ADAMLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*"Gülüstan" sarayı*

*12 aprel 1995-ci il*

Hörmətli baş nazir xanım Tansu Çillər! Türkiyənin iş adamlarını özünüzlə birlikdə Bakıya gətirdiyinizə görə sizə təşəkkür edirəm. Çünki bizim buna böyük ehtiyacımız var. Demək olar ki, 1990-cı ildən, bəlkə də ondan bir az öncə Azərbaycanla Türkiyə arasında işgüzar əlaqələr qurulmasına, ayrı-ayrı iş adamlarının burada fəaliyyət göstərməsinə baxmayaraq, mən etiraf etmək istəyirəm ki, bu sahədə iş çox zəif gedir. Bu həqiqətdir.

Türkdilli dövlətlərdən Türkiyə və Azərbaycan bir-birinə daha yaxındır. Ancaq Türkiyənin iş adamlarının Azərbaycan iqtisadiyyatına qoyduğu sərmayə – mən bunu açıq demək istəyirəm – digər türkdilli dövlətlərin iqtisadiyyatına qoyulan sərmayədən çox azdır. Azərbaycana çoxlu iş adamları gəlib-gedir. Amma çox güclü iş görülmür. Bunu da açıq demək lazımdır. Ola bilsin ki, bunun günahı bizdədir. Mənə bəzi iş adamları deyirlər ki, guya burada gömrük qanunları və bəzi başqa qanunlar Azərbaycanda iş görməyə şərait yaratmır. Mən bir dəfə Ankarada, İstanbulda olanda iş adamları bu barədə mənə deyiblər.

Ola bilsin ki, bizim belə qüsurlarımız var. Biz çalışırıq ki, bu qüsurları aradan götürək. Bilin ki, biz gənc dövlətik. Keçmişdə bizim nə müstəqil gömrüyümüz, nə də bazar şəraitinə uyğun başqa bir iqtisadiyyatımız olubdur. Biz keçmiş sosialist iqtisadiyyatı şəraitində yaşamış adamlarıq. Bu qanunları dəyişdirmək və digər işləri görmək üçün siz gərək kömək edəsiniz. Yəni siz deməlisiniz ki, bu qanun düzgün deyil, onu dəyişdirmək lazımdır və yaxud da nəyi isə əlavə etmək lazımdır və yaxud da nəyi isə əlavə etmək lazımdır ki, Azərbaycana investisiya gəlsin. Məsələn, mən Aşqabatda olarkən mənim dostum, Türkmənistan prezidenti Saparmurad Niyazov dedi ki, Türkiyənin iş adamları onun ölkəsinə külli miqdarda sərmayə qoyublar. Mən, əlbəttə, sevindim, çünki Türkmənistan bizə qardaş olan ölkədir. [332-333] Amma içimdə dedim ki, bəs niyə Azərbaycana bu qədər sərmayə qoymurlar?

Ola bilsin ki, Azərbaycan müharibə şəraitində olduğuna görə bəzi adamlar respublikamızda iş görməyə ehtiyat ediblər. Belə hesab ediblər ki, indi müharibədir, kim bilir, sabah nə olacaq, əgər bura sərmayə qoysam nə olar? Bəzən də iş adamları Azərbaycanda daxili ictimai-siyasi vəziyyət sabit olmadığına görə – mənə belə gəlir ki, təkcə Türkiyənin yox, digər ölkələrin də iş adamları – bura gəlib sərmayə qoymaqdan çəkinirlər. Ancaq hörmətli bacımız Tansu Çillərin yanında sizə demək istəyirəm ki, arxayın olun. Birincisi, biz çalışacağıq ki, Türkiyənin köməyi ilə, dünyanın mütərəqqi ölkələrinin, beynəlxalq təşkilatlarının köməyi ilə, əlbəttə, ilk növbədə də öz işimiz və fəaliyyətimizlə müharibə vəziyyətindən çıxaq. Biz atəşkəsi davam etdirəcəyik və sülh yaranmasına çalışacağıq. Siz bu məsələdən narahat olmayın. O ki qaldı respublikamızın daxilində ictimai-siyasi vəziyyətin sabitliyinə, doğrudan da, bu məsələdə də müəyyən əsas var. Çünki üç il ərzində burada üç dəfə dövlət çevrilişi cəhdi olubdur. Ona görə də bu barədə Azərbaycan dünyada rekord vura bilər. Ancaq sizə demək istəyirəm ki, artıq bunlara da son qoyulub, arxayın olun.

Bir dəfə 1993-cü ildə çevriliş etdilər, Xalq Cəbhəsini hakimiyyətdən yıxdılar. O vaxt məni dəvət etdilər və mən gəlib vətəndaş müharibəsinin, qardaş qanı axıdılmasının qarşısını aldım. Sonra ötən ilin oktyabrında mənim əleyhimə dövlət çevrilişinə cəhd etdilər. Xalqa müraciətimlə bir gecədə Bakının bir milyondan çox sakini mənim ətrafıma toplaşdı. Bunun qarşısında heç bir top, heç bir tank dura bilmədi. Bir dəfə də dövlət çevrilişinə cəhd etdilər. Siz bilirsiniz ki, mən çox çalışdım, – bu barədə mətbuatda da yazılıbdır, – mən televiziya və radio vasitəsilə müraciət etdim, xahiş etdim, adamları qəbul etdim, fərman verdim, o cinayətkarları əfv etdim. Ancaq onlar buna baxmadılar, onların başları çox qızmışdı və bizim əsgərlərin üzərinə hücum etdilər. Əsgərlər də atəş açıb bu məsələni qurtardılar. Dövlət çevrilişinə cəhd etmək istəyənləri vurub dağıtdıq. Onlara da, dünyaya da göstərdik ki, müstəqil Azərbaycan dövlətinin özünü qorumaq üçün, xalqını qorumaq üçün gücü var və buna qadirdir. Siz buna arxayın ola bilərsiniz. Azərbaycanda bir daha dövlət çevrilişi olmayacaqdır. Siz buna əmin ola bilərsiniz. [333-334]

Azərbaycan demokratiya yolu ilə, sərbəst bazar iqtisadiyyatı yolu ilə gedir. Biz indi özəlləşdirmə proqramı hazırlamışıq. Özəlləşdirməni həyata keçirəcəyik, torpaq islahatı aparırıq, kolxoz və sovxozları ləğv edirik, özəl bölməyə geniş imkanlar veririk. Yəni Azərbaycan keçmiş sosialist iqtisadiyyatından, sosialist quruluşundan, kommunist ideologiyasından tamamilə əl çəkibdir. Buna arxayın olun. Nə qədər ki, Azərbaycanda Heydər Əliyev var, Azərbaycanın müstəqilliyi də var. Amma arxayın olun, Heydər Əliyev də çox olacaqdır.

Ona görə də hörmətli baş nazir, bacımız Tansu Çillərin sözlərini, sizə göstərişlərini çox məmnuniyyətlə qarşılayıram. Həqiqətən, bizdə böyük sənaye potensialı var. Respublikamızın böyük fabrikləri, kimya, maşınqayırma, toxuculuq, metallurgiya müəssisələri var. Bizim başqa imkanlarımız da var. Məsələn, neft sahəsində bu, bizim birinci müqaviləmizdir. Bizim bir neçə yatağımız da var. Onların işlənməsinə başlayacağıq.

Həmin yataqlardan neftin çıxarılması, qaz yataqlarının işlənməsi, bunların əsasında kimya sənayesində istehsalın genişləndirilməsi, başqa məhsullar istehsalının artırılması nəzərdə tutulur. Yəni Azərbaycanın təbii sərvətləri də, sənaye potensialı da böyükdür. Respublikamız geniş işçi qüvvəsi imkanlarına malikdir.

Eyni zamanda bizim mühəndislərimiz, texniklərimiz də çoxdur. Sadəcə olaraq gəlib bizimlə birgə işləmək lazımdır. Hörmətli baş nazirin dediyi kimi, bir ay ərzində – mən göstəriş verirəm bizim baş nazirin vəzifəsini icra edən Fuad Quliyevə və başqa rəhbər şəxslərə – birgə işləmək üçün danışıqlar aparaq və kim bizimlə birgə işləmək istəyirsə, buyursun gəlsin. Əgər bu birgə iş şərtlərini yüngülləşdirmək lazımdırsa, biz bunu da edə bilərik. Yəni biz çalışacağıq ki, Azərbaycana sərmayə gəlsin. Onun Azərbaycana gəlməsinə nə mane olursa, onu aradan qaldırmağa hazırıq. Mən sizi Azərbaycana dəvət edirəm. [334]

## RESPUBLİKADA AQRAR İSLAHATLARIN GEDİŞİ VƏ KƏND TƏSƏRRÜFATINDA VƏZİYYƏTƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

*Prezident sarayı*

*14 aprel 1995-ci il*

Hörmətli müşavirə iştirakçıları! Bugünkü müşavirə həyatımızın mühüm məsələlərinə həsr olunub. Bildiyiniz kimi, respublikada iqtisadi islahatların keçirilməsi 1995-ci ildə əsas vəzifəmizdir. Odur ki, biz bu sahədə əməli fəaliyyətə başlamışıq. Bununla yanaşı, aqrar bölmədə iqtisadi islahatların keçirilməsi haqqında iki qanun qəbul edilib. Bu qanunların həyata keçirilməsi ilə əlaqədar islahatlar komissiyası yaradılıb. Mən lazımi fərmanlar vermişəm.

Bir sözlə, əməli iş gedir. Bəs bu iş necə, hansı sürətlə gedir? İşin sürəti bizi nə dərəcədə qane edə bilər? Bu məsələləri araşdırmaq və işi müəyyən qədər sürətləndirmək üçün indi belə bir müşavirənin keçirilməsi zəruri hesab olunubdur. Şübhəsiz ki, islahatların keçirilməsi xeyli vaxt aparan bir tədbirdir. Eyni zamanda cari məsələləri də unutmamalıyıq. Söhbət kənd təsərrüfatı məhsulları istehsalının təmin olunmasından gedir. Son illər kənd təsərrüfatında istehsalın azalması göz qabağındadır. 1994-cü ildə də bu sahədə istehsal respublikanın potensial imkanlarından xeyli aşağı səviyyədə olub. İndi 1995-ci ilin birinci rübü sona çatıb. Kənd təsərrüfatı işlərinin çox gərgin və qızğın bir dövrü başlayıb. İndiki dövrdə kənd təsərrüfatı işlərinin aparılması, qarşıya çıxan problemlər, bu sahədə də işlərin sürətləndirilməsi məsələsi müşavirəmizin gündəliyindədir.

Beləliklə, aqrar sahədə iqtisadi islahatlar aparılmasının, o cümlədən cari kənd təsərrüfatı işlərinin vəziyyəti, bu sahədə görülən lazımi tədbirlərin, yəni yaz tarla işlərinin, xüsusən çiyid səpininin, taxıl zəmilərində aparılan işlərin vəziyyəti, üzümçülükdə, ümumiyyətlə kənd təsərrüfatının başqa sahələrində işlərin vəziyyəti ilə bağlı məsələləri müzakirə etmək üçün biz sizi buraya dəvət etmişik. Məqsədimiz çox konkret [335-336] danışmaqdan ibarətdir. Adətən çıxış edənlər nə kimi işlər gördükləri, nələr yaratdıqları barədə hesabat verirlər. Belə hesabatlara o qədər də böyük ehtiyac yoxdur. Əsasən vəziyyəti təhlil etmək və qarşımızda duran problemləri, çətinlikləri göstərmək lazımdır ki, burada müzakirə zamanı onların, eləcə də müxtəlif maneələrin, əngəllərin aradan qaldırılması üçün lazımi tədbirlər müəyyənləşdirək. Müşavirə bu məqsədlə çağırılıbdır. Ona görə də istərdim ki, siz bunu nəzərə alasınız.

### YEKUN SÖZÜ

Güman edirəm ki, çıxışlar eyni xarakter daşıyır, vəziyyət hamımıza aydındır. Ona görə də çıxışları davam etdirməyə ehtiyac görmürəm. Necə bilirsiniz? Bir halda ki, toplaşmışıq, əgər kimdəsə xüsusi məlumat varsa, mühüm bir şey demək istəyirsə, buyursun. Əgər indiyədək olan çıxışlardakı fikirlər deyiləcəksə, mənə belə gəlir ki, məsələ aydındır, elədirmi?

Başlanğıcda mən bugünkü müşavirənin məqsəd və vəzifələrini bildirdim. Bir daha qeyd etmək istəyirəm ki, bu gün buraya toplaşmağımızın səbəbi və məqsədi aqrar bölmədə islahatların gedişinə nəzarət etmək, bu işlərin hansı səviyyədə olmasını aydınlaşdırmaq və bunları sürətləndirməkdən ibarətdir. Eyni zamanda kənd təsərrüfatı işlərinin indiki vəziyyətini aydınlaşdırmaqdan, bu sahədəki çətinlikləri aradan qaldırmaqdan, lazımi tədbirlər görməkdən və nəyin bahasına olursa-olsun bu il kənd təsərrüfatı istehsalının artmasını təmin etməkdən ibarətdir.

Burada verilən məlumatlardan belə nəticə çıxarmaq olar ki, aqrar bölmədə islahatlar çox ləng gedir. Deyə bilərəm ki, indiyədək görülən işləri qənaətbəxş hesab etmək olmaz. Biz bu məsələyə çox ağır yollarla gəlib çıxmışıq. Qanunların qəbul olunması ərəfəsində, layihələrin müzakirəsi vaxtı dəfələrlə qeyd edilmişdir və bu gün bir daha xatırlatmaq istəyirəm ki, obyektiv və subyektiv səbəblər üzündən Azərbaycan Respublikasında iqtisadi islahatların keçirilməsi gecikmişdir. O cümlədən aqrar sahədə islahatlar aparılması həddindən artıq ləngimişdir. Bu da bizim xeyrimizə deyil, zərərimizədir. Dəfələrlə aydınlaşdırmışıq ki, biz kənd təsərrüfatını, aqrar bölməni keçmiş sistem əsasında, keçmiş prinsiplər əsasında idarə edib istənilən nəticəyə nail ola bilmərik. Çünki 1990-cı ildən, deyə bilərəm ki, hətta 1989-cu ildən başlayaraq, Azər[336-337]baycanda kənd təsərrüfatında, ümumiyyətlə, istehsal sahələrində gedən proseslər, istehsalın ilbəil aşağı düşməsi, o cümlədən kənd təsərrüfatı məhsulları istehsalının azalması onu göstərir ki, ciddi, prinsipial dəyişikliklər aparılmalıdır.

Azərbaycanın təbiəti, torpağı, aqrar bölmənin imkanları kənd təsərrüfatında yüksək məhsul istehsal etməyə şərait yaradır. Hələ keçmiş sistemdə, yəni sosialist quruluşu dövründə, kolxoz və sovxozların mövcud olduğu dövrdə biz taxıl, pambıq, üzüm, meyvə, tərəvəz, başqa məhsullar istehsalında, digər sahələrdə bugünkündən üç-dörd dəfə çox məhsul istehsal etmişik. Amma bunlar da Azərbaycan Respublikasının

təbiətinin, torpaqlarının, kənd təsərrüfatı istehsalının son həddi deyildir. Lakin indi biz 70-ci illərdə istehsal etdiyimizdən daha çox məhsul istehsal edə bilərik. Bunun da yolu yeni istehsal üsullarından istifadə etməkdir. Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsindən də istifadə etmək, islahatlar aparmaq, bazar iqtisadiyyatı yolu ilə getmək, sərbəstlik vermək, torpağı kəndlilərə vermək, onları torpağın sahibi etmək, mülkiyyət formasını dəyişdirmək lazımdır. Bunun zəruriliyi aydındır. Bunu bir daha, hər dəfə sübut etməyə, təsdiq etməyə ehtiyac yoxdur. Geriyə də yol yoxdur. Ona görə də əgər biz istəyiriksə doğrudan da, həqiqətən respublikamızın təbiətindən, torpağından, suyundan, havasından, kənd təsərrüfatı imkanlarından maksimum istifadə edərək xalqımızın rifahını yaxşılaşdıraq, iqtisadiyyatı yüksəldək, kənd əhalisinin rifahını yaxşılaşdıraq, onda biz bu yolla getməliyik. Başqa, üçüncü yol yoxdur.

Bir yol kolxoz-sovxoz yolu idi, onun ən yüksək zirvəsini biz 70-ci illərdə gördük. Təəssüf ki, bunu ondan sonra saxlaya bilmədik. Sonrakı proseslər kənd təsərrüfatı istehsalını ilbəil aşağı saldı. İndi, demək olar ki, quyunun dibinə düşmüşük.

Bundan o tərəfə yol yoxdur. Ona görə də aydındır ki, bu sistemlə, bu iqtisadi münasibətlərlə, yəni indiyə qədər olan iqtisadi münasibətlərlə kənd təsərrüfatı sahəsində yüksəliş əldə edə bilməyəcəyik. İsmayıllının icra hakimiyyəti başçısı dedi ki, süd, ət istehsalı bir qədər artmışdır. Bu, ola bilər. Amma böyük dəyişikliklər əldə edə bilməyəcəyik. Bu böyük dəyişikliklərin yolu islahatlar yoludur.

Bunu dəfələrlə demişik. Mən bu gün bir daha deməyə məcburam, ona görə ki, qanunlar qəbul ediləndən indiyədək olan müddətdə bunların həyata keçirilməsi üçün lazımi iş gö[337-338]rülməmişdir. Səbəb nədir, nə üçün belə olmuşdur? Mühafizəkarlıq, yeniliyi qəbul etməmək, digər tərəfdən də bürokratizm, səhlənkarlıq, tapşırılan vəzifəni pis yerinə yetirmək və bir çox başqa hallarda vəzifədən sui-istifadə etməkdir. Bu hallar bizim idarəetmə sistemimizdə çox dərin kök salmışdır. Bütün bunlar işimizin yerinə yetməsinə əngəl törədir. Mən bugünkü müzakirədən bu nəticəni çıxarıram. Əgər qanun qəbul edilmişdirsə, əksəriyyət onun həyata keçirilməsi üçün can yandırmır.

Həm mərkəzi, həm də yerli komissiyalar fəaliyyətlərini keçirdikləri müşavirələrin, iclasların, ayrı-ayrı tədbirlərin sayı ilə qiymətləndirirlər. Lakin bunlar nəticə deyil, hadisədir. Nəticə ondan ibarət olacaqdır ki, bu islahatlar doğrudan da əməli şəkildə həyata keçirilsin. Bunun özü də son nəticə deyildir. Bu da vasitədir ki, islahatlar həyata keçiriləndən sonra tamamilə öz nəticəsini versin. Son nəticə isə istehsalın artmasıdır. Bunun üçün qarşıda hələ çox yolumuz var, dəfələrlə demişik ki, bu, uzun yoldur. Ancaq biz bunu qısalda, daha sürətlə gedə, istədiyimiz mərhələyə tez çata bilərik. Bu şərtlə ki, biz bu işdən yapışaq, onu irəliyə aparaq və bunun nəticə verəcəyinə inanaq.

Lakın bu işlərlə məşğul olan rəhbər şəxslərin dediklərindən görürük ki, biz yaxın vaxtlarda bu nəticəyə nail ola bilməyəcəyik. Bunlara əsasən deyirəm ki, qanunların həyata keçirilməsini qənaətbəxş hesab edə bilmərəm, aqrar bölmədə islahatların aparılmasında nəzərdə tutulmuş tədbirlər tam həyata keçirilməmişdir. Bu isə ümumi işimizə çox böyük zərər vurur. Ona görə də mərkəzi islahat komissiyasının sədri Abbas Abbasovdan, onun müavini İrşad Əliyevdən, komissiyanın üzvlərindən, yerli komissiyalardan, – bunlara rayon icra hakimiyyətlərinin rəhbərləri başçılıq edirlər, – bu işə ciddi yanaşmağı tələb edirəm. Biz qanunda icra başçılarının bu işə rəhbərlik etməsini ona görə nəzərdə tutduq ki, onlar rayonlarda səlahiyyətli adamlardır, dövlət nümayəndələridir, dövlətin siyasətini yerinə yetirməlidirlər. Ancaq yenə deyirəm, mən bunu görmürəm. Ona görə yerli komissiyalardan, icra hakimiyyəti başçılarından tələb edirəm ki, işdə ciddi dönüş yaratmaq lazımdır. Biz bu sürətlə razı ola bilmərik. Mən bu müşavirənin keçirilməsini dünən zəruri hesab edirdimsə, bu gün artıq mənə məlum olub ki, bu, həddindən çox lazımdır.

Mən bu gün Abbas Abbasova dedim və dünən bu müşavirənin keçirilməsi haqqında İrşad Əliyevlə telefonla danışar[338-339]kən o mənə dedi ki, əlbəttə, müşavirəni keçirsəniz yaxşı olar. Ancaq biz bu işi də görmüşük, o işi də görmüşük. Belə çıxır ki, müşavirəni keçirmək də olar, keçirməmək də. Ancaq mən görürəm ki, bu nə qədər lazımdır.

Doğrudur, şəxsən mənim proqramım olduqca gərgindir. Bu gün bir neçə saat bu işlə məşğul olmaq üçün başqa məsələləri, problemləri kənara qoymuşam. Ancaq indi dərk edirəm ki, bu, nə qədər lazım imiş ki, görək iş nə yerdədir, nə vəziyyətdədir. Bu, oradan-buradan gələn məlumatların təəssüratı deyil. Lakin bu gün burada keçirilən müşavirə tam təəssürat yaratdı və məndə çox böyük həyəcan, çox narazılıq hissi doğurdu ki, biz bu sürətlə işləyə bilmərik. Nəticə çıxarmaq, islahatların həyata keçirilməsini sürətləndirmək, sənədləri qısa müddətdə hazırlamaq lazımdır. Mənə dedilər və bu gün Abbas Abbasov müraciət etdi ki, həmin normativ aktların hazırlanmasının vaxtı bir qədər uzadılsın. Əgər 5-6 gün uzatmaq lazımdırsa, uzadılsın. Ola bilər, bir həftə də uzadaq, lakin bundan o yana keçmək olmaz. Çünki yenə də deyirəm, sənədlər hələ öz-özlüyündə islahat demək deyildir. Mən bunu sizdən tələb edirəm və zənnimcə, bundan sonra həm mərkəzi, həm yerli islahat komissiyaları hər gün bu işlərlə məşğul olmalı, özlərinə hesabat verməlidirlər. Görürəm ki, bu islahatların keçirilməsi haqqında izahat işinə də böyük ehtiyac var.

Mən əvvəl belə başa düşür və belə fikirləşirdim ki, izahata daha ehtiyac yoxdur, biz ictimaiyyəti, kənd zəhmətkeşlərini inandıra bilmişik ki, bu islahat lazımdır. Ancaq bugünkü əhval-ruhiyyədən mən belə bir qənaətə gəlirəm ki, yox, izahat işi aparmaq lazımdır. Yerli hakimiyyət orqanları, yəni icra hakimiyyəti başçıları təkcə bu

işlərlə, komissiyalara rəhbərlik etməklə yox, praktiki işlə məşğul olmalı, eyni zamanda izahat aparmalıdırlar. Bəli, dəfələrlə demişik ki, bu məsələlərin hamısı tamamilə sərbəst, təzyiqsiz, könüllü surətdə həyata keçirilməlidir. Biz bu islahatları keçmişdə, kollektivləşməni aparan kimi zorakılıqla, repressiyalarla həyata keçirmək fikrində deyilik. Ancaq köhnə üsul-idarədən əl çəkə bilməyən mühafizəkarlar var ki, onlara izah etmək və ya başa salmaq lazımdır. Əgər onlar başa düşmürlərsə, bu işdən kənarlaşdırılmalıdırlar. Bu iş elədir ki, onu həyata keçirmək üçün bugünkü göstərişdən savayı insanların özündə də inam olmalıdır. Əgər kimdəsə bu işə inam yoxdursa, bu iş ürəyindən deyilsə, [339-340] yaxşı olar ki, kənara çəkilsin, bir qədər gözləsin, baxsın görsün bundan nə çıxır. Bəziləri hesab edir ki, bir şey çıxmayacaq, yaxşı, onda sevinər, gəlib deyər ki, onun istədiyi kimi olmur. Lakın belə deyildir.

Ona görə yenə də deyirəm, bu məsələlərin hamısı çox demokratik şəraitdə, könüllülük şəraitində getməlidir. Bu tədbirlərin keçirilməsinin zəruriliyim insanlar özləri dərk etməlidirlər. Ən əsası isə, kənd təsərrüfatı məhsulları istehsalının artırılması üçün bunun yeganə yol olduğunu dərk etməlidirlər.

Ancaq kimsə bunu anlaya bilmirsə, mühafizəkardırsa, yaxud bu işlərin əleyhinə çıxırsa, onları kənarlaşdırmaq lazımdır. Bu adamlar bizə sadəcə mane olurlar.

Birinci məsələ haqqında mən bunları dedim və güman edirəm ki, söylədiklərimi dərk edə bildiniz. Tələb edirəm ki, bu işlərlə ciddi məşğul olasınız.

Kənd təsərrüfatında cari işlərin həyata keçirilməsi haqqında. Şübhəsiz ki, bu islahatlar, tədbirlər kənd təsərrüfatı sahəsində görüləcək işləri irəlilətməli, bunlara mane olmamalıdır. Ola bilər ki, bu islahatları bəhanə edərək kənd təsərrüfatının bəzi sahələrini planlaşdırsınlar. Biz indi bir tərəfdən islahatlar keçirməli, ikinci tərəfdən mövcud imkanlardan istifadə edərək 1995-ci ildə kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına nail olmalıyıq. Bundan ötrü tam əsas var. Bu il kənd təsərrüfatı işləri üçün ümumiyyətlə çox əlverişli ildir. Müqayisə üçün onu da demək istəyirəm ki, əgər 1993-cü ilin payızını və 1994-cü ilin yazını götürsək, o dövrdə şiddətli müharibə gedirdi. Başımız buna qarışmışdı. Bilirsiniz ki, 1993-cü ilin sonunadək Ermənistan silahlı qüvvələri bölgələrimizə hücum edirdilər. 1994-cü ilin əvvəlində də çox qanlı döyüşlər gedirdi. Bilirsiniz ki, ordumuz bir neçə istiqamətdə öz qüdrətini göstərdi. Bəzi bölgələrdə əvvəllər işğal olunmuş torpaqlar geri alındı. Şübhəsiz ki, bu, Ermənistan silahlı qüvvələrini daha da hiddətləndirdi. Onlar bir neçə məğlubiyyətdən sonra qüvvələrini topladılar və xatirinizə salmaq istəyirəm ki, məhz 1994-cü ilin aprelində ən şiddətli döyüşlər oldu. Yadınıza salıram, hətta bizi qorxudur, bizə deyirdilər ki, siz artıq məğlub olmusunuz, təslim olmalısınız. Çünki bilirsiniz ki, bir neçə protokol var idi və biz onlara imza atmadıq. Ona görə də bizə, Azərbaycan dövlətinə qarşı narazılıq var idi. Təsadüfi deyildi ki, apreldə və mayın 12-dək Ermənistan Silahlı Qüvvələri demək olar bütün cəbhə bölgələrində hücuma [340-341] keçmişdi. Xatırladıram ki, onların planları aprelin axırınadək, xüsusən mayın əvvəlində Tərtər, Bərdə rayonlarını işğal edərək Yevlaxa çıxmaq, Gəncəni işğal etmək və Azərbaycanı təslim etməkdən ibarət idi. Bunu unutmaq lazım deyil. Bu planlar açıq şəkildə deyilirdi. O zaman bu döyüşlərdə əsir götürdüyümüz Ermənistan hərbçiləri deyirdilər ki, onlar mayın 1-də Tərtərdə bayram edəcəklər, mayın 9-da Bərdədə, Gəncədə qələbə bayramı keçirəcəklər.

Bir il bundan əvvəl biz belə dövrdə yaşayırdıq, belə bir vəziyyətdə idik. Bu gün məmnuniyyətlə, qürur hissi ilə deyə bilərəm ki, həmin güclü, şiddətli hücumların qarşısı alındı. Ö zaman Ermənistan silahlı qüvvələrinə göstərə bildik ki, Azərbaycan Ordusu artıq əvvəlki ordu deyildir, öz torpaqlarını müdafiə etməyə qadirdir. Biz itkilər verdik, qan töküldü, amma bilin ki, Ermənistan tərəfinin itkiləri qat-qat artıq oldu. Onlar məhz buna görə, öz planlarını həyata keçirə bilmədiklərinə görə mayın 12-də atəşkəsə razılıq verdilər. Bu təşəbbüs bizim tərəfimizdən deyil, qarşı tərəfdən idi. Biz də bununla razılaşdıq və hər iki tərəfin razılığı və vasitəçilik nəticəsində mayın 12-də atəşkəs haqqında saziş imzaladıq. Mən bu barədə sonra deyəcəyəm. Ancaq indi xatırladaraq bildirmək istəyirəm ki, o vaxt biz belə bir şəraitdə kənd təsərrüfatı işləri apardıq. Xatirinizdədir ki, müharibə şəraitində biz burada yaz kənd təsərrüfatı işləri haqqında müşavirə keçirmişdik.

Amma bu il ondan tamamilə fərqlidir. On bir aydır ki, müharibə getmir, atəşkəs rejimi davam edir, sakitlikdir, rayonlara şəhidlər gətirilmir. O zaman rayon rəhbərlərinin, o cümlədən kolxoz-sovxoz rəhbərlərinin başı daha çox Azərbaycan torpaqlarının müdafiəsi məsələlərinə qarışır, cari məsələlərlə məşğul olmağa o qədər də vaxtları qalmırdı. İndi bu problemlər yoxdur. Bizdən ötrü bir çox problemlər var, amma kənd təsərrüfatı sahəsində çalışanlar – həm hakimiyyət orqanları, həm də kənd təsərrüfatı orqanları, kənd əhalisi üçün indi həmin problemlər artıq yoxdur. Ona görə də bu ilin yazında kənd təsərrüfatı işlərinin aparılması üçün şərait keçən ildəkindən qat-qat fərqlidir, yəni çox əlverişli, yaxşıdır. Bu şəraitdən istifadə etməmək cinayət olardı. Əgər belə bir şəraitdə bizim kənd təsərrüfatımız keçən ilin səviyyəsində qalarsa, bu, biabırçılıq, cinayət olacaqdır. Bu o demək olacaqdır ki, biz keçən ildəkindən də pis işləyirik, halbuki şəraitimiz əvvəlki ilə [341-342] nisbətən qat-qat yaxşıdır. Şübhəsiz, belə şəraitdə hamımızın haqqı var sizdən tələb edək ki, kənd təsərrüfatı işlərini indikindən daha yaxşı aparasınız.

Lakin demək istəyirəm ki, bu gün kənd təsərrüfatı işlərinin gedişindən razı qala bilmərəm. Şübhəsiz ki, verilən məlumatlar təəssüratı müəyyən qədər genişləndirdi, ancaq məni qane etmədi. Ona görə də tələb edirəm ki, siz kənd təsərrüfatı işlərinin aparılmasında ciddi dönüş yaradasınız. Bizim nəyimiz varsa əlimizdə olan imkanlarımızdır. Amma bu imkanlar da genişdir. Biz bu il keçən ildəkindən qat-qat artıq kənd təsərrüfatı

məhsulları istehsal etməliyik. Bir tərəfdən islahatlar aparacağıq, bu kömək edəcək, digər tərəfdən də ətraflı izah etdim ki, şərait keçən ildəkindən xeyli yaxşıdır.

Burada bir neçə məhsul haqqında söhbət gedir. Birincisi, taxıl haqqında. 600 min hektardan çox sahədə taxıl əkilmişdir. Bu, böyük sahədir. Ola bilər kimsə şübhə etsin ki, buradan yüksək məhsul götürmək olar və ya olmaz. Hər halda yüksək məhsul götürmək üçün əsas var. Ancaq bu qısa müddətdə – o qədər də çox vaxt qalmamışdır, indi aprelin 14-dür, iyunda biçin başlayacaq – zəruri aqrotexniki tədbirlər görülməli, əkin sahələrinə lazımi qulluq edilməlidir. Bunu deyərkən mən suvarmanı, becərmə işlərini, gübrə verilməsini nəzərdə tuturam. Əvvəlki vaxt deyil ki, gübrəmiz də, su mənbələrimiz də bol olsun. Nə var – odur. Keçmiş dövrdən əsas fərqimiz də ondan ibarətdir ki, belə bir ağır şəraitdə kənd təsərrüfatı məhsulları istehsal edirik. Ona görə də mövcud imkanlardan istifadə edərək taxıl istehsalını artırmaq lazımdır.

Taxılçılıqda çalışan kənd zəhmətkeşlərinin həvəsləndirilməsi, onlarla vaxtında müqavilələrin bağlanması, məhsulun satış qiymətinin artırılması məsələləri, şübhəsiz ki, böyük rol oynayır. Yəni indi iqtisadi stimullar əsas, həlledici şərtlərdir. Bunlardan səmərəli istifadə etmək lazımdır. Mühafizəkarlığa yol vermək lazım deyildir. Kənd Təsərrüfatı Nazirliyi və Taxıl Məhsulları Dövlət Şirkəti – İrşad Əliyev və Kamil Məmmədov bir də götür-qoy etməlidirlər ki, taxılçılıqla məşğul olan adamların məhsul yetişdirilməsi üçün daha ürəkdən çalışmaları, biçinə yaxşı hazırlaşmaları, taxılı dövlətə təhvil verməleri üçün hansı şərait yaradılsın. Şübhəsiz ki, bunu təmin etmək lazımdır. Siz deyirsiniz ki, ötən vaxtlarda taxıl tədarükü indikindən artıq olmamışdır. Olmuşdur, dövlətə 400 [342-343] min ton taxıl da təhvil verilmişdir. Lakin şübhəsiz ki, indiki vəziyyət keçmişdəki deyildir. İndi başqa üsullardan istifadə etmək lazımdır. Bilirsiniz ki, taxılın çatışmadığı böhranlı vaxtda biz nə qədər çətinlik çəkdik, necə ağır vəziyyətə düşmüşdük. Son aylar Avropa İqtisadi Şurası bizə kömək edir, onun hesabına vəziyyətimizi müəyyən qədər düzəltmişik. Lakin bu o demək deyil ki, biz daim bu köməklə yaşayacağıq. Öz imkanlarımızdan istifadə edərək Azərbaycan Respublikasının əhalisini taxıl məhsulları və çörəklə daim təmin etməliyik.

Son vaxtlar həm çörəyin qiymətinin sərbəstləşdirilməsi, həm də bir neçə məsələnin həll edilməsi ilə əlaqədar əhalinin çörəklə təmin olunmasında elə bir problem yoxdur. Amma bir neçə ay əvvəl nə qədər çətin problemlərlə qarşılaşmışdıq, keçən ilin oktyabr-noyabr aylarında necə böhranlı vəziyyətdə idik. Elə olurdu səhərədək fikirləşirdik ki, Bakını bir gün çörəklə təmin etmək üçün un gəlib çıxacaq, ya yox. Həmin günləri unutmaq lazım deyildir. Bundan nəticə çıxararaq işi elə etibarlı qurmaq lazımdır ki, biz belə böhranlı hallarla bir də rastlaşmayaq. Onsuz da vəziyyətimiz çətindir. Şimaldan sərhəd, dəmir yolu, avtomobil yolu bağlıdır. Doğrudur, son vaxtlar mənim apardığım danışıqlardan, Rusiya prezidenti Boris Yeltsinə müraciətimdən, Rusiyanın baş naziri Viktor Çernomırdinlə Kopenhagendəki görüşümdən, eləcə də telefon danışıqlarımdan sonra müəyyən qərarlar qəbul edilmişdir. Bizim nümayəndə heyətimiz Moskvada, Dağıstanda da olmuş, müəyyən iş görülmüşdür. Ancaq bunlar hələ sərhədin, kommunikasiya xətlərinin tam açılması demək deyildir. Ona görə də biz ağır blokada şəraitindəyik. Belə bir halda biz gərək respublika əhalisinin taxılla, çörəklə təminatım etibarlı şəkildə quraq. Özü də bu təminat bir-iki aylıq yox, bütün 1995-ci il ərzində və 1996-cı ildə də olmalıdır, o vaxta qədər ki, xalq təsərrüfatının başqa sahələrində istehsalımız artacaqdır. Ona görə də Kənd Təsərrüfatı Nazirliyindən, yerli hakimiyyət, kənd təsərrüfatı orqanlarından, taxıl məhsulları şirkətindən tələb edilir ki, bu işlə ciddi məşğul olsunlar. Bu gün buraya icra hakimiyyəti başçıları ilə bərabər rayonların kənd təsərrüfatı, kimya, suvarma idarələrinin rəhbərləri və başçıları da dəvət olunmuşlar. Ona görə ki, biləsiniz vəziyyət necədir, sizdən nə tələb olunur, yaxşı nəticələr əldə etmək üçün bundan sonra işi necə qurmaq lazımdır.

Güman edirəm ki, əgər biz indi işimizi gücləndirsək, bu il [343-344] keçən ildəkindən xeyli çox taxıl məhsulu əldə edə bilərik. Buna əsas var və bu gün, aprelin 14-də bu vəzifəni bir daha sizin qarşınızda qoyur və ümidvar olduğumu bildirmək istəyirəm ki, həmin vəzifə həyata keçiriləcəkdir.

Pambıq əkini gedir və burada verilən məlumatlardan görünür ki, işlərin gedişi ümumən normaldır. Ancaq çiyid səpinini aprelin 25-dək qurtarmaq lazımdır. Bu, optimal vaxtdır. Bundan o yana qalarsa, şübhəsiz ki, yaxşı məhsul götürməyə imkan olmayacaqdır. Çiyid səpinini çox səriştəli, diqqətlə aparmaq lazımdır. Hamımız bilirik, xüsusən pambıqçılıqla məşğul olan rayonlarda bilirlər ki, aprel həmişə pambıqçılıq sahəsində bizdən ötrü çox əhəmiyyətli və məsuliyyətli ay olmuşdur. Əgər səpini yaxşı apara, normal çıxışı təmin edə bilsək, bu, gələcək məhsulun əsasıdır. Ona görə də mən bu müşavirənin məhz bu gün keçirilməsini lazım bildim ki, qarşımızda duran vəzifənin nə qədər ciddi və məsuliyyətli olduğunu sizə və pambıqçılıq rayonlarında bu sahədə çalışan vətəndaşlarımıza bir daha çatdıram.

Biz keçən il çox az – 285-286 min ton pambıq məhsulu götürdük. Bu, Azərbaycan üçün biabırçı rəqəmdir. Ondan əvvəlki ildə də belə olmuşdur. Ümumiyyətlə, son illərdə belədir. Bu gün burada kənd təsərrüfatı naziri bildirdi ki, 212 min hektar sahədə çiyid səpini aparılır. Bu halda şübhəsiz ki, yüksək məhsul götürməyə imkanımız var. Orta hesabla hər hektardan ən azı 20 sentner məhsul alsaq, görün nə qədər olacaqdır. Bu, 400 min tondan çox pambıq məhsulu deməkdir. Mən burada sizin qarşınızda heç bir qəti rəqəm qoymaq istəmirəm. Sadəcə olaraq bildirmək istəyirəm ki, imkanlarımız böyükdür. Onu da bilmək lazımdır ki, respublikamızın iqtisadiyyatının indiki ağır dövründə, dönərli valyutaya böyük ehtiyacımız olan bir dövrdə pambıq bizdən ötrü ən lazımlı məhsuldur. Təsəvvür edin, məsələn, burada dedilər ki, 60 min ton mahlıc satılması barədə müqavilə

bağlanmışdır. Bunun satışından 100 milyon dollar, bəlkə də bir az artıq gəlir götürüləcəkdir. Həmin gəlirin böyük bir hissəsi pambıqçılara, kənd təsərrüfatına gedəcəkdir. Bunu əldən buraxmaq olarmı?

Ancaq kənd təsərrüfatı naziri dünən mənə dedi ki, xarici bazara ümumən 75 min ton mahlıc satmaq nəzərdə tutulmuşdur. Deməк, 15 min ton da əlavə satılacaqdır. Ondan da xeyli valyuta gələcəkdir. İndi maliyyə vəziyyətimizin ağır olduğu bir vaxtda – buradakı çıxışlardan başa düşdüm ki, borclar var, [344-345] məsələn, taxılçılara da, pambıqçılara da, tütünçülərə də, hamısına borclar yar – bizə valyuta, dönərli valyuta lazımdır. İndiki vəziyyətimizdə Azərbaycanda dönərli, valyutanın əsas mənbələrindən biri pambıq məhsuludur. İstərdim ki, bu məhsulun təkcə pambıqçılar üçün, pambıqçılıq rayonları üçün deyil, ölkəmizin iqtisadiyyatı üçün nə qədər əhəmiyyətli olduğunu hamı dərk etsin.

Ona görə də bu il mövcud imkanlardan istifadə edərək yüksək pambıq məhsulu götürmək lazımdır. Şübhəsiz ki, bu, kənd təsərrüfatının inkişafına, islahatların aparılmasına kömək edəcək və 1996-cı il üçün böyük zəmin yaradacaqdır. Güman edirəm ki, bu mümkündür və siz bununla ciddi məşğul olmalısınız. Kənd təsərrüfatı naziri, rayon icra hakimiyyəti başçıları, Nazirlər Kabineti bu işi ciddi nəzarətə götürməlidirlər. Çiyid səpini, becərmə ilə əlaqədar bütün məsələlər vaxtında həll olunmalı, Nazirlər Kabinetində baxılaraq lazımi tədbirlər görülməlidir. Əgər bunu mənim səviyyəmdə müzakirə etmək lazım olarsa, istənilən vaxt bu məsələlərə baxılmasına hazıram. Ona görə ki, yenə də deyirəm, bu il bizim yüksək pambıq məhsulu götürməyə imkanımız var və bunu əldən buraxmamalı, ondan səmərəli istifadə etməliyik. Bir daha tapşırıram ki, bu məsələlərlə ciddi məşğul olasınız.

Qeyd etdim ki, 60 min ton mahlıc satmaq haqqında müqavilə bağlanmışdır, 15 min ton da əlavə satılacaqdır. Amma bunun ixrac olunması məsələsi çox zəifdir. Vaxtını dəqiq bilmirəm, amma mənə belə gəlir ki, müqavilə üç ay əvvəl bağlanmışdır. Lakin kənd təsərrüfatı nazirinin bu gün verdiyi məlumat yenə də qənaətbəxş hesab edilə bilməz. Biz bu mahlıcı tezliklə ixrac etməliyik. Onu nə qədər tez ixrac edə bilsək, ondan alınacaq valyuta da bir o qədər tez gələcəkdir. Kənd təsərrüfatı naziri bu gün deyirsə ki, artıq üç milyon dollar gəlmişdir və ondan istifadə edirsə, demək, bu onu göstərir ki, müqavilədə nəzərdə tutulan məhsul tezliklə emal olunmalı və mahlıc təcili ixrac edilməlidir. Məhsul nə qədər tez ixrac olunarsa, onun dəyərini bir o qədər tez alaraq öz işinizdə istifadə edəcəksiniz. Bunu geniş izah etməyə ehtiyac yoxdur. Bir halda ki, müqavilə bağlanmışdır, onun icrasını niyə gecikdirirsiniz?

Burada dedilər ki, lent çatışmır, ip çatışmır və sairə. Bu, sizin öz işinizdir. Bir halda ki, siz məhsul satıb valyuta alırsınız, [345-346] bir qismini artıq almısınız, demək, bu işi qurmalısınız. Haradansa lent tapmalısınız, haradansa ip tapmalısınız. İndi keçmiş vaxt deyil ki, Dövlət Plan Komitəsinə və ya Təchizat Komitəsinə deyim ki, bunları haradansa tapıb sizə versin. Bu işlərlə özünüz ciddi məşğul olmalısınız. Ancaq mənim tələbim ondan ibarətdir ki, müqavilə bağlanmış, mahlıc təcili ixrac olunmalıdır.

Bizə gələn məlumatlardan belə də başa düşmək olar ki, bəzi rayonlarda icra hakimiyyəti başçıları, pambıqtəmizləmə zavodlarının direktorları bu işi qəsdən gecikdirirlər. Bəziləri şəxsi mənfəət götürmək üçün, bəziləri başqa məsələlərdən ötrü gecikdirirlər. Hər halda çox təəssüf. Bu gün müşavirənin gedişində də dedim ki, indi həyatımızda bizə mane olan ən böyük amillərdən biri vəzifəli adamların tutduqları mövqedən sui-istifadə edərək ümumi işimizə zərər vurmalarıdır. Bu, mahlıcın ixrac olunmasında da görünür, hiss olunur. Ona görə də Fuad Quliyevə, Abbas Abbasova, İrşad Əliyevə göstəriş vermişəm ki, bu məhsulun ixracı hər gün nəzarət altında olmalıdır. Deyirdilər ki, guya Astara gömrükxanasında maneçilik törədirlər. Gömrük Komitəsinin sədri buradadırmı? Sənə tapşırıram: nəzarət et, hər gün gömrük məntəqəsinə gələn mal həmin gün də oradan keçməlidir. Bütün maneələr aradan götürülməlidir. Yenə də deyirəm, indi Azərbaycanda valyutanın çox qıt olduğu bir vaxtda bu məhsulun ixracı bizdən ötrü olduqca zəruridir.

Pambıqtəmizləmə zavodlarının direktorları buraya dəvət olunmuşlar. Onların hamısına öz fikrimi deyirəm: bilin, siz pambığı nə qədər tez emal edib mahlıcı ləngimədən göndərsəniz, zavodun işini bir o qədər tez sahmana salacaq, yeni məhsulun qəbuluna hazırlaşacaqsınız. Bundan təsərrüfatlar da, pambıqtəmizləmə zavodları da öz xeyrini götürəcəkdir. Bunlar hamısı göz qabağındadır. Ona görə də bu işə əngəl törətmək lazım deyildir.

Burada tütün məhsulu barədə məsələ qalxdı. Son dövrdə, son aylarda keçirilən müşavirələrimizdə bu məsələ dəfələrlə qoyulmuşdur. Mən hər dəfə göstəriş verirəm, ancaq təəssüf ki, bu məsələ həll olunmur. Nə üçün belədir, mən bunu başa düşə bilmirəm. Bizim dövlətimiz, hökumətimiz məgər acizdir ki, bunu həll edə bilmir? Tütün məhsulu var, onu ixrac etməkdə acizlik çəkirik. Burada kimsə yenə öz şəxsi mənfəətini güdür, kimsə şəxsi mənfəəti olmadığına görə bu işlə məşğul [346-347] olmaq istəmir. Amma əvəzində respublikamız zərər çəkir, iqtisadiyyatımıza zərbə vurulur. Tütünçülər də zərər çəkirlər. Axı biz yaxşı bilirik ki, tütün istehsal etmək doğrudan da çətindir. Əgər tütün istehsal edən adam məhsulu indiyədək təhvil verə, pulunu ala bilməmişdirsə, əvvəla, tütün xarab olur, keyfiyyəti aşağı düşür, ikincisi, həmin adam bu il tütün əkmək istəməyəcəkdir. Nəyinə lazımdır?

Mən bu məsələyə çox vaxt sərf etmək istəmirəm. Ona görə də Fuad Quliyevə, Abbas Abbasova, İrşad Əliyevə, maliyyə nazirinə, bilmirəm daha kim lazımdırsa, onlara tapşırır və beş gün vaxt verirəm, bu müddətdə respublikadakı tütün məhsulunun hamısının ixrac olunması məsələsini həll edərək mənə raport verməlisiniz.

Sizi xəbərdar edirəm, əgər bu tapşırığın yerinə yetirilməsini kim ləngitsə, tutduğu vəzifəsindən asılı olmayaraq, çox ciddi cəzalanacaqdır. Daha buna dözmək olmaz.

İrşad Əliyev burada şərab məhsullarının, çayın satılması ilə bağlı məsələlər də qaldırdı. Bunlar aydındır, mən bir daha izah etmək istəmirəm. Həmin adamlara tapşırıram ki, beş gün ərzində bu məsələləri də həll etsinlər və mənə yazılı şəkildə raport versinlər: nə etdilər, nəticəsi nə oldu? Elə etməliyik ki, Azərbaycanda çay istehsalı da artsın, bu il üzüm istehsalını da artırmalıyıq. Üzüm bağlarında ciddi iş görülməlidir. Mövcud üzüm bağlarından keçən ildəkinə nisbətən qat-qat artıq məhsul götürüb, bundan kənd təsərrüfatında çalışan adamlar üçün, dövlətimiz üçün çox böyük gəlir əldə edə bilərik. Bununla məşğul olmaq lazımdır. Ona görə bu sahədə olan problemlərin həll edilməsinə də mən beş gün vaxt verirəm. Bu məsələləri həll edin və aprelin 20-dən gec olmayaraq mənə məlumat verin.

Gömrüklə əlaqədar, ümumiyyətlə, bir çox məsələlər var. Bunu keçən görüşlərimizdə də demişəm. Əgər gömrüklə əlaqədar ya qanun, ya qərar və ya nəsə hazırlanırsa, nədənsə gecikir, vaxt keçir. Bu gün tənəffüs vaxtı Fuad Quliyevə də dedim. Elə məsələlər var ki, bunları böyük sənədlərin quyruğuna bağlamaq lazım deyil. Bir məsələnin bir günün içərisində həll edilməsi üçün operativ qərar qəbul etmək olar. Bu halda həmin məsələ həll ediləcək, yol açılacaq, iş gedəcəkdir. Amma bizdə köhnə adət var: hər bir məsələni böyük qərara bağlayırıq, onun qəbul edilməsi də bir ay, iki ay çəkir, orada razılaşdırılır, burada razılaşdırılır, axırda vaxtın itirilməsi ilə nəticələnir. Bilirsiniz, bazar iqtisadiyyatının [347-348] əsas prinsiplərindən biri də odur ki, hər şey təcili həll olunmalıdır. Ola bilər, bu xasiyyət camaatımızda hələ yaranmamışdır. Keçmiş quruluş vaxtında hər şey dövlətin idi. Məsələn, məhsulu yığıb dövlətə satırdın. Pulunu nə vaxt, necə verəcəkləri barədə fikirləşmirdin – onsuz da verəcəkdilər, narahatçılıq yox idi.

Amma indi bazar iqtisadiyyatıdır, alış-verişdir. Məhsulu nə qədər tez satsan, dəyərini nə qədər tez alıb istifadə etsən, bir o qədər çox gəlir götürəcəksən. Bu işləri, yeni iqtisadi formaları bilmək lazımdır. Bilmək, bunlardan nəinki istifadə etmək, həm də bunlara alışmaq lazımdır. Biz keçmiş bürokratik yollarla yeni şəraitdə işləyə bilmərik. Beləliklə, mən yenə də bu fikrin üzərinə gəlirəm ki, bürokratizmi aradan qaldırmaq lazımdır. Bürokratizm bizi boğur. O, hər yerdə – Prezident Aparatında da, Nazirlər Kabinetində də, nazirliklərdə də – İqtisadiyyat Nazirliyində də, Maliyyə Nazirliyində də, icra orqanlarında da var. Bir var ki, bəzi adamlar köhnə xasiyyətlərinə görə bürokratizmə vərdiş ediblər, amma bəziləri, – bunu bayaq dedim, bir də təkrar edirəm, – bunu qəsdən, şəxsi mənfəətlərindən, məqsədlərindən ötrü edirlər. Bu, ən dəhşətlisi, ən təhlükəlisi və bizim üçün ən zərərlisidir.

Bir-iki gün öncə Türkiyənin baş naziri xanım Tansu Çillər Bakıya gəlmişdi. Bildiyiniz kimi, onunla söhbətlərimiz, görüşlərimiz oldu. Onunla birlikdə iş adamlarının böyük bir qrupu da gəlmişdi. Bu söhbətlər və görüşlərdə də, əvvəllər Türkiyədə – İstanbulda, Ankarada iş adamları ilə görüşəndə də hiss etmişəm ki, onların çoxu gəlib burada işləmək istəyir. Ancaq bir tərəfdən bunun üçün şərait yaradılmır, o biri tərəfdən də onlar gəlib burada investisiya qoymaq üçün addım atanda bizim vəzifəli şəxs birinci növbədə deyir ki, bundan mənə nə çatacaq, filan qədər verməlisən. Əgər vermirsənsə, çıx get. Gələn də deyir ki, ay qardaş, ay yoldaş, ay dost, mən burada yatırım yapmaq, sizə mənfəət vermək istəyirəm. Məgər sizə mənfəət vermək istəyəndə gərək sizə rüşvət verəm?

Axı, bu biabırçılıqdır! Bu bizim iqtisadiyyatımıza zərbə, xalqımıza ləkədir, millətimizi də nə qədər çirkin vəziyyətdə göstərir! Buna dözməkmi olar? Deyəsən oktyabr ayında idi, Türkmənistanın müstəqillik günü münasibətilə Aşqabata getmişdim. Orada yeni, çox müasir bir hava limanının tikildiyini gördüm. Prezident Saparmurad Niyazovla danışanda mənə dedi ki, bunu bir neçə şirkət kreditlə tikmişdir, amma özləri [348-349] gedib Avropada bəzi banklardan alıb tikmişlər, sonra biz bunu verəcəyik. Mən də Türkiyədə bir neçə iş adamına dedim ki, bu üsuldan bizim üçün də istifadə etmək lazımdır. Dünən mənim yanıma bir iş adamı gəlmişdi. Deyir ki, iki nəfər gedib haradansa doğrudan da belə bir maliyyə mənbəyi taparaq gəlib burada kiməsə təklif edib, bizimkilər isə deyiblər ki, bizə lazım deyildir. Düzdür, konkret olaraq kimə təklif etdiklərini o mənə deyə bilmədi. Ancaq mən bunu arayıb tapacağam.

İqtisadiyyat Nazirliyi haqqında danışmaq istəyirəm. Mənə çox deyirlər ki, investisiya haqqında təkliflərlə İqtisadiyyat Nazirliyinə gəlirlər, lakin ya onları qəbul etmirlər, ya da qəbul edərkən qarşılarına elə şərtlər qoyurlar ki, onlar bu şərtlərlə razılaşa bilmirlər. Çox hallarda da rüşvət tələb edirlər. Onlar da deyirlər ki, biz gəlib burada investisiya qoyaq, iş görək, hələ bu işi görməmişdən də sizə rüşvət verək? Deyirlər ki, heç olmasa imkan verin iş görək, həmin işin nəticəsindən, ola bilər, siz nə isə götürəsiniz. Bu cür biabırçılıq olar?

Bilirsiniz, belə hallarla nəinki mübarizə aparmaq, bunları aradan qaldırmaq lazımdır. Bunlar indiki keçid dövründə bizə vurulan ən böyük zərbələrdir. Ola bilər bu sizlərə aid deyildir. Amma bu bizi narahat edən məsələdir. Yenə də dünən danışıqlarımdan aydınlaşdırdım, burada Türkiyənin bəzi iş adamları müştərək müəssisə yaratmışlar. Başlayırlar işləməyə, deyirlər ki, sonra da buradan qaçırlar. Nə üçün qaçırlar? Mənə dünən danışdılar. Ona görə ki, Azərbaycan tərəfdən olan adam müştərək müəssisədən gələn gəliri özünə götürür, o birisinə vermir. Sonra da avadanlığı və sairəni ondan xəbərsiz götürüb satır. Dünən mənə belə hallar danışdılar. Ona görə də deyirlər ki, biz buraya gəlməyə qorxuruq.

Buraya gələn heç kəs, necə deyərlər, qaş-gözümüzə aşiq olub gəlmir. Hər bir iş, adamı hara gedirsə, öz mənfəətindən ötrü gedir. Ancaq həqiqi iş adamının ən yüksək keyfiyyəti də ondan ibarətdir ki, şübhəsiz, öz mənfəətini gözləməklə yanaşı, müqabil tərəfə də mənfəət verir. O bilir ki, müqabil tərəfə mənfəət verməsə, özü mənfəət götürə bilməyəcəkdir. Bu, ümumiyyətlə, iş adamlarının prinsipidir. Bəs bizdə? Bizdə belədir ki, bəli, gəlin danışaq, müştərək təşkilat yaradaq, sonra da çıxarıb qovsun, yaxud avadanlığı satsın. Bunların hamısı respublikamıza investisiya gəlməsinin qarşısını alan şeylərdir. Bu məsələlər bəlkə də kənd təsərrüfatı mövzusundan [349-350] kənardır, ancaq kənarda da deyil. Siz özünüz də bunlarla rastlaşırsınız, rastlaşacaqsınız. Ona görə də bunları qeyd etməklə bir də demək istəyirəm ki, respublikada, ümumiyyətlə ictimaiyyətdə, cəmiyyətdə olan vəziyyətə, camaatın əhval-ruhiyyəsinə ən çox mənfi təsir göstərən rüşvətxorluqdur. Təəssüf ki, rüşvətxorluq bizim dövlət orqanlarında, iqtisadiyyat orqanlarında, hüquq mühafizə orqanlarında, bütün sahələrdə geniş yayılmışdır.

Rüşvətxorluğun tarixi böyükdür, bunu yaxşı bilirsiniz. Tarixi bilən adamlar, keçmiş dövrün şahidləri bilirlər ki, mən 1969-cu ilin iyulunda ilk dəfə Azərbaycan Respublikasına rəhbər seçilən kimi birinci addımlarım rüşvətxorluqla mübarizədən başladı. Rüşvətxorluq o vaxt da var idi. Ancaq o vaxtla indikini müqayisə etmək mümkün deyil. Əgər o vaxtkı rüşvətxorluq indi olsa, mən deyərəm ki, rüşvətxorluq yoxdur. İndi bu, dəhşətli bir vəziyyət almışdır. Bəzən təskinlik tapırıq ki, bu, təkcə bizdə deyil, hər yerdə – Rusiyada da, başqa ölkələrdə də belədir. Biz bununla necə təskinlik tapa bilərik? Axı bu bizi içimizdən yeyir, dağıdır. Cəmiyyətdə əxlaqı pozur, insanların mənəviyyatını pozur. Bunların hamısı da həm iqtisadi islahatların aparılmasına, həm ümumi işimizin getməsinə maneçilik törədir, həm də cəmiyyətimizdə zərərli ünsürlərin baş qaldırmasına şərait yaradır. Ona görə də rüşvətxorluqla mübarizə, belə halların qarşısının alınması, bu sahədə ciddi tədbirlərin görülməsi bizim əsas vəzifələrimizdəndir.

Fürsətdən istifadə edərək bir-iki məsələ haqqında da bəzi fikirlər söyləmək istəyirəm. On bir aydır ki, respublikamız atəşkəs rejimi şəraitində yaşayır. Bu, 1988-ci ildən başlanmış müharibə dövründən indiyədək ilk böyük fasilədir. Azərbaycan Respublikası Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalandan bəri heç vaxt belə uzunmüddətli atəşkəs rejimi olmamışdır. Biz buna nail olduq. Aprelin 12-də on bir ay tamam oldu, mayın 12-də biz bunun bir illiyini qeyd edəcəyik. Biz çalışmışıq, çalışırıq və bundan sonra da çalışacağıq ki, atəşkəs rejimi davam etsin. Ona görə yox ki, biz bununla qane olmuşuq. Ona görə ki, atəşkəs rejimi şəraitində biz respublikanın müharibə vəziyyətindən çıxmasına, böyük sülhün yaranmasına, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə, işğal altındakı torpaqlarımızın geri qaytarılmasına nail ola bilək.

Biz bu sahədə çox iş görürük. Bəzən mətbuatdan məlumat [350-351] alırsınız. Məsələn, Ermənistan-Azərbaycan münaqişəsinin ATƏT çərçivəsində aradan qaldırılması və bununla əlaqədar beynəlxalq sülhü mühafizə qüvvələrinin yaradılması və həmin qüvvələrin Azərbaycana göndərilməsi haqqında keçən ilin dekabrında Budapeşt görüşündə qəbul edilmiş qətnamə tarixi əhəmiyyətli bir sənəddir. Doğrudur, onun həyata keçirilməsi ləng gedir. Qətnamənin qəbul edilməsindən artıq dörd ay ötsə də, həyata keçirilməsi üçün istənilən tədbirlər görülməmişdir. Ancaq siz də bilməlisiniz, respublikanın ictimaiyyəti də bilməlidir ki, biz bu sahədə çox çalışırıq.

Dünən mən Minsk qrupunun yeni missiyasını qəbul etdim. Bilirsiniz ki, Minsk qrupu 1992-ci ildə bu münaqişənin aradan qaldırılması üçün yaradılmışdır. O, ATƏT-in tərkibindədir. Vaxtilə Minsk qrupuna İtaliya, sonra İsveç nümayəndələri rəhbərlik edirdilər. Bilirsiniz ki, İsveç nümayəndələri Yan Eliasson, Anders Bürner və başqaları ilə dəfələrlə görüşlərim olmuşdur. İndi qrupa Finlandiya tərəfi rəhbərlik edir. Dünən mən Finlandiyanın nümayəndə heyətini qəbul etdim. Finlandiya prezidenti bu barədə mənə xüsusi məktub göndərmişdir. Onların bu işə qoşulacağını bildiyim üçün, ötən ilin dekabrında Budapeştdə olarkən Finlandiyanın prezidenti ilə görüş keçirdim, çox ətraflı danışıqlar apardıq. Nəhayət, indi onların nümayəndə heyəti Bakıya gəldi. Dünən onlar işə başladılar. Danışıqlar apardıq və ümidvaram ki, bu, yeni mərhələ olacaq, məsələnin sülh yolu ilə həllinə nail olmaq üçün yeni tədbirlər həyata keçiriləcəkdir.

Ancaq bir bu deyil. dünyanın böyük dövlətləri ilə danışıqlar aparırıq, başqa imkanlardan istifadə edirik. Rusiya prezidenti cənab Boris Yeltsinin xarici siyasət məsələləri üzrə köməkçisi Ryurikov ələlxüsus Azərbaycan-Rusiya münasibətlərinin inkişaf etdirilməsi üçün müəyyən tədbirlərin hazırlanması məqsədi ilə bu yaxınlarda Azərbaycana gəlmişdi. Mənim onunla danışıqlarım, görüşlərim oldu. Güman edirəm ki, Azərbaycan ilə Rusiya arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün bu da öz nəticəsini verəcəkdir. Bizim buna ehtiyacımız var. Çünki xüsusən iqtisadi sahədə Rusiya ilə Azərbaycan əlaqələrinin inkişaf etməsi və genişlənməsi iqtisadiyyatımızın inkişafına böyük kömək göstərəcəkdir. Bu məqsədlə də biz həmin tədbirləri həyata keçiririk.

Türkiyənin baş naziri Tansu Çillərlə bizim ətraflı danışıqlarımız oldu. Bu günlərdə o, Amerikaya gedəcək, bu bölgə – [351-352] Qafqaz haqqında orada müəyyən danışıqlar aparacaqdır. Bunlar hamısı, ümumiyyətlə, bizim xarici siyasətimiz birinci növbədə Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulmasına, Dağlıq Qarabağ probleminin həllinə yönəldilmişdir. Biz bu istiqamətdə çalışırıq və bundan sonra da çalışacağıq.

Ancaq yaranmış bu əlverişli şərait, yəni müvəqqəti olsa da bu sülh şəraiti hər bir təşkilat, hər bir dövlət orqanı, dövlət vəzifəli hər bir şəxs tərəfindən çox səmərəli istifadə olunmalıdır. Birinci növbədə

iqtisadiyyatımızı, dövlətçiliyimizi inkişaf etdirmək, qarşımızda duran vəzifələri həyata keçirmək üçün istifadə edilməlidir. Bilməlisiniz ki, biz bu sahədə lazımi tədbirlər görürük. Bu gün bir də qeyd etmək istəyirəm ki, bizim tutduğumuz yol dəyişməzdir, yəni Azərbaycan demokratiya yolu ilə, demokratik dövlət qurmaq yolu ilə gedir, dövlət quruculuğu proseslərini həyata keçirir. İqtisadiyyat sahəsində bazar münasibətləri, dünya iqtisadiyyatına qoşulmaq, islahatlar aparmaq yolu ilə gedirik və bu yolla da gedəcəyik.

Aqrar sahədə islahatların aparılması haqqında biz çox danışdıq. Amma digər sahələrdə islahatların keçirilməsi, özəlləşdirmənin aparılması barədə də bilirsiniz ki, bir neçə tədbir görmüşük. Əmlak Komitəsi, baş nazirin müavini Tofiq Əzizov bu məsələlərlə məşğul olur və bundan ötrü biz ona xüsusi status vermişik. Özəlləşdirmə ilə bağlı məsələ bir ay öncə, martın 7-də geniş müzakirə olundu. Özəlləşdirmə proqramının hazırlanması üçün bir ay vaxt verdik. Ancaq bu, həmin müddətdə hazır olmadı. Mən bu işə nəzarət edirəm. Tofiq Əzizov mənə müraciət etdi ki, bu vaxtı on gün də artırın və imkan verin Orta Asiya ölkələrinin və Qazaxıstanın təcrübəsi ilə tanış olub bundan istifadə edək. Mən bu vaxtı on gün də artırdım və Tofiq Əzizova göstəriş verdim ki, Türkmənistan, Özbəkistan, Qazaxıstan və Qırğızıstanın bu sahədəki təcrübəsini mütləq öyrənsin. Çünki bir halda ki, biz gecikmişik, bu proseslərin gedişi başqa ölkələrdə vaxt etibarı ilə bizdən irəlidədir, həmin təcrübəni öyrənmək, həm müsbət, həm də mənfi cəhətini bilmək lazımdır. İndi mən gözləyirəm ki, özəlləşdirmə proqramı təqdim olunsun. Bunu da gecikdirmək olmaz, bayaq dediyim kimi, on gün də vaxt artırmışam.

Ancaq bu elə proqram olmalıdır ki, biz onu qəbul edək. Elə olmasın ki, keçən dəfəki təkrarlansın. O zaman bizə proqram kimi təklif etdilər, ancaq o, proqram deyildi, sadəcə ola[352-353]raq bəzi fikirlər idi. Lakin biz geniş müzakirə apardıq, proqramın nə cür olması barədə aydınlıq yaratdıq. Artıq biz bu proqramı qəbul etməliyik və bundan sonra özəlləşdirmə prosesini aparmalıyıq. Özəlləşdirmə iqtisadi islahatlar prosesinin əsas istiqaməti, əsas hissəsidir. Sənayedə, nəqliyyatda, ticarətdə, məişət xidmətində və bütün başqa sahələrdə özəlləşdirməni məhz bu proqram əsasında keçirməliyik və mən gözləyirəm ki, həmin proqram təqdim olunsun.

Respublikamızda demokratik dəyişikliklər aparmaq üçün dövlət quruculuğu sahəsində də müəyyən işlər görürük və bunu davam etdirəcəyik. Yəni biz bu il, 1995-ci ildə Azərbaycan Respublikasının yeni demokratik konstitusiyasını, qəbul etməliyik. Məlumdur ki, indiyə qədər biz Sovet İttifaqı dövründə, 1978-ci ildə qəbul olunmuş konstitusiya əsasında yaşayırıq. Düzdür, həmin konstitusiyaya bir çox dəyişikliklər, əlavələr edilmişdir. Ancaq yeni konstitusiya qəbul olunmamışdır. Respublikamız elə bir dövrə gəlib çatmışdır ki, həmin konstitusiya bu il qəbul edilə bilər. Mən bu yaxınlarda hüquqşünaslarımızdan bir qrupunu qəbul edib onlarla danışdım, göstəriş verdim. Onlar konstitusiyanın layihəsi üzərində işləyirlər. Əvvəllər konstitusiya komissiyası bir balaca heyətdə yaranmışdır. Ancaq bu yaxın vaxtlarda Milli Məclisdə tam konstitusiya komissiyası təşkil olunacaqdır. Layihə hazır olan kimi konstitusiya komissiyası işə başlayacaq, sonra biz layihəni geniş müzakirəyə verəcəyik.

Parlament seçkiləri haqqında çox söhbət gedir. Demək istəyirəm ki, bəzi siyasi partiyalar cəmiyyətdə özlərinə, necə deyərlər, böyük bir yer tuta bilmədikləri halda, böyük hörmət qazana bilmədikləri halda orada-burada "Azərbaycanda seçkilər olmayacaq, seçkilər keçirilməyəcək, Azərbaycanda diktatura rejimi mövcuddur" kimi boş-boş sözlərlə, – mən bunu cəsarətlə deyə bilərəm, – axmaq, yaramaz sözlərlə çıxış edirlər. Şübhəsiz ki, biz bunlara fikir vermirik. Çünki gördüyümüz işin mənasını da, hansı yolla getdiyimizi də bilirik və tutduğumuz yoldan da dönməyəcəyik. Biz seçkiləri keçirməliyik. Ona görə yox ki, bu, müxalifətdə olan hansısa partiyaya lazımdır, yox! Əgər ona lazımdırsa, bizə isə lazım deyildirsə, mən sizə açıq deyirəm, biz bunu keçirməzdik. Amma seçkilər özümüzə, cəmiyyətimizə, dövlətimizə lazımdır. Ona görə lazımdır ki, sadəcə olaraq indiki parlamentin səlahiyyət müddəti bu ilin axı[353-354]rında qurtarır. Ona görə də oktyabrda parlament seçkiləri keçirəcəyik.

Bununla əlaqədar seçki qanunu da hazırlanır. Şəxsən mən onun bir neçə variantı ilə tanış olmuşam. Hüquqşünaslara göstəriş vermişik ki, bunların üzərində daha da işləsinlər. Elə variant var ki, seçkilərin partiya sistemi ilə keçirilməsi təklif olunur. Bizdə 50-yə qədər partiya var. Düzdür, onlar cəmiyyətin az bir hissəsini təmsil edirlər. Yaxud da seçkilərin majoritar və proporsional sistemlə keçirilməsi təklif olunur. Bəziləri seçkilərin ancaq dairələr sistemi ilə keçirilməsini təklif edirlər. Biz bu layihələrə baxacaq, ən əlverişlisini seçib ümumxalq müzakirəsinə verəcəyik. Yaxın vaxtlarda bu da olacaqdır. Bunu sizə kiminsə narahatçılıq keçirdiyinə görə demirəm. Ona görə yox ki, bəzi qüvvələr orada-burada bir xarici ölkənin nümayəndəsini tapıb deyirlər ki, Azərbaycanda seçkilər keçirilməyəcək, burada demokratiya yoxdur, – bunlar bizi narahat etmir. Ona görə deyirəm ki, bu il iqtisadiyyat, dövlət quruculuğu, siyasi sahədə hansı tədbirlər gördüyümüzü və görəcəyimizi ictimaiyyət bilsin. Bir də ona görə ki, siz bütün bu tədbirlərin iştirakçısınız və iştirakçısı olmalısınız. Güman edirəm ki, biz bunlara birlikdə nail olacağıq.

İndi bu tədbirlərin keçirilməsi üçün daha da əlverişli şərait yaranmışdır. Bildiyiniz kimi, son illər bir yandan Ermənistanın Azərbaycana qarşı təcavüzü, ikinci tərəfdən daxildə gedən ictimai-siyasi proseslər, cürbəcür mafioz qrupların, ayrı-ayrı dəstələrin dövlətçiliyə zidd hərəkətləri respublikamızın vəziyyətini həddindən artıq ağırlaşdırmışdır. Deyə bilərəm ki, keçmiş Sovet İttifaqına mənsub olan, indi müstəqillik qazanmış respublikalar arasında belə bir çətin vəziyyətə düşənini tapmaq olmaz. Bir tərəfdən Ermənistan

təcavüz etmiş, torpaqlarımızın 20 faizi işğal olunmuşdur, bir milyon qaçqın var, ikinci tərəfdən daxildə oradan bir qrup, buradan bır qrup vəzifə uğrunda mübarizə aparır, buradan biri qalxır, oradan digəri qalxır. Şübhəsiz ki, daxildə olan belə qeyri-sabitlik Azərbaycanın beynəlxalq nüfuzuna da toxunur, buraya investisiyaların gəlməsinə də maneçilik törədir. Allaha şükürlər olsun, mənə belə gəlir ki, artıq biz bu prosesləri də keçib getdik. Düzdür, bu o qədər də asan olmadı. Ancaq bunlar bizim tariximizdir, respublikamızın, xalqımızın başına gələn hadisələrdir.

1993-cü ilin yayında – iyunda baş vermiş hadisələr, [354-355] vətəndaş müharibəsi zamanı Azərbaycan nə qədər böhranlı vəziyyətdə idi. Biz Azərbaycanı bu vəziyyətdən xilas etdik. Bundan sonra isə Azərbaycanı bu vəziyyətə gətirib salmış adamlar özləri üçün nəticə çıxarmaq əvəzinə, bizə təşəkkür etmək əvəzinə ki, – bəli, Azərbaycanı parçalamaqdan, vətəndaş müharibəsindən xilas etdiniz, gəlin əl-ələ verək, xalqımızı düşdüyü ağır vəziyyətdən çıxarıb irəliyə aparaq, – kənara çəkildilər, qütbləşdilər, Xalq Cəbhəsi yenə də hakimiyyət uğrunda mübarizə üçün dəstə düzəltdi. Hakimiyyətə gəlmişdi, qala bilmədi, Azərbaycanı fəlakətli vəziyyətə gətirib çıxardı. Respublika vətəndaş müharibəsi vəziyyətinə çatdı. Baş nazir istefa verib qaçdı, parlamentin sədri istefa verib çəkildi, prezident dağlara qaçdı. Bundan artıq nə lazımdır? Gördülər ki, bir az sakitlik yaranmışdır, yenə də başladılar ki, yox, biz hakimiyyətə gəlməliyik. Ay balam, hakimiyyətə gəlmişdiniz də, qalaydınız, qala bilmədinizsə çəkilin durun kənarda, qoyun başqaları işləsinlər.

Digər qüvvələrə – Azərbaycanı dağıtmaq istəyən həmin o Surət Hüseynova, Rəhim Qazıyevə və başqalarına da, necə deyərlər, çox böyük hörmət göstərildi. İmkan yaradıldı ki, özlərini respublikada bəlkə müəyyən qədər göstərə, müəyyən xidmət edə bilsinlər. Yox, bunlar da xidmət göstərmək fikrində deyildilər. Cürbəcür mafioz qruplarla əlaqədə vəzifə davasında idilər. Onlar da oktyabr ayında çevriliş etmək istədilər, bunun da qarşısı alındı. Qaçdılar, dağıldılar, indi Moskvada oturublar, dəstə, nə bilim, ittifaq düzəldirlər, yenidən mübarizə aparmaq istəyirlər.

Ən nəhayət, bu ilin martında baş vermiş hadisələr. Bu, yeni bir şey deyildi, oktyabrın əvvəlində Azərbaycanda dövlət çevrilişinə göstərilən cəhdin davamı idi. Sadəcə olaraq o zaman bir hissəsi ləğv olundu, o biri hissəsi də əfv edildi. Amma onlar bunu başa düşmədilər. Onların bu qeyri-qanuni hərəkətlərini müşahidə edən müxalifət qüvvələrinin – həm Moskvada toplaşanların, həm də burada, Azərbaycanın daxilində olanların, nə bilim, ayrı-ayrı partiyaların, Xalq Cəbhəsinin, filanın ümidləri bu oldu ki, bəli, Xüsusi Təyinatlı Polis Dəstəsi, bu silahlı cinayətkarlar çevriliş edəcəklər. Şübhəsiz, həmin dəstədə çox layiqli adamlar da var idi, vaxtında onu tərk etdilər, sonra da bu proseslər zamanı özlərini çox müsbət göstərdilər. Amma əksəriyyət cinayətkarlardan ibarət idi. [355-356]

İndi əgər həmin siyasi partiyalar, Azərbaycandan qaçıb Moskvada oturan ayrı-ayrı adamlar, dağda – Kələkidə oturan adamlar, yaxud da ki, burada Xalq Cəbhəsinə daxil olan və sair adamlar doğrudan da Azərbaycanın müstəqilliyini istəyirlərsə, onun dövlətçiliyini qoruyurdularsa, nə üçün arı pətəyə toplaşan kimi, XTPD-nin ətrafında toplaşdılar? Onlar da ağılsız adamlar idilər. Hesab elədilər ki, oradan da dəstək aldılar, buradan da. Çox qəribə cəhət də bundan ibarətdir ki, bir-birinə tamamilə zidd olan qüvvələr gəlib həmin cinayətkar XTPD ətrafında toplaşdılar, onları qızışdırdılar, dövlətə qarşı cinayət etdilər. Cinayət etdilər, cəzalarını da aldılar. Doğrudur, qan töküldü, bizim dəyərli övladlarımız həlak oldu. Azərbaycan ordusundan 27 nəfər gənc həlak oldu. Onların qanı həmin bu cinayəti törədən adamların üstündədir. İndi bəziləri orada-burada kiməsə bəraət qazandırmaq istəyirlər ki, nə bilim, ağ bayraq nə vaxt qaldırıldı, atəş nə vaxt dayandırıldı. Ağ bayraq qaldıran adam nə üçün atəş açırdı? Ağ bayraq nə vaxt qaldırıldı? Bu qüvvə gecə saat 2-də Azərbaycanın Silahlı Qüvvələrinə qarşı atəş açdı və dövlətçiliyimizi devirmək üçün hərəkətə başladı. İndi kim onlara bəraət qazandırmaq istəyir?

Mən bunu demişəm, səhər saat 8-də Türkiyənin səfiri telefonla mənə zəng etdi ki, bunlar təslim olmaq istəyirlər. Mən dedim ki, ağ bayraq qaldırsınlar. Amma ağ bayrağı da saat 9-dan sonra qaldırıblar. Bundan sonra da ordumuzun gənc əsgərlərini vəhşicəsinə öldürmüşlər. Kim indi bunlara bəraət qazandıra bilər? Kimsə gedib onların qohum-əqrəbasına başsağlığı verir və sairə. Bunlar hamısı cinayətkarlardır, Azərbaycan xalqına xəyanət etmiş adamlardır.

Burada düşmən mövqedə dayanan partiyalar var. Mən onları siyasi partiya hesab edə bilmərəm. Həmin Xalq Cəbhəsini bir siyasi cəmiyyət hesab edə bilmərəm. Çünki heç bir mədəni, sivilizasiyalı siyasi partiya, cəmiyyət qiyamçıya, cinayətkara bəraət verməməli, ona havadarlıq etməməlidir.

Ancaq bu dövrdə də – "orada dövlət çevrilişi olacaq, burada dövlət çevrilişi olacaq" – deyə söhbətlər gedəndə bizim dövlət orqanlarında iki stulda oturan adamlar var idi. Mən bunu əvvəllər də demişdim. Xatirinizdədir, oktyabr hadisələrindən sonra bizim Respublika sarayında böyük bir ümumxalq toplantısı oldu. Mən orada da dedim: bilirsiniz, artıq bəsdir, bundan hərə özü üçün nəticə çıxarsın. Mən istəmirəm indi kimisə cəzalandıraq, ona görə ki, bəlkə o öz mövqeyini [356-357] müəyyənləşdirməmişdir. Həmin toplantını noyabrın axırında keçirirdik. O zaman dedim ki, artıq vaxt gəlib çatmışdır, qoy hərə özü üçün nəticə çıxarsın. Amma bəziləri nəticə çıxarmadılar. Yenə ara qızışandan sonra – "fevralda çevriliş olacaq, nə bilim, filan ayda çevriliş olacaq" – kimi söz-söhbət meydana çıxanda bəziləri, lap vəzifədə olan şəxslər yenə başladılar baxmağa ki, külək hansı tərəfə əsir. Bu cür də dəhşətli yaşamaq olarmı? Axı insan gərək insan olsun, onda bir əqidə olsun! İnsan

gərək əqidə ilə yaşasın, lazım gələrsə əqidə ilə də həlak olsun! Yoxsa "mən elə bu padşahın vaxtında da burada oldum, başqasının da vaxtında oldum, sabah ayrısı gələcəksə, buradan çəkilib o tərəfə keçim"... Bu, əxlaqsızlıq, mənəviyyatsızlıqdır!

Təsəvvür edin. XTPD-çilərin hakimiyyətə gəlmək cəhdlərinə oradan-buradan baxır, boylanırdılar ki, bəli, onlar gələndə burada olsunlar. Əgər doğrudan da mənəviyyat sahibləridirlərsə, həmin cinayətkarların yanında özlərini nə cür hiss edəcəkdilər? Ancaq belə hiss edirəm ki, onlarda heç bir mənəviyyat yoxdur. Onlar da həmin cinayətkarların tayıdırlar, lakin maskalanmış, öz sifətlərini gizlətmiş adamlardırlar. Ona görə də mən bu gün bu barədə kəskin danışıram.

İndi cürbəcür şayiələr yayırlar. Dünən baş prokuror Eldar Həsənov mətbuat konfransı keçirmiş, bu vəziyyət haqqında məlumat vermişdir. Qəzetdə bu barədə qısa yazılmışdır, ancaq mən ona dedim ki, mətbuat konfransını televiziya vasitəsilə bütünlüklə vermək lazımdır. Çünki orada bütün suallara cavablar verilmişdir. Yaxşı, 70-ə qədər adam böyük bir fəaliyyəti, günahı olmadığına görə buraxılmışdır. Ancaq o adam ki, günahkardır, şübhəsiz ki, cəzasını çəkməlidir. Amma bəzi cinayətkarlar, oktyabr hadisəsində cinayət edənlərin bəziləri də qaçıb gizlənmişlər. O vaxtdan altı ay keçmişdir. İndi bu hadisənin cinayətkarlarının da bəziləri qaçıb gizlənmişdir. Siz bunu mətbuatdan bilirsiniz.

Mən martın 16-da axşam son addım olaraq bir fərman verdim ki, əgər XTPD-dən olan adamlar silahı yerə qoyub gəlsələr bütün cinayətlərini bağışlayıram. Bundan sonra XTPD-nin komandiri Nizami Şahmuradovu və müavini Cəfərovu onların xahişi ilə qəbul etdim. Onlarla saat yarım söhbət etdim, ikisi də mənə dedi ki, bilirsiniz, siz bu XTPD-ni birtəhər saxlayın, çünki başqa heç bir yerdə işləyə bilmərik. Bunu mənə XTPD-nin komandiri deyirdi. Dedim axı niyə işləyə bilməzsən, sənə polisdə yaxşı vəzifə – şöbə rəisi, yaxud [357-358] da idarə rəisi vəzifəsi verək. Dedi ki, yox, hörmətli prezident, mən orada işləyə bilmərəm. Biz yazıb-pozmağı təzəcə öyrənmişik. İndi-indi arayış-filan yaza bilirik, mən gedib orada necə işləyərəm? Mən polisdə istintaq, əməliyyat işi apara bilmərəm. Demək, sənin işin nədir? Düzdür, onların bəziləri müharibədə vuruşmuş, avtomat atmışdı, düşmənlərimizi öldürmüşdülər. Beləlləri var idi. Amma bunların savadı yox idi. Mən onların komandirinə deyirdim ki, çıxın oradan, bu fərmanı da vermişəm, XTPD-nin komandiri kimi sənə də polisdə yüksək vəzifə verəcəyəm. Deyirdi ki, mən heç bir vəzifədə işləyə bilmərəm, ancaq XTPD-də ola bilərəm.

Demək istəyirəm ki, bu cür səviyyəsiz, savadsız adamlar indi gəlib, – dünyada təsadüf ola bilər, – Azərbaycanda adamları qıraraq hakimiyyəti ələ alsaydılar, onların ətrafında o tərəfə-bu tərəfə baxan adamlar özlərini bu savadsızların əlinin altında necə hiss edəcəkdilər? Onlar bunu düşünürlərmi?

Hələ bu proseslər gedir, mən yenə deyirəm, dünən Eldar Həsənov mətbuat konfransında geniş məlumat vermişdir, ona görə də bu məsələnin üzərində dayanmaq istəmirəm. Ancaq hamı bilməlidir: Azərbaycan dövləti özünü qorumağa qadirdir. Bizi çox vaxt qorxudanlar oldu, çox gəldilər ki, ay belə olacaq, ay elə olacaq. Mən dedim ki, biz heç kəsə dəymirik, hamını ağıla, dərrakəyə dəvət edirik. Ancaq kim isə dövlətin əleyhinə çıxacaqsa, dövlətçiliyimizə qarşı silah qaldıracaqsa o, cavabını alacaqdır. Oktyabrda Gəncədə də cavabını aldılar, indi burada da cavabını aldılar. Güman edirəm ki, bunlar hamıya dərs olmalıdır və hamı özü üçün bundan nəticə çıxarmalıdır. Kim nəticə çıxarmayacaqsa, onlara nəinki bizim aramızda, cəmiyyətdə də yer olmayacaqdır. Onlar cəzalanacaqlar. Beləlləri var, mən tapşırmışam ki, onları araşdırsınlar.

Salyan rayonunun icra hakimiyyəti başçısı buradadırmı, familiyan nədir, Əzizov? Hə, gəl buraya. Sənə göstərilən etimadı niyə anlamadın, nə üçün anlamadın? Sən o vaxt, həmin iyun hadisələrində Surət Hüseynovun dəstəsi ilə gələrək Salyanda o vəzifəni tutmuşdun. O vaxt gəlib mənə dedilər ki, eybi yoxdur, bunu təyin etmək olar. Mən səni dəvət etdim və başa saldım ki, nə cür, nə təhər gəlmisən, o qaldı geridə. İndi mən səni icra hakimiyyəti başçısı təyin edirəm, get, ağlını başına yığ, işlə. Yadındadırmı?

**Əzizov:** Mən qəti olaraq onların əli ilə hakimiyyətə gəlməmişəm. [358-359]

**Heydər Əliyev:** Sən onların qüvvəsi ilə hakimiyyətə gəlmişdin və onlarla nə əlaqələrin olmasını mən bilirəm. O vaxt, oktyabr hadisələrində də, indi də sənin hərəkətlərin məlumdur. Ona görə də mən səni işdən çıxartdım. Çıx get, sənə bizim aramızda yer yoxdur. Qanmadın, başa düşmədin, göstərilən etimadı tapdaladın, ona görə də çıx get.

Xanlar rayonunun icra hakimiyyəti başçısı Abbasov, buradadır? Gəl buraya görüm. Sən niyə yolunu azdın? Yaxşı bilirsən ki, azmısan. Sənə o böyüklükdə etimad göstərildi. Heç bir şey idin, sənə Xanlar rayonu kimi böyük bir rayon etibar olundu. Bu sənin üçün bəs deyildimi, nə arzuya düşmüşdün? Nə lazım idi ki, sən o qüvvələrlə əlaqəyə girəsən?

**Abbasov**: Mən onlarla əlaqədə olmamışam.

**Heydər Əliyev:** Olmusan, yaxşı bilirsən. Məlumdur nə cür qoşulmusan. Çıx get, səni də işdən çıxartdım. Sən bizim aramızda ola bilməzsən.

Düzdür, bu, kənd təsərrüfatına aid deyil, – bizdə bir "Metallurgiya" şirkəti var. Onun prezidentinin familiyası gərək ki, Həmidovdur, elədirmi? Baxmayaraq ki, uzun müddətdir onun cinayət hərəkətləri, qanunsuz hərəkətləri haqqında məlumat gəlir, biz ona imkan verdik ki, bəlkə özünü düzəldə bilər. Ancaq düzəldə bilmədi. Buradadır o? Dəvət olunmayıb? Hə, onun burada işi yoxdur. Yol verdiyi ciddi nöqsanlara görə onu da bu gün

fərmanımla vəzifəsindən azad edirəm. Güman edirəm ki, respublika prokurorluğu bu adamlarla məşğul olacaq və cinayətlərini üzə çıxaracaqdır.

Ola bilər, bu qərarlar son qərarlar deyildir. Çünki təəssüf ki, bizim aramızda belə nadürüst ünsürlər var, heç bir şey anlamırlar, heç nə başa düşmürlər. Ancaq daha vaxt gəlib çatmışdır, başa düşmək, anlamaq lazımdır. Bilmək lazımdır ki, Azərbaycanda müstəqil dövlət var, Azərbaycanın güclü dövləti var. Kim xalqına, dövlətinə sədaqətlə xidmət etmək istəyirsə, ona burada yer var, hamıya yer var. Azərbaycanda hər bir kəs üçün yer var. Amma kimsə xalqına xəyanət edəcəksə, rüşvətxorluq edəcəksə, vəzifəsindən sui-istifadə edəcəksə, cürbəcür çirkin yollara gedəcəksə, ayrı-ayrı mafioz qruplarla birləşəcəksə, gedib orada-burada yenə də vəzifə uğrunda mübarizə aparacaqsa onlara bizim cəmiyyətdə yer yoxdur. Bunu bilsinlər. Siz də bilin, ümumiyyətlə hamı bilsin.

Mən bir prezident kimi, bütün kadrlara çox qayğı ilə yanaşıram. Çox vaxt mənə yazılı, şifahi məlumatlar gəlir ki, [359-360] filankəs özünü yaxşı aparmır, filankəs qanuna riayət etmir. Mən çox vaxt bunların üstündən keçirəm, ona görə ki, indi bizim şəraitimiz başqadır. İstəyirəm ki, insanlar özləri-özlərini dərk etsinlər, anlaya bilsinlər və nəhayət, başa düşsünlər ki, cəmiyyətdə hər insanın özünəməxsus yeri var. Mənəviyyat, əxlaq hər şeydən yüksəkdir. Pul-para, nə bilim, cürbəcür çirkin işlər, mafioz əməllər hamısı keçib gedən şeylərdir. Cəmiyyət, insan, tarix bunlara həmişə nifrət etmişdir və bu gün də, gələcəkdə də nifrət edəcəkdir.

Bəli, mən insanlara, xüsusən vəzifəli şəxslərə çox qayğı ilə yanaşıram. Amma bu qayğının da bir həddi var. Hamını, vəzifəli şəxsləri xəbərdar edirəm: hamı bizim milli ideologiyamızın, milli əxlaqımızın, mənəviyyatımızın prinsipləri əsasında yaşamalı və işləməlidir. Kim bu əxlaqi, mənəvi prinsiplərdən kənarda olacaqsa, şübhəsiz ki, onlar bizim cəmiyyətdən də təcrid ediləcək və öz cəzalarını alacaqlar.

Güman edirəm ki, bugünkü müşavirəmiz həm kənd təsərrüfatı sahəsində işlərimizin irəli getməsinə müəyyən təkan verəcək, islahatların sürətlə aparılmasına, şübhəsiz, kömək edəcək, eyni zamanda cəmiyyətimizin daha da sağlamlaşmasına, saflaşmasına kömək göstərəcəkdir. Sizin hamınıza işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Sağ olun. [360]

## XALQ ŞAİRİ MƏMMƏD ARAZIN "AZƏRBAYCAN – DÜNYAM MƏNİM" YARADICILIQ GECƏSİNDƏN SONRA ZİYALILARLA GÖRÜŞDƏ ÇIXIŞ

*M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası*

*16 aprel 1995-ci il*

Öz əsərləri ilə yüksək bədii sənətkarlıq və əsl vətəndaşlıq qeyrəti aşılayan, doğma Vətəni sonsuz məhəbbətlə sevən, qüdrətli qələmi ilə xalqımıza sədaqətlə xidmət edən Məmməd Arazın poeziyasını Azərbaycan torpağından, tariximizdən, el-obadan ayrı təsəvvür etmək çətindir.

Ədəbi-musiqili məclis çox gözəl keçdi, xüsusən "Dünyam mənim..." mahnısının sözləri də, musiqisi də çox gözəldir. Bu mahnını həyəcansız dinləmək mümkün deyil.

Fəxri adlar verilməsi məsələsinə gəlincə, bu barədə söz düşdü. Mən istəyirəm bir qərara gələsiniz, görüm bundan sonra fəxri adlar vermək olar, ya olmaz. Ona görə də özüm qərar qəbul etmək istəmirəm. Ancaq bizim adət-ənənəmiz var. İndi belə çıxır ki, keçmişdə ad verilmiş bəzi şairlərimiz xalq şairidir, ondan sonra gələnlər isə xalq şairi deyil. Və yaxud bəzisi xalq artistidir, ondan sonra gələnlər xalq artisti deyil...

Ona görə də mən baş nazirin müavini Elçin Əfəndiyevə dedim ki, yazıçılar, bəstəkarlar, rəssamlar, elm adamları yığışın, məsləhətləşin. Əgər bu adət-ənənə davam edəcəksə, onda siz bir təklif verin, mən də fərman verim, bunu davam etdirək. Yaxud da ki, müəyyən qədər məhdudlaşdırmaq olar. Yox, əgər davam etməyəcəksə, onda yığışaq, ümumxalq fikrini ifadə edib bir qərar qəbul edək ki, daha bundan sonra olmayacaqdır. Mən bir prezident kimi istəmirəm müstəqil qərar qəbul eləyəm. İstəyirəm xalqın fikrini biləm, siz ziyalıların fikrini biləm.

Ancaq bugünkü görüşümüzün əsas məqsədi bu mövzu deyil. O mövzudur ki, bu gün biz bir daha Məmməd Arazın Azərbaycan xalqının mədəniyyətinə, ədəbiyyatına verdiyi töhfələri gördük, eşitdik və bunların xalqımız üçün nə qədər faydalı, gərəkli olduğunu bir daha bildik, bir daha dərk etdik[361-362] ki, Azərbaycan xalqının həyatında Məmməd Arazın yaradıcılığının nə qədər böyük əhəmiyyəti var. Həqiqətən belədir. (Məclis iştirakçıları Məmməd Arazın Almaniyada müalicə olunmasına böyük diqqət və qayğı göstərdiyinə görə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevə minnətdarlıqlarını bildirdilər).

Dünən mən Bəxtiyar Vahabzadə ilə görüşüb söhbət edirdim. Son bir neçə ay ərzində mən çox fikirləşirəm ki, bizim ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin cəmiyyətdə hörmətini qaldırmaq lazımdır. Çünki xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır. Şübhəsiz ki, xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də böyük rolu var. Ancaq xalq həmişə mədəniyyəti ilə, elmi ilə tanınıb və keçmiş tariximiz də bunu sübut edir. Buna heç kəsin də şübhəsi yoxdur.

Son illər bizim mədəniyyətimizə, elmimizə, şerə, ədəbiyyata diqqət azalıb, qayğı azalıb. Bilirsiniz, bu axşam bizim üçün nə qədər böyük bir mənəviyyat axşamı oldu! İndi hardasa nə qədər danışasan, əylənmək istəyəsən, ürəyini açmaq istəyəsən – bu cür zövq ala bilməzsən, nə qədər ki, bu gün biz zövq aldıq. Mənəviyyatı bu qədər dərindən dərk edə bilməzsən. Çünki bu gün mədəniyyətimizin, ədəbiyyatımızın böyük nümunələri səsləndi, canlandı, gözümüz önünə gəldi və biz özümüz-özümüzü bir daha qiymətləndirdik, tanıdıq.

Belə şeir gecələri, ədəbiyyat gecələri, belə görüşlər mənə elə gəlir ki, xalqımızın həyatının, tarixinin bu dövründə xüsusilə lazımdır. Çünki mənəviyyat bəzi yerlərdə çox tapdalanıb, unudulubdur, əxlaq pozulubdur. Bir tərəfdən bunun obyektiv səbəbləri var – həyat çətindir, ağırdır, müharibə şəraitində yaşayırıq. İkinci tərəfdən də cürbəcür ictimai-siyasi proseslər, iqtisadi çətinliklər buna müəyyən şərait yaradıbdır. Ancaq biz bunların qarşısında təslim ola bilmərik, geriyə çəkilə bilmərik. Biz əksinə, çətinliklərə qarşı yeni addımlar atmalıyıq. Bu addımlarla mədəniyyətimizi, ədəbiyyatımızı, incəsənətimizi nə qədər yüksəltsək, onun hörmətini, ziyalının hörmətini nə qədər qaldırsaq, o qədər də bu bəlalardan, çətinliklərdən, cəmiyyətimizdə olan bu mənfi cəhətlərdən tez xilas ola bilərik. Buna görə də mən hesab edirəm ki, belə görüşlərə, belə gecələrin keçirilməsinə böyük ehtiyac var və Məmməd Araz poeziyasının bugünkü məclisi mənə elə gəlir ki, Azərbaycanın mədəniyyət tarixində, mədəni həyatında, ictimai həyatında böyük, [362-363] görkəmli bir hadisədir. Təbrik edirəm səni, Məmməd Araz! Bu gün sənin yaradıcılığının hamısını yox, bir qismini nəzərdən keçirdik, gördük.

Sizə səmimi deyirəm, mən həyəcansız otura bilmirdim. Hər adam belə şeylərə bir cür reaksiya verir. Mən şeirə də, mahnıya da çox hissiyyatlı adamam. O misraları, o sözləri, o musiqini həyəcansız dinləyə bilmirdim. Bizim mədəniyyətimizin nə qədər dərinliyi var, yüksəkliyi var! Biz nə qədər zənginik! Biz özümüz-özümüzü çox vaxt qiymətləndirə bilmirik. Xalqımızın zəngin mədəniyyəti keçmişdə də olub, bu gün də var, ümidvaram ki, gələcəkdə də olacaqdır. Mənim buna heç bir şübhəm yoxdur.

Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, Xəlil Rzanın – bu üç şəxsin adını mən fərəhlə çəkirəm. Dünən mən üç fərman vermişəm. Bildiyiniz kimi, müstəqil Azərbaycanın ən yüksək ordeni "İstiqlal" ordenidir. İndiyə

qədər bu ordenlə heç bir vətəndaş, heç kəs təltif olunmayıbdır. Dünən isə mən fərman verərək Bəxtiyar Vahabzadəni, Məmməd Arazı, mərhum Xəlil Rzanı "İstiqlal" ordeni ilə təltif etmişəm. Bu bir təsadüf, yaxud da ki, birdən meydana çıxmış, mənim tərəfimdən birdən qəbul olunmuş qərar deyil. Bu haqda mən çox düşünürdüm. O mənada ki, biz milli azadlığımız uğrunda çalışmışıq, vuruşmuşuq, mübarizə aparmışıq. Amma bu mübarizə bəzən açıq getməyibdir, bəzən qəlblərdə gedibdir, bəzən o, üstüörtülü yazılarda gedibdir.

Bilirsiniz, milli azadlığa nail olmaq üçün xüsusən bizim xalqımızda milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır. Bu da asan bir proses deyildir. Çox vaxt tələb eləyən prosesdir. Yaşadığımız o rejim dövründə bu prosesə açıq təkan vermək də çətin idi. Ancaq Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza kimi insanlar öz yaradıcılığı ilə bu sahədə çox işlər görüblər. Ona görə mən düşündüm: biz müstəqillik qazanmışıq, respublikamız müstəqil dövlətdir. Xalqımız milli azadlığını əldə edibdir. Bu milli azadlığın, müstəqilliyin əldə edilməsində şübhəsiz ki, xalqımızın hamısının – hərənin öz yeri, hərənin öz payı, hərənin öz xidməti var. Ancaq elə şəxsiyyətlər var ki, onlar bu işin, bu prosesin yaranmasında, formalaşmasında, inkişaf etməsində xüsusi xidmətlər göstəriblər. Və bunlar, mən hesab edirəm ki, yenə də mədəniyyətimizin, ədəbiyyatımızın, şeirimizin içində olubdur.

Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər, mədəniy[363-364]yət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur. Bu vasitədən xalqımız keçmişdə də istifadə edibdir. Bizim mütəfəkkir insanlarımız, şəxsiyyətlərimiz, böyük alimlərimiz, yazıçılarımız məhz bununla fəxr edirlər ki, onlar xalqın içindən çıxaraq, böyük mədəniyyət, ədəbiyyat, şeir nümunələri yaradaraq xalqı oyadıblar, qaldırıblar, ruhlandırıblar, mübarizəyə dəvət ediblər.

Keçmiş tariximiz bundan ibarətdir. Bu dövrdə də, – məsələn, mən götürürəm 50-ci, 60-cı, 70-ci illəri. Ondan qabaqkı dövrün də özünəməxsus xüsusiyyətləri var, – burada mən hesab edirəm ki, çoxlarının xidməti var. Güman edirəm indi mən dünənki fərmanlarla bu yolu açmışam. Biz bu yolu, cığırı daha da genişləndirəcəyik. Ancaq bütün bu proseslərin ən qabağında gedən, insanların ürəyinə, qəlbinə təsir edə bilən bizim ədəbiyyatımız olubdur, şeirimiz olubdur və həmin şeirlər, həmin sözlər doğrudan da xalqımızda, millətimizdə milli ruhu oyadıbdır, milli əhval-ruhiyyəni canlandırıbdır, milli dirçəliş prosesini gücləndiribdir. Məhz bunların nəticəsində bizdə milli psixologiya, milli ideologiya formalaşmağa başlayıbdır.

Bəlkə bu milli psixologiya, milli ideologiya indi böyük bir sistem şəklində deyil, yəni bir sənəd, bir kitab, bir proqram yoxdur. Amma bu olmalıdır və biz bunun üzərində işləyirik. Şəxsən mən buna xüsusi fikir verirəm. Ancaq indi bunları toplayıb, sistemləşdirib formalaşdırmaq üçün bizim böyük bir sərvətimiz var. O sərvət də bizim mədəniyyətimizdə, ədəbiyyatımızda, xüsusən şeirimizdə olan bax, bu fikirlər, bu çox dəyərli sözlərdir. Bu sözlərin sahibləri çoxdur. Ancaq bu gün mən Bəxtiyar Vahabzadənin adını çəkirəm, Məmməd Arazın adını çəkirəm, mərhum Xəlil Rzanın adını çəkirəm.

Dövlətimiz müstəqil dövlətdir, formalaşır. Onun özünün yüksək mükafatları var. Ən yüksək mükafat təsis olunub – bu, "İstiqlal" ordenidir. Kimə birinci çatmalıdır bu orden? Mən bir neçə aydır bu haqda düşünürəm. Çox götür-qoy eləmişəm və xeyli müddət bundan qabaq belə qərara gəlmişəm ki, bu orden bax, bizim şəxsiyyətlərimizə çatmalıdır. Şəxsiyyətlərimiz birinci növbədə buna layiq görülməlidirlər. Buna görə də dünən mən fərmanlar verdim, Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsində xüsusi xidmətlərinə görə hörmətli şairimiz Bəxtiyar Vahabzadə, hörmətli şairimiz [364-365] Məmməd Araz və çox hörmətli şairimiz, mərhum Xəlil Rza bu ordenlə təltif edildilər. Güman edirəm ki, mən doğru addım atmışam və hesab edirəm ki, xalqımız, ictimaiyyətimiz bunu yaxşı qarşılayacaq. Mən artıq bu gün aldığım məlumatlardan hiss eləyirəm ki, bunu yaxşı qarşılayacaqlar. Ona görə də sizi təbrik eləyirəm, Məmməd Araz, səni təbrik eləyirəm, Bəxtiyar, səni təbrik eləyirəm. Sizin uzun illər həqiqətən xırda-xırda, misra-misra, damcı-damcı yaratdığınız əhval-ruhiyyə Azərbaycan xalqını gətirib bugünkü vəziyyətə çıxartdı.

Doğrudur, bəzən bu yazılarınıza görə siz sıxılmısınız da, təqib olunmusunuz da, sizi incidiblər də, sizə kəm baxıblar da, sizi açıq və ya gizli tənqid də eləyiblər. Ancaq mənə belə gəlir ki, Məmməd Arazın, Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın qəhrəmanlığı, – mən bu sözü tam cəsarətlə deyirəm, – elə ondan ibarətdir ki, onları heç bir şey qorxutmayıbdır. Onların qarşısını heç bir şey kəsməyibdir. Onlar öz işlərini görüblər. Xırda-xırda, çox incə, çox zərif görüblər və məhz bu incəliyə, zərifliyə, nazikliyə görə də sizin bu fikirləriniz bizim vətənpərvər insanlarımızın, xalqımızın ürəyinə yol tapıbdır.

Məmməd Arazın şeirini nə üçün bu qədər sevir insanlar? Axı şeiri insanlara zorla sevdirmək olmaz. Nə üçün sevirlər? Mən keçmişdə də bunu hiss edirdim. Uzun müddət Azərbaycanda olmayanda da, 90-cı ildə Azərbaycana qayıtdıqdan sonra hara gedirəm – Məmməd Arazın şeirləridir, Bəxtiyar Vahabzadənin şeirləridir. Q vaxt bizdə çox coşqun ictimai-siyasi vəziyyət yaranmışdı. İnsanlar 20 Yanvar hadisələrindən sonra çox coşmuşdular. Çox inciklik var idi cəmiyyətdə. Eyni zamanda milli azadlıq ruhunda fikirlər daha da açıq deyilirdi. Hər yerdə Məmməd Arazın, Bəxtiyar Vahabzadənin şeirləri oxunurdu. Başqalarının da. Şübhəsiz ki, indi mən şəxsiyyətlər haqqında danışıram. Bu şəxsiyyətlər artıq bizim Azərbaycanın hər bir guşəsində təqdir olunublar və ona görə də deyirəm ki, sizin keçmişdə olan bütün o əzab-əziyyətləriniz, çəkdiyiniz zəhmətlər

hədər getməyib, öz nəticəsini veribdir. Nəticə odur ki, Azərbaycan öz müstəqilliyini əldə edibdir, milli azadlığına nail olubdur, Azərbaycan müstəqil dövlətdir.

Burada olanların çoxu keçmişdə də ordenlər, medallar alıbdır. Mən hesab edirəm ki, bütün dövlətlərin, bütün dövrlərin ordenlərinə, medallarına, mükafatlarına hörmət etmək lazımdır. Heç bir şeyi qaralamaq olmaz. Mən belə fikirdəyəm. [365-366]

Hörmət etmək lazımdır və kim keçmişdə hansı ad alıbsa – mən ona hörmət edirəm. Kim keçmişdə hansı orden alıbsa – mən ona hörmət edirəm. Nə cür ola bilər ki, biz bunları unudaq? Unuda bilmərik. Ancaq bununla yanaşı, müstəqil Azərbaycan dövlətinin bu mükafatı, şübhəsiz ki, bütün o mükafatlardan əziz, onların hamısından üstündür. Onları da qiymətdən salmaq olmaz, onları da unutmaq olmaz. Hərəsinin öz yeri var. Hər tarixi mərhələnin öz yeri var. Mən ümidvaram ki, müstəqil Azərbaycan yaşayacaq, mən ümidvaram ki, Azərbaycan xalqı daim müstəqilliyini qoruyub saxlayacaq və müstəqil Azərbaycanın ilk "İstiqlal" ordeninə layiq görülmüş şəxsiyyətlər Azərbaycan xalqının tarixində indi olduğu kimi, gələcəkdə də öz yerlərini tutacaqlar. Mən sizi bir daha ürəkdən təbrik edirəm.

Fürsətdən istifadə edib ziyalının cəmiyyətdə rolu barədə bir neçə kəlmə də demək istəyirəm. Son illər bu proseslər o qədər gərgin keçib, qarmaqarışıq olubdur ki, ziyalı adamın cəmiyyətdə rolu aşağı düşüb. Ziyalıya hörmətsizlik halları çoxalıb. Məsələn, bizim Azərbaycan xalqının ən yüksək adət-ənənələrindən biri odur ki, həmişə böyüyə, ağsaqqala hörmət olub. Mən o vaxtlar burada, Azərbaycanda işləyən zaman, keçmiş dövrdə Moskvadan bəzi nümayəndələr gəlirdilər, gedirdilər bizim rayonlara, şəhərlərə, kəndlərə, sonra gəlib mənə öz təəssüratlarım söyləyirdilər, çox şeyə heyran olduqlarını deyirdilər. Onları ən çox heyran edən nə idi? Deyirdilər "burada böyüyə hörmət var. Məsələn, kənddə, yaxud da ki, şəhərin bir qırağında cavan adamlar otorublar. Biz gələn kimi hamısı ayağa durur". Mənə deyirdilər ki, Rusiyada belə şey yoxdur. Böyük gəldi, kiçik gəldi – heç kəs ayağa durmur. Amma sizdə böyüyün ayağına dururlar. Bunu Rusiyadan, Moskvadan gəlmiş adamlar böyük bir hadisə kimi qeyd edirdilər. Biz isə adət-ənənələrimizə o qədər öyrənmişik ki, bunu adi bir şey hesab edirik.

Amma biz bunları unuduruq. İndi görürsən küçədə cavan bir adam – heç bir xidməti, heç bir haqqı olmayan gənc ağsaqqal bir adamı təhqir edir, ziyalıya ağır söz deyir. Son illərdə, bax bu proseslər zamanı bizim ziyalılarımız nə qədər təhqir olunublar.

Bunları mən o vaxtlar kənardan da, uzaqdan da görürdüm, ürək ağrısı ilə hiss eləyirdim. Cəmiyyət böyükdür, xalq böyükdür. İndi bizdə yeddi milyon əhali var. Bunlar hamısı [366-367] bizim cəmiyyətdir. Amma xalqın içərisindən çıxan bu ziyalılar tək-təkdir. Bunlar kütləvi deyil axı! Ziyalı kütləvi ola bilməz. Alimdir, şairdir, bəstəkardır, rəssamdır, yazıçıdır, artistdir – bunlar fitri istedada malik olan nadir adamlardır və öz mədəniyyəti, yaradıcılığı, fəaliyyəti ilə bizim cəmiyyətin mədəni səviyyəsini qaldırırlar. Bu adamları təhqir etmək, onlara hörmət etməmək son illərdə cəmiyyətimizdə olan əcaiblikdir. Biz bunlara son qoymalıyıq.

Ziyalının hörməti qalxmalıdır, müəllimin hörməti qalxmalıdır, şairin, yazıçının, alimin hörməti qalxmalıdır. Onlar hörmətli olmalıdırlar həmişə. Bu məsələ məni narahat edir. Bu, şübhəsiz ki, sizdən asılı deyil – siz hamınız ziyalı adamlarsınız. Bu bizim cəmiyyətdən asılıdır, bizdən asılıdır. Biz öz hərəkətlərimizlə, öz münasibətlərimizlə, öz tədbirlərimizlə gərək ziyalıların cəmiyyətdə hörmətini qaldıraq.

Sizdən gizlətmirəm, mənim işim çoxdur. Mən buradan işə qayıdacağam. Sabah xaricə gedəcəyəm, orada bir neçə görüşüm olacaqdır. Amma buna baxmayaraq – mən heç də minnət qoymuram – böyük məmnuniyyət hissi ilə buraya gəlmişəm və gəldiyimdən də çox razıyam. Ona görə ki, birincisi, sizinlə bir yerdəyəm, ikincisi də Məmməd Arazın şerlərini götürüb oxuyursan, amma Mikayıl Mirzə kimi oxuya bilməzsən axı. Mikayıl Mirzə oxuyanda sənə daha güclü təsir edir. Və yaxud Zəlimxan Yaqub dediyi kimi, bunu sən özün qavraya bilməzsən.

Ona görə də bu gün mən buradan böyük mənəvi qida aldım. Məmməd Arazın yaradıcılığı ilə, bizim mədəniyyət xadimləri ilə təmasda olmaq, görüşmək, söhbət etmək dövlət adamı kimi mənim üçün böyük bir hadisədir. Belə tədbirləri gələcəkdə də keçirmək lazımdır. Bizim Prezident Aparatındakı işçilərə də bunu tapşırmışam və güman edirəm ki, yaradıcılıq təşkilatlarımız da soyumamalı, geri çəkilməməli, çətinliklərə görə ruhdan düşməməlidirlər. Bunlar hamısı keçib gedəcəkdir. Bizim mədəniyyətimiz də qalxacaq, yazıçılarımız da yenə yazacaq, jurnallar da çıxacaq, yaxşı-yaxşı romanlar da, şerilər də dərc ediləcək – hamısı olacaqdır. Dünən mənə Bəxtiyar Vahabzadə deyir ki, dörd ədəbiyyat jurnalı var, biri də çıxmır. İndi gör dünya nə günə gəlib düşübdür. "Ədəbiyyat və incəsənət" qəzetini mən həmişə çox böyük hörmətlə oxuyardım. Xatirimdədir, Moskvada yaşadığım vaxt Azərbaycanın qəzetlərinə abunə yazılmışdım, göndərirdilər. Hamısına baxmağa vax[367-368]tım yox idi. Amma "Ədəbiyyat və incəsənət" qəzetini mütləq oxuyurdum, tamamilə oxuyurdum. İndi bu "Ədəbiyyat qəzeti" çıxmır. Amma di gəl, elə adamlar peyda olublar ki, hərəsi bir qəzet çıxarır, ağızlarına gələni də yazırlar. Bu da bizim cəmiyyətə heç lazım deyil.

Şübhəsiz ki, bu bizə də haqq qazandırmır, bəraət vermir. Ancaq eyni zamanda Yazıçılar İttifaqı da, bizim ziyalılar da çalışmalıdırlar, çarpışmalıdırlar. Mən belə hesab edirəm ki, məsələn, "Ədəbiyyat qəzeti" əgər normal, əvvəlki qaydada çıxsa, orada dərc olunan yazılar, şeirlər, məqalələr, hekayələr bu ağır dövrdə insanların həyatına çox kömək edə bilər.

Zənn edirəm ki, bu gün bu gecəyə gələn adamların hamısı buradan mənəviyyatca zənginləşmiş halda getdi. Mən teleradio şirkətindən xahiş etmişəm ki, bugünkü görüşü sonra televiziya ilə tamamilə versinlər. Qoy ictimaiyyət də bilsin. Biz də çalışmalıyıq və mən də çalışacağam ki, bizim yaradıcılıq orqanlarımızda işlər canlansın, sənətkarlarımız yazsınlar, yaratsınlar.

Ancaq siz də çalışmalısınız. O tərəfdən də, bu tərəfdən də təşəbbüs olmalıdır ki, bu işləri görək. Məhz bu yolla – mədəniyyətin, ədəbiyyatın təsiri ilə biz cəmiyyətimizdə olan mənfi halları, bizi bəzən biabır edən halları aradan götürəcəyik. Cəmiyyətimiz sağlamlaşacaq. Müstəqil dövlətimiz yaşayacaq, böyüyəcək, inkişaf edəcəkdir. Müharibəyə də son qoyacağıq. Torpaqlarımız da geriyə qayıdacaq. Doğrudur, bu, ən çətin məsələdir. Həddindən artıq çətin məsələdir. İndi mən bunu sizə açıq demək istəmirəm ki, çətinlik nə dərəcədədir. Əgər bu ondan asılı olsaydı ki, bütün xalqı ayağa qaldırıb, gedib müharibə aparaq – bunu eləmək çətin bır şey deyil, gedərik, amma indi elə bır vəziyyət yaranıb ki, bunu etmək çətin olar. Ona görə də bu sahədə biz lazımi işlər görürük, bundan sonra da görəcəyik. Ancaq mən istəyirəm ki, xalqımızda nikbinlik əhval-ruhiyyəsi olsun. Xalqımız bilsin ki, müstəqil Azərbaycan yaşayacaq, müstəqilliyini qoruyacaq və müstəqil Azərbaycanın ilk "İstiqlal" ordenlərini alan şəxslər qalanları üçün örnək olacaqlar.

Amma eyni zamanda biz gərək keçmişimizi də unutmayaq, qiymətləndirək. Məsələn, dünən Bəxtiyar Vahabzadə ilə söhbət zamanı gördüm narahatdır ki, gələn il Səməd Vurğunun 90 illiyi tamam olur, nə etməli? Burada iki fikir ola bilməz. Səməd Vurğun kimi böyük bir şəxsiyyəti biz unuda bil[368-369]mərik. Ona görə də mən indi Anara da deyirəm və bizim Prezident Aparatına, Ramiz Mehdiyevə də tapşırıram: tədbirlər hazırlayın, böyük bir komissiya yaradaq. Səməd Vurğunun 90 illik yubileyinə hazırlaşaq, onu lazımi səviyyədə keçirək. Mən keçmişdə də buna həmişə diqqət vermişəm. Amma indi bunu daha da faydalı hesab edirəm ki, məhz belə tədbirlər bizi birləşdirir, hamımızı bir yerə yığır, mədəniyyətimizi daha da gücləndirir və insanları ruhlandırır. Yeni-yeni böyük istedadlar meydana gəlir. Bugünkü məclisdə balaca bir oğlan oxudu. Özü də musiqisiz. Nə qədər heyran etdi! Görün bizim xalqımızda nə qədər böyük istedadlar var! O gün Fərhad Bədəlbəyli məni dəvət etmişdi, getmişdim konservatoriyaya. Orada professional musiqi sahəsində istedadlı uşaqlar yeni-yeni qələbələr əldə ediblər.

Bilirsiniz, xalqımızın içində böyük bir mədəniyyət potensialı, fitri istedad potensialı var. Bunları aşkara çıxarıb qaldırmaq və imkan vermək lazımdır. Əgər bu gün bu gecə olmasaydı, mən o uşağı tanımayacaqdım. Gördük tanıdıq. İndi mənə elə gəlir ki, o, məşhur olacaqdır. Ona görə də bu tədbirlər bizi həmişə daha da irəliyə aparır.

Səməd Vurğunun özünün xatirəsi naminə, onun xidmətlərinə qiymət naminə, eyni zamanda bu günümüz, gələcəyimiz üçün biz onun yubileyini keçirməliyik. Mənim xatirimə düşdü ki, Süleyman Rüstəm də o yaşdadır. Xahiş edirəm, Süleyman Rüstəmin də 90 illiyi haqqında təklif verin. [369]

## AVROPA BİRLİYİ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞMƏK ÜÇÜN BELÇİKAYA YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*17 aprel 1995-ci il*

Azərbaycanın Avropa Birliyinə qoşulması respublikamız üçün çox böyük imkanlar verir. Ümumiyyətlə, indi qitədə və dünyada Avropa Birliyinin fəaliyyəti bütün sahələrdə – həm iqtisadi, həm də siyasi sahədə çox genişdir. Ona görə də indi Avropa Birliyi ilə əlaqələrimizin inkişaf etməsi respublikamız üçün hərtərəfli mənfəətlidir. Bu birlik və onun iqtisadi komissiyası Azərbaycana xeyli kömək-humanitar yardım edib, respublikamıza xüsusən taxıl məhsulları və başqa ərzaq malları göndəribdir. Onlar ölkəmizin böhran vəziyyətindən çıxmasına kömək edirlər. Bu yardımın indən sonra da davam etdirilməsi üçün onların geniş bir proqramı var. Ona görə də Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqelərinin daha da möhkəmləndirilməsi və qarşımızda duran bütün məsələlərin, siyasi məsələlərin, o cümlədən Ermənistan- Azərbaycan münaqişəsinin aradan qaldırılması və Avropa Birliyinin, onun iqtisadi komissiyasının ölkəmizə köməyinin daha da artırılması üçün bu səfər çox əhəmiyyətlidir. [370]

## SOYDAŞLARIMIZLA GÖRÜŞDƏ ÇIXIŞ

*Brüssel*

*17 aprel 1995-ci il*

Belə hesab edirəm ki, siz azərbaycanlılar buraya mənim Brüsselə gəlməyim münasibətilə toplaşmısınız və mənimlə görüşmək istəyirsiniz. Mən bundan çox məmnunam. Sizə müstəqil Azərbaycan Respublikasından, Azərbaycan torpağından səmimi salamlar gətirmişəm. Mən sizi sevimli xalqımız adından, dövlətimiz adından salamlayıram və hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram.

Şübhəsiz ki, siz, yəni Avropada yaşayan azərbaycanlılar, türklər Azərbaycanla, ölkəmizin vəziyyəti ilə maraqlanırsınız. Ancaq bilməlisiniz ki, biz – Azərbaycandakı soydaşlarınız, azərbaycanlılar da bütün dünyada yaşayan azərbaycanlılarla çox maraqlanırıq. İndi müstəqil bir dövlət olan Azərbaycan bütün dünyadakı azərbaycanlıların qayğısına qalır, onların barəsində fikirləşir, düşünür. Bəzi səbəblərə görə bir çox azərbaycanlılar Vətəndən kənarda yaşayırlar. Avropada, Amerikada, başqa qitələrdə də yaşayanlar var. Bu, müəyyən dərəcədə təbiidir, çünki bir millətdən olan adamların hamısı həmişə öz torpağında yaşaya bilməz. Bunun müsbət cəhəti də var. Həmin cəhət ondan ibarətdir ki, əgər Brüsseldə və onun ətrafında azərbaycanlılar yaşamasaydı, mən gəlib burada bir azərbaycanlı görməsəydim, özümü, şübhəsiz, pis hiss edərdim. Amma görürəm ki, bizim azərbaycanlılar Avropada yaşayır, işləyir, həyat sürürlər. Bu, sevindirici haldır.

Doğrudur, hələ keçmiş zamanlarda da adamlar öz Vətənindən köçüb başqa ölkədə yaşayanda deyirdilər ki, onlar qürbətdədir. Bu söz – "qürbət" sözü qəmginlik yaradan kəlmədir. Qürbətdəki adamlar daim Vətənin həsrətini çəkir və çox çalışırlar ki, Vətəndə olsunlar. Ona görə də qürbətdə yaşayanlar qəriblikdə Vətənini, torpağını, xalqını, millətini, dinini, dilini, adət və ənənələrini unutmursa, insanın harada yaşaması elə böyük əhəmiyyət kəsb etmir.

İndi bizim müstəqil bir ölkə kimi xaricdə, məsələn, Avropa, [371-372] Amerika dövlətlərində güclü lobbiyə, güclü diaspora ehtiyacımız var. Bilirsiniz ki, yeddi ilə yaxındır Ermənistanla Azərbaycan arasında müharibə gedir. Bu müharibəni Ermənistan bizim Azərbaycan torpaqlarını ələ keçirmək üçün başlamışdır. Təəssüf ki, bəzi böyük ölkələrin dəstəyi, köməyi ilə və çox təəssüflər olsun, bir çox səbəblərdən bu müharibədə Azərbaycan torpaqlarının bir qismi erməni silahlı qüvvələri tərəfindən işğal edilibdir. İşğal olunmuş torpaqlardan isə vətəndaşlarımız qaçqın və köçkün düşmüşlər. İndi bir milyondan artıq qaçqın Azərbaycanın başqa məntəqələrində yaşayır.

Belə bir şəraitdə biz beynəlxalq təşkilatların imkanlarından çox istifadə edirik. Çalışırıq ki, beynəlxalq təşkilatlarda Azərbaycanın haqq işini və Ermənistanın təcavüzkar olduğunu daha sanballı surətdə sübut edək, bütün bu məsələləri sülh yolu ilə aradan qaldıraq. Amma hansı bir beynəlxalq təşkilatda işə başlayırıqsa, görürük ki, orada erməni lobbisi çox güclüdür. Erməni millətindən olan bu adamlar çox vaxt heç Ermənistanda yaşamayıblar. Onlar həm güclü və varlıdırlar, həm də dövlət orqanlarına təsir göstərə bilirlər. Ermənilərin Azərbaycana qarşı apardıqları müharibədə haqsız olduqlarına baxmayaraq, erməni lobbisi öz imkanlarından istifadə edərək bizim haqq işimizin, haqlı təkliflərimizin eşidilməsinə maneçilik törədir.

Mən təkcə buna görə demirəm ki, başqa ölkələrdəki azərbaycanlılar güclü olmalıdırlar. Ümumiyyətlə, hər hansı bir xalq öz çərçivəsinə qapanıb yaşasa, dünyanı görməsə, dünya ilə əlaqəsi olmasa, çox inkişaf edə bilməz.

İndi dünyanın həyatı elədir ki, hər bir ölkədən nəsə görüb-götürmək, hər bir ölkənin təcrübəsindən nəsə öyrənmək olar. Mən belə deməklə onu əsaslandırmaq istəmirəm ki, siz niyə, məsələn Azərbaycandan, yaxud Türkiyədən gəlib Avropada – Belçikada, Almaniyada yaşayırsınız. Hərənizin buraya gəlməyinin bir səbəbi var. Mən bilirəm, Vətən üçün ürəyiniz darıxır. Bu da təbiidir. Amma eyni zamanda, yenə də qeyd edirəm ki, mən gəlib burada, Brüsseldə azərbaycanlılarla görüşəndə özümü yaxşı hiss etdim. Sevindim ki, bizim burada soydaşlarımız, həmvətənlərimiz var. Onlar Azərbaycan haqqında həqiqəti burada, Avropada yaymağa qadirdirlər. Ona görə də hər birinizin burada Azərbaycanın xeyrinə, yəni Azərbaycanın müstəqilliyi naminə, bugünkü və gələcək həyatı naminə gördüyünüz bütün işlər ölkəmiz üçün qiymətlidir.

Şübhəsiz ki, hər bir insan öz Vətəninə, millətinə, dininə, di[372-373]linə nə qədər bağlı olursa, mənəviyyatca da bir o qədər yüksək olur. Mən güman edirəm ki, siz Avropada yaşasanız da, Vətəninizə bağlısınız, ata-babalarınızın, ulu babalarınızın ruhuna, onların verdikləri nəsihətlərə bağlısınız. Kimin harada yaşamasından, işləməsindən asılı olmayaraq, o, Azərbaycanı unutmur, Vətəni yad edir, təbliğ edir.

Bir müstəqil dövlət kimi Azərbaycanın indi Avropada da, Asiyada da, Amerikada da təbliğ olunmağa çox ehtiyacı var. Bu sahədə Avropanın müxtəlif dövlətlərində yaşayan və müxtəlif cəmiyyətlərdə birləşən soydaşlarımız böyük və səmərəli iş görə bilərlər. Bir sıra səbəblər üzündən Azərbaycanın vəziyyəti indi ağırdır

və bu çətinliklərdən başqa Azərbaycanın şimal tərəfdən yollarının bağlanması ilə daha bir problem yaranıb. Əslində Azərbaycan blokada vəziyyətinə düşüb.

Müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq daha çətindir, müşküldür. Çünki Azərbaycanın müstəqilliyi ilə razılaşmayan qüvvələr var və bu qüvvələr bütün imkanlardan istifadə edirlər ki, ölkəmiz yenidən təsir dairəsinə düşsün. Lakin nəyin bahasına olursa-olsun, Azərbaycan prezidenti və xalqı öz müstəqil dövlətini qoruyub saxlayacaqlar.

Bizim həm həyatımızı, həm də müstəqilliyimizi qoruyub saxlamağa maneçilik törədən məsələ Azərbaycanın Ermənistanla müharibə vəziyyətində olmasıdır. Bilirsiniz ki, bu müharibə 1988-ci ildə başlayıb. O vaxtlar Azərbaycan da, Ermənistan da Sovetlər İttifaqının tərkibində idi. Təəssüf ki, onda Azərbaycanda hakimiyyətdə olan adamlar bu müharibənin qarşısını ala bilmədilər, halbuki ala bilərdilər. Çünki Azərbaycan da, Ermənistan da bir dövlətin tərkibində idi. Şübhəsiz ki, o vaxtlar Sovetlər İttifaqında hakimiyyət başında duran şəxslər, xüsusən Mixail Qorbaçov Azərbaycana xəyanət edib və Dağlıq Qarabağ məsələsinin qaldırılmasına, Ermənistanın Azərbaycana hücum etməsinə imkan verilibdir. Lakin bunun da qarşısı alına bilərdi. Çünki Sovetlər İttifaqı çox qüdrətli və güclü bir dövlət idi, böyük orduya, böyük imkanlara malik idi. Sadəcə olaraq bunların qarşısını alıb deyə bilərdi ki, Ermənistan da öz yerində otursun, Azərbaycan da. Bu da olmadı. Azərbaycanın rəhbərləri gərək öz torpaqlarını qoruyaydılar və Sovetlər İttifaqının imkanlarından istifadə edəydilər. Onlar bunu edə bilmədilər. Bundan sonra müxtəlif proseslər gedib və təəssüf ki, Azər[373-374]baycanda daxili sabitlik də olmayıb. Bir tərəfdən ermənilər Azərbaycana təcavüz edib torpaqlarımızı ələ keçirmək istəyir və 1990-91-ci illərdə Dağlıq Qarabağı tamamilə ələ keçirmişlər. Digər tərəfdən isə Azərbaycanın daxilində adamlar hakimiyyəti ələ almaq və vəzifələri tutmaq üçün bir-biri ilə mübarizə aparmağa başlayıblar. Bax, içimizdə olan bu ixtilaflar, davalar, vəzifə və hakimiyyət mübarizəsi Azərbaycanı bu günə gətirib salmışdır.

Bunları nəzərə alaraq biz son vaxtlar çalışırıq ki, həm Ermənistanla müharibədə müəyyən bir dönüş yaradaq, həm də Azərbaycanın daxilində vəziyyəti sabitləşdirək. Siz Azərbaycandan uzaqlarda olduğunuza görə bilməlisiniz ki, torpaqlarımızın bir qisminin erməni silahlı qüvvələri tərəfindən işğal edilməsi azərbaycanlıların o qədər də aciz olması ilə bağlı deyildir. Yox, azərbaycanlılar aciz millət, aciz və gücsüz adamlar deyildirlər. Sadəcə olaraq Azərbaycanda hakimiyyətdə olan adamlar, Azərbaycan rəhbərliyi xalqın gücündən, qüdrətindən istifadə edə bilmədilər. Məsələn, Ermənistan ordu yaratdığı halda, Azərbaycanda ordu yaradılmadı. Ermənistana nə lazım idi ki, ordu yaradaydı? Axı ona heç kəs hücum etmirdi. Amma Azərbaycan artıq 1988-ci ildə Ermənistanın təcavüzünə məruz qalmışdı. Gərək Azərbaycanda ordu, silahlı qüvvələr yaradılaydı. Adamlar səfərbərliyə alınaydı. Lakin bunun əvəzinə daxildə didişmələr, dedi-qodular, vəzifə mübarizəsi və digər ixtilaflar gedirdi. Bax, bunların nəticəsində Azərbaycan torpaqlarının bir qismi işğal edildi. Məhz bunların nəticəsində. Məsələn, Azərbaycanın bir neçə rayonu işğal edilibdir. Elə bilirsiniz orada döyüş, vuruşma gedib? Məsələn, 1993-cü ilin mart ayının sonunda – aprel ayının əvvəlində Kəlbəcər rayonu işğal edildi. Amma bunu hamı bilir, tarix də göstərir, şahidlər də deyirlər ki, Kəlbəcər rayonunda heç bir vuruşma olmayıb. Bəziləri gəlib camaatı qorxuya, vahiməyə salıb, bəziləri də döyüşçüləri heç bir vuruşma getmədiyi halda oradan çıxarıblar. Ermənilər də gəlib oraya girmişlər.

Hamımızın əzizi olan Şuşa şəhərini deyim. Bildiyiniz kimi, Şuşa Azərbaycanın incisi, Qarabağın gözüdür, bizim qədim abidələrimiz olan, qədim dövlətçiliyimizin şəhəridir. Şuşa böyük tarixə malik şəhərdir. Şuşa və Laçın rayonlarının Ermənistan tərəfindən işğal edilməsi döyüşlərlə əlaqədar deyil. Bu rayonların müdafiəsi zamanı xəyanət etmiş adamların ittiham [374-375] olunması ilə əlaqədar hazırda məhkəmə gedir. Məhkəmə açıq-aydın göstərir ki, Şuşa əsla müdafiə edilmirdi.

Şuşanın işğalı vaxtı mən Naxçıvanda yaşayırdım. Siz bilirsiniz ki, o vaxtlar – mən Moskvadan gedəndən sonra məni Bakıda yaşamağa qoymadılar. Gedib Naxçıvanda yaşadım. Naxçıvanın da Azərbaycanla əlaqəsi kəsilmişdi və o, blokada şəraitində idi. Biz çox ağır bir vəziyyətdə yaşayırdıq. Orada mən eşitdim ki, Şuşa ermənilər tərəfindən işğal olundu. O vaxtlar İran nümayəndələri Azərbaycanla Ermənistan arasında müəyyən qədər vasitəçilik edirdilər. İran hökumətinin nümayəndələri mənim də yanıma gəlib-gedirdilər. Onlar gəlib mənə bildirdilər ki, ermənilər bizə deyir: "Biz Şuşanı zəbt etmədik, biz Şuşa şəhərini almaq uğrunda vuruşmadıq, azərbaycanlıların özləri Şuşanı sinidə bizə verdilər"...

Lakin son dövrdə, yəni 1993-cü ilin payızından başlayaraq biz böyük bir dönüş yarada bildik. Azərbaycanın öz müstəqilliyini qoruyub saxlamaq üçün əsas vasitələrdən biri kimi ordu quruculuğu işinə əgər son illər diqqəti artırmasaydıq, ölkəmiz daha böyük faciə ilə üzləşə bilərdi. Məhz bunun nəticəsində, əvvəllər atəşkəs haqqında müqavilə imzalamaq istəməyən Ermənistan keçən il mayın 12-də bu sənədə imza atdı.

Biz müharibəyə sülh yolu ilə son qoyulmasına tərəfdarıq, bunun üçün beynəlxalq təşkilatların, ilk növbədə də ATƏT-in və onun Minsk qrupunun fəaliyyətinə ümidlər bəsləyirik. Bu mənada ATƏT-in Budapeşt Zirvə toplantısının qərarları mühüm əhəmiyyət kəsb edir. ATƏT-in Minsk qrupunun fəaliyyətindəki ləngilik, təbii ki, respublikamızı və onun prezidentini razı sala bilməz. Azərbaycan bütün hallarda məsələnin sülh yolu ilə həll olunmasına tərəfdardır. Bir şərtlə ki, onun ərazi bütövlüyü və suverenliyi təmin edilsin...

Bilirsiniz, görürsən yeni dəbdə bir paltar çıxanda hamı – yaraşan da, yaraşmayan da, pulu olan da, olmayan da çalışır ki, ondan geysin. Bizim bəzi adamlar da indi belə bir xəstəliyə tutulublar – hamı partiya yaratmaq istəyir. Hamıya şərait yaradılmışdır və bu partiyaların heç birinin fəaliyyətinə etirazımız yoxdur. Açıq deyə bilərəm ki, partiyalar sayca çox olsa da, üzvləri azdır. Bu partiyaların gücləri yoxdur, lakin belə hesab edirlər ki, gücləri böyükdür.

Məsələn, bu yaxınlarda Amerika Milli Demokratiya İnstitutunun direktoru Letski Bakıya gəlmişdi. Mən də onunla görüşdüm. O, əvvəlcə xarici siyasət məsələləri üzrə dövlət mü[375-376]şaviri Vəfa Quluzadə ilə görüşüb söhbət etmişdi. Vəfa Quluzadə mənə dedi ki, qonaq müxalifət partiyalarının hamısının nümayəndələri ilə görüşmüşdür. Onların verdikləri məlumatdan belə görünür ki, indi Azərbaycanın əhalisi 300 milyon nəfərdir. Çünki onlar öz partiyalarına daxil olan üzvlərin sayı haqqında o qədər şişirdilmiş məlumat veriblər ki, bunları cəmləyəndə amerikalı qonaq deyir ki, sizin əhaliniz gərək 300 milyon nəfər olsun. Amma Azərbaycanın əhalisi 7 milyon yarımdır. Yəni bunlar öz partiyalarının həm fəaliyyətini, həm də üzvlərinin sayını çox şişirdiblər. Amma bu da keçib gedəcəkdir. İnsanlar gərək bəzi mərhələlərdə bu xəstəliyə tutulsunlar. Bəziləri indi buna tutulsalar, gələcəkdə ona məruz qalmazlar.

Şübhəsiz, o partiyalar ki, xalqın müəyyən təbəqəsinin nüfuzunu qazana biləcəklər, onlar yaşayacaq, inkişaf edəcəklər.

Məlum olduğu kimi, ölkəmizdə üç dəfə dövlət çevrilişinə cəhd göstərilmişdir.

Mən 1993-cü ilin iyun hadisələri zamanı respublikada vətəndaş müharibəsinin qarşısını almaq və ölkənin parçalanmasına yol verməmək üçün xalqın tələbi və çağırışı ilə yenidən hakimiyyətə qayıtmağa razılıq verdim. Məqsədim Azərbaycanın tam müstəqilliyinə nail olmaqdır. Lakin bəzi qüvvələr bunu lazımınca qiymətləndirmir və ibrət dərsi götürmürlər.

O vaxt Azərbaycanı parçalamaq istəyirdilər. Bir tərəfdən guya Talış Respublikası, o biri tərəfdən Ləzgi Respublikası yaratmaq istəyirdilər. Ermənistan bundan istifadə edərək torpağımızın xeyli hissəsini işğal etdi. Lakin gərginliyi aradan qaldırdıq. Fikirləşirdim ki, bu, hamıya dərs olar, hakimiyyət mübarizəsinə son qoyular. Lakin belə olmadı.

Mən o zaman şəraiti nəzərə alaraq qüvvələri parçalamamaq üçün, dövlətə qarşı Gəncədə qiyam etmiş və müəyyən qədər qalib olmuş Surət Hüseynovu baş nazir təyin etdim. Mən istədim ki, bu qüvvələri birləşdirək, Azərbaycan parçalanmasın. Əslində o bu vəzifəyə layiq deyildi, 35 yaşında bir adam idi, savadı çox az idi, təcrübəsi də yox idi. Başına da bəzi silahlı qüvvələri toplamışdı. Doğrudan da ona kömək etmək istədim ki, bəlkə işləyərək fayda verə bilsin. Amma bu adamlar bir müddətdən sonra yenə hakimiyyət mübarizəsinə qoşuldular. Digər qüvvələr də baş qaldırdı. Xalq Cəbhəsi də hakimiyyət mübarizəsinə başladı. Halbuki əvvəl hakimiyyətə gəlmişdi, lakin əldə saxlaya bilmədi. Prezident qaçdı, Ali Sove[376-377]tin sədri, baş nazir istefa verdilər. Lakin bir neçə aydan sonra yenə hakimiyyət mübarizəsinə qalxdılar və bundan ötrü ayrı-ayrı cinayətkar ünsürlərdən, gizli silahlı qüvvələrdən istifadə etməyə başladılar.

Əvvəlki prezident Ayaz Mütəllibov da Moskvaya qaçmışdır. Orada bəzi qüvvələr ondan istifadə etmək istəyirlər. O da oradan Azərbaycanı parçalamaq istəyirdi. Bunların hamısı çalışırdı ki, ölkə daxilində olan cinayətkar qüvvələri qaldırsınlar. Azərbaycanda bir tərəfdən Ermənistanla müharibə gedirdi, bir tərəfdən də öz içərimizdə. Bilirsiniz ki, bu, keçən il oktyabrın əvvəlində və demək olar, ondan da bir az qabaq başlandı. Oktyabr hadisələri zamanı keçmiş Xüsusi Təyinatlı Polis Dəstəsinin əfv edilməsi onunla bağlı idi ki, Azərbaycanda qüvvələr parçalanmasın, müharibə şəraitində milli həmrəyliyə nail olunsun. Lakin Rövşən Cavadov Prezident Aparatı qarşısında keçirilən mitinqə gələrək prezidentin tərəfində olduğunu söyləsə də, sonradan yenə də dövlət çevrilişi cəhdinə əl atdı.

Mart ayında mən Kopenhagenə getmişdim. Dünya ölkələrinin dövlət başçıları oraya toplaşmışdılar. Bilirsiniz ki, dünyanın sosial problemləri ilə əlaqədar Birləşmiş Millətlər Təşkilatı orada böyük bir toplantı keçirirdi. Mən də Azərbaycanın dövlət başçısı kimi orada iştirak edirdim. Bu müddətdə həmin Xüsusi Təyinatlı Polis Dəstəsi dövlət çevrilişi etmək istəyirdi. Amma bunu edənlər təkcə onlar deyildi. Xalq Cəbhəsi, Moskvada olan Mütəllibov, Surət Hüseynov, Azərbaycandakı "Boz Qurd" Partiyası, başqa müxalifət partiyaları bu cəhdə qoşulmuşdular.

Xüsusi Təyinatlı Polis Dəstəsi Daxili İşlər Nazirliyinin tərkibində silahlı dəstə idi. Onun üzvlərinin çoxu vaxtilə Ermənistan silahlı qüvvələri ilə vuruşmuş, yəni döyüşlərdən çıxmış adamlar idi. Sonra isə çoxları cinayət yoluna düşmüş, adamları soymuş, öldürmüşdülər. Artıq belə bir dəstənin polisdə qalmasına ehtiyac yox idi. Ancaq yenə də qarşıdurma yaranmaması üçün mən bu dəstənin ləğvini ləngidirdim, lakin onu ləğv etmək lazım idi.

Bayaq dediyim qüvvələrin hamısı bu dəstənin ətrafına toplaşaraq onu qızışdırmışdılar ki, bəli, dəstə dövlət çevrilişi edəcək, prezidenti öldürəcək, hakimiyyəti ələ keçirəcək və hamısı birlikdə yenidən hakimiyyətə gələcəkdir. Mən Kopenhagendə olarkən məlumat aldım ki, onlar artıq bu çevrilişə hazırlaşıb[377-378]lar. Hətta mən Bakıya dönəndən sonra dəqiq məlumat gəldi ki, onlar hava limanında sui-qəsd edib məni öldürmək istəyirmişlər. Lakin görünür, vaxt dəyişdiyinə görə buna nail ola bilmədilər. Dövlət çevrilişinin qarşısı alındı və bütün günahkarlar cəzalandırılacaqdır. Heç şübhəsiz, bu dövləti cinayətin qarşısının alınması çoxları üçün ibrət

dərsi olacaqdır. İndi Azərbaycanda vətəndaşlar rahat nəfəs almağa başlayıb, sakitlik yaranıb. Lakin hələ görüləsi çox işlər, həll ediləsi çox problemlər var. Sözümün sonunda onu demək istəyirəm ki, Azərbaycanın müstəqilliyi tarixi hadisə, xalqımızın tarixində olan ilk imkandır. Bunu qoruyub saxlamaq və gələcək nəsillərə çatdırmaq bizim borcumuz, şərəfli vəzifəmizdir. Mən də bir prezident kimi bu vəzifəni həyata keçirməyə çalışıram. Sağ olun.

Mən sizi dinləməyə hazıram. Yəqin ki, sizin sözünüz, sualınız var. Buyurun.

**Sual: Azərbaycanda rüşvətxorluğun qarşısının alınması üçün nə kimi işlər görülür?**

**Cavab:** Rüşvətxorluğun harada çox, harada az olmasının o qədər də əhəmiyyəti yoxdur. Hər bir dövlət, millət, xalq üçün rüşvətxorluq böyük bəlalardan biridir. Siz gəncsiniz, bəlkə də bunları bilmirsiniz. Mən 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçilmişəm. Bir-iki aydan sonra o vaxtdan 26 il keçəcək. O vaxt – kommunist rejimi, sosialist dövləti vaxtında da rüşvətxorluq var idi. Sovetlər İttifaqı dövründə rüşvətxorluğa keçmişin, burjuaziya sisteminin qalığı deyirdilər. Deyirdilər ki, rüşvətxorluq həm keçmişin qalığı, həm də burjuaziya sistemindən bizə keçmiş xəstəlikdir. İzah edirdilər ki, Sovet İttifaqında, sosialist quruluşunda rüşvət ola bilməz. Halbuki var idi. Həm də Kommunist Partiyası dövründə rüşvətxorluq haqqında danışmırdılar. Çünki belə düşünürdülər – əgər desək ki, bizdə rüşvətxorluq var, – o vaxt burjuaziya dövlətləri ilə sosialist dövlətləri arasında siyasi mübarizə gedirdi, – onda Almaniyada, Münxendə yerləşən "Azadlıq" radiostansiyası bildirəcək ki, Sovetlər İttifaqı içəridən dağılır, çünki burada rüşvətxorluq, korrupsiya var.

Bəli, rüşvətxorluq var idi. Ancaq bunu adamlar yalnız bir-biri arasında deyirdilər. Heç bir rəhbər işçi demirdi ki, bizim cəmiyyətdə rüşvətxorluq var. Fikirləşirdilər ki, bunu desək, kapitalistlər bundan istifadə edəcək, ölkəmizi hörmətdən salacaq, imicini korlayacaqlar. [378-379]

Mən Azərbaycana rəhbər seçiləndən bir ay sonra böyük bir məruzə etdim. Həmin məruzəmdə Azərbaycandakı rüşvətxorluq haqqında açıqca danışdım. Bildirdim ki, respublikada rüşvətxorluq var və bununla mübarizə aparmaq lazımdır. Vəzifəli adamlar vəzifələrindən öz şəxsi məqsədləri üçün istifadə edirlər və sair.

Bütün xarici radiostansiyalar – "Azadlıq", Amerikanın səsi" və başqaları mənim fikirlərimi bir ay təkrar etdilər və dedilər ki, Azərbaycanda böyük bir inqilab əmələ gəlib, nə olub? Yeni bir rəhbər gəlib açıqca deyir ki, respublikada rüşvətxorluq var. Onlar da bundan istifadə etdilər. Sovetlər İttifaqının o vaxtkı başçısı Leonid Brejnev təxminən bir aydan sonra mənə telefonla zəng etdi, dedi ki, sən orada nə edirsən? Soruşdum ki, nə barədə? Dedi ki, xarici qəzetlər, radiostansiyalar Azərbaycandan çox şeylər yazırlar. Yazırlar ki, sən orada adamları həbs edirsən. Cavab verdim ki, bəli, bəzi adamları həbs etmişik. Soruşdu ki, nəyə görə? Dedim ki, onlar rüşvət alıblar, ona görə də həbs olunublar. Soruşdu ki, bəs belə şeylər danışmısan? Dedim ki, bəli, danışmışam.

Mən ondan soruşdum ki, siz bunları haradan bilirsiniz? Dedi ki, həmin xarici qəzetlərin, radiostansiyaların materiallarının xülasəsini mənə veriblər, oradan bilirəm. Soruşdum ki, bəs öz işçiləriniz bu barədə sizə məlumat verməyiblər? Axı mən belə addım atarkən onlar bunu bilirdilər. Dedi ki, yox, onlar mənə heç nə deməyiblər. Mən bu barədə ona telefonda təxminən 45 dəqiqə ətraflı danışdım. Axırda o dedi ki, düz etmisən. Bundan bir il sonra ilk dəfə Moskvada Kommunist Partiyasının qurultayında Brejnev öz məruzəsində dedi ki, bizim cəmiyyətdə rüşvətxorluq var və onunla mübarizə aparmaq lazımdır.

Bütün bunları ona görə deyirəm ki, rüşvətxorluq o vaxt da var idi. Mən o şəxsəm ki, Sovetlər İttifaqı kimi böyük bir ölkədə ilk dəfə olaraq rüşvətxorluğun əleyhinə çıxmışam və rüşvətxorların bir qismini də həbs etmişəm. Amma onu da deyim ki, mən 1987-ci ildə Moskvada öz vəzifəmdən istefa verəndən sonra mənim əleyhimə yazılar yazmağa başladılar. Azərbaycanda vaxtilə mənim həbs etdirdiyim rüşvətxorları gətirib televiziyaya çıxardılar və qəhrəman kimi göstərdilər. Dedilər ki, onlar Əliyev hakimiyyətinin qurbanlarıdır. Mənim başıma belə işlər də gəlib.

Sizə bunları bildirməklə onu demək istəyirəm ki, bu bəla, [379-380] xəstəlik var: bir yerdə çox, bir yerdə az. Bununla mübarizə aparmaq lazımdır. Rüşvətxorluqla ən çox mübarizə aparanlardan biri də Heydər Əliyevdir. Əgər 26 il bundan əvvəl Sovetlər İttifaqı kimi böyük bir dövlətdə, o cür rejimdə cəsarətim çatıb rüşvətxorluq haqqında bütün dünyaya bəyanat verib mübarizə aparmışamsa, indi, müstəqil Azərbaycan Respublikasının prezidenti kimi bu işdə əl-qolumu bağlayan yoxdur, mübarizə aparacağıq.

**Sual: Hörmətli prezident, Azərbaycanda iqtisadi islahatların gedişi barədə nə deyə bilərsiniz?**

**Cavab:** Biz iqtisadi islahatların həyata keçirilməsi ilə məşğuluq. İki ay bundan əvvəl bu məsələ ilə əlaqədar, yəni kənd təsərrüfatında iqtisadi islahatların aparılması üçün iki qanun qəbul etmişik, indi kolxozların, sovxozların tədricən ləğv olunması, torpaqların kəndliyə verilməsi, mülkiyyət formalarının dəyişdirilməsi, şəxsi mülkiyyətin yaranması məsələləri ilə məşğuluq. Respublikamızda özəlləşdirmə proqramı hazırlanıb, bu proqrama yaxın vaxtlarda baxacağıq. Həmin proqram əsasında sənaye, nəqliyyat, ticarət, məişət xidməti sahələrini mərhələ-mərhələ özəlləşdirəcəyik. Yəni mülkiyyətin formaları dəyişdikcə, insanlarda sahibkarlıq hissi yarandıqca, qiymətlər sərbəstləşdikcə belə hesab edirəm ki, respublikamızın iqtisadiyyatında da müsbət dəyişikliklər olacaqdır. Biz iqtisadi islahatlar aparırıq və bundan sonra da aparacağıq.

**Sual: Xaricdə Azərbaycan lobbisinin yaranmasına nə kimi kömək göstərilə bilər?**

**Cavab:** Güman edirəm ki, burada gərək xaricdə yaşayan azərbaycanlıların özləri fəal, təşəbbüskar olsunlar. Çünki lobbi süni surətdə yaranmır. Xarici ölkələrdəki lobbilər insanların öz vətəni, millətı ilə bağlılığından asılıdır. Amerikanın erməni millətindən olan ən zəngin adamlarından biri, – adını çəkmək istəmirəm – bəlkə də heç vaxt Ermənistanı görməyib, orada yaşamayıb, amma daim Ermənistana maddi yardım edir. Eyni zamanda Amerikada, Avropada Ermənistan haqqında hansı fikri istəyir, onu da yaradır.

Bilirsiniz ki, ABŞ Konqresi Azərbaycan haqqında azadlığı dəstəkləmə aktının 907-ci maddəsini tətbiq edərək respublikamıza kömək göstərilməsinə məhdudiyyət qoyub. Bu, 1992-ci ilin payızında olub. Həmin qərar ona görə qəbul edilib ki, guya Azərbaycan Ermənistanı blokadaya salıb. Bundan sonra Ermənistan gəlib Azərbaycan torpaqlarının bir qismini, bütün [380-381] dəmir yolunu tutub, təcavüzkarlıq edib, ancaq Konqresin qəbul etdiyi qərar öz gücündədir və onu aradan götürməyə bizim imkanımız yoxdur. Soruşarsınız ki, bəs bu necə olub? Həmin erməni lobbisinin nümayəndələri gəlib Konqresdəki bəzi adamlarla danışıb, onlara təsir edib, razılığını alıb. ABŞ konqresi üzvlərinin çoxu bilmir ki, Ermənistanla Azərbaycan arasında münasibətlər necədir. Bir layihə hazırlayıblar, onlar da səs veriblər, bununla da həmin məsələ həll olunub. Konqresin üzvlərindən bəziləri Bakıya gəlmişdilər, onlarla danışdım, basa saldım ki, axı bu ədalətsizlikdir. Deyirlər ki, yox, biz bunu belə qəbul etmişik. Niyə? Ona görə ki, erməni lobbisi Konqresin bəzi üzvlərini ələ ala bilib.

Erməni lobbisinə Ermənistandan heç kim rəhbərlik etmir. Onlar öz vətənlərinə, millətlərinə, torpaqlarına o qədər bağlıdırlar ki, orada da öz imkanlarından istifadə edirlər. Şübhəsiz ki, xarici ölkələrdə yaşayan azərbaycanlıların belə imkanları yoxdur. Mən bunu bilirəm. Ancaq hətta ən kiçik imkandan da istifadə etmək lazımdır. Deməк, təşəbbüs birinci növbədə gərək sizin özünüzdən olsun. Axı siz niyə gərək üç ildən bir görüşəsiniz? Tez-tez görüşün.

Ermənilər hara gedirlər, özlərinə bir məktəb, kilsə və sair açırlar. Kimin harada işləməsindən asılı olmayaraq, mütləq bu kilsəyə gəlməlidir, məktəbdə erməni dilində oxumalıdırlar, erməni dilində qəzet buraxmalıdırlar. Təəssüf ki, bu xüsusiyyət bizim millətimizdə yoxdur.

Digər tərəfdən, xarici ölkələrdəki Azərbaycan lobbisinin fəaliyyətini gücləndirmək üçün gərək bizim nümayəndəliyimiz, səfirliyimiz lazımi iş görsün. Burada respublikamızın səfiri neçə ildir işləyir, özü də təcrübəli adamdır. Gərək o, gecə-gündüz bu işlərlə məşğul olsun. Baxsın, harada azərbaycanlı var, ona kömək etmək lazımdırsa – kömək etsin, onu başqa azərbaycanlı ilə bağlamaq mümkündürsə – bu əlaqəni qursun. Burada, əlbəttə, səfirlikdən çox şey tələb olunur. Səfir buradadır, mən ondan tələb edirəm ki, bu işlərlə Almaniyada ciddi məşğul olsun. İndi buraya, Belçikaya səfir təyin etdik. O da məşğul olsun. Başqaları da məşğul olmalıdırlar. Əl-ələ vermək, iş görmək lazımdır.

Avropa ölkələrinin müxtəlif şəhərlərində yerləşən Azərbaycan cəmiyyətlərinin bir mərkəzdə birləşdirilməsinin vacibliyi təklifinə gəlincə onu deyə bilərəm ki, bunlar doğru fikirlərdir, amma bu cəmiyyətləri bir mərkəzdə birləşdirmək üçün siz də [381-382] təşəbbüs göstərməlisiniz, səfir də işləməlidir. Xarici ölkələrdə yüksək ixtisaslı azərbaycanlı kadrlar hazırlanması işinə xüsusi diqqət yetirilməsi təklifi olduqca böyük maraq doğurur. Respublika baş. nazirinin müavini, professor İzzət Rüstəmov bu görüşdə iştirak edir. Mən ona tapşırıram ki, bu məsələlərlə məşğul olsun və bu işin gedişinə nəzarət etsin.

Çıxış edənlərin xarici ölkələrdə lobbimizin təşkili üçün Azərbaycanda da müəyyən bir mərkəz yaradılması, respublika Teleradio Verilişləri Şirkətində xarici ölkələr üçün proqramlar hazırlayan şöbənin açılması və onun verilişlərinin Avropa ölkələrinə yayılması, xaricdə yaşayan soydaşlarımızın vətəndaşlığı məsələsi barədə də arzu və təkliflərinə gəlincə, mən bu məsələlər barədə baş nazirin vəzifəsini icra edən Fuad Quliyevə, xarici işlər naziri Həsən Həsənova, baş nazirin müavini İzzət Rüstəmova lazımi tapşırıqlar verirəm və onların yerinə yetirilməsinə nəzarət edəcəyəm.

**Sual: Müharibənin gedişi və Azərbaycandan çəkiləcək neft kəmərinin marşrutu barədə nə deyə bilərsiniz?**

**Cavab:** Mən sualın birinci hissəsinə öz çıxışımda cavab vermişəm. On bir aydır ki, biz atəşkəs rejimi şəraitində yaşayırıq. Məqsədimiz böyük sülh müqaviləsi bağlananadək atəşkəsi davam etdirməkdir. Biz Ermənistan tərəfinə də bunu bildirmişik, beynəlxalq təşkilatlar da bunu bilirlər. Biz böyük sülh müqaviləsi əldə etmək istəyirik. Bunun üçün ATƏT-in Minsk qrupu işləyir və biz onlarla, habelə böyük dövlətlərlə əlaqədəyik. Güman edirəm ki, biz buna nail olacağıq. Mən müharibə yolunu münasib hesab etmirəm, sülh yoluna üstünlük verirəm. Şübhəsiz ki, respublikamızın öz şərtləri var: Azərbaycanın bütün torpaqları azad olunmalıdır, ölkəmizin ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, respublikamızın suverenliyi təmin edilməlidir. Biz bu sahədə müəyyən işlər görürük, bundan sonra da görəcəyik və bu işlər öz nəticəsini verəcəkdir.

Boru xətti haqqında da mən öz fikirlərimi dedim. Bir çox variantlar var. Konkret bir variant haqqında söz demək mümkün deyil. Çünki biz danışıqlar aparırıq. Bir məsələ aydındır ki, boru xəttinin başqa ölkələrə nisbətən Türkiyədən keçməsi bizim üçün daha əlverişlidir. Bu barədə Türkiyənin baş naziri hörmətli xanım Tansu Çillərlə iki-üç gün bundan qabaq Bakıda söhbətimiz olub. Ancaq boru xəttinin haradan və necə keçməsi hələ araşdırılır, variantların hansı həm iqtisadi, həm də [382-383] siyasi nöqteyi-nəzərdən uyğun olsa, biz bu yola da üstünlük verəcəyik.

Mən sizin hamınıza cansağlığı, xoşbəxtlik arzu edirəm. Güman edirəm ki, respublikamızın Almaniyadakı, habelə Belçikadakı səfirləri, xarici işlər naziri Həsən Həsənov bu gün bu görüşdə deyilən təkliflərin, fikirlərin hamısını qeydiyyata götürdülər və lazımi tədbirlər görəcəklər. Baş nazirin müavini İzzət Rüstəmova tapşırdım ki, təhsil, elm məsələlərinin həllinə ciddi nəzarət etsin.

Burada xaricdə yaşayan azərbaycanlılarla iş aparmaq üçün Bakıda mərkəz yaradılması barədə təklif irəli sürüldü. Bu barədə də düşünmək lazımdır. Mən baş nazir vəzifəsini icra edən Fuad Quliyevə, xarici işlər naziri Həsən Həsənova və baş nazirin müavini İzzət Rüstəmova tapşırıram ki, bu barədə fikirləşsin, sonra məsləhətləşək, danışaq.

Məlumdur ki, xarici ölkələrdə yaşayan soydaşlarımızın daha da mütəşəkkil olmasının, onların təşkilatlanmasının təkanı Azərbaycanda 20 Yanvar – "Qara Yanvar" hadisələri ilə bağlıdır. Bu hadisələr ölkəmizdə, doğrudan da, coşqunluq yaratdı, böyük proseslər meydana gətirdi. Xaricdə olan azərbaycanlılar da o vaxt öz səslərini qaldırdılar, ölkəmiz üçün çox işlər gördülər. İndi o dövrdən beş il keçib. Yanvar hadisələrinin yaraları sağalmayıb, biz o günləri unutmamışıq və heç vaxt unutmayacağıq. 20 Yanvarda Azərbaycanın müstəqilliyinə qarşı təcavüz olunmuşdu. Ancaq Azərbaycan cəmiyyətləri, təşkilatları təkcə belə faciəli hadisələr zamanı yox, adi günlərdə də fəaliyyət göstərməlidir. Güman edirəm ki, biz indən sonrakı işimizlə buna nail olacağıq.

Mən sizin hamınıza bir daha təşəkkür edirəm, cansağlığı, işlərinizdə müvəffəqiyyətlər arzulayıram. Azərbaycanla əlaqələrinizi sıx saxlayın. Biz də çalışacağıq ki, sizinlə əlaqələrimiz möhkəm, qırılmaz olsun. Sağ olun. [383]

**"AZƏRBAYCAN QADINI"**
**JURNALININ BAŞ REDAKTORU**
**XALİDƏ XANIM HASİLOVAYA**

Hörmətli Xalidə xanım!

Sizi – Azərbaycan xalqının sevimli yazıçısını 75 illik yubileyiniz münasibətilə təbrik edirəm.

Şərəfli ömür yolu keçmiş görkəmli nasir kimi yaratdığınız əsərləriniz oxucuların mənəvi dünyasına işıq salmış, Azərbaycan övladlarının vətənpərvərlik ruhunda tərbiyəsində az rol oynamamışdır.

"Azərbaycan qadını" kimi yeganə qadın jurnalımızın özünəməxsus yaradıcılıq yolu ilə inamla addımlaması da sizin fədakar əməyinizin bəhrəsidir.

İnanıram ki, siz bundan sonra də ədəbiyyat və mədəniyyətimizin inkişafı naminə əlinizdən gələni əsirgəməyəcəksiniz. Bu yolda Sizə möhkəm cansağlığı və uzun ömür arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*18 aprel 1995-ci il* [384]

## AZƏRBAYCANIN BEYNƏLXALQ NEFT KONSORSİUMUNDAKI PAYININ BİR HİSSƏSİNİ ABŞ-ın "EKSSON" NEFT ŞİRKƏTİNƏ VERMƏSİ HAQQINDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏ GİRİŞ SÖZÜ

*"Gülüstan" sarayı*

*19 aprel 1995-ci il*

Hörmətli cənab Uilyam Uayt!
Hörmətli cənab Qreq Laflin!
Hörmətli qonaqlar, hörmətli xanımlar və cənablar!

Bu gün biz buraya mühüm bir hadisə münasibətilə toplaşmışıq. Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənməsi ilə əlaqədar yaranmış beynəlxalq neft konsorsiumuna, ötən ilin sentyabrında imzalanmış neft müqaviləsinə ABŞ-ın yeni böyük bir neft şirkəti – "Eksson" şirkəti də daxil olur. "Eksson" şirkətinin bu konsorsiuma, 1994-cü il sentyabrın 20-də imzalanmış neft müqaviləsinə daxil olması üçün geniş danışıqlar aparılmışdır. Həmin danışıqlar nəticəsində "Eksson"un digər şirkətlərlə müqayisədə neft yataqlarının işlənməsində iştirakı lüzumlu sayıldığına görə bu şirkətlə Azərbaycan Dövlət Neft Şirkəti arasında müqavilənin imzalanmasına dair qərar qəbul olunmuşdur.

"Eksson"un payı konsorsiumda Azərbaycan Dövlət Neft Şirkətinə məxsus olan hissənin 5 faizindən ibarətdir. 1994-cü il sentyabrın 20-də imzalanmış neft müqaviləsində Azərbaycanın payı 20 faiz idi. Həmin hissədən 5 faizi Türkiyənin neft şirkətinə verilmiş, bu barədə müqavilə artıq imzalanmışdır. Yerdə qalan hissədən 5 faizi də ABŞ-ın "Eksson" şirkətinə ayrılıb və biz buraya həmin müqavilənin imzalanması üçün yığışmışıq. Bu barədə danışıqlar aparılıb, şərtlər müəyyənləşdirilibdir. Bunlar həm Azərbaycan Dövlət Neft Şirkəti, həm də "Eksson" şirkəti üçün əlverişli şərtlərdir. Bunun əsasında sənədlər hazırlanıbdır. Mən təklif edirəm ki, ARDNŞ prezidenti Natiq Əliyev, "Eksson Vençers Si-Ay-Es" şirkətinin prezidenti Terri Kunts və digər rəsmi şəxslər bu sənədləri imzalasınlar. [385-386]

### İMZALANMA MƏRASIMINDƏN SONRA ÇIXIŞ

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən "Eksson" neft şirkətini, Azərbaycan Dövlət Neft Şirkətini, Amerikadan gəlmiş qonaqları və respublikamızın ictimaiyyətini bu mühüm hadisə – "Eksson" şirkətinin Azərbaycan neft yataqlarının birgə işlənməsində iştirak etməsi haqqında sazişin imzalanması münasibətilə təbrik edirəm.

"Eksson" şirkəti 1994-cü ilin sentyabrında Bakıda imzalanmış müqaviləyə qoşulduqdan sonra Xəzər dənizinin Azərbaycan sektorunda üç neft yatağının – "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənməsində iştirak edən Amerika şirkətlərinin sayı beşə çatmışdır. ABŞ-ın beş böyük neft şirkətinin Azərbaycanla əməkdaşlığa başlaması və bu əlaqələrin uzunmüddətli olması, şübhəsiz ki, ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafına çox kömək edəcəkdir.

Burada deyildiyi kimi, "Eksson" ABŞ-ın ən böyük neft şirkətidir. O, böyüklüyünə görə dünya neft şirkətləri arasında ikinci yerdə durur. Belə bir nüfuzlu şirkətin Azərbaycan neft yataqlarının işlənməsində iştirakı həm iqtisadi cəhətdən, həm də Azərbaycanın neft sənayesinin inkişafında, ona müasir texnika və texnologiyanın tətbiq olunmasında mühüm rol oynayacaqdır. Ayrı-ayrı neft şirkətləri ilə danışıqlar zamanı məhz bu səbəbdən "Eksson" şirkətinə üstünlük verilmiş və onun təklifləri qəbul olunmuşdur.

Ötən ilin sentyabrında Bakıda imzalanmış neft müqaviləsini "Əsrin müqaviləsi" adlandırırlar. ABŞ prezidenti, hörmətli cənab Bill Klinton mənə yazdığı məktubunda da həmin müqaviləni "Əsrin müqaviləsi" adlandırmışdır. "Eksson" kimi məşhur şirkətin "Əsrin müqaviləsi"nə qoşulması bu müqavilənin nüfuzunu daha da artırır. Ancaq əsas cəhətlər ondan ibarətdir ki, biz bu addımımızla Azərbaycanın dünya iqtisadiyyatı üçün açıq olduğunu və respublikamızın iqtisadiyyatının dünya iqtisadiyyatına qovuşması üçün bizim qəti mövqedə olduğumuzu bir daha sübut edir.

Mən bir daha qeyd etmək istəyirəm ki, ABŞ-ın beş böyük neft şirkətinin Azərbaycanda fəaliyyət göstərməsi Amerika Birləşmiş Ştatları ilə respublikamız arasında olan iqtisadi, ümumiyyətlə, bütün əlaqələrin bundan sonra daha da sürətlə inkişaf etməsi üçün çox böyük şərait yaradır.

Suveren Azərbaycan Respublikası öz dövlət müstəqilliyini [386-387] qoruyub saxlayaraq, eyni zamanda öz

sərvətlərindən səmərəli istifadə etmək üçün dünyanın inkişaf etmiş ölkələri ilə əlaqələri genişləndirməyə çalışır. Bu baxımdan biz respublikamızın ABŞ ilə əlaqələrinə xüsusi fikir veririk.

1994-cü il sentyabrın 20-də burada "Gülüstan" sarayında deyildiyi kimi, mən bir daha bəyan etmək istəyirəm ki, biz bu müqavilədən Azərbaycanın bu günü və gələcəyi üçün böyük iqtisadi nəticələr gözləyirik. Əminəm ki, Azərbaycan xalqı bunun bəhrəsini görəcəkdir.

Cənab Uilyam Uayt İkinci dünya müharibəsi dövründə Amerika Birləşmiş Ştatları və Azərbaycan neftçilərinin fəaliyyətindən danışdı, həmin dəhşətli müharibənin başa çatması və Hitler faşizmi üzərində qələbə çalınması üçün Azərbaycan və ABŞ neftçilərinin əməyinin nə qədər əhəmiyyətli olduğunu qeyd etdi. Bu, tam həqiqətdir ki, İkinci dünya müharibəsi zamanı Sovet İttifaqı Hitler faşizminə qarşı mübarizə apararkən Azərbaycan neftçilərinin xidməti həddindən artıq yüksək olubdur. O illərdə Sovet İttifaqında istehsal olunan neftin 70 faizindən çoxu respublikamızda, Azərbaycan neftçiləri tərəfindən çıxarılırdı. Cənab Uayt qeyd etdi ki, "Eksson" şirkəti də İkinci dünya müharibəsi zamanı ABŞ-da ən çox neft çıxaran şirkət olmuşdur. Mən bu fikirlə tamamilə razıyam ki, əgər "Eksson" şirkətinin çıxardığı neft olmasaydı, Azərbaycan neftçilərinin, respublikamızın həmin illərdə hasil etdiyi neft olmasaydı, o müharibə bəlkə başqa cür qurtara bilərdi.

Çox səciyyəvidir ki, İkinci dünya müharibəsinin qurtarmasının 50 illik yubileyi ərəfəsində Azərbaycan neftçiləri ilə "Eksson" neft şirkəti arasında müqavilə bağlanır, Azərbaycan və "Eksson" neftçiləri birgə fəaliyyətə başlayırlar. Şübhə etmirəm ki, bu fəaliyyət sülh və əmin-amanlıq yaradılmasına, Azərbaycanın və ABŞ-ın xeyrinə, eyni zamanda Qafqazda, bizim regionda gedən müharibəyə son qoyulmasına yönəldiləcəkdir, Azərbaycan xalqının öz müstəqil dövlətində, öz vətənində, öz torpağında əmin-amanlıq və sülh şəraitində rahat yaşaması üçün imkan yaradacaqdır.

Bu istək və arzu ilə mən bu müqavilənin imzalanması mərasiminə toplaşanları bir daha təbrik edirəm, "Eksson" neft şirkətinə və Azərbaycan Dövlət Neft Şirkətinə bu müqavilənin həyata keçirilməsində uğurlar arzulayıram.

Sağ olun, xeyirli və uğurlu olsun! [387]

## PASXA BAYRAMI MÜNASİBƏTİLƏ RESPUBLİKA PRAVOSLAV XRİSTİANLARINA TƏBRİK

Əziz xristian həmvətənlərim!

Sizi müqəddəs bayramınız – Pasxa münasibətilə ürəkdən təbrik edir və bu əziz gündə ulu tanrıdan hamınıza cansağlığı, xoşbəxtlik və böyük uğurlar diləyirəm.

Azərbaycan milliyyətindən və dinindən asılı olmayaraq müxtəlif xalqların nümayəndələrinin doğma vətənidir. Onlar həmişə mehriban qardaşlıq, qarşılıqlı anlaşma və sıx əməkdaşlıq şəraitində yaşamış, vətənin sevincini də, kədərini də birgə bölüşmüşlər. Öz tarixi ənənələrinə sadiq qalan müstəqil, demokratik Azərbaycan dövlətində bu gün də dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmadan bütün vətəndaşların vicdan azadlığı, dini etiqad sərbəstliyi təmin edilmişdir.

Əziz bayramınızı bir daha səmimi qəlbdən təbrik edirəm. Qoy bu müqəddəs Pasxa bayramı günlərində edilən bütün xoş diləklər və xeyir-dualar yerinə yetsin, xalqımız xoşbəxt və firavan həyata qovuşsun!

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*24 aprel 1995-ci il* [388]

## GÖRKƏMLİ TÜRK ALİMİ İHSAN DOĞRAMACININ 80 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ GECƏDƏ ÇIXIŞ

*Azərbaycan Dövlət Opera və Balet Teatrı*

*25 aprel 1995-ci il*

Əziz dostumuz, qardaşımız İhsan Doğramacı!

80 illik yubileyiniz münasibətilə Sizi Azərbaycan xalqı, dövləti, bütün vətəndaşlarımız adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm, Sizə cansağlığı, üzün ömür, gələcək fəaliyyətinizdə böyük uğurlar diləyirəm.

Sizin 80 illik yubileyiniz Türkiyədə təntənə ilə başlayıb, Ankarada böyük mərasimlər keçirilib. Ancaq dəfələrlə dediyiniz kimi – və bizim də fikrimiz eynidir – Sizin vətəniniz eyni zamanda Azərbaycandır. Ona görə də bu yubiley təntənələri bir aydır ki, davam edir və yeni mərhələ Azərbaycandır, Bakıdır.

Yubileyiniz Ankarada təntənə ilə qeyd olunanda mən Sizə müraciət etdim. Sizi Azərbaycana, Bakıya təşrif gətirməyə dəvət etdim ki, 80 illik yubileyinizi ölkəmizdə də qeyd edək. Bu gün Sizə təşəkkür edirəm ki, mənim dəvətimi qəbul etmisiniz, Azərbaycana, öz vətəninizə, öz torpağınıza gəlmisiniz. Azərbaycan xalqı, Sizin həmvətənləriniz, soydaşlarınız Sizi görür, Sizinlə görüşür, Sizə öz ürək sözlərini deyir və Azərbaycanın qədim, çox əzəmətli, eyni zamanda çox hörmətli mədəniyyət ocağı olan Opera və Balet Teatrında Sizin yubileyinizi qeyd edir.

Siz böyük həyat yolu keçmisiniz, həyatınız yaradıcılıq, quruculuq yoludur.

Sizin həyatınız nadir bir şəxsiyyətin həyat yoludur. Fitri istedadınızla, eyni zamanda böyük fədakarlığınızla, zəkanızla, ağlınızla Siz bu həyat yolunu şərəflə, müvəffəqiyyətlə keçmisiniz, böyük izlər qoymusunuz, böyük əsərlər yaratmısınız. Siz xalqınıza, vətəninizə, torpağınıza böyük xidmətlər göstərmisi [389-390]niz. Məhz buna görədir ki, həm öz vətəninizdə, həm də vətəninizin hüdudlarından kənarda – bütün dünyada, dünyanın ən böyük ölkələrində hörmət, ehtiram qazanmısınız. İndi Siz 80 illik həyat yolunu yekunlaşdırarkən nə qədər böyük işlər gördüyünüz həm özünüz tərəfindən, həm də Sizi tanıyanlar tərəfindən böyük məmnuniyyətlə qəbul olunur.

Sizin həyat və yaradıcılığınız haqqında burada danışdılar. Bunu genişləndirmək də, ona əlavələr də etmək olar. Ancaq güman edirəm ki, indi buna ehtiyac yoxdur. Çünki, yenə də deyirəm, Sizin gördüyünüz işlər, xidmətləriniz əsrlər boyu unudulmayacaqdır. Sizin həyatda qoyduğunuz izlər daim yaşayacaqdır. Elmdə, mədəniyyətdə, səhiyyədə, ictimai-siyasi fəaliyyətdə Siz ən yüksək zirvələrə qalxmısınız. Bütün bunlar Sizin üçün böyük şəxsi nailiyyətdir. Bütün bunlar türk xalqı, Türkiyə üçün, Azərbaycan xalqı, respublikamız, dövlətimiz üçün və bütün türkdilli xalqlar üçün böyük iftixar mənbəyidir. Biz Sizin bu həyat yolunuzla, yaradıcılığınızla, gördüyünüz işlərlə fəxr edirik. Fəxr edirik ki, bizim belə böyük həmvətənimiz var. Fəxr edirik ki, belə bir insan türk millətinə mənsubdur. Fəxr edirik ki, belə bir insan Azərbaycana mənsubdur. Fəxr edirik ki, belə bir insan bizim doğma Azərbaycan torpağına mənsubdur.

Bütün həyat yolunuza görə, böyük fəaliyyətinizə görə mən Sizə Azərbaycan xalqı, müstəqil Azərbaycan dövləti adından təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Siz bundan sonra da dünya xalqları üçün, dünyada sülh və əmin-amanlıq, tərəqqi üçün, eyni zamanda Türkiyə Cümhuriyyəti üçün, Azərbaycan Respublikası üçün, türkdilli bütün xalqlar üçün böyük işlər görəcəksiniz. Mən buna tam əminəm.

Bu gün Sizin yubileyinizi qeyd edərkən mən bir xüsusiyyətə toxunmaq istəyirəm. Sizi hər yerdə – Türkiyədə də, Avropada da, Amerikada da sevirlər. Sizi fədakar əməyinizə görə, ağlınıza, zəkanıza görə sevirlər. Sizi dünya mədəniyyətinə, elminə böyük töhfələr verdiyinizə görə, onu zənginləşdirdiyinizə görə sevirlər. Sizi həm də böyük insan olduğunuza görə, geniş qəlbinizə görə sevirlər. Azərbaycanda isə Sizi hədsiz dərəcədə sevirlər. Yəqin ki, bu günlər özünüz bunun şahidi oldunuz. [390-391]

Azərbaycan xalqı Sizi bax, belə sevgi ilə, belə məhəbbətlə, hörmətlə qarşılayır, Sizi qucaqlayıb öpür, Sizi gözünün üstündə qəbul edir. Bu hörmətlə, sevgi ilə, bu məhəbbətlə mən Sizi bir daha təbrik edirəm. Sizə uzun illər ömür arzulayıram və əminəm ki, Siz bundan sonra da böyük işlər görəcəksiniz.

Mənim əziz dostum, qardaşım, yüz yaşa çatasan, yüz ildən də o tərəfə keçəsən. Əminəm ki, bu olacaqdır. Bir də təbrik edirəm, cansağlığı, xoşbəxtlik arzulayıram...

Azərbaycanda incəsənət xadimləri, mədəniyyət işçiləri çox fəaldırlar. Siz onların bir hissəsini Bilkəndə öz yanınıza aparmısınız, onlar orada çalışırlar, Sizinlə bərabər işləyirlər. Bu, yaxşı bir haldır. Bizim bir rəssamımız Sizin rəsminizi çəkib. Güman edirəm ki, bu, dəyərli bir rəsmdir. Yubiley münasibətilə mən onu Sizə təqdim edirəm. [391]

## YƏHUDİ XALQININ MÜSİBƏTİ GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCANIN YƏHUDİ İCMASINA MÜRACİƏT

Hər il dünya ictimaiyyəti, bütün mütərəqqi bəşəriyyət yəhudi xalqının müsibəti gününü – bütöv bir xalqa qarşı həyata keçirilmiş soyqırımı siyasətinin günahsız qurbanlarının xatirəsini ürək ağrısı ilə yad edir.

İkinci dünya müharibəsi zamanı faşistlər altı milyon mülki əhalini, o cümlədən qocaları, qadınları, uşaqları yəhudi xalqına mənsub olduğu üçün ağlasığmaz qəddarlıqla məhv etmişlər. Allah o günahsız qurbanlara rəhmət eləsin.

Bu gün faşizmə, irqçiliyə, hər cür soyqırımı aktına qarşı dünyanın bütün mütərəqqi qüvvələri səfərbər olmalıdır. Çünki dünyada faşizm hələ də yaşamaqdadır. 1988-ci ildən başlayaraq erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı yeritdiyi soyqırımı siyasəti, günahsız əhalimizin kütləvi qırğınları, zəbt olunmuş torpaqlarımızda misli görünməyən talanlar, vəhşiliklər, nəhayət, bütün dünyanı sarsıdan Xocalı faciəsi xalqımızın qəlbində sağalmaz yara kimi göynəməkdədir.

Bu hüznlü gündə Azərbaycan xalqı adından kədərinizə ürəkdən şərik olduğumuzu bildirirəm. Bu dərd xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır və sizinlə bir yerdə deyirik: belə faciələr bir daha təkrar olunmamalıdır.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*26 aprel 1995-ci il* [392]

## ƏMƏKDAR MÜƏLLİM SONA TAĞIYEVAYA

Sizi – respublikamızın qocaman maarif işçisini şanlı yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Bir məktəbin kollektivinə yarım əsr rəhbərlik etmək ölkəmizdə nadir haldır. Respublikada maarifin təşkili işində bu müddət ərzində topladığınız zəngin təcrübə böyük bir məktəbdir.

Uzun illər təlim-tərbiyəsi ilə məşğul olduğunuz övladlarımızın həqiqi vətəndaşlar kimi formalaşması Sizin Vətən və xalq qarşısında təmənnasız xidmətinizin bəhrəsidir. Bu fədakar əməyiniz ayrı-ayrı dövrlərdə yüksək dövlət mükafatlarına layiq görülmüşdür. Ən böyük mükafatınız isə minlərlə yetişdirmənizin Sizə olan dərin məhəbbəti və onların həyatda qazandıqları uğurlar olmuşdur.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və maarifin inkişafında yeni uğurlar diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*28 aprel 1995-ci il* [393]

## RESPUBLİKA NAZİRLƏR KABİNETİNİN GENİŞ İCLASINDA ÇIXIŞ

*Nazirlər Kabineti*

*3 may 1995-ci il*

Hörmətli Nazirlər Kabinetinin üzvləri, nazirlər, komitə sədrləri, şirkət rəhbərləri, iclas iştirakçıları!

Bildiyiniz kimi, dünən mənim təqdimatımla Azərbaycan Respublikasının Milli Məclisi Fuad Quliyevi respublikanın baş naziri vəzifəsinə təsdiq etmişdir. Mən bu gün Fuad Quliyevi baş nazir vəzifəsində sizə təqdim edirəm və ona sizinlə birlikdə işlərində uğurlar arzulayıram.

Nazirlər Kabinetinin işi respublikanın həyatında çox mühüm yer tutur. Respublikanın iqtisadi-sosial məsələlərinin həll olunmasında icra orqanının əsas bir hissəsi kimi Nazirlər Kabinetinin fəaliyyətindən çox şey asılıdır. Respublikamızın qarşısında duran vəzifələrin həyata keçirilməsi, iqtisadiyyatın inkişafı, xalqın sosial vəziyyətinin yaxşılaşması və iqtisadi islahatların aparılması, bazar iqtisadiyyatına keçilməsi Nazirlər Kabinetinin, onun tərkibinə daxil olan, yaxud onun bilavasitə rəhbərliyi altında işləyən bütün orqanlarımızın fəaliyyəti ilə bağlıdır. Odur ki, baş nazirdən, Nazirlər Kabinetindən, onun tabeliyində olan və onun rəhbərliyi altında çalışan bütün orqanların işindən çox şey asılıdır və mən bir prezident kimi sizin hamınızdan yeni, səmərəli nəticələr gözləyirəm.

Bildiyiniz kimi, respublikamız prezident üsuli-idarəsi sisteminə keçmişdir. Bu, Azərbaycan Konstitusiyasında nəzərdə tutulmuşdur və hesab edirəm ki, respublikamız üçün ən münasib üsuli-idarə formasıdır. Yeni konstitusiyamızın layihəsi hazırlanır. Biz bu konstitusiyada da Azərbaycanı məhz prezident üsuli-idarəsi tətbiq edilən bir respublika kimi görmək istəyirik.

Məlum olduğu kimi, prezident üsuli-idarəsi formasında ali icra orqanı prezidentə məxsusdur və bu orqanın tərkibində Nazirlər Kabineti birinci yer tutur. Bunun üçün də biz çalışmalıyıq ki, konstitusiyaya görə, dünya praktikasına görə ali icra orqanından, prezidentdən, Prezident Aparatından başlayaraq aşağıyadək bizim bu icra orqanları hərə öz səviyyəsində, hərə öz pilləsində yüksək səmərə ilə işləsin. [394-395]

Ancaq bu gün burada etiraf etmək lazımdır ki, biz hələlik belə səmərəli işə nail ola bilməmişik. Bunun səbəbləri çoxdur, müəyyən kökləri də var. Bu köklər ondan ibarətdir ki, Azərbaycanda son illərdə, yəni sabiq Sovet İttifaqı dövründən müstəqilliyə keçid dövründə, – biz isə üç ildən artıqdır müstəqil bir dövlətik, – Nazirlər Kabinetinin və icra orqanlarının funksiyaları, onların qarşısında duran mühüm vəzifələr lazımınca müəyyən edilməmişdir. Doğrudur, konstitusiyada bunlar öz əksini tapmışdır. Xüsusən də prezident üsuli-idarəsi formasının Azərbaycanda tətbiqi ilə əlaqədar keçmiş konstitusiyada aparılmış müəyyən dəyişikliklərdə Nazirlər Kabinetinin həm səlahiyyətləri, həm funksiyaları, həm də icra sistemində rolu, məsuliyyəti çox aydın göstərilmişdir.

Ancaq təəssüf ki, konstitusiyanın bu maddələrinə əməli surətdə, yəni praktikada riayət olunmamışdır. Ona görə də ayrı-ayrı dövrlərdə ayrı-ayrı adamların iddiaları və istəyi ilə Nazirlər Kabinetinin funksiya və vəzifələri də müəyyən qədər dəyişdirilmişdir. Bunlar isə, ümumiyyətlə, işə çox ziyan vurmuşdur.

Bütün bunlara qısaca yekun vursaq, mən tam cəsarətlə deyə bilərəm ki, keçid dövründə, yəni 1991-ci ilin axırlarında Azərbaycan Respublikasının müstəqilliyi elan olunduğu vaxtdan bəri Nazirlər Kabinetinin işi əslində lazımi səviyyədə təşkil edilməmişdir. Buna görə də onun işində çox böyük qüsurlar, nöqsanlar və çatışmazlıqlar olmuşdur. Həm də bunlar indiyədək mövcuddur. Hətta deyə bilərəm ki, həmin müddətdə Nazirlər Kabinetinə başçılıq edən şəxslər onun işini lazımınca qurmağa müvəffəq olmamışlar. Bunun nəticəsində də Nazirlər Kabinetinin işi bu günədək axsayır. Öz növbəsində bunun nəticəsində isə iqtisadiyyatımızda çox böyük nöqsanlar və çatışmazlıqlar var.

Şübhəsiz ki, məruz qaldığımız sosial-iqtisadi böhran bununla qətiyyən bağlı deyildir. Bu böhran, ümumiyyətlə, gedən proseslərlə bağlıdır. Lakin güman edirəm ki, əgər Nazirlər Kabinetinin işi, xüsusən Azərbaycan müstəqillik əldə etdikdən sonra, lazımi səviyyədə qurulsaydı, Nazirlər Kabineti bizim icra sistemində öz layiqli yerini tuta bilsəydi və öz səlahiyyətləri – onun səlahiyyətləri isə çox böyükdür – çərçivəsində tam fəaliyyət göstərsəydi, əlbəttə, iqtisadiyyatımızda, sosial sahədə bu qədər çətinliklərimiz olmazdı.

Əgər keçmişə nəzər salsaq görərik ki, bu müddətdə baş [395-396] nazir olmuş hər bir şəxs Nazirlər Kabinetinin işini yenidən qurmağa çalışmışdır. Əslində isə baş nazir heç olmamışdır. Mənim yadımdadır və sizin də bir çoxunuz bir yerdə işləmisiniz və buna görə də xatirinizdədir ki, 1992-ci ildən bəri baş nazir vəzifəsini bir müddət Feyruz Mustafayev icra etmişdir. Ondan sonra isə baş nazir vəzifəsinə Rəhim Hüseynov təyin olunmuşdur. Sonra Rəhim Hüseynov azad edildi və baş nazir vəzifəsini, deyəsən, müvəqqəti olaraq Əli Məsimov icra etdi. O da azad edildi və baş nazir vəzifəsinə Pənah Hüseynov təyin olundu. Nəhayət, məlum hadisələrdən sonra bu vəzifəyə mənim özüm Surət Hüseynovu təqdim etdim. Surət Hüseynovun fəaliyyəti sizin

gözünüzün qabağındadır. Həmin oktyabr hadisələrindən indiyədək baş nazir yoxdur və onun vəzifələrini Fuad Quliyev icra edir. Bu şəxslərin adlarını sadalamaqla öz fikrimi demək istəyirəm ki, normal iş olmamışdır. Şübhəsiz ki, o dövrlərdə vəzifəni müvəqqəti icra edən adamlar özlərini burada daimi bilmədiklərinə görə bu işi apara bilməmişlər. Məsələn, o vaxtlar Rəhim Hüseynovu baş nazir təyin etsələr də, onun işinin çoxunu burada başqaları aparırdılar. Bunu siz də yaxşı bilirsiniz və uzaq olmağıma baxmayaraq, bu mənə də məlum idi. O, formal bir baş nazir idi. Ondan sonrakı dövrdə baş nazir Pənah Hüseynov oldu. Mən bilmirəm, iqtisadiyyatı bilməyən, iqtisadi sahədə işləməmiş Pənah Hüseynov kimi bir adam necə baş nazir ola bilərdi?

Şübhəsiz ki, siz Surət Hüseynovu da deyə bilərsiniz, belə ki, onu mən təqdim etmişdim və o mənim təqdimatımla baş nazir təsdiq olunmuşdu. Amma siz bunun hansı şəraitdə olduğunu da bilirsiniz. Bu gün mən tam səmimiyyətlə deyə bilərəm ki, o vaxtlar, o şəraitdə – Azərbaycanda artıq vətəndaş müharibəsi baş verdiyi bir zamanda, Azərbaycanı hərə bir tərəfdən parçalamağa cəhd göstərdiyi bir dövrdə mən bu addımı atmışdım və hesab edirəm ki, tamamilə düz iş görmüşdüm. Hərçənd ki, Surət Hüseynov həm biliyinə görə, həm savadına, həm iş təcrübəsinə, həm də başqa keyfiyyətlərinə görə bu vəzifəyə hazır deyildi, bəlkə də yaramırdı. Lakin bütün bunlarla yanaşı, mən həmişə insanlara çox inamla baxıram. Mən onu baş nazir təyin edərkən ona tam səmimiyyətlə yanaşırdım və çox istəyirdim ki, o, burada bir iş görsün, öyrənsin və bu vəzifəni apara bilsin.

Artıq olan olub, keçən keçib. Mən bunun üçün çox böyük cəhdlər, özü də səmimi cəhdlər göstərmişəm. Hərçənd mənə [396-397] həddindən artıq irad tuturdular ki, necə ola bilər, belə bir adam baş nazir vəzifəsində olsun. Bəzən xaricdən gələn adamlar da deyirdilər ki, biz anlaya bilmirik, – nə cür olur ki, Heydər Əliyev kimi adamın yanında baş nazir vəzifəsində belə bir adam olsun. Amma bu işə mənim münasibətim məhz ondan ibarət idi ki, əgər hər bir adam müəyyən qədər potensiala malikdirsə və eyni zamanda onun işləmək, öyrənmək qabiliyyəti, bacarığı varsa, bu halda hər bir işin öhdəsindən gələ bilər. Buna görə də mən çox çalışdım ki, Surət Hüseynov işləsin, məsuliyyət hissi ilə işi öyrənsin və baş nazir kimi öz vəzifəsini yerinə yetirə bilsin.

Ancaq təəssüflər olsun ki, Surət Hüseynov bu yolla getmədi. Elə mən də görürdüm ki, bu yolla getmir. Mən onu dəfələrlə düz yola dəvət etdim. O isə öz xasiyyətini dəyişdirmir, keçmişdə gördüyü işlərdən əl çəkə bilmirdi. Ona görə də Nazirlər Kabinetini bazara döndərmişdi və böyük cinayətkarları gətirib buraya doldurmuşdu. Nəticədə də cinayətlər törədildi və bunlar da, nəhayət, oktyabr hadisələrinə gətirib çıxartdı, dövlət çevrilişinə cəhd göstərildi. Bu çevriliş cəhdini isə onlar birgə hazırlamışdılar. Bildiyiniz kimi, o vaxtlar mən bu cəhd iştirakçılarının bir hissəsini əfv etdim, bağışladım, amma sonralar onlar da özlərini göstərdilər və cavablarım da aldılar.

Odur ki, bir tərəfdən, bütün bu müddətdə Nazirlər Kabinetinin işini qeyri-qənaətbəxş hesab etməliyik, – şəxsən mən belə fikirdəyəm. İkinci tərəfdən də, Nazirlər Kabineti başıbəlalı bir orqan olubdur. Bütün bu müddətdə, xüsusən 1992-ci ilin əvvəlindən bəri burada sağlam bir rəhbərlik olmayıb ki, Nazirlər Kabineti Aparatının işçiləri, yaxud Nazirlər Kabinetinin tərkibinə daxil və onunla bağlı olan şəxslər bu sağlam rəhbərlik ətrafında birləşib, sağlam prinsiplər əsasında da işləsinlər. Bir daha qeyd edirəm ki, bunların hamısı respublikamızın həyatına, xüsusən onun sosial-iqtisadi vəziyyətinə çox mənfi təsir göstərmişdir, bunların nəticəsində biz böyük itkilərə məruz qalmışıq, böyük çətinliklərə düçar olmuşuq. İndi bunlar keçmişdə qalmışdır. Əlbəttə, bunların hamısını saf-çürük edərək, nəzərdən keçirərək qabağa baxmaq, irəliyə getmək, işləmək lazımdır. Bu məqsədlə də mən çox fikirləşəndən sonra bu vəzifəyə Fuad Quliyevi təyin etmək qərarına gəlmişəm. O, artıq bu vəzifəyə təyin olunmuşdur.

Güman edirəm ki, Fuad Quliyevi sizə təqdim etməyə elə [397-398] böyük ehtiyac yoxdur, siz onu tanıyırsınız, bir yerdə işləyirsiniz. O, uzun müddət zavodda işləyib, təcrübəyə malikdir. Burada baş nazirin birinci müavini vəzifəsində çalışıb, təcrübəsi vardır. Lakin şübhəsiz ki, baş nazir olmaq üçün hələ əlavə çox tələblər də var və müəyyən keyfiyyətlər də olmalıdır. Ümidvar olduğumu bildirmək istəyirəm ki, hamınız birlikdə səmimi bir mühit yaradaraq, burada əl-ələ verərək Nazirlər Kabinetinin işini lazımi səviyyədə aparacaqsınız. Həmçinin əmin olduğumu bildirmək istəyirəm ki, Fuad Quliyev də bu böyük etimadın əhəmiyyətini dərk edir və bunu qiymətləndirir. O çalışmalıdır ki, bu etimadı doğrultsun.

Mən keçmişi bir balaca xatırlatmaqla onu qeyd etmək istəyirəm ki, o dövrdə baş nazir olmuş adamların əksəriyyəti iş görüb respublikaya xeyir verməkdənsə, bu vəzifəni ancaq və ancaq öz şəxsi mənafelərini həyata keçirmək üçün tutmuşlar, yaxud tutmağa çalışmışlar. Onlardan bəziləri müəyyən səbəblərə görə bu vəzifəni tutmağa müvəffəq olmuşlar.

Güman edirəm ki, Nazirlər Kabinetinin daxilində indiyədək yaranmış bu mənfi ənənələr, mənfi meyl və hallar aradan qaldırılacaqdır. Belə hallar isə çoxdur. Çünki ötən müddət ərzində həm Nazirlər Kabineti, həm də onun aparatı xeyli zibillənmiş, – mən bu sözü tam cəsarətlə deyirəm, – çirklənmişdir. Odur ki, indi gərək yuxarıdan aşağıya qədər Nazirlər Kabinetinin bütün sistemi bu zibildən, bu çirkdən təmizlənsin, burada mənən sağlam mühit yaransın və işlər respublikamızın bugünkü mənafeyinə uyğun surətdə sağlam istiqamətdə aparılsın.

Ümumi işimiz naminə bir məsələni də qeyd etmək istəyirəm. Hesab edirəm ki, bu da keçmişdə respublikamızın həyatına çox zərər vurmuşdur. Prezident üsuli-idarəsi yaradıldıqdan sonra Nazirlər Kabineti, yaxud onun rəhbərliyi ilə, Aparatı ilə prezident və onun Aparatı arasında ziddiyyətlər əmələ gəlmişdir. Bunlar

adamların subyektiv xüsusiyyətləri, bəzi iddiaları və hikkələri ilə bağlıdır. Çünki belə ziddiyyətlərin mövcud olmasına bizim dövlət quruluşu sisteminə görə heç bir əsas yoxdur. Axı Nazirlər Kabineti prezident üsuli-idarəsində prezidentin icra orqanıdır, ali icra orqanının bir hissəsidir. Buna görə də çox böyük təəccüb doğurur ki, keçmişdə Nazirlər Kabinetinin rəhbərliyi ilə prezident arasında, yaxud Prezident Aparatı ilə Nazirlər Kabinetinin Aparatı arasında ziddiyyətlər yaranmışdı və bu ziddiyyətlər bu işə böyük ziyan vurmuşdur. Bunun [398-399] kökləri keçmişə gedib çıxır. Məsələn, vaxtilə burada Mütəllibov prezident, Həsən Həsənov bas nazir olublar. Münasibətlər çox gərgin olubdur. Şübhəsiz ki, indi mən burada Mütəllibova bir prezident kimi bəraət qazandıra bilmirəm, çünki onun gördüyü işlər və törətdiyi cinayətlər göz qabağındadır. Ancaq mən sadəcə olaraq, bu meyldən yaranmış ənənəni demək istəyirəm.

Sonrakı dövrü götürsək görərik ki, həmin ziddiyyətlər davam etmişdir. Əgər indi 92-ci ildən 93-cü ilədək olan dövrə nəzər salsanız görərsiniz ki, onda da bu ziddiyyətlər göz qabağında olmasa da, hər halda mövcud idi. Çünki o vaxt heç kəs başa düşə bilmirdi ki, prezident nə ilə məşğuldur, baş nazir nə iş görür. Ona görə ki, kim nə istəyirdi, onu da edirdi. Burada o qədər də aydınlıq yox idi. Lakin bir şey məlumdur. Bizim Prezident Aparatında bunu görənlər, bunun şahidi olanlar mənə danışırlar. Rəhim Hüseynov baş nazir, Pənah Hüseynov isə dövlət katibi idi. Rəhim Hüseynov burada oturub böyük fəaliyyət göstərə bilmirdi. Ona görə yox ki, o buna qadir deyildi. Sadəcə olaraq ona imkan vermirdilər. Pənah Hüseynov isə dövlət katibi olduğu halda gedib bütün iqtisadi məsələləri, hətta Nazirlər Kabinetinə aid məsələləri həll edirdi, sonra da gedib bu qərarları prezident Əbülfəz Əliyevə imzaladır və bir kənara qoyur, nə istəyirdi, onu da edirdi. Bunu mənə bizim aparatda görənlər danışırlar.

Yaxud sonrakı dövrü götürək. Biz Surət Hüseynovu baş nazir təyin etdik. Onun öz müşavirləri var idi. Ona Rəhim Qazıyev bir müşavirlik edirdi, digərləri başqa cür. Onun daha bir neçə müşaviri var idi. İndi onlar qaçıb aradan çıxmış, haradasa gizlənmişlər. Bu adamların adları sizə məlumdur. Əgər Surət Hüseynov mənfi bir iş görmək istəmirdisə, müşavirləri gəlib deyirdilər ki, yox, sən bunu etməlisən, onu etməlisən. Özü də daim səlahiyyət davası aparırdı. Səlahiyyət davası da bu idi ki, prezident nə etməli idi, baş nazir nə etməli idi. Halbuki baş nazir və Nazirlər Kabineti prezidentin icra orqanıdır, onun işinin davamıdır, prezidentin fərmanı, prezidentin imzaladığı qanunları həyata keçirən bir orqandır. Burada heç bir fərq yoxdur. Amma bunun əvəzinə Surət Hüseynov o vaxtlar səlahiyyət davası aparırdı. Bu sizin yadınızdadır. Əslində isə Nazirlər Kabinetinə bütün səlahiyyətlər verilmişdi, o səlahiyyətlərdən istifadə etmək lazım idi. Lakin onlara səlahiyyətlər deyil, bu lazım idi ki, bütün respublikaya hakim olsunlar. Şübhə[399-400]siz ki, buna da heç bir prezident razı ola bilməz. Xüsusən də mən bir prezident kimi razı ola bilməzdim.

Ona görə də həmin ziddiyyətlər davam etdi. Hətta yeni bir qəzet çıxarmağa, bu qəzetdə cürbəcür yaramaz məqalələr dərc etməyə, respublikanın vəziyyətini ağırlaşdırmağa, ziddiyyətləri artırmağa başladılar. Demə, bütün bunlar dövlət çevrilişinə hazırlıq imiş. Belə bir çox mənfi ənənə də yaranmışdı ki, guya Nazirlər Kabineti ilə prezident arasında, yaxud Prezident Aparatı arasında müəyyən bir rəqabət gedir, müəyyən bir ziddiyyət var. Bəzi adamlar da bu rəqabətdən, ziddiyyətdən öz mənafeləri naminə istifadə edirdilər. Bütün bunlar süni surətdə yaradılmışdı, yalnız və yalnız ayrı-ayrı adamların şəxsi iddialarına, şəxsi məqsədlərinə xidmət edirdi. Şübhəsiz, bu, dövlət mənafeyinə uyğun olmayan, dövlətçiliyimizə zidd olan hallardır.

Mən bu gün bunları ona görə xatırlatmıram ki, onlar xatırladılmağa layiq qiymətli hallardır. Əksinə, bunların hamısı mənfi hallardır, respublikamıza çox böyük zərər gətirmiş hallardır. Lakin istər müsbət, istərsə də mənfi olan hər bir təcrübə bizim bu gün quracağımız və aparacağımız iş üçün çox lazımlıdır. Mən bunları xatırlatmaqla xəbərdarlıq etmək istəyirəm ki, əgər kimsə keçmişin bu mənfi hallarını, yaranmış qeyri-sağlam ənənələri yenə də dirçəltmək, şəxsi iddialar mövqeyindən hərəkət etmək fikrinə düşsə, belə şeylərə, şübhəsiz, yol verilməyəcəkdir. Şəxsən mən bunlara qətiyyən yol verməyəcəyəm.

Eyni zamanda mən bu gün burada tam aydınlığı ilə elan edirəm ki, Nazirlər Kabinetinin yaxşı fəaliyyət göstərməsi üçün hər cür şərait yaranmış və bundan sonra da yaradılacaqdır. Sadəcə olaraq gərək hərə öz yerini bilsin, hərə öz səlahiyyəti çərçivəsində işləsin, hərə öz vəzifəsi çərçivəsində çalışsın və böyük iddialara düşməsin. Bununla bərabər, öz üzərinə düşən vəzifələri tamamilə yerinə yetirsin. Bax, əsas məsələ bundan ibarətdir: məhz tamamilə! Amma bəzi hallarda ayrı-ayrı vəzifəli şəxslər üzərinə düşən vəzifələri yerinə yetirmək əvəzinə, özünün bütün potensialım buna yönəltmək əvəzinə, kənar işlərlə məşğul olur və öz vəzifələri bir tərəfdə qalır. Beləliklə, iş axsayır və cürbəcür ziddiyyətlər yaranır.

Güman edirəm ki, belə hallara bir daha yol verilməyəcəkdir, işlər sağlam prinsiplər əsasında qurulacaqdır və Nazirlər Kabineti çevik, operativ bir orqan kimi fəaliyyət göstərəcəkdir. [400-401] Nazirlər Kabinetinin və onun Aparatının operativliyindən çox şey asılıdır. Biz bir sıra məsələləri müzakirə etdik, müəyyən fikirlərə gəldik. Bunlar ayrı-ayrı sənədlərdə, mənim fərmanlarımda, imzaladığım qanunlarda da öz əksini tapmışdır. Gərək Nazirlər Kabineti bunları vaxtında yerinə yetirsin, bu işlərlə ciddi məşğul olsun, bu qərarların, bu qanunların yerinə yetirilməsinə ciddi nəzarət etsin, onların həyata keçirilməsinə nail olsun. Yenə deyirəm, nail olsun! Nazirlər Kabinetinin vəzifəsi bundan ibarətdir.

Nazirlər Kabineti həm də çox təşəbbüskar olmalıdır. Gərək oturub gözləməsin ki, fərman verilsin, yaxud qanun qəbul edilsin, o da onları yerinə yetirsin. Biz Nazirlər Kabinetindən təşəbbüslər gözləyirik. özü də bu

təşəbbüslər ümumi işimizin xeyrinə olmalıdır, daha ayrı-ayrı məqsədlərə, cürbəcür çirkin hallara yönəldilməməlidir.

Təəssüflər olsun ki, bu son illərdə respublikamızda bütün sahələrdə, o cümlədən də iqtisadi sahədə ayrı-ayrı vəzifəli şəxslər öz vəzifələrindən sui-istifadə edir, cürbəcür çirkin yollara gedir, iqtisadiyyatımıza zərər vuraraq şəxsi mənafelərini təmin edirlər. Bunlar isə bütövlükdə ümumi işimizə zərər vurur. Üstəlik həm mühitimizi zəhərləyir, adamlarda hakimiyyətə qarşı narazılıq yaradır, həm də iqtisadi və mənəvi zərbə vurur. Belə çox çirkin hallar Nazirlər Kabinetinin rəhbərliyində də, onun Aparatının işində də olubdur və bəziləri bu gün də davam edir. Bizə belə siqnallar gəlib çatır. Bunlara son qoymaq lazımdır. Vəzifəsindən sui-istifadə etmək, rüşvətxorluq, müxtəlif iqtisadi əlaqələrdə öz aralarında, yaxud xarici şirkətlərlə əlaqələrdə şəxsi mənafeləri hər şeydən üstün tutub işlərə zərər vurmaq kimi hallar mənəviyyatımıza, həyatımıza zidd olan hallardır və bunların hamısının qarşısı alınmalıdır.

Yenə də deyirəm, ümumiyyətlə bizim dövlət strukturlarında, o cümlədən də Nazirlər Kabinetinin tərkibində, onun Aparatının işçiləri arasında belə mənfi hallar bu gün də mövcuddur. Mən bunu tam qətiyyətlə deyirəm və tələb edirəm ki, Nazirlər Kabinetinin rəhbərliyi, nazirlər, komitə sədrləri, şirkət rəhbərləri, başqa vəzifəli şəxslər, icra hakimiyyətinin başçıları, – onlardan çox şey asılıdır, – bu məsələlərin həllində özləri birinci növbədə nümunə olmalıdırlar. Çünki bəzi vəzifəli şəxslərin özləri bu cinayətlərə qol qoyur, bu çir[401-402]kin əməllərlə məşğul olur və çirkin yollara gedirlər. Bununla da həmçinin başqalarına şərait yaradır və onlar da bu şəraitdən istifadə edirlər. Odur ki, belə şeylərə son qoyulmalıdır.

Biz müstəqil dövlət quruculuğunda işlərimizi gərək elə quraq ki, müstəqil Azərbaycan Respublikasının dövlət strukturları keçmiş Sovet İttifaqındakı dövlət strukturlarından başqa keyfiyyətlərlə yanaşı, məhz bu mənəvi cəhətdən fərqlənsinlər. Çünki bu dövlət özümüzün, Azərbaycan xalqının doğma dövlətidir, doğma dövlət strukturlarıdır. Hər bir azərbaycanlı anlamalıdır ki, biz müstəqil Azərbaycan dövləti qururuq və qarşımızda böyük yol var. Bu yolu keçmək üçün və ali məqsədlərə nail olmaq üçün indi gərək hər şeyi saf, təmiz mənəviyyat üzərində quraq. Biz üç ildir müstəqil bir dövlət kimi yaşayırıq və dövlət quruculuğu ilə məşğuluq, dövlət strukturları yaradırıq. Əgər indi bunların hamısını zəhərləməyə, çirkləndirməyə, bunları zibilləməyə başlasaq, onda gələcək nəsillərə bizdən elə bir irs qalacaqdır ki, onlar bizə "sağ ol" demək, rəhmət diləmək əvəzinə lənət oxuyacaqlar. Məsələ onda deyildir ki, onlar bizə ya təşəkkür etsinlər, ya da lənət yağdırsınlar. Məsələ burasındadır ki, biz cavabdehik, böyük məsuliyyət daşıyırıq. Hər bir insan gərək öz məsuliyyətini hiss etsin.

Bütün bunlar Nazirlər Kabinetinin həm səlahiyyətinə aid olan məsələlərdir, həm də onun üzərinə düşən vəzifələrdir, həm də onun məsuliyyətini təşkil edən amillərdir. Ona görə də hamı bütün bunları bilməli, işləri bu tələblərə müvafiq surətdə aparmalıdır.

Nazirlər Kabinetinin işi əsasən iqtisadiyyatımızın ahəngdar fəaliyyət göstərməsi ilə, sosial sahənin normal səviyyədə olması və tam inkişafı ilə əlaqədardır. Burada vəzifələr çoxdur və onlar da məlumdur. Lakin bu vəzifələri həyata keçirmək üçün biz ümumiyyətlə respublikanın bütün hakimiyyət orqanlarında, o cümlədən Nazirlər Kabineti sistemində böyük struktur dəyişiklikləri aparmalıyıq. Bunu etiraf etmək lazımdır ki, indiyə qədər bizim hakimiyyət strukturlarının bir neçəsi istisna olmaqla qalanları keçmiş Sovet İttifaqından qalmış strukturlardır. Odur ki, böyük struktur dəyişiklikləri olmalıdır. Amma bu dəyişikliklər aparılmamışdır və bunun da öz səbəbləri var. Burada, Nazirlər Kabinetində hakimiyyət mübarizəsi, vəzifə mübarizəsi adamların başını qatıbdır.

Yenə də deyirəm, əgər 1991-ci ildən Azərbaycan müstəqil bir dövlətdirsə, müstəqillik haqqında Konstitusiya aktı [402-403] qəbul edilibsə, ondan bəri dövlət quruluşu ilə bağlı bütün bu tədbirlər gərək ardıcıl olaraq həyata keçiriləydi. Bu baxımdan dövlət strukturları, hökumət strukturları bugünkü tələblərə müvafiq surətdə uyğunlaşdırılmalı, dəyişdirilməlidir. Lakin bu işlərlə məşğul olmayıblar. Çünki, yenə də deyirəm, son vaxtlaradək burada adamlar ancaq bir şey ilə məşğul olublar ki, kiminsə yıxsın, kimsə hansısa bir vəzifəni tutsun, kiminsə yerinə keçsin. Bu adamlar vəzifə mübarizəsi, hakimiyyət mübarizəsi ilə, müxtəlif hikkələr, cürbəcür iddialar ilə yaşayıblar. Mən bir tərəfdən Nazirlər Kabinetini tənqid edirəm, digər tərəfdən isə, əgər 92-ci ildən bəri Nazirlər Kabinetinin sədri vəzifəsində beş-altı adam dəyişibsə və hərəsi də öz istədiyi kimi işləyibsə, bundan nə gözləmək olar?!

Şübhəsiz ki, mən heç də keçmiş dövrə bəraət qazandırmaq istəmirəm, ancaq istəyirəm ki, hər şeyə real, obyektiv qiymət verək. İndi bunlar da keçmişdə qalmışdır. Ona görə də hesab edirəm ki, hakimiyyət strukturlarını təkmilləşdirmək, onları günün tələblərinə müvafiq surətdə qurmaq üçün tam imkanlarımız var. Biz bu sahədə ciddi iş görməliyik. Məsələn, Prezident Aparatının strukturu, məncə, normal deyildir. Sizə açıq deyə bilərəm ki, mən prezident vəzifəsinə gələn vaxtdan indiyədək aparatla məşğul olmağa vaxtım yoxdur. Bir tərəfdən, respublikanın müstəqilliyini təmin etmək, bu müharibə vəziyyətində Azərbaycanın problemlərini həll etmək, Ermənistanın təcavüzünün qarşısını almaq, beynəlxalq aləmdə lazımi işlər görmək gərəkdir. Digər tərəfdən isə mən gələn vaxtdan bəri bizim daxilimizdə orada kimsə hakimiyyət mübarizəsi aparır, burada hansısa bir siyasi partiya mübarizəyə başlayır. Bütün bunlara çox vaxt gedir, özü də həddindən çox.

Məsələn, mən o vaxtlar çalışırdım ki, biz islahatlar keçirək. Baxmayaraq ki, müharibə şəraitindəyik, bir milyon qaçqınımız var, min bir çətinliyimiz var. Bütün bunlarla yanaşı, iqtisadiyyatda islahatlar keçirmək istəyirdik. Lakin Surət Hüseynov kimi yaramaz bir adam bu işə başçılıq etdiyi halda biz islahatları necə keçirə bilərdik? Biz yığışır, məsləhətləşirdik, o isə gəlib burada başqa bir bəyanat verirdi və bununla da hər şey pozulurdu.

Yenə də deyirəm, bunların hamısı keçmişdə qalmışdır. Biz bu gün qarşımızda duran vəzifələrdən danışmalıyıq. Bu baxımdan Prezident Aparatının strukturunda da dəyişikliklər [403-404] edilməlidir. Şəxsən mən özüm yaxın vaxtlarda bununla məşğul olacağam. Nazirlər Kabinetinin strukturunda dəyişikliklər aparılmalıdır. Ümumiyyətlə, iqtisadiyyatımızdakı mövcud strukturların necə olması, hansının olub-olmaması müəyyən edilməlidir. Bir daha qeyd edirəm ki, bizim iqtisadi strukturların tam əksəriyyəti, 99 faizi Sovet İttifaqının vaxtından qalan strukturlardır, sistemdir. Amma biz indi bu sistemlə işləyə bilmərik. Çünki biz islahatlara gedirik, iqtisadiyyatda ciddi dəyişikliklər aparırıq. Nazirlər Kabineti, icra orqanları, nazirliklər, şirkətlər, komitələr və digər təşkilatlar tamamilə başqa strukturda olmalıdır. Mən hesab edirəm ki, bu dəyişikliklər aparılarkən aparatda çalışanların sayı da nəzərə alınmalıdır.

Bildiyiniz kimi, indi iqtisadiyyatda çətinliklər var, böhran var. Mən iqtisadiyyat haqqında da bir neçə kəlmə deyəcəyəm. Götürək sənayeni, tikintini, yaxud nəqliyyatı. Nəqliyyat normal işləməsə də, hər halda öz imkanları daxilində işləyir. Sənaye müəssisələrinin gücündən tam istifadə edilmir. Sözlərim eləcə də tikinti müəssisələrinə aiddir. Başqa elə təşkilatlar da var ki, onlar bəlkə də ittifaq miqyasında lazım olduğuna görə yaradılmışdı. İndi onların hamısı təhlil edilməli, araşdırılmalı, bu günün tələblərinə, xüsusən gələcəyin tələblərinə uyğun olaraq qurulmalıdır. Ona görə də Nazirlər Kabinetinin əsas vəzifələrindən biri yaxın vaxtlarda icra orqanlarının, nazirliklərin, şirkətlərin, komitələrin, birliklərin strukturlarına baxmaq və bu barədə öz təkliflərini hazırlayıb mənə təqdim etməkdir. Biz bu sahədə dəyişikliklər aparmalıyıq. Qeyd etdiyim kimi, Prezident Aparatının strukturunda da ciddi dəyişikliklər olacaqdır. Bununla əlaqədar mən tapşırıq vermişəm. Müəyyən təkliflər hazırlanmış və təqdim ediləcəkdir.  Biz onlara baxacağıq.

Beləliklə, qarşımızda duran ümumi vəzifə ondan ibarətdir ki, bizim hakimiyyət orqanının, icra orqanlarının strukturları bu günün və gələcəyin tələblərinə uyğun və çox çevik olsun, operativ hərəkət edə bilsin və eyni zamanda səmərəli fəaliyyət göstərsinlər.

İqtisadiyyatımız, sosial sahəmiz böyük bir böhran içərisindədir. Bu, hamıya məlumdur. Biz bunu dəfələrlə demişik. Şübhəsiz ki, bu böhranın həm obyektiv, həm də subyektiv səbəbləri də məlumdur. Siz obyektiv səbəbləri bilirsiniz. Mən güman edirəm ki, subyektiv səbəblər Nazirlər Kabinetinin 1991-ci ildən indiyə qədər fəaliyyəti haqqında, onun rəhbərliyi haqqında söylədiyim sözlərdən aydın oldu. Buna görə də [404-405] təkrara ehtiyac yoxdur. Buna baxmayaraq, biz belə vəziyyətlə razılaşa bilmərik. Şübhəsiz, ciddi tədbirlər görülməlidir ki, iqtisadiyyat bu böhran vəziyyətindən tədricən çıxsın. Əlbəttə, heç vaxt fantaziyaya uymaq lazım deyildir ki, bu gün biz bir addım atacağıq və sabah vəziyyət dəyişəcəkdir. Xeyr, belə ola bilməz. Çünki bu vəziyyət tək bizə deyil, ümumiyyətlə keçid dövrünə xas olan vəziyyətdir. Lakin hər şey bizim fəaliyyətimizdən asılıdır. Biz bir fəaliyyət göstərməyib, keçmişdəki kimi nöqsanlara, səhvlərə yol versək, özümüzü daha dərin quyuya salarıq. Amma lazımı tədbirlər görsək, bu çətinliklərin öhdəsindən tezliklə gələr, böhran vəziyyətindən sürətlə çıxarıq. Mən hesab edirəm ki, böhran vəziyyətindən sürətlə çıxmaq üçün biz məhz bu yol ilə getməliyik. Bu sahədə də yollar artıq müəyyən edilib, göstərilmişdir. Mən sizə yeni bir şey söyləmək fikrində deyiləm. Yolumuz iqtisadiyyatımızı məhz bazar iqtisadiyyatı yoluna salmaqdan, iqtisadı islahatlar aparmaqdan və bu vasitə ilə iqtisadiyyatı canlandırmaqdan ibarətdir. Bu, bizim strateji yolumuzdur. Bu sahədə müəyyən işlər görülür, amma bunlar görməli olduğumuz işlərin yalnız başlanğıcıdır. Söz yox ki, bundan sonra çox işlər görülməlidir. Lakin gözümüzü yumub oturaq ki, biz islahatlar keçirəcəyik və bu islahatlar nəticəsində iqtisadiyyatımızda müsbət nəticələr əldə ediləcək, bunun da sayəsində həm iqtisadiyyatı canlandıracaq, həm də adamların rifahını yaxşılaşdıracağıq, bu, səhv olardı. Bizim böyük iqtisadi potensialımız var – sənayedə də, kənd təsərrüfatında da, iqtisadiyyatın qalan bütün sahələrində də. Bu mövcud iqtisadi potensialdan, istehsal müəssisələrindən, istehsal imkanlarından biz səmərəli istifadə etməliyik, mülkiyyət formalarını dəyişdirməliyik. Amma bununla yanaşı, bu məqsədlərə nail olana qədər mövcud imkanlardan istifadə etməliyik, mövcud istehsal müəssisələrini tam gücü ilə işlətməliyik. Bunun üçün də imkanlar var. Əgər iqtisadi islahatların aparılması doğrudan da müəyyən təcrübə, bilik, yaxud da psixoloji dəyişiklik tələb edirsə, bu, labüddür, olmalıdır – sənayedə, kənd təsərrüfatında, nəqliyyatda və başqa sahələrdə istehsal müəssisələrini işlətmək, onların gücündən istifadə etmək böyük bilik tələb etmir. Biz həmin müəssisələri illər boyu işlətmişik. Ona görə də bu barədə ciddi tədbirlər görülməlidir.

Şübhəsiz ki, bunu da keçmiş idarə üsulu ilə, metodlarla etmək mümkün deyildir. Keçmişdə məlum idi: zavodlar, fabrik[405-406]lər, ümumiyyətlə, istehsal müəssisələri işləyirdi, onların planları var idi və bunları yerinə yetirməli idilər, planı yerinə yetirməyənlər cəzalandırılırdı və s. Müəssisələrin müəyyən göstəriciləri vardı, bunlar təmin olunmalı idi. İstehsal olunan mal ümumittifaq miqyasda hara isə göndərilirdi, xammal haradan isə gəlirdi. Qiymət məsələsi də problem deyildi. Bütün bunlar elə bir fəaliyyət tələb etmirdi. İndi bir zavodu işlətmək üçün onun rəhbərləri, şübhəsiz ki, çox ciddi tədbirlər görməlidirlər. Həm də bir müəssisənin və başqa bir müəssisənin işini canlandırmaq üçün eyni tədbirlər görmək olmaz. Bunlar bir-birindən fərqli olmalıdır.

Yəni hər bir istehsal müəssisəsinə fərdi, onun xüsusiyyətinə aid, uyğun münasibət bəslənməlidir. Ona görə də belə hesab edirəm ki, sənayemizin mövcud imkanlarından daha səmərəli istifadə etmək mümkündür, buna nail olmaq lazımdır. Bundan ötrü gərək hər bir nazir, komitə sədri, şirkət, müəssisə rəhbəri fikirləşib tədbirlər görsün və onları həyata keçirsin.

Bu işi təşkil etmək üçün tapşırıram ki, hər bir sahədə mövcud istehsal imkanlarını hərəkətə gətirməkdən, canlandırmaqdan, istehsalı artırmaqdan ötrü görülməli olan tədbirlər 15 gün ərzində müəyyənləşdirilsin. Nazirlər Kabineti gərək bunu nəzarətə götürsün. Zavod direktoru gərək bunu fikirləşsin, yazsın-pozsun, öz təkliflərini versin. Birlik, şirkət, nazirlik gərək təkliflərini versin. Bu məsələdə də hər bir müəssisəyə fərdi münasibət olmalıdır. Bir müəssisəni bir cür, digərini başqa cür canlandırmaq olar. Bunların yollarını axtarmaq lazımdır.

Bilirsiniz, məndə belə bir təsəvvür yaranıb ki, bizim çox təcrübəli təsərrüfatçılarımız, müəssisə rəhbərlərimiz, sənaye sahəsində çox böyük işlər görmüş adamlar indi bu çətinliklərlə qarşılaşaraq işdən soyumuşlar, ciddi axtarışa girişmirlər. Mənə belə gəlir ki, bu cür yaramaz, biz bununla razı ola bilmərik, qətiyyən razı ola bilmərik. Doğrudur, çətindir. İndi, məsələn, Sumqayıtdakı metallurgiya zavodunu işlətmək çox çətindir, mən bunu bilirəm. Kimya müəssisəsini də işlətmək çətindir. Bizim böyük maşınqayırma zavodlarımız – neft maşınqayırma, neft-kimya maşınqayırma müəssisələrimiz var. Bunları da işlətmək çətindir, amma işlətmək lazımdır.

Bir vaxtlar iftixar hissi ilə deyirdik ki, Sovetlər İttifaqının neftçıxarma avadanlığının 70 faizi Azərbaycanda istehsal olunur. Bu rəqəmləri 1986-1987-ci illərdə də, ondan qabaq da iftixar hissi ilə deyirdik. Doğrudan da belə idi. Sizə məlumdur ki, 70-ci illərdə bizim neft maşınqayırma zavodlarımız – keç[406-407]miş leytenant Şmidt adına, indiki Səttarxan adına zavod, "Bakı fəhləsi" zavodu, Keşlə maşınqayırma zavodu və s. kökündən müasirləşdirildi, yenidən quruldu, modernləşdirildi. Onlar çox keyfiyyətli avadanlıq buraxırdı. Amma indi bu avadanlığı buraxmaq üçün bir tərəfdən metal lazımdır, ikinci tərəfdən əvvəllər həmin avadanlığı Sibirə, yaxud SSRİ-nin başqa regionlarına göndərirdik, lakin hazırda buna ehtiyac yoxdur, onlar özləri belə məhsul buraxırlar. Ancaq bu o demək deyil ki, həmin zavodların hamısı bağlanmalıdır, yox. Gərək hər bir zavodun direktoru oturub fikirləşsin ki, müəssisənin işini necə canlandıra bilər. Sahə üzrə də belə olmalıdır. Neft maşınqayırma sənayesini götürək. Bu, çox böyük sahədir, böyük bir birlikdir. Birliyə bir çox zavod daxildir. Bəlkə iki-üç zavodu başqalarının hesabına canlandırmaq, o birilərini, məsələn, konservləşdirmək lazımdır. Bəlkə belə yolla da getmək lazımdır.

Məsələn, kimya sənayesi sahəsində çox böyük zavodlar var, böyük kimya sənayesi var. Amma bu gün hansını işlədib həm xammalla təmin edə, həm də əldə olunan məhsulu sata bilərik? Bunu təşkil etmək lazımdır. Yəni demək istəyirəm ki, indi biz keçmişdə olduğu qədər sənaye məhsulu əldə edə bilmərik. Sənayedə istehsal aşağı düşür. Dünən biz müzakirə aparırdıq, dedilər ki, birinci rübdə istehsal 25 faiz azalmışdır. Şübhəsiz ki, bu, bizim üçün çox zərərli, çox təhlükəli meyldir. Bunun qarşısı alınmalıdır. Amma keçmiş metodla – nəyin bahasına olursa-olsun sənaye istehsalını artırmaq metodu ilə yox. Yenə deyirəm, bəli, o vaxtlar bilirdik ki, maşınqayırma zavodlarının məhsuluna böyük ehtiyac var. Sadəcə olaraq təmin edilməli idi ki, metal gəlsin, zavodlar işləsin, məhsul buraxsın və bu, respublikadan kənara göndərilsin. Yaxud, biz o zaman Sumqayıtda nə qədər böyük kimya zavodları tikdik, necə çətinliklə onların avadanlığını gətirib quraşdırdıq. Bu, asan məsələ deyildi. Amma eyni zamanda məlum idi ki, istehsal olunan məhsulun hamısı göndəriləcək, onu harada, necə satacağımız bizi narahat etmirdi. Bu problemlərdən tamamilə azad idik. Amma indi belə deyil. İndi istehsalı sadəcə olaraq, ümumən artırmaq mümkün deyildir. Hər bir müəssisəyə, hər bir sahəyə fərdi yanaşmalı və aydınlaşdırmalıyıq ki, o, nə istehsal edə, hansı iqtisadi səmərə verə bilər, nəticədə iqtisadiyyatımız nə cür inkişaf edə, maliyyə vəziyyətimiz nə cür sağlamlaşa bilər. [407-408]

Ona görə də bu işə ümumi münasibət, ümumi tələb ola bilməz ki, məsələn, sənaye istehsalı 25 faiz yüksəlib, bu səviyyədə saxlayaq, aşağı düşməsin. Əlbəttə, əgər tədbirləri həyata keçirə bilsək, son nəticədə sənaye istehsalı sabitləşəcək. Amma nəyin naminə? Onun naminə yox ki, nə istehsal edirsən et. Onun naminə ki, istehsal olunan məhsullar dünya bazarına çıxacaq, daxili bazarda özünə alıcı tapa biləcək və bunun nəticəsində pul dövriyyəsi olacaq, müəssisə öz-özünü yaşada biləcəkdir. Bu, təkcə sənaye ilə deyil, bütün istehsal sahələri ilə əlaqədar birinci dərəcəli məsələlərdir.

Bayaq dediyim kimi, göstəriş verirəm ki, 15 gün ərzində hər bir rəhbər işçi öz təkliflərini verməlidir. Təklif verməkdən qorxmaq lazım deyil. Əgər hansı müəssisəninsə gələcəkdə müəyyən hissəsinin işləməsi səmərəli deyildirsə, bağlamaq lazımdırsa, bunu da qorxmadan, açıq demək gərəkdir. İndi çox cəsarətlə işləmək, hər şeyi açıq-aşkar demək lazımdır. Belə açıq-aşkar təhlildə vəziyyətimizi öyrənə bilərik. İndi burada nə baş nazir, nə mən, nə də baş nazirin müavinləri hansı sahədə hansı işi nə cür görmək lazım olduğunu bilə bilmərik. Ancaq şübhəsiz ki, Neft Maşınqayırma Birliyinin rəhbəri, baş mühəndisi, digər rəhbər işçiləri bunu bilirlər. Yaxud bir az da aşağıdan başlasaq, məsələn, "Bakı fəhləsi" zavodunun rəhbəri bilir ki, hansı işi görmək, nə etmək olar. O, sadəcə olaraq tədbirlər planı hazırlamalı və bizə müraciət etməlidir. Əgər biz onun irəli sürdüyü tələbləri ödəyə biliriksə, qoy getsin eləsin. Yox, ödəyə bilmiriksə, onda başqa bir yol tapsın. Amma oturub

mövcud vəziyyətlə qane olsun, gözləsin ki, nə olacaq, necə olacaq – belə ola bilməz. Bir daha qeyd edirəm, əsas vəzifələrdən biri budur. Ümumiyyətlə, bu, iqtisadiyyatın bütün sahələrinə aiddir, mən detallaşdırmaq istəmirəm.

Ancaq bununla yanaşı, bundan da əsas, ümdə vəzifə iqtisadi islahatların həyata keçirilməsidir. Bu barədə çox ciddi iş görülməlidir. Bilirsiniz ki, aqrar bölmədə iqtisadi islahatların keçirilməsi üçün iki qanun qəbul etmişik. Komissiyalar işləyir. Deyəsən dünən axşam, ya bu gün səhər İrşad Əliyev komissiyanın necə, nə təhər işləməsi barədə televiziyada danışırdı. Bunlar hamısı yaxşıdır. Ancaq işlər sürətləndirilməlidir.

Məlumdur ki, aqrar bölmədə keçirilən islahatlar ən çətin islahatlardır. Kimsə belə hesab edirsə ki, bu, asandır, deməli, sahəni bilmir. Bu sahəyə həqiqətən bələd olan adamlar bilirlər, mən də bu sahəni bilən adam kimi deyirəm ki, aqrar böl[408-409]mədə islahatların keçirilməsi çox çətindir. Mən Tofiq Əzizovu Türkmənistana, Qırğızıstana, Özbəkistana göndərmişdim ki, islahatların gedişini öyrənsin. Sonra Rusiyada – Sankt-Peterburqda da olmuşdur. Bu barədə məlumat verəcəkdir. Ancaq telefonda mənə verdiyi qısa məlumatdan hiss etdim ki, bu məsələ onlarda da nə qədər çətindir.

Məsələn, Rusiyanı götürək. İki gün bundan əvvəl Çernomırdin, ya kimsə televiziyada bu islahatlar haqqında danışırdı. Guya Rusiya aqrar bölmədə islahatlar aparılmasında hamıdan irəlidə gedir. Amma eyni zamanda ortada bir şey yoxdur.

Şübhəsiz ki, bu, bizə təskinlik verə bilməz, bununla özümüzə bəraət də qazandıra bilmərik, qətiyyən bilmərik. Mən bunu sadəcə olaraq problemin mürəkkəbliyini qeyd etmək üçün deyirəm. Heç kəs bu məsələyə səthi, çox yüngül yanaşmasın. Deyə bilərəm ki, Rusiyada aqrar islahatlar 1985-1986-cı illərdən gedir. Mən Moskvada işləyirdim, bu işlərin içində idim. Bilirdim ki, o vaxtlar haradasa bir nümunə tapır, fermer təsərrüfatı yaradırdılar. Gəlirdilər ki, nə bilim, Hollandiyada belədir, İsveçdə elədir, Amerikada belədir. Yəni bu proses Rusiyada o vaxtlardan başlanmışdır. Azərbaycanda isə başlanmamışdı. Əgər bu proses Rusiyada o vaxtdan başlamışsa və indi deyirlərsə ki, Rusiyada aqrar islahat keçirməmişik, hələ keçirməliyik, onda görün bu, nə qədər çətin işdir. Amma yenə də deyirəm, nə Rusiyaya bəraət qazandıra bilərəm ki, indiyədək islahat keçirməmişlər, nə də özümüzə təskinlik verə bilərəm ki, bəli, onlar edə bilməmişlər, biz də edə bilmirik. Sadəcə olaraq demək istəyirəm ki, onlar bu işə o vaxtlar başlamışlar, xüsusən 1991-ci ildən Rusiyada bu proseslər çox ciddi getmişdir. Amma bizdə, Azərbaycanda bu proseslər heç getməmişdir.

Azərbaycanda bu işi indi başlamışıq. Lakin bu o demək deyil ki, mən bizim komissiyalara şərait yaradıram ki, onlar bu vəziyyətlə razılaşsınlar. Yox, ona görə deyirəm ki, torpaqla bağlı olan məsələ çox mürəkkəbdir. Buna çox həssas yanaşmaq lazımdır, eyni zamanda qəbul etdiyimiz qanunları sürətlə həyata keçirməliyik.

Özəlləşdirmə proqramı barədə Tofiq Əzizovu baş nazirin müavini – Əmlak Komitəsinin sədri təyin etdik. Ona bir müddət vaxt verdik, özəlləşdirmə proqramım hazırladıq. Həmin proqrama bir dəfə baxdıq, yaramadı, əlavə göstərişlər verdik. Proqramı yenidən hazırlamışdır. Bundan sonra mən ona [409-410] tövsiyə etdim ki, getsin Orta Asiya respublikalarında bu işlə tanış olsun. Ötən ilin oktyabrında mən bir gün Türkmənistanda oldum. Orada söhbətlərim zamanı məndə belə bir təsəvvür əmələ gəldi ki, onlar hər şeyi ediblər. Pambıq istehsalı da, taxıl istehsalı da, – hər şey artmışdır. Məni çox təəccübləndirdi ki, axı, vaxtilə Türkmənistanda ildə təxminən 150 min ton taxıl istehsal oluna bilərdi. Çünki onlar belə hesab edirdilər ki, oranın torpağı ancaq pambıq üçün yararlıdır. Mənə isə dedilər ki, keçən il bir milyon tondan artıq taxıl istehsal etmişlər. Soruşdum ki, bu, necə olub, yeni torpaq sahələrimi tapmısınız, yeni işlərmi görmüsünüz? Dedilər ki, yox, islahatlar aparırıq, ona görədir.

Elə ona görə də Tofiq Əzizova dedim ki, oraya get, Özbəkistanda, Qırğızıstanda da vəziyyəti öyrən. Çünki onların şəraiti, xüsusən kənd təsərrüfatında bizimkinə uyğundur. Xalqlarımızın mentaliteti də bir-birinə bir az yaxındır. Ona görə oraya göndərdim. Dedim ki, sən gedib məsələn, Baltikyanı ölkələrdən nə isə gətirsən, bu, bizdən ötrü bəlkə də o qədər uyğun olmasın. Ancaq bu respublikalar bizə yaxındır və keçmişdə də əlaqələrimiz olmuşdur. Lakin bayaq dediyim kimi, telefonla mənə verdiyi məlumatdan belə başa düşdüm ki, bu proseslər orada da çox çətin keçir.

Ancaq buna baxmayaraq, mən yenə özəlləşdirmə proqramına qayıdıram dünən Tofiq Əzizov məlumat verdi ki, proqram artıq hazırdır. Göstəriş verdim ki, proqramın layihəsini müəyyən vəzifəli şəxslərə paylasın və onlar 23 gün ərzində onunla tanış olsunlar. Sonra yığışıb proqramı müzakirə etməliyik. Tofiq Əzizovun dediyinə görə, guya bu proqram bütün başqa respublikalarda həyata keçirilmiş proqramlardan yaxşıdır. Hələ dəqiq bilmirəm, ona görə guya deyirəm. Allah eləsin ki, belə olsun. Ancaq belə olmasa da, şübhəsiz ki, biz özəlləşdirmə proqramını lazımi səviyyəyə gətirib çatdırmalı və özəlləşdirməni həyata keçirməliyik.

Bir sözlə, biz bazar iqtisadiyyatı yolu ilə cəsarətlə getməliyik. Mən bunu dəfələrlə demişəm, amma belə hesab edirəm ki, təkrardan heç kəs zərər çəkməmişdir. Çünki bizim insanların psixologiyası illərlə o qədər formalaşmışdır ki, bəziləri köhnə adət-ənənələrdən, köhnə quruluşdan bərk-bərk yapışmışlar. Ona görə də onları bundan qoparmaq, insanların psixologiyasında dəyişiklik, inqilabi dəyişiklik əmələ gətirmək [410-411] üçün dəfələrlə deyirəm ki, başqa yol yoxdur, bu yolla gedəcəyik və getməliyik.

Ancaq islahatlar təkcə aqrar sahədə islahatlardan, özəlləşdirmədən ibarət deyildir. Məsələn, valyuta sahəsində gördüyümüz tədbirlər maliyyə sistemimizdə müəyyən sərbəstlik yaradacaqdır. Yaxud qiymətlərin,

məsələn, çörəyin qiymətlərinin sərbəstləşdirilməsi, ixrac-idxal əməliyyatları ilə əlaqədar tədbirlərimiz bunların hamısı respublika iqtisadiyyatının sərbəstləşdirilməsi prosesidir. Bilirsiniz ki, mən bu barədə bir neçə fərman vermişəm və bunlar artıq öz nəticələrini göstərir.

Məsələn, oktyabr noyabr aylarını təsəvvürünüzə gətirin: taxıl, çörək təminatı ilə bağlı necə böhranlı vəziyyətdə idik. Xatirimdədir, Aşqabata getmişdim, mənə telefonla zəng etdilər ki, bir günlük un ehtiyatı qalmışdır, əgər un tapılmasa, bir gündən sonra Bakı çörəksiz qalacaq. Yadımdadır, o zaman biz nə qədər çətinliklə Türkiyədən, İrandan, başqa yerlərdən un, taxıl gətirdik. O vaxtlar elə bir çətin dövr yaşadıq ki, çörək bişirmək üçün iki günlük un ehtiyatı təmin edə bilirdik, üçüncü günə un qalmırdı. Ona görə də gecə-gündüz məşğul olurduq ki, necə edək, üçüncü gün də çörək olsun. Belə bir şəraitdə Bakıda gündə 900 ton çörək bişirilirdi. Dünən müşavirə keçirirdim. Kamil Məmmədov məlumat verdi ki, indi gündə 770 ton çörək bişirilir. Demək, 130 ton az bişirilir. Amma hamının da çörəyi var, növbə də yoxdur. İnsanlar çörəklə təmin olunmuşdur. Hətta mənə deyirlər ki, keyfiyyət də get-gedə yaxşılaşır.

Görürsünüz, dörd-beş ay əvvəl bunlar nə qədər ağır problemlər idi. Biz indi bundan çıxdıq. Bir tərəfdən, şübhəsiz ki, Avropa Birliyinin yardımı bizə kömək etdi. Amma ikinci tərəfdən, qiymətləri ki, sərbəstləşdirdik, şübhəsiz, bu, hər şeyi yerinə qoydu. İndi mən fikirləşirəm ki, artıq bişirilən həmin 130 ton çörək hara gedirdi. Demək, yəqin ki, o vaxtlar çörəyin qiyməti ucuz idi, ona görə bəziləri artıq alırdı, yarısını atırdı, bəziləri heyvana verirdi, indi bunu edə bilmir. Ona görə də 130 ton az çörək bişirilir.

Çörək problemi bizə məlumdur. Mən bunu burada işlədiyim vaxtlardan, 70-ci illərdən, lap əmin-amanlıq vaxtlarımızdan xatırlayıram. O vaxtlar da problem qalxırdı ki, bişirilən çörəyin yarısı atılır. Zibil yeşiklərində nə qədər çörək olurdu. Nə üçün? Çünki çörək o qədər ucuz idi ki, yüz-iki yüz qram lazım olanda gedib bir kiloqram alırdılar. Bir azını yeyir, qa[411-412]lanını da atırdılar. Mənim xatirimdədir, 1980-1981-ci illərdə, çörəyin kiloqramı 20 qəpiyə olanda məsələ qaldırıldı ki, qiymət iki dəfə artırılsın. Lakin qarşısı alındı ki, yox, bu, sosial problemdir, bunu etmək olmaz. O vaxtın öz problemləri var idi. Amma indi başqa şəraitdə yaşayırıq.

Demək istəyirəm ki, gördüyümüz tədbirlər istehsal ilə tələbatı müəyyən qədər tənzimləmişdir. Təkcə bu deyil, başqa təsirlər də var. Bu baxımdan şübhəsiz ki, son illərdə atdığımız addımların beynəlxalq təşkilatlar tərəfindən bəyənilməsi, qəbul olunması göstərir ki, onlar artıq bu qənaətə gəlmişlər ki, bəli, Azərbaycanda iqtisadiyyat həqiqətən sərbəstləşir, iqtisadi islahatlar həyata keçirilir. Məhz buna görə də Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və başqa beynəlxalq təşkilatlar artıq üzlərini Azərbaycana çevirmişlər.

Məsələn, Avropa. Birliyini götürək. Biz bu yaxınlarda Brüsselə gedib Avropa İqtisadi Komissiyasının sədri Jak Santerlə və başqaları ilə görüşlər keçirdik. Siz bilirsiniz, bunlar bizə 300 min ton taxıl yardım etmişlər. Bunun hesabına biz çörək təminatını həll edə bildik. Bizə 68 milyon ekyü kredit vermişlər. Onun bir hissəsinə dərman və deyəsən, ət alınmışdır, qalan hissəsindən də istifadə olunacaqdır. Avropa Birliyi indi artıq Azərbaycanı tanıyır, ehtiyaclarımızı dərk edir. Məhz ona görə ki, bəli, qəbul edir ki, Azərbaycan artıq iqtisadi islahatlar yolu ilə gedir. Bu yolla getdiyimizə, iqtisadiyyatda sərbəstləşdirmə prosesini apardığımıza görə həmin bu beynəlxalq maliyyə orqanları, iqtisadiyyat orqanları Azərbaycana kömək edirlər. Bu, onların köməyinin bir qismidir. Onlar hər bir ölkənin iqtisadiyyatını dirçəltmək üçün, əgər bu ölkə doğrudan da, demokratik prinsiplər əsasında yaşayırsa, iqtisadiyyatı da bu prinsiplər əsasında qurursa, ona kömək edirlər. Birinə çox, birinə az kömək göstərirlər. Ancaq indiyədək Azərbaycana heç bir kömək olmamışdır.

Məsələn, mayın 29-da Parisdə Dünya Bankının böyük bir toplantısı keçiriləcəkdir. Orada Azərbaycanın məsələlərinə də baxılacaq və biz böyük hazırlıq işləri görürük. Fuad Quliyev və bizim başqa vəzifəli şəxslər oraya gedəcəklər. Mən bu gün Vahid Axundovla söhbət etdim. O dedi ki, 1992-ci ildə də Dünya Bankında Azərbaycana kömək göstərilməsi məsələsinə baxılmışdı. Belə fikir var idi ki, Azərbaycana 400 milyon ABŞ dolları məbləğində kredit verilsin və ya kömək göstərilsin. [412-413] Vahid Axundov bunu mənə danışıb. Deyir ki, çıxış etdik, sübut etdik, onu etdik, bunu etdik, ancaq bu məsələnin dalınca getmədilər, nə taxıl gəldi, nə də kredit. Heç bir şey gəlmədi. Şübhəsiz ki, gələ də bilməzdi. Çünki o qədər qeyri-sabitlik olan, kimin kim olması, kimin hakim olması bilinməyən respublikaya kim kömək edəcəkdi?

Yəni son dövrdə Azərbaycan Respublikası beynəlxalq aləmdə özünü tanıtdığına görə, öz yerini tutduğuna görə, böyük dövlətlərlə ikitərəfli əlaqələr yaratdığına, beynəlxalq təşkilatların işində fəal iştirak etdiyinə görə, ölkənin iqtisadiyyatında sərbəstləşdirmə prosesi getdiyinə və bunların nəticəsi göz qabağında olduğuna görə həm Avropa Birliyində, həm Dünya Bankında, həm Beynəlxalq Valyuta Fondunda, həm də Avropa Yenidənqurma və İnkişaf Bankında Azərbaycana münasibət tamamilə dəyişmişdir. Məsələn, o köməyi ki, indi onlar bizə edirlər və etməlidirlər, bunu Ermənistana və Gürcüstana çoxdan etmişdilər. Amma bizə etməmişlər. Amerika Ermənistana birbaşa kömək göstərir, bizə isə yox. Çünki 907-ci maddə var. Klinton bu yaxınlarda, aprelin 24-dəki bəyanatında dedi ki, Amerika Ermənistana 425 milyon dollar yardım etmişdir. Bu, bilavasitə yardımdır. Ancaq beynəlxalq iqtisadi-maliyyə təşkilatları bütün ölkələrə, yəni bizim kimi ölkələrə yardım göstərirlər. Azərbaycana isə indiyədək heç bir yardım olmamışdır.

Bilirsiniz ki, Beynəlxalq Valyuta Fondu bizə 46 milyon dollar yardım ayırdı, onun ikinci hissəsi də olacaqdır. Dünya Bankı 70 milyon dollar ayıracaqdır. Neft şirkətinə 20 milyon dollar kredit ayrılmışdır.

Energetika sahəsinə, Yenikənd Su Elektrik Stansiyasının tikilməsi üçün Avropa Yenidənqurma və İnkişaf Bankı kredit ayırmışdır. Bakının su təchizatı məsələsi üçün də kredit ayrılmışdır. Bunlar hamısı məhz ona görədir ki, bir də deyirəm, Azərbaycanda gedən proseslər beynəlxalq təşkilatlar tərəfindən qiymətləndirilmişdir və respublikamızın bazar iqtisadiyyatı yolu ilə getməsi artıq heç kəsdə şəkk-şübhə doğurmur.

Bütün bu yardımlar, kreditlər respublikada məhz iqtisadiyyatda ciddi dəyişikliklər etmək üçün verilmişdir. Beynəlxalq maliyyə təşkilatlarının hamısı bilir ki, bu iqtisadi dəyişikliklər gedən, islahatlar aparılan ölkədə, şübhəsiz, maliyyə çatışmazlığı, iqtisadi çətinliklər olur. Bax, bu çətinliklərin qarşısını almaq üçün həmin respublika, ölkə dirçələ bilsin, yeni iqtisa[413-414]diyyat yolu ilə gedə bilsin deyə bu kreditlər, yardımlar verilir. Bunlar müsbət hallardır və yüksək qiymətləndirilməlidir. Birincisi o mənada ki, Azərbaycanda iqtisadiyyat sahəsində gedən proseslər tanınır, qiymətləndirilir; ikincisi, ona görə ki, bu yardımlar, kreditlər, şübhəsiz, iqtisadiyyatımıza xeyli kömək edəcəkdir. Brüsselə səfərim zamanı mən indiyədək bizə olunan yardımlara görə təşəkkür etdim, ancaq eyni zamanda biz danışdıq ki, bu ilin ikinci yarısı və 1996-cı il üçün Avropa Yenidənqurma və İnkişaf Bankından hansı yardımlar ediləcəkdir. Mən bu barədə onlara müraciət etdim. Mayın 8-də onların nümayəndələri buraya gələcək və müəyyən işlər görüləcəkdir. Güman edirəm ki, bu ilin ikinci yarısında və 1996-cı ildə də Avropa Birliyinin yardımı davam edəcəkdir.

Bunları sizə deməkdə bir məqsədim var. O da bundan ibarətdir ki, hamı inanmalıdır, biz iqtisadi islahatları keçirməliyik və bunun üçün beynəlxalq iqtisadi-maliyyə təşkilatları kömək edirlər və edəcəklər. Ancaq bu yardımları alıb, loru dillə desək, yeyərək islahatları aparmayacayıqsa, şübhəsiz, yardımı da kəsəcəklər və biz tamamilə quru yerdə qalacağıq. Bunu bilmək lazımdır. Ona görə də gərək hərə öz sahəsində təşəbbüskar olsun. Əlbəttə, qanunlar lazımdır, qəbul etdik. İndi aqrar sahədə komissiyalar işləyir. Tofiq Əzizov özəlləşdirmə proqramım hazırlamışdır, baxıb qəbul edəcəyik. Bunlar əsasdır, ümumi sənədlər lazımdır. Lakin iş təkcə bunlarda deyil. Hər bir sahədə təşəbbüskarlıqla da çox iş görmək olar.

Bilirsiniz, ümumiyyətlə, sərbəst iqtisadiyyatın, bazar iqtisadiyyatının ən böyük xüsusiyyətləri ondan ibarətdir ki, insanlara sərbəstlik verilir, onlar təşəbbüs göstərərək çox iş görə bilir. Bizim müəssisə, idarə rəhbərləri bu sərbəstlikdən istifadə etməlidirlər. Amma iqtisadiyyatı qaldırmaq, ümumi işimizi irəli aparmaq üçün istifadə etməlidirlər. Təəssüflər olsun ki, bunu sonradan unutmamaq üçün deyirəm, bəzi yerlərdə müəssisə rəhbərləri, ayrı-ayrı iqtisadi orqanlara rəhbərlik edən adamlar bu sərbəstlikdən yalnız cinayət etmək, öz şəxsi məqsədləri üçün istifadə edirlər.

Məsələn, "Metallurgiya" şirkətinin prezidenti Həmidov böyük bir sahəyə rəhbərlik edirdi. Ona böyük etimad göstərilmişdi. Nə üçün o, gərək dağıdaydı, cinayət törədəydi? Bir neçə ay öncə Fuad Quliyev də, baş prokuror da mənə məlumat verdilər ki, bu adam cinayət edir, onu işdən çıxarmaq, həbs et[414-415]mək lazımdır. Dedim ki, bir də baxın, görün, bəlkə o qədər də böyük cinayəti yoxdur. Yəni, mən bu adamın aqibətinə çox böyük dözüm və sayqı ilə yanaşdım. Ancaq iki-üç ay keçəndən sonra yeni hadisələr meydana çıxdı. Ona görə də onu işdən çıxarmağa məcbur oldum. Şübhə etmirəm ki, yəqin, prokurorluq orqanları lazımi iş görürlər. Hətta onu həbs etdilər, lakin mən qoymadım, dedim ki, istintaqı həbssiz aparın. İndi prokuror deyir ki, istintaq qurtarıb, işi Ali Məhkəməyə verməlidirlər. Şübhəsiz, Ali Məhkəmə onun cəzasını verəcəkdir. Əlbəttə, ədalətlə.

Axı niyə gərək belə olsun, nə üçün? Ancaq belələri bizim sıramızda çoxdur. Mən bunu tam qətiyyətlə deyirəm və hamı da bilməlidir ki, heç kəs bağışlanmayacaqdır. Bizim dözümlülüyümüz, xüsusən, çox məsələlərə mənim dözümlü, qayğıkeş yanaşmağım heç kəsdə belə bir əhval-ruhiyyə yaratmasın ki, bunlar bağışlanacaqdır. Mən sadəcə olaraq ona görə dözürəm ki, insanlara müəyyən qədər imkan verək, öz səhvlərini anlasınlar, başa düşsünlər, düz yola gəlsinlər. Bilin, mənim bir məqsədim də bundan ibarətdir.

Ancaq təəssüf ki, bəziləri özləri üçün nəticə çıxarmırlar. Bəzi nazirliklərdən və sairədən çox qeyri-sağlam siqnallar gəlir. Məsələn, Rabitə Nazirliyindən çox narahatedici siqnallar daxil olur. Bir faktı da demək istəyirəm. Biz iqtisadiyyatı sərbəstləşdirmişik və çox çalışırdıq ki, Azərbaycana xarici investisiyalar gəlsin, xarici firmalar gəlib burada işləsinlər. Ancaq bu firmaların bəzilərinin nümayəndələri ilə görüşərkən onlar mənə nə deyirdilər? Şübhəsiz ki, hamısı ilə görüşməyə imkanım yoxdur, lakin bəzi hallarda buna imkan tapıram. Görüşən kimi deyirlər ki, biz gəlirik, təklif edirik, ancaq sizin rəhbər vəzifəli adam bu məsələnin müzakirəsindən əvvəl soruşur ki, bundan mənə nə düşəcək? Bilirsiniz, bunu xarici ölkənin nümayəndəsindən, şirkət rəhbərindən eşidəndə, elə bil alnıma güllə vururlar. Belə də vicdansızlıq, belə də namussuzluq olarmı? Sən iş gör, əgər görəcəksənsə, sənin müəssisənə də, şirkətinə də, nazirliyinə də xeyir verəcəkdir. Yəqin ki, bu xeyirdən sənin kollektivin də, özün də götürərsən. Ancaq işə başlamadan deyəsən ki, bundan mənə nə çatacaq, əvvəl de görüm, nə götürəcəyəm, mənə bu qədər ver, belə olmaz. Bir çoxları deyir ki, biz buraya gəlib yatırım, investisiya qoymaq istəyirik, amma bizdən rüşvət tələb edirlər. Rüşvət də odur ki, mənə nə qədər verirsən, vermirsənsə, çıx get. [415-416]

Mən belələrinin bəzilərini bilirəm. Bu gün adlarını çəkmək istəmirəm, araşdırılır, onların hamısını cəzalandıracağam. Ancaq hərə özü üçün nəticə çıxarmalıdır. Bu xəstəlikdən xilas olmaq lazımdır. Bu xəstəlik 1990-cı ildən Azərbaycanda yayılmışdır. Azərbaycanda rüşvətxorluq çoxdan var, bu, şübhəsizdir. Mən bunu bir neçə dəfə demişəm. 1969-cu ilin iyul ayında mən Azərbaycanın rəhbərliyinə gələndə ilk addımlarımı rüşvətxorluqla mübarizədən başlamışam. Bu salonda oturan adamların bəziləri bunun şahididir. Yəni bu

məsələyə mənim münasibətim otuz-qırx il əvvəl bildirilib və mövqeyim dəyişməmişdir. Əksinə, daha da kəskinləşmişdir. Ancaq rüşvətxorluq o vaxta nisbətən nə qədər artmışdır! Bir var ki, vəzifəyə adam qoyur, hansısa işi düzəldir, rüşvət alır. Bu da cinayətdir, dözülməzdir. Amma bir də var ki, xarici ölkənin şirkəti, nümayəndəsi gəlib burada iş görmək, Azərbaycanın iqtisadiyyatına bir balaca kömək etmək istəyir, müştərək işlə bizi bu iqtisadiyyata bağlamaq istəyir, lakin qarşısı alınır ki, yox, əgər mənə filan qədər verməsən bu iş baş tutmayacaqdır. Bundan dəhşətli nə ola bilər? Bax, belə adamlar bizim xalqımızı, millətimizi, müstəqil dövlətimizi ləkələyirlər.

Bunların hamısı ilə mübarizə aparmaq lazımdır. Güman edirəm, Nazirlər Kabineti bu işlərlə ciddi məşğul olacaqdır. Nazirlər Kabinetinin təkcə rəhbərliyi deyil, bütün tərkibi belə düşünməməlidir ki, bununla kimsə başqası məşğul olmalıdır. İndi bizim bütün həyatımız vəzifəsindən sui-istifadə etmək, ayrı-ayrı iqtisadi əlaqələrdən şəxsi mənfəət götürmək cəhdləri, rüşvətxorluq və cürbəcür başqa çirkin hallarla bağlanmışdır. Ona görə də hər addımda bunlarla ciddi mübarizə aparılmalıdır.

Yenə də qayıdıram əsas mövzuya. Bu da ondan ibarətdir ki, biz gərək iqtisadi islahatları həyata keçirək. Bir də təkrar edirəm, yardımlar da ona görə verilir ki, biz iqtisadi islahatları aparırıq. Həmin yardımlardan da istifadə etməliyik. Güman edirəm ki, Ermənistanın təcavüzü ilə əlaqədar indi Azərbaycanın daxili həyatı nə qədər çətin olsa da, bir milyondan artıq qaçqınımız olsa da, iqtisadi potensialımız da böyükdür. Bundan səmərəli istifadə etməliyik. İndi beynəlxalq təşkilatlarla apardığımız işlər, bizə həm ərzaq malları ilə göstərilən maddi yardım, həm maliyyə yardımı, həm birbaşa yardım, həm də verilən kreditlər istər maliyyə vəziyyətimizi yaxşılaşdırmağa [416-417] imkan verir, istərsə də bunlardan istifadə edərək, islahatlar keçirərək istehsalı artırmağa şərait yaradır.

Bizə maliyyə yardımı göstərilir, bilirsiniz ki, neft müqaviləsindən müəyyən qədər bonus alırıq, ona görə də müəyyən valyuta ehtiyatımız var. Buna da tam sərbəstlik vermişik. Milli Bankın sərəncamındadır. Mən bizim dar çərçivədə keçirilən müşavirələrdə demişəm, burada da demək istəyirəm, bəziləri elə düşünməsinlər ki, bütün bu kanallarla gələn valyuta adamların məvaciblərinin artırılmasına, yaxud büdcəni sağlamlaşdırmağa və sairəyə veriləcəkdir, yox. Bunun əksəriyyətindən məqsədli, yəni istehsalı artıraraq məhsul əldə etmək üçün istifadə olunacaqdır.

Belə olan halda, tutaq ki, bir yerə 10-20 milyon dollar xərc qoyub, əvəzində 40-50 milyon dollar götürəriksə, bu, səmərəli olacaq. Yoxsa ki, bu gün on milyon dolları ver, o vəziyyətini yaxşılaşdırsın, bu vəziyyətini yaxşılaşdırsın, onda biz bunların hamısını itirərik və gələn ilə heç bır şey qalmaz. Ona görə də bu məsələyə də Nazirlər Kabinetində çox ciddi baxılmalıdır və mən onlardan bu vəsaitdən istifadə edilməsi haqqında təkliflər gözləyirəm. Yenə də deyirəm, bu istifadə tam səmərəli olmalıdır. Tapşırıq verdim ki, hər bir müəssisə, birlik, şirkət, nazirlik öz təkliflərini hazırlasın. Bax, bunları hazırlayarkən nəzərdə tutmaq lazımdır ki, indi ayrı-ayrı müəssisələrin dirçəlməsi, inkişafı üçün, yeni məhsullar istehsal etməsi üçün valyuta vermək imkanımız var. Şübhəsiz ki, bu işdə özbaşınalığa yol verə bilmərik, hər şey əsaslandırılmış olmalıdır. Demək istəyirəm ki, imkanlarımız var və bunlardan səmərəli istifadə etsək, bizə gələn yardımları qısa müddətdə öz istehsalımızla, gördüyümüz işlə iki-üç dəfə artıra bilərik. Bu da Nazirlər Kabinetinin vəzifələrindəndir.

Mənim deyəcəyim bu qədər. Güman edirəm ki, bu gün sizə çatdırdığım fikirlər lazımdır, vəziyyətimizi, imkanlarımızı, məqsədlərimizi bilməlisiniz. Belə hesab edirəm ki, Nazirlər Kabineti öz fəaliyyətini gücləndirəcək, xüsusən iqtisadiyyat sahəsində qarşımızda duran vəzifələrin yerinə yetirilməsində öz yerini tutacaq, rolunu oynayacaqdır. Sağ olun. [417]

## ABŞ-ın BAKIDAKI SƏFİRLİYİ BİNASININ AÇILIŞINDA ÇIXIŞ

*4 may 1995-ci il*

Hörmətli cənab səfir Kozlariç və xanım Kozlariç!
Hörmətli səfirlər, diplomatik işçilər və rəsmi qonaqlar!

ABŞ-ın Bakıdakı səfirliyi binasının təmir olunub abadlaşdıqdan və avadanlıqla təmin edildikdən sonra açılması münasibətilə cənab Kozlariçi və səfirliyin bütün işçilərini təbrik edirəm. Mən bunu böyük hadisə hesab edirəm.

Müstəqil Azərbaycan Respublikasında ABŞ səfirliyinin açılması ölkələrimiz arasında əlaqələr üçün şübhəsiz ki, ilk və böyük addım idi. Ancaq Amerika Birləşmiş Ştatlarına layiq olan binanın əldə olunması və səfirliyin tam fəaliyyəti üçün onun lazımi səviyyəyə çatdırılması da böyük hadisədir.

Əminəm ki, səfirliyin işçiləri bu binada yerləşdikdən sonra daha səmərəli fəaliyyət göstərəcəklər. Çünki burada deyildiyi kimi, onlar üçün yüksək səviyyədə şərait yaranıbdır. Binanın hazırlanması və burada digər şöbələrlə yanaşı, kitabxana da yaradılması belə bir fikir söyləməyə əsas verir ki, səfirlik binası təkcə ABŞ-ın Azərbaycandakı diplomatik nümayəndəliyi kimi yox, həm də elm və mədəniyyət mərkəzi kimi fəaliyyət göstərəcəkdir. Əminəm ki, bundan həm Amerikanın Azərbaycana gələn vətəndaşları – güman edirəm ki, indən sonra onların sayı daha çox olacaqdır, – həm də Azərbaycan vətəndaşları istifadə edəcəklər.

Səfirliyin binasının təmiri və onun avadanlıqla təmin edilib bugünkü səviyyəyə çatdırılması üçün çox iş görülübdür. Ancaq buna çoxlu vaxt sərf olunubdur. ABŞ-da belə işləri adətən, qısa müddətdə həyata keçirirlər. Ola bilsin ki, bizim işlərimiz ləng getdiyi kimi, bu səfirliyin binasının təmiri də ləng olubdur. Ancaq hər halda işlər başa çatıb və mən bu münasibətlə cənab Kozlariçi təbrik edirəm. Bu binanı təmir edib onu belə səviyyəyə çatdıran şirkətlərin və adamların hamısına təşəkkür edirəm.

ABŞ-ın Azərbaycandakı ilk səfiri olmuş cənab Riçard Maylsın bu gün burada iştirak etməməsinə mən də təəssüflənirəm. Güman edirəm ki, o, bu çatışmazlığı özünün [418-419] Moskvadakı fəaliyyəti ilə əvəz edəcəkdir. O, ABŞ prezidenti cənab Bill Klintonun Moskvaya qarşıdakı səfəri ilə bağlı məsələlərlə məşğuldursa, güman edirəm ki, həmin səfər zamanı və cənab Bill Klintonun Rusiya prezidenti cənab Boris Yeltsinlə görüşlərində və söhbətlərində şübhəsiz ki, Azərbaycan mövzusu da öz yerini tapacaqdır. Ona görə də hesab edirəm ki, cənab Riçard Maylsın buraya gəlməməsini bağışlamaq olar.

Mən cənab Kozlariçin söylədiyi bir fikrə də öz münasibətini bildirmək istəyirəm. O dedi ki, cənab Mayls Bakıdan gedərkən buradakı ağacların qorunmasını tövsiyə etmişdir. Bu fikir mənim üçün də çox əzizdir. Bu, əhəmiyyətli məsələdir. Çünki Bakının vətəndaşları, xüsusən də 70-ci illərdə paytaxtda yaşamış adamlar yaxşı bilirlər ki, həmin vaxtlar mən burada işləyərkən şəhəri yaşıllaşdırmaq, ağac əkmək məsələsi ilə çox ciddi məşğul olurdum. Yaşıllıqların qorunması demək olar ki, dövlət səviyyəsinə gəlib çatmışdı. Bu gün iftixar hissi ilə deyə bilərəm – güman edirəm ki, buna mənim ixtiyarım var – indi Bakıda mövcud olan ağacların əksəriyyəti mənim burada işlədiyim vaxtlar bu məsələyə çox ardıcıl səy göstərməyim nəticəsində əkilibdir.

Uzun müddət Moskvada yaşadıqdan sonra mən 90-cı illərdə Azərbaycana qayıdarkən, Bakı hava limanından şəhərə gələrkən yolun kənarlarındakı ağacların boy atdığını gördükdə çox sevindim və onların hər birini öz doğma övladım kimi qəbul etdim. Çünki mən həmin ağacların hər birinin əkilməsi, becərilməsi, suvarılması məsələləri ilə şəxsən məşğul olurdum.

Təəssüf ki, son illər Bakıda o vaxt əkilmiş ağacların bəziləri qırılıb, dağıdılıb. Məsələn, şəhərin Bakıxanov qəsəbəsində o vaxtlar saldığımız yaşıllıqların dağıdılması haqqında mənə verilən məlumatı çox ürək ağrısı ilə dinlədim. Mənə dedilər ki, 1991-1993-cü illərdə onların bir çoxunu kəsib məhv ediblər, bildirdilər ki, Badamdardakı ağacları da kəsib dağıdıblar. Çox can atıram ki, gedib həmin yerlərə baxım. Şübhəsiz ki, mən bunun səbəbkarlarını axtarıb tapacağam və imkan daxilində çalışacağam ki, onlar cəzalandırılsınlar.

Bunları deməklə mən bəlkə də vaxtınızı alıram, ancaq bu, Bakı üçün çox mühüm məsələdir. Ona görə də cənab Riçard Maylsın burada bir dənə də olsun ağaca toxunulmaması barədə sizə verdiyi tövsiyə ən gözəl hallardan və fikirlərdən biri[419-420]dir. Çox şadam ki, siz cənab Maylsın bu tövsiyəsinə əməl etmisiniz. Bugünkü mərasimdə onu qeyd etməyiniz məni daha çox sevindirir. Biz bu məsələdə həmfikirik. Nə qədər siyasi plüralizm olsa da, burada fikirlərimiz eynidir.

ABŞ-ın Bakıdakı səfirliyinin bu cür şəraitdə fəaliyyət göstərməsi şübhəsiz ki, prezident Bill Klintonun Azərbaycana bəslədiyi xüsusi diqqət və marağı nümayiş etdirir.

Cənab Kozlariç qeyd etdi ki, səfirliyin binasının bu şəkildə açılışı ilə Azərbaycana dəstək verirlər. Mən də deyə bilərəm ki, Azərbaycan Respublikasının belə çətin vəziyyətində Bakıda ABŞ səfirliyi üçün bu gözəl binanın ayrılması və onun təmirinə şərait yaradılması Azərbaycan dövlətinin Amerika Birləşmiş Ştatlarına, onun xalqına olan yüksək münasibətini nümayiş etdirir. Güman edirəm ki, bu, ABŞ ilə Azərbaycan arasında mövcud olan dostluq münasibətlərinin rəmzidir. Əmin olduğumu bildirmək istəyirəm ki, ABŞ səfirliyi işləmək üçün

lazımi şərait əldə etdikdən sonra, yəni belə gözəl binada fəaliyyətini davam etdirdiyi vaxtda ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi və möhkəmlənməsi üçün daha səmərəli çalışacaqdır.

Biz ABŞ səfirliyi işçilərinin və bu ölkənin bütün nümayəndələrinin burada sərbəst fəaliyyət göstərməsi üçün lazımi şəraiti yaratmışıq və indən sonra da bunu edəcəyik.

Bu fürsətdən istifadə edib Azərbaycan dövləti adından, Azərbaycan xalqı və vətəndaşları adından Amerika xalqına, onun dövlətinə və cənab prezident Bill Klintona bir daha hörmət və ehtiramımızı bildirmək istəyirəm. Sizi bir daha təbrik edirəm və bütün işlərinizdə uğurlar arzulayıram. [420]

## 1941-1945-ci İLLƏR BÖYÜK VƏTƏN MÜHARİBƏSİNDƏ FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏNİN 50 İLLİYİNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ GECƏDƏ NİTQ

*Respublika sarayı*

*5 may 1995-ci il*

Hörmətli veteranlar, Böyük Vətən müharibəsinin qəhrəmanları! Sizi İkinci dünya və 1941-45-ci illər müharibəsində Hitler faşizmi üzərində qələbə çalınmasının 50 illik yubileyi münasibətilə təbrik edirəm, hamınıza cansağlığı, uzun ömür, səadət və bütün işlərinizdə uğurlar arzulayıram!

İkinci dünya müharibəsi bəşər tarixində ən dəhşətli müharibə olmuşdur. Bu müharibə milyonlarla insanın həlak olmasına, şəhərlərin və ölkələrin dağıdılmasına gətirib çıxarmışdır. İkinci dünya müharibəsində, 1941-1945-ci illər Böyük Vətən müharibəsində Hitler faşizmi üzərində qələbə çalınmasında Azərbaycan Respublikasının, xalqımızın, respublikamızın vətəndaşlarının böyük rolu olmuşdur. Məhz buna görə bu günlər qələbənin 50 illik yubileyini böyük iftixar hissi ilə qeyd edir və onu xalqımız üçün, müstəqil Azərbaycan dövləti üçün böyük bayram hesab edirik.

Müharibənin ilk günlərindən Azərbaycan xalqı, respublikamızın vətəndaşları da Hitler faşizminə qarşı döyüşlərə başladılar. Müharibənin ilk günlərində 40 min nəfərdən artıq Azərbaycan vətəndaşı könüllü olaraq cəbhəyə getməyə yazıldı. Həmin dövrdə 180 min adam xalq ordusuna yazılmışdır. 1941-45-ci illərdə və ondan da qabaq Azərbaycanın oğul və qızları döyüşlərdə vuruşmuş, böyük rəşadət və qəhrəmanlıqlar göstərmişlər. Həmin illərdə Azərbaycan Respublikasından 700 min nəfərə qədər adam cəbhəyə getmişdir. Onlardan 300 min nəfəri həlak olmuşdur. Azərbaycanlılar, bizim respublikadan cəbhəyə gedənlər igidliklə vuruşmuş, alman faşizminə qarşı müharibənin son gününə qədər amansız və cəsarətli mübarizə aparmış, qəhrəmanlıq nümunələri göstərərək qələbənin əldə olunmasına öz paylarını vermişlər. Respublikamızın on minlər[421-422]lə vətəndaşı, azərbaycanlılar döyüşlərdə fərqləndiklərinə, qəhrəmanlıq göstərdiklərinə görə yüksək orden və medallarla təltif edilmişlər. Azərbaycandan cəbhəyə getmiş, döyüşlərdə qəhrəmanlıq göstərmiş 130 nəfər ən yüksək ada – Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Vətəndaşlarımızın bir qismi müharibədən əlil və şikəst qayıtmış, sonralar bunun nəticəsində də həyatdan getmişdir. Bu gün bizim aramızda müharibənin ağrılarını və dərdlərini öz üzərlərində daşıyanlar da çoxdur. Bir sözlə, Hitler faşizminə qarşı müharibədə Azərbaycan xalqı, respublikamızın vətəndaşları qəhrəmanlıq, şücaət göstərmiş və tariximizə çox dəyərli səhifə yazmışlar.

Müharibənin uğurla aparılmasında və düşmən üzərində qələbə çalınmasında Azərbaycan Respublikasının xidmətləri arxa cəbhədə görülmüş işlərlə də bağlıdır. Müharibənin ilk günlərindən Azərbaycan Respublikasının bütün şəhər və kəndlərində, hər bir iş yerində insanlar qələbə naminə gecə və gündüz çalışmışlar.

Bu qələbənin çalınmasında Azərbaycanın xüsusi rolu bir də ondan ibarətdir ki, Azərbaycan Respublikasının nefti o vaxtlar həmin müharibənin uğurla aparılması üçün ən mühüm amillərdən biri olmuşdur. Həmin dövrdə Sovetlər İttifaqında çıxarılan neftin 70 faizi Azərbaycanda hasil edilirdi. Bu qədər neft Azərbaycan neftçilərinin fədakar əməyi sayəsində istehsal olunurdu. Şübhəsiz, nəticə çıxarmaq çətin deyil ki, əgər Azərbaycan nefti olmasaydı, motorlar müharibəsi, texnika müharibəsi o qədər uğurlu və müvəffəqiyyətli ola bilməzdi. Azərbaycan neftçiləri gecə-gündüz neftin çıxarılması, emal olunması və çətin yollarla cəbhəyə göndərilməsi ilə məşğul idilər. Onların hər biri bu yolda canlarını qoyaraq faşizm üzərində qələbə çalınmasında səy göstərirdi. O vaxtlar Azərbaycan alimləri tərəfindən yüksək keyfiyyətli benzin, kerosin və başqa neft məhsulları ixtira olunaraq respublikamızda istehsal edilirdi. Azərbaycan Respublikasının sənaye müəssisələri, xüsusən maşınqayırma zavodları silah və sursat istehsalı ilə məşğul idi. Müharibə dövründə Azərbaycanda 130 növ silah və sursat istehsal olunaraq cəbhəyə göndərilirdi.

Beləliklə, Azərbaycan Respublikasının vətəndaşları, azərbaycanlılar bu qələbənin çalınması üçün həm bilavasitə döyüşlərdə, həm də arxa cəbhədə çox işlər görmüş, böyük fədakarlıq nümayiş etdirmişlər.

Azərbaycanda 416-cı Taqanroq, 223-cü Belqrad, 77-ci Sim[422-423]feropol diviziyaları təşkil olunmuşdur. Şəxsi heyətinin əksəriyyəti azərbaycanlılar olan bu diviziyalar Azərbaycandan, Qafqaz dağlarından döyüşə-döyüşə Berlinə qədər gedib çıxmış və qələbənin əldə olunmasına öz paylarım vermişlər.

Mən böyük məmnuniyyət hissi ilə deyə bilərəm ki, 416-cı Taqanroq diviziyasının qəhrəmanlığını əbədiləşdirmək üçün Rostov vilayətində bu diviziyanın döyüş şücaətinə böyük abidə ucaldılmışdır. Bu abidəni Rusiya torpağında məhz Azərbaycan Respublikası, xalqımız yüksəltmişdir.

Krımda, Sapun dağında 77-ci Simferopol diviziyasının qəhrəmanlığını əbədiləşdirmək üçün böyük abidə qoyulmuşdur. Bunu da Azərbaycan Respublikası etmişdir.

Böyük Vətən müharibəsində qəhrəmanlıq göstərib həlak olmuş adamlara Azərbaycan Respublikasının hər yerində abidələr ucaldılmış, xatirə lövhələri vurulmuşdur. Onlar daim bizim qəlbimizdədir.

Biz bu gün qələbə bayramının 50 illiyini respublikamızın həyatında fəal işlər görmüş və indi bizimlə birlikdə olan insanlarla qeyd edirik. Mən çox sevinc hissi keçirirəm ki, bizim bu Respublika sarayının salonunda sinələrində orden və medallar, qəhrəmanlıq nişanları olan veteranlar toplaşıblar. Yarım əsr bundan öncə qələbə çalıb, daha 50 il yaşayıb və bu gün qələbənin 50 illiyini bayram etmək böyük xoşbəxtlikdir. Bu xoşbəxtlik sizə nəsib olubdur. Mən bu münasibətlə sizi xüsusi təbrik edirəm.

Bu müharibə haqqında çox danışmaq olar. Ancaq bu gün buna ehtiyac yoxdur. Çünki buraya toplaşanların əksəriyyəti həmin müharibəni görmüş adamlardır. Gənclərimiz isə kitablardan və filmlərdən həmin müharibənin nə qədər dəhşətli olduğunu, digər tərəfdən, insanların qəhrəmanlıq zirvəsinə yüksəldiyini bilirlər. Bu müharibədə insanlar qəhrəmanlıq və rəşadət göstərməklə yanaşı, bir-biri ilə daha sıx yaxınlaşıb dost olmuşlar. Həmin müharibədə müxtəlif millətlərin nümayəndələri iştirak etmişlər. O vaxt Sovet İttifaqının tərkibində olan respublikaların, xalqların, millətlərin hamısının nümayəndələri bu müharibədə iştirak etmiş və bu insanlar cəbhədə, döyüş meydanlarında, səngərlərdə bir-biri ilə daha da yaxınlaşmış, dost olmuşlar. Bu dostluq bizim bu günümüz və gələcəyimiz üçün çox lazımdır.

Qələbənin əldə olunmasında dünya xalqlarının, mütərəqqi qüvvələrin əvəzsiz rolu vardır. 1941-45-ci illər Böyük Vətən [423-424] müharibəsində qələbədə rus xalqının rolu yüksək qiymətə layiqdir. Rusiya Federasiyası xalqlarının, keçmiş Sovet İttifaqında yaşayan xalqların hər birinin bu müharibədə Hitler faşizmi üzərində qələbə çalınmasında fəaliyyəti və rolu var. Ona görə də bu gün burada, müstəqil Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində, qələbənin 50 illiyini qeyd edərkən mən xalqımız adından, buraya toplaşmış veteranlarımızın adından keçmiş Sovet İttifaqının bütün respublikalarının xalqlarına, rus xalqına Azərbaycan xalqının salamım, təbriklərini göndərirəm və onların hər birinə uğurlar arzulayıram.

İkinci dünya müharibəsində Hitler faşizmi üzərində qələbə faşizm əleyhinə qalxmış bütün dünya xalqlarının, dövlətlərinin ümumi və birgə səyi nəticəsində əldə olunmuşdur. Məlumdur ki, o vaxtlar əsas qüvvə "Böyük koalisiya" – Sovet İttifaqı, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya və Fransa idi. Onların birgə fəaliyyəti və faşizm əleyhinə koalisiyası bu qələbənin qazanılmasında xüsusi yer tutur.

Avropa ölkələrinin müqavimət hərəkatları, faşizm əleyhinə qalxmış insanlar, siyasi qüvvələr, döyüşçülər fədakarlıq göstərmiş, özlərini qurban verərək faşizmin qarşısını almış və onun məhv olmasına öz paylarını vermişlər. Ona görə də bu gün qələbənin 50 illiyini qeyd edərkən bütün dünya xalqlarına Azərbaycan xalqının səmimi salam və təbriklərini çatdırıram. Xüsusən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya və Fransa xalqlarına Azərbaycan xalqı adından salamlar və təbriklər göndərirəm.

İkinci dünya müharibəsinin, Böyük Vətən müharibəsinin qurtarmasından 50 il keçibdir. Bu 50 il Azərbaycan xalqının tarixində böyük və görkəmli yer tutur. Ötən 50 ildə onun müəyyən, indi bizim üçün ümumi olmayan cəhətləri ilə yanaşı, Azərbaycan xalqının həyatında böyük dəyişikliklər əmələ gəlmişdir.

Ümumiyyətlə, bu dövrdə dünyada bir çox dəyişikliklər olmuş, böyük proseslər getmişdir. Azərbaycan xalqı bu 50 ildə böyük, şərəfli yol keçmişdir. Həmin illərdə, Azərbaycan Respublikasının böyük iqtisadi, elmi, mədəni potensialı, geniş təhsil sistemi yaranmış və bu gün respublikamız ötən 50 il ərzində əldə etdiyi nailiyyətlərin əsasında yaşayır və irəli gedir. Əgər bu gün desək səhv etmərik ki, faşizm üzərində qələbədən sonra xalqımızın keçdiyi yol Azərbaycanın gələcək milli azadlığına, müstəqilliyinə gedən yol olmuşdur. Böyük [424-425] iftixar hissi ilə qeyd edə bilərəm ki, Azərbaycan xalqı öz milli azadlığına nail olub, dövlət müstəqilliyini əldə edib və Azərbaycan Respublikası müstəqil dövlət kimi dünya birliyində layiqli yerim tutubdur.

Əziz veteranlar, Azərbaycan Respublikasının müstəqilliyinin əldə olunmasında sizin böyük xidmətləriniz var. Faşizmin qarşısı məhz sizin qəhrəmanlığınızın nəticəsində alındı. Məhz sizin fədakar əməyiniz sayəsində 50 il ərzində Azərbaycan yüksək inkişaf yolu keçdi və böyük iqtisadi, intellektual potensial topladı. Bunların əsasında Azərbaycan öz müstəqilliyini əldə etdi və dünya birliyində öz yerini tutdu.

Ona görə də, əziz veteranlar, əziz həmvətənlər, bacılar və qardaşlar, sizə dövlətimiz adından və şəxsən öz adımdan hörmət və təşəkkürümü bildirirəm!

Təəssüflər olsun ki, Azərbaycanın başına son illər böyük bəlalar gəlmiş, respublikamız, xalqımız Ermənistan tərəfindən təcavüzə məruz qalmışdır. Yeddi ildir ki, müharibə gedir. Bu müharibədə də bizim böyük itkilərimiz olmuş və o, Azərbaycan xalqına böyük faciələr gətirmişdir. Azərbaycan Respublikasının ərazisinin 20 faizi işğal olunmuş, bir milyondan çox vətəndaşımız qaçqın düşmüşdür.

Eyni zamanda onu da demək lazımdır ki, Azərbaycanın igid oğulları Vətənin, ərazimizin müdafiəsində veteranlarının təcrübəsindən istifadə edərək qəhrəmanlıq nümunələri göstərmiş, həlak olmuş, canlarını qurban vermiş, şəhid olmuş, torpağımızı qorumuşlar.

Bu bayram günündə mən İkinci dünya müharibəsində alman faşizmi üzərində qələbənin əldə edilməsi naminə həlak olmuş insanların hamısının ruhu qarşısında baş əyirəm. Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü qoruyaraq həlak olmuş qəhrəman döyüşçülərimizin ruhu qarşısında baş əyirəm.

Respublikamızın düşdüyü indiki vəziyyət, Ermənistan tərəfindən ölkəmizə qarşı edilən hərbi təcavüz bizi dəvət edir ki, Böyük Vətən müharibəsinin, veteranlarımızın təcrübəsindən torpaqlarımızı, respublikamızın

müstəqilliyini qorumaq, ordumuzu möhkəmləndirmək üçün səmərəli istifadə edək. Ona görə də belə hesab edirəm ki, Böyük Vətən müharibəsi veteranlarının gənc nəslə tövsiyələrinin, onlar arasında apardıqları işin müstəqil Azərbaycan dövlətinin qurulmasında, torpaqlarımızın qorunmasında, müdafiə olunmasında əvəzsiz rolu var[425-426]dır. Əmin olduğumu bildirmək istəyirəm ki, veteranlarımız bu gün də sıradadırlar, Azərbaycan Respublikasının ərazi bütövlüyünü qorumaq üçün fədakarcasına çalışmağa hazırdırlar. Mən veteranların indiyədək gördükləri işləri yüksək qiymətləndirirəm və qarşıdakı işlərdə onlara böyük uğurlar arzulayıram.

Azərbaycan xalqı sülhsevər xalqdır. Hitler faşizminə qarşı müharibədə xalqımız sülhsevər xalq kimi sülhü, əmin-amanlığı qorumaq, bəşəriyyəti faşizmdən xilas etmək üçün döyüşə qalxmışdı. Azərbaycan xalqı bu gün də yalnız və yalnız öz ərazisini, torpaqlarını, Vətənini, dövlətinin müstəqilliyini qorumaq naminə döyüşür, vuruşur.

Biz müharibə istəmirik. Biz müharibə tərəfdarı deyilik. Biz heç kəsin torpaqlarına göz dikməmişik. Ancaq öz torpaqlarımızı da heç kəsə verməyəcəyik.

Biz Ermənistanla Azərbaycan arasında gedən müharibədə on bir ay bundan əvvəl atəşin kəsilməsi haqqında məhz sülhsevər prinsiplər əsasında saziş əldə etmişik. Biz ötən müddətdə atəşkəs rejiminə riayət edirik. Sizin qarşınızda bu gün bir daha deyirəm ki, Azərbaycan dövləti Böyük Sülh Müqaviləsi imzalananadək bu atəşkəsə riayət edəcəkdir. Biz Ermənistanla Azərbaycan arasındakı müharibəyə son qoymaq, bu münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Biz bu yolu seçmişik və bu yolla da gedəcəyik.

MDB Parlamentlərarası Məclisinin böyük nümayəndə heyəti bu gün Azərbaycana gəlibdir. Onlar bizi ziyarət ediblər. Görüşlər keçirmişik, danışıqlar aparmışıq. Qələbənin 50 illiyi bayramını onlar bu gün burada bizimlə birlikdə qeyd edirlər. Bu salondadırlar. Mən onları salamlayıram. Azərbaycan xalqı adından, sizin adınızdan bu qələbə münasibətilə onları təbrik edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, onların fəaliyyəti bölgədə sülhün, əmin-amanlığın bərpa olunmasına yönəldiləcəkdir və onlar da Azərbaycanın bu sülh məramlı siyasətinin uğurla sona çatmasına çalışacaqlar.

Biz atəşkəs rejiminə riayət edəcəyik. Biz sülh istəyirik. Ancaq sülh yalnız və yalnız Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması, ölkəmizin dövlət sərhədlərinin, müstəqilliyinin və suverenliyinin toxunulmazlığı şərtləri əsasında ola bilər. Biz bu şərtlər əsasında danışıqlar aparırıq və aparacağıq. Güman edirəm ki, bütün dövlətlər, bu işə qoşulmuş [426-427] bütün beynəlxalq təşkilatlar da bu məsələlərə daim ədalətlə yanaşacaq, respublikamızın vəziyyətini anlayacaqlar, biləcəklər ki, biz məhz bu prinsiplər əsasında regionumuzda uzunmüddətli sülhün təmin olunmasına çalışacağıq.

Mən bu gün bir qrup veterana qələbənin 50 illiyi münasibətilə təsis olunmuş medallar təqdim etdim. Bu medalları alarkən onların hamısı eyni sözlər dedilər: gün o gün olsun ki biz yeni bır qələbəni qeyd edək və onu bayram edək. Mən də belə fikirdəyəm.

Gün o gün olsun ki, Azərbaycan torpaqları işğalçılardan azad olsun!

Gün o gün olsun ki, işğal olunmuş torpaqlardan qaçqın düşmüş Azərbaycan vətəndaşları öz evlərinə, yurdlarına obalarına qayıtsınlar!

Gün o gün olsun ki, Azərbaycanın ərazi bütövlüyü tamamilə, əbədi olaraq təmin edilsin! Bir daha qeyd edirəm, biz bunların hamısına sülh yolu ilə nail olmaq istəyirik. Mən əminəm ki, biz buna nail olacağıq. Əminəm ki, o gün gəlib çatacaq. Əminəm ki, biz belə bir bayramı qeyd edəcəyik.

Əziz veteranlar!

Əziz bacılar, qardaşlar!

Sizin hamınızı bir daha səmimi-qəlbdən təbrik edirəm. Hər birinizi, müharibə veteranlarmı qucaqlayıram, öpürəm, sizə öz hörmət və ehtiramımı bildirirəm. Hamınıza cansağlığı, xoşbəxtlik, uzun ömür arzulayıram. Sağ olun. [427]

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN BƏYANATI

Azərbaycan Respublikası məcburən cəlb edildiyimiz müharibənin ağır nəticələrinə, respublika ərazisinin iyirmi faizindən çoxunun işğal edilməsinə və bir milyondan çox azərbaycanlının doğma torpaqlardan qovulmasına və qaçqın vəziyyətinə düşməsinə baxmayaraq həmişə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə, siyasi yolla aradan qaldırılmasına tərəfdar olmuşdur.

Sərhədlərin toxunulmazlığı, dövlətlərin ərazi bütövlüyü haqqında BMT nizamnaməsinin tələbləri və ATƏT-in prinsipləri, müharibə qurbanları haqqında beynəlxalq konvensiyalar, bizim fikrimizcə, münaqişəyə son qoyulması və onun ağır nəticələrinin aradan qaldırılması üçün etibarlı əsasdır.

Azərbaycan Respublikası bu prinsipial mövqeyi əsas tutaraq, habelə Rusiya Federasiyasının prezidenti Boris Yeltsinin, MDB-nin Parlamentlərarası Assambleyasının, ATƏT-in indiki sədarətinin, Beynəlxalq Qırmızı Xaç Komitəsi sədrinin və başqa nüfuzlu beynəlxalq təşkilatların müraciətlərinə səs verərək Ermənistan-Azərbaycan cəbhəsində atəşkəs haqqında saziş bağlanmasının ildönümündə Azərbaycan ərazisindəki bütün hərbi əsirləri, digər əsaslarla tutulub saxlanmış Ermənistan Respublikası vətəndaşlarını və milliyyətcə erməni olan başqa şəxsləri birtərəfli qaydada azad edir.

Biz həmçinin təəssüfləndiyimizi bildiririk ki, Beynəlxalq Qırmızı Xaç Komitəsi Ermənistan ərazisində və Azərbaycan torpaqlarının işğal edilmiş hissəsində olan yüzlərlə azərbaycanlı girovu və hərbi əsiri Azərbaycan tərəfinin təqdim etdiyi siyahılar üzrə hələ də müəyyənləşdirə bilməmişdir.

Biz ümidvar olduğumuzu bildiririk ki, Ermənistan tərəfi bu işin aparılması və tutulmuş bütün azərbaycanlı vətəndaşların azad edilməsi üçün lazımi şərait yaradacaqdır.

Azərbaycan Respublikası Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına tərəfdar olduğunu bir daha təsdiq edir və ümidvar olduğunu bildirir ki, onun atdığı humanist addımlar tezliklə sülh əldə edilməsinə kömək göstərəcəkdir.

**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, *12 may 1995-ci il* [428]

**AZƏRBAYCANIN ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ, YAZIÇI MAQSUD İBRAHİMBƏYOVA**

Hörmətli Maqsud!

Sizi – müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini, respublikamızda və onun hüdudlarından çox-çox kənarlarda tanınmış gözəl yazıçı və kinodramaturqu 60 illik yubileyiniz münasibətilə təbrik edirəm.

XX əsr Azərbaycan ədəbiyyatının inkişafında Siz öz yaradıcılığınızla yeni bir ədəbi istiqamətin əsasını qoyanlardan birisiniz. Ədəbiyyatımızın dünya miqyasında yayılması və sevilə-sevilə oxunmasında Sizin çox böyük payınız vardır. İki mədəni fəzanın, iki dilin qovuşduğu bir məkanda yaşayan qəhrəmanlarınız Azərbaycan nəsrinə yeni ab-hava gətirmişlər. Onlar müasir olduqları qədər millidirlər. Məhz buna görə də Sizin yaradıcılığınız heç kimi laqeyd qoymamışdır.

Azərbaycan kinematoqrafiyasının inkişafında da Sizin xidmətləriniz böyükdür. Dünyanın teatr səhnələrində və kino ekranlarında yeni həyat qazanmış əsərləriniz sərt gerçəkliyi real əks etdirməklə yanaşı hər bir insanda sabaha inam, yüksək ideallara sədaqət tərbiyə edir.

Əminəm ki, bundan sonra da Siz müstəqil Azərbaycanın gələcəyi naminə fədakarcasına yazıb-yaradacaq, ədəbiyyatımızın inkişafı və onun dünya miqyasında təbliği üçün əlinizdən gələni əsirgəməyəcəksiniz. Bu yolda Sizə cansağlığı və uğurlar diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*14 may 1995-ci il* [429]

## GÖRKƏMLİ AZƏRBAYCAN YAZIÇISI VƏ KİNODRAMATURQU MAQSUD İBRAHİMBƏYOVUN 60 İLLİK YUBİLEYİ GECƏSİNDƏ ÇIXIŞ

*"Gülüstan" sarayı*

*14 may 1995-ci il*

Hörmətli Maqsud!
Hörmətli qonaqlar, xanımlar və cənablar!

Ölkəmiz və xalqımız üçün əlamətdar bir hadisə – Maqsud İbrahimbəyovun anadan olmasının 60 illiyi münasibətilə sizi bu gün burada, "Gülüstan" sarayında ürəkdən təbrik edirəm. Bu gün burada başqa yerlərdən gəlmiş qonaqlar da iştirak edirlər, ona görə də çıxışımı rus dilində başladım. Azərbaycanda rus dilini yaxşı bilirlər, amma bizim doğma dilimiz Azərbaycan dilidir. Bu gün ədəbiyyat gecəsi, mədəniyyət gecəsidir. Ədəbiyyat və mədəniyyətimizdə isə dilin yeri əvəzsizdir.

Hörmətli Maqsud, hörmətli xanımlar və cənablar, hörmətli qonaqlar!

Bu gün doğrudan da çox əlamətdar bir gündür. Biz Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin görkəmli nümayəndəsi, böyük ictimai-siyasi xadim, respublikamızın həyatında, xalqımızın qarşısında böyük xidmətləri olan Maqsud İbrahimbəyovun 60 illik yubileyini qeyd edirik.

Mən prezident kimi, Maqsud İbrahimbəyovu rəsmi təbrik etmişəm və onun respublikamızın ən yüksək mükafatı olan "Şöhrət" ordeni ilə təltif olunması haqqında fərman imzalamışam. Yəni dövlət tərəfindən, rəsmi tərəfdən həm təbrik, həm təltif artıq ictimaiyyətə məlumdur. Ancaq mən bu gün buraya Maqsudun dəvəti ilə gəlmişəm. Məhz ona görə ki, bu, təkcə Maqsudun yubileyi deyil, bizim Azərbaycan xalqının, Azərbaycan Respublikasının mədəniyyətinin, ədəbiyyatının həyatında xoş gündür, əlamətdar gündür, deyə bilərəm ki, tarixi gündür.

Biz xalqımızın tarixi, keçmişi ilə, əldə etdiyi nailiyyətlərlə həmişə fəxr edirik. Bu sahədə xalqımızın tarixində ən görkəmli yeri mədəniyyət, ədəbiyyat tutur. Çoxəsrlik tariximizdə məhz mədəniyyət, ədəbiyyat, incəsənət xalqımızı çətin yollarla [430-431] bu günə gətirib çıxarıbdır və xalqımızın mənəviyyatını, zənginliyini dünyaya nümayiş etdirib, dünya xalqlarına çatdırıbdır. Keçmişdə də, indi də xalqımız, respublikamız ən çox öz mədəniyyəti, ədəbiyyatı, öz intellektual səviyyəsi ilə dünyada tanınır. Məhz buna görə də bugünkü məclis xüsusi xarakter daşıyır.

Doğrudur, bizim adət-ənənəmizə görə indiyə qədər belə yubileylər bir formada keçirilibdir. Müəyyən bır stereotip formalaşıbdır. Ancaq həyat inkişaf edir, bizə yeniliklər gətirir. Bu gün biz yubileyi keçmişdə olan ənənə kimi yox, Maqsudun təşəbbüsü ilə bu formada keçiririk. Mənə belə gəlir ki, bunun da özünə görə həm əhəmiyyəti var, həm də, deyə bilərəm, ləzzəti var. Məhz bu günü, bu yubiley gecəsini mən bütün ədəbiyyatımız üçün, bütün mənəviyyatımız üçün, bütün mədəniyyətimiz üçün böyük bir gün hesab edərək buraya gəlmişəm və Maqsudla, onun dostları, qonaqları ilə bərabər bu günü qeyd edirəm.

Maqsud İbrahimbəyovun xidmətləri böyükdür. Ədəbiyyatımızda, incəsənətimizdə onun özünəməxsus yeri var. Ədəbiyyatımızın, incəsənətimizin, mədəniyyətimizin ən böyük və fərqləndirici xüsusiyyətlərindən biri də odur ki, zaman-zaman istedadlı insanlar mədəniyyətimizdə yeni yollar, yeni cığırlar açırlar, yeni formalar meydana gətirirlər. Məhz bunlardan biri də Maqsud İbrahimbəyovdur. Onun yaradıcılığı, əsərləri özünəməxsus formada, məzmunda, mənadadır və bizim başqa yaradıcı adamlarımızın əsərlərindən fərqi onun məhz bu xüsusiyyətlərindədir.

Maqsud haqqında, onun yaradıcılığı haqqında çox söz demək olar. Mən bu gün onun yaradıcılığına təhlil vermək istəmirəm. Ancaq onun əsərləri bizim həyatımızı, reallığımızı, yaşadığımız dövrü həqiqi əks etdirən əsərlərdir. Maqsud İbrahimbəyovun və onunla bərabər Rüstəm İbrahimbəyovun ictimaiyyətə tanınması dövrü, onların ədəbiyyatda, mədəniyyətimizdə ilk addımları mənim yaxşı xatirimdədir. Bunlar adi deyildi. Müəyyən qədər qeyri-adi idi. Bəzən də mövcud formalara uyğun gəlmədiyinə görə birmənalı qəbul olunmurdu. Hətta bir vaxt bu qardaşlar dissident kimi tanınırdılar. Yəni bunlar dissident deyildi. Azərbaycanda heç vaxt dissident olmayıbdır. Mənə Moskvada istefada olduğum vaxt bir sual verdilər. Ağır dövrdə olduğum vaxt – 1989-cu ildə bir müxbir mənimlə müsahibə aparırdı. O zaman mənə çox böhtanlar yağdırırdılar. [431-432]

O vaxtlar kim dissident olub, kim olmayıb məsələsi dəbdə idi. Məndən soruşdular ki, siz rəhbərlik etdiyiniz vaxt Azərbaycanda dissidentlər vardımı? Mən dedim yox idi. Dedilər nə üçün? Dedim ki, sadəcə olaraq biz onları axtarmırdıq. Əgər doğrudan da biz o vaxt dissident axtarmaq istəsəydik elə Maqsud İbrahimbəyovu da, Rüstəmi də dissident kimi damğalamaq olardı. Bəziləri də bunları belə damğalayırdılar və bu cür qələmə verirdilər. Ancaq bunlar heç vaxt dissident olmayıblar. Azərbaycanın mədəniyyətində, incəsənətində, ədəbiyyatında həmişə öz görkəmli yerlərini tutublar, bizim xalqımız, yaşadığımız dövr, o

zamanlar, o illər üçün və bu gün, gələcək üçün çox dəyərli əsərlər yaradıblar. Həmin əsərlər bu gün də çox maraqla oxunur, sabah da oxunacaq, güman edirəm ki, gələcək nəsillər də bu əsərləri oxuyaraq 60-cı, 70-ci, 80-ci illərdə Azərbaycan xalqının həyatının nə cür olduğunu çox yaxşı dərk edə biləcəklər.

Maqsudun yaradıcılığı – bilirsiniz, Maqsud deyəndə Rüstəm də yada düşür. Çünki bunların yaradıcılığı, həyat yolu da bir-birinə çox bənzəyir. Ancaq bu gün mən yalnız Maqsud haqqında deyirəm, amma Maqsud ilə Rüstəmin yaradıcılıq yolu bir-birinə çox yaxındır, eyni vaxtda başlayıblar, qardaşdırlar – məhz ona görə xüsusi əhəmiyyət kəsb edir ki, onlar həmin bu illərin həqiqətini, bir daha qeyd edirəm, açıq-aydın əks etdirirlər. Həqiqət də bizim həyatımızın həm dəyərli cəhətləri idi, müsbət cəhətləridir, həm də şübhəsiz ki, həyatımızın, ictimaiyyətin, cəmiyyətin mənfi, neqativ cəhətləridir. Bu baxımdan Maqsudun və Rüstəmin yaradıcılığı ədəbiyyatda, deyə bilərəm ki, mənim siyasətdə ilk dəfə fəaliyyətə başlayarkən atdığım addımlara bənzəyir.

İndi biz Maqsudun 60 illik yubileyini qeyd edirik. 60-cı illər mənim xatirimdədir. Maqsud 25-30 yaşında gənc oğlan idi. Rüstəm bundan da gənc idi. Yaradıcılıqda ilk addımlar atırdılar. 1969-cu ildə mən Azərbaycan Respublikasına rəhbərlik etməyə başladım. Bunlar o vaxt gənc yazıçılar, ədəbiyyatımızın gənc nəslinin nümayəndələri idilər. Bu yolu 30 il bir yerdə keçmişik. İndi mən Maqsuda baxanda onu yenə gənc hesab edirəm. Çünki mənim yaddaşımda o dövr qalıbdır ki, o vaxtlar Yazıçılar İttifaqı ilə, yazıçılarla məşğul olanda deyirdik gənc yazıçılarla ayrı görüşək. Xatirimdədir. Yazıçılar İttifaqının qurultayları ərəfəsində bir ittifaqın rəhbərliyi ilə, bir də gənc yazıçılarla görüşürdük. Gənc yazıçılar Maqsud idi, Rüstəm idi, [432-433] başqaları idi – ona görə də bunlar mənim üçün elə gənc qalıblar. İndi mən təsəvvür edə bilmirəm ki, Maqsudun 60 yaşı var və biz də gəlmişik bunu qeyd edirik. Amma eyni zamanda bu onu göstərir ki, 60 yaş da böyük bir yaş deyil. Elədirmi? Sən necə hiss eləyirsən özünü?

**Maqsud İbrahimbəyov:** Hiss edirəm ki, lap cavanam.

**Heydər Əliyev:** Bu illəri bir yerdə yaşamışıq, bir yerdə keçmişik. Düzdür, müəyyən vaxt ayrı da düşmüşük. Ancaq Maqsudun yaradıcılığının, ictimai fəaliyyətinin, bütün insanı keyfiyyətlərinin xüsusiyyəti bir də ondan ibarətdir ki, o, yolunu həmişə düz gedib. Əgər belə bir söz desəm inciməz, – yolunu azmayıbdır, yolundan çıxmayıbdır. Öz əqidəsini heç vaxt hansı bir konyuktur səbəblərə görə dəyişməyibdir.

Bu dövr çox mürəkkəb, böyük ictimai-siyasi proseslər dövrüdür.

Təsəvvür edin, 60-cı ildə biz hansı bir şəraitdə, 70-ci ildə hansı şəraitdə, 80-ci ildə hansı şəraitdə yaşayırdıq. İndi 95-ci ildir. Başqa bir şəraitdə yaşayırıq. Bu dövrdə Azərbaycanın başına böyük bəlalar gəlibdir. Respublikamızın daxili həyatında çox ciddi ictimai-siyasi proseslər gedib. Bu proseslərin bəziləri ölkəmizə çox böyük ziyan, zərər vurubdur. Respublikamız yeddi il bundan öncə müharibəyə cəlb olunubdur. Ermənistan Azərbaycana təcavüz edibdir. Müharibə başlayıbdır. Biz indi də müharibə şəraitində yaşayırıq. Düzdür, bir il tamam olub ki, biz atəşi kəsmişik. Bir ildir xalqımız sülh içində yaşayır. Bir ildir atəş yoxdur. Bir ildir güllə səsi eşidilmir. Bir ildir şəhidlər gəlmir. Bu son dövrdə əldə etdiyimiz nailiyyətdir. Ancaq eyni zamanda biz müharibəni sona çatdıra bilməmişik, işğal olunmuş torpaqlarımızı geri qaytara bilməmişik. Bir milyondan artıq vətəndaşımız işğal olunmuş torpaqlardan qaçqın düşüb. Başımıza çox bəlalar gəlibdir. 1990-cı ilin yanvar faciəsi böyük bəladır. Ondan öncəki illərdə Azərbaycan Respublikasının başına gələn bəlalar, Ermənistanın təcavüzü başlanan vaxtdan sonrakı dövr...

Bəli, həyatda çox dəyişikliklər olubdur. Adamlar bu cürbəcür ictimai-siyasi proseslərin təsiri altında bəzən o tərəfə də, bu tərəfə də əyiliblər. Külək o tərəfə əsəndə ora, bu tərəfə əsəndə bura dönüblər. Ancaq insanların çoxu, o cümlədən xüsusən Maqsud kimi insanlar heç vaxt yolunu dəyişdirməyiblər, həqiqəti heç vaxt unutmayıblar, həqiqətə həmişə həqiqət [433-434] kimi baxıblar. Bilirsiniz, xasiyyətdə, ictimai həyatda, yaradıcılıqda sabitlik çox böyük xüsusiyyətdir. Özünəməxsus xarakterini qoruyub saxlamaq çox böyük bir keyfiyyətdir. Bunlar hamısı Maqsuda xas olan xüsusiyyətlərdir. Məhz buna görə də Maqsud sevilir, Maqsud tanınır, Maqsud hörmətə malikdir.

Maqsudun yaradıcılığının xüsusiyyəti bir də ondan ibarətdir ki, o, əsərlərini rus dilində yazır. Bizim içərimizdə elə adamlar var ki, bəzən deyirlər, əgər bu rus dilində yazırsa, Azərbaycan yazıçısı deyil. Şübhəsiz ki, bu, yanlış fikirlərdir. Bunlarla razılaşmaq olmaz. Əgər biz bununla razı olsaq, gərək deyək ki, Nizami Gəncəvi də Azərbaycan şairi deyil və yaxud Nəsimi də azərbaycanlı deyil. Bu il biz böyük şairimiz Məhəmməd Füzulinin 500 illiyini qeyd edirik. Onun türk dilində, yəni Azərbaycan dilində də yazdığı əsərlər çoxdur. Ancaq eyni zamanda fars, ərəb dillərində də çox yazıbdır. Mən hesab edirəm ki, qanı ilə, canı ilə, ruhu ilə, qəlbi ilə azərbaycanlı olub, başqa dildə əsər yazıb Azərbaycanı başqa dilli adamlara yazdıqları ilə tanıtdırmağın özü də bir nailiyyətdir, böyük bir xüsusiyyətdir. Xüsusən o dövrdə ki, biz Sovetlər İttifaqının tərkibində idik. Ümumi bir millətlərarası dilimiz var idi – rus dili. Bu dili Azərbaycanda demək olar ki, çoxları yaxşı bilirlər.

Bilirsiniz, yaradıcılığa bir peşə kimi baxmaq olmaz. Yaradıcılıq fitri istedadla bağlıdır. Şair olmaq, yazıçı olmaq, bəstəkar olmaq, musiqiçi olmaq – bunları oxumaqla öyrənmək olmaz. Mən bilirəm ki, Maqsud da, Rüstəm də ədəbiyyat institutunu bitirməyiblər. Bunlar ikisi də mühəndis olub. Ancaq fitri istedadlarına görə yazıçılıq yoluna, ədəbiyyat, mədəniyyət, incəsənət yoluna düşüblər və içindən gələn bu fitri istedadı rus dilində ifadə etmək, Azərbaycan həyatını, Azərbaycan gerçəkliyini, reallığını rus dilində vermək özü də asan iş deyildir.

Bu da xüsusi bir keyfiyyətdir. Ona görə mən bunu da qeyd edirəm. Tək Maqsud deyil – ədəbiyyatımızda belə görkəmli şəxsiyyətlər yenə var – onları həmişə mən böyük hörmət və ehtiramla qəbul etmişəm. Bir oxucu kimi, siyasət adamı kimi heç vaxt seçməmişəm ki, bu hansı dildə yazır.

İndi biz müstəqil bir dövlətik. Müstəqil Azərbaycan Respublikası bizim ən böyük tarixi nailiyyətimizdir. Əminəm ki, biz müstəqil Azərbaycan dövlətini yaşadacağıq, irəliyə aparacağıq. Bizim indiyə qədər yaranmış intellektual potensialımız, iqtisadi potensialımız, insanlarımızda indiyə qədər yaran[434-435]mış olan qüdrət, cəsarət müstəqil Azərbaycanı yaşadacaq, nəsillərdən nəsillərə verəcəkdir. Ona görə də biz Azərbaycan dilinin inkişafına xüsusi fikir veririk. O vaxtlar da xüsusi fikir verilirdi. Əgər elə olmasaydı, Azərbaycan dilində belə zəngin ədəbiyyatımız yaranmazdı. Ancaq bununla yanaşı, o dövrdə biz İttifaqda olanda bir ümumi dil – rus dili var idi. Bu dildə yazıb Azərbaycanı təbliğ etmək, Azərbaycanın reallığını bildirmək, Azərbaycanı tanıtmaq çox böyük bir iş idi.

Xatirimdədir, Mən Moskvada, Kremldə işləyəndə Maqsud xahiş elədi, onunla görüşdüm. Mənə öz kitabını hədiyyə verdi. O vaxt Yuqoslaviyadan, böyük bir səfərdən qayıtmışdım. Mənə dedi ki, Yuqoslaviya prezidentinin xanımı onun bu kitabının serb dilinə tərcüməçisidir. Bu məndə böyük bir iftixar hissi oyatdı. Moskvada Kremldə oturmuşam, Maqsud İbrahimbəyovla söhbət edirəm. O, əsər yazıbdır, bu əsəri Yuqoslaviyada serb dilinə tərcümə ediblər. Tərcümə edən də Yuqoslaviyanın dövlət başçısının xanımıdır, – bunlar adi şeylər deyildir. Bu barədə çox xatirələr var, saatlarla demək olar. Ancaq mən bir neçəsini yada salaraq Maqsudun həyat yolunun, yaradıcılığının nə qədər zəngin olduğunu bir daha qeyd etmək istəyirəm.

Burada bir çıxışda dedilər "bakılı", "bakinets". Maqsud əsərlərinin əksəriyyətini Bakı şəhərinin həyatının təsvirinə həsr edibdir. Ancaq doğrudan da belədir ki, Bakıda hamı bakılıdır. Təkcə Bakıda anadan olanlar, əsli-kökü buradan olanlar deyil, hamı bakılıdır. Bakı elə bir şəhərdir ki, Azərbaycanda yaxşı nə varsa, hamısını özünə çəkmişdir. Ona görə də "bakılı" sözünü məhz bu mənada başa düşmək lazımdır. Bunu təhrif etməyə, ondan cəmiyyətimizdə, dövlətimizdə, müstəqil Azərbaycanımızda hansısa bir təbəqələşmə yaratmaq üçün istifadə etməyə yol vermək olmaz.

Biz bu gün burada, "Gülüstan" sarayına toplaşmışıq. Bakılıların yadındadır, bir vaxtlar bura qəbiristanlıq idi. Özü də bura "Çəmbərəkənd" deyirdilər. Xatırimdədir, gənc vaxtlarımda mən burada yaşayarkən biri qocalanda, özünü pis hiss edəndə deyərdi vaxtım çatıbdır, Çəmbərəkəndə gedəcəyəm. Bakıda qədimdən yaşayan adamlar bunu bilirlər. O vaxtlar mən gənc idim, bilmirdim "Çəmbərəkəndə gedəcəyəm" nə deməkdir.

Bəli, bura qəbiristanlıq olubdur. İnsanları gətirib burada dəfn edirmişlər. Amma indi görürsünüz nə qədər abad bir [435-436] yerdir. Qəbiristanlıq olan yerdə indi "Gülüstan" sarayıdır. Qəbiristanlıq olan yerdə indi gözəl otellərdir. Qəbiristanlıq olan yerlər indi dağüstü parkdır. Qəbiristanlıq olan yerdə indi gözəl binalardır. Bunların hamısı bakılıların, Bakıda yaşayan Azərbaycan vətəndaşlarının zəhməti, əməyi ilə yaranıbdır.

Bakını böyük bir tarixi dövrdə nəsilbənəsil insanlar tikib, yaradıb, bugünkü günə gətirib. Bizim Bakı gözəl bir şəhərdir. Ancaq gələcəyi bundan da gözəldir. İndiyə qədər Bakını tikib, qurub yaradanlara biz minnətdarlığımızı bildiririk. Ancaq mən tam ümidvaram ki, bundan sonra gələn nəsillər Bakını, bütün Azərbaycanı daha da gözəl, daha da dəyərli, daha da firavan edəcəklər.

Ona görə də biz azərbaycanlıyıq. Biz bakılıyıq. Biz müstəqil Azərbaycanın vətəndaşlarıyıq. Biz hamımız birik. Hamımız bir olaraq bu ağır imtahanlardan, ağır sınaqlardan çıxa bilərik. Mədəniyyətimizin, incəsənətimizin, ədəbiyyatımızın yaratdığı mənəvi dəyərlər əsasında hamımız birləşərək tutduğumuz uzun, böyük yolu müvəffəqiyyətlə gedə bilərik. Yolumuz ağırdır, çətindir. Amma inanıram ki, yolumuz bizi çox xoşbəxt gələcəyə aparır. Müstəqil Azərbaycanın böyük gələcəyi var. Mən bu gələcəyə inanıram. Mən bu gələcəyə ümidlə yaşayıram. Mən bu gələcək naminə Azərbaycan vətəndaşlarının hamısını birliyə və bu uzun yolu bir yerdə getməyə dəvət edirəm. Bu baxımdan buradakı toplantı, gecə, mənə belə gəlir ki, hamımızın mənəviyyat, incəsənət, ədəbiyyat, mənəvi dəyərlər üzərində birləşməyimiz üçün yaxşı bir addımdır.

Maqsud, mən səni təbrik edirəm. Sənə və sənin xanımına, sənin qardaşına, qohumlarına cansağlığı, xoşbəxtlik arzu edirəm və ümidvaram ki, sən Azərbaycan xalqı üçün, Azərbaycan Respublikası üçün, müstəqil Azərbaycan üçün yeni dəyərli əsərlər yazacaqsan, bizi sevindirəcəksən və gün olacaq ki, sənin gələcək yubileylərinə də biz böyük iftixar hissi ilə, məmnuniyyətlə gələcəyik. Sənin yaradıcılığına mən çox yüksək qiymət verirəm. Sənə böyük gələcək fəaliyyətlər arzulayıram. Sağ olun. [436]

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ JAK ŞİRAK CƏNABLARINA**

Hörmətli cənab prezident!

Sizi Fransa Respublikasının prezidenti seçilməyiniz və bu vəzifəni icra etməyə başlamağınız münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə uzun ömür, cansağlığı və işlərinizdə müvəffəqiyyət arzulayıram.

Parisdə keçirilən, Avropada İkinci dünya müharibəsinin başa çatmasının 50 illik yubileyinə həsr olunmuş bayram şənliklərində iştirak etməyimi və Sizinlə şəxsən görüşüb tanış olmağımı məmnuniyyətlə xatırlayıram.

Biz Fransa ilə dostluq və əməkdaşlıq əlaqələrinə xüsusi fikir veririk. Əminəm ki, xalqlarımız və dövlətlərimiz arasındakı bu səmimi əlaqələr bundan sonra da inkişaf edəcəkdir.

Sizə və böyük Fransa xalqına dərin hörmət və ehtiramımı bildirirəm. Xalqınıza və dövlətinizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*15 may 1995-ci il* [437]

## ZƏVVARLARIN HƏCC ZİYARƏTİNDƏN QAYITMASI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ NİTQ

*Səttarxan adına maşınqayırma zavodu*

*20 may 1995-ci il*

Hörmətli bacılar və qardaşlar.
Hörmətli həmvətənlərimiz!

Mən bu gün burada, Səttarxan adına maşınqayırma zavodunda sizinlə görüşməyimdən çox məmnunam. Hamınızı səmimi qəlbdən salamlayır, sizə xoşbəxtlik və səadət arzu edirəm.

Bizim bu gün buraya toplaşmağımızın əsas səbəblərindən biri Azərbaycandan Məkkəyə və Mədinəyə getmiş, İslam aləminin müqəddəs yerlərini ziyarət etmiş, Həcc ziyarətindən qayıtmış vətəndaşlarımızla görüşməkdir. Müstəqil Azərbaycan dövlətinin həyatında çox əlamətdar haldır ki, xalqımız dininə öz münasibətini sərbəst ifadə edir və uzun illərin həsrətindən sonra ölkəmizin istənilən vətəndaşı tamamilə sərbəst olaraq İslam aləminin müqəddəs yerlərini ziyarət edə bilər. Son illərdə Azərbaycandan həmin yerləri çoxlu adam ziyarət etmişdir. Bu, bizim müstəqilliyimizin və mənəviyyatımızın dirçəlməsi rəmzidir. Bu il də beş yüz nəfər Azərbaycan vətəndaşı Məkkəyə və Mədinəyə getmiş, Kəbəni, İslamın müqəddəs yerlərini ziyarət etmiş, müsəlmanlıq borclarını vermiş və öz arzularına çatmışdır. Həmin şəxslərin böyük bir qrupu indi buradadır. Əziz hacılar, əziz həmvətənlərimiz, sizi bu mübarək işinizə və çox gözəl ziyarətinizə, müqəddəs yerləri ziyarət edib mənəviyyatca daha da saflaşdığınıza və yüksəldiyinizə görə təbrik edirəm, hamınıza cansağlığı və xoşbəxtlik arzu edirəm.

İslam bu dinə itaət edənləri həmişə mənəvi saflığa, ədalətə, düzlüyə, bütün müsbət keyfiyyətləri özündə toplamağa dəvət edir. Müqəddəs kitabımız Qurani-Kərimin ayələri, surələri və bütün yazılarının hamısı İslam aləminin nə qədər böyük mənəvi potensiala malik olduğunu göstərir. Əsrlərdən-əsrlərə keçən adət-ənənələr İslam dininin insanlar üçün əhəmiyyətli və zəruri olduğunu sübut edir. Hesab edirəm ki, müqəddəs Quranımızdan və İslam dininin tələblərindən hər bir şəxs, hər [438-439] bir müsəlman bəhrələnəcək, cəmiyyətdə layiqli yer tutacaq, Vətəninə, xalqına, insanlara gərəkli xidmət edəcək və şübhəsiz ki, arzularının hamısına çatacaqdır.

Buna görə də İslam dünyasının müqəddəs yerlərini ziyarət edib Azərbaycana qayıdan soydaşlarımızla bu gün görüşərkən fürsətdən istifadə edərək bütün vətəndaşlarımıza, Azərbaycandakı bütün müsəlmanlara bir daha müraciət edirəm ki, bu əxlaqi normalara, adət-ənənələrə hər kəs riayət və hörmət etsin, ona sadiq olsun. Ən çətin dövrlərdə bu, həmin adamları hifz edəcək, onları qoruyacaq, hər bir insana xoşbəxtlik bəxş edəcəkdir. Ancaq bunlara həqiqətən sidq ürəkdən riayət etmək lazımdır. Güman edirəm ki, biz ilbəil öz mənəvi dəyərlərimizə, adət-ənənələrimizə qayıdaraq, hər yerdə milli, dini ənənələrimizi bərqərar edərək ölkəmizdə, cəmiyyətimizdə buna nail ola biləcəyik. Əminəm ki, din xadimləri də, möminlər də, o cümlədən Həcc ziyarəti edən şəxslər də bu məsələlərdə fəal iştirakçı olacaq, xalqımızın mənəvi cəhətdən saflaşmasına, yüksəlməsinə, mətinləşməsinə öz səylərini göstərəcəklər.

Bu, bizim üçün çox lazımdır. Çünki bilirsiniz ki, Azərbaycan artıq yeddi ildir Ermənistan tərəfindən təcavüzə məruz qalmışdır. Bunun nəticəsində Azərbaycana böyük fəlakətlər üz vermiş, çoxlu itkilərimiz olmuşdur. Şəhid olanlarımız vardır. Ərazimizin, torpaqlarımızın təxminən 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Elimizin-obamızın o gözəl yerlərindən vətəndaşlarımız didərgin düşmüş, dağlarımızın qoynunda, bulaqlarımızın başında əsrlər boyu yaşamış soydaşlarımız qaçqın və köçkünə çevrilib, ağır şəraitdə yaşayırlar.

İqtisadiyyatımızda, sosial həyatımızda çətinliklərimiz var. Bunlar həm müharibə, həm də bir sistemdən başqa sistemə keçidlə əlaqədardır. Yəni cəmiyyətimiz, ölkəmiz, xalqımız öz tarixinin çətin mərhələsini yaşayır. Belə bir dövrdə hər kəs gərək çalışsın ki, cəmiyyətə, ölkəyə mümkün qədər çox fayda versin. Öz qonşusunu da, həmkarını da, dostunu və qardaşını da bu işə cəlb etsin. Dinə xidmət edən, Həcc ziyarəti etmiş adamlar, İslama həqiqətən sadiq olan insanlar bu baxımdan nümunəvi olaraq cəmiyyətimizdə mənəvi saflığı təmin etməlidirlər.

Hesab edirəm ki, indi cəmiyyətimizdə belə müsbət hallar əksəriyyət təşkil edir. Mənfi hallar az olsa da, ancaq vardır. [439-440]

Bu mənfi hallar cəmiyyətimizin ümumi mühitinə, əhval-ruhiyyəsinə bəzən çox zərər vurur. Bunların qarşısını almaq lazımdır. Güman edirəm ki, din xadimlərimiz bu sahədə indən sonra da öz fəaliyyətlərini artıracaqlar.

Din xadimlərimiz, Həccə getmiş adamlarımız gərək xalqımızı, xüsusən gənclərimizi Vətənə sədaqət, vətənpərvərlik ruhunda tərbiyə etsinlər, onları Vətəni qorumaq üçün hazırlasınlar. İndi buna çox böyük ehtiyac vardır. Çünki iqtisadi-sosial çətinliklər insanları bəzən yolundan çıxardır, çaşbaş qoyur, mənfi təsirlər altına

salır. Buna görə də mənəviyyatca saf insanlar, dinə xidmət edən adamlar İslam dininin hər bir şəxs üçün, hər bir fərd üçün nə qədər gözəl töhfə verdiyini anlatmalı, onları mənəvi saflığa dəvət etməli və buna nail olmalıdırlar. Bu, indi bizə çox lazımdır.

Təəssüf olsun ki, İslamın təbliğində, dinin təbliğində bəzən əyintilərə yol verilir. Mən bu gün burada, din xadimlərinin, Həccə getmiş adamların qarşısında bu sözləri deməyi zəruri hesab edirəm, Dinimizdən bəzən sui-istifadə, öz məqsədləri üçün istifadə etmək istəyənlər də var. İslam dinindən bəzən ölkəmizdə sabitliyi pozmaq, aranı qarışdırmaq, insanları bir-biri ilə vuruşdurmaq, onları qarşı-qarşıya qoymaq üçün istifadə etmək istəyənlər də vardır. Bəzən içərimizə təxribat salmaq istəyənlər də var. İslam dini Azərbaycan Respublikasının dinidir. Respublikamızda yaşayan əhalinin əksəriyyəti İslam dininə etiqad edir. Ancaq bu din birdir və onu parçalamaq olmaz. Ayrı-ayrı adamlar dindən istifadə etməyə çalışmamalıdır. Din vasitəsilə bizim ölkəyə haradansa kənardan kiminsə təsir etməsinə yol vermək olmaz.

Dindən ancaq xeyirxahlıq, insanları ağır vəziyyətdən çıxarmaq, onları mənəvi saflığa yönəltmək üçün istifadə etmək lazımdır. Başqa məqsədlər üçün yox. Təəssüf ki, belə hallar var. Əgər belə hallar olmasaydı, mən bunu deməzdim. Buna görə də güman edirəm ki, hamımız çalışmalıyıq cəmiyyətimizdə hər kəs öz yerini tutsun, öz işi ilə məşğul olsun və onlar da çalışsınlar ki, birlik, bərabərlik, milli həmrəylik və vətəndaş həmrəyliyi yaransın. Güman edirəm ki, biz buna nail olacağıq.

Son illərdə, respublikamızın ağır dövründə Ermənistanın təcavüzü ilə yanaşı, ölkəmizi daxildən parçalamaq, Azərbaycanı dağıtmaq cəhdləri də olubdur. Bunları siz bilirsiniz. Allaha şükür olsun ki, Allahın köməyi ilə biz bunların qarşısını almışıq. İndən sonra da bunu etməyə qadirik. Bu gün mən sizə de[440-441]məliyəm ki, son illərdə xalqımız bir neçə fəlakətdən, bir neçə xətadan xilas olubdur. 1993-cü ilin iyun ayını yada salın. Artıq həmin vaxtdan iki il keçir. 1994-cü ilin oktyabrını xatırlayın. Burada dövlət çevrilişinə cəhd etdilər. Bunun qarşısı alındı. Xalq ayağa qalxdı, öz qüdrətini göstərdi. Xalqımız göstərdi ki, cəmiyyətimizdə bu cinayətkarlara yer ola bilməz. Cinayətkarların bir qismi cəmiyyətdən təcrid olunub. Onlar ədalət məhkəməsi qarşısında duracaqlar. İndi istintaq gedir. Bəziləri qaçıb gizləniblər. Bəziləri də öz günahlarını gəlib etiraf etdiklərinə görə bağışlandılar. Lakin bəziləri bunlardan özləri üçün ibrət dərsi götürmədi, ötən ilin oktyabrında başlanan hərəkəti davam etdirməyə və bu ilin martında Azərbaycanda böyük bir faciə törətməyə çalışdılar. Təəssüflər olsun ki, bir çox qüvvələr birləşib, Azərbaycan gənclərinin bir qismini – onların arasında cinayətkarlar da var, bəziləri də yollarım azmış adamlardır – pis istiqamətə yönəltdilər, dövlət çevrilişinə cəhd göstərməyə sövq etdilər.

Bunun da qarşısı alındı. Cinayətkarlar cəzalandı, onların bəziləri məhv oldu, bir qismi həbs edildi, yenə də başqa bir qismi isə öz səhvlərini başa düşdü, müraciət etdi, bağışlandı, indi azad-asudə yaşayırlar.

Bu barədə də istintaq gedir. İstintaq orqanlarımız çox ciddi işlər aparırlar. Güman edirəm ki, həmin bu cinayətkarlar – həm oktyabr ayında, həm də mart ayında cinayət etmiş adamlar Azərbaycanın ədalət məhkəməsi qarşısında duracaqlar. Bu lazımdır, bu zəruridir. Çünki xalqımızı artıq bu bəlalardan xilas etməliyik. Artıq bəsdir! Azərbaycan yeddi ildir ki, Ermənistanın təcavüzü nəticəsində şəhidlər, itkilər verir. Respublikamızın torpaqlarının bir qismi itirilibdir. İndi biz onların geri qaytarılmasına çalışırıq. Axı, daxilimizdə bu hərəkətləri edən adamlar nə məqsədə xidmət edirlər? Ona görə oktyabr ayında da, mart ayında da Azərbaycan vətəndaşları birinci olaraq öz dövlətini, öz müstəqilliyini qorumaq əzmini bildirdilər. Digər tərəfdən isə müstəqil Azərbaycan dövləti öz qüdrətini, öz dövlətçiliyini qorumağa qadir olduğunu göstərdi və bu dövlətin yaşamağa haqqı olduğunu bir daha dünyaya nümayiş etdirdi.

Biz müstəqil Azərbaycan dövlətini qururuq. Biz dövlətimizi çox mürəkkəb, çətin proseslər içərisində, ancaq əzmlə, inamla, böyük ümidlə qururuq. Biz bunu edəcəyik. Müstəqil Azərbaycan dövləti yaşayacaqdır. Müstəqil Azərbaycan dövləti erməni təcavüzündən xilas ediləcəkdir. Müstəqil Azərbaycan dövləti [441-442] bütün torpaqlarının sahibi olacaqdır və xalqımız bu ağır bəlalardan çıxacaqdır. Mən buna inanıram. Mən buna əminəm. Siz də arxayın olun ki, mən bir prezident kimi həyatımı məhz buna həsr etmişəm, bütün imkanlarımı bundan sonra da bu işə sərf edəcəyəm. Bu işdə mənəviyyat bizim üçün ən böyük silahdır. Mənəviyyata malik olan insanlar, İslam dininin saflığını özündə cəmləşdirən adamlar bizim silahdaşlarımızdır və bizimlə bir yerdədirlər. Hamı çalışmalıdır ki, bütün bu imkanlarımızdan istifadə edək.

Bu gün mən əmin olduğumu bildirmək istəyirəm ki, din xadimlərimiz Azərbaycanın müstəqilliyinə, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasına, cəmiyyətimizdə mədəni əhval-ruhiyyə yaratmağa, hüquqi dövlət qurulmasına, ölkəmizdə vətəndaş həmrəyliyinin, milli həmrəyliyin və birliyin bərqərar olunmasına xidmət edəcəklər, din xadimlərimiz cəmiyyətimizi mənfi hallardan təmizləmək üçün bizim mübarizəmizin ön sıralarında gedəcək, bizimlə birlikdə olacaqlar və bu işdə öz nüfuzlarını, imkanlarını əsirgəməyəcəklər.

Bu gün biz Səttarxan adına maşınqayırma zavodundayıq. Mən bu zavodda dəfələrlə olmuşam. 60-cı illərdə, hələ respublikaya rəhbərlik etmədiyim dövrdə də mən bu müəssisəyə gəlmişdim. Azərbaycana rəhbərlik etməyə başladığım dövrdə – bu yaxınlarda 26 il olacaqdır – 1969-cu ildə də burada olmuşam. Mən bu zavodun keçmişini bilirəm. Bu müəssisənin çox gözəl tarixi var. Ötən il biz bu zavodun 100 illik yubileyini qeyd etdik. Bu müəssisənin gözəl ənənələri var. Onlar nəsillərdən-nəsillərə keçibdir. Bu zavod Azərbaycan xalqı üçün, ölkəmizin müstəqilliyi üçün çox işlər görübdür. Ancaq 70-ci illərdə bu zavodun görkəminin tamamilə

dəyişdiyini də qeyd etməliyik. Siz görürsünüz ki, bizim toplaşdığımız bu yer çox gözəl bir sexdir. O vaxtlar bu sex yox idi. Burada, eləcə də digər sexlər 70-ci illərdə qurulub, 1981-ci ildə istifadəyə verilmişdir. Bu zavodun görkəminin dəyişdirilməsinə böyük əmək və vəsait sərf etmişik. Çox böyük əzab-əziyyətlərə qatlaşdıq ki, müəssisə yeni texnologiya və avadanlıqla təchiz olunsun, müasir tələblərə cavab verən cihazlar, qurğular istehsal edilsin. Biz bunlara nail olduq. Bu nəhəng müəssisənin yenidən qurulması prosesi mənim gözümün qarşısında baş vermişdir. Bütün bunlar mənim həyatımdan keçən proseslərdir.

Ona görə də mən bu gün buraya gəlməyimə çox sevindim. [442-443]

Əminəm ki, bu zavod və onun kollektivi müstəqil Azərbaycan üçün hələ çox işlər görəcək, böyük xidmət göstərəcəkdir.

Bu zavodun keçmişinə hamımız böyük hörmətlə yanaşırıq. Mən bu müəssisənin ənənələrinə və bu gününə böyük hörmət edirəm.

Bu müəssisənin ən gözəl xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, məhz bu zavodun fəhlələri, mühəndisləri, burada çalışan insanlar Ermənistanın Azərbaycana qarşı təcavüzü başlayarkən öz sözünü dedilər, xalqımız ilk dəfə səsini buradan qaldırdı. Bu zavodun kollektivi ayağa qalxdı və Azərbaycanın o dövrdəki hakimiyyət dairələrini sınağa çəkdi ki, respublikamızı, torpaqlarımızı qorumaq lazımdır. Qarabağı müdafiə etməliyik. Bu səslər ilk dəfə bu kollektivdən eşidildi. Bunu bizim cəmiyyətimiz bilir. Bu, bizim tariximizə həkk olunubdur.

O illərdə ölkəmizdən kənarda yaşamağıma baxmayaraq, bunu mən də bilirəm. Bunu hamı bilir. Zavodun bu ənənəsi də böyük hörmətə layiqdir. Milli azadlıq hərəkatına addımlar bu zavoddan atılıbdır. Bu zavodda respublikamızın müstəqilliyi üçün çıxışlar olubdur. İnsanlar meydanlara buradan çıxıblar. Hakimiyyət orqanlarına ittihamlar buradan verilibdir. Bunlar da Azərbaycan tarixinin çox gözəl səhifələridir.

Ona görə də Həcc ziyarətindən qayıtmış vətəndaşlarımızın bu zavoda gəlməsi bu müəssisənin keçmişinə, xidmətlərinə, buranın kollektivinə olan hörmətdir. Mən də bu hörmət naminə bu gün buraya gəlmişəm. Buna görə də mən bir daha zavodun kollektivinə öz hörmət və ehtiramımı, daxilimdən gələn ən gözəl duyğularımı çatdırıram. Əmin ola bilərsiniz ki, mən həmişə sizinləyəm və bu kollektivlə birlikdə Azərbaycanın həyatının çətin mərhələsini yaşayıb keçəcəyik.

Səttarxan adına zavod Azərbaycanın maşınqayırma sənayesinin bayraqdarıdır. Respublikamızda maşınqayırma sənayesi bu müəssisədən başlanıbdır. Müəssisə bu gün də öz mövqeyini əldən verməyibdir. Azərbaycanda neft sənayesi üçün maşın və avadanlıq istehsalı geniş inkişaf etmişdir. Səttarxan adına zavoddan başqa, digər zavodlarımız da neft maşınqayırması ilə məşğuldur. Həmin zavodlar da 70-80-ci illərdə təkmilləşdirilib və yenidən qurulubdur. Bizim gördüyümüz tədbirlər nəticəsində bu müəssisələr müasir səviyyəyə gəlib çıxıbdır. Ancaq indi sənayemiz, eləcə də neft maşınqayırması çətin dövr keçirir. Bunun səbəbləri məlumdur. Biz müstəqillik əldə etmi[443-444]şik. Əgər biz bunları tərəziyə qoyub çəksək və baxsaq ki, hansı bizim üçün əhəmiyyətlidir, – dövlət müstəqilliyimizi əldə etmək, yaxud da müstəqil olmayaydıq və zavod və ya sənaye yenə də başqa yerlərlə bağlı olaydı və işləyəydi, – hesab edirəm ki, müstəqillik bizim üçün daha əhəmiyyətlidir. Çünki biz müstəqillik qazanmaq üçün çoxlu qurbanlar vermişik. Bu olmalı idi, çünki müstəqillik Azərbaycan xalqı üçün əsrlərdən-əsrlərə keçmiş arzu və istəkdir. Biz buna nail olmuşuq.

Bu dövrdə biz şübhəsiz ki, yeni bir ictimai-siyasi cəmiyyət yaradırıq, yeni dövlət qururuq. İqtisadiyyatımız yeni formalarla yaşayır, yeni iqtisadi münasibətlər bərqərar olur. Bu yolu biz keçməliyik. Şübhəsiz ki, bu sahədə müəyyən çətinliklərlə rastlaşırıq. Bunlar təbiidir. Çünki ziddiyyət təşkil edən bir sistemdən digərinə keçid asan olmur. Ona görə də bu yoldakı çətinliklərin təbii olduğunu nəzərə alaraq onlara dözməliyik. Ancaq bu, o demək deyildir ki, biz oturub gözləməliyik ki, nə vaxtsa yaxşı işləyəcəyik. Mən o mənada dözmək deyirəm ki, bu həm də döyüşmək, həm də vuruşmaq, həm də çalışmaq deməkdir.

Mən may ayının əvvəlində Nazirlər Kabinetində çıxış edərkən ölkəmizin sənayesi barədə öz fikirlərimi söylədim. Göstəriş verdim ki, hər bir fabrik, zavod və digər müəssisə indiki şəraitə uyğun olaraq hansı yolla istehsalı qaldıra bilərsə, bu barədə öz təkliflərini hazırlasın və təqdim etsin, biz onların həyata keçirilməsinə kömək edək. Bu dövrdə sizin zavodun da imkanları böyükdür, ona görə də bunlardan istifadə edilməlidir. Bu, imkanlardan nə qədər səmərəli istifadə olunarsa, keçid mərhələsi bizim üçün o qədər qısa olar. Mən bilirəm ki, indi zavod tam gücü ilə işləmir, kollektivin iqtisadi vəziyyəti də keçmişdəki kimi deyildir.

İqtisadi sahədə çətinliklərimiz var. Bu, təkcə sizin zavodda deyil, digər müəssisələrdə də belədir. Bunların hamısını mən bilirəm. Bu problemlər sənayemizdə və bütün iqtisadiyyatımızda mövcuddur. Ancaq eyni zamanda bu zavod kimi nəhəng potensiala malik bir müəssisə əvvəlki kimi olmasa da, müəyyən bir səviyyədə, indikindən yüksək səviyyədə işləyə bilər və işləməlidir. Bunu zavodun rəhbərliyi, mütəxəssisləri, mühəndisləri və bütün kollektivi birləşib birlikdə etməlidirlər. Biz bu prosesi keçməliyik. Hesab edirəm ki, siz bu işlərlə daha ciddi məşğul olmalısınız. Qarşılaşdığımız çətinliklərə dözməli və hər birimiz çalışmalıyıq ki, insanlarımızın həyatını müəyyən qədər [444-445] yüngülləşdirək. Sizin indiyədək göstərdiyiniz xidmətləri mən yüksək qiymətləndirirəm. Ancaq zavodun qarşısında duran vəzifə indi bütün imkanların, burada olan zəngin potensialın hesabına mövcud vəziyyətdən çıxmaq və müəssisəni işlətməkdir. Bu həm kollektivin həyat şəraitinin

yüksəlməsinə kömək edər, həm də bütövlükdə respublikamızın iqtisadiyyatının dirçəldilməsinə öz müsbət təsirini göstərər.

İndiki şəraitdə əhalimizin sosial vəziyyətinin ağır olduğu məlumdur. Bir dövlət başçısı kimi mən bunu bilirəm. Ən ağır vəziyyətdə olanlar bizim qaçqınlarımızdır. Onların bir hissəsi hələ də çadırlarda yaşayır. Bu yaxınlarda Şuşa və Laçının Ermənistan tərəfindən işğalının üç ili tamam oldu. Üç ildir ki, insanlar həmin rayonlardan didərgin düşüblər, orada-burada birtəhər yerləşiblər. Dağlıq Qarabağın özündən azərbaycanlılar dörd il bundan qabaq, Ermənistanda yaşamış azərbaycanlılar 1988-ci ildə, yeddi il bundan qabaq qovulublar, öz doğma yurdlarından didərgin salınıblar. Sonrakı illərdə, 1992-93-cü illərdə də qaçqınlarımız olubdur. Bu vətəndaşlarımız da indi ağır şəraitdə yaşayırlar. Onların bəziləri öz qohum-əqrəbalarının yanında, bəziləri ayrı-ayrı məktəblərdə, sanatoriya binalarında, müxtəlif tikililərdə yerləşiblər. Ancaq böyük bir qismi çadırlarda yaşayır.

Buna görə də bizim hamımız həmin insanlara qayğı göstərməliyik. Şübhəsiz ki, mən bunun zavod fəhləsinin qaçqınlarımıza qayğı göstərməsi üçün demirəm. Mən bu gün bu fürsətdən istifadə edib üzümü bütün ictimaiyyətə, dövlət orqanlarına, cəmiyyətimizə tutaraq deyirəm ki, bizim ağır dövrümüzdə ən çox qayğıya ehtiyacı olanlar şəhid ailələridir, müharibə əlilləridir, qaçqın düşmüş adamlardır. Onlara xüsusi diqqət olmalıdır. Biz dövlət tərəfindən lazımi tədbirləri görürük. Beynəlxalq təşkilatların humanitar yardımları ölkəmizə gəlir və qaçqınlarımızın vəziyyətini müəyyən səviyyədə saxlamağa kömək edir.

Lakin bizim ayırdığımız vəsaitlər, humanitar yardımlar, xeyriyyəçilər və müxtəlif təşkilatlar tərəfindən edilən köməklər bəzən qaçqınlara çatdırılmır. Ayrı-ayrı vəzifəli adamların öz vəzifələrindən sui-istifadə etdiklərinə, səhlənkarlıqlarına, bu məsələlərə laqeyd olduqlarına. görə yardımlar qaçqınlara çatdırılmır. Bu, dözülməz haldır. İndi həyatımızda ən dözülməz və ən mənfi hallardan biri məhz budur.

Ona görə də mən bu gün fürsətdən istifadə edərək bir tə[445-446]rəfdən dövlət orqanlarından, hakimiyyət orqanlarından tələb edirəm ki, qaçqınlar yaşayan yerlərə xüsusi fikir verilsin, xüsusən çadırlarda yaşayan insanlara, şəhid ailələrinə, əlillərə daha çox qayğı göstərilsin.

Çadır şəhərciklərinə daim getmək lazımdır. Həmin çadırların hamısı kənd rayonlarımızda yerləşibdir. Mən bu gün buradan, Səttarxan adına zavoddan üzümü həmin rayonların icra hakimiyyəti başçılarına tutaraq deyirəm: qaçqınların vəziyyəti üçün onlar şəxsi məsuliyyət daşıyırlar. Bütün yerli hakimiyyət orqanlarına deyirəm ki, onlar qaçqınların vəziyyəti ilə əlaqədar şəxsi məsuliyyət daşıyırlar. Tələb edirəm ki, onlar bu işlə hər gün məşğul olsunlar. Mən əmr verməyə məcbur olacağam ki, yerli hakimiyyət orqanları başçılarının hamısı gedib çadırlarda qaçqınlarla bir yerdə yaşasınlar. Həmin adamlar onda dərk edəcəklər ki, qaçqınların vəziyyəti necədir. Qoy onlar müharibənin sonunadək öz evlərini şəhid ailələrinə, qaçqınlara versinlər, özləri isə köçsünlər çadırlara və müharibə qurtarana qədər, qaçqınlar öz evlərinə qayıdana kimi orada yaşasınlar. Onda onlar anlayacaqlar ki, çadırda yaşayanların vəziyyəti necədir.

Eyni zamanda mən bu gün respublika təşkilatlarından tələb edirəm. Qaçqınların işi ilə məşğul olan dövlət komitəsi var, Nazirlər Kabinetində mən xüsusi olaraq baş nazirin müavinini təyin etmişəm, orada İzzət Rüstəmov bu işlə məşğul olur. Nazirliklərin rəhbərlərindən tələb edirəm ki, bu məsələlərə ciddi yanaşsınlar, təcili tədbirlər görsünlər. Bu günlərdə mən qaçqınların yerləşdiyi şəhərciklərə, yerlərə komissiyalar göndərəcəyəm. Onlar gedib yerlərdə vəziyyəti öyrənməlidirlər.

Bu gün demək istəyirəm ki, qaçqın və əlil, şəhid ailəsi üçün ayrılmış yardımı mənimsəmək ən böyük cinayətdir. Xalq sözü var, bunu yeyən bilməlidir ki, o, ilan sümüyü kimi onun boğazında qalacaqdır. Bundan böyük xəyanət, bundan böyük cinayət ola bilməz!

Güman edirəm ki, siz də mənim fikirlərimlə həmrəysiniz, yəqin din xadimləri də düşərgələrdə olacaqlar, qaçqınlarla görüşəcəklər, çadırlarda yaşayanların vəziyyətini öyrənəcəklər və hamımız həmin adamların həyat şəraitinin yaxşılaşması üçün əlavə tədbirlər görəcəyik.

İndi həyatımız çox rəngarəngdir. Bir tərəfdən biz müstəqil dövlətdə yaşayırıq. Bir neçə gündən sonra 28 May İstiqlal gününü bayram kimi qeyd edəcəyik. Üç il yarımdan artıqdır ki, [446-447] Azərbaycan müstəqil dövlət kimi yaşayır. Digər tərəfdən, görürsünüz ki, bu dövr nə qədər problemlər, nə qədər çətinliklər yaradıb, nə qədər ağır bir yolla gedirik. Ancaq bilin və inanın ki, bu ağırlığı siz də çəkirsiniz, mən də çəkirəm. Bəlkə mən sizdən də çox çəkirəm. Çünki mənim üzərimə düşən ağırlıq bütün ölkənin, bütün xalqın çətinliyi və dərdidir. Xalqımın, Azərbaycanın, doğma Vətənimin, torpağımızın dərdmi çəkmək, onun qayğısına qalmaq mənim üçün ən şərəfli vəzifədir.

Ona görə də mən bu yolu sizinlə bir yerdə keçirəm və bir yerdə də gedəcəyik. Bu yolda kim bizə mane olacaqsa, onların qarşısı indiyədək alındığı kimi, bundan sonra da alınacaqdır. Biz düz yolla, haqq yolu ilə, Allah yolu ilə, Quran yolu ilə, demokratiya yolu ilə, həqiqət yolu ilə, müstəqillik yolu ilə gedirik. Biz istəyirik ki, Azərbaycanda haqq-ədalət olsun, Azərbaycan müstəqil yaşaya bilsin, xalqımız milli azadlığını həmişə qoruyub saxlaya bilsin. Biz istəyirik ki, respublikamızda insan hüquqları qorunsun, demokratiya tamamilə bərqərar olsun, hər kəs öz sözünü deyə bilsin, hər kəs öz hüququnu müdafiə etməyi bacarsın, heç kəsin hüququ tapdanmasın və heç kəs heç kəsi istismar etməsin. Biz bu yolla gedirik və bu yolla da gedəcəyik. İnanın ki,

tutduğumuz bu yol bizi Azərbaycanın çox gözəl gələcəyinə aparıb çıxaracaqdır. Biz sizinlə bu gələcəyə çatacağıq və gələcək nəsillərimiz bizim etdiyimiz işlərin bəhrəsini görəcəklər.

Bir daha sizinlə görüşməyimdən məmnun olduğumu bildirirəm, hacıları təbrik edirəm. Səttarxan adına zavodun kollektivinə uğurlar arzulayıram. Sizin hamınıza, bütün Azərbaycan xalqına həyatımızın bu ağır dövründə dözüm, eyni zamanda fədakarlıq, xoşbəxtlik və səadət arzu edirəm. Sağ olun! [447]

## İKİNCİ BEYNƏLXALQ "XƏZƏRNEFTQAZ - 95" SƏRGİ-KONFRANSININ AÇILIŞINDA ÇIXIŞ

*Bakı İdman-Sərgi Kompleksi*

*23 may 1995-ci il*

Hörmətli xanımlar, cənablar!
Hörmətli qonaqlar!

Azərbaycanda beynəlxalq "Xəzərneftqaz – 95" sərgisinin açılması münasibətilə sizi ürəkdən təbrik edirəm. Güman edirəm, biz hamımız dərk edirik ki, bu sərginin hazırlanması çox böyük kömək və fəaliyyət tələb edibdir. Ona görə də bu sərginin hazırlanmasında xüsusi xidmət göstərən "Spirhed eksibşnz LTD" şirkətinə, onun burada fəaliyyət göstərən icraçı direktoru xanım Süzan Krauça və Azərbaycan Respublikasının Ticarət-Sənaye Palatasına, onun rəhbəri Tatlıyevə təşəkkürümü bildirirəm.

Əmin olduğumu bildirmək istəyirəm ki, sərginin iştirakçıları buradan gələcək üçün çox böyük mənfəətlər götürəcəklər. Güman edirəm ki, bu sərginin eksponatları və bu sərgi əsasında keçirilən konfranslar, ümumiyyətlə, burada aparılan işlər Azərbaycanın Xəzər dəniz neft-qaz yataqlarının istifadəsi üçün yeni bir addım olacaqdır.

Bildiyiniz kimi, bu, Azərbaycanda keçirilən ikinci belə beynəlxalq sərgidir. Ötən ilin mayında keçirilmiş sərgidən indiyədək biz bu sahədə böyük yol keçmişik və əminəm ki, həmin dövrdə baş vermiş yeni hadisələr bu sərgidə öz əksini tapıb.

Belə böyük neft-qaz sərgisinin Azərbaycanda keçirilməsi heç də təsadüfi hal deyildir. Azərbaycan, Bakı qədim zamanlardan neft, odlar diyarıdır. Azərbaycanda, Bakıda 150 il bundan əvvəl neftin sənaye üsulu ilə hasilatına başlanıbdı və bu müddətdə Azərbaycan nefti böyük və şərəfli yol keçibdir.

XIX əsrin ikinci yarısında Azərbaycanda neftin sənaye üsulu ilə istehsalında ilk işlər görülüb, Qərb ölkələrinin böyük neft şirkətləri burada fəaliyyət göstərib. Bu işlər XX əsrin əvvəlində də davam edib və beləliklə, ölkəmizdə böyük neft [448-449] sənayesi yaranıb. Ondan sonrakı dövrdə Azərbaycan Sovetlər İttifaqı dövlətinin tərkibində olub və respublikamızın neft-qaz sənayesi, hasil olunan neft SSRİ kimi böyük bir dövlətin sənayesinin, iqtisadiyyatının inkişafında mühüm rol oynayıb.

Mayın əvvəlində biz İkinci dünya müharibəsinin başa çatmasının, Hitler faşizmi üzərində qələbənin 50 illik yubileyini geniş miqyasda – Londonda, Parisdə, Moskvada və dünyanın başqa ölkələrində bayram etdik. Qələbənin yarıməsrlik yubileyini keçirərkən biz böyük iftixar hissi ilə qeyd etdik ki, bu qələbənin əldə olunmasında Azərbaycan neftçilərinin, ölkəmizin sənayesinin böyük rolu olmuşdur. Bildiyiniz kimi, o zaman, o illərdə Sovetlər İttifaqı kimi böyük bir dövlətdə neft istehsalının 70 faizini Azərbaycan təmin edirdi. Deməli, Hitler faşizmi üzərində qələbənin əldə olunmasında, cəbhənin neftlə təmin edilməsində Azərbaycan neftçilərinin xüsusi xidmətləri olmuşdur.

Azərbaycan Respublikası 1991-ci ildən öz müstəqilliyini əldə edib, müstəqil dövlət kimi yaşayır, özü öz taleyinin, öz sərvətlərinin sahibidir. Bunun əsasında biz respublikamızın neft yataqlarından, təbii sərvətlərindən, Xəzər dənizinin Azərbaycan sektorunda, ölkəmizin ərazisində olan neft yataqlarından istifadə edilməsində sərbəstik və sərbəst olaraq dünyanın böyük neft şirkətləri ilə əməkdaşlığa başlamışıq. Məhz buna görə də dünyanın iri neft şirkətləri, neft və qaz sənayesi ilə əlaqədar olan şirkətlər Azərbaycana böyük maraq göstərir, ölkəmizə gəlirlər. Biz burada əməkdaşlığa başlamışıq.

Bunların nəticəsidir ki, Azərbaycanda ikinci ildir belə gözəl, geniş miqyaslı və çox böyük əhəmiyyətli sərgi keçirilir. Bu il bu sərgidə 13 ölkəni təmsil edən, dünyanın neft və qaz sənayesi ilə əlaqədar olan 165-dən artıq çox nüfuzlu şirkətlər, elmi idarələr və başqa təşkilatlar iştirak edir. Bu, Azərbaycanın neft sənayesində, Xəzər dənizinin neft yataqlarından istifadə olunması sahəsində böyük və əlamətdar hadisədir.

Bu sərgiyə göstərilən marağı, onun əhəmiyyətini nümayiş etdirən amillərdən biri də odur ki, sərgiyə təkcə neft şirkətlərinin prezidentləri, rəhbərləri yox, bu şirkətlərin təmsil etdiyi böyük ölkələrin dövlət nümayəndələri də gəliblər və burada bizim aramızdadırlar, sərginin açılışında iştirak edirlər.

Mən Amerika Birləşmiş Ştatlarının sərgidə iştirak edən energetika naziri hörmətli xanım Nezl o Lirini, onun simasın[449-450]da Amerika Birləşmiş Ştatlarını, ABŞ-ın hörmətli prezidenti cənab Bill Klintonu salamlayıram.

Böyük Britaniyanın energetika naziri hörmətli cənab Timoti Eqqari və onun simasında Böyük Britaniyanı, ölkənin baş naziri cənab Con Meycoru salamlayıram.

Türkiyə Respublikasının energetika naziri hörmətli cənab Veysəl Atasoyu, onun simasında Türkiyə Respublikasını və Türkiyə Respublikasının prezidenti hörmətli Süleyman Dəmirəli və baş nazir Tansu Çilləri

salamlayıram.

Norveçin energetika naziri hörmətli cənab Yens Stoltenberqi və onun simasında Norveç ölkəsini, baş nazir, hörmətli xanım Harlem Bruntlandı salamlayıram.

Qazaxıstan Respublikasının neft və qaz sənayesi nazirinin müavini hörmətli cənab Baltabəy Kuandikovu və onun simasında Qazaxıstanı, onun prezidenti hörmətli Nursultan Nazarbayevi salamlayıram.

Həmin ölkələrin yüksək səviyyəli dövlət xadimlərinin bu sərgiyə gəlmələri, sərgiyə böyük diqqət göstərmələri münasibətilə onlara Azərbaycan Respublikasının prezidenti kimi öz hörmət və təşəkkürümü bildirirəm.

Bu sərgidə iştirak edən bütün neft və qaz sənayesi şirkətlərinin, elmi idarələrinin nümayəndələrini, rəhbərlərini səmimi qəlbdən salamlayıram və onlara bu sərgidə gördükləri işlərdə və gələcəkdə öz sahələrində görəcəkləri işlərdə böyük uğurlar arzulayıram.

Əminəm ki, bu sərgidə nümayiş etdirilən eksponatlar və burada aparılacaq işlər nəinki Azərbaycan ərazisində olan neft və qaz yataqlarından, Xəzər dənizinin Azərbaycan sektorundakı neft-qaz yataqlarından, ümumiyyətlə, Xəzər dənizindəki bütün neft-qaz yataqlarından istifadə edilməsində çox faydalı olacaqdır. Ümidvar olduğumu bildirmək istəyirəm ki, biz bu işlərin müsbət nəticəsinin şahidi olacağıq.

Böyük məmnuniyyət hissi ilə demək istəyirəm ki, artıq bu sahədə işlər görülüb və onlar öz nəticələrini verib. Bildiyiniz kimi, bir neçə il ərzində gərgin danışıqlar nəticəsində 1994-cü il sentyabrın 20-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorundakı üç neft yatağının müştərək istifadə edilməsi üçün respublikamızın Dövlət Neft Şirkəti ilə dünyanın böyük neft şirkətləri arasında müqavilə imzalanıb və bu müqavilə artıq əməli surətdə həyata keçirilir.

Bu müqavilə qeyri-adi, nadir bir müqavilədir. Təsadüfi de[450-451]yildir ki, onu "Əsrin müqaviləsi" adlandırırlar. Bu müqavilənin qeyri-adiliyi, nadirliyi ondan ibarətdir ki, o, on bir böyük neft şirkətinin birləşdiyi konsorsium əsasında yaranıb. Həmin şirkətlər dünyanın neft sənayesi sahəsində böyük nailiyyətlər əldə etmiş altı ölkəsini təmsil edir.

Bildiyiniz kimi, bu müqavilənin əldə olunması çox uzun, ağır və çətin yollardan keçib. Bu müqavilənin imzalanmasına, əldə edilməsinə mane olan qüvvələr də az deyildi. Ancaq müstəqil Azərbaycan Respublikası öz taleyinin, ərazisinin sahibi olduğu bir vaxtda, onun iradəsi nəticəsində, eyni zamanda konsorsiuma daxil olan şirkətlərin ölkəmizin neft sənayesində iştirakının gözəl perspektivlərini dərk etməsi, həmin şirkətlərin mənsub olduğu ölkələrin Azərbaycanla əməkdaşlığa göstərdikləri böyük maraq nəticəsində maneələrin hamısı aradan götürüldü və bu müqavilə imzalandı.

Qeyd etmək istəyirəm ki, müqavilə imzalandıqdan sonra da, indi də onun həyata keçirilməsinə mane olmaq istəyən qüvvələr, ayrı-ayrı dövlət dairələri var. Ancaq böyük məmnuniyyət hissi ilə demək istəyirəm ki, müqavilə imzalandıqdan sonra konsorsiumun yaratdığı rəhbər Beynəlxalq Əməliyyat Şirkəti çox fəal işləyir və ötən səkkiz ay müddətində xeyli iş görülüb. Hər halda, nəzərdə tutulan tədbirlərin hamısı vaxtında yerinə yetirilib.

Bu müqavilənin imzalanması və əməli surətdə həyata keçirilməsi bir daha sübut edir ki, müstəqil Azərbaycan Respublikası öz həyatını, siyasətini, iqtisadi siyasətini dünyanın təcrübədən keçirdiyi demokratik prinsiplər əsasında qurur və ölkəmiz, onun iqtisadiyyatı dünya ölkələri üçün açıqdır və bütün ölkələrlə bərabər hüquqlu, qarşılıqlı surətdə faydalı əməkdaşlıq etməyə hazırdır.

Mən bu gün bu fürsətdən istifadə edib müstəqil Azərbaycan Respublikasının daxili və xarici siyasəti haqqında öz fikirlərimi qısaca bir daha demək istəyirəm. Müstəqil Azərbaycan Respublikası günü-gündən, aybaay öz müstəqilliyini möhkəmləndirməyə çalışır, demokratik, hüquqi dövlət qurur, cəmiyyətin bütün sahələrində demokratik prinsiplərin bərqərar olmasına çalışır, sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə gedir. Azərbaycan bütün xarici investisiyalar üçün açıqdır. Bu sahədə 1995-ci ildə bir çox mühüm tədbirlər həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu ilin payızında [451-452] Azərbaycanda demokratik prinsiplər, çoxpartiyalı sistem əsasında yeni parlament seçkiləri keçiriləcəkdir. Müstəqil Azərbaycan Respublikasının ilk dəfə demokratik prinsiplər əsasında konstitusiyası qəbul ediləcəkdir. Müstəqil Azərbaycan dövləti daim demokratiya yolu ilə gedəcəkdir.

Biz iqtisadiyyatda bu prinsipləri həyata keçirərək neft və qaz sənayesində, iqtisadiyyatın digər sahələrində dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq etməyə xüsusi əhəmiyyət veririk. Bu sərgi də buna əyani sübutdur. Mən fürsətdən istifadə edib onu da demək istəyirəm ki, biz dünyanın bütün sülhsevər mütərəqqi dövlətləri ilə qarşılıqlı surətdə faydalı, ikitərəfli əlaqələr qurmaq əzmindəyik və bu sahədə bundan sonra da öz fəaliyyətimizi göstərəcəyik.

Bu baxımdan mən bu gün sərgidə iştirak etməyə gələn dövlətlərin nümayəndələri vasitəsilə həmin ölkələrə, dövlətlərə öz təşəkkürümü və minnətdarlığımı bildirirəm. Azərbaycan Respublikasına göstərdikləri marağa görə, bu çətin, ağır dövrümüzdə ölkəmizi dəstəklədiklərinə görə onlara minnətdarlığımı bildirirəm.

Mən qeyd etdim ki, 1994-cü ilin sentyabrında imzalanmış müqavilə artıq müvəffəqiyyətlə həyata keçirilir. Ancaq buna mane olmaq istəyən qüvvələr, ayrı-ayrı dövlət dairələri də olmuşdur. Güman edirəm ki, onlar səhv edirlər. Çünki belə bir gözəl, dünya standartlarına uyğun olan müqavilənin həyata keçirilməsinə sevinmək

lazımdır. Mənə elə gəlir ki, həmin müqaviləyə mane olmaq heç bir çərçivəyə sığışa bilməz. Mən əmin olduğumu bildirmək istəyirəm ki, konsorsiumda iştirak edən dünyanın böyük neft şirkətləri və həmin şirkətlərin mənsub olduğu dövlətlər – biz hamımız birlikdə bu maneələri aradan qaldıra biləcəyik. Mən buna əminəm. Müqavilə 30 il müddətinə bağlanmışdır. Biz bu yolu birlikdə keçəcəyik və heç şübhə etmirəm ki, bu 30 il müddətində yeni-yeni müqavilələr meydana çıxacaq, Azərbaycanın neft sənayesi inkişaf edəcək, Xəzər dənizindəki yataqlardan faydalı surətdə istifadə olunacaqdır.

Son zamanlar, xüsusən neft müqaviləsi imzalandıqdan sonra Xəzər dənizinin statusu haqqında məsələlər ortaya atılmışdır və bəzi dövlətlər çox cidd-cəhdlə bu məsələnin müzakirə olunması barədə təklif irəli sürürlər. Biz buna heç vaxt etiraz etməmişik və etmirik. Xəzər çox nadir bir dənizdir. Onun çox [452-453] böyük təbii sərvətləri var. Bu sərvətlər təkcə dənizin təkindəki neft və qaz yataqlarından ibarət deyildir. Xəzərin bioloji sərvətləri də zəngindir. Bundan əlavə, gəmiçilik üçün geniş imkanları var. Şübhəsiz ki, bu məsələlər kompleks şəkildə müzakirə oluna bilər və biz buna tam tərəfdarıq. Dünya yaranandan bəri Xəzər dənizi də var, əsrlər boyu ondan istifadə edilmişdir. Ancaq təəccüb doğuran cəhət bundan ibarətdir ki, Xəzər dənizinin statusunun müəyyən edilməsi məsələsi məhz Azərbaycan neft müqaviləsini imzaladıqdan sonra meydana atılmışdır.

Bildirmək istəyirəm ki, Xəzər dənizində neft yataqlarını ilk dəfə Azərbaycan alimləri, mütəxəssisləri, geoloqları kəşf etmişlər. Bu işə ilk dəfə XX əsrin 20-ci illərində başlanmışdı. 45 il öncə, 1949-cu ildə Azərbaycan alimlərinin, mütəxəssislərinin və geoloqlarının böyük fəaliyyəti nəticəsində Xəzər dənizində – "Neft Daşları"nda ilk dəfə quyu qazılmış və neft fontan vurmuşdur. O vaxtdan indiyə qədər Azərbaycan neftçiləri Xəzərdən neft çıxarırlar. Xəzər dənizinin təkcə Azərbaycan sektorunda deyil, digər hissələrindəki neft və qaz yataqları da Azərbaycan alimləri, neftçiləri tərəfindən kəşf olunmuşdur. Vaxtilə Xəzər dənizi iki dövlətə – Sovetlər İttifaqına və İrana məxsus idi. İndi isə Xəzəryanı ölkələr Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İrandan ibarətdir və Sovetlər İttifaqı dövründən hərənin özünəməxsus sektoru var. Biz özümüzə aid olan sektorda fəaliyyət göstəririk, başqa hissələrdə yerləşən və vaxtilə istifadə etdiyimiz neft yataqlarından uzaqlaşmışıq. Biz bütün beynəlxalq normalara, Xəzər dənizindən istifadə olunmasına dair yaranmış praktikaya, ənənəyə riayət edirik. Xəzərin statusunun qarşılıqlı anlaşma yolu ilə, bərabər hüquqlu zəmində Xəzəryanı dövlətlərlə müzakirə olunmasına hazırıq.

Alimlərimiz, mütəxəssislərimiz Xəzərin Azərbaycan sektorunda daha böyük neft və qaz yataqları kəşf etmişlər. Biz həmin yataqların da istifadə olunması üçün dünyanın iri şirkətləri ilə əməkdaşlıq etməyə hazırıq. Bir daha qeyd edirəm ki, Azərbaycan Respublikası dünya iqtisadiyyatı üçün açıqdır, dünya iqtisadiyyatına inteqrasiya olunmaq yolu ilə gedir və bu [453-454] sahədə bizimlə əməkdaşlıq etmək istəyən hər bir ölkə və şirkətlə əməkdaşlığa hazırıq.

Əmin olduğumu bildirmək istəyirəm ki, bu sərgi ənənəvi xarakter daşıyacaq, burada hər il belə sərgilər keçiriləcək və bütün bunlar təkcə Azərbaycanın deyil, Xəzəryanı dövlətlərin hamısının neft və qaz yataqlarının işlənməsi üçün çox əhəmiyyətli olacaqdır.

Sərginin işinə uğurlar diləyir, burada iştirak edən şirkətlərin hamısına öz fəaliyyətlərində müvəffəqiyyətlər arzulayır, buraya toplaşan iş adamlarını, alimləri bir daha salamlayır, hamınıza hörmət və ehtiramımı bildirirəm. Sağ olun! [454]

## RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ

*Respublika sarayı*

*27 may 1995-ci il*

Hörmətli həmvətənlər, bacılar və qardaşlar!
Hörmətli qonaqlar, xanımlar və cənablar!

Sizi, Azərbaycan xalqını, bütün Azərbaycan vətəndaşlarını bu bayram – Respublika günü münasibətilə ürəkdən təbrik edir, ölkəmizə sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram.

Yetmiş yeddi il öncə, 1918-ci il mayın 28-də ilk dəfə Azərbaycan torpağında Azərbaycan Demokratik Respublikası yarandı. Bu, tarixi bir hadisədir. Azərbaycan Demokratik Respublikasının yaranması əsrimizin əvvəlindən Azərbaycan xalqında, onun mütəfəkkir insanlarında oyanmış müstəqillik, milli azadlıq ideyalarının, arzularının, istəklərinin həyata keçirilməsi idi.

Azərbaycan Demokratik Respublikası gərgin bir tarixi dövrdə yaranmışdır. Çar üsul-idarəsi devrildikdən, Rusiya imperiyası dağıldıqdan sonra Rusiyanın ərazisində gedən proseslər cürbəcür dəyişikliklər meydana çıxarmışdı və bunların nəticəsində də Azərbaycanda demokratik respublika yaranmış, Azərbaycanı müstəqil bir dövlət kimi tanıtmaq imkanı olmuşdur. Demokratik respublikanın yaranması Azərbaycanın müstəqilliyini ilk dəfə olaraq dünyaya nümayiş etdirdi. Azərbaycan xalqının öz dövlətçiliyinə nə qədər bağlı olduğunu əks etdirdi.

Azərbaycan Demokratik Respublikasının ömrü az oldu. İyirmi üç aydan sonra o, süqut etdi. Ancaq demokratik respublikanın yaranması, mürəkkəb tarixi proseslər içərisində görülən işlər xalqımızın gələcək həyatında, tarixində böyük iz buraxdı. Azərbaycan Demokratik Respublikası ilk dəfə milli azadlıq, müstəqillik toxumlarını bütün Azərbaycana səpdi. Bu toxumlar uzun müddətdən sonra cücərdi, boy atdı və nəhayət, 1991-ci ildə Azərbaycan yenidən öz dövlət müstəqilliyini əldə etdi. Ona görə də Azərbaycan Demokratik Respublikasının [455-456] fəaliyyəti ölkəmizin, xalqımızın tarixində parlaq bir səhifədir və biz bu günü bayram kimi – Respublika günü kimi qeyd edirik. Biz o günlərə, aylara, o dövrə böyük hörmət və ehtiram bəsləyirik.

Bu gün, Respublika günü bayramında Azərbaycanda ilk demokratik respublikanın yaradılmasında fəaliyyət göstərənlərin hamısını, xüsusən Azərbaycan Demokratik Respublikasının başçıları Məmməd Əmin Rəsulzadəni, Fətəli xan Xoyskini, Əlimərdan bəy Topçubaşovu, Nəsib bəy Usubbəyovu və başqalarını böyük hörmət və ehtiramla, minnətdarlıqla yad edirik. Onların fəaliyyəti, gördüyü işlər xalqımızın xatirəsində əbədi yaşayacaqdır.

Demokratik respublika süquta uğrayandan sonra xalqımız yetmiş illik bir dövr yaşamışdır. Bu dövr XX əsrin çox hissəsini təşkil edir, Azərbaycan xalqının tarixinin böyük bir dövrüdür. Həmin dövr təkcə Azərbaycan üçün yox, keçmişdə Rusiya imperiyasına, sonra isə Sovetlər İttifaqına daxil olan bütün xalqlar, bütün respublikalar üçün mürəkkəb, ağır, çətin ictimai-siyasi proseslər, dəyişikliklər dövrü olmuşdur. Biz bu dövrü də yaşamışıq. Bu dövrün ziddiyyətləri də var, böyük bəhrələri, müsbət nəticələri də var. Bu, bizim tariximizdir, Azərbaycan xalqının bir neçə nəslinin yaşadığı, qurub-yaratdığı bir dövrdür. Biz bunu həmişə qiymətləndirməliyik, daim dərk etməliyik.

Qeyd etmək istəyirəm ki, Azərbaycan Demokratik Respublikasının süqutundan sonra ölkəmiz kommunist hakimiyyəti altında yaşamışdır. Ancaq 1920-ci il aprelin 28-dən 1922-ci il dekabrın 30-dək olan müddətdə də Azərbaycan müstəqil respublika olmuşdur. O zaman müstəqillik tam deyildi, məhdud idi, kommunist rejiminin təsiri altında idi. Amma hər halda, Azərbaycan müstəqil olmuşdur. Bunu da qeyd etmək lazımdır. Heç vaxt unutmaq olmaz ki, ilk dəfə, 1918-ci ildə Azərbaycanda yaranmış demokratik respublika demokratik dövlət kimi süqut etsə də, respublika yaşamışdır. O vaxtdan bəri bizim respublikamız yaşayır. 1922-ci il dekabrın 30-da Sovetlər İttifaqı yaranana qədər Azərbaycan Respublikası müstəqil fəaliyyət göstərmişdir. Doğrudur, o vaxt kommunist ideologiyası tətbiq olunurdu, çox gərgin proseslər, dəyişikliklər gedirdi. O vaxt xalqımızın həyatı çox ağır idi, repressiyalar, çətinliklər dövrü idi. Amma eyni zamanda respublikamız olmuşdur. Respublikamızda vicdanlı, namuslu, xalqını sevən insanlar olmuş, onlar bu çətin dövrdə respublikanı yaşatmışlar. [456-457]

Sonra isə, dediyim kimi, Azərbaycan Sovetlər İttifaqının tərkibində idi. Bu dövrdə də respublikamız olmuşdur. Həmin dövrdə Azərbaycan müstəqil deyildi, müstəqil surətdə xarici əlaqələr yaratmaq imkanı yox idi. Ancaq respublikamız, onun parlamenti, dövlət bayrağı, dövlət himni var idi. Bir sözlə, respublikamızın dövlətçiliyi olmuşdur. Yəni 1918-ci ildə yaranmış dövlətçilik, ideologiya dəyişikliyinə baxmayaraq, yaşamış, davam etmiş və nəhayət, 1991-ci ilin sonunda dünyada və o vaxt Sovetlər İttifaqında gedən tarixi, ictimai-siyasi proseslər nəticəsində SSRİ dağıldığına görə Azərbaycan öz dövlət müstəqilliyini əldə etmişdi. 1991-ci ilin oktyabrında dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilmiş, həmin il dekabrın 30-da referendum keçirilmiş və Azərbaycan müstəqil dövlət kimi dünyaya elan olunmuşdur.

O vaxtdan indiyədək biz müstəqil dövlət kimi yaşayırıq. Azərbaycanın müstəqilliyi beynəlxalq aləmdə tanınmış, dünya dövlətləri tərəfindən qəbul edilmişdir. Azərbaycan beynəlxalq təşkilatların əksəriyyətinin üzvüdür, Birləşmiş Millətlər Təşkilatına daxildir. Bir çox ölkələrlə qarşılıqlı surətdə faydalı əlaqələr yaradılmışdır. Dünyanın bir çox ölkəsi ilə bizim diplomatik münasibətlərimiz var. Bir çox böyük dövlətlərlə dövlətlərarası müqavilələr, sazişlər imzalanmışdır. Azərbaycan müstəqil dövlət kimi yaşayır, yaşayacaq və bu gün – Respublika günündə mən bir daha bəyan edirəm ki, Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır.

Azərbaycanın dövlət müstəqilliyi dövrü ağır, çətin bir dövrdür. Bunun səbəbləri məlumdur: bir tərəfdən Azərbaycana qarşı Ermənistanın yeddi il davam edən təcavüzü, ikinci tərəfdən ölkədə gedən ictimai-siyasi proseslər, iqtisadiyyatda, sosial həyatda, dövlət quruculuğunda zəruri olan dəyişikliklər. Bütün bunlar keçmiş Sovetlər İttifaqına daxil olmuş, indi müstəqil dövlət kimi yaşayan respublikaların hamısında çətin bir böhran dövrü yaratmışdır. Biz bu dövrü yaşayırıq, bu dövrü keçirik və keçməliyik. Əgər bu dövrü keçməsək, istədiyimizə nail ola, müstəqil dövlət kimi daim yaşaya bilməyəcəyik.

Eyni zamanda qeyd etmək lazımdır ki, bizim müstəqil dövlət kimi yaşamağımız üçün keçmişdə, yəni əsrin 20-ci ilindən indiyə qədər Azərbaycanın keçdiyi tarixi yol ölkəmizin bugünkü müstəqilliyinin əsasını yaratmışdır. Bunu mütləq qeyd etməliyik, heç vaxt unutmamalıyıq. Tariximizə heç vaxt xor baxmamalıyıq, tariximizi qiymətləndirməliyik, kiçik bir müsbət [457-458] hadisəni də unutmamalıyıq. Çünki tariximiz zəngindir, eyni zamanda çox əzab-əziyyətli tarixdir. Xalqımız əsrlər boyu böyük sınaqlardan, çətinliklərdən keçmiş, ancaq öz mənliyini, milliliyini, öz dilini itirməmişdir. Ona görə də tarixi təhrif etmək xəstəliyi, – bu, keçən dövrə qədər bizdə var idi və təəssüflər olsun, indi də mövcuddur, – aradan götürülməlidir. Biz bundan xilas olmalıyıq. Tariximizin hər bir səhifəsi – istər lap qədim dövrə, orta əsrlərə, istərsə də XIX əsrə, XX əsrə aid olsun, – bizim üçün qiymətlidir.

Biz XX əsrin son illərini yaşayırıq. Əsrin əvvəlinə nəzər salsaq, o vaxtdan başlayan proseslər, milli azadlığa, müstəqilliyə yönəldilmiş proseslər ancaq və ancaq XX əsrin sonunda müəyyən qədər məqsədə yetmək səviyyəsinə gəlib çatmışdır. Görürsünüz, bunlar asan deyil, ağır, çətin proseslərdir. Ona görə də tariximizə hörmətlə, ehtiramla yanaşmaq lazımdır. Bu baxımdan Azərbaycanda müstəqil dövlətçilik əldə olunana qədər keçilən tarixi yol şərəfli, böyük yoldur. Şübhəsiz, bu yolun qara səhifələri, repressiya dövrü, insan azadlıqlarının məhdudlaşdırılması, bu azadlıqların insanların əlindən alınması, adamların böyük əzab-əziyyətlərə salınması dövrü də var. Bunlar da unudula bilməz. Biz bunları da yadda saxlamalıyıq ki, həyatımızda bir də təkrar olunmasın.

Ancaq bu dövrün parlaq səhifələri, mərhələləri, gözəl nəticələri də var. Bunları da heç vaxt unuda bilmərik. Xalqımız bu dövrdə – XX əsrin əvvəlindən indiyədək çox şərəfli bir yol keçmişdir. Bu yol da ondan ibarətdir ki, xalqımızın mədəni, təhsil səviyyəsi artmış, mədəniyyətimiz yüksəlmiş, elmimiz, böyük iqtisadi potensialımız yaranmışdır. Xalqımızın həyat tərzində, dünyagörüşündə böyük dəyişikliklər əmələ gəlmiş, böyük bir siyasi-ictimai proses başlanmışdır. Bunlar hamısı keçdiyimiz dövrün, onun mərhələlərinin bəhrəsi, nəticəsidir.

Bu gün çox şey demək olar. Ancaq bayram günüdür, hamısını deməyə ehtiyac yoxdur. Onu demək lazımdır ki, respublikamızın bütün əhalisi, vətəndaşları savadlıdır, böyük bir hissəsi ali təhsillidir. Universitetlər, ali məktəblər fəaliyyət göstərir. Əgər 1919-cu ildə Azərbaycanda ilk universitet yarandısa sonrakı dövrlərdə onlarca ali və orta ixtisas məktəbləri, ümumtəhsil məktəbləri yarandı. İnsanlarımız təhsil aldı, elmə, mədəniyyətə bağlandı. Biz bu il Azərbaycan Elmlər Akademiyasının 50 illik yubileyini qeyd edirik. Bu, dərin iftixar hissi doğurur ki, Azərbaycanın böyük elmi yaranmışdır. Bu elm dünya [458-459] elmi sırasında özünəməxsus yer tutmuşdur. Azərbaycanın dünyada tanınmış alimləri yaranmış, onlar dünya elminə, mədəniyyətinə böyük töhfələr vermiş, bunları zənginləşdirmişlər.

Azərbaycanın mədəniyyəti öz milliliyini saxlayaraq, bu zəmin əsasında klassik mədəniyyət səviyyəsinə gəlib çatmışdır. Ədəbiyyatımız, incəsənətimiz – rəssamlıq, heykəltəraşlıq məktəbimiz, musiqimiz, teatr mədəniyyətimiz dünya səviyyəsində yüksək zirvələrə qalxmışdır. İndi biz müstəqillik əldə etdikdən, sərhədlərimiz açıldıqdan sonra, xalqımız bütün ölkələrə azad, asudə gedib-gəlmək imkanı qazandıqdan sonra müqayisə edə bilir və görürük ki, harada nə var və Azərbaycanın elmi, xalqımızın təhsil səviyyəsi, mədəni səviyyəsi – bir sözlə, Azərbaycanın mədəniyyəti hansı səviyyədədir. Bunlar hamısı böyük iftixar hissi doğurur. Bütün bunlar milli sərvətimizdir, Azərbaycan Respublikasının dövlət müstəqilliyini təmin etmək üçün, müstəqil dövlət kimi yaşamağımız üçün böyük zəmindir.

O dövrlərdə yaranmış iqtisadi potensial da bizim böyük sərvətimizdir. Bu sərvət də Azərbaycanın tam sərbəst, heç bir dövlətdən asılı olmayaraq yaşamasına imkan verir. Güman edirəm ki, biz müstəqilliyimizi tam bərqərar etdikdən və qarşıda duran vəzifələri həyata keçirdikdən sonra ölkəmizin bu iqtisadi potensialının bəhrələrini Azərbaycanın hər bir vətəndaşı görəcək və bunun sayəsində şən, firavan yaşayacaqdır.

Ancaq müstəqillik əldə etdiyimiz gündən indiyə qədər biz böyük iqtisadi, sosial, siyasi böhran içərisində yaşayırıq. Bunu da deməli, etiraf etməliyik. Ona görə deməliyik ki, bu dövrü birlikdə, əl-ələ verərək müvəffəqiyyətlə keçməyə nail ola bilək. Bu böhranın səbəbi bir tərəfdən Ermənistanın Azərbaycana qarşı

təcavüzü, ikinci tərəfdən isə ölkəmizin daxilində gedən ictimai-siyasi proseslər, iqtisadiyyatdakı zəruri dəyişikliklər, eyni zamanda, şübhəsiz ki, daxili həyatımızda olan bəzi qarışıqlıqlar və bu qarışıqlığı salmaq istəyən bəzi qüvvələrdir. Bunlar hamısı bu günümüzün reallığıdır.

Ancaq mən bu bayram günündə tam qətiyyətlə deyə bilərəm ki, Azərbaycan xalqı keçmişdə bütün böyük sınaqlardan çıxdığı kimi, bu sınaqlardan da çıxacaq, bu dövrü də yaşayacaqdır, nə qədər itkilər, qurbanlar vermiş olsaq da, bu dövrü müvəffəqiyyətlə keçəcəyik və xalqımız geniş müstəqillik yolu ilə irəliyə gedəcəkdir. Mən buna tam əminəm və bu gün bunu bir daha bəyan edirəm.

Bizim ən böyük problemimiz Ermənistanın təcavüzüdür. Bu [459-460] təcavüz bizə böyük bəlalar gətirmişdir, böyük itkilər, şəhidlər vermişik. Azərbaycanın qəhrəman, cəsur oğulları öz Vətənini, torpağını qoruyaraq həyatlarını qurban vermişlər. Bir ildən çoxdur ki, atəş kəsilmişdir. Bu, bizim apardığımız siyasətin, danışıqların, beynəlxalq təşkilatlarla gördüyümüz işin, böyük dövlətlərlə əlaqələrimizin və onlarla apardığımız işlərin nəticəsidir. Bu, müsbət haldır və biz onu qiymətləndirməliyik. Ancaq xalqımızın verdiyi şəhidləri heç vaxt unuda bilmərik. Torpaqlarımızın müdafiəsi, suverenliyimiz, milli müstəqilliyimiz, dövlət müstəqilliyimiz uğrunda həyatlarını qurban vermiş adamları heç vaxt unutmamışıq və unuda bilmərik. Onların xatirəsi bu gün də qəlbimizdədir, onların ruhu bu gün də bizimlədir. Bu gün, bu bayram günündə də rica edirəm ki, Azərbaycan dövlətinin, torpaqlarımızın müdafiəsində canlarından keçmiş oğullarımızın, vətəndaşlarımızın xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Bir il davam edən atəşkəs onu sübut edir ki, Ermənistan ilə Azərbaycan arasındakı münaqişəni sülh yolu ilə həll etmək mümkündür. Biz bu yolla gedirik. Hərbi əməliyyatların bir daha başlanmasını istəmirik, sülh yolu ilə gedirik. Doğrudur, bu, bizim üçün ağır, çətin yoldur. İtkilər vermişik, ərazimizin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu ərazilərdən zorla qovulmuş bir milyondan artıq vətəndaşımız, soydaşlarımız qaçqın vəziyyətindədir. Çoxları çadırlarda yaşayır, ağır həyat tərzi keçirir. Bunlar hamısı bizim üçün ağır yaradır, sızıldayan, qaysaqlanmayan yaradır. Bu yaralarla yaşayırıq.

Ancaq bütün bu çətinliklərə, itkilərə, bizə dəymiş zərərlərə baxmayaraq, biz sülhsevər millət, xalqıq. Biz yenə də məsələni sülh yolu ilə həll etmək, danışıqlar aparmaq, bunları davam etdirmək istəyirik. Bu sahədə öz tərəfimizdən lazımi addımlar atmışıq və yenə atırıq.

Bilirsiniz ki, bu məsələnin həll olunması üçün keçən ilin dekabrında ATƏT-in Budapeşt Zirvə toplantısı ATƏT çərçivəsində danışıqlar aparılması, Minsk qrupunun fəaliyyəti haqqında qətnamə qəbul etmişdir. Minsk qrupunun fəaliyyəti nəticəsində Böyük Sülh Sazişinin əldə olunması nəzərdə tutulmuş və bundan ötrü münaqişə zonasına çoxmillətli beynəlxalq sülhü mühafizə qüvvələrinin göndərilməsi qərara alınmışdır. Minsk qrupu çərçivəsində danışıqlar gedir. Mosk[460-461]vada danışıqların bir mərhələsi başa çatmışdır, kiçik də olsa, müəyyən bir irəliləyiş var. Müəyyən ümidlər görünür. Danışıqların ikinci mərhələsi iyunun 15-də Helsinkidə başlanacaqdır. Biz bu danışıqlara hazırlaşırıq. Öz mövqelərimizi bilirik və prinsipial mövqelərimizdən heç vaxt geri çəkilməyəcəyik. Eyni zamanda biz əməli mövqe tuturuq, bəzi güzəştlərə də gedirik ki, məsələni sülh yolu ilə həll edək. Ancaq bütün bu məsələlərin həll olunmasında bir dəyişməz prinsip var. Bu, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının təmin olunması prinsipidir. Bu, bizim üçün əsas prinsipdir və ondan bir millimetr də olsun geriyə çəkilə bilmərik. Biz məsələnin bu prinsip əsasında sülh yolu ilə həllinə nail olmağa çalışırıq.

Bilirsiniz və hamıya məlumdur ki, Şuşa və Laçın rayonlarının azad olunması bu təkliflərin içərisində xüsusi yer tutur. Həmin rayonların, Dağlıq Qarabağ ətrafındakı işğal olunmuş rayonlarımızın azad edilməsi işin birinci mərhələsidir və biz bunun əsasında Böyük Sülh Müqaviləsinin bağlanmasına hazırıq. Bu işimizi davam etdirəcəyik. Sizi əmin etmək istəyirəm, şəxsən bir prezident kimi mən bu sahədə bütün imkanlardan istifadə edirəm və etməyə çalışıram. Biz bundan sonra da çalışacağıq ki, birillik atəşkəs əbədi olsun, bir daha müharibəyə qayıtmayaq, məsələlərimizi sülh yolu ilə həll edək. Ancaq Azərbaycanın suverenliyi, ərazi bütövlüyü təmin olunsun, müstəqilliyi möhkəmlənsin, qaçqın düşmüş vətəndaşlarımız öz yerlərinə, yurdlarına, obalarına qayıtsın və biz quruculuq işi ilə məşğul olaq. Bu, qarşımızda duran əsas vəzifədir və biz bunu həll edirik.

Dövlətçiliyimizi, müstəqilliyimizi möhkəmləndirmək üçün qarşımızda bir çox başqa mühüm vəzifələr də durur. Bunlarla da məşğul oluruq. Ümumiyyətlə götürsək, bu vəzifələr dövlətçiliyi möhkəmləndirmək üçün islahatlar keçirməkdən, iqtisadi, siyasi-ictimai sahələrdə islahatlar aparmaqdan, respublikamızda həqiqi demokratik dövlət qurmaqdan, cəmiyyətimizi tam demokratik bir cəmiyyətə çevirməkdən, insan hüquqlarının qorunmasını, adamların azad-asudə yaşamasını təmin etməkdən ibarətdir. Bu sahədə böyük işlər görülür və belə hesab edirəm ki, 1995-ci il bu vəzifələrin həyata keçirilməsi sahəsində çox həlledici il olacaqdır. Bunların çoxu bu il həll ediləcəkdir. [461-462]

İqtisadiyyatda yaxşı nəticələr əldə olunması yalnız və yalnız bu sahədə islahatların keçirilməsi ilə bağlıdır. Biz bu barədə qanunlar qəbul etmişik. İndi bunların icra edilməsi prosesi başlanmışdır. Bu proses sürətlə davam etdirilməlidir. Özəlləşdirmə proqramı hazırlanmışdır, biz ona baxırıq. Beynəlxalq Valyuta Fondunun, Dünya

Bankının nümayəndələri də bu günlərdə Parisdə həmin proqramın layihəsinə baxacaqlar. Biz bu layihəni müzakirə edəcək və özəlləşdirməyə gedəcəyik, iqtisadi islahatları aparacağıq.

Respublikamızda demokratiyanı bərqərar etmək, inkişaf etdirmək üçün demokratiyaya xas olan tədbirlərin hamısı həyata keçirilir və keçiriləcəkdir. Qarşıda duran əsas vəzifələrdən biri bu il parlament seçkilərinin keçirilməsidir. Payızda, güman edirəm ki, oktyabrda respublikanın yeni parlamenti seçiləcəkdir. Seçkilər tam demokratik prinsiplər, çoxpartiyalı sistem əsasında aparılacaqdır. Seçkilər elə keçiriləcək ki, hər bir vətəndaş bu tədbirdə tam azad, sərbəst iştirak edə bilsin, seçib-seçilmək hüququnu tam həyata keçirə bilsin. Buna hamı əmin ola bilər. Heç kəs buna şübhə etməsin. Biz bu yolla gedirik. Ona görə də heç bir əyintiyə, dəyişikliyə yol verməyəcəyik. Ona görə də heç kəs buna şübhə etməsin və gördüyümüz işləri ləkələməyə çalışmasın.

Bu il ümumxalq referendumu yolu ilə Azərbaycanın ilk demokratik Konstitusiyası qəbul olunacaqdır. İndi layihə hazırlanır, biz onu iki-üç dəfə müzakirə edəcəyik. Konstitusiya elə bir sənəddir ki, o, bir neçə il üçün yox, on illər üçün, bəlkə də, – əgər doğrudan da hüquqi, güclü bir dövlət olsa, – yüz illər üçün yazılır. Biz boynumuza tarixi məsuliyyət götürmüşük: ilk dəfə müstəqil Azərbaycan dövlətinin demokratik Konstitusiyasını yaradırıq. Bu, asan iş deyildir. Ancaq biz bunu edəcəyik, buna nail olacağıq. Şübhəsiz ki, bunu hamımız birlikdə, ümumxalq referendumu vasitəsilə edəcəyik.

İndi iqtisadiyyatda ağır, çətin bir dövr yaşayırıq. İslahatlar, iqtisadiyyatın sərbəstləşdirilməsi prosesi, şübhəsiz ki, bəzi çətinliklər, dəyişikliklər insanların həyat tərzində çətinlik yaradır. Kasıblıq artır, bəzi təbəqələr, xüsusən işsizlər, qaçqınlar çox ağır vəziyyətdə yaşayır. Biz bunların hamısını dərk edirik və bütün imkanlardan istifadə edərək həmin təbəqələrə kömək etməyə, ümumiyyətlə, xalqımızı, cəmiyyətimizi indiki ağır. mərhələdən çıxarmağa çalışırıq.

Bunun üçün biz beynəlxalq təşkilatlarla əməkdaşlıq edirik. [462-463] Azərbaycanda demokratik proseslərin, iqtisadiyyatda sərbəstləşdirmə prosesinin getməsi və demokratik islahatların həyata keçirilməsi beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuşdur. Onlar bunu görür, müşahidə edir və təsdiq edirlər. Ona görə də biz bu beynəlxalq təşkilatlar vasitəsilə artıq müəyyən yardımlar almağa nail olmuşuq. İndi bizim böyük bir nümayəndə heyətimiz – baş nazir, bir neçə nazirimiz Parisdədir. Beynəlxalq Valyuta Fondunda, Dünya Bankında, Avropa Birliyində Azərbaycanın təkliflərini irəli sürür, müzakirə edirlər. Güman edirəm ki, bunlar da öz müsbət nəticələrini verəcəkdir.

Biz iqtisadiyyatı, idxal-ixrac əməliyyatlarını sərbəstləşdirərək, ölkəmizi bütün dünya iqtisadiyyatına tam açaraq, xarici investisiyaların gəlməsinə şərait yaradaraq eyni zamanda müəyyən çətinliklərlə rastlaşırıq. Bu çətinlikləri aradan qaldırmaq üçün beynəlxalq təşkilatların, o cümlədən maliyyə təşkilatlarının köməyinə ehtiyacımız var. Onlar da bu köməyi Azərbaycanda məhz islahatların həyata keçirilməsi, xarici investisiyaların ölkəmizə gəlməsi üçün edirlər və edəcəklər. Güman edirəm ki, bunlardan da istifadə edərək Azərbaycan iqtisadiyyatını yeni bir mərhələyə qaldıracağıq.

Keçən ilin sentyabrında imzalanmış neft müqaviləsi buna əyani sübutdur. Artıq onu "Əsrin müqaviləsi" adlandırmışlar. Bir neçə gün öncə Azərbaycanda neft-qaz sənayesinə həsr olunmuş ikinci beynəlxalq sərgi keçirildi. Sərgidə dünyanın 165 iri şirkəti iştirak edirdi. Onlar dünyanın 13 böyük dövlətini təmsil edirdi. Bu, bizim ictimai, siyasi və iqtisadi həyatımızda böyük bir hadisədir.

Bilirsiniz ki, bu sərgi sadəcə şirkətlərin iştirakı ilə yox, böyük dövlətlərin, Azərbaycanın neft yataqlarına maraq göstərən dövlətlərin yüksək vəzifəli nümayəndələrinin iştirakı ilə keçdi. ABŞ-ın, Böyük Britaniyanın, Norveçin, Türkiyənin energetika nazirləri, Qazaxıstanın energetika nazirinin müavini bu sərgidə iştirak etdilər, çıxış etdilər, sözlərini dedilər, Azərbaycanın bu günü və gələcəyini, ölkəmizin neft sənayesinin problemlərini bərabər müzakirə etdik.

Mən dünən Minsk şəhərində idim. Orada Müstəqil Dövlətlər Birliyi ölkələrinin dövlət başçılarının növbəti toplantısı keçirilirdi. Bir çox mühüm məsələlər müzakirə edildi, bu məsələlər barədə qərarlar qəbul olundu. Respublikamızın müstəqilliyinə zərər gətirməyən qərarlarla biz razılaşırıq və onları təs[463-464]diq edirik, imza atırıq. Ümumiyyətlə, Müstəqil Dövlətlər Birliyi ilə əməkdaşlığın Azərbaycan üçün çox böyük əhəmiyyəti var. Biz bu əməkdaşlığı qiymətləndiririk.

Dünən orada MDB ölkələrinin dövlət başçıları, prezidentləri ilə mənim görüşlərim, danışıqlarım oldu. Biz çox faydalı söhbətlər apardıq. O cümlədən, xüsusən Rusiya Federasiyasının prezidenti cənab Boris Yeltsinlə, Rusiyanın baş naziri cənab Viktor Çernomırdinlə bizim çox maraqlı və əhəmiyyətli söhbətlərimiz, danışıqlarımız oldu. Bunun nəticəsində Rusiyanın energetika naziri Yuri Şafranik sabah respublikamıza gəlir. Biz onunla da neft sənayesi, xüsusən Xəzər dənizində neft yataqlarının istismarı məsələlərini birlikdə müzakirə edəcəyik.

Əziz həmvətənlər, görürsünüz, Azərbaycan Respublikasının müstəqilliyi hər sahədə özünü göstərir. Görürsünüz, Azərbaycan Respublikasının bütün dünya investisiyası üçün açıq olması, ölkəmizin bütün dövlətlərlə bərabər hüquqlu, bərabər səviyyədə danışıq aparmaq imkanı əldə etməsi və bu danışıqlar nəticəsində iqtisadiyyatımızın qarşılıqlı əlaqələrinin yaradılması belə böyük hadisələrə gətirib çıxarır. Yenə də qeyd edirəm, bu günlərdə Bakıda keçirilmiş beynəlxalq neft-qaz sərgisi böyük hadisədir. Böyük dövlətlərin nazirləri ilə bizim görüşlərimiz böyük hadisədir. Bunların hamısı bir daha sübut edir ki, Azərbaycan müstəqil dövlətdir, öz

sərvətlərinin, taleyinin, öz ərazisinin sahibidir və öz taleyini özü istədiyi kimi həll edir. Bundan artıq nailiyyət ola bilməz. Bu, XX əsrdə ən böyük nailiyyətimizdir. Bizim borcumuz odur ki, bu nailiyyəti göz bəbəyi kimi qoruyaq və saxlayaq.

Almaniyanın iqtisadi əməkdaşlıq və inkişaf naziri Karl-Diter Şpranger dünən ölkəmizə, Azərbaycana gəlmişdir. O, bu gün bu salondadır, bayramımızı bizimlə bölüşür, bayramımızda iştirak edir. Bu gün onunla çox maraqlı danışıqlarımız və söhbətlərimiz olub. O, Almaniyanın prezidentindən bizə təbrik, eyni zamanda əlaqələrimizi bir daha təsdiq edən məktub gətirib. O, bu gün bayramımızda iştirak etmək arzusunda olub. Ona görə də biz onu buraya dəvət etmişik. Güman edirəm ki, biz hamımız onu burada dost ölkənin nümayəndəsi kimi salamlamalıyıq.

Bir daha qeyd edirəm, bunlar hamısı həyatımızda yeni bir keyfiyyət şəraiti yaradıb. İnsanlarımızın çoxu həmin insanlar[464-465]dır. İndi gənclər meydana çıxır. Görün, indi həyatımızda nə qədər böyük dəyişikliklər əmələ gəlib, nə qədər böyük, maraqlı hadisələr baş verir. Biz bunları qiymətləndirməliyik, qorumalıyıq, saxlamalıyıq. Bunun üçün də müstəqilliyimizi saxlamaq, qorumaq üçün daxilimizdə olan vəziyyətə həmişə diqqət yetirməli, fikir verməliyik.

Son iki il ərzində Azərbaycan xalqı, vətəndaşlarımız, respublikamız üç dəfə vətəndaş müharibəsinin astanasında olub. Bilirsiniz ki, müharibə edən bir dövlət, ölkə, Ermənistanın təcavüzünə məruz qalan ölkə, xalq üçün bu, çox ağır bir haldır. Torpaqlarının 20 faizi işğal olunmuş bir ölkə üçün iki il müddətində üç dəfə vətəndaş müharibəsinin astanasına gəlib çıxmaq böyük bir bəladır. Biz bunu deməliyik, etiraf etməliyik. Respublikamızda daxili sabitliyi pozmaq, daxili həyatı qarışdırmaq istəyən adamlara qarşı daha prinsipial, daha ciddi yanaşmalıyıq.

Biz bu vətəndaş müharibələrindən xilas olduq. 1993-cü ilin iyun ayında, – bu günlərdə iki ili tamam olacaq, – qan töküldü, vətəndaş müharibəsi başlandı. Bunun qarşısı alındı. Belə düşünmək olardı ki, insanlar hansı partiyaya, təşkilata, qrupa, hansı cəmiyyətə mənsubluqlarından asılı olmayaraq dərk etməli idilər ki, artıq buna yol vermək olmaz. Bunun üçün şərait də yarandı. Ancaq bəziləri yenə də öz təxribatçı hərəkətlərindən, xalqa xəyanət niyyətlərindən əl çəkmədilər.

Bundan sonrakı hadisələr sizə məlumdur: 1994-cü ilin oktyabrında, bu ilin mart ayında dövlət çevrilişinə cəhd. Bilirsiniz, bu il mayın 23-də Bakıda "Xəzərneftqaz – 95" beynəlxalq sərgisi açılarkən ABŞ-ın energetika naziri xanım Hezl o'Liri ABŞ prezidenti cənab Uilyam Klintonun mənə məktubunu gətirdi. Bu məktub mətbuatda dərc olunub, siz onu oxumusunuz. Çox dəyərli, olduqca dəyərli məktubdur. Mən bu məktubdan ancaq iki-üç kəlməni sizə demək istəyirəm, O yazır ki, mən 1992-ci ildən bəri Azərbaycanı vəba xəstəliyi kimi bürüyən daxili siyasi qarmaqarışıqlığı narahatlıqla izləmişəm. Bunu Amerika Birləşmiş Ştatlarının prezidenti yazır. Mən bu barədə fikirlərimi dəfələrlə bəyan etmişəm, ancaq bu sözü tapıb deyə bilməmişəm. Bu, doğrudan da vəba xəstəliyidir. Ona görə ki, bu xəstəlik sirayət edir, yayılır, insanların əxlaqını pozur. Bizi doğrudan da gətirib qarmaqarışıqlığa çıxarır.

1993-cü ilin iyun ayında da, ondan sonrakı dövrdə də, 1994-cü ilin oktyabrında dövlət çevrilişinə cəhd göstəriləndə də, [465-466] 1995-ci ilin martında xəyanətkarlar tərəfindən Azərbaycanda dövlət çevrilişinə cəhd olunanda da xalqımız öz müdrikliyini nümayiş etdirdi. Azərbaycan xalqı birləşdi, birliyini göstərdi və təxribatçı qüvvələrə, vəzifə hərislərinə, heç bir əsas olmadan, zor gücü, silah gücü ilə, banditliklə, quldurluqla hakimiyyəti ələ keçirməyə çalışan adamlara xalq öz gücünü, öz qüdrətini, mənəviyyatını göstərdi. Bütün bu cəhdlər məhz xalqın gücü ilə dəf edildi, biz bunların qarşısını xalqın gücü ilə aldıq.

Xalqımız əzab-əziyyətlərə, çətinliklərə dözmüş xalqdır. Bəzən isə içindən özü-özünü didən xalqdır. Ancaq eyni zamanda əyilməz xalqdır. Məhz xalqın birliyi, müdrikliyi nəticəsində biz üç dəfə vətəndaş müharibəsinin qarşısını ala bildik. Ona görə də mən bu gün bütün Azərbaycan xalqına, xüsusən Vətənini sevən, vətənpərvər, Azərbaycanın müstəqilliyini qorumağa çalışan, onun keşiyində duran adamlara, ölkəmizin müdrik insanlarına, ziyalılarına, ağsaqqallarına, respublikamızın müstəqilliyini qoruyan qəhrəman oğullarına, bütün xalqımıza öz təşəkkürümü və minnətdarlığımı bildirirəm. .

Bu dövlət çevrilişi cəhdlərinin qarşısı alındı. İnsanların bəziləri cəmiyyətdən təcrid olunub. Bəziləri həlak olub, bəziləri qaçıb gizləniblər. Bir qismi Moskvaya yığışıb özlərinə sığınacaq tapıb. O mənada yox ki, Moskvada kimsə onlara sığınacaq verib, – bu şəhər çox böyük şəhərdir. Onlar da həmin imkanlardan istifadə ediblər. Ancaq bütün bunlar onlar üçün, heç kəs üçün heç bir nəticə verməyəcəkdir. Bunlar faydasız bir şeydir.

Azərbaycan dövləti möhkəm dövlətdir. Biz Azərbaycanın dövlətçiliyini qorumağa qadirik və bundan sonra da qoruyacağıq.

Günahkarlar, xəyanətkarlar, cinayətkarlar ədalət məhkəməsində öz cəzalarını alacaqlar. Orada-burada qaçıb gizlənənlər, bizə hədə-qorxu gələnlər, yenidən haradasa aranı qarışdırmaq istəyənlər, – onların bəziləri terrorçuluq yolu ilə gedir, – dövlət terroru etmək yoluna düşən adamlar anlasınlar, dərk etsinlər, bilsinlər: onların getdiyi yol çox yanlış, xəyanətkar yoldur, bu yoldan çəkinsinlər. Mən martın 16-da əfv fərmanı vermişdim və elan etmişdim ki, kim bu cinayətkar əməllərindən əl çəkərsə, onları əfv edirəm. Bunu bu gün də deyirəm: bu hərəkətlərdən əl çəksinlər. Ermənistanın təcavüzünün Azərbaycan xalqının, respublikamızın başına gətirdiyi bəlalar bəsdir. [466-467] Bu, bizim üçün nəinki bu gün, sabah bəladır, gələcək nəsillərimiz üçün də

böyük bəladır. Müharibə o qədər dağıntıya, insan tələfatına səbəb olmuş, ailələr o qədər şəhid vermişdir ki, bunların yarası hələ bundan sonra on illər də sızıldayacaq, qaysaqlanmayacaqdır.

Ona görə də insanlar başa düşsünlər ki, respublikamız artıq böyük bir dövlətdir. Bu dövləti biz öz gücümüzlə, vətənpərvər insanların gücü ilə qoruyuruq və qoruyacağıq. Bir prezident kimi mən hər bir vətəndaşın təhlükəsizliyinin, hüquqlarının qorunmasının təminatçısıyam. Ona görə də heç vaxt yol verməyəcəyəm ki, o cür cinayətkarlar haradasa qruplaşsınlar, yenidən təxribat etsinlər. Oradan-buradan səslər gəlir ki, guya haradasa nə isə edəcəklər. Kim isə haradasa çıxış edir, söz deyir. Bunlar əhəmiyyətsiz, mənasız şeylərdir. Onların ən çirkin işi dövlət terrorudur. Bu da bizi qorxutmur. Bunu hamı bilməlidir.

Mən tam əminəm ki, biz respublikamızda əmin-amanlıq yaratmışıq. Əminəm ki, bu əmin-amanlıq bundan sonra günü-gündən daha da möhkəmlənəcək. İctimaiyyətimizdə milli həmrəylik, vətəndaş həmrəyliyi günü-gündən inkişaf edəcək, möhkəmlənəcək. İnsanlar bir-birini daha yaxşı anlamağa başlayacaqlar, daha da yüksələcəklər, daha da ucalacaqlar. Mən əminəm ki, biz bu çətin və ağır yolu birlikdə, bərabər keçəcəyik.

Azərbaycanın bütün vətəndaşları dövlətimiz üçün, bir prezident kimi mənim üçün çox əzizdir. Hər bir vətəndaşın taleyi mənim üçün əzizdir, məni narahat edir, maraqlandırır, düşündürür. Məni xalqımızın taleyi narahat edir, düşündürür. Eyni zamanda mən əminəm ki, biz hamımız birləşib bu çətin yolu məharətlə, şərəflə, uğurla keçəcəyik.

Mən əminəm ki, müstəqil Azərbaycan Respublikası yaşayacaq və demokratiya prinsipləri, insan azadlığı, demokratik iqtisadiyyat sahəsində başqa dövlətlər üçün nümunə olacaqdır. Nə qədər ağır və çətin olsa da biz buna nail olacağıq. Hamımız birlikdə, əl-ələ verərək, bir-birimizə kömək edərək, bir-birimizə dayaq olaraq bu yolu keçəcəyik və buna nail olacağıq.

Sizin hamınızı bu böyük bayram münasibətilə bir daha təbrik edirəm, hər bir Azərbaycan vətəndaşına səadət, xoşbəxtlik arzu edirəm. İşlərinizdə uğurlar arzulayıram. Azərbaycan Respublikasına azad, müstəqil dövlətimizə xoşbəxt gələcək arzu edirəm. Sağ olun. [467]

## RESPUBLİKA MİLLİ QVARDİYASININ QƏRARGAHINDA AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANI ƏFQAN HÜSEYNOVUN BÜSTÜNÜN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*28 may 1995-ci il*

Hörmətli bacılar və qardaşlar!
Hörmətli həmvətənlər, hörmətli dostlar!

Bu gün Azərbaycanın Respublika günüdür, bayram günüdür. Bu bayram münasibətilə sizi ürəkdən təbrik edirəm, hər birinizə səadət və xoşbəxtlik arzulayıram. Bütün Azərbaycan xalqına sülh, əmin-amanlıq və xoşbəxtlik diləyirəm.

Bu bayram günündə biz buraya Azərbaycanın Milli Qəhrəmanı Əfqan Hüseynovun xatirəsini yad etmək üçün, onun qəhrəmanlığına hörmət və ehtiramın rəmzi olan büstünün açılması münasibətilə toplaşmışıq. Mən bu toplantıda iştirak etməyimdən çox məmnunam. Çox məmnunam ki, Azərbaycan torpaqlarının müdafiəsi uğrunda canını qurban vermiş, şəhid olmuş Əfqan Hüseynovun büstünün açılması mərasimində iştirak etmək mənə nəsib olub.

Bu hadisə – Əfqan Hüseynovun büstünün açılması münasibətilə sizi təbrik edirəm. Ümidvar olduğumu bildirirəm ki, Milli Qəhrəman Əfqan Hüseynovun xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır. Bu büstün açılması bir daha nümayiş etdirir və etdirəcək ki, Azərbaycan xalqı əyilməzdir, yenilməzdir, qəhrəmandır. Əminəm ki, xalqımız öz ərazi bütövlüyünü təmin edəcək, öz torpaqlarını azad edəcək və Əfqan Hüseynov kimi qəhrəmanların qanı yerdə qalmayacaq.

Əfqan Hüseynovun həyat yolu haqqında burada onun müəllimləri və silahdaşları çox gözəl danışdılar. Doğrudan da, Əfqan Hüseynovun həyatı çox ibrətamizdir. Azərbaycanda hər bir kəs belə bir həyat yaşaya bilsə, xoşbəxt olar. Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır. Əfqan Hüseynov kimi qısa bir ömür sürmüş insanın həyatı doğrudan da nümunədir, hər bir adam üçün ibrət məktəbidir, hər bir gənc üçün təcrübə, mənəviyyat mənbəyidir. [468-469]

Əfqan Hüseynov orta məktəbin 8-ci sinfini bitirəndən sonra Azərbaycanda yaranan və bu gün bizim üçün daha böyük əhəmiyyətli olan C. Naxçıvanski adına hərbi məktəbə daxil olmuşdur. Oranı bitirdikdən sonra Bakıdakı ali hərbi məktəbə daxil olub, onu qurtardıqdan sonra isə hərbi xidmətdə olub, rütbələr alıb, öz əsgərlik, zabitlik borcunu şərəflə yerinə yetirib. Vətənimiz ağır vəziyyətə düşdüyü vaxt, Ermənistan silahlı qüvvələri ölkəmizə təcavüz etdiyi zaman, respublikamızın müdafiəsi zəruri olduğu bir dövrdə Əfqan Hüseynov fikirləşmədən, heç bir tərəddüd etmədən qəti qərar qəbul edib, cəbhəyə gedib, döyüşüb. Azərbaycan torpaqlarını – Füzulini də, Qubadlını da, Laçını da qorumaq uğrunda vuruşub və döyüşdə həlak olub, əbədiyyətə qovuşub. Bu, çox böyük və şərəfli yoldur.

Burada dedilər ki, Əfqan Hüseynov ailə qurub, övladı olub. Övladının bir ayı tamam olmamış həlak olub. Həqiqətən bu, yüksək vətənpərvərlik, vətəndaşlıq, qəhrəmanlıq nümunəsidir. Bax, bunlara görə Əfqan Hüseynovun qəhrəmanlığı, şücaəti, onun büstü qarşısında mən bu gün Azərbaycanın prezidenti kimi baş əyirəm. Allah ona rəhmət eləsin. Azərbaycanın belə qəhrəmanları, şəhidləri ilə bütün xalqımız kimi mən də fəxr edirəm.

Əfqan Hüseynovun ailəsi, qohum-əqrəbası var, yəqin ki, onlar buradadırlar. Mən onlara minnətdarlığımı və təşəkkürümü bildirirəm ki, belə bir övlad yetişdiriblər, vətəndaş tərbiyə ediblər, bu ailədən belə bir insan çıxıb. Əfqan Hüseynovun qəhrəmanlığı və qəhrəmancasına şəhid olması həmin ailədəki mühiti əks etdirir. Mən onlara təşəkkür edirəm. Əfqan Hüseynovun ailəsinə, qohum-əqrəbasına cansağlığı, xoşbəxtlik arzulayıram. Əmin ola bilərsiniz ki, Azərbaycan dövlətinin və xalqının qayğısı həmişə sizin üzərinizdə olacaqdır.

Siz övladınızı, doğma adamınızı itirmisiniz. Əfqan Hüseynov başqalarına nisbətən xeyli ucalıb. Siz də mənəviyyatca ucalmısınız. Bu, böyük sərvətdir. Bu, bütün dünyada olan sərvətlərin hamısından böyük sərvətdir. Hamımız bilməliyik ki, məhz bu cür sərvətlərə malik olan adamlar daim cəmiyyətimizin hörmət və ehtiramını qazanacaqlar. Bizim cəmiyyətdə məhz bu cür sərvətə malik olanlar ən zəngin adamlardır. Ona görə də belə insanlara, ailələrə mən daim hörmət etmişəm və hörmət edəcəyəm. Mən onlara bu gün də öz hörmət və ehtiramımı bildirirəm. [469-470]

Bu gün biz Azərbaycan dövlətinin Milli Qvardiyasının qərargahındayıq. Milli Qvardiyanın şəxsi heyəti buradadır. Mən onların hamısı ilə görüşəcəyəm. Milli Qvardiya Azərbaycan dövlətçiliyinin qorunması, Azərbaycan dövlətçiliyinin rəmzi olan prezidentinin qorunması üçün yaradılıb. Milli Qvardiya öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir və əmin olduğumu bildirmək istəyirəm ki, bundan sonra da layiqincə yerinə yetirəcək. Milli Qvardiya xüsusi hərbi hissədir. Ancaq bizim artıq böyük milli ordumuz var. Ordumuz Azərbaycan torpaqlarının keşiyində durur. Milli ordumuz döyüşlər aparmış, qurbanlar, şəhidlər vermişdir.

Mən bu gün böyük iftixar hissi ilə demək istəyirəm ki, milli ordumuzun yaranması haqqında biz vaxtilə düşünmüşük. Nəinki düşünmüşük, on illər bundan əvvəl tədbirlər görmüşük və onlar indi öz nəticəsini verir. Xatirimdədir, 1970-ci ildə, 25 il bundan öncə mən Azərbaycanda əvvəllər heç vaxt oxşarı, analoqu olmayan ixtisaslaşdırılmış hərbi orta məktəb yaratmaq haqqında fikir irəli sürdüm. Bu məktəbi yaratdıq. Doğrudan da mənim həyatımda gördüyüm işlər içərisində bu addımı, bu işi, bu təşəbbüsü o dövrdən artıq 25 il keçəndən sonra şəxsən özüm çox yüksək qiymətləndirirəm.

Mən belə bir addım atarkən, təşəbbüs irəli sürərkən, o vaxt Sovetlər İttifaqının çərçivəsində belə bir qeyri-adi qərar qəbul edərkən təkcə o günləri yox, Azərbaycanın gələcəyini düşünürdüm. Mən çox istəyirdim ki, Azərbaycanın milli ordusu olsun. Əgər o vaxt milli ordu yaratmaq mümkün deyildisə, Sovetlər İttifaqı ordusunun tərkibində Azərbaycanın güclü zabit korpusu, zabitləri olsun. Mən istəyirdim ki, Azərbaycan zabitləri Sovetlər İttifaqı ordusunun tərkibində özlərinə layiq yer tutsunlar, respublikamızın mövqeyini müdafiə etsinlər və Azərbaycanın təsirini bütün Sovetlər İttifaqına yaya bilsinlər. Mən istəyirdim ki, zabitlər korpusumuz olsun, çünki bu, Azərbaycanın gələcəyi üçün lazım idi. O vaxt bunu dərk edə bilməyən adamlar da, buna adicə bir hadisə, tədbir kimi baxanlar da indi yəqin artıq bilirlər ki, bu addımı atarkən nə qədər böyük uzaqgörənlik olmuşdur.

Deməliyəm ki, o vaxt biz məktəbi yaradanda onun əleyhinə Moskvadan, Sovetlər İttifaqının mərkəzindən çox etirazlar edirdilər. Buraya bir neçə dəfə komissiyalar göndərdilər, yoxladılar, bunun qeyri-qanuni olması barədə qərarlar çıxardılar. Təkliflər verdilər ki, mənim bu qərarım Sovetlər İttifaqında [470-471] mövcud olan qərarlara ziddir, uyğun deyil, onu ləğv etmək lazımdır. O vaxt mənə deyirdilər ki, Suvorov adına, Naximov adına məktəblər var, əgər siz gənclərinizi, uşaqlarınızı, hərbi təhsilə cəlb etmək istəyirsinizsə bu məktəblərdən istifadə etmək olar, belə bir ixtisaslaşdırılmış hərbi məktəbin yaranması isə lazım deyil. Ancaq mən öz fikrimdən dönmədim. Heç bir təzyiq mənə güc gələ bilmədi. Mən tutduğum işi davam etdirdim. İxtisaslaşdırılmış bu hərbi məktəb – Azərbaycanın böyük sərkərdəsi, generalı Cəmşid Naxçıvanskinin adını daşıyan məktəb yaşadı, inkişaf etdi, kadrlar hazırladı.

İndi mən hərbi hissələrdə, döyüş bölgələrində, cəbhədə olarkən zabitlərlə rastlaşdım. Çoxları mənə yanaşır, xatırlayırlar ki, həmin C. Naxçıvanski adına hərbi məktəbdə oxuyublar, orada mənimlə görüşüblər. Doğrudan da mən həmin məktəbi nəinki yaratdım, hər il, bəlkə ildə bir neçə dəfə oranı ziyarət edirdim. O məktəbin yaşaması, maddi-texniki bazasının yaradılması, inkişaf etməsi, genişlənməsi üçün lazım olan bütün tədbirləri görürdüm, heç bir şeyi əsirgəmirdim. Ona görə də mən orada oxuyan və təhsil alan gənclərin hamısı ilə görüşmüşdüm. Elə bir gənc ola bilməz ki, onunla görüşməyim. Çünki mən oraya hər il gedirdim. Hər dəfə 13, 14, 15 yaşında oğlanlar orada hərbi paltarda, hərbi intizamla, əsgəri addımlarla bizim önümüzdən keçib gedəndə bəzən gözlərimdən yaş gəlirdi. Mən onlara baxdıqca düşünürdüm ki, nə qədər gözəl bir iş görmüşük və bu iş Azərbaycanın gələcəyi üçün nə qədər lazımdır!

İndi, 25 il keçəndən sonra biz bunun nəticələrini görürük, hər yerdə görürük. Bu hərbi məktəbin hazırladığı, yetirdiyi, təhsil, tərbiyə verdiyi Əfqan Hüseynov sonra Ali Hərbi Məktəbdə öz təhsilini davam etdirib, Azərbaycan xalqına sədaqətlə, mərdliklə, ləyaqətlə xidmət edib, torpaqlarımızın müdafiəsi üçün döyüşüb, yaralanıb, son nəfəsinədək vuruşub və cəbhədə həlak olub.

Ona görə də mən bu gün çox böyük həyəcan keçirirəm. Bilirsiniz, bu görüşlər məndə yeni-yeni çox xoş hissiyyatlar yaradır. Məni bir tərəfdən sevindirir, ancaq insanların həlak olması məni kədərləndirir. Eyni zamanda bu, həyatımızın reallığıdır.

Biz müstəqil Azərbaycan Respublikası qururuq. Dövlətimizi, torpaqlarımızı qorumaq lazımdır. Torpaqlarımızı qorumaq üçün şübhəsiz ki, şəhid də verməliyik. Əgər qan tökülməsə o [471-472] Vətən vətən deyil. Şəhid olmasa o Vətən müstəqil dövlət ola bilməyəcək. Bunlar təbiidir. Hər bir itki, hər bir vətəndaşımızın şəhid olması qəlbimizi sıxır, bizdə kədər hissi doğurur. Eyni zamanda şəhidlik səviyyəsinə çatmış insanların qəhrəmanlığı bizdə qürur hissi, iftixar hissi doğurur.

Mən çox sevinirəm ki, gənc nəslimiz bu əhval-ruhiyyədə tərbiyə olunur. Burada Əfqan Hüseynovun müəlliməsi çıxış etdi. Çox gözəl danışdı. Mənəviyyatca nə qədər zəngin insandır! Məktəb belə məktəbdir, belə insanlar tərbiyə edir. Məni ən çox sevindirən, eyni zamanda, sizə açıq deyirəm, çox kövrəldən qızların buradakı çıxışları oldu. Şübhəsiz ki, Əfqan Hüseynova həsr olunan şeirlər çox məzmunludur, təsirlidir. Sağ olsun məktəb, sağ olsun bu şeirləri yazanlar! Demək, onlar Vətən qayəsi ilə, hissiyyatları ilə yaşayırlar, şəhidlərimizi unutmurlar. Burada qızlar necə böyük qəlblə, hissiyyatla şeirlər söylədilər, dedilər! Onlar bu sözləri bizə adicə çatdırmadılar, öz daxili hissiyyatlarını bizə nümayiş etdirdilər. Nə qədər gözəldir, nə qədər təsirlidir, nə qədər sevindiricidir! Balaca bir qız ingilis dilində şeir deyir və onu nə qədər ürəkdən, nə qədər candan, nə qədər hissiyyatla deyir! Bilirsiniz, bu məni sevindirir. Bu, hər birimizdə yeni-yeni hissiyyatlar yaradır. Bu onu sübut edir ki, Azərbaycan xalqı dərin mənəviyyata malik xalqdır, qəhrəman xalqdır. Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır.

Bu onu göstərir ki, biz Vətənimizin ərazi bütövlüyünü təmin etməyə qadirik. Torpaqlarımızı azad edəcəyik. Torpaqlarımızdan didərgin düşmüş vətəndaşlarımız, soydaşlarımız öz yerlərinə, yurdlarına, elinə-

obasına qayıdacaqlar. Azərbaycanın ərazi bütövlüyü, suverenliyi tamamilə bərpa olunacaq, qorunacaq, saxlanılacaqdır. Bunu birinci növbədə biz özümüz edəcəyik. Öz qüdrətimizlə, zəkamızla, ağlımızla, düzgün siyasətimizlə və xalqımızın iradəsi, qəhrəmanlığı ilə edəcəyik. Əziz bacılar və qardaşlar, əziz həmvətənlər, sizinlə birlikdə edəcəyik. Biz bu çətinliklərdən sizinlə birlikdə çıxacağıq. Sizinlə birlikdə Azərbaycan Respublikasının suverenliyini, müstəqilliyini təmin edəcəyik.

Bayram münasibətilə, Əfqan Hüseynovun büstünün açılması münasibətilə sizi bir daha təbrik edirəm, hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram. [472]

## "VƏTƏNƏ, DÖVLƏTƏ, XALQA SƏDAQƏT ANDI" MİNİATÜR KİTABININ TƏQDİMAT-SƏRGİSİNDƏ ÇIXIŞ

*M. F. Axundov adına Azərbaycan Dövlət Kitabxanası*

*3 iyun 1995-ci il*

Hörmətli xanımlar və cənablar, hörmətli dostlar! Bu gün biz buraya – Azərbaycan Respublikasının mədəniyyət mərkəzlərindən biri olan Mirzə Fətəli Axundov adına Dövlət Kitabxanasına gəlmişik. Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir.

Mən vaxtilə bu kitabxanaya dəfələrlə gəlmişəm. Amma bu gün kitabxananın astanasından keçərkən çox böyük hörmət və ehtiram hissi duyuram. Kitabxanaya, burada çalışan insanlara hörmət və ehtiramımı bildirmək istəyirəm. Bugünkü hadisə çox əlamətdardır. Burada Azərbaycanın miniatür kitablarının sərgisi keçirilir. Zənnimcə, biz Azərbaycanda belə bir sərginin ilk dəfə şahidi oluruq. Azərbaycanda kitab çapının tarixi böyükdür. Yaxın keçmişdə Azərbaycan Respublikası onun 400 illiyini qeyd etmişdir. Keçmiş dövrlərdə məzmununa və formasına görə müxtəlif, çox maraqlı nəfis kitablar buraxılmışdır. Bu nəşrlər dünyanın bir çox ölkələrində də Azərbaycanı təmsil edir, onun haqqında biliklər verir. Ancaq Azərbaycanda miniatür kitab nəşrinin tarixi çox qısadır. Mən çox məmnunam ki, bu gün biz Azərbaycanda yazıçılarımızın, şairlərimizin və ictimai-siyasi xadimlərimizin kitablarının miniatür nəşrini də görürük. Şübhəsiz ki, bu, mədəniyyətimiz, kitab nəşrimiz üçün çox əlamətdar hadisə, böyük nailiyyətdir. Bununla əlaqədar mən sərginin təşkilatçılarını, Azərbaycan Respublikasının "Kitab" Cəmiyyətini, buraya toplaşanları təbrik edir və əmin olduğumu bildirmək istəyirəm ki, bu iş, təşəbbüs gələcəkdə də davam etdiriləcəkdir.

Burada mənim Azərbaycan prezidenti vəzifəsinə başlayarkən andiçmə mərasimində nitqimin də miniatür nəşri nümayiş etdirilir. Bu gün həmin kitabı mənə təqdim etdilər. Mən buna [473-474] çox məmnunam. Doğrudan da, mən nitqləri söyləyirəm, lakin bunların kitab şəklində çıxmasını o qədər də gözləmirəm, hesab edirəm ki, haradasa dərc olunur. Ancaq indi belə bir təşəbbüs göstərmişlər. Güman edirəm ki, ölkəmiz, respublikamız üçün, o cümlədən mənim üçün də çox əhəmiyyətli olan andiçmə mərasimində söylənilmiş nitq nəfis şəkildə buraxılmışdır və bu, mənim üçün də əlamətdar hadisədir. Bu işin təşəbbüsçülərinə, kitabı nəşr edənlərə – ilk növbədə Azərbaycan Respublikasının "Kitab" Cəmiyyətinə və onun rəhbəri Zərifə xanım Salahovaya təşəkkür edirəm. Eyni zamanda Amerikanın "Stark enterprayz" firmasının bu işdə fəaliyyətini, təşəbbüsünü qiymətləndirir və təşəkkürümü bildirirəm.

Burada Zərifə xanım xoş sözlər söylədi və arzularını bildirdi. Güman edirəm ki, bunlar bizim ümumi arzularımızdır və hamımız çalışmalıyıq ki, bu arzular yerinə yetsin, Azərbaycanda kitab nəşri inkişaf etsin, miniatür kitablar kolleksiyası da genişlənsin. "Stark" firmasının nümayəndəsi, həmvətənimiz cənab Nisanovun nitqində məni sevindirən cəhət ondan ibarətdir ki, Azərbaycan vətəndaşları, burada böyümüş, yaşamış, onunla bağlı olan insanlar Azərbaycanı unutmurlar və indi buradan uzaqlarda olsalar da, ölkəmizə kömək edir, Azərbaycanla əlaqələrini saxlayırlar.

Nisanovlar ailəsi Bakıda məşhur ailədir. Onların bir neçə nəsli mənim xatirimdədir. Güman edirəm ki, siz də Nisanovlar ailəsindənsiniz. Mən bu ailənin keçmişini də bilir, onları tanıyıram. İndi belə başa düşdüm ki, Nisanovlardan biri Amerika Birləşmiş Ştatlarında yaşayır, ancaq doğma Vətəni kimi Azərbaycanı unutmamışdır və mənsub olduğu firma ilə bərabər ölkəmizə kömək edir, iqtisadi və başqa əlaqələr qurur. Mən bu təşəbbüsü bəyənir və ümidvar olduğumu bildirmək istəyirəm ki, bu iş davam edəcək, Azərbaycanda doğulub-böyümüş, indi ondan kənarda olan adamlar Azərbaycanı unutmayacaq, doğma Vətən kimi həmişə yad edərək ölkəmizlə əlaqələrini genişləndirəcəklər.

Bu, indi bizim üçün çox lazımdır. Çünki biz Azərbaycanı dünyaya açmışıq, indi Azərbaycanın həm ərazisi, iqtisadiyyatı, həm də intellektual potensialı dünya üçün açıqdır. İqtisadi və ticarət əlaqələrimizdə tam açıqlığı təbliğ edirik və bunu genişləndirməyə çalışacağıq. Bayaq qeyd etdiyim addımlar, böyük olmasa da, xarici ölkələrlə, dünya iqtisadiyyatı, dünya mədəniyyəti ilə birləşməyə, əlaqələri inkişaf etdirməyə olan [474-475] meyllərimizə kömək edir. Ona görə də mən bu təşəbbüsü bəyənir və güman edirəm ki, o, gələcəkdə də davam edəcəkdir.

Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil, elm almışıq, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti kimi bunu əsas vəzifələrimdən biri sayıram.

Doğrudur, indiki ağır sosial-iqtisadi böhran dövründə, respublikamızın iqtisadiyyatında yaranmış çətinliklərlə əlaqədar və başqa ölkələrlə əlaqələrimizin məhdudlaşdığı bir vaxtda nəşriyyat işi də çox çətinliklərlə qarşılaşır. Bu, təbiidir. Ancaq biz bu çətinliklərin qarşısını almalıyıq, bunun üçün yeni-yeni yollar axtarmalıyıq. Həyatımız dəyişir, hər bir şey dəyişir. Biz bu dəyişikliklər prosesinin içindəyik. Keçmişdə nəşriyyat işi dövlətin əlində idi, onun tərəfindən maliyyələşdirilirdi və bunun sayəsində Azərbaycanda həmin sahə çox genişlənmişdi. İndi, dövlətin imkanları məhdudlaşdığı, sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə getdiyimiz bir vaxtda, özəl bölməyə geniş imkanlar yaratmağa çalışdığımız və Azərbaycanda, kiçik də olsa, özəl bölmənin meydana çıxdığı bir vaxtda biz onun bütün imkanlarını nəşriyyat işinin canlandırılmasına, inkişaf etdirilməsinə, xüsusən kitab nəşrinin genişləndirilməsinə cəlb etməli, yönəltməliyik.

Bu sahədə başqa ölkələrdə, xüsusən Rusiyada yaxşı təcrübə var. Məsələn, Rusiyada bəzi firmalar, şirkətlər uşaqlar, gənclər üçün, ümumiyyətlə cəmiyyət üçün, o cümlədən məktəblilər üçün lazım olan kitabların nəşrini öz üzərinə götürür, bu işə sponsorluq edirlər. Mən bir neçə nümunə ilə tanış oldum və deyə bilərəm ki, keçmişdəkindən də yaxşı kitablar buraxırlar.

İndi respublikamızda xeyriyyəçilik fəaliyyəti genişlənir. Arzu edərdim ki, bizim iş adamları, imkanlı sahibkarlar bütün sahələrdə xeyriyyəçilik fəaliyyəti göstərdikləri kimi, bu işdə – kitabların yazılması və nəşri sahəsində də köməklərini əsirgəməsinlər. Zənnimcə, bu, xeyriyyəçilik sahəsində ən yaxşı iş ola bilər. Mən iş adamlarını buna dəvət edirəm. Şübhəsiz ki, dövlətin imkanlarından da daha səmərəli istifadə olunmalıdır. Ancaq, bayaq dediyim kimi, indi biz mülkiyyət formasını də[475-476]yişdiririk, bazar iqtisadiyyatı yolu ilə gedirik, özəl bölməyə geniş imkanlar yaradırıq və bundan sonra da yaradacağıq. Ona görə də bunların hamısı ümummilli əhəmiyyət kəsb edən kitab nəşrinə səfərbər edilməli, cəlb olunmalıdır. Ümidvaram ki, belə də olacaqdır.

Buradakı sərgidə Azərbaycanın görkəmli yazıçı və şairlərinin, alimlərinin əsərlərinin miniatür nəşrləri nümayiş etdirilir. Bir daha qeyd edirəm ki, bu, əlamətdar hadisədir. Yazıçı və şairlərimiz, alimlərimiz, mədəniyyət xadimlərimiz böyük potensiala malikdirlər. Onların indiyədək yazdıqları əsərlər Azərbaycan xalqının təhsillənməsində, biliklənməsində, elm və mədəniyyətimizin, mənəviyyatımızın inkişafında öz rolunu oynamışdır. Ancaq xalqımız Azərbaycanın elmi, mədəni potensialından, ümumiyyətlə intellektual potensialından bundan sonra daha çox bəhrələnməlidir. Ona görə də çalışmalıyıq ki, belə yaradıcı adamlar öz fəaliyyətlərini davam etdirsinlər. Onlara kömək etməliyik, şərait yaratmalıyıq.

Eyni zamanda yazılan kitabların nəşr olunmasının qayğısına qalmalıyıq. Bilirəm ki, yazanlar və yazmaq istəyənlər çoxdur. Bu adamlar – alimlər, yazıçılar, mədəniyyət xadimləri yazdıqlarının bir çoxunu çap etdirə bilmirlər. Bu çətinliyi hamımız dərk etməliyik. Ancaq bununla kifayətlənmək olmaz. Hər bir çətinlikdən çıxış yolu tapmalıyıq, özü də bunu birlikdə axtarmalıyıq. Dövlət də bütün imkanlardan istifadə edəcəkdir. Ancaq ayrı-ayrı cəmiyyətlər, təşkilatlar, iş adamlarımız da bu işə qoşulmalıdırlar. Arzu edərdim ki, bu tövsiyənin əməli nəticələri olsun.

Bugünkü mərasim münasibətilə hamınızı bir daha təbrik edirəm. Belə hesab edirəm ki, bu, təkcə mənim nitqimin miniatür nəşrinin təqdimatına yox, ümumiyyətlə, respublikamızda miniatür kitabların sərgisinə həsr olunmuşdur. Bu sərgini təbrik edirəm və çox böyük məmnuniyyətlə onunla tanış olmaq istəyirəm.

Mən indi kitabxanaya xeyli kitab bağışladım. Güman edirəm ki, bunlar fondda öz yerini tutacaqdır. Bunlar cəmiyyətimiz üçün çox gərəkli olan, ayrı-ayrı mövzulara həsr edilmiş kitablardır. Bunlar mənim özümün deyil, müxtəlif müəlliflərin kitablarıdır və kitabxananın böyük xəzinəsində öz yerini tutarlar. Zənnimcə, gələcəkdə bu təşəbbüs də davam edə bilər. Elə imkanı olan ayrı-ayrı adamlar kitabxanamızı zənginləşdirmək üçün yəqin ki, ona kitablar bağışlayacaqlar. Bilirəm, bizim bu [476-477] kitabxananın çox böyük fondu var. Kitabxananın direktoru bu barədə məlumat verdi. Ancaq kitabxana elə bir yerdir ki, gərək daim onun fondu genişlənsin. Çünki dünya dəyişir, yeni əsərlər, kitablar yaranır. Bunlar insanlara yeni biliklər, yeni məlumat gətirir. Ona görə də bizim bu mərkəzi kitabxanamız gərək daim yeni-yeni nəşrlərlə təmin olunsun. Vaxtilə biz bunu planlı şəkildə edirdik. Dövlət planı var idi, heç kəsi narahat etmədən bu kitabxananı yaradıb inkişaf etdirmişdik və o, indi də fəaliyyət göstərir. Ancaq gərək indi buraya hərə öz payını versin. Azərbaycanın bütün ictimaiyyətini bu xeyirxah işə dəvət edirəm.

Bağışladığım kitabları nümayiş etdirmək istəmirəm. Ancaq bizim üçün müqəddəs olan bir kitabı da bağışlamaq istəyirəm. Bilirsiniz ki, mən Səudiyyə Ərəbistanına rəsmi səfərə getmişdim. Səfər zamanı biz İslam aləminin müqəddəs yerlərini ziyarət etdik və bundan çox məmnun olduq. Orada – İslam dininin mərkəzi olan Məkkədə mənə Quranın nüsxələrini bağışlamışlar. Çox nəfis şəkildə buraxılmış bu nüsxələrdən birini də Dövlət kitabxanasına verirəm.

Hamınıza bir daha hörmət və ehtiramımı bildirirəm. Sizinlə, xarici ölkələrin burada iştirak edən nümayəndələri, səfirləri ilə görüşdüyümə görə məmnun qaldığımı qeyd edirəm. Sağ olun. [477]

## AŞURA GÜNÜ İLƏ ƏLAQƏDAR KEÇİRİLƏN MƏRASİMDƏ ÇIXIŞ

*Təzəpir məscidi*

*9 iyun 1995-ci il*

Hörmətli bacılar, qardaşlar!
Azərbaycanın əziz övladları!

Bu gün müsəlmanlar üçün matəm, Aşura günüdür. Bu gün biz dinimizə, adət-ənənələrimizə sadiq olaraq Təzəpir məscidinə toplaşmışıq və haqq-ədalət yolunda şəhid olan Həzrət Hüseynin xatirəsini yad edirik. Bu münasibətlə mən sizə, bütün Azərbaycan müsəlmanlarına başsağlığı verirəm və hamınıza səbir diləyirəm. Allahdan onu diləyirəm ki, hər bir azərbaycanlıya, hər bir müsəlmana səbir versin.

Bu gün biz haqq yolunda şəhidliyin müqəddəs olduğunu qeyd edirik. Xalqımız əsrlər boyu özünün yaşaması, torpağının qorunması, haqq, ədalət üçün şəhidlər vermişdir. Son illərdə də Azərbaycan xalqı şəhidlər verir. Vətən, torpaq yolunda şəhid olan hər bir Azərbaycan vətəndaşı, müsəlman əbədiyyətə qovuşur, necə ki, bizim müqəddəs imamlarımız əbədiyyətə qovuşublar. Ona görə də biz bu tarixi günü qeyd edərkən, eyni zamanda şəhidlərin müqəddəsliyini qeyd edirik və onlara dua oxuyuruq.

Son illər xalqımız Ermənistanın təcavüzü ilə əlaqədar olaraq çox şəhidlər verib. Azərbaycanın qəhrəman övladları – oğlanları, qızları həyatlarını qurban veriblər, şəhid olublar. Biz bu gün onların ruhunu yad edirik. Onlar bizim bu günümüzün, gələcək nəsillərimizin həyatı üçün, Vətənimizin, torpaqlarımızın qorunması üçün şəhid olublar. Biz bu gün onların ruhuna dua oxuyuruq. Mən bu gün bütün şəhid ailələrinə Allahdan səbir diləyirəm, Allahdan bütün şəhidlərə rəhmət diləyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın ərazi bütövlüyü, torpaqlarımızın bütövlüyü uğrunda mübarizəmiz müvəffəqiyyətlə sona çatacaq, şəhidlərimizin, verdiyimiz qurbanların xatirəsi qəlbimizdə əbədi yaşayacaq, ölkəmizin ərazi bütövlüyü təmin olunacaq, işğal olunmuş torpaqlarımız azad [478-479] ediləcək, həmin torpaqlardan qaçqın düşmüş bacı və qardaşlarımız öz obasına, evinə, yerinə-yurduna qayıdacaqlar.

Bu gün, bu müqəddəs gündə siz də, biz də, Allahdan bunu diləyirik. Bu gün şəhidlərin xatirəsini yad edərək Allaha dua edirik ki, xalqımıza daha da səbir, güc, qüdrət versin ki, torpaqlarımızın azad olunmasına, müstəqil Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsinə nail olaq, ölkəmiz azad bir dövlət kimi yaşasın.

İndi dinimiz azaddır. Hər bir azərbaycanlı, hər bir müsəlman öz dininə itaət etməkdə sərbəstdir. Bu Məhərrəmlik ayında, xüsusən son günlərdə dinimizə itaət, etiqad, məscidlərdə, o cümlədən bu gün Təzəpir məscidində keçirilən mərasim onu göstərir ki, müstəqil dövlətimizdə din azaddır və hər kəs öz vicdanının hökmünü, istəyini ifadə edə bilər. Xalqımızın belə azad, sərbəst şəraitdə yaşaması bizim üçün böyük əsasdır.

Bu gün burada, sizin qarşınızda bir daha deyirəm ki, biz Azərbaycanın müstəqilliyi yolunda bundan sonra da çalışacağıq və var qüvvəmizi əsirgəməyəcəyik. Ölkəmizin ərazi bütövlüyünün təmin olunması üçün bütün qüvvələrimizi cəmləyib müstəqil Azərbaycanı yaşadacaq, onun ərazi bütövlüyünü təmin edəcəyik. Müstəqil Azərbaycan Respublikası şəhidlərin, verdiyimiz qurbanların həyatının, yəni onların xatirəsinin əbədi olması üçün yaşamalıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır. Biz bunların hamısını edəcəyik. Bunlara nail olmaq, bunları əldə etmək üçün biz Allaha dua edərək, bu gün öz müsəlmanlıq borcumuzu yerinə yetirərək, eyni zamanda birləşməli, əl-ələ verməliyik, xalqımızın birliyini, həmrəyliyini təmin etməliyik.

Allahdan bir daha rəhm diləyirəm. Allah şəhidlərə rəhmət eləsin. Mən Azərbaycanda xalqımızın, hər bir müsəlmanın dinə sərbəst etiqad etməsi imkanlarından məmnun olduğumu bildirmək istəyirəm.

Allah rəhmət eləsin. [479]

**Kitabın hazırlanmasında iştirak edənlər:**

**Tofiq Babayev, Qəzənfər Zalıyev, Müzəffər Maşayev, Arif Məmmədov,
Kamil Muxtarov, Azər Fərzəliyev.**

**Rəssamı *Fuad Fərəcov***

**Redaktorları *Tofiq Babayev, Kamil Muxtarov***

**Texniki redaktoru *Zoya Nəcəfova***

**"Tayms" qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı № 1. Şərti çap vərəqi 30,7. Uçot nəşr vərəqi 30,5. Tirajı 5000. Sifariş 156. Müqavilə qiyməti ilə.**

**Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi.
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, – 370005, Hüsü Hacıyev küç. 4.
Yığılmışdır "Şərq-Qərb" mətbəəsində. Bakı, Aşıq Ələsgər küç. 17.**

**"Qismət" Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.**